MƏHƏRRƏM CƏFƏRLİ

# AZƏRBAYCAN DASTANLARININ STRUKTUR POETİKASI

BAKI – 2010

**AMEA Naxçıvan Bölməsi Rəyasət Heyətinin 1 aprel 2010-cu il tarixli, 4/6 nömrəli qərarı (protokol №4) ilə çap olunur.**

**RƏYÇİLƏR:** **İsa HƏBİBBƏYLİ,**
əməkdar elm xadimi, akademik;
**Azad NƏBİYEV,**
filologiya elmləri doktoru,
professor, AMEA-nın müxbir
üzvü;
**Yavuz AXUNDLU,**
filologiya elmləri doktoru,
professor;
**Hüseyn İSMAYILOV**,
filologiya elmləri doktoru,
professor;
**İsrafil ABBASOV**,
filologiya elmləri doktoru,
professor.

**ELMİ REDAKTORU:** **Kamran ƏLIYEV**,
filologiya elmləri doktoru,
professor;
**Asif HACIYEV**,
filologiya elmləri doktoru,
professor.

**Məhərrəm Cəfərli.** Azərbaycan dastanlarının struktur poetikası. Bakı. – 2010. – 204 səh.

Filologiya elmləri doktoru, professor M.Cəfərlinin dastanlarımızın strukturuna, mifoloji genezisinə, janr özünəməxsusluğuna dair tədqiqatları məzmunu baxımından çox zəngindir. Alimin uzun illər gərgin və səmərəli tədqiqatlarının nəticəsi olan bu monoqrafiya Azərbaycan dastanşünaslığına ciddi töhfədir. Ümumtürk dastançılıq ənənəsində dastanlarımızın yeri, genezisi, folklor mətni kimi strukturu, obrazlar sistemi, dastan-mif əlaqələri və başqa məsələlər elmi-nəzəri dəlillərlə şərh edilir, mühüm elmi qənaətlər əldə olunur.

---------------------------------------------------------------------------

Bu kitabın nəşrində maddi köməyinə görə milli təəssübkeş, xeyirxahlığı, qayğıkeşliyi ilə çoxlarının sevgisini qazanan, əsl Allah adamı **Elşad Əkbər oğlu Əliyevə** müəllif öz minnətdarlığını bildirir, ona uzun ömür, işlərində yeni uğurlar arzulayır.

C $\frac{4603000000}{N-098-2010}$ Qrifli nəşr

© М.Ъяфярли, 2010

## PROFESSOR MƏHƏRRƏM CƏFƏRLİ: ŞƏXSİYYƏT VƏ MİLLİ YADDAŞ

«Folklor – xalqın yaddaşıdır: fərd yaddaşı, etnos yaddaşı, millət yaddaşı və xalq yaddaşı... Milli yaddaşda millətin tarixi bütöv xalqın taleyindən keçdiyi kimi, hər bir fərdin taleyindən də keçib gələcəyə gedir... Folklor xalqın taleyidir: hər bir etnosun taleyi onun milli yaddaşa nə dərəcədə bağlılığından asılıdır. Yaddaşına qayıda bilən xalq onu millətlər içində millət edən zirvəyə qalxa bilir...» (H.İsmayılov, S.Rzasoy. Azərbaycan folkloru və folklorşünaslığı epoxalar qovşağında (ön söz) / Azərbaycan folkloru külliyyatı, I cild. B., 2006, s.5).

Əslində, çağdaş Azərbaycan folklorşünaslıq düşüncəsinin XXI əsrin başlanğıcında dediyi bu sadədən də sadə həqiqət fəlsəfi anlamda öz varlığını hər hansı məzmun və formada milli yaddaşda tapa bilən insanların həyat həqiqəti, sarsılmaz yaşam formuludur. Özünü yaddaşın bir parçası, yaddaşda həkk olunmuş ulu tarixin hərəkət ünsürü, zaman içində zaman daşıyıcısı olaraq dərk edən insanlar öz içini, dünyanı özünə şifrələyən daxili həqiqətini, ömrünün rahatlıq mənbəyini, ruhani-mənəvi bütövlüyünü tapmışdır. Bu, insanın ömrü boyu axtardığı (və çox vaxt da tapa bilmədiyi) «itiyini» tapmağa bənzəyir. Ulu Tanrı bizlərin hər birini öz tale «itiyimizlə» yaradıb: kimlərsə bu itiyin həqiqi ünvanını – fərdin, millətin, tarixin və zamanın qovuşduğu, birləşdiyi «milli yaddaş» qapısını tapa bilib.

Keçərək də cismini və ruhunu sakitləşdirən həyat həqiqətini, şəxsiyyət tamlığını və öz ömür yolunu tapıb. Belə insanlar milli yaddaşın ulu zaman yolçularıdır. Bütün titullarına rəğmən cismində və ruhunda «insan» adlı bir «həqiqəti» yaşadan ***Məhərrəm Allahqulu oğlu Cəfərli – Məhhərrəm müəllim:***

– zaman içində zaman, həqiqət içində həqiqət, tale içində tale yaşadan ***ulu şəxsiyyət,***

– ulu yaddaş tariximizin ***yorulmaz yolçusu,***

– minillərə sığmayan yaddaş tariximizin ***yaddaşlılar yoldaşı;***

– cismini milli yaddaş yolunda qurban verib, ruhunu ona qovuşduranların ***sirdaşı,***

– öz həyat həqiqətini, mənəvi və ruhani səadətini milli yaddaş yolunun yolçuluğunda tapanların ***sirdaşı,***

– insan olub insanlığa yol arayanların ***insandaşı,***

– fikir, məslək, əqidə acılıqları içində yaşayanların ***fikirdaşı,***

– milli yaddaş tariximizin «Məhərrəm Cəfərli» kitabında elmi və həyati həqiqətləri arayanların ***nurdaşıdır...***

Varlığı sözün məna dünyasının bütün qatlarında yalnız «əziz» sözü ilə dolğun məna kəsb edən bilən Əziz Məhərrəm müəllim haqqında «nə isə» yazmaq, həm də bu «nə isəni» «əlamətdar» bir hadisə adına yazmaq bizə həm asan, həm də çətin görünür...

Məhərrəm müəllim ona bağlı olanların, şəxsiyyət heyranlılarının yaddaşında həmişə özünün nurlu çöhrəsi, mehriban, gülərüz aynası, insanlara

münasibətdə «həqiqəti» bütün hallarda «həqiqi» olan sevgisi ilə boy verir...

Belə şəxsiyyətdən nəinki yazmaq, hətta yazmaq fikrinə düşməyin özü bir ruhani rahatlıqdır...

Ancaq yazmaq çox çətindir. Bütün şəxsiyyət ölçüləri ilə tamlaşmış, bitkinləşmiş, şəxsiyyət dünyası özünün bütün göstəriciləri ilə bütövləşmiş bir insandan yazmaq asan deyil. İlk baxışdan sadə görünsə də, bu sadəliyin şəxsiyyətin bütün hallarda mürəkkəbliyə və zənginliyə müncər olunan mahiyyətinin təzahür gözəlliyi, həyat estetizmi olması üzə çıxır.

Çətinliyin bütün mahiyyəti də elə bunda – şəxsiyyəti bütün hallarda bütövlüyə müncər olunan bu elmi və mənəvi simanın təsviri üçün baxış bucağının düzgün seçilməsinin müşkülə dönməsindədir. Məhərrəm Cəfərli, onun şəxsiyyətinə hansı bucaq altında baxılırsa baxılsın, bütün hallarda bütöv, sabit, müdrik obrazda görünür. Özünün bütün davranışları ilə Azərbaycan insanının minilləri haqlayıb gələn müdrikliyini bu gün bütün daxili-mənəvi bütövlüyü və saflığı ilə yaşadır.

O, vüqarlı və müdrik şəxsiyyətdir. Hər iki keyfiyyyət cizgisi öz qaynağı ilə bu fani dünyanın maddiyyat, mövqiyyat, mənsəbiyyat məqamlarına yox, mənəviyyat dünyasına bağlanır. Məhərrəm müəllim, həyat adlanan məkanın hər bir guşəsində eyni mənəvi halların daşıyıcısı olan dəyişməz insandır. Məhz bu keyfiyyətləri onu bütün yaşda olan

müasirlərinin dostuna, sirdaşına, pənahdarına, yolgöstərən müəllliminə çevirmişdir.

Məhərrəm Allahqulu oğlu Cəfərli 5 yanvar 1946-cı ildə Azərbaycanın qədim və ulu diyarı Naxçıvanın Xok kəndində anadan olmuşdur.

Əslində, onun şəxsiyyət kimi hörgüsünün bütün bünövrə daşları bu kənddə – insanların sərt qışın cəfasına da, bərəkətli yayın səfasına da eyni dərəcədə şükr etdiyi xeyir-bərəkətli məkanda qoyulmuşdur. İnsanı sevməyin, zəhmətkeşə hörmətli nəzərlərlə baxmağın, cəfakeşi dəyərləndirməyin, dosta arxa durmağın, köməksizə əl uzatmağın, namərdə, müxənnətə yazıq nəzərlərlə baxmağın, bütün insanların yaşamaq, çörək sahibi olmaq, onunla bərabər bu havadan udub, sudan içmək hüququnu onların Allahdan gələn haqqı kimi qəbul etməyin məktəbini Məhhərəm Cəfərli məhz bu kənddə keçmişdir. Və bu kənd onun üçün bütün hallarda fiziki və mənəvi şəxsiyyətinin yaşam qaynağı olaraq qalmaqdadır. O, harada olursa olsun, vaxtaşırı kəndinə dönməli, ətrafından heç vaxt əskik olmayan ailə, uşaq, dost, yoldaş əhatəsindən bir müddətə qopub, Xokun gecələri, gündüzləri ilə təkbətək qalmalı, atalı-analı, uşaqlıq xatirələrinə dönməli, o çətin, tabaqlarda çörəyin qəhətə çıxsa da, qəlblərdə insanlığın, rəhmin və mərhəmətin heç vaxt itmədiyi günlərin həsrəti ilə gözləri dolmalı, o günlərin xeyir-bərəkətinin bu günlərdə hələ də itmədiyinə görə Allaha şükr etməlidir...

Orta məktəbi bitirib Bakıya – Azərbaycanın məhəlli adət və ənənələrinin, folklor mühitlərinin,

lokal-coğrafi kültür areallarının, etno-linqvistik avazların qovuşaraq ortaqlaşdığı, ümummilli səviyyəyə qalxdığı mədəniyyət mərkəzəinə gəlir. Ermənilər və ruslarla dolu olan bu şəhərdə Xokdan gətirdiyi mənəviyyatın bir zərrəsini belə bada verməyib, əsil azərbaycanlı olmağın məktəbini keçir: 1964-1969-cu illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakultəsində ali təhsil alır. Həmin dövrdə bu fakültədə Azərbaycan dilçiliyi və ədəbiyyatşünaslığının çox möhtəşəm simaları dərs keçirdilər. O, bu gün bizlər üçün adları və yaradıcılıqları , sözün həqiqi anlamında, yalnız bir şirin xəyal ola bilən görkəmli alimlərdən dərs alır, Azərbaycan dilinin və ədəbiyatının vurğununa çevrilir.

1969-1970-ci illərdə hərbi xidmətdə olub fiziki-mənəvi bərkimə məktəbini keçir. 1970-ci ilin noyabrından 1971-ci ilin iyul ayınadək Xok kənd orta məktəbində Azərbaycan dili və ədəbiyyat müəllimi işləyir. 1971-ci ildən 1989-cu ilədək Naxçıvan Dövlət Pedaqoji İnstitutunda metodist, müəllim və baş müəllim vəzifələrində çalışır.

Azərbaycan dili və ədəbiyatının ana nəhrinə – folklora olan sevgisi M.Cəfərlini Azərbaycan Elmlər Akademiyasının Folklor şöbəsinə gətirir və o, burada 1984-cü ildə “Osman Sarıvəlli və xalq yaradıcılığı” mövzusunda namizədlik dissertasiyası müdafiə edərək alimlik dərəcəsi alır.

1997-2003-cü illərdə Ali Diplomatiya Kollecinin Naxçıvan Bölməsini rəhbərlik edir.

2003-cü ildə “Azərbaycan məhəbbət dastanlarının poetikası” mövzusunda dissertasiya müdafiə edərək filologiya elmləri doktoru alimlik dərəcəsini alır, daha sonra professor olur.

2004-cü ildən bugünə kimi Naxçıvan Dövlət Universitetinin Ədəbiyyat kafedrasının professoru qalmaqla, AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutu Folklorşünaslıq şöbəsinin müdiri vəzifəsində çalışır.

Prof. M.Cəfərli özünün elmi və pedaqoji fəaliyyəti ilə təkcə Azərbaycanda deyil, Türkiyədə və İranda da məşhurdur. Monoqrafiyaları İranda və Türkiydə nəşr olunaraq onu folklor, mili mənəviyyat, etnik-mədəni düşüncə sistemi kimi aktual problemlər üzrə mütəxəssis kiim tanıtmışdır.

Təsadüfi deyil ki, 2004-cü ildə Azərbaycanda “Qızıl qələm”, 2008-ci ildə Türkiyə Cümhuriyyətinin paytaxtı Ankarada “Türk xalq kültürü və folkloruna xidmət» ödülü ilə mükafatlandırılmış, 2009-cu ildə isə Avrasiya Dostluq Qurumunun mükafatına layiq görülmüşdür.

1998-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü olan M.Cəfərlinin 4 övladı, 30 kitabı, 160-dan çox məqaləsi var. Folklorşünas alim, görkəmli pedaqoq olan bu şəxsiyyətin bütün «var-dövləti» onun ailəsi, vətəni, dövlətçiliyi və yaradıcılığıdır.

Prof. M.Cəfərli elə bir alim tipidir ki, onun üçün yaradıcılıq həyat tərzi, özünü yaşatmağın üsulu, şəxsiyyətinin özünügerçəkləşdirmə mexanizmidir. O, müəllimliyindən və alimliyindən zövq alır. Və bu zövq

onun üçün heç bir halda başqa bir səviyyə ilə əvəz olunmur. Həyatda çox mənsəbləri, çox imkanları olub. Lakin bu mövqeləri o, bütün hallarda elmə nə dərəcədə yaxınlıq imkanları baxımından dəyərləndirib. Onu folklor dünyasından, nağıllardan, dastanlardan, bayatılardan... uzaq salan məqamları və mənsəbləri heç vaxt qəbul etməyib. Taleyinə həmişə şükr edir ki, heç vaxt ömrünün qayəsi olan işdən – müqəddəs folklorşünaslıq peşəsindən uzaq düşməyib.

Folklorşünaslıq peşəsi M.Cəfərlinin simasında özünəməxsus hadisədir. O – müəllim folklorşünasdır. Əlbəttə, burada söhbət heç bir halda diplom alıb müəllim işləməkdən getmir. M.Cəfərli öz şəxsində müəllim adının tarixi-mənəvi dəyərlərini gəzdirən şəxsiyyətdir. O «sovet müəllimi» statusunun bütün qüsurlu obrazı içində insanlığını, xeyirxahlığını, başlıcası, yolgöstərənliyini qoruyub saxlaya bilib. Heç təsadüfi deyildir ki, böyüklü-kiçikli çoxsaylı dostlarının onu həmişə böyük sevinclə qarşıladığı paytaxt Bakıda hamı ona «Məhərrəm müəllim» deyə müraciət edir. Prof. M.Cəfərlinin «müəllim» adı təkcə onun özünə yox, dostlarına da bir mənəvi qürur, şərəf gətirir.

Müəllimlik prof. M.Cəfərli üçün sadəcə peşə yox, hətta yaşının və başının bu səviyyəsində belə öyrəndiyi, təbliğ etdiyi məktəbdir. 1996-cı ildə çap etdirdiyi «Ali məktəbdə lirik əsərlərin öyrədilməsi məsələləri», 1997-ci ildə çap etdirdiyi «Azərbaycan dastan və nağıllarında fiziki tərbiyə məsələləri» (N.Orucəliyevlə birgə) kitabları müəllim-

pedaqoqluğun sirlərinə həsr etdiyi illərin canlı sübutudur. Bu xüsusda prof. M.Cəfərlinin C.Hacıbəyli və A.Hacıyevlə birgə 2000, 2003-cü illərdə çap etdirdikləri «Nurlu ömürlər» ikicildliyi xüsusi hadisədir. Bu kitablarda ömrünün ən qiymətli illərini, canını və ağlının bütün gücünü təhsilin inkişafına vermiş görkəmli müəllimlərdən bəhs olunur. İkicildliyin adı təsadüfi olmayıb, özü nur saçan Müəllim-Professor M.Cəfərlinin, əslində, bütün ömrü boyu müəllimlikdən nur aldığının bariz göstəricisidir.

Prof. M.Cəfərli bir alim kimi «folklor» dünyasına onun ayrılmaz paradiqması olan «ədəbiyyat» aləmindən gəlib. 1981-ci ildə «Osman Sarıvəlli və aşıq yaradıcılığı» adlanan kitabdan başlanan ədəbiyyatşünaslıq yolu 1984-cü ildə «Xalqla bağlılıq», 1995-ci ildə «Abdulla Sur və əsərləri» (prof. C.Qasımovla birgə), 1996-cı ildə «Xalqla bağlı sənətkar», 1999-cu ildə «Şeirimizin qoşa qanadı» kitablarından və çoxsaylı məqalələrindən keçərək gələcəyə gedir.

M.Cəfərlinin müəllimliyi heç bir halda onun alimliyindən qıraqda təsəvvürə və təhlilə gəlmir. O, həm Azərbaycan folklorşünaslığında, həm də dünya türkologiyasında türk epos düşüncəsinin genetik strukturu və prosessual dinamikası üzrə tanınmış mütəxəssisdir.

Adətən, folklorşünas alimlərin fəaliyyətində toplayıcılıqla tədqiqatçılığın nisbəti bərabər olmur. Prof. M.Cəfərli folklorşünaslıq fəaliyyətinə toplayıcı kimi başlasa da, görkəmli tədqiqatçı alimə çevriləndə

də bu sahədəki fəaliyyətini heç vaxt dayandırmayıb. Və bu, hər şeydən əvvəl onunla bağlıdır ki, onun toplayıcılığı, əslində, folklora vurğunluğunun ifadəsi kimi heç vaxt dayanmayan, fasiləsiz hadisədir. 1970-ci ildən Xok kənd orta məktəbində müəllim kimi fəaliyyətə başlayanda bu tarix onun həm də folkloru toplamaq tarixi olur. O gündən bu günə qədər keçən 40 il ərzində heç vaxt toplayıcılıq fəaliyyətinə bir an da olsun ara verməyib. Azərbaycanda tək-tük zəngin toplama arxivi olan alimlərdəndir. Təsadüfi deyildir ki, artıq Azərbaycan mədəniyyəti tarixində fundamental hadisəyə dönmüş «Azərbaycan folkloru antologiyası»nın 1994-cü ildə çapdan çıxmış ilk cildində – «Naxçıvan folkloru» kitabında M.Cəfərli zəngin və sanballı folklor mətnləri ilə təmsil olunur.

Qeyd etmək lazımdır ki, alimin toplayıcılıq fəaliyyəti onun 2004-cü ildə AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutu Folklorşünaslıq şöbəsinin müdiri vəzifəsinə təyin olunmasından daha geniş məzmun və forma kəsb etmişdir. Bu istiqamətdə əsas toplayıcılarından biri, eyni zamanda redaktoru və ön sözünün müəllifi olduğu «Azərbaycan nağılları»nın birinci cildini (B., 2005), həmtoplayıcı və həmtəritbçisi olduğu «Yol gələr Ordubada» (2005), əsas toplayıcılarından və iki tərtibçidən biri olduğu «Naxçıvan folkloru» (B., 2007), həmtoplayıcı və həmtərtbçisi olduğu «Naxçıvan bayatıları» (B., 2009) kitablarını, sözün həqiqi mənasında, Azərbaycan çap folkloru xəzinəsinə verilmiş töhfələr hesab etmək olar.

Prof. M.Cəfərlinin bir alim kimi folklorşünaslıq yaradıcılığı, əsasən, Azərbaycan eposu ətrafında mərkəzləşir. O, müasir dövrdə Azərbaycan eposunun öyrənilməsinə layiqli töhfə vermiş görkəmli alimdir. Azərbaycan folklorşünaslığında M.Cəfərlinin eposşünaslıq fəaliyyəti xüsusi mərhələ – dastanşünaslığın özəl səhifəsi kimi qiymətləndirilir. Görkəmli Azərbaycan alimi prof. H.İsmayılov prof. İ.Abbaslının milli dastanlarımızın təsir dinamikası haqqındakı əsərinə həsr etdiyi ön sözdə yazır: «Azərbaycan folklorşünaslığında Azərbaycan dastanlarının öyrənilməsi dastanşünaslıqda üç elmi əsərlə biri-birindən fərqlənir:

1) Azərbaycan xalq dastanları – M.H.Təhmasib;

2) Eposun poetikası – K.V.Nərimanoğlu;

3) Azərbaycan məhəbbət dastanlarının poetikası – M.Cəfərli.

Birinci əsər (M.H.Təhmasib – S.R., R.B.) dastanlar haqqında faktları toplayır, sistemləşdirir və onları eksperimental laboratoriyaya gətirir. İkinci əsər (K.V.Nərimanoğlu – S.R., R.B.) əməliyyatın bütün mexanizmlərini hazırlayır, üçüncü əsər (M.Cəfərli – S.R., R.B.) isə bilavasitə materiallar üzərində iş aparır. Məhəbbət dastanlarına struktur təhlil metodunun düzgün tətbiqi, analizin düzgün istiqaməti ona (prof. M.Cəfərliyə – S.R., R.B.) invariant axetipi, məntiqi-semiotik invariantı, oradakı informasiyanın bütövlüyünü və dastanın nisbi üç bölümünə [şeirlə olan başlanğıc hissə (ustadnamə), dastan mətninin nəsr və şeirlərlə olan əsas hissəsi (dastanın özü) və son

hissə: bu son hissədə aktual üzvlənmə baş verir – sonluq ya toyla («duvaqqapma»ya uyğundur), ya da faciə ilə («cahannamə»yə uyğundur) bitir. uyğun məntiqi formulunu (mühakimə-aprobasiya-məntiqi sonluq) müəyyənləşdirməyə imkan vermişdir. M.Cəfərlinin tədqiqatı Azərbaycan dastanlarının janr özünəməxsusluğunu aydınlaşdırır, digər folklor janrları ilə sərhədinin və kəsişən nöqtələrinin dəqiqləşdirilməsi istiqamətindəki işlərin genişləndirilməsi tələbini qoyur» (H.İsmayılov. Türk eposunun dastan informasiyası erməni mənbələrində (ön söz) / Azərbaycan dastanlarının yayılması və təsiri məsələləri. B., 2007, s. 6-7).

Prof. M.Cəfərlinin Azərbaycan dastanlarının, xüsusilə məhəbbət dastanlarının strukturuna, mifoloji genezisinə dair tədqiqatları məzmunu baxımından çox zəngindir. Onların təhlilinə çox asanlıqla bütöv monoqrafiya həsr etmək mümkündür. Lakin bu tədqiqatlarda bir əsas və aydın xətt var: məhəbbət dastanlarının struktur poetika baxımından modelləşdirilməsi.

Ümumiyyətlə, Azərbaycan məhəbbət dastanlarının poetik strukturunun modelləşdirilməsi təcrübəsi prof. M.Cəfərliyə qədər görkəmli eposşünas prof. M.H.Təhmasibin yaradıcılığında həyata keçirilmişdir. M.Cəfərli həmin təcrübəni belə qiymətləndirir: «M.H.Təhmasibin monoqrafiyasında («Azərbaycan xalq dastanları (orta əsrlər)» – S.R., R.B.) məhəbbət dastanları öz morfoloji (formal-poetik – S.R., R.B.) strukturu baxımından təhlil olunur.

Başqa sözlə, bu, dastanın sintaqmatik düzüm sırasını təşkil edən morfoloji elementlərinin aşkarlanmasıdır. Bu, M.H.Təhmasibə məhəbbət dastanlarını onların ümumi strukturu baxımından təsvir etməyə, bütün məhəbbət dastanları üçün ümumi olan çərçivə strukturu aşkarlamağa imkan vermişdir. Tədqiqatçı Azərbaycan məhəbbət dastanları fondunu bütövlükdə tədqiqə cəlb edərək, əslində. məhəbbət dastanlarının ümumi çərçivə strukturunu bütün əsas parametrləri boyunca təsvir edə bilmişdir... Bu da bizim tədqiqatımızın M.H.Təhmasibin tədqiqatından nə ilə fərqlənməsi kimi təbii bir sualı ortaya çıxarır» (M.Cəfərli. Azərbaycan məhəbbət dastanlarının poetikası. B., 2000, s. 10).

Prof. M.Cəfərli məhz M.H.Təhmasibin qoyduğu pilləni inkişaf etdirərək məhəbbət dastanlarının öyrənilməsinə Azərbaycan folklorşünaslığı tarixində ilk dəfə olaraq struktur-semiotik yanaşma metodunu tətbiq etmiş və dastanın quruluşuna, onun poetik sisteminə mətn kimi yanaşmış, dastanın quruluşunu yeni prizmadan anlamış, bu quruluşun tərkib elementlərini məhz mətndaxili sistemdə funksiyaları, funksiyaların gerçəkləşmə məqamı olan funksional dinamika və s.baxımından öyrənə bilmişdir.

Birmənalı şəkildə qeyd etmək istəyirik ki, Azərbaycan məhəbbət dastanlarının tədqiqinə ilk dəfə məhz M.Cəfərli tərəfindən tətbiq olunmuş struktur yanaşma təcrübəsi (struktur-semantik, struktur-semiotik metod) müəllifə dastan mətnini epik dünya modelinin dastan paradiqması, gerçəkliyin epik

proyeksiyası, etnokosmik düşüncənin davranış kodu və s. kimi modelləşdirməyə imkan vermişdir. ***Ümumiyyətlə, prof. M.Cəfərlinin bütövlükdə «Azərbaycan epik düşüncəsinin struktur poetikası» adı altında ümumiləşdirilə bilən bu yanaşması Azərbaycan eposşünaslığında bir mərhələ olmaqla, əslində, özünün təhlil aparatı, yanaşma sistemi, etnokosmik gerçəkliyi, sufi dünyagörüşünü və Azərbaycan məhəbbət dastanı kodunu bir müstəvidə birləşdirən analitik sistemi ilə bir məktəbdir.*** Və bu məktəb alimin Azərbaycanda və xarici ölkələrdə çap olunmuş «Məhəbbət dastanlarının poetikası» (B., 1997), «Azərbaycan məhəbbət dastanlarının poetikası» (B., 2000), «Dastan və mif» (B., 2001), «Dastan və mif» (Təbriz, 2006), «Folklor və etnik milli şüur» (B., 2006), «Folklor və Etnik-Milli Şuur» (Ankara, 2007), «Dastan yaradıcılığı» (B., 2007) kimi kitabları və çoxsaylı məqalələrində yaranmış, aprobasiyadan keçirilmiş və konseptual sistem halını almışdır.

Əlbəttə, görkəmli alim, müəllim, professor Məhərrəm Cəfərli haqqında, xüsusilə onun dastanların struktur poetikası istiqamətindəki əsərləri haqqında çox yazmaq olar. Onun tədqiqatlarında dünya türkologiyasında epos poetikasını irəli aparacaq, fundamental tədqiqatlara yol açacaq zəngin və orijinal nəzəri baxışlar sistemi, konseptual tezislər var. Onların burada təhlili yüksək elmi əyarlı materialla işləmək baxımından insanın əqlinə qida, könlünə isə estetik zövq verir. Lakin biz bu zövqü almaqdan nə qədər imtina edə bilməsək də, təqdimatı

nəzərdə tutan təhlilimizi dayandırmağa məcburuq. Çünki bundan o yana əziz oxucunun haqqına girmək – onun orijinalı oxumaq, «Azərbaycan dastanlarının struktur poetikası» adlanan intellektual zövq dünyası ilə təmasına mane olmaq demək olar.

Buradaca sözümüzə son verib, Cənab Allahdan əzizimiz, ağsaqqalımız, yolgöstərənimiz Məhərrəm müəllimə, onun sevdiklərinə və onu sevənlərə can sağlığı, uzun ömür diləyirik.

**AMEA Folklor İnstitutu Mifologiya şöbəsinin müdiri,**
**filologiya elmləri namizədi**
***Seyfəddin RZASOY***

**AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat**
**İnstitutu Folklorşünaslıq şöbəsinin elmi işçisi,**
**fəlsəfə doktoru**
***Rafiq BABAYEV***

*Ата вя анамын*
*язиз рущуна итщаф едирям*

# GİRİŞ

Azərbaycan ədəbi düşüncəsinin ilk pilləsini təşkil edən folklorun öyrənilməsi Azərbaycan alimlərinin diqqət mərkəzində olmuş və xüsusilə XX əsrdə Azərbaycan folklorşünaslıq elmi istər kəmiyyət, istərsə də keyfiyyət baxımından ciddi boy artımına nail olmuşdur. Bu artımı əgər bir tərəfdən Azərbaycan folklorşünaslığının tədqiq obyektini təşkil edən şifahi söz sərvətimizin zənginlik və tükənməzliyi şərtləndirmişdirsə, digər tərəfdən belə bir durumu folklorşünaslıq elmimizin daim zamanın elmi tələbləri səviyyəsində çıxış etmək, dünya elmi standartlarına çıxmaq səyi formalaşdırmışdır. Bu baxımdan Azərbaycan folklorşünaslığı bu gün sözün gerçək anlamında çox ciddi tədqiqat əsərləri və alimləri ilə seçilən milli elm sahələrimizdəndir.

Azərbaycan folklorşünaslığının tədqiqat obyekti olan zəngin folklor örnəklərimizin tədqiqində xalq dastanlarımızın öyrənilməsinin xüsusi çəkisi vardır. Dastanların etnik-mədəni sistem özünüifadəsinin ən aktual janrlarından olduğunu nəzərə alsaq, onların öyrənilməsinə olan geniş tədqiqatçı marağının tükənməzlik əmsalı özlüyündə aydın olmuş olur.

Xalq dastanları milli özünüifadə və özünüdərkin tarixi-poetik ifadəsi olmaqla xalqa məxsus bir çox mədəni dəyərlərin özünəməxsus daşıyıcısıdır. Bu

anlamda dastan dünyası spesifik ölçülərə, sistem parametrlərinə, funksional dinamika qanunlarına malik mikropoetik aləmdir. Bu aləmin zaman-zaman daha da dərindən öyrənilməsi (əslində daha da dərindən dərki) bizi mütənasib olaraq özümüzə, ilkin mənəvi dəyərlərimizə qaytarır. Həmin dəyərlərə qayıdış milli-mənəvi varlığımızın tarixi-semantik mənzərəsini aydınlaşdırmaq baxımından böyük nəzəri-təcrübi əhəmiyyət daşıyır.

Azərbaycan dastanları, o cümlədən onun spesifik janr qolu olan məhəbbət dastanlarının öyrənilməsi ilə Azərbaycanın görkəmli alimləri məşğul olmuşlar. Məhz onların tədqiqatları sayəsində bu gün milli dastançılığımızın elmi-nəzəri, praktik-əməli bazası mövcuddur. Ancaq elmi araşdırmaların durmadan inkişaf etdiyi hazırkı inkişaf şəraitində, həmçinin milli folklorşünaslıq elmimizin dünya folklorşünaslığı ilə birbaşa təmasının hazırkı praktik reallaşması durumunda məhəbbət dastanlarımızın poetikası sahəsində əldə olunmuş bütün elmi uğurları ümumiləşdirmək, görülmüş işləri nəzəri-elmi mülahizələr istiqamətində sistemləşdirmək və dünya elminin hazırkı inkişaf səviyyəsinə qaldırmaq zərurətini ortaya cıxarmısdır. Bu, xüsusilə dastanların struktur-semantik metodla öyrənilməsinə aiddir. Belə ki, mətnin struktur-semiotik istiqamətlərindən tədqiqi tədqiqatçı qarşısında onun poetikasının yaradılması baxımından çox geniş imkanlar verir. Bu mənada Azərbaycan dastanlarının bir mətn hadisəsi kimi struktur-semantik istiqamətdən öyrənilməsi bir zərurət kimi Azərbaycan folklorşünaslığının qarşı-

sında dururdu. Mövcud tədqiqatın elmi gerçəkləşdirilməsi zərurətini bu amil xüsusilə aktuallaşdırmışdır.

Digər tərəfdən qeyd edək ki, dastan janrı öz tarixi inkişafı baxımından mifoloji görüşləri əks etdirən strukturlarla sıx şəkildə bağlıdır. Azərbaycan folklorşünaslığında bu məsələ monoqrafik tərzdə araşdırılmasa da, xüsusi dastanşünaslıq araşdırmalarında bu mövzuda çoxlu fikirlər deyilmişdir. Deyilən fikirlər dastan-mif münasibətlərinin konkret problemləri ilə bağlı olmuş, nəzəri fikirlər kimi öz ümumiləşməsini indiyədək tapmamışdır. Bütövlükdə nəzər saldıqda görürük ki, bu mövzuda xeyli material toplanmışdır. Bütün bunlar bizə dastan və mif münasibətlərini istər nəzəri, istərsə də konkret problematik tərəflərindən ayrıca monoqrafiyada gözdən keçirməyə tam imkan verir.

Azərbaycan folklorşünaslığında dastan və mif münasibətləri əksər hallarda dastan mətnlərində onun poetik sisteminin müxtəlif elementlərinin mifoloji strukturlarla əlaqəsinin axtarılması şəklində olmuşdur. Dastan mətninin müxtəlif təhlil səviyyələrindən "oxunması" baxımından bu araşdırmalar özünü doğruldan tədqiq istiqamətinə malikdir. Yəni tədqiqatçılar, demək olar ki, əksər hallarda dastanda mövcud olan bu və ya başqa elementin mifoloji köklərinə getməyə, miflərlə əlaqələrini açmağa, dastan mətninə hansı mifdən gəlməsini araşdırmağa və s. meylli olmuşlar. Bütün bunlar Azərbaycan dastanşünaslığında özünün zəngin təcrübəsinə malikdir. Bu da öz növbəsində həmin konkret-praktik araşdırmaları ümumiləşdirməyə,

onların əsasında monoqrafik tutumlü "söz" deməyə optimal şərait yaratmış olur.

Azərbaycan dastanlarının struktur poetikası sahəsində apardığımız tədqiqatlar göstərir ki, dastan və mif münasibətləri diaxroniya, yəni epik strukturların inkişaf axarı baxımından mif-dastan sxemi üzrə inkişaf etmişdir. Burada mif-dastan istiqaməti heç də mexaniki şəkildə götürülməməlidir. Yəni dastanın mifdən törəməsi, mifdən sonrakı hadisə olması və s. zaman səciyyəli yanaşma modelləri heç də mif-dastan münasibətlərinin birtərəfli inkişaf strukturuna malik proses olması təsəvvürünü yaratmamalıdır. Məsələnin bu tərəfi çox ciddidir və bunun nəzərə alınmaması Azərbaycan dastanşünaslığında sözü gedən mövzudakı tədqiqatlarda problemin bəzən çox bəsit qoyulmasına gətirmişdir. Təbii ki, bu bəsit qoyuluşun özü məsələnin elmi baxımdan bəsit təsəvvür olunmasının nəticəsidir.

Dastanlara struktur yanaşma təcrübəsi göstərir ki, mif-dastan keçidləri mürəkkəb struktura malikdir. Bu keçidlər bütün hallarda epik təhkiyə çevrəsində götürülməli və epik təhkiyənin inkişaf dialektikası baxımından nəzərdən keçirilməlidir. Burada indiyədək nəzərə alınmayan cəhət mif hadisəsi ilə dastan hadisəsinin spesifik təbiətləridir. Təəssüf doğuran haldır ki, son illərin artıq bir dəb halına düşmüş mövzularından olan miflə bağlı filoloqlar, filosoflar və başqaları tərəfindən aparılan araşdırmalarda mifin spesifik təbiəti nəzərə alınmır. Qeyd edək ki, humanitar elm sahələrindəki alimlərin öz

araşdırıcı nəzərlərini mifə doğru yönəltmələri istər elmi-strateji, istərsə də elmi-taktiki baxımdan bütün hallarda özünü doğruldur. Ancaq bu tədqiqatların əksər hissəsində mifin spesifik hadisə olması, konkret bir tarixi epoxanın şüur hadisəsini təşkil etməsi və s. nəzərə alınmır. Bu isə ona gətirir ki, tədqiqatlarda mif öz janr strukturu, epik üzvlənmə tipologiyası və s. baxımından dərk olunmur. Bunun da nəticəsi mifin sxemləri ilə dastan sxemlərinin mexaniki tutuşdurulması olur ki, bundan da ciddi nəticələr gözləmək əbəsdir.

Məsələyə bu tərəfdən yanaşdıqda görürük ki, mif-dastan münasibətləri yalnız diaxronik hadisə olmayıb, sinxron münasibətlər strukturuna da eyni dərəcədə malik olmuşdur. Başqa sözlə, dastan və mif münasibətləri yalnız dastanların mifdən törəməsi kimi ümumi və sadə formuldan dərk olunmamalıdır. Burada sinxron proseslər də, yəni qarşılıqlı şəkildə, eyni zaman daxilində bir-birinə təsir edən, bir-birini yaşadan proseslər də olmuşdur. Bu cəhətdən oxucuların diqqətinə təqdim olunan ilk monoqrafiyada dastan və mif münasibətləri məhz mürəkkəb təsirlər strukturu əsasında gözdən keçirilir. Belə olduqda, dastanların həm də mifdən törəməsi kimi ilk baxışda sadə görünən keçid modeli tədqiqat müstəvisində öz müsbət məhsulunu vermiş olur.

Struktur-semiotik yanaşmanın ümumnəzəri təcrübəsinə əsasən, dastan və mif münasibətləri nəzəri çevrədə və hər şeydən öncə terminoloji çevrədən daha aydın dərk olunur. "Mif", "Mifologiya" terminləri bir-biri ilə sıx əlaqədə olmaqla öncə insan şüurunun

xüsusi tipini nəzərdə tutur. Görkəmli mifoloq Y.M.Meletinski yazır ki, "mif" yunan sözüdür və hərfi mənada rəvayət, söyləmə deməkdir. Adətən, mif dedikdə tanrılar, ruhlar, tanrılaşdırılmış, yaxud öz mənşəyi baxımından tanrılarla bağlı olan qəhrəmanlar, başlanğıc zamanda olmuş və birbaşa, yaxud dolayısı olaraq dünyanın, onun təbii və mədəni elementlərinin yaranmasında iştirak etmiş ilk əcdadlar haqqında hekayətlər nəzərdə tutulur. Mifologiya tanrılar və qəhrəmanlar haqqındakı belə hekayətlərin toplusu, eyni zamanda dünya haqqında fantastik təsəvvürlərin sistemidir. Miflər haqqında elmi də mifologiya adlandırırlar.

Mif yaradıcılığı bəşəriyyətin mədəniyyət tarixində ən əhəmiyyətli hadisə kimi nəzərdən keçirilir. İbtidai cəmiyyətdə mifologiya dünyanın dərkinin əsas üsulunu təşkil edir, mif isə insan təsəvvüründə dünya yaradılışı epoxasının duyum və anlanmasını ifadə edirdi (179, 634).

Y.M.Meletinskinin mif haqqındakı bu ümumiləşdirməsində mif-mifologiya terminoloji kompleksinin əsas məna sistemi öz əksini yığcam olaraq tapıb. Bəlli olur ki, mif bir tərəfdən hekayə, o biri tərəfdən düşüncə prosesidir. Məsələnin bu qoyuluşu dünya elmində qəbul olunmuş hal olmaqla mifin mahiyyətini ən azı ümumi çevrədən başa düşməyə, elə bu çevrədən də tədqiq etməyə imkan verir. Təqdirəlayiqdir ki, Azərbaycan elmində mifin elmi dərki istiqamətində ciddi işlər görülməkdədir. "Mifologiya" çoxcildliyinin müəllifi prof. A.Şükürov

yazır ki, "mifologiya" yunanca "mifos" və "loqos" sözlərindən əmələ gəlmişdir, mənası rəvayət, əfsanə, nağıl, dastan, söz, anlayış kimi başa düşülür. Mifologiya ictimai inkişafın ilkin mərhələləri üçün səciyyəvi olan dünyanı anlama üsulu, ictimai şüurun ilkin formasıdır (103, 5). Göründüyü kimi, mifologiyanı daha çox fəlsəfi aspektdən təqdim edən bu filolsof alimin yanaşması dünya elmi təcrübəsi ilə üst-üstə düşür. Başqa sözlə, milli elmi təcrübə fərqli yanaşma təqdim etməyərək ümumtipoloji yanaşmanı yalnız təsdiq edir.

Mifin hər iki aspekti onun dastanla əlaqələrindən görünür. Belə ki, mifin söyləmə, hekayət aspekti dastanın epik növün xüsusi tipi olmasında üzə çıxır. O biri tərəfdən, mifin düşüncə hadisəsi, yəni dünyanı qavramanın xüsusi üsulu olması da dastanda öz əksini tapmışdır. Dastan da dünyanı qavramanın epik formalarından biridir. Dastan dünyanı özünəməxsus təsvir üsulları ilə təqdim edir. Bu cəhətdən dastanın bütün elementləri birləşərək özünəməxsus bir dünyanı-dastan dünyasını təqdim edir. Dastan dünyası gerçək dünyanın epik bədii obrazıdır. Mif düşüncə hadisəsi olduğu kimi, dastan da epik düşüncənin hadisəsidir. İlkin insanlar dünya ilə əlaqələrini mif vasitəsi ilə reallaşdırırdılarsa, dastan da insanla dünya arasında bir epik anlama vasitəsi, insanların öz mənəvi varlıqlarını dastanda tapmaları deməkdir. Bütün bunlar dastanın miflə çox ciddi əlaqələrinin magistral istiqamətləridir. Bu istiqamətlər olmadan dastan-mif münasibətləri necə

qoyulmasından, hansı müstəvidə nəzərdən keçirilməsindən asılı olmayaraq düzgün, dolğun nəticələrə gətirə bilməz.

Dastan-mif münasibətlərinin terminoloji aspektdən nəzərdən keçirilməsi mif-dastan keçidinin məna qatlarını görməyə imkan verir. Məsələn, dastanın bir məlumata görə, nağıl, povest, roman mənaları (181, 207) onu mifin eyni mənaları ilə bir sıraya qoymuş olur. Bu cəhətdən dastan terminini nəzərdən keçirək.

"Dastan"ın "rəvayət", "xalq romanı", "xalq kitabı" mənaları vardır (136, 79-80). Görkəmli dastanşünas M.H.Təhmasibə görə, dastan geniş mənalara malikdir. Belə ki, bu sözün "bacarıq", "məharət", "hiylə", "igid", "qəhrəman", "musiqi havası", "melodiya", "əhvalat", "tarix", "böyük həcmli mənzum macəra", "əsli olmayan yalan", "boy", "qissə", "nağıl" mənaları vardır (107, 57-59). "Dastan", "hekayə", "hekayət" kimi də mənalandırılmışdır (16, 103). Bu söz barəsində prof. İ.Abbasov yazır ki, "dastan" istilahı Yaxın Şərq və Cənub-Şərqi Asiya xalqlarının şifahi və yazılı ədəbiyyatlarında epik janrın daşıdığı ad olmuşdur. Daha çox ədəbi söz-termin kimi istifadə edilən "dastan" əsasən, oğuznamə, nağıl, boy, əhvalat, hekayət, tərifnamə, xalq romanı, xalq kitabı mənalarını daşımış, aşıq söz ədəbiyyatının ən çox yayılmış janrı sayılmışdır (4, 6).

Dastan söz-termini haqqında verilən fikirlərdən bəlli olduğu kimi bu söz süjet-hadisə bədii ifadəsinin müəyyən növünü bildirir. Əslində dastan sözünün "hekayət", "tarix", "macəra" və s. mənalar tutumu onu

mifin eyni məna çalarları ilə bir sıraya qoymuş olur. Bu baxımdan, dastan bir janr olaraq öz başlanğıcında miflərə bağlanır. Mifdən dastana gələn yol çox mürəkkəbdir və təkcə mif və dastan mərhələlərini nəzərdə tutmur. İndiki halda bizim üçün bu yolun hansı mərhələlərdən keçməsinin araşdırılması aktual deyildir. Elə buna görə də mif-dastan keçidinin ümumi cəhətlərinə toxunmaqla kifayətlənirik.

Qeyd etməliyik ki, mif-dastan münasibətləri öz-özlüyündə xüsusi hal olmaqla mif-ədəbiyyat ümumi kontekstinin tərkib hissəsidir. Yəni mif-dastan münasibətlərinin nəzərdən keçirilməsi mif-ədəbiyyat münasibətlərinin nəzərdən keçirilməsi deməkdir. Y.Lotman və Z.Mints ədəbiyyatla mifologiyanın qarşılıqlı münasibətlərini aydınlaşdıran birgə əsərlərində yazırlar ki, ədəbiyyat və mif sahələrinin bir-birləri ilə əlaqələri iki üsulla baş verir. Bunlardan birincisi "bilavasitə" əlaqədir. Bunu onlar mifin ədəbiyyata "axması" kimi izah edirlər. Yəni miflər birbaşa olaraq ədəbi mətnlərin məzmununu təşkil edir. Lotman və Mints ikinci üsul olaraq "bilvasitə" (vasitəli) əlaqəni nəzərdə tuturlar. Yəni onlara görə miflə ədəbiyyatın bilavasitə əlaqəsi incəsənət, ritual və s. vasitəsi ilə baş verir. Bu baxımdan, incəsənət, ritual və s. mifdən ədəbiyyata keçiddə körpü rolunu oynayır… Müəlliflərin fikrincə, arxaik dünyanın, mif və folklorun dəyərləri sonrakı dövrlərin incəsənət dəyərlərinə qarşı durmayaraq, dünya mədəniyyətinin ən yüksək uğurlarının tərkib qarışığı rolunu oynayır (172, 35-55). Y.M.Meletinski mif-ədəbiyyat

münasibətlərini mif-folklor kontekstində nəzərdən keçirən əsərlərində bu məsələlərə xüsusi diqqət verir. O göstərir ki, miflər folklor mətnlərinə keçiddə miflikdən çıxır, yəni öz sakrallıqlarını, sakral ayin və mərasimlərlə bağlılıqlarını itirir. Belə miflərdən nağıllar boy atır (179, 639). Tədqiqatçı göstərir ki, mədəni qəhrəman haqqındakı miflər eyni qayda ilə qəhrəmanlıq eposlarının da kökündə durur (175, 21-94). Prof. A.Şükürov yazır ki, şifahi mədəniyyət və incəsənətin ilkin mənbəyi kimi mifin rolu olduqca böyükdür. Mifoloji təsəvvürlər və süjetlər müxtəlif xalqların şifahi folklor ənənələrində mühüm yer tutur. Mifoloji motivlər ədəbi süjetlərin genezisində böyük rol oynamaqla yanaşı, mifoloji mövzular, personajlar ədəbiyyatın bütün tarixi boyu dəfələrlə istifadə olunmuşdur (103, 136).

Beləliklə, miflə ədəbiyyatın əlaqələri mövzusunda aparılmış tədqiqatların sayı çoxdur. Onların indiki halda burada adbaad sadalanmasına ehtiyac yoxdur. Ona görə ki, bu tədqiqatlar bütün hallarda miflə ədəbiyyatın əlaqələrini ən müxtəlif formalardan olmaqla ancaq təsdiq edir. Bu cəhətdən miflə dastan əlaqələri həmin mif-ədəbiyyat münasibətlərinin içinə girir, daha doğrusu, həmin münasibətlərin tərkib hissəsidir.

Yuxarıda Y.M.Meletinskinin fikirlərindən sitat verərkən gördük ki, mif ədəbiyyatlaşarkən özünün bir sıra xüsusiyyətlərindən məhrum olur. Bu, çox ciddi məsələdir. Mifoloji mətn, tutaq ki, dastan mətninə çevrilərkən özünün mifik xüsusiyyətlərini tam

saxlamır. Əgər saxlasa, janrından asılı olmayaraq həmin mətn mif olaraq qalmaqda davam edəcək. Təbii ki, onda mifin həmin xüsusiyyətlərinin nədən ibarət olması sualı ortaya çıxır.

Əvvəla, deməliyik ki, mifin spesifik xüsusiyyətləri çoxdur və həmin əlamətlər bütün hallarda eyni güclü, eyni əhəmiyyətli deyildir. Bu üzdən, onların içərisində mifi mif edən əsas xüsusiyyətlər var. Onların da sırası genişdir. Hamısının sadalanması bizi mifin poetikası aspektinə çıxarır ki, bu da monoqrafiyada qarşımızda duran məqsəd deyil. Bunun üçün ən azı Y.M.Meletinskinin məşhur mif poetikası var (177). Elə buna görə də biz mövzumuzla bağlı aktuallıq kəsb edən mif xüsusiyyətlərinə diqqət edək. Bir qədər yuxarıda Y.M.Meletinskidən gördük ki, mif folklorlaşarkən özünün sakrallığından və rituallarla bağlılığından məhrum olur. Bu, elmdə "desakralizasiya" və "deritualizasiya" adlanır. Başqa sözlə demiş olsaq, miflər cəmiyyətdə onların pərəstiş (kult) obyektləri ilə bağlı müqəddəsliyə (sakrallığa) malik mətnlərdir. Bunların funksiyası həmin sakrallığa söykənir. Belə ki, mifdə adı keçən obrazlar sakral obrazlardır, onlarla bağlı ayin və mərasimlər (rituallar) təşkil olunur. Həmin mif və ritualların məzmunu eyni sakral obrazla (yaxud obrazlarla) bağlı olur. Miflərin folklorlaşması artıq onların mif olmaqdan çıxması deməkdir. Bu isə öz-özünə baş vermir. Mifin folklorlaşması onun auditoriya üçün aktuallığını itirməsi deməkdir. Bəs mif nə vaxt öz aktuallığını itirə bilər?

Dedik ki, miflər düşüncənin üsulu olmaqla konkret epoxanın, ibtidai icma quruluşunda yaşayan insan düşüncəsi materiallarıdır. Mifi mif edən epoxa dağılanda mif də miflikdən çıxır. Artıq mif bir sakral mətn, düşüncəni daşıyan hekayətlər kimi gərəkliyini itirir. Ancaq mifin öz aktuallığını itirməsi onun bir mətn kimi itməsi demək deyil. Mif itmir, yox olmur, o, transformasiya olunur. Bu transformasiya, məsələni belə təsəvvür etmək mümkünsə, həm də miflə folklor (ədəbiyyat) arasında baş verir. İbtidai icma quruluşunun dağılması ilə onun şüurunu daşıyan mifoloji mətnlər də dağılır və folklor mətnlərinə çevrilir. Bu dağılma həmin hekayətlərin öz sakrallıqlarını, ritualla canlı bağlılıqlarını itirmələri şəklində baş verir. Bunu dastan mətnlərindən, o cümlədən Azərbaycan dastanlarından görmək mümkündür. Əvvəldə qeyd etdik ki, dastanşünaslar dastan mətnlərinin bu və ya digər obrazlarının, yaxud mətnin poetik elementlərinin, epizod və süjetlərinin, motivlərinin və s. mifik mənşəyini axtarır və tapırlar. Onlar öz axtarışlarında bütün hallarda haqlıdırlar. Çünki dastan uzaq ənənə başlanğıcında mifdən gəlir və bu səbəbdən dastan mətnindəki poetik elementlərin miflə bağlılığı şübhə doğurmur.

Dastan və mif əlaqələri dastan mətninin, dedik ki, ən müxtəlif elementlərində təzahür edir. Bura süjet, onun elementləri, obrazlar, onların müxtəlif səviyyələri, bütövlükdə dastanın kompozisiya strukturu və s. aiddir. Bu cəhətdən dastan və mif əlaqələrini qoymaq üçün dastan mətnləri ən müxtəlif

səviyyələrdən tədqiq imkanları açır. Dastan etnosun özünü ifadə etməsinin spesifik forması olmaq baxımından çox mürəkkəb struktura malikdir. Bu mürəkkəblik istər onun süjet, istərsə də obraz səviyyələrinə eyni dərəcədə aiddir. Yəni dastan reallığın, dastan daşıyıcılarını əhatə edən dünyanın epik koddan verilməsi, epik gerçəkləşməsidir. Bu baxımdan, dastanın təqdim etdiyi dünya real dünyanın fotosu deyildir. Dastanda təqdim olunan dünya, qəbul olunmuş terminologiya ilə desək, epik dunyadır. Epik dünya bütün hallarda gerçəkliyin epik dərkidir və burada real dünyanı olduğu kimi axtarmaq əbəsdir. Real dünya epik dünyada epik söz kodundan gerçəkləşir. Bu cəhətdən, epik dünyanın qayda-qanunlarının başa düşülməsi, bu qayda-qanunlar vasitəsi ilə funksiyalaşan epos aləminin spesifik mahiyyətinin başa düşülməsi, epik təsvir kodunun başa düşülməsi, anlanması ilə şərtlənir.

Dastançı dünyaya epik koddan baxır, ancaq bu baxışın gerçək aləmlə əlaqəsi fəal deyildir. Başqa sözlə demiş olsaq, dastançının nəzərləri daha çox ənənəyə dikilib. Əslində dastançı epikləşdirmədə sərbəst olmayıb, ənənəvi materiallarla işləyir. O, ənənədən asılıdır, ənənənin epik mətnində reallaşdırdığı epik dünyanın real dünya ilə əlaqəsi isə passiv bir hadisədir. Ancaq bu bütövlükdə o demək deyildir ki, dastan epik dünyası hər cür gerçəklik üçün passiv bir sistemdir. Bu, belə deyidir. Dastan dünyasının özünəməxsus aktivlik rejimi var və bu aktivlik özünün bütün dolğunluğu ilə ənənəyə münasibətdə

funksionallaşma istiqamətləri baxımından ənənəyə bağlanır, ondan baş alıb gəlir və öz fəallığını ənənəvi materialın funksiyalaşmasında göstərir. Ənənə mətnin öz içində, daxilində yaşayır. Ənənə mətnin mahiyyətində durur. Bu cəhətdən ənənə mətnin keçmişi, əvvəli deməkdir. Dastan mətni kontekstində ənənə öz başlanğıcı səviyyəsində mifdir, mifoloji mətndir. Bu da o deməkdir ki, dastanın epik dünyası mifik dünyanı öz müasir səviyyəsindən reallaşdırır. Dastan dünyası onu əhatə edən mövcud aləmlə bütün sinxron əlaqələri çevrəsində belə, mifik keçmişi ilə əlaqələrini daşlaşmış, statikləşmiş, strukturunun mahiyyətini təşkil edəcək dərəcədə saxlayır. Bütün bunlar göstərir ki, dastan və mif münasibətlərini dastan mətninin ən müxtəlif səviyyə və elementləri çevrəsindən qoyub həll etmək mümkündür. Bu cəhətdən dastan mətni tədqiqatçıya çox geniş imkanlar təqdim edir. Belə imkanlar bizim də qarşımızda durur.

Hər bir tədqiqatçı araşdırma obyektinin dəqiq predmetini müəyyənləşdirməlidir. Belə bir müəyyənləşdirmə indiki halda xüsusilə aktualdır. Çünki dastan və mif münasibətlərini ən müxtəlif predmetlər baxımından öyrənmək mümkündür. Lakin bu predmet genişliyi içərisində aktuallıq kəsb edən tərəflər vardır. Bunlar dastanın mifik baxımdan xüsusi aktuallıq kəsb edən semantik səviyyələri, elementləridir. Bütün bunları nəzərdə tutaraq biz mif-dastan spesifik münasibətlərini motivlər, ritual-magik elementlər və s. səviyyələrdə araşdırmağı qərara aldıq.

Azərbaycan dastanlarının poetik strukturunun və mifik genezisinin araşdırıldığı əsərdə problem mərhələli kontekstlərdə tədqiq olunmuşdur. Eləcə də araşdırmaların nəticələri struktur poetika baxımından ümumiləşdirilmişdir.

# I FƏSİL

# MƏHƏBBƏT DASTANLARININ POETIK STRUKTURU VƏ SÜJET SEMANTIKASI

Azərbaycan məhəbbət dastanları bir dastan hadisəsi kimi epik folklorun poetik sistemində xüsusi çəkiyə malikdir. Folklorun istər epik, istərsə də lirik qolları bütün hallarda etnosun dünya duyumunun, qavrayışının gerçəkləşmə formalarıdır. Folklorun başlıca göstəricilərinin şifahilik olduğunu nəzərə alsaq, onun etnik yaddaşla birbaşa bağlılığı əyaniləşmiş olur. Bu baxımdan folklorda etnos bütün varlığı ilə yaddaşlaşır. Təbii ki, folklor mətnlərinə etnik yaddaşın yalnız "qoruyucusu" kimi baxmaq olmaz. Belə "qoruyuculuq" onun funksiyalarındandır. Ancaq folklor yaradıcılıq hadisəsi kimi, etnosun həm özünü ifadəsi, həm də bu özünüifadə ilə özü-özünü yaşatması deməkdir. Bu yaşatma etnik yaddaşı bədiiləşdirən (folklorlaşdıran) mətnlərlə bir an da olsun ünsiyyəti qırmadan ondan daim özünütəşkiletmə "implusları" alma şəklində gerçəkləşir. Yəni folklor özünün bədii-estetik, yaddaş, ideoloji və s. funksiyaları ilə onu yaradan etnosla daim canlı təmasdadır. Bu funksiyalar içərisində hansının daha "ağır çəkili" olması həmin funksiyaların aktuallaşma məqamlarından asılıdır. Burada nəzərə alınmalı başlıca məqam funksiyaların aktuallaşma imkanlarıdır. Bu imkanları isə birbaşa

olaraq etnosun gündəlik həyatı şərtləndirir. Beləliklə, gündəlik həyatın gedişindən asılı olaraq folklorun müxtəlif funksiyaları aktuallaşa bilirdi. Yəni folklor bütün zəngin forma və janrları ilə etnosun həyatından asılı olaraq onun üçün müxtəlif məqamlarda çeşidli "rolları" yerinə yetirir. Etnosun həyatında baş verən "kritik" situasiyalar ondan folklor yaddaşının müxtəlif qatlarına müraciəti tələb edir. Belə "kritik" situasiyaların çeşidi isə genişdir: toy, yas, etnik konfliktlər, etnosdaxili konfliktlər, etnosla onun sakral dünyası (dini-mifoloji dəyərlər sistemi) arasında sahmanlanmaya ehtiyacın yaranması və s. Bu baxımdan folklor etnos üçün hər şeydən əvvəl, söz yaddaşı funksiyasını daşıyır. Etnos öz tarixi təcrübəsi boyu əldə etdiyi bütün dəyərləri folklorda "kodlaşdırır". Bu səbəbdən foklorun iki funksiyası başlıca və ümumiləşdirici olmaqla real funksiyaların hamısını öz içinə alır. Həmin funksiyalar ideoloji və estetik funksiyalardır. Bunları başqa cür də adlandırmaq olar. Ancaq necə adlandırmalarından asılı olmayaraq, həmin funksiyaların ehtiva etdiyi gerçəkliklər göz qabağındadır: etnosun folkloru bir tərəfdən onun üçün ideoloji-ictimai ehtiyaclarının ödəndiyi yaddaşdırsa, o biri tərəfdən onun bədii gözəllik mənbəyidir. Bu baxımdan folklorun etnosun həyatındakı ictimai rolu nə qədər zəruri idisə, estetik rolu da bir o qədər zəruri idi. Əslində bu iki funksiya sinkretik başlanğıca malikdir və onların funksiyalaşma imkanlarının nisbəti burda bizim üçün aktuallıq kəsb etmir. Aktual olan, yəni araşdırma

mövzumuz (məhəbbət dastanlarımızın poetikası) baxımından bizi maraqlandıran folklorun mahiyyətinin həmin iki başlanğıca funksiyaya ehtiva edilməsidir. Bu baxımdan Azərbaycan məhəbbət dastanları məhz folklor hadisəsi kimi, həmin funksiyaları bu gün özündə həm arxetipik formaları, həm də bütün differensial dinamika məqamlarını təqdim etmək baxımından qoruyur. Başqa sözlə, Azərbaycan məhəbbət dastanları məhz foklor hadisəsi kimi, həmin funksiyaları bu gün özündə həm arxetipik formaları, həm də bütün differensial dinamika məqamlarını təqdim etmək baxımından qoruyur. Başqa sözlə, Azərbaycan məhəbbət dastanları folklorun "yaddaş", "söz yaddaşı" olmaq mahiyyətini özündə janr səviyyəsində kodlaşdırır. Bu mənada Azərbaycan məhəbbət dastanları estetik funksiyanın parlaq örnəkləridir. Dastan fondumuzun "Aşıq Qərib", "Əsli-Kərəm", "Qurbani", "Abbas-Gülgəz" və s. kimi dastanları yüksək epik və lirik gözəlliyin nadir incilərindəndir. Başqa tərəfdən Azərbaycan məhəbbət dastanları ideoloji funksiyasının əhatə edə biləcəyi bütün arxetipik məqamları (konflikt situasiya, dini-etnik obrazlar, magik-mərasimi mifologemlər və s.) kodlaşdırır. Düzdür, bu məqamların qorunma dərəcəsi eyni deyildir. Ancaq onların məhəbbət dastanları mətnindən bərpa imkanları məhəbbət dastanlarımızın folklor poetikasının bütün parametrlərini özündə əks etdirməsi haqqındakı adi həqiqət bir daha təsdiq edir. Bu, həm məhəbbət dastanları

poetikasını burada ilk növbədə folklor poetikası kimi şərhə doğru yönəldir.

Məhəbbət dastanlarının poetikası ilk növbədə folklor poetikasıdır. Burada folklor poetikası yazılı ədəbiyyat poetikasının uzunəsrlik təsirləri üçün də çərçivə struktur təşkil edir. Başqa sözlə, məhəbbət dastanları öz inkişafı boyu yazılı ədəbiyyatın, yazılı lirik-epik formaların təsirinə məruz qalsa da, bu təsirlər onun folklor poetikasına məxsus strukturunu dağıda bilməmiş və həmin dastanlar bu gün belə məhz dastan kimi, yəni folklor poetikasının canlı təcəssümləri kimi qalmışdır. Əslində yazılı poetikanın məhəbbət dastanlarının folklor poetikasını dağıtdığı məqamlar da olmuşdur. Bu məsələ bizim mövzumuzdan qıraqdır. Həmin məqamlar artıq dastanın yazılı ədəbiyyata çevrilməsi deməkdir. Nizami məsnəvi-dastanlarından tutmuş üzü bəri ədəbiyyatımızda buna zəngin örnəklər vardır. Başqa sözlə, yazılı ədəbiyyatın poetikası zaman-zaman məhəbbət dastanlarının poetik strukturuna "həmlələr" etsə də, onu folklor strukturundan çıxara bilməmiş və etnosun "sadiq" söz yaddaşı olan dastanlar (xüsusilə məhəbbət dastanları) dinamik yaşam tərzini günümüzə qədər qoruya bilmişdir. Elə bu səbəbdən Azərbaycan məhəbbət dastanlarının poetikasının öyrənilməsinə həsr olunmuş mövcud araşdırma bizim diqqətimizi ilk növbədə formal strukturun struktur-semantik mahiyyətinə yönəldir. Bu baxımdan ilk fəsil məhəbbət dastanlarının quruluşunun öyrənilməsinə həsr olunur.

Məhəbbət dastanlarının quruluşu ilk növbədə

ənənə hadisəsidir. Ənənəvilik dastanların bütün poetik elementlərinə istisnasız olaraq aiddir. Əslində məhəbbət dastanlarının ənənəviliyi folklorun ənənəviliyi deməkdir. Folklor şifahi söz sənəti olmaqla məhz ənənənin gücü ilə yaşayır. Demək, məhəbbət dastanlarının quruluşunu araşdırmaq əslində ona ənənə prizmasından baxmaq deməkdir. Bu mənada məhəbbət dastanlarının quruluşunu ənənəsiz müstəvidə təsvir etmək mümkün olsa da onu ənənəsiz şərh etmək, bu quruluşu anlamaq, onun funksiyalaşma imkanlarını araşdırmaq, başqa sözlə, bu quruluşun mahiyyətini izah etmək mümkün deyildir.

Məhəbbət dastanlarının quruluşunun ənənə prizmasından şərhi Təklə Ümuminin dialektik münasibətləri çərçivəsindən də şərh oluna bilər. Hər bir tək ümuminin tərkib hissəsidir. Ümuminin mahiyyəti təkdə öz gerçəkləşməsini tapır. Ancaq tək heç bir halda ümuminin təqdim edə biləcəyi bütövlüyü həmin miqyasdan təqdim edə bilmir. Bəlkə də, məhəbbət dastanlarının quruluşunun ənənə prizmasından öyrənilməsinin əsaslandırılması üçün bu müqayisə özünü tam doğruldur. Ancaq məhəbbət dastanları bir folklor hadisəsi olmaqla folklor poetikasını gerçəkləşdirir. Bu baxımdan təklə ümuminin münasibətləri burada məhəbbət dastanlarının poetikası ilə folklor poetikasının münasibətləri nisbətinə uyğundur. Bunu poetik məkanı sxemləşdirmək yolu ilə belə göstərmək olar:

***a) Folklorun poetikası***

***b) Epik folklorun poetikası***

***c) Epos (dastan) poetikası***

***d) Məhəbbət dastanlarının poetikası***

Başqa sözlə, məhəbbət dastanları qəhrəmanlıq, ailə-məişət dastanları ilə birgə ilk növbədə dastan-eposdur. Bir dastan-epos kimi epik folklordur. Epik folklor kimi isə ümumiyyətlə folklordur. Bu baxımdan məhəbbət dastanları həm sinxron, həm də diaxron planda üst-üstə dörd poetik layın qovuşması, inkişafı kimi meydana çıxır:

***1) məhəbbət dastanı layı;***

***2) dastan-epos layı;***

***3) epik folklor layı;***

***4) folklor layı.***

Bu layların düzümündə ayrılıqda nə sinxron, nə də diaxron planlar dominantlıq təşkil etmir. Burada sinxronluq və diaxronluq ayrılmazdır. Poetikanın sinxroniyası özünü onda göstərir ki, məhəbbət dastanı eyni zamanda həm məhəbbət dastanı, həm ümumiyyətlə dastan, həm epik folklor, həm də ümumiyyətlə folklordur. Diaxroniya isə özünü sözün (folklorun) epik, lirik, dramatik kimi laylara təkamülündə, epik layın öz janr laylarına, o cümlədən dastana təkamülündə, öz növbəsində dastanın öz məzmun-forma laylarına, o cümlədən məhəbbət dastanlarına təkamülündə göstərir. Bütün bunlar mürəkkəb proseslərdir və bizim burada göstərdiyimiz universal sxemlər prosesləri hansısa prizmadan anlamaq üçün təklif olunan şərti sxemlərdir. Buna görə də onları mütləqləşdirmək olmaz. Çünki

məhəbbət dastanları poetik strukturunun gerçək diaxron və sinxron mənzərəsini onları ardıcıl tədqiqatlarda məhz bu baxımdan inadla öyrənməklə ortaya çıxarmaq mümkündür. Mövcud araşdırmada bu məsələlər qoyulur və imkan daxilində onların həllinə çalışılır.

Məhəbbət dastanlarının poetik strukturunda yuxarıda göstərilən sinxron və diaxron laylar şəksiz mövcuddur. Araşdırmalar göstərir ki, istər məhəbbət, qəhrəmanlıq, istərsə də, ailə-məişət dastanlarının poetik strukturunu bir-birindən əlahiddə hadisələr kimi öyrənmək olmaz. Başqa tərəfdən, məhəbbət dastanlarının poetik strukturu epik folklorun digər janrlarının (nağıllar, əfsanələr, rəvayətlər və s.) poetik strukturu ilə analoji yaşam, funksiyalaşma məqamlarına malikdir. Bütövlükdə isə məhəbbət dastanlarının poetik strukturu istənilən folklor mətninin (indiki halda lirik, dramatik, yaxud qovuşmuş mətnlər) poetik strukturu ilə məhz folklor olmaq xassələri baxımından analoji poetik struktur məqamlarına malikdir. Bütün bunlar göstərir ki, məhəbbət dastanlarının quruluşunun (poetik strukturunun) öyrənilməsi onu istər sinxron, istərsə də diaxron planda şərtləndirən struktur layları ilə müqayisədə götürməklə daha səmərəlidir.

Azərbaycan dastanlarının, o cümlədən məhəbbət dastanlarının öyrənilməsi sahəsində əhəmiyyətli işlər görülmüşdür (107; 39; 17; 47; 48; 111; 110; 91; 167; 69; 154; 155; 157; 161; 215; 56; 4; 64; 65; 7; 42; 14 və s.). Məhəbbət dastanlarının poetikası baxımından burada

diqqəti daha çox cəlb edən isə görkəmli tədqiqatçı M.H.Təhmasibin "Azərbaycan xalq dastanları (orta əsrlər)" monoqrafiyasında məhəbbət dastanlarına həsr olunmuş bölmədir (107, 177-377). Ümumiyyətlə götürdükdə, Azərbaycan dastanlarının poetikası ilə bağlı yazılmış başqa əsərlərin əhəmiyyətini kiçiltmədən demək istərdik ki, bu əsər Azərbaycan dastanları ilə bağlı 70-ci illərin əvvəllərində meydana çıxmış qiymətli bir tədqiqat kimi bu gün də öz dəyərini saxlamaqda, bu sahədə aparıcı elmi araşdırmalardan olmaqda davam edir. Monoqrafiyada Azərbaycan dastanları, o cümlədən məhəbbət dastanları, demək olar ki, həmin dövr üçün əldə olunan bütün dastan fondumuz əsasında morfoloji struktur baxımından öyrənilir. Düzdür, tədqiqatçı özü dastanlarımızı morfoloji baxımdan öyrəndiyini yazmasa da, tədqiqatın hazırlanmasında görkəmli folklorçu V.Y.Proppun nağılların morfoloji strukturunun öyrənilməsinə həsr etdiyi məşhur tədqiqatlarının (187; 188; 189) müsbət rolu aydın görülməkdədir. Xüsusi qeyd etmək lazımdır ki, M.H.Təhmasib mətnin struktur üsulla tədqiqini bu əsərində xüsusilə məhəbbət dastanlarının öyrənilməsinə uğurla tətbiq etmişdir. Əslində Azərbaycan dastanlarının bu monoqrafiyada uğurla öyrənilməsinin səbəbi və əsərin dastanşünaslığımızdakı bügünkü aktual mövqeyi də, burada dastanların, xüsusilə məhəbbət dastanlarının struktur poetikanın tələbləri baxımından araşdırma obyektinə çevrilməsidir. Bu baxımdan M.H.Təhmasib Azərbaycan məhəbbət

dastanlarını struktur təhlilə cəlb edən ilk mütəxəssisdir. Düzdür, məhəbbət dastanları Azərbaycan folklorşünaslığında sonralar müxtəlif istiqamətlərdən təhlil olunmuşdur. Ancaq onların struktur tədqiqi sahəsində M.H.Təhmasibin gördüyü işlər hələ ki, yeganə olaraq qalır.

Dedik ki, M.H.Təhmasibin monoqrafiyasında məhəbbət dastanları öz morfoloji strukturu baxımından təhlil olunur. Başqa sözlə, bu, dastanın sintaqmatik düzüm sırasını təşkil edən morfoloji elementlərin aşkarlanmasıdır. Bu, M.H.Təhmasibə məhəbbət dastanlarının onların ümumi strukturu baxımından təsvir etməyə, bütün məhəbbət dastanları üçün ümumi olan çərçivə strukturu aşkarlamağa imkan vermişdir. Tədqiqatçı Azərbaycan məhəbbət dastanları fondunu tədqiqə cəlb edərək, əslində məhəbbət dastanlarının ümumi çərçivə strukturunun bütün əsas parametrləri boyunca təsvir edə bilmişdir. Bununla da o, əslində məhəbbət dastanlarının struktur semantik üsulla tədqiqinin ilk mühüm pilləsini qoymuşdur. Biz də birinci məhəbbət dastanlarının quruluşunu M.H.Təhmasibin qurduğu bünövrə üzərində inkişaf etdirəcəyik. Bu da bizim tədqiqatımızın M.H.Təhmasibin tədqiqatından nə ilə fərqlənməsi kimi təbii bir sualı ortaya çıxarır.

M.H.Təhmasibin öz monoqrafiyasında dastanları struktur-semantik üsulla tədqiq etməsi haqqında özü yazmır. Tədqiqatçı, bizcə, bunu bilərəkdən edir. Belə ki, onun zəngin Azərbaycan dastançılığına həsr etdiyi bu nəhəng monoqrafiyası

heç də bütün əsər boyu yalnız struktur-semantik təhlil üsuluna əsaslanmır. Burada qəhrəmanlıq, ailə-məişət, qismən də məhəbbət dastanlarının həm də müqayisəli tarixi üsulla öyrənilməsi vardır. Beləliklə, burada morfoloji struktur baxımından daha çox məhəbbət dastanları tədqiq olunur. M.H.Təhmasib monoqrafiyanın məhəbbət dastanlarına həsr olunmuş iki yüz səhifəlik hissəsində Azərbaycan məhəbbət dastanlarının quruluşunu müqayisə yolu ilə onlar üçün ümumi olan strukturu qura və bu strukturun ümumi morfoloji elementlərini aşkarlaya bilir. Bu tədqiqat istər öz dövrü, istərsə də bütün aktual məqamları ilə birgə Azərbaycan məhəbbət dastanlarının poetik istiqamətlərindən, o cümlədən struktur poetikası baxımından öyrənilməsini inkar etmir. Başqa sözlə, M.H.Təhmasib məhəbbət dastanlarının ümumi strukturunu təsvir edir və həmin strukturun tərkib hissələrini – morfoloji xassəli elementlərini şərh edir. Bu təsvir və şərh bütün dəyərləri ilə bərabər, bu gün öz təbii davamına, inkişafa möhtacdır. Başqa sözlə demiş olsaq, M.H.Təhmasibin Azərbaycan məhəbbət dastanlarının struktur üsulla öyrənilməsi sahəsindəki qurduğu bünövrə inkişaf etdirilməli, bu əsasda yeni-yeni tədqiqatlar meydana çıxmalıdır. Ona görə ki, mətnin struktur-semantik istiqamətdə tədqiqi baxımından dünya folklorşünaslığında çox böyük uğurlar əldə edilmişdir. Həmin uğurlar zəngin dastançılıq ənənələrimizə bir daha qayıtmağı bizdən tələb edir. Məhz bu uğurların prizmasından məhəbbət dastanlarının

struktur-semantik tədqiqini daha da inkişaf etdirmək, həm də M.H.Təhmasibin təsvir etdiyi strukturlara yeni rakurslardan yeni şərhlər vermək mümkündür. Dünya folklorşünaslığının uğurları ilə müqayisədə bu, Azərbaycan folklorşünaslığı üçün indi bir zərurətdir.

Məhəbbət dastanlarının quruluşunun struktur-semantik tədqiqi ona məhz bir mətn kimi yanaşmanı tələb edir. Bütöv dastana, onun quruluşuna, poetik sisteminə mətn kimi yanaşma dastanın quruluşunu yeni prizmadan anlamağa, o cümlədən bu quruluşun tərkib elementlərini məhz mətndaxili sistemdə funksiyaları, funksiyaların gerçəkləşmə məqamı olan funksional dinamika və s. baxımından öyrənməyə imkan verir. Bizim məhəbbət dastanlarının quruluşu ilə bağlı araşdırmalarımızı M.H.Təhmasibin analoji tədqiqatından fərqləndirən ən başlıca məqam budur. Bir cəhəti qeyd etmək istərdik ki, burada məhəbbət dastanlarının quruluşuna mətn kimi yanaşma M.H.Təhmasibin tədqiqatının nəticələrini qətiyyən inkar etmir. Əksinə, təsdiqləyir, yeni baxış bucaqlarından yeni elmi görüm, rekonstruksiya imkanları və s. verir. Morfoloji elementlərin mifoloji-poetik semantikasına enmək aktuallığını yaradır.

Məhəbbət dastanları hər şeydən qabaq mətndir. Mətn isə özəl, canlı və avtonom bir sistemdir. Onun özəlliyi, avtonomluğu, eləcə də canlılığı məhəbbət dastanlarını həm tək kimi, həm də Ümuminin qanunları ilə yaşayan, Ümuminin tərkib hissəsi kimi öyrənməyi tələb edir.

Məhəbbət dastanlarına mətn kimi yanaşma, təbii ki, bu mətni törədən, şərtləndirən dünyagörüşünü nəzərdə tutur. Başqa sözlə məhəbbət dastanları etnosun, indiki halda Azərbaycan-türk etnosunun dünyaya baxışının, dünya duyumunun – dünya modelinin dastan kodu ilə ifadəsidir. Dastanla onu törədən şüur-dünya modeli arasında birbaşa bağlılıq var. Həmin bağlılığın nəzəri mənzərəsinə qısaca da olsa diqqət etməliyik.

İvanov və Toporov slavyan mədəniyyəti əsasında göstərirlər ki, dünya modeli şəxsiyyət və kollektiv üçün davranış proqramıdır; belə ki, dünya modeli dünyaya təsir etməyə xidmət edən əməliyyatlar toplusunu, onların istifadə qaydalarını və səbəbləndirilməsini müəyyən edir (158, 7). A.Y.Qureviç də dünya modelini insanın bütün davranışlarında əsaslandığı mənbə sayır (148, 30). İvanov və Toporov yazırlar ki, dünya modeli insan davranışının müxtəlif formalarında və bu davranışın nəticələrində (məs., dil mətnləri, ictimai təsisatlar, maddi mədəniyyət abidələri və s.) gerçəkləşə bilər və hər hansı belə gerçəkləşmə mətn adlanır (158, 7).

Deyilən nəzəri fikirlərdən hasil olur ki, insanın dünya haqqında bilikləri onun şüurunda dünya modelini – dünya haqqında ümumiləşmiş təsəvvürlər toplusunu müəyyənləşdirir. Bu ümumiləşmiş dünya təsəvvürləri insanın bütün davranışlarını, bu davranışın nəticələrini idarə edir. İnsan öz dünya modelini həm öz davranışında, həm də yaratdıqlarında gerçəkləşdirir. Yəni insanın ibtidai mədəniyyət abidələri, mərasimləri, folkloru onun dünya modelini

əks etdirir. Bu baxımdan həmin obyektlər dünya modelini özündə gerçəkləşdirən mətnlərdir. Məsələnin bu tərəfindən çıxış etsək, Azərbaycan məhəbbət dastanları əski türk-oğuz dünya modelini realizasiya edən mətnlərdir. Bir mətn olaraq dastanların strukturu dünya modelindən gəlir. Beləliklə, Azərbaycan məhəbbət dastanlarına bir mətn kimi yanaşmaq onlara mətndə reallaşan dünya təsəvvürləri baxımından yanaşma deməkdir. Bu isə məhəbbət dastanlarının quruluşunu başa düşməyə, bu quruluşu şərtləndirən, onun sistemdaxili düzümünü müəyyənləşdirən amilləri görməyə və beləliklə, məhəbbət dastanlarının quruluş elementlərini tamamilə yeni gözdən dəyərləndirməyə imkan verir.

Yuxarıda dedik ki, məhəbbət dastanları bir mətn olaraq canlı və avtonom sistemdir. Onların xüsusi sistem olması, bu sistemin dünya haqqında etnosun ən ümumiləşmiş təsəvvürləri gerçəkləşdirməsi həmin sistemin ilk növbədə ən iri struktur vahidlərini aramağı tələb edir. Belə struktur vahidləri haqqında M.H.Təhmasib yazır ki, aşıq tərəfindən ifa edilən hər bir dastan, əgər belə bölmək mümkündürsə, üç hissədən: ustadnamə, dastan özü, bir də sondakı duvaqqapmadan ibarət olur (107, 62). Tədqiqatçı ehtimal etsə də, dastanın struktur bölgüsünü düzgün aparmışdır. Fikrimizcə, M.H.Təhmasibin bir qədər tərəddüd etməsinin səbəbi dastanın bu üç hissəsinin fiziki çəki (həcm) baxımından qeyri-bərabərliyi, kəskin dispraporsiyasıdır. Belə ki, istər ustadnamə, istərsə də duvaqqapma hissələri həcm baxımından dastanın əsas

süjeti ilə müqayisəedilməz dərəcədə kiçikdir. Digər tərəfdən də istər ustadnamələrin, istərsə də duvaqqapmaların dastanın əsas süjeti ilə birbaşa bağlılığının olmaması, bəlkə də, M.H.Təhmasibi tərəddüdlə, yəni, "əgər belə demək mümkündürsə" ifadəsi ilə danışmağa məcbur etmişdir.

Əslində istər ustadnamələrin, istərsə də duvaqqapmaların dastanın əsas süjeti ilə məhz süjet (hadisə, əhvalat) bağlılığı yoxdur. Ümumiyyətlə isə dərindən bağlanma var. Yəni Azərbaycan dastanının əsas kütləsində "ustadnamə-dastanözü-duvaqqapma" şəklində sıralanma mexaniki hadisə deyildir. Bu düzülüş sırası oturuşmuş dastançılıq ənənəsi olmaqla dərin semantikaya malikdir və bu düzülüşün təsadüfi olmadığını əsaslandırmaq ona bir mətn hadisəsi kimi struktur-semantik metodla yanaşmaqla mümkündür. Məhz belə bir yanaşma, "ustadnamə-dastanın özü-duvaqqapma" düzülüş sırasının süjetüstü hadisə olduğunu aşkara çıxara bilər. Yəni ustadnamənin dastanın əsas süjetinə, eləcə də sondakı duvaqqapmanı yenə də dastanın əsas süjetinə bağlayan süjet hadisəsi yox, süjetüstü poetik reallıqdır. Bu reallıq struktur-semantik təbiətlidir və bütün hallarda mətn hadisəsindən qıraqda şərh oluna bilməz. Bu reallığa ilk nəzəri baxış göstərir ki, ustadnaməni dastanın əsas süjetinə, eləcə də əsas süjeti duvaqqapmaya bağlayan əlaqələr işarə təbiətlidir. Həmin işarələri idarə edən məntiq süjeti də öz içinə almaqla dastanın özünü təşkil edən əsas süjetdən böyük hadisədir. Bu – mətn hadisəsidir və dastanın hissələri (ustadnamə-əsas süjet-

duvaqqapma) məhz mətnin məntiqi ilə bir-birilə qırılmaz əlaqədədir. Buradakı qırılmaz mətn məntiqinin mütləq hadisəsidir. Yəni müəyyən dastanın ustadnaməsiz olması belə (belə dastanlar, yəni ustadnaməsiz çap olunan dastanlar var) mətnin məntiqini poza bilmir. Çünki mətn ümumiləşmiş təsəvvürlərini – dünya modelini dastan kodu ilə realizasiya edir və bu ümumiləşmiş təsəvvürlər türk-oğuz etnosunun şüurunda bütöv olduğu (yarımçıq olmadığı) kimi, mətndə də hər hansı qlobal struktur elementinin formal yoxluğu mətnin məntiqini poza bilmir. Yəni ustadnaməsiz dastan yoxdur. Fikir etiraz doğura bilər və Azərbaycan dastanlarından, eləcə də başqa türk-oğuz xalqlarının sevgi dastanlarından ustadnaməsizliyə kifayət qədər geniş örnəklər verilə bilər. Ancaq məsələnin mahiyyəti heç də bununla bağlı yox, dastanın bir mətn kimi daxili strukturu ilə bağlıdır. Məhz dastanın mətn strukturu bizim diqqətimizi dastanın əsas süjetindən qıraqlara – dastanın poetik məkanının ən periferik təsir uclarına yönəldir. O uclara ki, dastan məhz həmin periferik poetik məkanları da içinə almaqla bir avtonom orqanizm kimi mövcuddur. Qeyd edək ki, dastanın quruluşuna poetik diaxroniyadan yanaşdıqda onun hissələrini giriş (ustadnamə) – süjet-sonluq (duvaqqapma) şəklində şərh etmək mümkündür. Ancaq bu hal məhəbbət dastanları üçün şərti strukturdur. Çünki burada yazılı mətnin poetik yanaşma tərzi var. Düzdür, yazılı mətnin strukturu öz arxetiplərində şifahi mətnlərdən, o cümlədən dastan mətnindən baş alıb gəlir. Ancaq indiki halda yazılı mətnin öz poetik qu-

ruluşu var və bu poetik qurumun məntiqi ilə məhəbbət dastanının poetik qurum məntiqi bir-birindən çox uzaq məsafələrdədir. Bu mənada məhəbbət dastanlarının mətn baxımından öz struktur məntiqi vardır.

Dastanın M.H.Təhmasib tərəfindən qeyd edilən, əslində üzdə olan iri hissələri (ustadnamə, dastanın özü, duvaqqapma) mətn baxımından ilk növbədə xronotop hadisəsi kimi təsnifə gəlir. Xronotopluq dastanın məkan-zaman hadisəsi olması deməkdir. Məhz poetik məkanın hissələri olmaq baxımından Azərbaycan məhəbbət dastanlarının mətni əslində iki hissəlidir: mətndənqıraq və mətndaxili hissələr. Burada ustadnamə və duvaqqapma mətndənqıraq hissəni, dastanın əsas süjeti isə mətndaxili hissəni təşkil edir. "Məntdənqıraq hissəsi" ifadəsi terminoloji baxımdan izaha ehtiyac duyur. "Mətndənqıraq" dedikdə heç də mətnə aid olmamaq nəzərdə tutulmur. Məsələyə mətnin xronotopundan, mətnin poetik məkanından yanaşmaq lazımdır. Yəni "mətndənqıraq" dedikdə də, "mətndaxili" dedikdə də məhz vahid Mətnin hissələri nəzərdə tutulur. Başqa cür desək, Vahid "total" Mətn özü Mətnçölü (mətndənqıraq) və Mətniçi (mətndaxili) hissələrə bölünür. Hər iki hissənin düzülüşündən "Total Mətn" alınır. Məsələnin mahiyyəti də elə bu düzülüşlə bağlıdır.

Göründüyü kimi, Mətndənqıraq hissə iki elementi nəzərdə tutur: Mətnönü və Mətnsonu. Mətnönü – ustadnamə, Mətnsonu isə - duvaqqapmadır. Bütün bunları sistemləşdirdikdə görürük ki, məhəbbət dastanlarının poetik strukturu

iki hissəli, üç elementli (üçüzvlü) quruma malikdir. Bunu bütün şərtilikləri ilə belə sxemləşdirmək olar:




Mətnin struktur elementlərinin ayrı-ayrılıqla öz semantikası olmaqla bərabər bunları bir xətt boyunca düzən struktur-semantik elementlərin semantik çəkilərinin müəyyənləşdirilməsi və bu semantik vahidlər arasında əlaqə bağlarının üzə çıxarılması Azərbaycan məhəbbət dastanlarının strukturunun öyrənilməsi baxımından bu gün aktual olan məsələdir.

Məhəbbət dastanları strukturuna zahiri baxış strukturun bu üç vahidi arasında əlaqələri, funksional dinamikanı görməyə imkan vermir. Zahirən ustadnamə ilə dastanın əsas süjeti arasında hadisə-süjet bağlantısı yoxdur. Azərbaycan aşıqları bir qayda olaraq məhəbbət dastanını ifa etməzdən qabaq dastana giriş kimi üç ustadnamə söyləyirlər. Ustadnamələrin ustad sözü, böyük sözü, ustad nəsihəti, öyüdü olduğunu nəzərə alsaq, bunların dastanın ifasında başlıca funksiyası birbaşa dinləyiciyə yönəldilmişdir. Başqa sözlə, aşıq dinləyiciyə nəsihət verir. Bu nəsihət tarixən müxtəlif

funksiyalar daşımışdır. Ancaq müxtəliflik bütün hallarda bir-biriylə bağlı olmuş, bir-birindən inkişaf etmişdir. Deyilənləri anlamaq üçün fikri bir qədər də incələyək.

Ustadnamələrin nəsihət, ata sözü, böyük sözü, öyüd olması göz qabağındadır. Əslində dinləyici bunları elə beləcə də, yəni ustadnamə - ustad sözü, nəsihəti kimi qəbul edir. Ancaq məsələnin mahiyyəti daha dərindir və ustadnamə ustad sözü, nəsihəti olmaqla dastanın əsas süjeti ilə qırılmaz semantik bağlarla əlaqələnir. Bu qırılmazlıq, semantik bağlılıq ustadnaməni proloq, giriş kimi dastanın – Total Mətnin vacib elementi kimi nəzərdə tutur. Təbii ki, ustadnamə ilə dastanın süjet mətni arasında olan semantik əlaqənin təbiəti, nə olması, nəyi nəzərdə tutması başlıca sorğu kimi ortaya çıxır. Məsələnin bütün mahiyyəti də elə bu sorğunun necə cavablanmasından asılıdır.

Ustadnamə dastanın qalan iki semantik vahidi (süjet mətni və duvaqqapma) ilə birlikdə eyni təbiətli işarəvi vahidlərdir. Ona görə də dastan strukturunun poetik istiqamətindən "oxucu" bu struktur vahidlərinin işarəvi təbiətinin açılmasını tələb edir. Dastan strukturunun bu üç vahidi müəyyən xronotop xətti boyunca düzülməklə dastanı törədən konkret şüur tipinin – dünya modelinin müəyyən informasiyasını vermiş olur. Dünya modelinə məxsus informasiyalar isə universal informasiyalardan olmaqla hansı mətnlərdən gerçəkləşmələrindən asılı olmayaraq eyni məzmunlu informasiyalardır. Yəni

bunlar Baş, Əsas dünya bilikləridir. Başqa sözlə desək, həmin informasiya dastanda bir, əfsanədə başqa, mərasimdə daha başqa təsvir dilləri (kodları) ilə ifadə olunmasına baxmayaraq məzmun eyniliyini qorumaqda davam edir. Bu baxımdan məhəbbət dastanları strukturunun üç vahidi (mətnönü, mətn, mətnsonu) ən iri, qlobal vahidlərdir. Vahidlərin struktur iriliyi onlardakı işarənin də universallığını şərtləndirir. Başqa sözlə, bunlar böyük tutumlu işarələr (simvollar) olmaqla daha iri, daha ümumi, daha universal olan məlumatı (dünya haqqında ümumiləşmiş təsəvvürlər toplusunu) təqdim etmiş olur. Bu baxımdan dastan strukturunun üç vahidi müəyyən məlumat təqdim edir. Həmin məlumatı açmağa çalışaq. Bu məlumatın açılışı ustadnamənin dastanın süjeti ilə əlaqəsinin spesifikasını açıb ortaya qoyur.

Ustadnamələr ustad nəsihətləridir. Diqqət etsək, bunlarda təqdim edilən nəsihətlər bütün rəngarənglikləri ilə eyni bir məzmunu ifadə edir. Başqa sözlə, ustadnamədəki fikirlər hamısı hökm şəklində ifadə olunur. Yəni bunların funksional gücü atalar sözlərinin mədəniyyətdəki funksional gücü ilə eyni mahiyyətlidir. Diqqət edək.

"Tahir-Zöhrə" dastanından Xəstə Qasımdan olan birinci ustadnamənin birinci bəndi:

*Dəli könül, nə divanə gəzirsən,*
*Bivəfa dilbərdən sənə yar olmaz!*
*Düz çıxmaz ilqarı, əhdi-peymanı,*
*Hərcayıda namus, qeyrət, ar olmaz... (33, 23)*

Yenə həmin dastandan Xəstə Qasımın ikinci ustadnaməsindən birinci bənd:

*Dəli könül, məndən sənə əmanət,*
*Demə bu dünyada qalım, yaxşıdır.*
*Bir gün olur, qohum-qardaş yad olu,*
*Demə ulusum var, elim yaxşıdır... (33, 23)*

Həmin dastandan Xəstə Qasımın üçüncü ustadnaməsinin birinci bəndi:

*Ay ariflər, heç kəs yalnız olmasın,*
*Yalnız işə daşdan divar deyərlər.*
*Bəzirgansan, aç mətahın xırd elə,*
*Ararlar, yükündə nə var deyərlər... (33, 24)*

"Əsli Kərəm" dastanından Dəllək Muradın birinci ustadnaməsindən birinci bənd:

*Adam oğlu, yol-ərkanı tanı, bil,*
*Yol-ərkan bilənin yeri dar olmaz.*
*Sirrini söyləmə qamu aləmə,*
*Bivəfa dilbərdən sənə yar olmaz... (33, 70)*

"Qurbani" dastanında Dəllək Muradın ustadnaməsindən bir bənd:

*...Namərd körpüsündən ölsəm keçmənəm,*
*Karvan olsam, mənzilinə düşmənəm,*
*Əlindən, camını alıb içmənəm,*
*Sağ əli sol ələ möhtac eyləmə... (33, 203)*

"Abbas və Gülgəz" dastanından üçüncü ustadnamə bütövlükdə:

*Bəd övladı əzəl başdan tanıram,*
*Çör-çöp yığar, yad ocağın yandırar,*
*Səhər durar, ar-namısın gözləməz,*
*Suyu tökər öz ocağın söndürər.*

*Ulğun cuşa gəlsə, köpük yağ olmaz,*
*Söyüd bar gətirsə, bağça-bağ olmaz,*
*Zibil təpə olmaz, küllük dağ olmaz,*
*Yel əsəndə alçaqlara endirər.*

*Abbas bu sözləri deyər sərindən,*
*Arxı qazın, suyu gəlsin dərindən.*
*El bir olsa, dağ oynadar yerindən,*
*Söz bir olsa, zərbi kərən sındırar. (33, 262)*

Nümunələri istənilən sayda artırmaq olar. İstər buradakı nümunələr və istərsə də Azərbaycan ustadnamə fondundan müraciət etmədiyimiz saysız sənət inciləri olan ustadnamələr bu şeir növünün bir funksional həqiqətini – buradakı fikirlərin oxucuya hökm şəklində ünvanlandığını təsdiq etmiş olur. Bu isə təsadüfi deyil və dastanın digər struktur vahidləri ilə qırılmaz bağlılıqdadır.

Prof.P. Əfəndiyev yazır: «Adından məlum olduğu kimi ustadnamə ustad sözü, ustad nəsihəti deməkdir. Belə şeirlərdə ən çox aşıqların dünyagörüşü, həyat hadisələrinə, dövrə münasibətləri, xalqa nəsihətləri ifadə edilmişdir» (55, 182). Prof. Ə.Mirəhmədov ustadnamələr haqqında yazır ki, belə şeirlər tərbiyəvi, fəlsəfi nəticələri tərənnüm etmək yolu ilə nəsihətamiz fikir söyləyir, məsləhət və öyüd verir (89, 212). Elçin və V.Quliyev ustadnamələri məhəbbət dastanlarının əvvəlində oxunan aforistik məzmunlu qoşmalar kimi səciyyələndirirlər (54, 99).

Yuxarıdakı sitatlarda məqsədimiz heç də diqqəti

ustadnamənin Azərbaycan şeir sistemindəki janr xüsusiyyətlərinə yönəltmək deyil. Məqsəd tədqiqatçıların bu şeirin funksional mahiyyətini necə səciyyələndirmələridir. Fikirlərdən də bəlli olduğu kimi, ustadnamələrdə insan, həyat, dünya haqqında ümumiləşmiş fikirlər ifadə olunur. Buradakı fikirlər əslində insanın həyatının bütün fiziki və mənəvi qatlarını əhatə etməklə insan və onun qavradığı dünyada ustadnamələrin toxunmadığı, əhatə etmədiyi bir sahə qoymur. Beləliklə, ustadnamələrdə insan və dünya haqqında ən ümumiləşmiş təsəvvürlər hökm şəklində ifadə olunur. Yəni bu hökmlər insan, onun həyatı, dünyası haqqında ümumiləşmiş, universal qaydalar, qanunlar, davranış sxemləri toplusudur. Ustadnamələr «Bu dünya necədir?», «Onda necə yaşamaq olar?», «Yaşamaq qanunları hansılardır?»- suallarına aydın, ətraflı cavablar verir. Beləliklə, ustadnamələrdə Azərbaycan-türk etnosunun minilliklərdən baş alıb gələn həyat təcrübəsi universal xarakterli hökmlər şəklində ifadə olunur. Onda təbii olaraq belə bir sual meydana çıxır: əgər ustadnamələrdə yaşamın universal qanunları ifadə olunursa, bunun dastan mətninə, əsas süjetə nə dəxli var? Bunlar birbaşa dinləyiciyə ünvanlanmayıbmı?

Dastan bütün hallarda dinləyiciyə ünvanlanır və bu mənada ustadnamələr dinləyici üçündür. Bu, öz-özlüyündə də funksional strukturunun başlıca mahiyyəti deyildir. Yəni bütöv dastan dinləyiciyə ünvanlanır və bu mənada ustadnamə ilə dastanın əsas süjetinin dinləyiciyə ünvanlanmalarında çəki fərqi

yoxdur. Bunlar dinləyiciyə eyni axarla, eyni funksional mahiyyətlə ünvanlanır. Ustadnamələrin Mətnönü kimi dastanın əsas süjeti-mətn ilə birbaşa, mahiyyət səciyyəli əlaqəsi yoxdur. Əlaqə başqa plandadır. Diqqət edək.

Dedik ki, ustadnamələrdə insan, dünya, həyat haqqında universal davranış stereotipləri hökm şəklində ifadə olunur. Yəni dəstanın poetik strukturunun bu hissəsində hökm qoyulur. Məsələnin bütün mahiyyəti də məhz bu hökmdədir. Ustadnamələri dastan strukturunun mətnönü elementi kimi mətnə bağlayan da elə bu hökmdür. Bu hökmlər isə təkrar edirik ki, universal sxemlərdir. Universal sxemlər olmaqla da dastan dünya modelinin ən ümumiləşmiş (Baş, Əsas) informasiyalarındandır. Həmin informasiyaların nədən ibarət olduğunu, hökmlərdə təqdim olunmuş imperativlərin (davranış əmrlərinin) dastanın əsas süjetində realizasiya olunan hadisələrlə əlaqəsini aşkarlamaq üçün hökmlərin (poetik imperativlərin) öz strukturuna baxaq.

Qeyd edək ki, ustadnamələrdəki poetik imperativlərin strukturunu müxtəlif prizmalardan gözdən keçirmək olar. Ən başlıcası semantik strukturdur. Onların məzmununun nəzərdən keçirilməsi hökm kimi gerçəkləşən poetik imperativin strukturunu anlamağa imkan yaradır. Bunun üçün bir qədər əvvəl verdiyimiz ustadnamə örnəklərindən seçmələr də kifayət edir:

*«Bivəfa dilbərdən sənə yar olmaz».*
*«Hərçayıda namus, qeyrət, ar olmaz».*

*«Demə bu dünyada qalım yaxşıdı».*
*«Yalnız işə daşdan divar deyərlər».*
*«Yol-ərkan bilənin yeri dar olmaz».*
*«Namərd körpüsündən ölsəm keçmənəm».*
*«Bəd övladı əzəl başdan tanıram»*
*«Söyüd bar gətirsə, bağça-bağ olmaz».*
*«Zibil təpə olmaz, küllük dağ olmaz».*
*«El bir olsa, dağ oynadar yerindən».*

Belə imperativ hökmlərə Azərbaycan məhəbbət dastanlarının, ümumiyyətlə, aşıq yaradıcılığının ustadnamə fondundan istənilən qədər örnək gətirmək olar. Fikrimizcə, örnəklərin sayını genişləndirməyə qətiyyən ehtiyac yoxdur. Ona görə ki, istənilən sayda nümunələrin gətirilməsindən asılı olmayaraq nəticə eyni alınacaq. Yəni poetik imperativlərin semantik strukturu bütün hallarda eynidir. Bunlar hamısı eyni semantik struktura malik olmaqla eyni poetik qayda-qanunlarla formalaşır. Yuxarıdakı örnəklərin semantik strukturuna diqqət edək:

***«Bivəfa dilbərdən sənə yar olmaz».***

Sevgililər vəfalı və vəfasız olur. Vəfalı dilbərdən sənə yar olar.

***«Hərçayıda namus, qeyrət, ar olmaz».***

İnsanlar hərçayı və həyalı olur. Hərçayıda namus, qeyrət, ar olmur. Namus, qeyrət, ar, həyalı, abırlı insanda olur. Onlarla otur, dur.

***«Demə bu dünyada qalım yaxşıdı».***

Bu dünyanın yaxşı və yaman üzü var. Dünya əbədi qalınacaq bir yer deyil. Fanidir. Onun faniliyini nəzərə al. Dünyanın yaman-yaxşı olduğunu da bil.

***«Yalnız işə daşdan divar deyərlər».***

Dünyada yalnızlıq (tənhalıq, təklik) və tək olmamaq var. Tək olma. Ellə, dostlarla, qohum-qardaşla ol. Təklik faciədir.

***Yol-ərkan bilənin yeri dar olmaz.***

Dünyanın yaşam qanunları var. Bu qanunları bilmədən yaşamaq olmaz. Onları bilməyən yaşaya bilmir, bilən isə yaşayır.

Fikrimizcə, yuxarıda seçmə şəklində verdiyimiz poetik imperativlərin bu cür axıracan davam etdirilməsinə ehtiyac yoxdur. Ona görə ki, poetik imperativlərin semantik strukturu bir-birində, sadəcə olaraq, təkrarlanır.

Yuxarıdakı nümunələrdən göründüyü kimi, ustadnamələrin poetik dünyasında real dünyanın qayda-qanunlarına münasibət hökm, göstəriş, əmr, yerinə yetirilməsi vacib olan qayda, pozulmaz qanun, başlıcası həqiqiliyinə, doğruluğuna şübhə edilməyən Dünya Sahmanı, Nizamı kimi verilir. Bu cəhət xüsusilə fikir verilməli məqamdır. Bunlar pozulmaz hökmlərdir. Bu hökmlərin ünvanlandığı dinləyicinin yaşadığı Dünyanın Nizam, Sahmanı bu hökmlərin yerinə yetirilib-yetirilməyəcəyindən asılıdır. Bu mənada ustadnamələr birbaşa onu həmin anda dinləyən dinləyiciyə yönəlib. Ustadnamə-dinləyici istiqaməti heç bir halda şübhə doğurmayacaq istiqamətdir. Ancaq bu istiqamət ustadnamənin yönəldiyi yeganə, vahid istiqamət deyildir. Ustadnamə öz semantik strukturu baxımından isə dinləyiciyə yox,

dastanın əsas süjetinə istiqamətlənir. Buna öncə sxem şəklində diqqət edək:




Göründüyü kimi, ustadnamələrdən həm dinləyiciyə, həm də dastanın əsas süjetinə semantik oxlar uzanır. Burada ustadnamədən dinləyiciyə uzanan semantik ox zahiri, üzdə olan və sübuta ehtiyacı olmayan bir istiqamətdir. Ustadnamədən dinləyiciyə doğru ünvanlanan istiqamət oxu eyni ilə dastanın mətn elementi və dinləyici, mətnsonu və dinləyici arasında var. Başqa sözlə, ustadnamə, əsas süjet və duvaqqapmadan ibarət vahid dastan bütövlükdə dinləyici-tamaşaçıya ünvanlanır. Bu baxımdan bu, mətnlə dinləyici arasında funksional istiqamətlərdən biridir. Bu istiqamətlər keyfiyyətindən asılı olmayaraq, bütün hallarda ifaçılıq adı altında şərh olunur. Yəni dastanla dinləyici, o cümlədən dastanın ilk struktur elementi olan ustadnamə ilə dinləyici arasındakı əlaqə dastanın ifaçılıq sisteminin tərkibinə daxil olan funksional əlaqədir və bu əlaqə ilə ustadnamənin dastanın əsas süjeti və duvaqqapması arasında olan əlaqələri eyniləşdirmək, eyni semantik cərgə boyunca düzüb şərh etmək olmaz. Əgər ustadnamə ilə dinləyici arasındakı əlaqə ifaçılıq

səciyyəli, ifaçılıq sisteminə daxil funksional əlaqədirsə, ustadnamə ilə dastan mətninin digər struktur elementləri arasındakı əlaqə isə semantik struktur əlaqəsi, bağlılığıdır. Yəni ustadnamələrdəki poetik imperativlər ifaçılıq funksional əlaqələri müstəvisində dinləyiciyə yönəlibsə, semantik struktur istiqamətindən dastanın **«İÇİNƏ»** – ilk növbədə onun əsas süjetinə (mətndaxili hissəsinə-mətn elementinə) yönəlmişdir.

Beləliklə, dastanın ustadnamə hissəsində dastanın epik dünyasının qayda-qanunları elan olunur, dastanın əsas süjetində isə bu qayda-qanunlar hekayələşdirilir, duvaqqapmada isə nəticələşdirilir. Fikrimizi sübut etmək üçün belə bir məlum həqiqəti burada təkrarlayaq ki, məhəbbət dastanlarında qəhrəmanların adlarını, kiçik süjet təfərrüatlarını çıxmaq şərti ilə məzmun bir-birini təkrarlayır. Təbii ki, biz buraya şeirləri aid etmirik və söhbət süjetdən gedir. Həmin ümumiləşmiş süjetin semantik mahiyyəti xeyrin-şər, haqqın-nahaq, mərdin-namərd, vəfalının vəfasız, sadiqin-xain və s. üzərində qələbəsindən ibarətdir. Əslində əsas süjetdə epik semantikanın məntiqi istiqaməti yalnız bundan ibarətdir. Burada daşlaşmış struktur var. Həmin struktura görə qəhrəman mübarizəyə başlayır və axırda antiqəhrəman üzərində qələbə çalır. Bu, dəyişməz strukturdur. Burada hadisələrin hansı finalla, yəni qəhrəmanın fiziki, yaxud mənəvi qələbəsi ilə qurtarması məsələnin semantik mahiyyətinə qətiyyən təsir etmir. Məhəbbət dastanlarının irfaniləşmiş məzmununda bu cəhət

xüsusilə aydın görünür. Dastanın sonunda sevgililər bir-birinə qovuşa da bilir, ölə də bilirlər. Onların fiziki baxımdan qovuşub (toy), qovuşmamalarından (yas) asılı olmayaraq, məhəbbət dastanlarında sevgililər haqqa qovuşurlar. Yəni onlar öz toyları, yaxud da yasları ilə yalnız bir aktı haqqın-nahaq üzərində qələbəsini realizasiya edirlər (bu məsələyə öz məqamında ətraflı toxunulacaq).

Dastanın əsas süjetində qəhrəmanın antiqəhrəman üzərindəki fiziki, yaxud mənəvi qələbəsi ilə dünya qanunlarının pozulmazlığı, ümumiliyi, universallığı təsdiq olunmuş olur. Başqa sözlə desək, dastanın ustadnamə hissəsində bəyan olunan universal dünya nizamı dastanın əsas süjet hissəsində əyani şəkildə təsdiq olunur. Fikrimizi bir qədər də əyaniləşdirib desək, ustadnamədə haqqın-nahaq, mərdin-namərd və s. üzərində qələbə çalacağının bu dünyanın ən ali qanunu olduğu hökm şəklində bildirilir. Dastanın əsas süjeti hökmün, tezisin realizasiyasından ibarət olur. Yəni ustadnamədəki hökm hadisə-əhvalat-hekayə ilə təsdiq olunur, duvaqqapma isə nəticəni bildirir.

Məhəbbət dastanlarında qəhrəman öz sevgilisinə qovuşursa, onların toyu olur və dastan duvaqqapma ilə bitir. Qəhrəmanlar ölürsə, onda cahannamə verilir. Dastanın finalının fiziki baxımdan iki işarə ilə (toy-müsbət, yas-mənfi) qurtarması, dastanın sonunun nəticə xarakterini dəyişmir və bu mənada həm duvaqqapma, həm də cahannamə dastan strukturunun zəruri semantik elementi kimi çıxış edir. Yuxarıda dedik ki, məhəbbət dastanlarında

qəhrəmanlar istər toyları, istərsə də ölümləri (yasları) ilə haqqın-nahaq üzərində qələbəsini gerçəkləşdirirlər. Yəni finalın iki işarəli olması dastana təklif etdiyimiz bu semantik strukturu inkar yox, təsdiq edir. Finalın, şərti desək, toy və yas üzləri ustadnamələrdə dünyanın mənası barədə manifestləşdirilən iki üz (haqq-nahaq, mərd-namərd, xeyir-şər və s.) haqqındakı hökmləri-semantik imperativləri yalnız təsdiq edir. Bütün bu deyilən nəzəri fikirləri yekunlaşdırıb dastanın semantik strukturuna nəticə verək.

Beləliklə, dastanın ustadnamə, əsas süjet və duvaqqapmadan ibarət strukturu bir-biri ilə çox ciddi semantik bağlarla əlaqədardır. Ustadnamədə hökm(-lər) qoyulur, əsas süjetdə bu hökm(-lər) təsdiq olunur, finalda duvaqqapma, yaxud cahannamə şəklində nəticələşdirilir. Bu baxımdan biz Azərbaycan məhəbbət dastanlarına belə bir semantik struktur təklif edirik:

| **Ustadnamə** | **Əsas süjet** | **Duvaqqapma Cahannamə** |
|---|---|---|
| *Hökm* | *Təsdiqi* | *Nəticəsi* |

Yuxarıda demişdik ki, M.H.Təhmasib məhəbbət dastanlarının süjet strukturunu Azərbaycan məhəbbət dastanlarının zəngin fondu əsasında öyrənmiş və əslində məhəbbət dastanlarımız üçün universal olan süjet

modelini qura bilmişdir. Bu baxımdan o, nağılların morfoloji strukturu haqqında V.Y.Proppun tədqiqatlarının struktur metodundan uğurla istifadə etmişdir. Bunun belə olduğunu folklorşünas alim Ramazan Qafarlı da müşahidə etmişdir. O yazır ki, Azərbaycan folklorşünaslığında V.Y.Proppun «morfoloji sistemi»ndən nağılllların deyil, dastanların tədqiqində istifadə edilməsinə rast gəlirik. «Hər bir dastan, yəni əsərin əsas süjeti, məşhur sovet alimi V.Proppun sözləri ilə desək, mübarizədən ibarətdir» yazan M.H.Təhmasib məhəbbət dastanlarının sujetində dörd funksiya olduğunu göstərir" (83, 136).

Qeyd edək ki, M.H.Təhmasib dastan süjetində gördüyü dörd hissəni universal sistem kimi və bizcə haqlı olaraq, dastanların demək olar ki, bütün təsnifat qatlarına aid edir. O yazır ki, məhəbbət dastanlarımızın demək olar ki, hamısının, «Kitabi-Dədə Qorqud» və «Koroğlu» kimi qəhrəmanlıq dastanlarımızın da bir sıra boy və qollarının əsas məzmunu, yəni süjeti qəhrəmanın öz butasına çatmaq uğrunda apardığı mübarizənin təsvirindən ibarətdir. Bu süjeti, əhvalatı, əsasən, dörd hissəyə bölmək olar:

***I. Qəhrəmanın anadan olması və ilk təlim-tərbiyəsi***

***II. Qəhrəmanların, yəni Aşiq və Məşuqənin buta almaları***

***III. Qabağa çıxan maneələr və onlara qarşı mübarizə***

***IV. Müsabiqə və qələbə (107, 65)***

Qeyd edək ki, tədqiqatçı məhəbbət dastanlarına (o cümlədən bu silsiləyə bağlı qeyri-məhəbbət

dastanlarına) verdiyi bu süjet strukturu üzərində sonrakı tədqiqatlarında da təkid etmiş və ona dəyişməz struktur kimi baxmışdır (83, 4).

M.H.Təhmasibin məhəbbət dastanları silsiləsinə daxil olan dastanlara verdiyi bu süjet strukturuna struktur-semantik prizmadan yanaşmazdan qabaq deyək ki, tədqiqatçının bu strukturu təkcə məhəbbət dastanlarına deyil, eyni zamanda «Kitabi-Dədə Qorqud» və «Koroğlu» kimi qəhrəmanlıq dastanlarının bir sıra boy və qollarına aid etməsi təsadüfi deyildir. Fəslin əvvəlində qeyd etdik ki, məhəbbət dastanlarının poetikası bütövlükdə folklor poetikasıdır və folklor poetikası ilə məhəbbət dastanlarının poetikası arasında keçid qatları var:

Folklor poetikası-epik folklor poetikası-epos (dastan) poetikası-məhəbbət dastanlarının poetikası.

Folklorşünas R.Qafarlı belə hesab edir ki, M.H.Təhmasibin süjet bölgüsü süjetin inkişaf xəttini adekvat əks etdirmir. O, bu xüsusda yazır ki, V.Y.Proppdan fərqli olaraq, M.H.Təhmasib süjetin hissələrini bir-biri ilə əlaqəli şəkildə təhlilə cəlb edir. Lakin nə qədər maraqlı mülahizələr irəli sürsə də, süjetin inkişaf xəttinə yardım edən elementləri tam aydınlığı ilə göstərə bilmir (83, 137).

Qeyd edək ki, R.Qafarlının bu fikirlərində razılaşılmayan iki mülahizə var. Əvvəla ona görə ki, V.Y.Proppun «Nağılların morfologiyası» (1928) əsərində əsas tədqiqat obyekti sehirli nağıllar olmaqla nağıl süjetinin morfoloji funksiyalarının düzülüşü kimi təqdim olunan süjeti ətraflı təsvir olunur. Alimin sehiri

nağılların tarixi qaynaqlarına həsr olunan başqa bir monoqrafiyasında (26) isə sehirli nağılın süjeti məhz süjet hissələrinin bir-biri ilə əlaqəsi baxımından hərtərəfli tədqiq olunur və bu baxımdan onu bu məsələdə suçlamaq yerində deyil. Məşhur nağılşünas Y.A.Kostyuxin yazır ki, sehirli nağıllar şifahi xalq nəsrinin janr baxımından ən müəyyən süjetlər qrupunu təşkil edir. Onların çoxu (V.Y.Propp tərfindən təsvir edilmiş) vahid kompozisiyalı sxemi əsasında qurulub və dəqiq müəyyənləşmiş funksiyaları olan məhdud personaj toplusuna malikdir (168, 115).

Göründüyü kimi, sehirli nağılın süjet-kompozisiyası V.Y.Propp tərəfindən mükəmməl təsvir edilib və bu mükəmməlliyə nağıl süjetləri hissələrinin bir-biri ilə əlaqəli şəkildə təhlili də daxildir.

Digər tərəfdən R.Qafarlı, M.H.Təhmasibin dastan süjetinin inkişaf xəttinə yardım edən elementləri tam aydınlığı ilə göstərmədiyini yazır. Bizcə, bu fikir də düzgün deyildir. Ona görə ki, əslində M.H.Təhmasib dastan süjetini məhz inkişafda götürülmüş epik sxemlər kimi təsvir edir və süjetin bütün elementlərini dastan süjetinin inkişaf dinamikası boyunca araşdırır. Fikrimizcə, R.Qafarlının, M.H. Təhmasibin dastan süjeti strukturunun təsvirində nə iləsə razılaşmaması, yaxud alternativ struktur sxemləri təklif etməsi tam qanuni və təbiidir. Elmin inkişafı məhz tədqiqatlara söykənir. Bu mənada M.H.Təhmasibin də təklif etdiyi sxemlərin təhlilə, təshihə, bir sözlə, öz təbii davamına, inkişafına ehtiyacı var. Buna görə də R.Qafarlının

M.H.Təhmasibin təklif etdiyi süjet strukturu ilə bağlı mülahizələrinə diqqət edək.

Bir qədər əvvəl göstərdik ki, M.H.Təhmasib dastanın süjetini dörd hissəyə bölür: 1) qəhrəmanın anadan olması və ilk təlim-tərbiyəsi; 2) qəhrəmanların, yəni Aşiq və Məşuqənin buta almaları; 3) qabağa çıxan maneələr və onlara qarşı mübarizə; 4) Müsabiqə və qələbə (107, 65). R.Qafarılı bu bölgü ilə razılaşmayaraq yazır ki, məgər nağılların süjetini ədəbiyyatşünaslıqda qəbul olunub sınaqdan çıxarılmış ənənəvi qaydada mərhələlərə bölmək mümkün deyilmi? M.H.Təhmasibin funksiyalar (əslində süjet hissələri-M.C.) bölgüsünü diqqətlə nəzərdən keçirdikdə aydın görürük ki,

- Dastan süjetlərinin ekspozisiyası birinci (qəhrəmanın anadan olması və ilk təlim-tərbiyəsi),
- zavyaskası ikinci (qəhrəmanların, yəni Aşiq və Məşuqənin buta almaları),
- kuliminasiyası üçüncü (qabağa çıxan maneələr və onlara qarşı mübarizə),
- razvyazka (müsabiqə) və finalı (qələbə) dördüncü funksiya ilə üst-üstə düşür (83, 137).

Beləliklə, R.Qafarlı M.H.Təhmasibin dastan süjeti üçün təklif etdiyi dördhissəli sxemi yazılı bədii ədəbiyyatın süjeti üçün ədəbiyyatşünaslığın tətbiq etdiyi Ekspozisiya-Zavyazka-Kuliminasiya-Razvyazka-Final sxemi ilə müqayisə edir və daha məqbul sxem kimi ikincini məqbul sayır. Fikrimizcə, R.Qafarlının dastan süjeti strukturunu bədii ədəbiyyatın strukturu ilə məhz həmin «ənənəvi» sxem

əsasında müqayisə etməsi və yenə də həmin sxem əsasında öyrənməyi təklif etməsi mümkünsüz işdir. Burada bir sıra prinsipial məqamların nəzərə alınmaması göz qabağındadır.

Birincisi, dastan süjeti ilə bədii ədəbiyyatın süjetinin məhz ikinci üçün uzun müddət tətbiq olunmuş sxem əsasında müqayisəsinin aparılması folklor hadisəsi olan dastanla bədii epik mətn arasında fərqləri nəzərə almamaq deməkdir. Dastan epik folklordur, bədii ədəbiyyatın hər hansı epik hadisəsi isə yazılı ədəbiyyatdır. Diaxronik baxımdan ədəbiyyat folklorun davamı, təbii inkişafı olsa da, sinxronik müstəvidə bunlar məhz yuxarıda R.Qafarlının təklif etdiyi süjet sxemi əsasında dura, müqayisəyə gələ bilmir. Folklorla ədəbiyyatın süjet strukturu üçün məhz ədəbiyyatın süjet sxeminin təklif edilməsi, sadəcə olaraq, folklorla yazılı ədəbiyyatın eyniləşdirilməsi, eyni bir hadisə kimi qavranması deməkdir. Bu isə bədii düşüncənin keçdiyi folklor-ədəbiyyat təkamülünün inkarıdır.

İkincisi, folklorla ədəbiyyat eyni sxem əsasında öyrənilə bilər. Bu baxımdan dastan süjeti ilə yazılı epik mətnin süjetini birləşdirən, daha doğrusu, hər iki süjet hadisəsini ortaq məqamlardan təsvir edə bilən süjet sxemi təbii ki, obyektiv şəkildə var. Yazılı ədəbiyyat folklorun davamı kimi meydana çıxır. Bu baxımdan istənilən yazılı epik süjetin arxetiplərində folklorun arxetipik süjet praformaları durur. Folklorun süjet arxetipləri yazılı epik mətnin süjetlərində alt qat, daşlaşmış süjet strukturları şəklində mövcuddur. Bu

baxımdan dastanla yazılı epik mətnin strukturunda, o cümlədən süjet strukturunda, təbii ki, ortaq, eyni məqamlar var və təklif olunmuş hər hansı süjet sxemi məhz bu eyniliklər, ortaqlıqlar prinsipləri əsasında qurulmalıdır. R.Qafarlının təklif etdiyi «ənənəvi» sxem isə belə bir sxem deyildir.

Üçüncüsü, bədii ədəbiyyatın süjeti üçün XX əsr sosializm realizmi ədəbiyyatşünaslığında tətbiq olunmuş süjet sxemi (ekspozisiya-zavyazka-kuliminasiya-razvyazka-final) əslində tamamilə şərti bir sxem olmaqla universal deyildir. Bu sxem sosializm realizminin bədii ədəbiyyatdan tələb etdiyi «həyatı daim inqilabi inkişafda təsvir etmək» prinsipini əks etdirən ideoloji bir sxemdir. Folklor mətninin, məhəbbət dastanı süjetinin «həyatı daimi inqilabi inkişafda təsvir edən» bir süjet sxemi əsasında təsvir olunması folklor tarixi gerçəkliyi ilə uzlaşmır.

Dördüncüsü, dastan başdan-ayağa formullar əsasında qurulur. Bu formullar daşlaşmış, donuq düsturlardır. Həmin düsturlar onu yaradan etnosun ilkin, qədim dünyagörüşləri ilə bağlı olmaqla irimiqyaslı zaman hüdudlarında biçimlənmə prosesi keçirmişdir. Bu baxımdan məhəbbət dastanı mətnində bədii epik mətnlərə məxsus olan hərəkət istiqamətlərinin dinamika sərbəstliyi qətiyyən yoxdur. Dastanın çox sərt pozulmaz strukturu var və heç bir dastançı bu strukturdan qırağa çıxa bilməz. Məhz bu baxımdan bütün məhəbbət dastanları süjet strukturu baxımından, sadəcə olaraq bir-birlərini təkrarlayırlar. Bu təkrarçılıq əslində hərfi təkrarçılıq deyildir. Yəni

bir dastançı dastan yaradarkən artıq mövcud olan başqa bir dastanın süjet strukturunu sadəcə təkrar etmir. Burada məsələnin mahiyyəti tamamilə başqa cürdür. Dastançı ənənəvi formullarla işləyir. O, bütün yaradıcılığını, bütün istedadını məhz bu formulların bütün dastanlarda təkrarlanan statik strukturu, donuq çərçivəsi əsasında nümayiş etdirməlidir. O, dastan formullarının düzülüş sırasını (dastanın sintaktik strukturu) dəyişməkdə sərbəst deyildir. Dastanın strukturunda o, heç bir formulun yerini dəyişə bilməz. Ona görə ki, bu formulların ənənəvi düzülüş sırası var. Həmin düzülüş sırasına dəyişiklik etmək dastançının heç ağlına da gəlmir. Bunun səbəbləri məhz folklor adlanan hadisə ilə bağlıdır və həmin səbəblər bir kompleks şəklində yazılı ədəbiyyatda özünü göstərmir. Yazılı ədəbiyyat süjetinin strukturunda bu cür statiklik, donuqluq, sabitlik yoxdur. Təbii ki, yazılı ədəbiyyat süjetinin də özünəməxsus süjet qəlibi var. Ancaq məhəbbət dastanlarındakı süjet qəlibi ilə, tutaq ki, romanın süjet qəlibi heç müqayisəyə gəlmir. Dastanın süjet qəlibi ilə müqayisədə romanın süjet qəlibi görünmür, ümumiyyətlə, yox təsiri bağışlayır.

Məhəbbət dastanlarının statik strukturunu şərtləndirən amillər qapalı bir sistemdir və bu sistemin üç qlobal elementi var: dastançı-dastan-dinləyici. Bu baxımdan dastançının şüurunda mövcud olan dastan süjetinin hazır qəlibi ilə dastançılıq ənənəsində mövcud olan dastanların süjet qəlibi və dinləyicinin şüurunda mövcud olan dastan süjeti qəlibi eynidir.

Başqa sözlə, bu süjet strukturu-qəlibi universaldır. O, sinxron yaruslar üzrə üç avtonom sistemdə (dastançı təfəkküründə, dastanın özündə və dinləyici yaddaşında) eyni şəkildə mövcuddur. Bu anlamda həmin sistemlər qapalı dairəni təşkil edir:

**DASTAN**



**DASTANÇI DİNLƏYİCİ**

Burada sistemin qapalılığı dastan süjetinin anlanması, başa düşülməsi baxımından çox mühüm amil kimi diqqəti çəkir. Nəzərə alınmalıdır ki, məhəbbət dastanı süjetinin statik strukturu bu dastanın mövcud olduğu, yaşadığı ifaçılıq sisteminin qapalılığından irəli gəlir. Yuxarıdakı sxemdən göründüyü kimi, dastançı-dastan-dinləyici qapalı sistemində bu sistemi təşkil edən üç elementdən heç birinin nə informasiyanın qəbulunda, nə də ötürülməsində kənara, çölə sistemdən qırağa nə çıxışları, nə də girişləri yoxdur. Bu, qapalı bir sistemdir. Dastanın süjet strukturu da içində yaşadığı həmin ifaçılıq sisteminə uyğun olaraq qapalıdır. Yəni bu ifaçılıq sistemində hərəkət eyni faktorların təkrarı üzərində qurulur. Bu təkrarçılıq isə həmin faktorları statik formullara çevirir. Fikrimizi bir qədər sadələşdirsək, dastan süjetində nə varsa, yaşı bilinməyən bir dövrdən təkrarlana-təkrarlana gəlir və bu təkrarçılığın özü daşlaşıb. Ona görə, nə dastançı,

nə dastan, nə də dinləyici bu sistemdən qırağa çıxmır və hər şey təbii qəbul olunur. Əgər bədii ədəbiyyatın hər hansı bir mətni başqa bir mətndə məhz dastanda olduğu kimi «təkrar» olunsa, onda onun təkrar olduğu poetikada işarələndirilir. Məlum-məşhur bir məsələyə istinad edək ki, XII əsr şairi N.Gəncəvinin dastan-məsnəvilərini xüsusilə süjet, o cümlədən digər poetik elementlər baxımından məhz «təkrarlayan» çoxlu əsərlər meydan gəldi. Orta əsr ədəbiyyatşünaslığı bunu xüsusi işarə ilə-«nəzirə ədəbiyyatı» adı altında qəbul etdi. Dastançılıqda isə belə təkrarçılıq işarəsi yoxdur. Çünki dastançılıq yaradıcılıq kodu bugünkü bədii düşüncə faktı olan təkrarçılıq faktını sadəcə olaraq «tanımır». Təkrarçılıq folklor əsəri süjetinin mövcudluq faktıdır. Bu baxımdan folklorun canını, ruhunu təşkil edən təkrarçılıq faktı ilə yazılı ədəbiyyatdakı «təkrarçılıq» tamamilə fərqli hadisələrdir.

Dedik ki, dastançı-dastan-dinləyici sistemi qapalıdır və bu mənada bu sistemi təşkil edən heç bir elementin sistemdən qırağa-çölə birbaşa çıxışı yoxdur. Onda, təbii ki, belə sual meydana çıxır: hər hansı bir sistem başqa sistemlərdən təcrid olunmuş mühitdə mövcud ola bilməz. Dünya strukturu baxımından yanaşı sistemlər var və bu sistemlər bir-birindən əlaqəsiz mövcud deyildir. Onda qapalı olan ifaçılıq sistemi bütövlükdə əlaqələrsiz necə inkişaf edər?

Təbii ki, dastançı-dastan-dinləyici qapalı ifaçılıq sistemi bir sistem kimi daim inkişafdadır. Belə olmasaydı, biz Azərbaycan dastançılığının inkişafının

şahidi olmazdıq. Məhəbbət dastanları orta əsrdə məhz məhəbbət dastanları kimi ümumi dastançılıq ənənəsindən, əslində qəhrəmanlıq dastanları sistemi kimi səciyyələndirilən sistemdən inkişaf edib, üzvlənib. Bu mənada dastançılıq sisteminin öz strukturunda qapalı olsa da, bir sistem kimi bu qapalılığın kənar sistemlərlə çıxışı və girişi, əlaqələri var. Bu əlaqələrlə yazılı ədəbiyyatın mövcud olduğu yazıçı-bədii mətn-oxucu sistemində mövcud olan sistemlərarası əlaqələr arasında keyfiyyətcə tamamilə böyük fərqlər var. Belə ki, yazılı ədəbiyyatın yazıçı-bədii mətn-oxucu kontekstində hər bir üzvün kontekstdən qıraqla özünün birbaşa əlaqəsi var. Yazıçı nəyi və necə yazmaqda sərbəstdir, bədii mətn müxtəlif dillərə tərcümə olunaraq kənar kontekstlərə sərbəst hərəkət edir, o cümlədən oxucu nəyi oxumaqda və necə qavramaqda tam sərbəstdir. Məhəbbət dastanının mövcud olduğu dastançılıq sistemi isə qapalıdır və bu sistemin kənar sistemlərlə, ətrafla, qıraqla, çöllə özünün hər hansı üzvünün sərbəst əlaqəsi vasitəsi ilə yox, sistemlərin öz arasında gedir və əlaqənin nəticələri eyni zamanda həmin sistemin üç üzvünə (dastançı-dastan-dinləyici) eyni zamanda aid olur. Məhz bu cəhət sistemin qapalılığından irəli gəlməklə həm də eyni zamanda onun qapalılığını şərtləndirir.

Məhəbbət dastanlarının mövcud olduğu dastançılıq sistemi qapalıdır. Bu qapalılıq təkrarçılıq şəklində gerçəkləşir. Əslində bu qapalılıq-təkrarçılıq folklorun mahiyyəti olmaqla, məhəbbət dastanlarının

bütün struktur sferasını əhatə edir. Yəni məhəbbət dastanları süjetində mövcud olan bütün irili-xırdalı təkrarlar məhəbbət dastanları süjetinin öz qapalılığından soraq verir. Bizi indiki halda maraqlandıran məhəbbət dastanları quruluşunun-strukturunun məhz bu aspektdən anlanmasıdır. Bu anlama üçünsə məhəbbət dastanlarının quruluşunu inkişaf kontekstində götürmək lazımdır. Yəni məhəbbət dastanlarının statik süjet strukturu var, həmin statik strukturun funksional dinamikasının tapılması həmin strukturu daxili dəyişikliklər müstəvisində öyrənməklə mümkündür. Belə daxili dəyişikliklər konteksti isə məhəbbət dastanlarının ümumi dastanlar sistemindən üzvləndiyi, öz differensial əlamətləri ilə ayrıca qrupu təşkil etdiyi vaxtın başlanğıcı, yəni əslində qəhrəmanlıq dastanlarından poetik əlamətləri ilə ayrıldığı vaxtın özüdür.

Məhəbbət dastanlarının quruluşu əvvəldə şərh etdik ki, mətnönü-mətn-mətnsonu elementlərinin sıralanması kimi strukturlaşır. Başqa sözlə, dastan ustadnamə-dastanın süjeti-duvaqqapma (cahannamə) hissələrindən ibarətdir. Fəslin əvvəlində mətnönü (ustadnamə) və mətnsonu (duvaqqapma-cahannamə) elementlərinin işarəvi təbiəti aydınlaşdırıldı. İstər mətnönü, istərsə də mətnsonu əsas mətnlə (dastanın süjeti) birbaşa semiotik əlaqədədir. Bu əlaqə, doğrudan da semiotikdir, yəni işarəvidir. Bu əlaqələri işarədən qıraqda təsəvvür etmək mümkün deyildir. Çünki ustadnamələrdəki fikir imperativlər-hökmlər şəklində gerçəkləşir. Duvaqqapma-cahannamələr də

yenə də nəticəvi hökmlərdir. Dastanın mətni isə süjet hadisəsidir. Yəni mətnönü ilə mətnsonu qeyri-süjet, mətn isə süjetdir. Bu baxımdan onların ortaq məqamı, birləşdirici bağları süjet mənşəli element ola bilməz. Bu əlaqə süjetüstü əlaqə, yəni mətn əlaqəsidir. Ustadnamə ilə duvaqqapma-cahannamənin dastan süjeti ilə əlaqəsini mətn əlaqəsi kimi, semiotik-işarə əlaqəsi olaraq qəbul etmədən bu əlaqələri anlamaq olmaz. Yəni bu əlaqələr süjet əlaqələri deyil, süjetdən üst qatda dayanan mətn mənşəli əlaqələrdir. Bu baxımdan həmin əlaqələr mətnönü ilə mətnsonunun mətnlə əlaqələri kimi şərh olunmalıdır. Yəni Total Mətn var və bu Total Mətn bir qapalı sistemdir. Təbii ki, hər bir sistemin avtonom orqanizm kimi struktur elementləri var. Bu baxımdan Total Mətnin başlanğıcı mətnönü (ustadnamə), sonu isə mətnsonudur (duvaqqapma-cahannamə). Mətnönü ilə mətnsonu Total Mətnin çölünü, qırağını, qabığını təşkil edir. Nüvədə-içəridə mətn (dastanın süjeti) dayanır. Beləliklə, məhəbbət dastanı bir bütöv olaraq mənalı elementlərin düzülüş sırasıdır. Bu elementlərdəki hər bir başlıca məna işarədir. Ustadnamədəki işarələr dastanın əsas süjetində təsdiqlənir, yəni hadisələr şəklində gerçəkləşir. Hadisələr də eyni zamanda işarəyə çevrilir və mətnsonunun hansı işarə şəklində qurulacağını, yəni duvaqqapma, yaxud cahannamə şəklində gerçəkləşəcəyini şərtləndirir. Beləliklə, dastanın quruluşunda mətn səviyyəsində elementlər mənalı işarələrin-semiotik vahidlərin düzülüş sırası kimi təşkil olunur. Bu düzülüş sırasında dinamika,

hərəkət, funksiyalaşma strukturun mətn qatında (dastanın süjetində) gedir. Bu baxımdan dastan strukturunun, o cümlədən onun mətn (süjet qatındakı dinamikanı aşkarlamaq, Total Mətnin strukturunun işarəvi təbiətini açıqlamaq, məhəbbət dastanı strukturunun statizminin təbiətini anlamaq üçün, yuxarıda dediyimiz kimi, həmin statikliyin üzvləndiyi, təşəkkül tapdığı vaxta-məhəbbət dastanlarının qəhrəmanlıq dastanlarından differensasiya etdiyi məqama qayıtmaq lazım gəlir. Bu, bir zərurətdir. Çünki məhəbbət dastanlarının struktur semantik istiqamətindən öyrənilməsi, əvvəldə şərh etdiyimiz kimi, dastana bir mətn kimi yanaşmağı tələb edir. Mətn isə mənalı işarələrdən-semiotik vahidlərdən qurulur və gördük ki, doğrudan da, məhəbbət dastanlarının Total Mətni mətnönü-mətn-mətnsonu işarələrinin sıralanması kimi qurulur. Çox maraqlı məntiqi «sillogizm» təzahür edir və həmin «sillogizmin» şərhi isə bizim burada məhəbbət dastanlarının işarəvi quruluşu haqqında şərhimizin bundan sonrakı davamını da şərtləndirir. Şərti olaraq «sillogizm» adlandırdığımız bu məntiqi mühakimə isə bundan ibarətdir: Məhəbbət dastanlarının quruluşunu təşkil edən mətnönü-mətn-mətnsonu elementləri işarələrdir. Demək bunların düzülüş sırası kimi təşkil olunan Total Mətnin özü də işarədir. Yəni mətnönü (ustadnamə) mətnin (süjetin), mətn isə mətnsonunun (duvaqqapma-cahannamənin) işarəsi kimi çıxış edir. Mətnsonu sanki işarə təsiri bağışlamır. Əslində belə deyildir. Mətnsonu ilə dastan mətninin təqdim etdiyi

işarələr sistemi tamamlanır və burada strukturdakı bütün işarələr Total İşarəyə, yəni Total Mətnə çevrilir. Beləliklə, Total Mətn də işarədir. Onda belə bir sual meydana çıxır: Total Mətn nəyin işarəsidir?

Total Mətn bütöv dastanın özüdür. Məhəbbət dastanlarının Azərbaycan dastançılıq ənənəsinin total fondundan məhz məhəbbət dastanı olması baxımından fərqləndiyini nəzərə alsaq, məhəbbət dastanları-məhəbbət mətnləridir. Beləliklə, məhəbbət dastanlarının Total Mətn kimi başlıca işarəsi məhəbbət amilidir. Total Mətnin işarəsi kimi məhəbbət dastanlarında məhəbbət artıq işarəyə-semiotik vahidə çevrilir. Məhəbbət dastanlarının məhəbbət semiotik vahidi-işarəsi dastanı Total Mətn kimi artıq başqa işarəli dastanlar (başlıca olaraq qəhrəmanlıq dastanları) kontekstinə qaldırır. Beləliklə, məhəbbət dastanlarının öz daxili strukturundan (Mətnönü-mətn-mətnsonu işarələr sırası) çıxış etməklə onun məhəbbət işarəsini şərh etmək mümkün deyildir. Çünki Total Mətnin özünün bütövlükdə işarəsi onu təşkil edən elementlərin işarəsindən həm həcm, həm də funksional məna sahəsinin miqyasları baxımından çox böyükdür. Yəni hər hansı mətnin bir mətn kimi təbiəti onun öz daxili elementləri ilə müqayisədə yox, onunla eyni sırada dura bilən paralel mətnlərlə sinxron mətnlər sırası ilə müqayisədə üzə çıxa, şərh oluna bilər. Bu baxımdan məhəbbət dastanlarının Total Mətn kimi təqdim etdiyi məhəbbət işarəsinin təbiəti qəhrəmanlıq dastanlarının Total Mətn kimi

qəhrəmanlıq işarəsi ilə müqayisədə aydın şərh oluna bilər.

M.H.Təhmasib Azərbaycan dastanlarını aşağıdakı şəkildə təsnif etmişdir:

**I. Qəhrəmanlıq dastanları.**

1. Qədim bahadırlıq nağılları, sehirli nağıllar və əsatiri görüşlərlə səsləşən qəhrəmanlıq dastanları.

2. Tarixi hadisələrlə səsləşən qəhrəmanlıq dastanları.

3. Adi qəhrəmanlıq dastanları.

**II.Məhəbbət dastanları.**

1. Məhəbbətlə qəhrəmanlığın hüdudlarında dayanan dastanlar.

2.Əsl məhəbbət dastanları.

a) nağıllarla bağlı məhəbbət dastanları;

b) qədim eposla bağlı məhəbbət dastanları;

v) yazılı ədəbiyyatla bağlı məhəbbət dastanları;

q) orijinal məhəbbət dastanları;

**3. Məcazi məhəbbətə həsr olunmuş dastanlar.**

a) astral dastanlar;

b) rəmzi dastanlar.

**III. Ailə-əxlaq dastanları** (107, 112).

Fikrimizcə, M.H.Təhmasibin bu bölgüsü hal-hazırda mövcud olan Azərbaycan dastanları fondunu məzmun və poetik differensasiya əlamətləri baxımından təsnif edən hələlik ən mükəmməl təsnifatdır. Əslində Azərbaycan folklorşünaslığındakı sonrakı təsnifatlar buna heç nə əlavə etməmiş, sadəcə olaraq bu təsnifatı əsas parametrləri boyunda yalnız təsdiq etmişlər. Belə ki, M.H.Təhmasib yuxarıdakı

cədvəldən aydın göründüyü kimi, dastanları qəhrəmanlıq, məhəbbət və ailə-əxlaq dastanları olmaqla üç qrupa ayırır. Daha sonralar prof. V.Vəliyev də dastanları eynilə bu cür təsnif edir (112, 229).

Prof. P.Əfəndiyev yazır ki, Azərbaycan dastanları əsasən qəhrəmanlıq və məhəbbət dastanları kimi təsnif edilir. Professor M.H.Təhmasib qəhrəmanlıq və məhəbbət dastanlarının müxtəlif bölgülərini vermiş, onlarda əxlaqi-tərbiyəvi mövzuda olan süjetləri «ailə-əxlaq» dastanları kimi qruplaşdırmışdır. Bu bölgü, dastanların mövzu və məzmununa görə qruplaşdırılmasını dəqiqləşdirir, eyni zamanda onların «qəhrəmanlıq» və «məhəbbət» mövzusuna görə qruplaşdırılmasını inkar etmir (55, 222-223). Beləliklə, prof. P.Əfəndiyev Azərbaycan dastanlarında mövzu və məzmun baxımından iki əsas qol-qəhrəmanlıq və məhəbbət dastanları qollarını görür. Fikrimizcə, bu, ənənəvi bir bölgü olsa da, haqlı bir bölgüdür. Ona görə ki, dastanlar əslində iki əsas qola ayrılır: qəhrəmanlıq və məhəbbət dastanları. M.H.Təhmasibin təsnifatı artıq dərinləşdirmə, dəqiqləşdirmə, dastanların mövzu, məzmun, poetik differensasiya əlamətlərinin dərin qatlarına enmədir. Başqa sözlə, M.H.Təhmasib ənənəvi bölgünü irəli aparır. Bu baxımdan o, Azərbaycan ədəbiyyatşünaslığında dastanlarımızın ənənəvi bölgüsü haqqında mövcud olan elmi fikirləri (18; 104; 72; 97; 84 və s.) ümumiləşdirərək yazır ki, Azərbaycanda dastanları həmişə ümumi şəkildə

qəhrəmanlıq və məhəbbət dastanları deyə iki qismə bölmüşlər. Mütəxəssislərimiz birinci qismi bəzən qəhrəmanlıq dastanları, bəzən tarixi-qəhrəmanlıq dastanları, bəzən boy, bəzən də qəhrəmannamə, məhəbbət dastanlarını isə bəzən sevgi dastanı, bəzən aşiqanə romantik dastan, bəzən də xalq romanı adlandırmışlar (107, 110).

Yuxarıda tədqiqatçıların verdikləri təsnifatlara toxunmaqda məqsədimiz heç də bu təsnifatları saf-çürük etmək deyildir. Məsələnin mahiyyəti Azərbaycan dastanlarının iki aydın qola: qəhrəmanlıq və məhəbbət dastanları qollarına ayrılmasıdır. Bu cür ayrılma tipoloji şəkildə ümumtürk dastançılığında da var. Məsələn, V.M.Jirmunski və H.T.Zərifov özbək dastanlarını belə təsnif edirlər:

**1. Bahadırlıq eposu.**
**2. Əsgəri-hərbi povest.**
**3. Tarixi məzmuna malik dastanlar.**
**4. Roman dastanlar.**
**5. «Koroğlu» silsiləsi.**
**6. Mənşəyi yazılı ədəbiyyatdan götürülən dastanlar** (156, 27).

Türk eposunun görkəmli tədqiqatçısı V.M.Jirmunskinin və özbək folklorşünası H.T.Zərifovun bu təsnifatı özbək eposlarının mövzu və məzmun baxımından bölgüsüdür. Bu bölgüdə bahadırlıq eposu və əsgəri-hərbi povest qəhrəmanlıq dastanlarını, roman dastanlar isə məhəbbət dastanlarını bildirir. Bu bölgüyə tarixi-poetik differensiasiya əlamətləri baxımından yanaşdıqda

bütövlükdə altı maddədən ibarət olan bu təsnifatı məhəbbət və qəhrəmanlıq eposları qolları kimi də təsnif etməyin mümkünlüyü ortaya çıxır. Yəni söhbət dastanların təsnifatında hansısa əlamətlərin mütləqləşdirilməsindən getmir. Sadəcə olaraq Azərbaycan dastançılığında XV-XVI əsrə qədər dastanlar qəhrəmanlıq poetik differensiasiya əlamətləri altında ümumiləşir. Təbii ki, bu qəhrəmanlıq əlamətlərinin müxtəlif məzmun əlamətləri üzrə bölgüsünü dərinləşdirmək mümkündür. Ancaq istənilən bölgü altında təsnif edilən bu dastanlar XV-XVI əsrə qədər mühüm differensiasiya əlaməti kimi özündə qəhrəmanlıq işarəsini daşıyır və biz XVI əsrdən başlayaraq poetik differensiasiya əlaməti məhz məhəbbət olan dastanlarımızı («Qurbani» silsiləsi) qəhrəmanlıq dastanlarından artıq ayrılmış halda görürük. XVI əsrdən, silsiləli-məhəbbət dastanları Azərbaycan dastançılığının köklü-köməcli kateqoriyası kimi bütün realizasiya planları və məhsulları ilə birlikdə meydana çıxır.

XVI əsr «Qurbani» dastanının simasında məhəbbət dastanlarının differensiasiya başlanğıcı kimi götürülsə də,bu rəqəm təqribidir. Azərbaycan dastanlarının ümumi kütləsindən məhəbbət işarəsi altında üzvlənmə, ayrılma-differensiasiya böyük bir proses olmuşdur. Məsələnin bütün mahiyyəti isə iki cəhətin buradakı tədqiq müstəvisində qabardılması ilə bağlıdır:

1. Sevgi-məhəbbət motivi, əlaməti qəhrəmanlıq dastanlarına tarixən mənsubdur. Əslində qəhrəmanlıq

dastanları öz başlanğıcından həm də məhəbbət dastanları olmuşdur.

2. Azərbaycan dastançılığının tarixi, ictimai, siyasi, dini-mədəni, irfani-fəlsəfi amillərlə şərtlənən müəyyən mərhələsində qəhrəmanlıq dastanlarının məhəbbət motivlərində xüsusi differensiasiya getmiş və məhəbbət dastanları xüsusi coşğunluqla qəhrəmanlıq dastanlarının kütləsindən üzvlənmiş, ayrı bir qol kimi xüsusi məhsuldarlıqla inkişafa başlamışdır.

Beləliklə, məhəbbət dastanları quruluşunun, o cümlədən bütövlükdə poetikasının şərhi onları qəhrəmanlıq dastanları ilə bir müqayisə müstəvisində götürmədən mümkün deyildir. Məhəbbət dastanlarının qəhrəmanlıq dastanlarının içindən inkişaf edərək ayrıca qola çevrilməsi onların quruluşunda baş vermiş bu tarixi-mədəni proses boyunca nəzər yetirmək tələb edir. Burada nəzərə alınmalı başqa bir məqam da vardır ki, əslində biz ona fəslin əvvəlində geniş toxunmuşuq. Məhəbbət dastanları bir epik mətn kimi epik növü təşkil edən janrlarla məhz epik müstəvisində struktur ortaqlığına malikdir. Başqa sözlə, Azərbaycan epik folklorunun inkişafı epik mətnlərin avtonom və canlı sistemlər kimi bir-birini tarixən törətməsinin məhsuludur. (Bu, universal yaşama qanunu kimi folklorun başqa növ və janr laylarına da aiddir). Deyilən cəhət məhəbbət dastanlarının quruluşuna daha geniş epik strukturlar çərçivəsində yanaşmanı da nəzərdə tutur. Buna görə də biz məhəbbət dastanları ilə qəhrəmanlıq

dastanlarının quruluş tutuşdurması zamanı deyilən bu yönləri də nəzərə alacağıq.

M.H.Təhmasib qəhrəmanlıq və məhəbbət dastanlarının üç başlıca differensiasiya əlamətini vermişdir. O yazır ki, məhəbbət dastanlarının qəhrəmanlıq dastanlarından fərqli bir sıra xüsusiyyətləri vardır ki, ən əsasları aşağıdakılardır:

1. Adlarından da göründüyü kimi, bizim qəhrəmanlıq dastanları əsasən bahadırlıq, alplıq, qəhrəmanlıqdan, məhəbbət dastanlarımız isə sevgidən, məhəbbətdən danışır, bunları təsvir və tərənnüm edir.

2. Qəhrəmanlıq dastanları daha çox ümumxalq mənafeyi uğrunda aparılan mübarizələrdən bəhs edir, ayrı-ayrı şəxsiyyətlərin, dəstələrin, qrupların, kütlələrin basqınçı işğalçı, istilaçı qüvvələrə, yaxud daxili zülmə, istismara qarşı fədakar mübarizələrini təsvir və tərənnüm edirlər. Məhəbbət dastanları isə belə iqtisadi, siyasi məsələlərdən daha çox azad sevgi məsələsi qoyur, iki gəncin, iki butanın bir-birinə çatmasına mane olan qara qüvvələrə qarşı mübarizədən danışır.

3. Elə buna görə də mübarizələrin özü də bir-birindən fərqlənir. Burada nəinki məna, məzmun, məqsəd, hətta vasitələr, silahlar belə başqa-başqadır. (107, 177).

Beləliklə, M.H.Təhmasib məhəbbət dastanları ilə qəhrəmanlıq dastanlarının differensiasiya əlamətləri olaraq bu iki dastan tipinin tematikasını, süjetin epik dinamikasının sosial miqyaslarını, həmçinin bu

dinamikanın epos mətnində poetikləşmə vasitələrini əsas götürür. Yəni M.H.Təhmasib göstərir ki, məhəbbət dastanları ilə qəhrəmanlıq dastanlarının arasında sabitləşmiş mövzu və bu mövzunu gerçəkləşdirən məzmun fərqləri var. Alim hər iki dastan tipinin tipikləşmiş formullar əsasında qurulma planları əsasında qəhrəmanlıq dastanlarının başlıca əlamətinin (işarəsinin) alplıq, məhəbbət dastanlarının-məhəbbət olduğunu göstərir. Tədqiqatçı ikinci tərəfdən başlıca fərqlənmə işarəsini bu dastan tiplərinin sosial yönlənmə miqyaslarında olduğunu göstərir. Yəni qəhrəmanlıq dastanları cəmiyyət miqyasında, məhəbbət dastanları isə fərd miqyasında təzahür edir. Qəhrəmanlıq dastanının sosial istiqamətdə bütöv toplumdur. Burada süjetin bütün epik mətninin sosiumun mənafeyi şərtləndirir. Məhəbbət dastanları isə fərdə, onun iç dünyasına yönəlir. Əslində M.H.Təhmasibin qeyd etdiyi ikinci əlamət struktur-semantik müstəvidə cəmiyyət-fərd qarşılaşdırma planının epik təzahürü kimi diqqəti cəlb edir. Tədqiqatçının qeyd etdiyi üçüncü fərq dastan poetikasının daha çox fiziki, görüntülü obrazlar qatını nəzərdə tutur. Başqa sözlə, qəhrəmanlıq missiyasını yerinə yetirən alp-qəhrəman tipi ilə məhəbbət missiyasını yerinə yetirən aşiq-qəhrəman tipi arasında onların yerləşdikləri məkanın təşkilolunma planları arasında aydın fərqlər vardır. Alp-qəhrəman bir döyüşçü olaraq geyimi, hərəkətləri, yerləşdiyi məkan (döyüş meydanı və s.) baxımından aşiq-qəhrəman

tipindən seçilir. Aşiq-qəhrəmanı biz sazla, sözlə, saz-söz yarışında, mənalar aləmi məkanında görürük.

Prof. A.Nəbiyev məhəbbət dastanları ilə qəhrəmanlıq dastanları arasındakı fərqlərdən danışarkən bunları «struktur fərqləri» kimi səciyyələndirir:

**Birinci fərq**... süjetin məzmun xüsusiyyətlərindədir. Əgər ozan epos üçün qəhrəmanlıq süjetlərini seçirdisə, aşiq də xalq içərisində məşhur olan və daha təsirli məhəbbət macəralarını özünə xas ustalıqla işləyərkən öz repertuarına gətirirdi.

**İkinci fərq** təhkiyə və poetik üslubda özünü göstərmişdir. Belə bir faktı inkar etmək olmaz ki, ozan öz epik yaradıcılığında özünəməxsus ənənə və üslub yaratmışdır. Öz fərdi əlamətləri baxımından o, başqa ifa üslublarından fərqlənir. Fərdi üslubunu yaratmaq yolu ilə gedən aşıq da dastan yaradıcılığı prosesində sırf milli fərdi üslublar yaratdı (Aşıq-M.C.). Ozan üslubundan xeyli özünəməxsus cizgilər kəsb edərək, eyni zamanda öz «fərdiliyini», aşıq üslubunu təsdiq etdi.

**Üçüncü fərq** ozan repertuarı ilə aşıq improvizasiyası arasındakı struktur fərqindədir. Bu, çox mürəkkəb yaradıcılıq ənənələrinin formalaşma və inkişafının xüsusiyyətləri ilə, xalqın həyat və məişəti ilə, müxtəlif yaradıcılıq ənənələrinin çarpazlaşması ilə bağlı olmuşdur. Burada əhəmiyyətli amillər olaraq milli həyatın təsirini, yaradıcılıq ənənələrinin inkişaf və təkmilləşməsini, qonşu türk tayfaları arasında

qarşılıqlı yaradıcılıq əlaqələri və zənginləşdirməni götürmək lazımdır (183, 27).

M.H.Təhmasib və A.Nəbiyevin iki dastan tipi haqqında yazdıqlarının zahiri müqayisəsi onların alternativ şərhlər olması təəssüratını bağışlayır. Əslində hər iki alimin yazdıqları çox mürəkkəb tarixi-mədəni, ədəbi-ideoloji müxtəlif rakurslardan təhlilidir. A.Nəbiyev qəhrəmanlıq və məhəbbət dastanları arasındakı fərqləri eyni bir ənənə başlanğıcından qaynaqlanan yaradıcılıq hadisələrinin tematik, üslubi poetika, bu poetikanın obyektiv qaynaqlaşma mənbələri baxımından fərqlənmələri kimi şərh etmişdir. Başqa sözlə demiş olsaq, alim uzaqgörən bir məntiqlə məhəbbət dastanlarının qəhrəmanlıq dastanlarından tədricən ayrılmasına, üzvlənməsinə ozan yaradıcılığı stili çevrəsindən aşıq stilinin yetişməsi, inkişafı kimi baxır və diqqəti bu stildəyişməni şərtləndirən obyektiv faktorlara-fərqli struktur qatlarına malik mühitə yönəldir.

Beləliklə, əslində qəhrəmanlıq və məhəbbət dastanlarından danışan hər iki tədqiqatçı bu iki dastan tipinin bir-birindən fərqli törəmiş hadisələr kimi yox, vahid qaynaqdan baş alan total yaradıcılıq prosesinin müxtəlif mərhələləri kimi səciyyələndirir. Bu baxımdan istər qəhrəmanlıq, istərsə də məhəbbət dastanları öz arxestrukturlarında eynidir. Yəni, ortaq struktur var və məhəbbət dastanları məhz bu ortaq strukturun fərdi poetik əlamətlər kəsb etməsi şəklində təşəkkül tapmışdır.

Türk tədqiqatçısı Mehmet Açax yazır ki,

qəhrəmanlıq dastanlarında qəhrəman tayfasını, ya da xalqını xarici düşmənlərdən qoruyan, hələ ana qarnında ikən nişanlanan (göbəkkəsmə-M.C.) qızın atası tərəfindən qaçırılan sevgilisi, ya da yoldaşını axtaran fövqəladə varlıqlarla mübarizə edən, tayfa birliyini saxlayan bir alp tipidir (113, 78). Bu sitatdan da göründüyü kimi qəhrəmanlıq dastanlarındakı qəhrəmanın dastanın epik məkanındakı missiyasının aydın strukturu var. Qəhrəman eli qoruyur, xarici düşmənlərlə mübarizə aparır. Bura qəhrəmanın sevgilisi mütləq element kimi daxildir. Yəni istər qəhrəmanlıq dastanında, istərsə də məhəbbət dastanında qəhrəman kompleksinə onun sevgilisi də bu və ya digər şəkildə daxildir. Bunun tipoloji kateqoriya kimi Azərbaycan dastanlarında mövcudluğu onun ümumtürk arealı hadisə olması ilə də şərtlənir. V.Jirmunski yazır ki, sehirli nağıl motivlərindən çox geniş istifadə edən özbək roman- eposunda (məhəbbət dastanları nəzərdə tutulur-M.C.) macəralı qəhrəmanlıq və fantastik nağıl süjetləri üstünlük təşkil edir. Qəhrəman gözəl pərinin səltənətinə gedən yolları qoruyan əjdahalarla, çoxbaşlı divlərlə vuruşur, hiyləgər-cadugər qarılarla üz-üzə gəlir, yer altına, mağaralara enir, sehirli bağlara düşür və saysız-hesabsız maneələrdən sonra öz pərisinə çatır. Xalq romanının, xüsusilə Türkmənistan, Azərbaycan və Anadoluda çox geniş yayılmış Yaxın Şərq tipində isə macəralı novella və məişət süjetləri üstünlük təşkil edir. Nağıl fantastikası dərin lirik sevgi hissləri qarşısında arxaya çəkilməli olur (154, 232-233).

Deyilənləri Azərbaycan məhəbbət dastanları ilə müqayisədə götürsək aydın olur ki, özbək məhəbbət dastanları bir məhəbbət dastanı kimi qəhrəmanlıq dastanlarından differensiasiya edib, milli özbək dastançılığının müstəqil qolu kimi təşəkkül tapsa da, bu məhəbbət dastanlarının qəhrəmanlıq dastanları ilə əlaqəsi Azərbaycan məhəbbət dastanlarının qəhrəmanlıq dastanları ilə əlaqələrində daha güclüdür. Başqa cür desək, özbək məhəbbət dastanlarında qəhrəmanlıq dastanalarının obraz tipi, epik-əsatiri obrazlar bazası özünü daha çox qorumuşdur. Azərbaycan məhəbbət dastanları bu baxımdan özbək məhəbbət dastanlarından çox fərqlənir. Burada qəhrəmanlıq dastanlarındakı arxebazanı biz müasirləşmiş formada görürük. Başqa sözlə, burada divlər, pərilər yoxdur. Realist təsvir planı forma əlamətləri baxımından dastanın bütün differensiasiya qatlarını əhatə edir. Sehr elementi qəhrəmanlıq dastanlarının əsas arxetipik göstəricilərindən biri kimi, Azərbaycan məhəbbət dastanlarında tamamilə simvollaşmış plandadır. Yəni Azərbaycan məhəbbət dastanlarında əsgi əsatiri görüşlərlə birbaşa qaynaqlaşan magik mifologemlər yoxdur. Buradakı sehr elementləri bütövlükdə irfani-təsəvvüfi atributlar kəsb edərək simvollaşmışdır.

Qeyd etmək lazımdır ki, belə «müasirləşmə», magik-mifoloji epik bazadan uzaqlaşma orta əsrlər Azərbaycan qəhrəmanlıq dastanlarına xasdır. Bu, bütövlükdə Azərbaycan dastançılıq ənənələri ilə özbək dastançılıq ənənələrinin mövcud olduqları

tarixi-mədəni məkanın öz fərqləri ilə bağlıdır. Azərbaycan «Koroğlu»sunun realistləşmiş epik planı ilə mifoloji arxebazanın qabarıq olduğu Orta Asiya «Koroğlu»larını yada salaq.

Deyilənlər göstərir ki, məhəbbət dastanlarının sevgi-məhəbbət işarəsi qəhrəmanlıq dastanlarının struktur elementlərindən biridir. Bunu özbək məhəbbət dastanları ilə bağlı Jirmunskinin yazdıqlarından da gördük. Özbək məhəbbət dastanları öz qəhrəmanlıq başlanğıcları ilə əlaqəsini ciddi şəkildə qorumuşdur. Bu, bizim dastançılıqda belədir. “Koroğlu” dastanının bir sıra ciddi və məşhur qollarının başlıca məzmununu əslində sevgi süjeti təşkil edir. Belə qolların strukturu bütövlükdə məhəbbət dastanlarının sxematik strukturu ilə üst-üstə düşür. Belə qolların məzmunu gözəl qızların dəlilərlə qiyabi sevgisi, Çənlibelə gətirilməsi uğrunda mübarizə və qələbə (toy) ilə bağlı olur. Burada gözəl qızın (paşa, xotkar qızının) Koroğluya, yaxud dəlilərə qiyabi aşiq olmasının semantik işarəsi eynidir. Söhbət qəhrəmanlıq dastanları strukturunda qəhrəman və onun sevgilisi planının başlıca poetik plan kimi olmasından gedir. Əskilərə doğru getdikcə bu plan daha aydın cizgiləri ilə boy verir. Məsələn, arxaik strukturlu altay eposu olan «Altay-Buuçay» eposu silsiləsinin əsas məzmununu Altay Buuçayın ova getməsi, uzun illər ovda qalması, bu vaxt arvadı ilə bacısının ona xəyanət edərək başqa iki qardaşa ərə getmələri, sonra qəhrəmanın ovdan qayıtması, təsadüf nəticəsində sağ qalmış oğlunun mübağiləli şəkildə böyüyərək hadisələrdə

iştirak etməsi və nəhayət, bütün xəyanətkarların cəzalandırılması təşkil edir (199, 125-130).

«Altay Buuçay» eposundan da göründüyü kimi, qəhrəman və onun sevgilisi ən müxtəlif planlarda qəhrəmanlıq dastanlarının poetik strukturunda var. Gördüyümüz kimi, burada final, məzmun başqa cürdür. Yəni burada qəhrəmanın qadınının ona xəyanətindən söhbət gedir. Epik konflikt qəhrəmanla onun qadını, qəhrəmanla onun qonşu düşmənləri miqyaslarını əhatə edir. Yəni bu, o deməkdir ki, «Qəhrəman və Sevgilisi» planı qədimlərə, əski tiplərə doğru «Qəhrəman və Qadın» kimi daha geniş, daha universal planı təşkil edir. Bu plan əslində kişi-qadın planıdır və sonradan müxtəlif dastanlarda kişi-qadın münasibətlərinin ən mürəkkəb konfiqurasiyalarını vermişdir. Bu konfiqurasiyaların içərisində qəhrəman və sevgilisi (Aşiq və Məşuq) orta əsr məhəbbət dastanlarının ən semantik yüklü obrazlar sırasını təşkil edirlər. Başqa sözlə demiş olsaq, qəhrəmanlıq dastanlarının qəhrəman və sevgilisi xətti təqribən XII əsrdən başlayaraq (tarix məsələsinə irəlidə toxunulacaq) fəallaşmağa başlamış və sonrakı əsrlərdə bu proses məhəbbət dastanlarının yeni dastan tipi kimi ortaya çıxmasına gətirmişdir. Bu, tipoloji müqayisə materiallarından daha aydın görünür.

Azərbaycan folklorşünaslığının bir elm kimi bağlı olduğu rus və onun simasında dünya folklorşünaslığı ənənələrində eposlar haqqında normativ artıq formalaşmışdır. Bu fikirlər, xüsusilə, rus folklorşünaslığının bir sıra məşhur tədqiqatlarında öz

şərhini ətraflı tapmışdır (154; 199; 175; 188; 191; 145 və s.). Həmin tədqiqatları ən ümumiləşmiş anlayışlar səviyyəsində normativləşdirən B.N.Putilovun oçerkində göstərilir ki, müasir eposşünaslıqda xalq eposunun mənşəyi, inkişafı və xarakterinin tarixi-tipoloji konsepsiyası işlənmişdir. Eposun ən erkən tipi ilk əcdadlar-mədəni qəhrəmanlar haqqında mifoloji hekayətlərlə təmsil olunur. Mifologiyanın zəminində arxaik («dövlətəqədərki») epos boy atır ki, bunun da başlıca məzmununu igidlərin nümayəndələri (çox vaxt təcəssümləri) olduğu qəbilə icması kollektivlərinin rifahına yönələn qəhrəmanlıq fəaliyyətləri təşkil edir. Arxaik eposun əsas süjet mövzuları bunlardır: «özümünkü» dünyasının qəhrəmanlarının düşmənlərlə-yadellilərlə, yaxud «başqa» dünyadan olan personajlarla mübarizəsi, qəhrəmanın öz sevgili-deyiklisinin arxasınca getməsi, kəbin sınaqlarından çıxması, kəbinin əleyhdarları ilə yaxud başqa iddiaçıları ilə mübarizəsini mütləq nəzərdə tutan qəhrəmancasına, qan intiqamı, qadın-igidlərin qəhrəmanlıqları, tənha qəhrəmanların-tayfa əcdadlarının qəhrəmanlıqları… Əsl qəhrəmanlıq («klassik») eposların-ibtidai icma quruluşunun (hərbi demokratiya dövrü) dağıldığı şəraitdə arxaik eposun forma və ənənələrindən boy atır (194, 162-163).

Epos genezisinin tarixi tipoloji mənzərəsindən də göründüyü kimi, eposun «əcdadı» mifoloji hekayətlərdir, həmin hekayətlərdən isə arxaik epos boy atır. Arxaik eposun özünəməxsus mövzu dairəsi süjet qrupları vardır ki, bunların da içərisində

qəhrəmancasına elçilik motivi (invariant süjetlər qrupu) xüsusi yer tutur. Qəhrəmancasına elçilik motivi, gördyümüz kimi, qəhrəmanın öz sevgilisinin arxasınca yola çıxması, başqa sözlə mübarizəyə başlamasını, bu mübarizələrin kəbin sınaqları şəklində olması (öz sevgilisinə çatmaq üçün qızın atası, yaxud başqa bir antoqonist tərəfdən qoyulmuş şərt-sınaqların yerinə yetirilməsi), qəhrəmanın onun sevgilisi ilə qovuşması əleyhinə çıxan istənilən qüvvələrlə mübarizə etməsi kimi süjetlərdən ibarətdir. Arxaik eposların ibtidai icma quruluşu ilə bağlı mətnlər olduğunu nəzərə alsaq, onda Azərbaycan dastançılıq ənənələrində orta əsrlərdə xüsusi coşğunluqla artım, boy verən məhəbbət dastanlarının genezis baxımından bir neçə min illik əvvələ gedib çıxdığı görünür. Əslində məhəbbət dastanlarının süjet genezisi arxaik dastanlardan daha qabağa-mifoloji hekayətlərə gəlib çıxır.Mifoloji hekayətlər-mifoloji eposlardır. Burada insanın, dünyanın, təbiətin, onun ayrı-ayrı ünsürlərinin, etnoqonik səciyyəli qayda-qanunların necə meydana çıxmasından artıq stereotipləşmiş, düsturlaşmış süjetlər şəklində danışılır. Həmin hekayələrdə mədəni qəhrəman-Əcdad-Demiurq obraz kompleksi başlıca simvolik fiqür kimi bütün fəaliyyətin əsasında durur. Ancaq süjetə sonradan qadın fiquru da daxil olunur. Məsələn «Oğuznamə»nin uyğur versiyasında Ay qağanın oğlu Oğuz tez bir zamanda cəsur alpa çevrilir, igidliklər göstərir (Kıatı, Şunqarı öldürür), tanrıya yalvarır. (Tanrı missiyası ilə - M.C.) ona iki sevgili qismət olur. Biri şüa ilə göydən enir, ikincisini ağacın koğuşundan tapır. Onlar evlənir və

oğuz kosmosunun yaranmasını simvolizə edən altı oğlu dünyaya gəlir (214, 15-17).

Beləliklə, ilk mifoloji eposlardan başlayaraq kişi-qadın münasibətlər kompleksi epik düşüncə başlanğıcında mövcuddur. Bu münasibətlər arxaik eposlara yuxarıda toxunulduğu şəkildə transformasiya olunur. Əslində məhəbbət dastanlarının hazırkı strukturu özünün bütün semantik başlanğıcları ilə arxaik eposun strukturunda mövcuddur. Nəzərdən keçirdiyimiz «qəhrəmancasına elçilik» motivində diqqət çəkən başlıca məqam qəhrəmanın öz sevgili-deyiklisinin ardınca getməsidir. Bu detal orta əsr məhəbbət dastanlarımızda «buta» motivi şəklində poetik kompleksə çevrilib. Məhəbbət dastanlarının butavermə elementlərindən sonrakı süjetində düz sona qədər elə bir struktur elementi yoxdur ki, o, arxaik dastanın sözügedən motivində olmasın. Arxaik dastanın «qəhrəmancasına» elçilik süjeti qəhrəmanın müxtəlif kəbin sınaqlarından çıxmasını və məhz bu sınaqlarla bağlı müxtəlif antoqonist personajlar sırası ilə qarşılaşmasını əhatə edir. Orta əsr məhəbbət dastanlarımızın da başlıca süjet oxu qəhrəmanın (aşiqin) öz butasına çatmaq üçün ən müxtəlif şərt və sınaqlardan (bu, «haqq aşığı» olmağın sübutu kimi simvollaşıb) çıxmasından ibarətdir.

Azərbaycan dastanları ilə genetik müstəvidə ortaqlığı olan Altay dastanlarının ən qədim dövrlərlə səsləşən süjetləri içərisində qəhrəmancasına elçilik mühüm yer tutur. Altay eposu mütəxəssisi

S.S.Surazakov yazır ki, altaylıların qəhrəmanlıq eposunda kişi qəhrəmanının evlənmədiyi, qadın qəhrəmanın isə ərə getmədiyi əsər, demək olar ki, yoxdur. Qəhrəmanın evlənməsi mövzusunun kökləri çox qədimlərə-patriarxal tayfa quruluşunun təşəkkül dövrünə gedib çıxır, (Altay eposunda-M.C.) qəhrəmanın evlənəcəyi qızı axtarmaqdan ötrü evdən çıxıb getməsi motivi məşhurdur. Ancaq ən çox yayılmış mövzu qəhrəmanın ona tale, fələk tərəfindən təyin edilmiş nişanlısına (deyiklisinə-M.C.) mütləq evlənməsidir (199, 54).

Burada diqqət çəkən məqamlar var. O da ondan ibarətdir ki, Altay eposunda məşhur mövzulardan biri qəhrəmanın ona fələk, tale tərəfindən qismət edilmiş, təyin edilmiş sevgilisi ilə evlənməsidir. Bu cəhət çox mühüm bir məqam olmaqla arxaik eposların «qəhrəmancasına elçilik» motivinin məhəbbət dastanları strukturu üçün arxebaza, arxestruktur rolunu oynadığını sübut edir. Arxaik eposun «qəhrəmancasına elçilik» motivini reallaşdıran süjetlər qrupunun ümumi sxematik formulu belədir: qəhrəmana tale-fələk sevgili qismət edir və qəhrəman ona çatmaq üçün mübarizəyə başlayır. Evdən çıxıb sevgilisinin ardınca yollanır, müxtəlif sınaqlardan keçir və qələbə çalır. Beləliklə, süjetin bütün mahiyyətində qəhrəmanın ona qismət edilmiş sevgili uğrunda mübarizəsi durur. Bu formul bütün semantik sxematizmi ilə məhəbbət dastanlarında özünü qoruyur. Diqqət çəkən odur ki, arxaik eposda sevgili qəhrəmana tale-fələk tərəfindən qismət edilir (təbii ki, bu tale-

qismət arxaik eposda müxtəlif səviyyəli mifoloji kultlardır). Məhəbbət dastanlarında da bu eynilə vardır-butavermə motivi. Qəhrəmana «haqq» tərəfindən (Şah-Mərdan, Ağa, Əli, dərviş və b.) buta-sevgili verilir və məhəbbət dastanının bütöv süjeti bu butaya çatmaq uğrunda mübarizədən ibarət olur. «Buta»nın Azərbaycan qəhrəmanlıq dastanlarının yox, məhəbbət dastanlarının poetik strukturunun mütləq elementi olduğunu nəzərə alsaq, demək məhəbbət dastanları poetikasının total fərqləndirmə əlaməti əslində «buta» ilə bağlıdır. Fikir verək, arxaik epos qəhrəmanlıq dastanları şəklində qurulur. Bu dastanların tərkibinə «qəhrəmancasına elçilik» motivi də mütləq motiv kimi daxildir. Sonradan «qəhrəmancasına elçilik» motivi xüsusi aktivləşmə keçirir və məhəbbət dastanları qəhrəmanlıq dastanlarının ümumi kütləsindən müstəqil qol kimi ayrılır. Bu prosesdə məhəbbət dastanlarının poetik strukturunu müstəqilləşdirən, onu fərdi əlamətləri ilə səciyyələnən struktura çevirən məhz «qəhrəmancasına elçilik» motivinin «buta» motivinə transformasiyasıdır. Bunun belə olduğu ondan görünür ki, məhəbbət dastanları qəhrəmanlıq dastanlarından müstəqil struktur kimi inkişaf etməklə qəhrəmanlıq dastanlarının poetik strukturunda «qəhrəmancasına elçilik» motivi öz fəaliyyətini dayandırmır. Yəni burada «qəhrəmancasına elçilik» motivinin qəhrəmanlıq dastanlarının motivlər toplusundan ayrılması baş vermir. Bu motiv qəhrəmanlıq dastanlarının motivlər strukturunda yaşamaqda davam edir. «Koroğlu»

dastanında sonu qızların Çənlibelə gəlməsi (toy) ilə nəticələnən «qəhrəmancasına elçilik» motivi süjetlərini yada salaq. Buradakı motivlə məhəbbət dastanlarındakı eyni motivi fərqləndirən başlıca əlamət məhz «butavermə» elementidir. «Butavermə» «Koroğlu»ya, yəni orta əsr qəhrəmanlıq dastanlarımıza yaddır. Ancaq onlarla paralel mövcud olan məhəbbət dastanlarında eyni motiv məhz «buta» işarəsi ilə çıxış edir.

Beləliklə, məhəbbət dastanlarının süjet mahiyyətini təşkil edən qəhrəmanın öz sevgilisinə qovuşmaq uğrunda mübarizəsi, yəni «qəhrəmancasına elçilik» motivi öz genetik başlanğıcı etibarilə arxaik qəhrəmanlıq dastanlarına bağlanır. Bu motiv bütün rəngarəngliklәri ilə qəhrəmanlıq dastanlarında inkişaf edir. Təqribən XII əsrdən başlayaraq Azərbaycan dastançılığında bu motiv müstəqilləşməyə başlayır və məhəbbət dastanları ayrıca qol kimi qəhrəmanlıq dastanlarından differensiasiya edərək müstəqilləşir. Bu proses «qəhrəmancasına elçilik» motivinin mürəkkəb aktivləşməsi şəklində baş verir. Başqa sözlə, məhəbbət dastanlarında bu motiv arxaik dastanlardakı mifoloji kultlarla bağlı nişanlı-deyikli-sevgili elementi «buta» elementinə çevrilir və «buta» elementi əslində məhəbbət dastanları ilə qəhrəmanlıq dastanları arasında başlıca poetik-semantik differensiasiya əlaməti-işarəsi kimi çıxış edir. Bunun belə olduğu ondan görünür ki, məhəbbət dastanları meydana çıxandan sonra belə qəhrəmanlıq dastanlarının «qəhrəmancasına elçilik» motivi öz

fəaliyyətini bu mətnlərdə davam etdirir. Ancaq burada, bariz örnək olan «Koroğlu» qollarından da göründüyü kimi, «qəhrəmancasına elçilik» motivi «buta» motivinə transformasiya etmir. Beləliklə, məhəbbət dastanları qəhrəmanlıq dastanlarındakı «qəhrəmancasına elçilik» motivinin «buta»ya epik-lirik transformasiyası şəklində ortaya çıxır. Prosesin məhz belə olduğu, yəni qəhrəmanlıq dastanlarından məhəbbət dastanlarına keçidin baş verdiyi məşhur dastanşünas alimimiz M.H.Təhmasibin dəqiq müşahidəsindən də açıq görünür. O, məhəbbət dastanlarımızın bir qrupunu «məhəbbət dastanları ilə qəhrəmanlıq dastanı hüdudlarında dayanan dastanlar» adlandıraraq yazır ki, belə dastanlar bizdə çoxdur. Bir növ qəhrəmanlıq dastanlarından məhəbbət dastanlarına keçid mərhələsi təsiri bağışlayan bu əsərlərin xalq içərisində ən geniş yayılmışları aşağıdakılardır:

«Şah İsmayıl-Gülzar», «Novruz-Qəndab», «Mehr-Mah», «Tahir-Zöhrə»nin bəzi variantları, «Xurşid-Mehri», «Lətif şah», «Şahzadə Əbülfəz», «Seyidi Pəri», «Şahzadə Bəhram», «Abbas-Dahadürüz», «Dilsuz-Xəzangül», «Məhəmməd-Güləndam», «Seyfəlmülk», «Hicran-İnsan» və s. (107, 180).

Əvvəldə qeyd etmişdik ki, məhəbbət dastanları poetikası özünəməxsusluğunun müəyyənləşdirilməsi iki məsələnin xüsusilə qabardılırması ilə bağlıdır:

1. Məhəbbət dastanlarının strukturu qəhrəmanlıq dastanlarından gəlir (qəhrəmanlıq dastanları

arxeplanda həm də elə məhəbbət dastanlarıdır).

2. Azərbaycan dastançılığının müəyyən inkişaf mərhələsində qəhrəmanlıq dastanlarının məhəbbət motivləri xüsusi aktivləşmə keçirir və məhəbbət dastanları xüsusi qol kimi qəhrəmanlıq dastanlarının ümumi kütləsindən ayrılaraq inkişafa başlayır.

Yuxarıdakı tədqiqat bunun belə olduğunu aydın şəkildə göstərdi. Əslində bu məsələyə müxtəlif tədqiqatlarda toxunulsa da, onun poetexniki mənzərəsinin mətnin struktur planındakı dəyişkənliklərinin təsvirinə burada cəhd edildi. Burada nəzərə alınmalı məqam ümumi-tipoloji qanunauyğunluqlar çevrəsində Azərbaycan dastançılığının tarixi taleyi ilə bağlı özünəməxsusluqlardır. Bu baxımdan əsas məqam qəhrəmanlıq dastanlarının məhəbbət motivinin xüsusi şəraitdə məhəbbət dastanlarına doğru aktivləşmə keçirməsidir. Belə bir aktivləşmə Azərbaycan dastançılığı üçün xüsusi coşğunluq daşıyır. Baxmayaraq ki, Azərbaycan qəhrəmanlıq eposu «Koroğlu» mətnləri silsiləsində öz təkamülünü saxlayır, orta əsrlər dastançılığında fəallıq, dinamika, strukturdaxili dəyişmələr, funksiyalaşma dinamikası və s. kimi bütün epik hərəkət xüsusi coşğunluqla məhz məhəbbət dastanlarında gedib. Təbii ki, qəhrəmanlıq dastanlarının öz içərisindən aktivasiya keçirtməsi bu aktivasiyanın xüsusi dastan tipinə transformasiya ilə nəticələnməsi bütöv stimullar, impulslar kompleksinin təsiri altında baş verir. Bu baxımdan məhəbbət dastanları quruluşunun öyrənilməsi, onun struktur

poetikasının epik mətnin poetikası müstəvisində araşdırılması həmin strukturdaxili dəyişmələrə gətirib çıxaran təkanlar kompleksinin öyrənilməsindən asılıdır.

Qeyd edək ki, məhəbbət dastanlarına keçid Azərbaycan ədəbiyyatşünaslığı və folklorşünaslığında ozan-aşıq keçidləri şəklində öyrənilmişdir. Başqa sözlə, məhəbbət dastanlarının aktivləşmə nəticəsi olaraq meydana gəlməsi yalnız epik janr (növ) hadisəsi olaraq qalmamış, daha böyük transformativ dəyişmələrin tərkib hissəsi olmuşdur. Bu total transformasiya ozan-aşıq keçididir (85, 90-98). Yəni ozanın aşığa çevrilməsi ilə məhəbbət dastanları meydana çıxır. Bu anlamda məhəbbət dastanlarının meydana çıxmasını heç cür ozan-aşıq keçidindən qıraqda təsəvvür etmək olamz. Məhəbbət dastanları qəhrəmanlıq dastanlarının strukturunun mətn transformasiyası kimi meydan çıxması ozan-aşıq sənəti kompleksinin daxili struktur transformasiyası ilə birbaşa bağlıdır. Bu da öz növbəsində diqqəti məhz bu istiqamətə yönəltməyi tələb edir.

Prof. İ.Abbaslı yazır ki, aşığın meydana gəlməsində bir yandan ozan-varsaq-dədə irsi, digər tərəfdən isə xalq şeiri səpkisində yazıb-yaradan şairlərin yaradıcılığı əsaslı zəmin yaratmışdır (3, 9). Beləliklə, professorun fikrinə görə, ozan-aşıq şeirinə təsir edən amillər sırasında yazılı ədəbiyyatın mühüm rolu olmuşdur.

Aşıq yaradıcılığının ozan yaradıcılığına transformasiyasını araşdırmış prof. A.Nəbiyev diqqəti

Azərbaycanda ərəb işğalından sonra yaranmış yeni ictimai, iqtisadi, siyasi, mədəni şəraitə cəlb edir. İslam mədəniyyətinin Azərbaycan mədəniyyətinə tam oturuşması, türk tayfaları tərəfindən islamın qəbul edilməsi ilə yaranan yeni şərait ozan-aşıq keçidini şərtləndirir. Professor yazır ki, yeni şəraitdə aşıq sənətinin ozan yaradıcılığının yerini tutması, həmçinin ozanın aşığa transformasiyası özünəməxsus ictimai-tarixi və siyasi səbəblərlə şərtlənirdi… Yeni şəraitdə… Həmçinin improvizatorların yeni tipi-aşıq meydana çıxdı (183, 22-25).

Prof. S.Paşayev diqqəti ozan-aşıq keçidinin uzun bir proses olduğuna cəlb edərək yazır: ozanla aşıq bir neçə əsr yanaşı yaşamış, müştərək fəaliyyət göstərmiş, bir-birinə təsir etmiş, nəhayət, aşığı yaradan tarixi-ictimai amillər gücləndikcə ozan yavaş-yavaş sıradan çıxmış, daha doğrusu, sıradan çıxmamış, sadəcə olaraq, ozan aşığa çevrilmişdir (95, 8-9).

Beləliklə, ozan-aşıq keçidi yaranmış mühitin ictimai, siyasi, mədəni, mənəvi faktorlarının məhsulu sayılır ki, bu sırada ozan-aşıq yaradıcılığı ilə yazılı ədəbiyyatın qarşılıqlı münasibətləri də mühüm təsir kimi qeyd olunur. Akademik M. İbrahimov yazır ki, aşıq poeziyası «bir tərəfdən xalq yaradıcılığına bağlanmış, o biri tərəfdən yazılı ədəbiyyata. Həm bununla, həm də onunla qarşılıqlı əlaqə və təsirlə inkişaf etmişdir. Onun kökləri, rişələri folklordan, xalq yaradıcılığından su içirsə, budaqları, qol-qanadı həmişə yazılı ədəbiyyatla qovuşur, ona təsir edir və ondan qüvvət alır» (73, 12).

Ozan-aşıq keçidi, yuxarıda qeyd etdik ki, həm də qəhrəmanlıq dastanlarından məhəbbət dastanlarına keçidlə nəticələndi. Bu xüsusda ozan aşıq keçidində təsəvvüfi-irfani amillərin birbaşa təsirini qeyd edirlər. Hətta bu təsir həlledici faktor sayılır. Bunun belə olduğu Azərbaycan məhəbbət dastanlarının bütün struktur elementlərinin təsəvvüflə süslənməsində açıq görünür. Ancaq, fikrimizcə, burada təsəvvüfü də içərisinə alan bütöv təkanlar (təsirlər) kompleksi olmuşdur. Elə yuxarıda fikirlərini sadaladığımız tədqiqatçıların da yazdıqlarından göründüyü kimi, burada təsirlər çoxdur. Onların içərisində keçidə həlledici təsir göstərmiş təsəvvüfi-irfani stimulun özü də əslində dövrün ictimai , siyasi, dini-fəlsəfi, mədəni-mənəvi amilləri ilə şərtlənir, bu şərtlərin mürəkkəb kəsişməsi dini mədəniyyətdə təzahür formalarından biri kimi meydana çıxır. Ancaq bütün bunlarla bərabər, təsəvvüfi-dini təsirlər ozan-aşıq keçidində həlledici faktor kimi çıxış edir (85, 90-95).

Təbii ki, müxtəlif təsirlərin içərisində dominant, yönəldici təsir həmişə var. Bu mənada tədqiqatçıların bu amilə daha çox fikir vermələri təsadüfi deyildir. Bu kontekstdə görkəmli Azərbaycan alimi prof. H. İsmayılovun aşıq sənətinin tarixi-genetik strukturuna dair ortaya qoyduğu yeni konsepsiya, əslində, ozan-aşıq münasibətlərinin bütün tarixi-mədəni mahiyyətini bəyan edən fundamental elmi hadisədir (bax: 73a; 73b).

İslam mədəniyyətinin meydana çıxmasından az sonra elə islam çevrəsindəcə meydana çıxan təsəvvüfi-

dini cərəyanlar sürətlə islam dünyasına yayıldı. İslama qədər əsasən tək Tanrıya sitayiş edən türklər üçün tək Allahı qəbul etmək çətin olmadı. Təkallahlılıq onların minillər boyu şüurlarında gəzdirdikləri Təktanrıçılığın adekvatı kimi turk mədəniyyətinə daxil oldu. İslamda toxunulmaz elan edilmiş Quran dili-ərəb dili vasitəsi ilə yox, məhz doğma türkcə türklər arasında yayıldı. Bu sahədə əvəzsiz rolu türk təsəvvüfü və onun banisi XII əsr mütəfəkkiri Xoca Əhməd Yəsəvi oynadı. Türk təsəvvüfü yəsəviyyə ilə başladı və yəsəviyyə sonrakı saysız türk təsəvvüf qollarının əsas layı kimi qalmaqda davam etdi.

İslamın və təsəvvüf mədəniyyətinin meydana çıxması türk mədəniyyətində ideoloji faktorlarla birgə etnik-siyasi sistemdə, etnoideoloji, etnomədəni struktur qatlarında çox ciddi dəyişikliklərə gətirib çıxarır; qədim türklərin iki ən böyük qolundan birini təşkil edən oğuzlar yayıldığı çox iri etnik-siyasi məkanda öz adı ilə yox, türklər adı altında (türkmən) tanınmağa başladılar. Yəni bu, «oğuz dövrünün» başa çatması demək idi. Oğuz «qəhrəmanlıq» dövrü, oğuz «məhəbbət» dövrü ilə əhatə olundu. Dastançılıq ənənəsində «aşiqanə» mövzuların yaranması vüsət aldı. Aşıqların repertuarı məhəbbət dastanları ilə zənginləşdi (Əsli-Kərəm, Abbas-Gülgəz, Aşıq Qərib, Arzu-Qənbər və s.) – (42, 32-33).

Göründüyü kimi, qəhrəmanlıq dastanlarının bir qisminin məhəbbət dastanlarına transformasiyası çox geniş amillərlə şərtlənir. Qeyd etmək istərdik ki, burada təsəvvüf amili transformasiyanın əsas amili sırasındadır. Ona görə ki, türk təsəvvüfçüləri islamı

türklərin ana dilində yaymışlar və onlar bunun üçün ozan-aşıq sənətindən güclü istifadə etmişlər. Təsəvvüfi-irfani cərəyanların islam ölkələrini bürüməsi, o cümlədən türk təsəvvüfi dünyagörüşün mədəniyyətin, idrak və fəlsəfi düşüncənin başlıca laylarından biri olması yazılı ədəbiyyatı, o cümlədən aşıq sənətini çox güclü təsirə məruz qoydu. Bədii yazılı düşüncə özünün ədəbi obrazları olan Aşiq-Məşuq kompleksini yeni irfani düşüncə layından çox sürət və coşğunluqla keçirməyə başladı. Ədəbi obrazlar irfani dəyər daşımağa, məhəbbət ilahi məhəbbətin rəmzi kimi tərənnüm edilməyə başladı. Bu, aşıq sənətində də belə oldu. Təsəvvüfi dünyagörüşün kütlələr içərisində aşıq sənəti vasitəsi ilə yayılması, o cümlədən təsəvvüf-irfani düşüncənin aşıq sənətinə sürətlə nüfuzu ozanı aşığa çevirdi. Folklorşünas M.Qasımlı yazır ki, təkkə ocağından çıxan dərviş aşıqlar sənətkar statusuna yiyələndikdən sonra orta əsrlərin islam mühitində ozanlara nisbətən daha nüfuzlu bir mövqeyə malik oldular. Çünki onlar həmin mühitin öz yetirməsi idilər və tarixi şəraitin tələblərinə tamamilə uyğun gəlirdilər. Ozanlar isə nə qədər islamlaşmış olsalar belə, yenə də əski inanış sisteminə bağlanırdılar. Aşığın yeni tipli (xeyli dərəcə də islami səciyyəli!) sənətkar kimi ortaya çıxması, gündən-günə artan nüfuz və hörmətə sahib olması ozanı iki yol qarşısında qoyurdu: onlar ya təkkə kökənli aşıqların təsiri altında aşıqlanmış, ya da öz biçimlərini qoruyaraq ənənəvi sənət axarlarını davam etdirməli idilər (85, 92). Göründüyü kimi,

ozanlar aşıqlığın, təsəvvüfləşmiş ozançılığın təsiri qarşısında duruş gətirə bilmir.

Qəhrəmanlıq dastanlarının müəyyən qisminin məhəbbət dastanlarına transformasiyası prosesində yazılı ədəbiyyatın struktur təsirlərini də nəzərə almamaq olmaz. Aşıq sənətindən qabaq yazılı ədəbiyyat, onun məhəbbət poeziyası, məhəbbət məsnəviləri təsəvvüfi ideyaların çox güclü təsirinə məruz qalır. J.M.Meletinski bu xüsusda Nizami «eposları»nın təsəvvüfi ideyalarla zənginləşməsindən ayrıca bəhs edir. Məsələn, o, «Leyli və Məcnun»la bağlı yazır ki, sufizm bu dövrün (XII əsr-M.C.) farsdilli yazıçılarının dünyagörüşünə dərindən nüfuz etmişdi. Bundan başqa, «Leyli və Məcnun» süjetinin özü artıq Nizamiyə qədər sufi ruhunda qavranmağa başlamışdı. Bu baxımdan onun Nizami qələmi ilə təsəvvüfi şərhində təəccüblü heç nə yoxdur (178, 190).

Azərbaycan romanının genezis və təkamül yolunu ayrıca araşdırmalarda həm ümumi olaraq, həm də Nizami romanları çərçivəsində araşdırmış H.Quliyev göstərir ki, «ozan» tərəfindən yaradılmış qəhrəmanlıq eposunun aşıq dastanından fərqlərini nəzərə almaq lazımdır… «Ozan» tərəfindən yaradılmış epos köçəri «keçmişin» qəhrəmanlığını əks etdirirdi. «Dastan» isə (fars sözüdür) epik əsərlərin bütün janrlarını işarə edən söz kimi möhkəmlənir və sonralar eposun «yadelli» nümunələrində də yayılır (147, 133). Azərbaycan aşıq dastanı orta əsrlərdə aktivləşir və XIX əsrə qədər inkişaf edir…(146, 111). Nizamidən başlayaraq bu janr (dastan-M.C.)

Azərbaycan ədəbiyyatında inkişaf edir və «Kitabi-Dədə Qorqud» tipli qəhrəmanlıq epopeyasını ikinci plana sıxışdırır (147, 133). Deməki, H.Quliyevin yazdığından göründüyü kimi, qəhrəmanlıq dastanlarının bir qisminin məhəbbət dastanlarına transformasiyasında yazılı ədəbiyyatın «məhəbbət dastanlarının»-aşiqanə məsnəvilərinin böyük rolu olur. Bu yazılı ədəbiyyatda özünün daha yüksək fəlsəfi, idraki-mənəvi, ədəbi-poetik yaradıcılığındakı eyni kompleksə olan təbii təsiri idi. Nəzərə alsaq ki, orta əsr Aşıq-Məşuq kompleksi həm yazılı ədəbiyyat «dastanlarında», həm də aşıq dastanlarında eyni sırada təsəvvüfi obrazlar kompleksi idilər, onda qəhrəmanlıq dastanlarının məhəbbət dastanlarına transformasiya olunmuş qolunda yazılı ədəbiyyatın sevgi dastanlarının-romantik eposlarının rolu, təbii ki, məhz bədii-poetik müstəvidə güclü olmuşdur. M.H.Təhmasib yazır ki, dastanlarımızın istifadə etdikləri mənbələrdən biri də yazılı ədəbiyyatdı. Geniş mənada şifahi ədəbiyyat yazılı ədəbiyyatdan çox müxtəlif yollarla və müxtəlif şəkillərdə istifadə edir.:

a) dastançılar yazılı ədəbiyyat əsərlərindən istifadə edir, yəni onları müxtəlif şəkildə dastanlaşdırırlar;

b) daha çox yazılı ədəbiyyata bağlı olan, hətta ona mənsub olan hər hansı bir şəxsiyyət tərəfindən yaradılmış əsər aşıqlar içərisində yayılır, məşhurlaşır, sonra da ifalarda dəyişə-dəyişə şifahiləşir, xalq dastanı şəklinə düşür (107, 235-236).

Beləliklə, qəhrəmanlıq dastanlarının müəyyən qrupunun məhəbbət dastanlarına transformasiyası müxtəlif amillərin (islam mədəniyyəti gəlişinin, dini-təsəvvüfi cərəyanların aşıq sənətindən öz ideyalarını kütləviləşdirmək zəminində aşıq-dərvişlərin yetişməsi, ictimai, iqtisadi, siyasi, mədəni amillərlə müəyyənləşən oğuz dövrünün başa çatması və bu zəmində oğuz «qəhrəmanlıq» mövzusunun «məhəbbət» mövzusu ilə əvəzlənməsi, yazılı ədəbiyyatın məhəbbət mövzusunun şifahi ədəbiyyatı-dastanları «məhəbbətləşdirməsi», elə bu axarda yazılı ədəbiyyatın məhəbbət dastanlarını həm də mövzu ilə «təmin etməsi» və s. təsiri altında baş verir. Bu amillər yeni çağla bağlı idi. Yeni çağ isə islam dininin gəlişi ilə şərtlənir. Heç təsadüfi deyildir ki, məhəbbət dastanları öz təsəvvüfi səciyyəli «buta» strukturu ilə məhz islami-təsəvvüfi don geyir.

Beləliklə, qəhrəmanlıq dastanlarının əsas motivlərindən biri olan «qəhrəmancasına elçilik» süjet qrupları əsasında məhəbbət dastanlarına transformasiyası baş vermişdir ki, bu, köklü-köməcli faktorlar sistemi ilə bağlı olmuşdur. Aparılan tədqiqat göstərdi ki, məhəbbət dastanlarının məhz qəhrəmanlıq dastanlarının içərisindən inkişaf etməsi bir tərəfdən bu iki dastan tipinin struktur ortaqlığını, o biri tərəfdən məhz həmin ortaq strukturun differensiasiya əlamətlərini də ortaya qoymuş olur. Bu da öz növbəsində məhəbbət dastanlarının poetik-semantik strukturu ilə bağlı bir qədər əvvəl ortaya çıxmış sualın cavabını verməyə imkan yaradır.

Məhəbbət dastanlarının strukturu ilə bağlı M.H.Təhmasibin apardığı morfoloji strukturun təsviri metodundan fərqli olaraq semiotik müstəvidə (işarələr sistemi kimi) struktur-semantik planda öyrənilməsi göstərdi ki, onun strukturundakı üç qlobal hissə, yəni dastanın struktur sintaksisinin üç ən iri sintaqmı mətnin informasiyası hadisəsi kimi gerçəkləşməsində struktur-semantik işarə rolunu oynayır. Başqa sözlə, ustadnamə Total Mətnin mətnönü işarəsi kimi mətndə (əsas süjetdə) gedəcək hadisələrin bütün dinamikasını işarələndirir. Eləcə də mətn öz növbəsində bir işarə kimi mətnsonunun necə qurulacağını, yəni duvaqqapma, yaxud cahannamə ilə nəticələnəcəyini şərtləndirir. Demişdik ki, sonuncu sintaqm sanki işarə təsiri bağışlamır. Əslində sonuncu sintaqmla (mətnsonu ilə) Total Mətnin (bütöv dastanın) işarələr cərgəsi tamamlanır və bununla Total Mətnin işarə təbiətinin açılması ilə bağlı bura qədər aparılmış tədqiqatlar göstərdi ki, Total Mətn öz strukturunda «məhəbbət» işarəsini reallaşdırır. Bunun belə olduğunu məhəbbət dastanları strukturunun qəhrəmanlıq dastanları strukturu ilə müqayisəsi göstərdi. Məhəbbət dastanları qəhrəmanlıq dastanları ilə eyni arxestruktura malikdir. Bu, ümumi dastan strukturudur.

Ümumi dastan strukturu isə öz arxetipindən-mifoloji hekayələrdən məhz qəhrəmanlıq-alplıq hekayəti kimi baş alıb gəlir və arxaik dastan mərhələsində öz formalaşmasını tamamlayır. Başqa sözlə, arxaik dastanlar bütün mövzu və motivləri ilə

«qəhrəmancasına elçilik» motivi də daxil olmaqla həm dastançı şüurunda, həm də dinləyici qavrayışında məhz qəhrəmanlıq kodundan qəbul olunur. Arxaik dastanların sırf qəhrəmanlıq dastanlarına keçidi ilə bu kod daha da güclənir. Türk dastançılığı tarixində qəhrəmanlıq dastanlarından da müəyyən süjetlər çevrəsində məhəbbət dastanlarına doğru aktivləşmə gedir. Göründüyü kimi, mifoloji hekayələrdən başlayaraq klassik dastanlara qədər aktivləşmə fazaları iki başlıca işarə sayılır: qəhrəmanlıq və məhəbbət. Bunun belə olduğunu folklorşünas M.Allahmanlının maraqlı bir müşahidəsindən də görmək mümkündür.

M.Allahmanlı Azərbaycan dastanlarının folklorşünaslarımız tərəfindən edilmiş təsniflərini nəzərdən keçirir və qəhrəmanlıq, məhəbbət dastanları ilə yanaşı, üçüncü təsnif vahidi olan ailə-əxlaq dastanları ilə bağlı yazır ki, dastanların bölgüsü məsələsində dastanşünasların ailə-əxlaq adı altında dastanları verməsi halı var. Ancaq bizə belə gəlir ki, dastan yaratmada ailə-əxlaq məsələsini əsas mövzu kimi məqsədə çevirmə olmayıb. Çünki bu formanın, eləcə də bütün formaların mövzuya doğmalaşması var. Bu, olsa-olsa nağılçılıqdan gələ bilər. Məhz dastan yaradıcılığında bu motivin görünüşü var, ancaq onun əsas mövzuya çevrilməsi halı yoxdur (14, 18-19).

Tədqiqatçının bu müşahidəsi də göstərir ki, əslində qəhrəmanlıq və məhəbbət dastanlarına təkcə mövzu hadisəsi kimi baxmaq olmaz. Əslində hər iki

dastan tipi müxtəlif olan ənənəvi dastan motivlərini öz strukturunda gəzdirir. Ailə-əxlaq mövzusu da məhz bu iki başlıca dastan tipinin strukturundan müəyyən motivlərin simasında aktivləşmə keçirib müstəqil dastan tipinə çevrilə bilmir. Başqa sözlə, Azərbaycan dastanları fondunda ailə-əxlaq mövzulu dastanlar əslində var. Ancaq bu dastanların qəhrəmanlıq (alplıq), məhəbbət (sevgi) kimi differensiallandırma işarəsi yoxdur. Bu mənada qəhrəmanlıq və məhəbbət dastanlarının bir-birindən fərqi onların mövzularından və bu mövzuları təqdim edən süjetlər qrupundan (motivlərdən) qabaq işarələrindədir. Başqa sözlə, mövzuları da, onları təqdim edən motivləri də və motivlərdəki süjetlərin, invariant hadisələr qrupunu da müəyyənləşdirən, onları bir struktur boyunca düzən (müəyyən strukturun düzülüş-sintaktik qanunlarına tabe edən) məhz dastanın struktur kodu-semantik işarəsidir. Bu semantik işarə dastanları iki bölümə-qəhrəmanlıq və məhəbbət dastanlarına ayırır. Məsələ burasındadır ki, bu bölünmə dastançılıqda həm diaxron, həm də sinxron hadisəsidir və bunun belə olmağı yenə də həmin iki işarənin türk dastançılığı çevrəsində Azərbaycan dastançılığının başlıca strukturyaradıcı işarə olduğunu təsdiq edir.

Qəhrəmanlıq dastanlarından məhəbbət dastanlarına keçid bir tərəfdən diaxronik təbiətə malikdir. Başqa sözlə, burada ardıcıllıq mövcuddur: yəni birindən zaman ardıcıllığı ilə o birinə keçid var. O biri tərəfdən burada sinxoriya var. Başqa sözlə, qəhrəmanlıq dastanlarından məhəbbət dastanlarına

birdəfəlik keçid baş vermir. Yəni ozanın alplıq dastanları (oğuznamələri) elmdə «qəhrəmancasına elçilik» adı altında qəbul edilmiş motivləri səviyyəsində məhəbbət dastanlarına transformasiya edilsə də, aşığın qəhrəmanlıq dastanları kimi də yaşamaqda davam edir. Başqa sözlə desək, transformasiya diarxonik və sinxronik qovuşmada meydan çıxır. Bir tərəfdən alplıq (qəhrəmanlıq) oğuznamələri məhəbbət dastanlarını törədir (doğur), o biri tərəfdən özü də qəhrəmanlıq dastanlarına transformasiya olunur. Yuxarıda ozan-aşıq keçidinə diqqət yönəltdik. Əslində bu keçid haqqında çox yazılıb. Bizim bu fəsildə həmin mövzuya yenidən diqqəti aktivləşdirməmiz qəhrəmanlıq dastanlarından məhəbbət dastanlarına keçidin ozandan aşığa keçid kimi total transformasiyasının tərkib hissəsi olması ilə bağlı idi. Yəni bütövlükdə ozan sənəti aşığa transformasiya olundu. Bu total keçid prosesdaxili tərkib keçidlərinin ümumi sistemi kimi meydana çıxdı. Ozan aşığa öz-özünə keçmədi. Bu keçid ozan sənətinin bütün sahələrində bütöv sənət strukturu daxilində baş verdi. Bu strukturdaxili dəyişmələrdən biri də qəhrəmanlıq dastanlarından məhəbbət dastanlarına keçid idi. Əslində sonuncu keçid bütövlükdə transformasiya hadisəsi kimi baş vermədi. Biz məhəbbət dastanlarından qəhrəmanlıq dastanlarının transformasiyası kimi danışsaq da məhəbbət dastanları qəhrəmanlıq dastanlarının transformasiyasından daha çox, onun törəməsi, üzvlənməsidir. Həqiqi transformasiya qəhrəmanlıq

dastanlarının öz strukturunda getdi. Yəni ozanın ifa etdiyi alplıq (qəhrəmanlıq) dastanı olan oğuznamə (boy, dastan) ozan-aşıq keçidi dönəmində öz «qəhrəmancasına elçilik» motivləri əsasında məhəbbət dastanlarını törətdi. Bu törəmə, doğulma üzvlənmə hadisəsi kimi baş verdi; alplıq (qəhrəmanlıq) dastanın sözügedən motivlər qrupunun müstəqil dastan kimi üzvlənməsinə gətirdi. Bu üzvlənmədən sonra alplıq dastanları məhv olmadı. Ozanın alplıq dastanı yeni dövrün, aşıq dövrünün qəhrəmanlıq dastanına transformasiya olundu. Beləliklə, əsl transformasiya qəhrəmanlıq dastanının bir tipindən (alplıq tipindən) o biri tipinə (klassik qəhrəmanlıq dastanına) keçiddə özünü göstərdi:

**TOTAL OZAN-AŞIQ KEÇİDİ**

| | |
|---|---|
| **Ozan**<br>↓<br>**Aşıq** | **ALPLIQ DASTANI (Oğuznamə)**<br>↙ ↘<br>**TRANSFORMASİYA - Transformativ** (klassik qəhrəmanlıq dastanı)<br>**törəmə üzvlənmə** (məhəbbət dastanları) |

Sxemdən də göründüyü kimi, Azərbaycan dastançılıq ənənələrinin tarixi əslində qəhrəmanlıq dastanlarının tarixi və müəyyən dönəmdə bu dastanlardan məhəbbət dastanlarının üzvlənmə-törəmə tarixidir. Azərbaycan dastanlarının bütün mo-

tivləri bu iki dastan tipinin struktur məntiqinə tabedir. Bu baxımdan geniş müstəvidə Azərbaycan dastançılığında bütün yardımçı motivləri ilə bərabər iki dastan mövzusu, iki dastan strukturu, iki dastan var: qəhrəmanlıq və məhəbbət dastanları.

Beləliklə, təqribən XII-XV əsrlər boyunca əski qəhrəmanlıq dastanlarının (alplıq oğuznamələri, boylarının) həm də klassik qəhrəmanlıq transformasiyası, həm də məhəbbət dastanlarına transformativ üzvlənməsi baş verir. Birinci dastanın semantik işarəsi qəhrəmanlıq, ikincisi-məhəbbətdir.

Qəhrəmanlıq dastanlarındakı «qəhrəmancasına elçilik» motivi süjet sistemi kimi məhəbbət dastanlarında buta elementinə transformasiya olunur. Buta məhəbbət dastanlarında formasından asılı olmayaraq, mütləq süjet hadisəsinə çevrilir və müxtəlif semantik qatlar şəklində qurulur. Bu mənada buta bir tərəfdən sevgilini bildirir, o biri tərəfdən Allahı simvolizə edən obrazdır, başqa tərəfdən dastan qəhrəmanının əldə etməyə çalışdığı dastan dəyəri-kosmik dəyərdir. Haqqa aşiqlik butadan başlanır. Nə qədər ki, buta yoxdur, haqq aşiqi yoxdur. Butavermə ilə qəhrəman «haqq aşiqi»nə çevrilir. Əgər bütöv mətn boyu qəhrəman özünün haqq aşığı olduğunu sübut etməyə çalışırsa, bu sübutda məqsəd butaya çatmaqdır. Başqa sözlə, butaya qovuşmaq üçün «haqq aşığı» olmaq lazımdır. «Haqq aşığı» bir statusdursa, «buta» bu statusu şərtləndirir. Bu mənada buta bir simvol semantem kimi səbəb, haqq aşıqlığı nəticə mövqeyindədir. Əslində haqqa aşiqlik bir tərəfli-Allaha yönəlmiş

epik potensiyadır.Buta semantemi ilə həmin potensiya bitkinlik şəklini alır: haqqa aşiqlik-buta (qəhrəman və sevgilisi). Burada buta semantemi haqq aşıqlığı semantemindən daha güclü simvoldur.

Haqqa aşiqlik təsəvvüf davranışı kodudur. Yəni qəhrəman haqqa-Allaha aşiqdir. Onun aşıqlığı tanrıdan gəlir. Buta isə həmin Tanrının birbaşa epik obrazıdır. Yəni burada məcazi planda görüntü obrazı olan Sevgili, təsəvvüfi-simvolik məna qatları ilə bir qədər sonra Aşiq-Məşuq məna kompleksində araşdırılacaq. İndi isə burada onu demək istərdik ki, buta semantemi bir tərəfdən təsəvvüfi davranış kodudursa, o biri tərəfdən sırf epik kod, arxetipik ənənələrlə bağlı dastan kodudur. Buna əsaslanıb məhəbbət dastanlarının strukturunun başlıca differensial işarəsi kimi buta elementini götürmək olar. Dastançılıq ənənəsində alplıq qəhrəmanlıq dastanlarının bütün səviyyələrdə struktur işarəsi kimi çıxış edirsə, buta da məhəbbət dastanlarının struktur işarəsidir. Bu mənada məhəbbət dastanları strukturunun tədqiqatımızdakı elmi açılışının folklor-şünaslıqda şərhlərdən başlıca fərqi də buta semanteminin məhəbbət dastanları mətninin total differensiasiya işarəsi kimi həmin dastanların struktur qatlarında funksiyalaşma imkanlarının aşkara çıxarılmasından ibarətdir. Butanın məhəbbət dastanlarının strukturunda funksiyalaşma miqyasları mütləq olaraq strukturun bütün qatlarını çevrələyir. Bu mənada buta semantemi həm davranışın kodu kimi, həm süjetin dinamikasının epik məntiqi kimi,

həm süjetin strukturyaradıcı planı kimi və s. səviyyələrdə mövcuddur.

Beləliklə, mətnin struktur-semantik, semiotik dəyərləndirilməsi baxımından Azərbaycan məhəbbət dastanlarının total differensiasiya əlaməti kimi buta elementinin götürülməsi məqsədəuyğundur. Təbii ki, burada söhbət ümumiyyətlə buta elementindən yox, onun məhəbbət dastanlarının bütün struktur qatlarına yayılmış, strukturun bütün semantik laylarını çevrələyən buta-epik semantik kompleksindən gedir. Fikrimizcə, butanın belə bir poetik kompleks kimi Azərbaycan məhəbbət dastanları mətnindən rekonstruksiya edilməsi mövcud tədqiqatımızı indiyəqədərki tədqiqatlardan həm fərqləndirir, həm də məhəbbət dastanları poetikasına yeni bir yanaşma bucağı təklif edir.

Fəslin əvvəlində istər məhəbbət dastanları, istərsə də ümumiyyətlə, dastanlarımız haqqındakı tədqiqatlara biblioqrafik baxımdan yanaşaraq göstərdik ki, bu sahədə xeyli tədqiqatlar aparılmışdır. Onlar Azərbaycan dastançılığının ən müxtəlif problemlərinə həsr olunmuşdur. Onu qeyd etmişdik ki, həmin tədqiqatlar içərisində bilavasitə bizim mövzumuza daxil olan, Azərbaycan məhəbbət dastanlarının strukturunu morfoloji quruluş baxımından kifayət qədər monumental planda araşdıran tədqiqat mərhum prof. M.H.Təhmasibin «Azərbaycan xalq dastanları (orta əsrlər)» monoqrafiyasıdır. O, Azərbaycan dastanlarını, o cümlədən məhəbbət dastanlarını tədqiqatın ortaya

çıxdığı 60-cı illərin sonlarına qədərki dövrdə, demək olar ki, bütün əsas dastan fondu üzrə tədqiq etmiş və dastan üçün (məhəbbət dastanı üçün) belə bir süjet strukturu təklif etmişdir:

*I. Qəhrəmanın anadan olması və ilk təlim-tərbiyəsi.*

*II. Qəhrəmanların, yəni Aşiq və Məşuqənin buta almaları.*

*III. Qabağa çıxan maneələr və onlara qarşı mübarizə.*

*IV. Müsabiqə və qələbə* (107, .65).

Əslində, M.H.Təhmasib bu dörd hissəli süjet strukturu ilə Azərbaycan məhəbbət dastanlarının total süjetinin bütün morfoloji vahidlərini ümumiləşdirə bilmişdir. Bu baxımdan məhəbbət dastanlarının süjetində elə bir element yoxdur ki, bu dörd morfoloji vahidin ümumiləşdirə biləcəyi poetik morfemlərdən qıraqda qalsın. Bu baxımdan süjetin Təhmasib tərəfindən təklif olunan struktur təsviri kamildir. Bunu türk folklorşünaslığında dastan variantlarının öyrənilməsi zamanı tətbiq olunan süjet strukturu təcrübəsi ilə tutuşdurma süjet strukturunun ən müxtəlif bucaqlarından təqdimedilmə imkanları ilə bağlı təsdiq səciyyəli nəticələrə gəlməyə də imkan verir. Türk alimi Doğan Kaya «Mahmud ilə Nigar» hekayəsinin (Azərbaycan variantı «Qul Mahmud» dastanı) bütün variantlarını, o cümlədən Azərbaycan variantını da cəlb edərək dastanı müqayisəli şəkildə öyrənmişdir. O, tədqiqatda o cümlədən dastanın süjet strukturunu da invariantlaşdırmışdır (bütün

variantlar üçün orta olan süjet strukturu). Nəticədə tədqiqatımız baxımından da çox maraqlı olan struktur alınmışdır. Diqqət edək.

Tədqiqatçı yazır ki, Mahmud ilə Nigar hekayəsinin əlimizdə dörd variantı vardır. Variantlar bütövlükdə bənzər və fərqli motivlər təqdim edir. Biz burada variantların qarşılaşdırılmasını apararkən hekayələrdəki (dastanlardakı-M.C.) mövcud epizodları nəzərə alırıq. Epizodların başlıcası bunlardır:

1. Qəhrəmanların ailəsi və ölkələri.
2. Qəhrəmanların doğulması
3. Qəhrəmanların böyümələri.
4. Eşqin doğuşu.
5. Sazçalma qabiliyyətinin qazanılması.
6. Qəhrəmanın yoxsul hala gəlməsi.
7. Qəhrəmanın qürbətə getməsi.
8. Qəhrəmanın qardaşı Qəmbərlə rastlaşması və sevgilini axtarmaları.
9. Qəhrəmanın imtahan edilməsi (sınağa çəkilməsi-M.C.).
10. Sevgili ilə ilk qarşılaşma.
11. Ortaya çıxan maneələr və qısqanclıqlar.
12. Qəhrəmanların cəzalandırılması.
13. Qəmbərin Mahmudu axtarması.
14. Qəhrəmanların cəzalarının sona yetməsi.
15. Toy (118, 65).

Qeyd edək ki, M.H.Təhmasibin təklif etdiyi süjet strukturu ilə Doğan Kayanın tətbiq etdiyi süjet strukturunun müqayisəsi maraqlı məqamları üzə

çıxarır. Əvvəla, M.H.Təhmasib məhəbbət dastanı süjetini, yəni öz yazdığı kimi, «qəhrəmanın öz butasına çatmaq uğrunda mübarizənin təsvirini» dörd hissəyə ayırır. Bu baxımdan biz «Mahmud və Nigar» dastanı süjetinin invariant strukturunda 15 epizod, başqa sözlə, süjet vahidi görürük. Rəqəmlərin fərqli olması hər iki tədqiqatçının dastan süjetinə fərqli struktur ölçülərindən yanaşmasından irəli gəlir. Diqqət etsək, M.H.Təhmasibin süjet ölçüsü vahidi Doğan Kayanın süjet ölçüsü vahidindən iri vahiddir. Doğan Kaya «Mahmud və Nigar» dastanının süjetini epizodları vahid kimi götürməklə təsvir edir. Əslində onun dastan epizodu kimi təqdim etdiyi müəyyən süjet vahidləri motiv səciyyəlidir. Məsələn, qəhrəmanların doğuluşu, eşqin doğuluşu (butavermə), imtahan (sınaq), toy (düyün) kimi epizodlar əslində məhəbbət dastanlarında eynicinsli süjetləri ortaq mövzu ətrafında birləşdirən süjet vahidləri-motivləridir. Bu baxımdan Doğan Kayanın tətbiq etdiyi təsvir təkcə epizodlar əsasında yox, motiv və epizodlar əsasında aparılmışdır. M.H.Təhmasibin təklif etdiyi süjet strukturu isə dastan süjetindəki epizod və motivləri daha iri miqyasdan təsnif edir. Doğan Kayanın tətbiq etdiyi təsvir təkcə epizodlar əsasında yox, motiv və epizodlar əsasında aparılmışdır. M.H.Təhmasibin təklif etdiyi süjet strukturu isə dastan süjetindəki epizod və motivləri daha iri miqyasdan təsnif edir. Doğan Kayanın süjet təsviri bu baxımdan süjetin epizod və motiv kimi mənalı elementləri əsasında sintaktik xarakterli

«Oxudur». Təhmasib isə dastan süjetinin sintaktik «oxusunun» mifoloji struktur qatlarına enir. Bu anlamda Təhmasibin təklif etdiyi süjet vahidləri süjetin ən ümumi miqyaslı vahidlərdən-epik morfemlərdən «oxusudur». Başqa sözlə, süjet vahidi öz semantik tutumu baxımından nə qədər ümumiləşdirilsə, konkret mənadan (epik leksika) epik strukturun daha ümumi işarə qatlarına enilir. Elə buna görə də M.H.Təhmasibin «oxusunu» morfoloji strukturun təsviri hesab etmək olar.

M.H.Təhmasibin və Doğan Kayanın süjet strukturlarının müqayisəsi başqa yöndən onların alternativ oxular olduğunu göstərmir. Daha doğrusu, bunlar bir-birini inkar yox, təsdiq edir:

| **M.H.Təhmasibdə:** | | **Doğan Kayada:** |
|---|---|---|
| 1 | Qəhrəmanın anadan olması və ilk təlim-tərbiyəsi; | 1. Qəhrəmanların ailəsi və ölkələri; 2.Qəhrəmanların doğulması; 3.Qəhrəmanların böyümələri; |
| 2 | Qəhrəmanların, yəni Aşıq və Məşuqənin buta almaları; | 4.Eşqin doğuşu; 5.Sazçalma qabiliyyətinin qazanılması; |
| 3 | Qabağa çıxan maneələr və onlara qarşı mübarizə | 6.Qəhrəmanın yoxsul hala gəlməsi; 7.Qəhrəmanın qürbətə getməsi; 8.Qəhrəmanın qardaşı Qəmbərlə rastlaşması və sevgilini axtarmaları; |

| | | |
|---|---|---|
| 4 | Müsabiqə və qələbə | 9.Qəhrəmanın imtahan edilməsi; 10.Sevgili ilə ilk qarşılaşma; 11.Ortaya çıxan maneələr və qısqanclıqlar; 12.Qəhrəmanların cəzalandırılması; 13.Qəmbərin Mahmudu axtarması; 14.Qəhrəmanların cəzalarının sona yetməsi; 15.Toy. |

Tutuşdurma göstərir ki, M.H.Təhmasibin tətbiq etdiyi süjet strukturu süjetin morfoloji vahidlər səviyyəsindən «oxusu», Doğan Kayanın bir dastanın invariantının qurulmasına yönəlmiş süjet strukturu isə süjetin motiv və epizodlar səviyyəsindən «oxusudur». Bu halda, təbii ki, Azərbaycan məhəbbət dastanları poetikasının tədqiqinə həsr olunmuş araşdırmamızın məhəbbət dastanlarının quruluşunu araşdıran birinci fəslində tədqiqatın bu hissəsinə qədər süjetin hansı səviyyədən «oxunuşunun» tətbiqi sualı meydana çıxır.

Biz Azərbaycan məhəbbət dastanlarını konkret etnosun epik dünya-duyumunu reallaşdıran mətnlər kimi götürdük. Bu baxımdan bizim burada tətbiq etdiyimiz «mətn» anlayışı dastana təhkiyə vahidi kimi yanaşmanı nəzərdə tutan ənənəvi mətn anlayışından fərqlənir. Ənənəvi mətn anlayışı dastan süjetinin sintaktik oxu sistemidir. Dastan süjeti başlanır və öz sonu ilə tamamlanır. Bundan təhkiyə vahidi olan mətn alınır. Bu barədə B.N.Putilov yazır ki, «süjet» termini… əsasən təhkiyə janrlarının tədqiqində

işlədilir… «Süjet» anlayışı o mənada məlum elmi şərtiliyə malikdir ki, o, «mətn» anlayışına bərabər deyildir və mətn qruplarının xüsusi təhlili nəticəsində formalaşır (191, 137).

B.N.Putilovun süjet-mətn münasibətlərinin epik hüdudlanma və qarşılıqlı təsirləri ilə bağlı bu fikirlərinin spesifik tərəflərini bir qırağa qoyub, öz mövzumuz baxımından qeyd edək ki, onun yazdığından da göründüyü kimi, ənənəvi mətn süjetüstü hadisədir. Yəni mətn təhkiyə hadisəsi kimi süjetlərin hüdudlandığı yerdə meydana çıxır. Başqa sözlə, süjetin tamlığından mətn hasil olur. Bizsə fəslin əvvəlində göstərdik ki, mətn termininin təhkiyə anlayışına yox, struktur-semantik anlayışına söykənirik.

Struktur poetika baxımından mətn etnosun dünya modelini gerçəkləşdirən obyektdir. Məhz belə bir obyekt kimi, Azərbaycan məhəbbət dastanları Azərbaycan etnosunun dünya duyumunu, dünya təsəvvürlərini özündə gerçəkləşdirən mətnlərdir. Bu mənada dastan mətni işarələr sistemidir. Onun hər mənalı formulu epik dünyanın işarəsidir. Dünya modeli bitkin təsəvvürlər sistemi kimi Azərbaycan məhəbbət dastanlarında realizə olunmaqla dastan mətninin strukturunu, quruluş sistemini şərtləndirmiş olur. Bu baxımdan bizim tədqiqat Azərbaycan məhəbbət dastanlarının strukturuna məhz mənalı işarələr sistemi kimi baxır. Həmin mənalı işarələr prizması-semiotik yanaşma tərzi dastan mətninin iki hissənin (mətndənqıraq və mətndaxili) mürəkkəb

sistemi olduğunu aşkara çıxarır. Həmin hissələr Total Mətnin mənalı elementlərini, yəni semantik işarələrini nəzərdə tutur: **Mətnönü, Mətn, Mətnsonu.** Beləliklə, konkret olaraq məhəbbət dastanları iki hissəli, üç üzvlü struktur formuluna malikdir:

Mətnönü (ustadnamə)-Mətn (dastan süjeti)-Mətnsonu (duvaqqapma, yaxud cahannamə).

Struktur üçün təklif etdiyimiz bu formulu M.H.Təhmasibin morfoloji «formulu» və Doğan Kayanın motiv-epizod səciyyəli «formulu» ilə tutuşdurduqda bir-birinə alternativ, biri o birini inkar edən formulları yox, dastanın struktur oxusunu müxtəlif struktur kodlarından inikas edən formullar sırasını görürük. Bu formullar biri o birinə münasibətdə «ölçü vahidinin» tutumu ilə seçilir. Başqa sözlə, indiki halda ən kiçik vahid Doğan Kaya formulu, bir qədər böyük M.H.Təhmasib formulu, daha böyük bizim təklif etdiyimiz formuldur. Struktur vahidinin kiçikdən böyüyə doğru böyüməsi onun ümumiliyini, get-gedə şərtləşməsini, şərti işarəyə dönməsini, nəhayət, birbaşa işarə kimi çıxış etməsini şərtləndirir. Bu baxımdan təklif etdiyimiz formulun hər bir elementi mətnin struktur işarəsi olmaqla öz düzülüş sırasında Total mətnin işarəsini şərtləndirir. Azərbaycan məhəbbət dastanlarının Total mətn işarəsi Haqq Aşiqliyi-Butadır. Azərbaycan məhəbbət dastanlarının Total Mətn işarəsi onun həm də mədəniyyət sistemində avtonomluğunu, differensial vahid olduğunu şərtləndirir. Yəni məhəbbət dastanları

bir mətn kimi mədəniyyətin eyni müstəvidəki başqa mətnlərindən məhz «buta» işarəsi ilə seçilir.

Bir qədər əvvəl dedik ki, məhəbbət dastanlarının Total Mətn işarəsi həm də haqqa aşiqlikdir və bu təsəvvüf davranış kodudur. Buta vahidi isə bir element kimi milli mədəniyyətin, milli eposun öz faktıdır. Buta dastan mətninin ən arxetipik səviyyələrində arxetipik formaları ilə mövcuddur. Butanın dastan mətninin strukturundakı işarə funksiyasını dastanın bütöv mətni üçün funksional dinamika, epik hərəkət, süjet məntiqi və s. əsası olması onu struktur-semantik müstəvidə mütləqləşdirmə tələb edir. Düzdür, buta elementi dastana formal olaraq butavermə motivi ilə daxil olur. Ancaq indiki halda tədqiqatın predmeti dastanın buta (qız-sevgili) elementi yox, dastan mətninin süjet strukturunu müəyyənləşdirən buta struktur-semantik kompleksidir. Həmin kompleks buta-qız, sevgili elementini öz mərkəzinə alan geniş bir sistemdir. Dastan süjetinin bütün elementləri həmin kompleks baxımından müəyyən semiotikliyə-işarəviliyə daxildir. Ancaq biz indiki halda süjetin bütün elementlərini geniş təsvir etməyəcəyik. Çünki bununla biz Azərbaycan dastanşünaslığında məhəbbət dastanlarının ümumi strukturu, bu strukturun müəyyən mənalı elementləri ilə bağlı aparılmış araşdırmaların, xüsusilə M.H.Təhmasibin tədqiqatlarının uyğun yerlərini yalnız təkrarlamış olarıq. Belə bir təkrardan qaçmaq üçün dastan strukturundakı müəyyən yerlər haqqında ümumi şəkildə söz açılacaqdır. Məsələn, M.H.Təhmasibin tez-tez toxunduğumuz «Azərbaycan

xalq dastanları» (orta əsrlər (1972) monoqrafiyasında qəhrəmanın butaya doğru getdiyi yol, o cümlədən sınaq motivləri epik ünsürlər baxımından çox tutumlu işlənilmişdir. Bu baxımdan onlar haqqında yazmaq əslində deyilənləri təkrarlamaq olar. Ancaq məsələ burasındadır ki, buta struktur-poetik kompleksinə daxil olan və bizim burda xüsusilə qabartmaq istədiyimiz qəhrəmanın doğuluşu, o cümlədən butavermə elementləri haqqında da çox yazılmışdır. Bu xüsusda ayrıca vurğulamaq istəyirik ki, biz həmin elementləri ilk növbədə buta kompleksinin tərkib hisəsi kimi öyrənmək, eləcə də bu elementlərin struktur-semantik, semiotik-mifoloji, arxetipik xassələrini aşkarlamaq istəyirik.

Öncə **qəhrəmanın doğuluşu** motivinin süjet paradiqmasını Azərbaycan məhəbbət dastanlarının mətnləri əsasında quraq. Qeyd edək ki, doğuluş motivinin belə bir statik paradiqmasının qurulması dastanın bir epos kimi ənənəvi formullar əsasında qurulmasından irəli gəlir. Bu ənənəvilik, qeyd etdik ki, təkcə Azərbaycan dastançılığında yox, ümumiyyətlə, dünya eposuna, geniş miqyasda dünya folkloruna xasdır. Folklor ənənəvi formullar əsasında yaranan mətnlərdir və bu mətnlərin strukturu dünya eposları üçün tipoloji universallıq daşıyır. Eposşünaslığın müasir səviyyəsi epik strukturların, konkret olaraqsa, eposların universal sxemlər əsasında qurulmasını çox samballı müəlliflər yaratdıqları tədqiqatlar əsasında artıq sübut etmişdilər (144; 151; 152; 169; 170; 184 və s.). B.N.Putilov dünya eposşünaslığının bu

təcrübəsindən çıxış edərək yazır ki, epik süjetikanın beynəlxalq epik repertuar əsasında aparılmış müqayisəli icmalı ilə təsdiq edilmiş belə bir kardinal xüsusiyyəti hamı tərəfindən qəbul edilib ki, süjet mövzuları, süjet invariantları, motiv invariantlarının toplusu müəyyən və məlum şəkildə məhduddur və bu da öz növbəsində müxtəlif xalq və dövrlərin eposlarının «oxşarlığının», «ümumiliyini», «təkrarçılığını» doğurur (191, 163). Bu baxımdan Azərbaycan məhəbbət dastanlarının doğuluş motivlərinin məlum oxşarlığı müəyyən arxetipik məhdudluqla izah olunur və bu da öz növbəsində məhəbbət dastanlarının doğuluş süjetlərinin paradiqmatik cədvəlini daha arxaik strukturlu cədvəllərlə müqayisə etməklə struktur-semantik fondun dərin qatlarına enməyə imkan verir. Bunun üçünsə öncə Azərbaycan məhəbbət dastanlarının müasir fondu əsasında doğuluş motivinin statistik cədvəlini qurmaq üçünsə XX əsr Azərbaycan dastançılığının zəngin toplama və çap ənənələri geniş imkanlar verir (21; 22; 23; 24; 25; 26; 27; 36; 37; 38; 81; 82; 51; 52; 53; 87 və s.).

Azərbaycan dastanlarının klassik örnəklərindən olan «Tahir-Zöhrə» dastanından oxuyuruq:

«Belə rəvayət edirlər ki, Qaraman şəhərində iki qardaş var idi. Böyüyünün adı Hatəm Sultan, kiçiyinin adı Əhməd Vəzir idi. Hatəm Sultan Qaraman şəhərinin padşahı, Əhməd də onun vəziri idi. Mal-dövlətləri bihədd, cahu-cəlalları bihesab idi. Ancaq heç birinin zürriyyəti yox idi ki, öləndə yerlərində qalsın. Əhməd adil, rəiyyətinə əl tutan,

rəhmli bir adam idi. Amma Hatəm Sultan zalım, xunxarın biri idi. Əhməd Vəzir fəqir füqəraya həmişə əl tutardı; ancaq övladı olmadığından həmişə qəmgin olardı. Günlərin bir günündə Əhməd Vəzir bikef, məlul oturub övlad dərdi çəkirdi. Bu zaman bir nurani dərviş daxil olub, salam verdi. Əhməd vəzir salamın cavabını verəndən sonra qalxıb dərvişin kəşkülünə bir gəngə əşrəfi atdı. Dərviş cibindən bir alma çıxarıb Əhmədə verdi:

-Al, muradın hasil olar.

Dərviş gedəndən sonra Əhməd Vəzir almanı o tərəf bu tərəfə çevirib baxdı. O, bu gözəllikdə alma ömründə görməmişdi, heç dünya almasına bənzəmirdi. Əhməd Vəzir axşama kimi almaya tamaşa elədi. Axşam rəxt-xabə girib yatdı. Gecənin bir aləmində yuxusunda gördü ki, evin bir tərəfindən divar ayrıldı, haman alma verən nurani dərviş göründü. Dərviş üzünü Əhməd Vəzirə tutub dedi:

-Ey Əhməd Vəzir! Dünən sənə verdiyim almanı götürüb qardaşın Hatəm Sultanın hüzuruna gedərsən. Almanı tən ortasından iki yerə bölərsən. Bir parçasını sən özün arvadınla yeyərsən, bir parçasını da Hatəm Sultan öz arvadı ilə yeyər. İnşallah hər ikinizin övladı olar.

Dərviş sözünü deyib qeyb oldu. Divar da ağız-ağıza gəlib bitişdi. Əhməd o saat yuxudan ayıldı, gördü heç kəs yoxdu, ancaq otaq ətir, ənbər qoxusu verir. Başa düşdü ki, yuxu görübmüş. Bir xeyli fikrə getdi. Xəyalında aranı dağa köçürtdü, dağı arana köçürtdü. Elə bu vaxt arvadı içəri girdi, gördü hər

tərəfdən ətir, ənbər qoxusu gəlir. Acıqlı-acıqlı dedi:

-Arvad, hövsələni yığ. Günah eləmə! Dünən bir nurani dərviş mənə bir alma verdi, dedi ki, qardaşımla yeyək, övladımız olsun. Bu ətir haman almanın ətridir.

Arvad ərindən bu sözləri eşidən kimi halı dəyişdi, söyündüyündən bilmədi neyləsin, tez çıxıb getdi hərəmxanaya. Əhməd Vəzir də qardaşının hüzuruna gəlib əhvalatı ona nağıl elədi. Almanı iki yerə bölüb yarısını qardaşına verdi, yarısını da özünə saxlayıb dedi:

-Qardaş, gəl almanı yeməmişdən qabaq bir əhd eliyək.

Hatəm sultan dedi:

-O nə əhddir, söylə görək.

Əhməd Vəzir dedi:

- Qardaş, atanın övlada üç borcu var. Birinci tərbiyə, ikinci oxutmaq, üçüncü evləndirmək. Bu üç borcu vacibdir ki, ata yerinə yetirsin.

Hatəm Sultan dedi:

-Qardaş, nə demək istəyirsən, acıq de.

Əhməd Vəzir dedi:

-Onu demək istəyirəm ki, əgər mənim oğlum, sənin qızın olarsa, sən qızını mənim oğluma verərsən, yox mənim qızım, sənin oğlun olarsa mən qızımı sənin oğluna verərəm.

Hatəm Sultan qardaşının fikrini bəyəndi. Əl-ələ verib, əhd-peyman elədilər. Almanı yedilər. Bir müddət gəlib keçdi, hər ikisinin arvadı hamilə oldu. Əhməd Vəzir başladı yetim-yesirə, fəqir-füqəraya

ehsan verməyə. Ta ki, doqquz ay, doqquz gün, doqqus saat, doqquz dəqiqə, doqquz saniyə tamam oldu. Hər ikisinin arvadı bari-həmləni yerə qoydu. Əhməd Vəzirin oğlu, Hatəm Sultanın bir qızı oldu. Bu uşaqlar bir-birinə o qədər oxşuyurdular ki, elə bil bir alma idi, yarı bölünmüşdü. Məclis qurdular, şadlıq elədilər, oğlanın adını Tahir, qızın adını da Zöhrə qoydular (33, 324-26).

Göründüyü kimi, biz «Tahir-Zöhrə» dastanından doğuluş süjetini olduğu kimi təqdim etdik və bu da sitat örnək-olaraq böyük həcm tutdu. Ancaq bu şərtidir. Çünki sonrakı örnəklər bununla müqayisədə sözün hərfi mənasında sxematik örnəklər olacaq. Nümunəni belə geniş verməkdə məqsəd də həmin sxemi qurmaq üçün süjetin bütün mənalı elementlərini təqdim etmək idi. Diqqət edək.

Doğuluş süjetindən bəlli olur ki, gələcək Aşiq və Məşuqun, yəni Tahirlə Zöhrənin ataları qardaşdır. Bu elementin dastan poetikasında özünəməxsus işarəsi var. Elə «Tahir-Zöhrə» ilə bağlı bu süjetin açıqlanmasından da görəcəyimiz kimi, məhəbbət dastanlarının strukturunda doğuluş süjetindən dərhal sonra gələn butavermə süjeti (motivi) butaların atalarının bir-birinə qohumluq dərəcəsindən asılıdır. Başqa sözlə, qəhrəmanların ataları qardaş olurlarsa, mətndə butavermə süjeti olmur, yox qardaş olmurlarsa, mütləq butavermə süjeti olmalıdır. Bu cəhət də öz növbəsində butavermə motivinin bir mətn semantemi kimi poetikasına enməyə, onun genezisini, inkişafını

variativ səciyyəli şaxələnmələrini öyrənməyə imkan vermir. Ancaq bu barədə bir qədər sonra.

Tahirlə Zöhrənin atalarının qardaş olmaları ataları cəmiyyət strukturunun bir sosial-bioloji cərgəsinə- qan qohumları sırasına salır. Ancaq bildiyimiz kimi, dastan mətni ənənəvi mətn olaraq formullar əsasında qurulur. Bu formulların daxili strukturu binar (ikili) qarşıdurma qoşalıqlarından təşkil olunur. Bu baxımdan dastan mətni mifoloji-metaforik prinsip əsasında qurulan əsatiri mənşəli mətnlərdən çox uzaqlaşıb, məhz metaforik mətnə çevrilsə də, bu uzaqlaşma tam qopma, ayrılma şəklində deyil. Yəni dastan mətninin poetik funksionallaşma prinsipləri öz arxetipləri-mifoloji funksionallaşma ilə qurulan əsatiri mətnlərlə əlaqəsini saxlayır. Bu baxımdan mifoloji mətn üçün səciyyəvi olan binar qarşıdurma qoşalıqlarını dastan mətnindən asanlıqla görmək və bərpa etmək mümkün olur.

Tahirlə Zöhrənin ataları qardaş olsalar da dastanın mətn məkanında onlar bir neçə məqamda qarşıdurma mövqeyindədirlər. Qardaşlardan biri böyük, o biri kiçikdir. Bu, təbii bir haldır. Ancaq bu təbii halın xüsusilə nağıl mətnlərində geniş qoşalıqlar təşkil etməsi məlum faktdır. Qardaşlar sosial baxımdan da qarşıdurma mövqeyindədirlər: biri şah, o biri vəzirdir (hakim-tabe). Xarakterik qarşıdurma isə onlardan birinin zalım, o birinin adil olmasıdır. Beləliklə, dastan mətninin başlanğıc epik ziddiyyəti bu qoşalıqlarda təzahür edir:

| | |
|---|---|
| ***Böyük Qardaş*** | ***Kiçik qardaş*** |
| ***Şah*** | ***Vəzir*** |
| ***Hakim*** | ***Tabe*** |
| ***Zalım*** | ***Adil*** |
| ***Rəhmsiz*** | ***Rəhmli*** |

Sxematik baxımdan doğuluş süjeti belə qurulur: iki qardaş var, uşaqları yoxdur. Dərviş onlara alma verir. Onlar almanı arvadları ilə yeyirlər. Bir oğlan və bir qız dünyaya gəlir. Bunlar əmioğlu-əmiqızıdırlar. Valideynləri bunları evləndirmək haqqında əhd edirlər (göbəkkəsmə nişanlı).

Nəzərdən keçirilən doğuluş süjetində doğulan övladların eyni cinsdən (ya iki oğlan, ya iki qız) olmaları da məhəbbət dastanlarının struktur poetikası baxımından vacib işarələrdir. Dastan bütövlükdə epik konflikt şəklində təşkil olunur. Dastan mətni ən müxtəlif qat və səviyyələri əhatə edən qoşalıqları kimi təşkil olunur. Bu qarşıdurma qoşalıqları sırasında doğulmuş qəhrəmanların birinin oğlan, o birinin qız olması epik strukturun öz məntiqi qəlibinə uyğundur. Dastan «təfəkkürü» dünyaya qarşıdurma qoşalıqlarından baxır. Heç təsadüfi deyildir ki, dastan mətnində etnik-mədəni strukturun bütün qatlarını əhatə edəcək qarşıdurma qoşalıqlarına təsadüf olunur. Özü də bu prinsip istər bütöv dastana, istərsə də onun ayrı-ayrı motivlərinə eyni dərəcədə xasdır. Elə nəzərdən keçirdiyimiz və semantik sxemini qurmağa çalışdığımız doğuluş süjetinin özündə dünyanın ən iri struktur qatları artıq əhatə olunur. Diqqət edək.

***Qarşıdurma qoşalıqları*** ***Qoşalıqların əhatə etdiyi dünya strukturu qatları***

*1. Böyük qardaş – kiçik qardaş* *Bioloji-etnik struktur qatı*
*2. Şah –Vəzir, Hakim – Tabe* *Sosial struktur qatı*
*3. Zalım – Adil, Rəhmsiz – Rəhmli* *Etnik struktur qatı*
*4. Oğlan – Qız (Kişi – Qadın)* *Sosial-bioloji struktur qatı*

Oğlan-qız binar qarşıdurması, hər şeydən öncə cinsi təsnifat qoşalığıdır. Ancaq dastan mətnində bunun inkar olunmayacaq sosial təsnifat aspekti də var. Bu aspekt gələcək sevgililərin Aşiq-Məşuq obrazlar kompleksi şəklində qurulmasında özünü xüsusilə göstərir. Belə ki, məhəbbət dastanlarında fiziki fəallıq aşiqə (oğlana) məxsusdur, qızın fəallığı fiziki planda az görünür. Məkan boyunca reallaşan dinamika oğlana mənsubdur. Qızın aktivliyi məcazi irfani plandadır. Bu da sosial aspektlə bağlı idi. Yəni qız və oğlan bioloji fakt kimi cinsi hadisə olsalar da, sosial məkanda dəyərləndirilmələri baxımında eyni dərəcədə sosial fakt idilər. Bu cəhət onları dünya strukturunun məhz sosial-bioloji faktı kimi dəyərləndirməyə imkan verir. Bu, belə də olmalıdır.

Çünki arxetip planda oğlan-qız doğumu faktı daha qlobal kişi-qadın qoşalığının məhəbbət dastanları səviyyəsində təzahürüdür. Bunun arxetip planda özünəməxsus cinsi simvolikası var. Bu cinsi simvolika məhəbbət dastanlarında sosiallaşma səciyyəli (boyalı) epikləşmə keçirtmiş və məhəbbət dastanı mətnində sosial-bioloji semantemə çevrilmişdir.

«Tahir-Zöhrə» dastanı mətnində butavermə motivi yoxdur. Bu, zahiri baxımdan bizim birinci fəsildə əsaslandırmağa çalışdığımız bir tezisi inkar edir. Biz sübut etməyə çalışırıq ki, mətnin struktur tədqiqi planında məhəbbət dastanlarının differensial əlaməti, struktur işarəsi buta elementidir. Bu halda «Tahir-Zöhrə» dastanında butavermə motivinin olmaması həmin tezisi zahirən inkar edir. Lakin biz yenə təkrar edirik ki, bu ancaq zahirən belədir.

Bununla biz Azərbaycan məhəbbət dastanlarının tədqiqi üçün yeni olan belə bir struktur-semantik tezisi irəli sürmək və əsaslandırmaq istəyirik:

Məhəbbət dastanlarında butavermə qəhrəmanların bir-birinə buta verilməsindən yox, qəhrəmanların doğuluşundan başlanır. Bu baxımdan buta epik-semantik kompleksi indiyədək şərh olunduğu kimi, təkcə məhəbbət semantemi yox, eləcə də doğuluş semantemidir.

Tezisi bir qədər də açıqlayaraq bildirmək istəyirik ki, məhəbbət dastanlarının süjet strukturu şərh olunarkən buta hadisəsinin doğuluş süjetindən sonra gəldiyi göstərilir. Bu ilk baxışdan, doğrudan da, belədir. Çünki qəhrəmanlar adi olmayan yolla

(dərvişin və b.) dünyaya gəlir, böyüyür və sonra onlar bir-birinə buta verilirlər. Biz isə dəfələrlə təkrar etdik ki, məhəbbət dastanlarında buta epik-semantik kompleksi təkcə butavermə motivi ilə məhdudlaşmır. Əslində bu poetik kompleks dastanın strukturunu bütün diskret (semantik kəsiklər) istiqamətlərdən çevrələyir. Yəni buta kompleksi dastan mətninin bütün sinxronik inkişaf istiqamətlərində var. Bu mənada buta kompleksi dastanın strukturunu bütövlükdə əhatə edir. Məntiqi baxımdan buta kompleksinin başlanğıcı və sonu ilə dastanın süjet strukturunun başlanğıcı və sonu üst-üstə düşür. Yəni buta kompleksi elə dastanın doğuluş süjetində başlanır. Daha dərin şərhə enməzdən qabaq kiçik bir izahat verək.

Butavermə motivində Dərviş-Ağa-Şah Mərdan-İmam Əli qəhrəmanları bir-birinə buta verir. Doğuluş süjetində də gördük ki, qəhrəmanları bir övlad olaraq məhz həmin dərviş valideynlərinə buta verir. Başqa sözlə, butavermə təkcə sevgi vermə, məhəbbət taleyi vermə deyil. Butavermə, ümumiyyətlə, sakral qüvvələr tərəfindən müsbət dəyərin verilməsidir. Bu, sxemdir. Sakral qüvvə (ilahi dəyər daşıyan varlıq) strukturunda çatışmayan, həlledici olan elementləri struktura daxil edir. Həmin elementlərin struktura daxil olması ilə strukturun funksionallaşması başlayır. Diqqət edək.Sakral qüvvənin struktura daxil etdiyi element strukturun təşkilolunma prinsiplərinə uyğundur. Başqa sözlə, indiki halda dastanın mətni qarşıdurma qoşalıqlarından təşkil olunur. Sakral qüvvənin (dər-

vişin) epik mətnə daxil etdiyi buta (doğulmuş oğlan və qız) epik mətnin qarşıdurma qoşalıqlarından təşkil olunmuş strukturuna uyğundur. Yəni doğulmuş uşaqlar da qarşıdurma bütövlüyü (oğlan-qız) kimi təqdim olunur.

Beləliklə, butavermə sakral dəyərli elementlərin epik-sosial struktura daxil edilməsidir. Bu daxiletmə bütün dastan boyu davam edir. Əslində dastan mətnində paralel dünyalar var. Bu dünyalardan biri dastan qəhrəmanlarının öz varlıqları ilə təşkil etdikləri epik-fiziki dünyadır. İkinci dünya həmin fiziki dünyanı nizamlayan, müəyyən ardıcıllıqlarla bu fiziki dünyaya müdaxilə edən sakral dünyadır. Dərviş həmin sakral dünyanın nümayəndəsidir (bu obraza baxılacaq) və onun qəhrəmanların fiziki dünyasına «müdaxilə» rejimini aydınlaşdırmadan məhəbbət dastanları poetikasını elmin indiki səviyyəsindən öyrənilmiş saymaq olmaz.

Hələlik dərviş kimi tanıdığımız bu obrazın dastan mətnində iştirakı axıradək davam edir. Bu iştirakın öyrənilməsi əslində buta elementinin semantikasını aydınlaşdırmış olur. Sxematik planda nəzərdən keçirmə göstərir ki, dərviş oğlan və qızı valideynlərinə buta verir. Butavermə motivində o, oğlan və qızı bir-birlərinə buta verir. Həmin dərviş qəhrəmanları ölümdən qurtarır. Neçə günlük yolu onlara «bir göz qırpımında» qət etdirir.

Aşiqin qəlbini «ilahidən gələn sözlə» doldurur (onu deyişmələrdən qalib çıxarır) və nəhayət, onları bir-birinə qovuşdurur. Deməli, buta epik-semantik

kompleksi qəhrəmanların doğulmasından başlanır və butavermə elementi də içərisində olmaqla dastanın bütöv strukturunu əvvəldən sonadək çevrələyir. Bu mənada məhəbbət dastanlarının struktur işarəsi, doğrudan da, buta elementidir.

«Tahir-Zöhrə» dastanında, dedik ki, butavermə motivi, yəni qızla oğlanın bir-birlərinə buta verilmələri yoxdur. Əslində bu, zahirən belədir və dastanın epik məntiqinin əsasında duran «haqq aşiqliyi»-təsəvvüfi davranış kodu burada butavermənin başqa forması ilə şərtlənir. Bu da öz növbəsində buta elementinə yeni gözlə baxmağa imkan verir. Doğuluş süjetində, gördük ki, Tahir Zöhrə hələ dünyaya gəlməmişdən qabaq bunlar bir-birinə əhd edilir. Bu, göbəkkəsmədir. Yəni bunların bir-biri ilə evlənmələri üçün söz verilir. Həmin sözü pozmaq olmaz. Bu isə öz növbəsində göbəkkəsməni butavermənin həm dastan mətnindəki variativ ekvivalenti, həm də gerçək əsası kimi qəbul etməyə imkan verir. Doğrudan da, həyatda butavermə olmur. Göbəkkəsmə isə var və göbəkkəsmə nişanlı olmaq ilahi təqdir kimi qəbul olunur. Sosial şüur onu təbii hadisə kimi qəbul edir və onun əleyhinə gedilməsini qeyri-təbiilik sayaraq qəbul etmir. Necə ki, bütün dastanlarda butalar, göbəkkəsmələr bir-birinə qovuşur (bəzi xüsusi semantikalı hallar istisna olunmaqla). Əmioğlu ilə əmiqızının kəbininin göydə kəsilməsi haqqında hətta bu gün belə şüurlarda yaşayan fikirlər göbəkkəsmə nişanlanmanın etnik-mədəni şüur tərəfindən butaverməyə bərabər tutulduğunu göstərir. Bu isə hər iki halı eyni bir

semantik sıraya salmaqla, onları eyni bir sakral fenomenin müxtəlif formalı təzahürləri kimi qəbul etməyə gətirir.

Doğuluş süjetini istər sinxron, istərsə də diaxron planda öyrənmək üçün dastanlara müraciət edək. İndiki halda bu üztutmalar sxematik səciyyə daşıyacaq.

«Əsli-Kərəm» dastanında Ziyad xanla onun xəzinədarı Qara Keşişin övladları yox imiş. Onlar övladları olarsa onları evləndirmək haqqında əhd edirlər. Uşaqları olur. (Göbəkkəsmə, qəhrəmanların bir-birlərinə buta verilmələri yoxdur) – (33, 71-72).

«Aşıq Qərib» dastanında qəhrəmanın sakral obrazın müdaxiləsi ilə doğuluşu yoxdur. Rəsul (Qərib) Məmməd söydəgarın böyük oğludur. Şahsənəm ona buta verilir (33, 167-170).

«Qurbani» dastanından bəlli olur ki, Hüseynalı xanla Mirzalı xan qardaşdır. Kiçik qardaş Mirzalı xanın övladı yoxdur. Onların ataları ölür və Hüseynalı xan Mirzalı xanı mülkdən pay vermədən qovur. Nəzir-niyazla onların (ocağa nəzir aparırlar) övladı olur. Qurbani doğulur. Yer əkəndə Qurbaniyə Gəncə xanı Ziyad xanın qızı Pərini buta verirlər (33, 204-207).

«Abbas-Gülgəz» dastanında Xoca Mayılın iki oğlu var imiş. O ölür, kiçik oğlu Abbas böyüyür və ona bağda yuxuda ikən Gülgəz Pəri buta verilir (doğuluş motivi yoxdur, butavermə var) – (33, 262-263).

«Qul Mahmud» dastanında Mahmudun doğulması yoxdur. Nigar xanım ona buta verilmişdir (33, 309).

«Leyli Məcnun» dastanında Xacə Abdullanın övladı yoxdur. Var-yoxunu kasıblara paylayır. Övladı olur-Qeys. Burada butavermə yoxdur. Qeyslə Leyli uşaqlıqdan bir-birinə əhd edilirlər (33, 323-324).

«Alı xan-Pəri» dastanında Hacı Sayadın uşağı yox imiş. Bir gün güclü ehsan verib bütün acları doyuzdurdu. Ekiz uşaqları oldu: biri oğlan, biri qız. Qızın adını Pəri qoyurlar (33, 382-383).

Qeyd edək ki, məhəbbət dastanlarının heç də hamısı qəhrəmanların doğuluşu ilə başlamır, yaxud dastanların hamısında buta motivi yoxdur. Məsələn, «Valeh-Zərnigar» dastanında Valeh aşıqdır, Zərnigar isə ərə getməkdən ötrü şərt qoymuş tacir qızıdır. Yaxud «Məhəmməd-Güləndam» dastanında Şah Abbas rast gəldiyi uşaqlar içərisində Məhəmmədi ağıl-kamalına görə saraya gətirir. Məhəmməd ovla məşğul olur və öz sevgilisi Güləndamla dağda rastlaşır. Yaxud «Alı xan-Pəri» dastanında Pəriyə ögey qardaşı tərəfindən böhtan atılır, o, şərə düşür. İlk baxışdan bunların ənənəvi struktur baxımından məhəbbət dastanlarının strukturundan qırağa çıxmaları müşahidə olunur. Ancaq diqqətlə nəzərdən keçirdikdə bəlli olur ki, burada məsələ yenə də ozan-aşıq ənənələrindən, epik təhkiyə strukturundan qıraqda deyil. Sadəcə olaraq məhəbbət dastanlarının mövzu qaynaqları həm ənənəvi, həm də qeyri-ənənəvidir. Zəngin fonda malik Azərbaycan dastançılığında

məhəbbət dastanları mövzu baxımından zəngin qalareyanı təşkil edir. Məhəbbət dastanları öz mövzularını həm də nağıllardan, tarixi hadisələrdən, yazılı ədəbiyyatdan almışdır. Bu vaxt mövzunun ənənəvi strukturla uzlaşdırılması baş vermişdir. Yaxud dastanlarımızın bir çoxu tarixən yaşamış aşıqların ya özlərinin özləri haqqında, ya da sonrakı aşıqların onlar haqqında qoşduqları mətnlərdir. Bu halda da müəyyən hadisələrin bir qədər «real» verilməsi həmin «hadisənin» dastanlaşması prosesində müəyyən dastan elementlərinin «ixtisarına» gətirə bilir. Bu sonuncu «Valeh-Zərnigar» dastanından görünməkdədir. Yaxud «Alı xan-Pəri» dastanı nağıl mövzusu əsasında qurulmuşdur. Burada ögey qardaşı Tapdıq tərəfindən Pəriyə böhtan atılması struktur-semantiklə bağlı dastandakı hadisələrin süjet əsası dünya nağıl folklorunda «şərə düşmüş qız» motivinin süjetlər qrupuna aid olunmalıdır. Bu halda məhəbbət dastanlarında adi olmayan doğuluş, yaxud butavermə motivləri olmaya da bilər. Maraqlıdır ki, belə dastanlarda təsəvvüfi davranış kodu-haqq aşiqliyi çox zəif görünür. Bu da onu göstərir ki, Azərbaycan məhəbbət dastanlarının ümumi kütləsində əsas lay fəslin əvvəlində verdiyimiz strukturu tam əks etdirir. Başqa sözlə, məhəbbət dastanları zəngin bir fonddur və bu fondda meyarları yüzdə-yüz əks etdirməyən dastanlar da var. Bu da tam təbiidir. Ona görə ki, məhəbbət dastanları Azərbaycan dastançılığında öz xüsusi differensiallaşma ənənələri ilə çıxış edən muxtar bir qol olmaqla bütöv bir sistemdir. Təbii ki, hər bir

sistem müəyyən sistemlərlə yanaşı durur, yaxud daha böyük sistemlərin tərkibinə daxil olur. Bu halda məhəbbət dastanları qəhrəmanlıq, ailə-əxlaq kimi sistemləri ilə yanaşı durur. Eləcə də məhəbbət dastanları Azərbaycan folklorunun epik sisteminə daxil olmaqla nağıl, əfsanə, rəvayət kimi sistemlərlə münasibətlərə malikdir. Nəhayət, məhəbbət dastanları epik-lirik hadisə kimi çox zəngin yazılı ədəbiyyatımızın lirik və epik sistemlərinin təsirlərinə məruz qalır. Göründüyü kimi, məhəbbət dastanları üçün ortaq olan invariant strukturu tam əks etdirməyən dastanlar məhz sistemlərarası əlaqəni əks etdirən dastanlardır. Əlbəttə, bu barədə davam etmək olardı. Ancaq belə hesab edirik ki, məhəbbət dastanlarının bir sistem kimi, başqa sistemlərin müxtəlif əlaqələrinə (mövzu, süjet, motiv, epizod, əhvalat, real hadisələr, şeir formaları, təsəvvüfi-irfani təkanlar, lirik-tematik təsirlər və s.) məruz qalması və bunun məhəbbət dastanları strukturunun iç və qabıq qatlarına təsir etməsi, sistemin hansı parametrlərində köklü, hansı hissəsində zəif dəyişmələr yaratması və s. kimi məsələlər ayrıca bir tədqiqatın mövzusudur. Hesab edirik ki, istər məhəbbət dastanlarımız, istərsə də ümumiyyətlə dastanlarımız təsviri istiqamətdən çox öyrənilmişdir. Azərbaycan folklorşünaslığının məhəbbət dastanlarının simasında dünya elminin standartları səviyyəsinə qaldırılması bu məsələlərdən ayrıca və monoqrafik şəkildə bəhs edilməsini bir zərurətə çevirir.

Azərbaycan məhəbbət dastanlarının doğuluş süjetlərinin nəzərdən keçirilməsi göstərir ki,

qəhrəmanların göbəkkəsmə nişanlı olduqları hallarda butavermə olmur. Burada atalar qardaş olur. Uşaqlar hələ doğulmamışdan bir-birinə nişanlanırlar. Butavermə motivinin olduğu hallarda isə uşaqların sakral gücün müdaxiləsi ilə (o cümlədən bunun ekvivalenti olan nəzir-niyaz vermə ilə) doğuluşu yoxdur. Bu göstərir ki, uşaqların adi olmayan yolla (dərvişin müdaxiləsi, nəzir-niyaz, ehsan və s.) doğulması motivində əslində onlara buta verilməsi də var. Bu, göbəkkəsmə nişanlanmadır. Başqa sözlə, məhəbbət dastanlarında qəhrəmanların göbəkkəsmə nişanlı olmaları buta verilmələri ilə eyni semantik tutuma malikdir. Bu həm də ondan görünür ki, həmin dastanlarda bu cəhət qəhrəmanların «haqq aşiqləri» olmalarına bir fərq gətirmir. Demək, hər iki nişanlılıq (göbəkkəsmə, buta) eyni güclü semantemlər kimi dəyərləndirilir.

Məhəbbət dastanları qəhrəmanının, yaxud qəhrəmanlarının qeyri-adi doğumu bu prosesin möcüzəli vasitələrlə baş verib-verməməsindən asılı olmayaraq, məhz adi olmayan doğum kimi reallaşdığı üçün elmdə «möcüzəli doğuluş» adlanır. Burada, doğrudan da, möcüzəli olan, yaxud hər cür adi olmayan doğum tipləri aid edilir. Bu baxımdan Azərbaycan məhəbbət dastanlarındakı doğuluşların semantik tutumunun araşdırılması bu motivin arxetiplərində mifoloji-arxaik qatlarına enməni tələb edir. Bunun üçün həm arxaik motivli mətnlərlə, həm də türk xalqlarının sinxron mətnləri ilə tutuşdurma tələb olunur.

«Əsli və Kərəm» dastanının türkmən variantında Təbriz padşahı Ziyadın övladı yoxmuş. Vəzirin məsləhəti ilə o, aclara, kasıblara mal-dövlət, ehsanlar verir. Özü isə İmam Rzanın qəbrini ziyarət edir. Ziyarətdə yuxu zamanı qaibdən bir səs eşidir ki, «Ey qul, oyan, qüdrətli Allah sənə oğul bəxş etdi» (212, 158-159).

"Seyfəlmülk və Mədxalcamal" dastanında Misirun padşahı Asimin övladı yox imiş. Falçılar, münəccimlər ona məsləhət görürlər ki, o, Yəmən padşahının qızı ilə evlənsin, bu halda oğlu olacaq (212, 158-159).

Özbək «Alpamış» dastanında Alpamış ilə Barçinin doğuluşu adi olmur. Görkəmli folklorçu X.Koroğlu yazır ki, «Alpamış» kompozisiya baxımından iki hissəyə bölünür və ənənəvi başlanğıcla başlanır. İki bəy qonaqlığa dəvət edilmişdi. Sahiblər onları soyuq qəbul edir, lazımi hörmət göstərmirlər. Belə qəbulun səbəbi onların övladsızlığı idi. İncimiş qardaşlar məclisi tərk edirlər. Həmin gecə onların yuxusunda müqəddəs adam peyda olur və uşaqlarının doğulacaqlarını xəbər verir. Kiçik bəy Birçinin qızı-Barçin doğulur. Böyük bəydə isə uşaqlar əkiz olur: oğul Alpamış və qız. Xalq adətinə görə Alpamış və Barçin göbəkkəsmə nişanlanırlar (165, 32-33).

Göründüyü kimi, türk xalqları, o cümlədən şərq xalqları folklorunun bilicisi X.Koroğlu da iki qardaşın, yaxud iki nəfərin övladsız olduğunun, sonra onların qeyri-adi yolla övladlarının doğulmalarını və həmin uşaqların bir-birləri ilə göbəkkəsmə nişanlı

olmalarını «ənənəvi başlanğıc» sayır. Başqa sözlə, bu, Azərbaycan məhəbbət dastanları üçün səciyyəvi olduğu kimi ümumi türk dastançılıq ənənələri üçün də səciyyəvidir. Diqqət edək.

Qırğız eposu, o cümlədən dünya eposunun velikanı «Manas» belə başlanır ki, Altay torpağında Cakıp adlı bir varlı yaşayır. Onun övladı yoxdur. O, möhkəm dərd edir. Bir gün yatır. Adi olmayan bir yuxu görür. Arvadının məsləhəti ilə heyvanlar kəsirlər, qonaqlıqlar verirlər. Varlı-kasıba fərq qoymurlar. Hamıya yemək-içmək paylayırlar. Cakıp qonaqlara öz yuxusunu danışır. Cakıpın yuxusunu xeyrə yozurlar. Arvadı hamilə olur. Manas doğulur (174, 13-26).

Türk eposunun məşhur tədqiqatçısı V.M.Jirmunski yazır ki, Manasın doğuluşu və uşaqlığı dünya eposu və nağıl folklorunda geniş yayılmış bir sıra ənənəvi motivlərdən qurulur. Qəhrəman öz övladsızlıqlarına görə xəcalət çəkən və alçalan qoca valideynlərin duası nəticəsində anadan olur. Türk xalqlarında bu motivə artıq orta əsr oğuz eposu «Kitabi-Dədə Qorqud»da (Bamsı Beyrək və Buğac xan haqqındakı boylarda), həmçinin «Alpamış»da, qazax qəhrəmanlıq nəğmələrinin («Kolandı-batır», «Şora-batır», «Er-sain») əksəriyyətində və s. rast gəlinir. Ona müsəlman şərqinin orta əsr klassik ədəbiyyatında da (Nizami «Məcnun»u-XII əsr, Nəvainin «Fərhad və Şirin»i-XV əsr), Orta Asiya türklərinin fars-ərəb kitab qaynaqlarına əsaslanan xalq romanlarında da («Seyfəl-mülk», «Gül və Sənubər» və s.) rast gəlinir. Bu motiv

qəhrəmanın möcüzəli doğuluşu haqqında epos və nağıl üçün xarakterik olan təsəvvürlərin xüsusi hallarından biridir (157, 35).

Ümumtürk arealına daxil olan dastanlardan «möcüzəli doğuluş» motivi ilə bağlı gətirilmiş örnəklərdən xüsusi semantik yüklü elementləri seçək, «Əsli-Kərəm» dastanının türkmən variantında uşağın doğuluşunda iki element göz çəkir. Birinci qurban verilir (ehsan, nəzir-niyaz, əl-tutma, kömək və s.). İkinci, Ziyad xana övladı olacağı haqqında yuxuda xəbər verilir. Qeyd edək ki, qurbanvermə ayini Azərbaycan məhəbbət dastanlarında yaxşı qorunub. Ancaq uşağın anadan olacağının qəhrəmanın atasına yuxuda xəbər verilməsi xarakterik deyil. Əksinə, dərviş almanı verəndən sonra onlara uşaqları olacağını xəbər verir. Yuxu motivi Azərbaycan məhəbbət dastanlarında butavermə üçün yüksək funksionallığa malikdir.

Özbək «Alpamış»ında da incimiş bəylərə övladlarının olacağı xəbəri yuxuda verilir. «Manas»da da Çakıp yuxu görür və başa düşür ki, övladı olacaq. Demək, bura qədər nəzərdən keçirilən materiallar iki semantemi möcüzəli doğuluş motivi baxımından ayırmağa-mütləqləşdirməyə imkan verir: qurbanvermə və yuxu. Diqqət edək.

«Alpamış» dastanının Kunqrat versiyası qurbanvermə və yuxu semantemlərinə daha dəqiq cizgilər əlavə edir. Dastanın Fazil Yuldaşev variantında nəql edilir ki, Alpinbayın iki oğlu var idi. Övladları yox idi. Onlar bir məclisdə övladsızlıqlarına

görə təhqir olunurlar. Onlar Şahmərdanın məzarını (Xəlifə Əli şahmərdanın, «ərənlər ağasının» əfsanəvi qəbri, Fərqanə vilayətində) ziyarətə gedirlər. Qırx gün, qırx gecə məzarın yanında olurlar. Bu müddət başa çatanda onların arzusunun yerinə yetiriləcəyi haqqında qaibdən səs gəlir: «Baybura, Allah sənə oğulu qızla verdi…həm də bir-bir yox, əkiz verdi. Bəysarı, sənə də allah övlad verdi. Ancaq əkiz yox, bir qız yolladı. İndi evə gedin. Uşaqlar anadan olanda eli toplayın, böyük toy edin. Toyda qələndər (dərviş tipi - M.C.) paltarında özüm olacağam və uşaqlardan hər birinə ad verəcəyəm».

Öz vaxtında uşaqlar anadan oldular. Qardaşların camaat üçün təşkil etdiyi toya onların yuxusuna girmiş yolçu-qələndər gəldi (157, 120).

Kunqrat versiyasında hər iki semantem var. Qardaşlar İmam Əlinin qəbrini ziyarət edir, Əli onların yuxusuna gəlir və Allahın övlad verəcəyini xəbər verir. Qardaşlar toy edirlər (mal dağıtma, qurbanvermə, əl tutma), İmam Əli dərviş formasında gəlir, uşaqlara ad verir və onları nişanlayır (göbəkkəsmə).

Burada diqqət çəkən məqam nədir? Uşaqların olacağını yuxuda xəbərverənlə, uşaqlara ad verən, onları nişanlayan dərviş eyni varlıqdır-İmam Əli. Aydın məsələdir ki, İmam Əli (ə) Azərbaycan məhəbbət dastanlarında sonrakı hadisədir. Yəni islamın qəbuluna qədər zəngin türk dastançılıq ənənələri vardır. Maraqlısı odur ki, buradakı transformasiya motivin arxaik semantikasını başa

düşməyə imkan verir. Göründüyü kimi, bütün funksiyalar İmam Əli tərəfindən yerinə yetirilir. Yəni yuxuda peyda olan da odur, real şəkildə məclisə gələn dərviş də odur. Başqa sözlə, bunun İmam Əli olub-olmamasından asılı olmayaraq, bu funksiyalar bir obraz tərəfindən yerinə yetirilir. Bu cəhət motivin başa düşülməsi üçün əsasdır. Çünki arxesemantikanın bərpası arxefunksiyaların bərpasına söykənir. Funksiyaların düzgün düzülüşünün tapılması bu düzümdə reallaşan obrazı anlamağa imkan verir. İmam Əli transformasiyadır. İkinci fəsildə bu obraz haqq aşığı elementi ilə bağlı təsəvvüfi bazada təhlil olunanda biz bu transformasiyanın mexanizmlərinə də toxunmalı olacağıq. İndiki halda fakt odur ki, İmam Əli transformasiyasının türk epik mətnlərinə düşməsinin konkret məkan-zamanı var. Lakin transformasiya, bötövlükdə funksiyaların İmam Əli obrazı ətrafında mütləqləşdirilmə, funksiyaların ona konsentrasiya olunması İmam Əliyə transformasiya olunmuş arxaik epik obrazı görməyə imkan verir. Bu barədə tədqiqatçı fikirlərindən əvvəl faktları nəzərdən keçirək.

«Alpamış» dastanı daha bir Orta Asiya məhəbbət dastanı olan «Kozi-Körpəş» və «Bayan-Sulu» dastanı ilə variantiv səsləşmə təşkil edir. Həm bu baxımdan, həm də ümumiyyətlə, bu dastan deyilən motiv baxımından çox maraqlı material verir.

Qazax «Kozi-Körpəş» və «Bayan-Sulu» dastanında nəql edilir ki, Qarabəy və Sarı bəy övladsız imişlər. Onlar bir dəfə ovda dişi boğaz marala-onların arzularının çin olacağının əlamətinə rast gəlirlər.

Qarabəy yaxşı əlamət kimi marala rəhm edir, Sarıbəy isə onu ovlayır. Dostlar qərara gəlirlər ki, əgər Tanrı onlara oğlan və qız versə onları nişanlasınlar (157, 201).

Burada diqqət çəkən maral elementidir. Bu element əslində funksional sırada İmam Əlinin funksiyasını arxaik formada həyata keçirir. Bu mənada əslində doğuluş motivinin arxaik semantikası üçün açar verir. Dastanın başqa bir mətni eyni hadisə ilə bağlı daha maraqlı cizgilər təqdim edir.

Dastanın türk folklorşünası Bəkir Şişmanın bəhs etdiyi variantında Qarabayla Sarıbay ovda tanış olurlar. Övladsızlıqları barəsində dərdləşirlər. Övladları olarsa onları evləndirəcəklərinə söz verirlər. Sonra rast gəldikləri bir maralı (dişi keyiki) Sarıbayın öldürməsi üçün Qarabay ısrar edir. Sarıbay ona deyir: «Bu maralı öldürsəm hamımıza zərər gələr. Öldürməsəm sənin evinə Xızır gələr». Ancaq Qarabay israr etdiyi üçün Sarıbay maralı öldürür. Sarıbayın atdığı ox maraldan geri qayıdıb Sarıbayın özünü öldürür. Bu vaxt onlar ovda ikən Sarıbayın oğlu (Kozı), Qarabayın qızı (Bayan) anadan olurlar (124, 56).

Bu Qazax dastanının Jirmunski və B.Şişman variantlarında diqqət çəkən məqamlar var. Düzdür, variantlarda Qarabay-Sarıbay deyişmələri var. Ancaq indiki halda maraqlı bu deyil. Jirmunskidə maral dişidir və boğazdır, o, bəylərin uşaqlarının doğulacaqlarının əlaməti kimi qəbul olunur. B.Şişmanda maral sadəcə olaraq dişidir və onu

öldürərlərsə zərər, sağ buraxarlarsa, xeyir olacağına inam var. Beləliklə, hər iki variantda ortaq olan maralın dişiliyi və əlamət daşımasıdır. Dişi maral-Ana maral xüsusilə Orta Asiya mifoloji mətnlərində rast gəlinən obrazdır. Ən mühüm məqamlardan biri ovdur. Demək uşaqların doğulması indiki halda ov, maral, ox (Sarıbayı öldürən ox) elementləri ilə bağlıdır. Maral burada mühüm funksiya daşıyır: həm bəxş edir, həm də cəzalandırır. Bu da onu sakral qüvvələr sırasına salır. Ovda tuş olunan belə obrazlar ov hamiləri olur. Lakin obrazda əcdad kultunun qalıntıları da görünməkdədir.

Demək, İmam Əli obrazına transformasiya olunmuş övladvericilik funksiyası əski qatlara endikcə daha arxaik obrazlar vermiş olur. Nağıllarımızda qadınlar nəyəsə baxmaqdan, sudan və s. hamilə ola bilirlər. «Mahmud-Əlif» dastanında dərviş övladsızlara ənənəvi alma əvəzinə muncuq verir (107, 196). Türk alimi Əbdülqadir İnan türklərlə bağlı bir epik süjet verir və həmin süjetdən bəlli olur ki, Malta şəhərinin Altun adlı xanının qızı ilk dəfə pəncərəni açıb gün işığı görəndə onun işığından hamilə olur (116, 195).

A.N.Veselovski də geniş faktoloji mənzərə əsasında göstərir ki, gələcək qəhrəmanın möcüzəli doğuluşu mif, nağıl və eposda geniş yayılmışdır (142. 533-538). V.M.Jirmunski bu motivlə bağlı yazır ki, o, özünün ən arxaik formalarında ana qəbiləsinə gedib çıxan partogenezis (başqa sözlə, qızlıqda hamilə) haqqındakı ilkin təsəvvürlərlə bağlıdır. Qəhrəman

anasının sehirli alma yeməsindən, yaxud dirilik bulağından su içməsindən, çiçəyin ətrindən, günəş işığından, yağışdan, küləkdən və s. doğulur (157, 224). Təbii ki, bu, doğumun ən arxaik formalarındandır. Buna yuxarıda maral, ox, ov semantemlərinin simasında tuş olduq. Bildiyimiz kimi, mifologiyanın inkişaf tarixi zoomorfizmdən antropomorfizmə doğru olmuşdur. Bu baxımdan ilk əşyalar, zoomorf obrazlar getdikcə insanlaşmış və əşyalar, heyvan obrazlar insanlaşmış semantemlərin atributlarına, köməkçilərinə çevrilmişdir. Odur ki, V.M.Jirmunskinin fikirləri bu motivin ən arxaik formalarına aiddir. Həmin arxaik formalar bizim məhəbbət dastanlarında alma, muncuq və s. şəklində qalmışdır. Tədqiqatçının sonrakı fikirləri də maraqlıdır. O yazır ki, qəhrəmanlıq nağılının qəhrəmanı qoca valideynlərdən yuxarının hamiliyi altında doğulur. Mahiyyətcə ən arxaik variantlarda o, göy Tanrısının, yaxud ilahi qəbilə əcdadının oğludur (157, 293). Tədqiqatçı fundamental əsərinin başqa bir yerində doğumda iştirak edən dərviş-qoca ilə bağlı yazır ki, adətən qəhrəmanın doğuluşunu himayə edən qoca yəqin ki, qəhrəman körpənin atası (qəbilə totemi, yaxud ilahi qəbilə əcdadı) kimi düşünülürdü (157, 35-36).

Beləliklə, məhəbbət dastanlarında İmam Əli obrazına ehtiva edilən doğuluş motivi əski inamlarla, əcdad kultları, totemlərlə bağlıdır. Məsələn, Altay eposu olan «Maaday Qara» variantlarına daxil «Kan Püdey» dastanında Karatı Kaanın övladı yoxdur. O,

bəxtindən şikayət edir. Onunla birlikdə onun torpağının bütün təbiəti qəmlənir, qayalar, ağaclar, heyvanlar ağlayır, quşların mahnısı kəsilir. Ancaq altın sarıquşu sevinclə xəbər verir ki, qarısı oğlan doğub (199, 161). Burada oğlanın doğulduğunu quş xəbər verir. Bu, məhəbbət dastanlarımızda dərvişin-İmam Əlinin, Xızır Nəbinin funksiyasıdır. Maraqlı detal budur ki, burada təbiət obrazları Karatı Kaanın övladsızlığını dərd edir. Bu əski motiv dastanlarımızda elin alqışına transformasiya edir. «Kitabi-Dədə Qorqud»da birinci boyda Buğac, üçüncü boyda isə Beyrək və Banuçiçək eyni yolla doğulurlar. Hər iki boyda oğuz bəyləri eyni yolla əl qaldırıb dua edirlər, «tanrıdan hacət diləyirlər».

Birinci boyda Dirsə xanın oğlu doğulur (76, 34-35), üçüncü boyda isə Bayburənin oğlu, Baybecanın qızı doğulur (76, 52). Maraqlıdır ki, bəylərin əl götürüb Tanrıdan hacət diləmələri, o cümlədən bunun qurbanvermə ilə müşayiət olunması ümumi bir kompleksdir. Yəni oğuz bəyləri bütün adlarda Tanrıdan belə hacət diləyirlər. Heç təsadüfi deyildir ki, əgər Dirsə xan sonsuz idisə, prof. K.Abdullanın yazdığı kimi, Bayburə sonsuz deyil, onun qızları var, oğlu yoxdur. Eləcə də Baybecanın oğlu var (Dəli Qarcar), qızı yoxdur (10, 100). Deyilənlər göstərir ki «Maday Qara»da Kıratı kana təbiətin-qaya, ağac, heyvan, quşların acımasını biz «Kitabi-Dədə Qorqud»da bəyləri-insanları acımasız şəkildə görürük. Bu, zootəsəvvürlərin antropotəsəvvürləşməsinin dastandakı üzvləridir. Qumıq alimi İ.Xalipaeva

göstərir ki, qəbilə icmasından hərbi demokratiya və ilk sinfi dövlət birləşmələrinə keçid ilə dini təsəvvürlər də dəyişir-zoomorf təsəvvürlər antropomorf təsəvvürlərə çevrilir (210, 92).

Beləliklə, məhəbbət dastanlarımızda qəhrəmanların «möcüzəli doğuluşu» İmam Əli-Xızır Nəbi (sonuncu haqqında da ayrıca deyiləcək) ilə bağlı olması ən son mərhələdir. Bu kompleksin nüvəsində arxaik təsəvvürlər durur. Türk dastançılığında həmin arxaik təsəvvürlər Tanrı oğlu motivi şəklində formalaşmışdır. Yada salaq ki, V.M.Jirmunskinin yazdığına görə, bahadırlıq nağılları qəhrəmanı qoca valideynlərdən yuxarının hamiliyi altında doğulur. Mahiyyətcə, ən arxaik variantlarda o, göy Tanrısının, yaxud ilahi qəbilə əcdadının oğludur (157, 293).

Qeyri-adi doğulan qəhrəmanlar, göründüyü kimi, bir tərəfdən Tanrı ilə (onun oğlu olmaq), o biri tərəfdən qəbilə əcdadları, əcdad totemlərlə bağlıdır. Mifoloji düzümdə bunlar fərqli şeylər deyillər. Yəni bunlar sakral dünyanın eyni ierarxik cərgəsinin müxtəlif pillələrini təşkil edirlər. Əcdad kultu (totem əcdad) özünü sonsuz valideynlərin məzar-ziyarətgahları, məzar-ocaqları ziyarət etmələrində, yaxud qəhrəmanlara ölmüş atalarının qəbirləri üstündə bayılmalarında (yuxularında) buta verilməsini xüsusilə qoruyur. Dastanlar bu baxımdan ən müxtəlif formalar təqdim edir. Hər hansı bir dastanda hansısa doğuluş elementinin olmaması həmin süjetin motiv kompleksindən qıraqda durduğunu göstərmir. Dastan epizminin get-gedə

qüvvətlənməsi, dastançılıq ənənələrini epik elementlərlə daha çox «konfiqurasiya» etmə qabiliyyətini artırması möcüzəli doğuluşun «ən kasıb» variantlarını belə verir. Ancaq bu halda da həmin variant ümumi kompleksdən qırağa çıxmır. Məsələn, İraq kərküklərinin «Arzu Qənbər» matalında (dastanda) iki qardaş var imiş. Arvadları hamilə imiş. Uşaqları oğlan və qız olarsa evləndirmək haqqında əhd edirlər (30, 364). Göründüyü kimi, heç bir qurbanvermə, «möcüzəli doğuluş» yoxdur. Qalan elementlər yerindədir. Bütün bunlar buta kompleksinin geniş bir kompleks olduğunu göstərməklə onun təkcə butavermə ilə yox, məhəbbət dastanının bütün strukturu ilə bağlı olduğunu göstərir. Nəzərdən keçirdiyimiz materiallarda İmam Əli-Şah Mərdan-Dərviş-Ağa-Qırxlar-Xızır Nəbi obraz kompleksinin həm uşağın doğulmasında, həm də buta almasında iştirak etdiyini gördük. Bu isə öz növbəsində bizim irəli sürdüyümüz bir tezisi təsdiq edir ki, butavermə hadisəsi Aşiq-Məşuqun bir-birlərinə butaverilmələrindən yox, qəhrəmanların dastanlarda görünən, yaxud görünməyən doğuluş motivindən başlayır. Bu, başlanğıc motividir. Beləliklə, buta bir epik-semantik kompleks kimi dastanın bütün strukturunu əhatə edir. Bu mənada mətnin struktur-semantik tədqiqi baxımından Azərbaycan məhəbbət dastanları strukturunun «oxusu» bütövlükdə «buta» kodundan gələn oxudur. Bunun belə olmağı ilə məhəbbət dastanları strukturunun

bütün elementləri bir kod baxımından özünün elmi şərhini də tapa bilir. Diqqət edək.

Gördük ki, butavermə motivi qəhrəmanın doğuluşu motivindən ayrı təsəvvür olunmur. Əslində istər doğuluş, istərsə də butavermə məhəbbət dastanlarında bir-biri ilə işarə baxımından bağlı motivlərdir. Onların əlaqəsinin məhz işarə səviyyəsində olması bu motivləri mətnin struktur tədqiqi baxımından semiotik vahidlər kimi nəzərdən keçirməyə imkan verir. Bunun belə olduğu ondan görünür ki, məhəbbət dastanlarının başlıca kütləsində əgər gələcək Aşiq-Məşuqların doğuluşu tədqiq olunarsa, onda onlar göbəkkəsmə nişanlanırlar. Bu halda qəhrəmanların bir-birinə buta verilməsi olmur. Doğuluş süjeti olmayanda isə butavermə olur. Beləliklə, doğuluşnu və onunla bağlı göbəkkəsmə nişanlanmanın olub-olmaması butavermə motivinin olub-olmamasının işarəsi kimi çıxış edir:

***a) Doğuluş və göbəkkəsmə nişanlanma varsa – butavermə yoxdur.***

***b) Doğuluş və göbəkkəsmə nişanlanma yoxsa – butavermə vardır.***

Göründüyü kimi, bu iki motiv bir-biri ilə işarə səviyyəsində bağlanıb. Bu işarələrin düzümü buta epik-semantik kompleksini verir. Bu anlamda dastanın sonrakı mənalı elementləri-addəyişmə, yol, sınaq, toy (yas)da buta epik kompleksinə daxildir və buta (tale) semantemi səviyyəsində yozula bilir. Bunun üçün butavermə motivini qısaca nəzərdən keçirək (bu qısalıq onunla bağlıdır ki, hazırda semantik struktur nəzərdən

keçirilir, həmin semantik strukturun məna məkanını təşkil edən hər cür obrazlar ayrıca şərh ediləcək. (Məqsəd təkrara yol verməməkdir).

«Aşıq Qərib» dastanında atasının qəbrini ziyarət edən Rəsul bihuş olub yatır və yuxuda ona Şahsənəmi buta verirlər (33, 169-170).

«Qurbani» dastanında öküz otaran Qurbanini yuxu tutur və yuxuda ona Pərini buta verirlər (33, 207).

«Abbas və Gülgəz» dastanında bir bağda Abbası yuxu tutur və ona yuxuda Gülgəzi buta verirlər (33, 263).

«Qul Mahmud» dastanında Mahmud qardaşı Qəmbərlə Eynəl Yaqut pirinə gedir və orada yatırlar. Eynəl Yaqut ona Nigarı buta verir (33, 309).

Örnəkləri çox davam etdirmək olar. İndiki halda deyilənlər fikrimizi ümumiləşdirmək üçün kifayət edir. Aydın görünür ki, butavermə kompleksində qəhrəmanlara bütün hallarda yuxuda, bihuş vəziyyətdə buta verilir. Burada ocaq, bağ kimi xüsusi məkanlara tuş olunur. Bu da təsadüfi deyil. Buta sakral qüvvələrdən alınır. Məsələn, Rəsul (Aşıq Qərib) deyir:

*Qadir haqdan mən bir dilək dilədim,*
*Şükür muradımı verdi, ah mənim.*
*Cümə axşamında, cümə günündə,*
*Ərənlər yerişdi nəzərgah mənim...* (33, 170).

Qurbani deyir:

*Yatmışdım, üstümə gəldi ərənlər,*
*Səfil, nə yatmısan, oyan, dedilər.*

*Oyandım, qəflətdən açdım gözümü,*
*Al, abi kövsərdən, iç, qan, dedilər...* (33, .208).

Abbas deyir:

*Ağalar ağası, ağalar xası,*
*Ana, Mövlam mənə buta veribdi,*
*Düldülün sahibi, Qəmbər ağası,*
*Ana, Mövlam mənə buta veribdi...* (33, .263).

Mahmud deyir:

*Yatmışdım, üstümə gəldi ərənlər...* (33, 309).

Buta sakral qüvvələr, yəni arxaik planda zoomorf əcdadlar, totemlər, sonrakı planda antropomorf əcdadlar, son planda Həzrət Əli, Xızır İlyas və s. təsavvüfi-islam obrazlara transformasiya edilmiş ilahi qüvvələr tərəfindən verilir. Bu baxımdan buta verilmiş məkanın özü ilahi cəhətdən dəyərləndirilmiş məkan olmalıdır. Düzdür, müəyyən hallarda məkan özünün sakral işarəsini itirir və adi məkanlar da motivə daxil olur. Ancaq bu, butanın bu dastandakı təsəvvüfi-irfani boylarını zəiflətmir. Əksinə, «Qurbani» dastanı irfani boyları ən qatı olan dastanlardandır. Deməliyik ki, butavermə motivində badə elementi də iştirak edir, bundan başqa qəhrəmana saz çalmaq və şairlik qabiliyyəti də verilir. Bütün bunlar araşdırmanın «obrazlar» hissəsində ayrıca nəzərdən keçiriləcəyi üçün burada təfərrüata varmayıb, butavermə ilə bağlı fikirlərə diqqət verək.

Prof. M.Həkimov məhəbbət dastanlarımızdakı butavermə hadisəsinin yuxu ilə bağlı tərəflərini elmi

şəkildə araşdırmağa cəhd etmiş və butanın fizioloji əsası olduğu qənaətinə gəlmişdir (65, 138-145). O göstərir ki, haqq aşıqlarımızın, bilici babalarımızın istifadə etdikləri «buta», «röya» bədii priyomları telepatiya və intuisiya haqqında empirik məlumatların ümumiləşdirilməsi nəticəsidir (64, 62).

Türk alimi Umay Günayın aşıq şeiri ənənələrində röya motivinə həsr olunmuş tədqiqatında qəhrəmanların qeyri-adi mənəvi gücü haqlı olaraq buta-haqq vergisi ilə əlaqələndirilir və aşiqlərin saz-söz, hikmət, müdriklik, hazırcavablıq qabiliyyətləri buta-haqqvergisinin ifadəsi kimi (buta elementinin dastanda ifadə-gerçəkləşmə planı-M.C.) realizasiya olunur (114, 49).

Prof. M.Təhmasib butanı islam və sevgi konteksindən izah edərək yazır ki, islamiyyətin dini qanun şəklinə saldığı hicab hətta oğlanın başqasının qızına baxmasını, qızın isə oğlanla danışmasını, oğlan haqqında düşünməsini belə yasaq etmişdi... Bizcə, bu «butavermə», yəni iki müsəlman gəncin bir-birinə baxmaq, sevişmək, sonra da görüşlərini qanuniləşdirmə tədbiri bir yaradıcılıq priyomu olaraq özünə görə xüsusi inkişaf mərhələləri də keçirmişdir (107, 69).

Fikrimizcə, butavermə motivinin təşəkkülündə islamın hicab məsələsinin mütləqləşdirilməsinə ehtiyac yoxdur. Başqa sözlə, buta hicabla bağlı sevgi priyomudursa, onda nə üçün belə bir sevgi priyomundan folklorun dastan növündə istifadə edildiyi halda, nağıllarda buna ehtiyac olmur. Yəni

belə çıxır ki, dastanlarda hicab gözlənilmiş, nağıllarda isə gözlənilməmişdir?

Butanın tarixi əskilərdən gəlir.Qəhrəmanın sevgilisi sakral dünyaya mənsub olur. Oğuzun arvadları heç birisi yer qızları deyildirlər. Eləcə də arxaik mətnlərdəki sevgili-qızların əksəriyyəti (xüsusilə sehirli nağıllarda) qeyri-adi qızlardır. Bu baxımdan arxaik mətnlərdəki sevgililər qəhrəmanların deyikliləridir. Bu deyikli-nişanlı sonralar məhz təsəvvüfi-irfani zəmində buta-sevgiliyə çevrilir və bunun da əsasında haqq aşiqliyi durur. Növbəti fəsildə bu məsələ haqqında xüsusi deyiləcək. Məhəbbət dastanlarımızın əksəriyyətindəki Məşuqə obrazı təsəvvüfi təsəvvürlərdəki Məşuqə-Allahın təcəlla etdiyi obrazdır. Bu baxımdan röya-buta təkcə məhəbbət dastanlarında deyil. Yuxu, ümumiyyətlə, sakral və profan dünyaların kəsişdiyi irrasional məkandır. Xətai yazır:

*Bir sayeyi-sərvnazə yetdim,*
*Bir ləhzə orada xabə getdim...* (108, 18).

Burada metaforik deyim tərzi ilə yuxuda gözələ - Allahın təcəllasına yetişməkdən söhbət gedir. Lirik qəhrəman bir anlığa yuxuya gedir və bu yuxuda «sayeyi-sərvnazə» yetişir. «Sayeyi-sərvnaz» hərfi anlamda naz edən sərvin kölgəsi deməkdir. Əslində bu metaforada çox mürəkkəb obraz yaradılmaqla təsəvvüfi eşqin həm həqiqi, həm də məcazi mənaları metaforik şəkildə ifadə edilmişdir. Metafora burada ikiqatdır. Biri normativ-yəni bədii metaforadır. İkincisi, xüsusi semantik yükə malik təsəvvüfi metaforadır. Birincisində

qız sərv ağacına bənzədilir. Bu, gözəlin boy-buxunlu, qamətli olmasını təsvir edən obraz kimi ədəbiyyatda çox fəaldır. İkincisində,diqqət verək ki, lirik qəhrəman gözəlin özünə yox, onun kölgəsinə aşiq olur. Gözəlin özü İlahiyə olan məhəbbətin həqiqi aspektidir. Kölgəsi isə İlahinin qızda-sevgilidə təcəlla etmiş məcazi aspektidir. Orta əsr məhəbbət dastanlarımızın lirikası bütövlükdə təsəvvüfi simvollarla zəngindir. Bu simvolların bura necə düşməsindən asılı olmayaraq onlar dastan şeirinin lirik-metaforik təsvir-ifadə vasitələri kimi çıxış edir. Bu cəhətdən butavermə motivi arxaik deyikli-nişanlı elementinin («qəhrəmancasına elçilik» motivi) təsəvvüfi-irfani zəmində orta əsr dastançılığında yenidən işlənməsi, transformasiyasıdır. Heç təsadüfi deyildir ki, dini motivlərinə görə Sovet dövründə çapı yasaq olan dastanlarımızı ayrıca bir məqalədə araşdırmış M.H.Təhmasib orada «Sahib-Mələküzzəman» adlı bir dastandan bəhs edir. Burada bəlli olur ki, Saleh öz butasının ardınca yola düşür və yolda Sonqur bəyin əyyarı Cumurun hiyləsi ilə həbs olunurlar. Sonqur bəy onları dinlərindən döndərmək üçün şirin bir təklif edir. Onlar qəbul etmirlər. Salehi tədricən öldürmək üçün çarmıxa çəkirlər. Gecə bir nurani şəxs üç dəfə Cumur əyyarın yuxusuna girir və Salehi azad etməyi tələb edir. Cumur Salehin yanına gəlib yuxunun yozumunu soruşur. Saleh deyir:

“ – Sənin yuxuna girən o nurani şəxs mənəm ağamdır. Mənə buta verib səfərə göndərən odur” (108, 10-11).

Göründüyü kimi, Cumurun yuxusunda ağanın peyda olması heç də sevgi ilə bağlı olmur. Bu mənada buta-yuxu daha geniş bir simvol olmaqla təsəvvüfi-irfani semantemidir.

Folklorşünas B.Abdulla yazır ki, «Kitabi-Dədə Qorqud»da görülmüş yuxu, uğurlu-uğursuzluğundan asılı olmayaraq, bəzən çin çıxır (7, 129). Yada salaq ki, «Kitabi-Dədə Qorqud» eposunda qəhrəmanlar yuxunu yozdurur, onun xeyrinə, yaxud şərə səbəb olacağını bilmək istəyirlər. Bu baxımdan yuxuda gələcəkdə olacaqlar xəbər verilir. Bu başagələnlər-tale deməkdir. Məsələnin bu tərəfindən çıxış etdikdə orta əsrlər məhəbbət dastanlarımızın struktur əsası olan buta tale semantemini simvolizə edir. Talenin yazı (alın yazısı) aspekti təsəvvüfdə xüsusi simvolikaya malikdir. Bu mənada Buta-tale semantemidir. Bunun belə olduğu istər arxaik, istərsə də klassik dastanların simvolizasiya imkanları ilə təsdiq olunur.

Məhəbbət dastanı qəhrəmanı üçün başqa tale yoxdur. Bu dastanlarda təqdim olunan tale modeli sevgi taleyidir. Bunun üçün də buta semanteminin dominant yükü onun taleyi simvolizə etməsindədir. Bu cəhət xüsusi bir məqamdır. Bunun belə olması dastanın süjet strukturunu birbaşa şərtləndirir. Tale hadisələrin qabaqcadan müəyyənləşdirilmiş ilahi sxemi kimi dastan qəhrəmanının proqramlaşdırılmış hərəkətlərini nəzərdə tutur. Belə dinamik vahidlərin düzülüşü isə süjeti vermiş olur. Bu mənada buta semanteminin məhəbbət dastanları süjeti üçün strukturlaşdırıcı funksiyası vardır.

«Alpamış» dastanının arxaik versiyalarından olan Altay «Alıp-Manaş»ında igid Alıp-Manaş bir gün «müdriklik kitabını» vərəqləyərkən oxuyur ki, «göylə yerin qovuşduğu» uzaq bir ölkədə zalım Ak-Kanın (Ağ xan-M.C.)... Erke-Krakçi adlı bir qızı var. «Gözəllikdə birincidir»: «Heç vaxt adam üzü görməyib, onun gözəlliyinə kişi əli dəyməyib». Alıp-Manaş deyir: «Mənim ocağım onun ocağı ilə birlikdə yandırılıb, mənim yatağım onun yatağı ilə birgə salınıb» (207, 91). Məşhur Altay söyləyicisi N.Ulaqaşevdən qeydə alınmış, «Alpamış» dastanının arxaik bir versiyasını təqdim edən bu dastanda Alıp-Manaşın sonuncu sözləri ilə bağlı V.M.Jirmunski göstərir ki, bu, Altay qəhrəmanlıq nağıllarında qəhrəmanların eyni vaxtda doğulduğunu və bir-birlərindən ötrü yarandıqlarını bildirən kanonik formuldur (157, 210). Həm dastandan verdiyimiz misallarda, həm də Jirmunskinin qeydində butanın tale semantemi olması ilə bağlı mühüm məqamlar var. Belə ki, Alıp-Manaş öz sevgilisi haqqında «müdriklik kitabında» oxuyur. Başqa sözlə ona öz sevgilisi haqqında məlumat (butavermə) yazılı şəkildə çatır. Bu mənada burada kitab-yazı elementinin iştirakı butanı tale-gələcək yazısı mənasında aktuallaşdırmışdır. Əlbəttə, etiraz oluna bilər ki, Alıp-Manaş qız haqqında kitabdan sadəcə olaraq xəbər tutur. Ancaq yada salaq ki, o, kitabdakı məlumatı oxuyandan sonra qəti əmindir ki, söhbət onun sevgilisindən gedir. Buna görə də yuxarıdakı sözləri deyir. Həmin sözləri V.M.Jirmunski «kanonik formul» adlandırır. Bunun kanonik formul olması həmin düsturun Altay epik

mətnləri üçün səciyyəvi olduğunu göstərir. Başqa sözlə, bu kanonik formula görə, kitabda Alıp-Manaşın sevgilisi haqqında yazılıb və Alıp-Manaş kitabda yazılanlar əsasında öz sevgilisinin ardınca gedir. Ona kitabla məlumat çatır, o, öz taleyini bu kitabdan «oxuyur». «Alıp-Manaş»dakı bu hissə bizə butanın daha bir formasını nümayiş etdirməklə onun tale semantemi ilə sıx bağlılığını da göstərmiş olur.

Buta sözünün sevgi-məhəbbət, tale ilə bağlı semantikası göz qabağındadır. Ancaq bu sözün leksik qabığının altında ilk baxışdan əlaqəsi olmayan leksik məna qatları durur. V.V.Radlovun məşhur lüğətində bu sözün «şüvül», «çubuq», «hörük», «çiçək hörüyü», «şaxələnmə», «qönçə», «badamvari naxış» və s. kimi məna qatları göstərilir (196, 1856). Göründüyü kimi, bu söz ağac, yaşıllıqla bağlı əski türkcədə derivatlarına (törəmələrinə) malikdir. Bunun ağacla bağlı mənaları ilk baxışdan tale semantemi ilə bağlanmır.Ancaq butanın arxaik strukturlu dastan-larda da (məs., «Alıp-Manaş» və s.) özünə yer alması onun bir element kimi bu mətnləri şərtləndirən dünya modeli ilə bağlılığını nəzərdə tutur. Burada hər şey sadəcə olaraq mifoloji məntiq daxilindədir və leksik semantikası ağacla bağlı olan bir sözün dastan mətnlərində tale semantikasını bildirməsini yalnız mifoloji məntiqin əhatə etdiyi çevrədən izah etmək olar.

Mərhum mifoloq M.Seyidov butanın ağacla bağlı semantikasını haqlı olaraq türk mifoloji mətnlərindəki dünya ağacı ilə əlaqələndirir. O yazır ki, butanın

«qönçə», «şüvül», «şaxələnmə» mənaları onu istər-istəməz ağac, bitki mifi ilə bağlayır. (Buta-M.C.) əsasən yazla bağlı qönçə, şaxələnmə artımıdır. Bu, dünya ağacı mifinin atributu, əlamətidir. Dünya ağacı kainatın yaradıcısı olduğu üçün o, həm də yaranışın, artımın da mifi sayılmışdır. Deməli, onun əlaməti, atributu-buta gəncliyə verilərkən onlar bir-birini sevməlidirlər ki, yeni ailə yaransın, artım olsun... Buta istiliklə, odla, günəşlə, dünya ağacı ilə bağlı mifoloji məna daşıyan sözdür, rəmzdir, nurlu-odlu içkidir. Gənclərə buta verərkən onlar aşıq, aşiq olurlar. Belə aşıq, yəni odla-günəşlə əlaqədar aşıq təbii ki, gizli sirlərə agah olmalı idi. Çünki mifoloji inama görə od sirləri açır,sirlər ona agah olur (101, 130-131).

M.Seyidov butanın dünya ağacı ilə bağlılığını düzgün tutmuş və ona izah vermişdir. Tədqiqatçı bu sözün dastanlarda badə-odlu içki aspektinə də diqqət vermişdir. Ancaq butanın dastan mətnindəki başlıca məna tutumu-tale, sevgi taleyi semanteminin dünya ağacı ilə bağlı aspekti burada tam izah olunmur. Lakin yenə də bütün hallarda M.Seyidovun bu sözü dünya ağacı ilə əlaqələndirməsi sözün izahında başlıca xətt olaraq qalır.

Butanın leksik baxımdan ağacla bağlı söz olması onun dünya ağacı ilə bağlı miflərdə mifem (mifoloji vahid) kimi düşünülməsinə gətirmişdir. Bu baxımdan butanın dastandakı epik məna qatı olan tale semantemi də elə dünya ağacı ilə bağlanır.

Butanın tale semantemi məhəbbət dastanlarının bütün süjet strukturu üçün əsasdır. Tale semantemi

proqramlaşdırılmış hərəkətdir. Bu baxımdan qəhrəmana buta verilməsi yalnız bu motivlə məhdudlaşıb qalmır. Süjetin sonrakı hissələri də buta semanteminin zaman və məkan qatları üzrə açılmışdır. Bu mənada məhəbbət dastanları süjetinin sonrakı hissələri də buta «kodundan» açılır. Başqa sözlə, qəhrəmanın sonrakı hərəkətləri ona verilmiş buta ilə proqramlaşdırılıb. Butavermədən sonra süjet xətti boyunca bütün hərəkətlər buta ilə müəyyənləşdirilir və burada butadan qıraqda heç nə yoxdur. Elə buna görə də süjet quruluşunun sonrakı hissələri də buta semantemi baxımından özünün struktur-semantik yozumunu tapa bilər.

Yuxarıda demişdik ki, mətnin struktur-semantik tədqiqi baxımından məhəbbət dastanları süjetində addəyişmə, yol, sınaq və toy (yas) elementləri diqqəti çəkir.

Qeyd edək ki, məhəbbət dastanlarının strukturunda addəyişmə motivi tədqiqdən qıraqda qalmışdır. Düzdür, qəhrəmanlıq dastanlarında (xüsusilə «Kitabi-Dədə Qorqud»da) adqoyma, o cümlədən məhəbbət dastanları qəhrəmanlarının adlarının təsəvvüfi simvolika daşıması barəsində ətraflı deyilmişdir. Lakin məhəbbət dastanları mətnində addəyişməyə fikir verilməmişdir. Və burada ən maraqlı olan da məhz adın dəyişdirilməsidir.

«Əsli-Kərəm» dastanında Mahmudla Məryəm ilk dəfə təsadüfən bağda görüşürlər və onların bu görüşlərinin sonunda belə bir dialoq olur:

Söz tamama yetdi, qız dedi:

- Oğlan, Kərəm, elə tez çıx burdan get, keşiş babam gəlib bizi görməsin.

Mahmud dedi:

- Gedərəm, ancaq gərək bir xahişimi yerinə yetirəsən.

- O nə xahişdir?

Mahmud dedi:

- Mən istəyirəm ki, sənin adın Əsli olsun.

Məryəm gördü ki, Mahmud əl çəkməyəcək, çar-naçar razı oldu.

Mahmud dedi:

- İndi ki, sən mənim sözümü yerə salmadın, adını Əsli çağırmağa razılıq verdin, bundan sonra sən də mənim adımı Kərəm çağır (33, 74).

Prof. T.Xalisbəyli bununla bağlı yazmışdır ki, ilk görüşdən öz məhəbbətini büruzə verən Mahmud adının da dəyişdirilməsinə razı olur. Hətta bu təklifi irəli atan da Mahmudun özüdür. Heç şübhəsiz, XVI əsr Azərbaycan şəraitində qızla oğlanın görüşüb sevişməsi dövrün qanunlarına zidd olduğundan gizli qalsın deyə qəhrəmanlar bu yolu seçirlər. Dini təəssübkeşliyin doğurduğu fəlakətlərin dəhşətlərini hiss edən Mahmud deyir: «Bu gündən mənim adım Kərəm olsun, sənin adın Əsli» (69, 90-91).

Fikrimizcə, «Əsli-Kərəm» dastanında bu addəyişmə motivinin əsasında mərhum professorun söylədiyi amillər durmur. Professorun yazdığına görə, Mahmud özünün və Məryəmin adını dini zəmində törənəcək təhlükələr qarşısında dəyişməli olur. Başqa sözlə, addəyişmənin səbəbində dini konflikt durur.

Əgər biz bu fikri qəbul etmiş olsaq, onda belə addəyişməyə başqa məhəbbət dastanlarında tuş olmamalıyıq. Ancaq belə motiv «Aşıq Qərib»də də var.

«Aşıq Qərib» dastanında nəql edilir ki, Təbriz vilayətində Məmməd Söydəgar adında bir kişi vardı. Böyük oğlunun adı Rəsul, kiçiyinin adı Heydər idi, qızının adı isə Nərgizxanım idi. Ataları vəfat edir. İsfahan şəhərinin qırx lotusu Təbrizə gəlib Rəsulun atadan qalma bütün var-dövlətini qumarda udurlar. Pis vəziyyətlərə düşən Rəsul atasının qəbri üstündə Tiflisli Xacə Sənanın qızı Şahsənəmi Buta alır və butasının ardınca yola düşür. Tiflisə gəlir. Dəli Mahmudun qəhvəxanasına düşür:

«Dəli Mahmud Rəsulun anasını, bacısını arvadlara məxsus olan otağa apardı. Qayıdıb Rəsuldan xəbər aldı:

- Ey Qərib, hardan gəlib, haralara gedərsən?

Rəsul dedi:

- Təbrizdən gəlirəm.

Qəhvəxanada oturanlar Təbriz adını eşidən kimi yerbə-yerdən dedilər:

- Qərib, Təbrizdən bizim üçün bir neçə söz oxu.

Rəsul bundan sonra Təbriz barəsində oxuyur və dastanın bu hissəsində Rəsul Qərib adlanmağa başlayır və dastançı bundan sonra heç bir yerdə Rəsul adını çəkmir və maraqlıdır ki, onun Tiflisdə Qərib olduğu üçün bu adı çayxanada alması barəsində də xususi əsaslandırma yoxdur. Halbuki süjetdən bəlli olduğu kimi, onun adını bilmirlər və Qərib deyə

çağırırlar. Maraqlıdır ki, çayxanadakılar onun adını xəbər belə almırlar. Beləliklə, burada daha bir addəyişmə ilə rastlaşırıq. Əgər yuxarıda Mahmud-Kərəm və Məryəm-Əsli transformasiya dini səbəblərlə motivləndirilirdisə, burada da eyni üsulla Rəsulun Tiflisdə Qərib olmasını addəyişmənin motivi kimi götürmək olar. Lakin fikrimizcə, nə birinci, nə də ikinci halda addəyişmənin əsasında bu zahiri əsaslandırma durmur. Məsələnin mahiyyəti daha dərindədir.

Məhəbbət dastanlarının statik formullara əsaslanan sturukturu olduğunu göz önündə saxlasaq, hər bir motivin mətndə müəyyən işarəvi semantikaya malik olduğunu nəzərə almalıyıq. İndiki halda ən üzdə olan paralel "Kitabi-Dədə Qorqud" dastanları ilə aparıla bilər. Bütün qəhrəmanlıq dastanlarında qəhrəmanlara ad qoyulması xüsusi məzmun daşıyır. Bu motiv "Kitabi-Dədə Qorqud"un süjetlərində öz əksini dolğun tapıb. Təkcə Buğacın adının qoyulmasını yada salaq.

Dirsə xanın oğlunun on beş yaşı tamam olanda o, oğlunu götürüb Bayandır xanın divanına gətirir. Dirsənin oğlu Bayandır xanın buğasını məğlub edir. "Oğuz bəyləri gəlib oğlanın üstünə yıgnaq oldular, təhsin dedilər".

Dədəm Qorqud gəlsin, bu oğlana ad qoysun, beləsincə alub babasına varsun, babasından oğlana bəglik istəsin, təxt alı versin dedilər...

Dədə Qorqud oğlanın babasına söyləmiş, xanım, nə söyləmiş:

Aydır, hey Dirsə xan...

...Adı Buğac olsun.

Adını mən verdim, yaşını Allah versin, dedi (48, 283-287).

Burada diqqəti cəlb edən Dirsənin oğlunun on beş yaşadək adsızlığıdır. ”Beyrəyin boyunda da Bayburənin oğlu on beş yaşadək adsız olur”. Sonra igidlik göstərir (bəzirganları xilas edir) və Dədə Qorqud ona da ad qoyur:

“Sözüm dinlə, Bayburə bəg, Allah təala sana bir oğul vermiş, tuta versin...Sən oğlunu Bamsam döyü oxşarsan. Bunun adı Boz ayrıqlı Bamsı Beyrek olsun” (48, 315).

Göstərilən iki nümunə ”Kitabi-Dədə Qorqud”da adqoyma motivinin semantik strukturunu qurmağa imkan verir: on beş yaşına çatmış uşaqlara göstərdikləri igidliklərə görə Dədə Qorqud tərəfindən adlar verilir. Bu baxımdan məhəbbət dastanlarında Mahmudla, Rəsulun addəyişmələrinin “Kitabi-Dədə Qorqud”dakı adqoymalarla sanki əlaqəsi yoxdur. Ancaq bu, zahirən belədir. “Kitabi-Dədə Qorqud”dakı motivlərdən bəhs edən bütün tədqiqatçılar onlardan məhz ”adqoyma” kimi bəhs etmişlər. Lakin həmin motivin mənalı elementlərinin axıradək öyrənilməsi bu adqoymanın əslində addəyişmə olduğunu göstərməkdədir. Dədə Qorqud Bayburaya deyir ki, ”sən oğlunu “Bamsam” deyü oxşasan”. Başqa sözlə, on beş yaşınadək Beyrək Bamsa (Bamsı) çağırılmışdır. Bu mənada istər Buğacın, istərsə də Beyrəyin əvvəlki adları olmuşdur.

Təbii ki, onlar hansısa adlarla on beş yaşınadək çağırılmalıydılar. On beş yaşında aldıqları adlar isə onların öz igidliklərinə görə aldıqları adlar idi. Bu adı onlara Dədə Qorqud verirdi. Bu ad şəxsi addan daha çox, ictimai səciyyə daşıyırdı. Bu adla Beyrək və Buğac igidlər sırasına daxil olurdular. Heç təsadüfi deyildir ki, Dədə Qorqud Buğacın atası Dirsədən və Beyrəyin atası Bayburadan onlar üçün həm də bəylik istəyir. Yəni onlar bəylik üçün yetişmişlər, bunu adları ilə sübut edirlər. Dədə Qorqud da onları bəy adı ilə ünvanlayır. Beləliklə, yeni adlar onların bəylik adlarıdır. Filologiya elmləri doktoru E.Əlibəyzadə heç təsadüfi olmayaraq bunun mərasimi mahiyyətini müşahidə etmişdir. O yazır ki, Azərbaycan xalqının adət-ənənələri onun mənəvi keyfiyyəti kimi beləcə tarixi inkşaf yolu keçib gəlib. Xalqımızın bu mənəvi keyfiyyətlərindən biri yeni doğulan uşağa, dünyaya təzə qədəm basan vətəndaşa adverma və ya o, böyüyüb ərsə çatdıqda bu ada yeni bir (və ya bir neçə) ad əlavəetmə, bunun mərasim halına keçməsi və qeyd olunmasıdır. Bu mərasimin bizdə qədim tarixi vardır. Tədqiqatçı bu xüsusda qədim türk onomastikasından, Orxon-Yenisey mətnlərindən, o cümlədən "Kitabi-Dədə Qorqud"dan misallar verir (58, 484-489).

"Kitabi-Dədə Qorqud"da da on beş yaşına çatmış gənclər artıq bəyliyin astanasında olurlar. Bunun üçün onlar "baş kəsib, qan tökməlidirlər". Bunlardan sonra onları Dədə Qorqud intisiasiyadan keçirir-bu, advermə mərasimidir. Əslində bu mərasim onlara yenidən ad verilməsidir-addəyişmədir. "Kitabi-

Dədə Qorqud"dakı bu adverməə-addəyişmə məhəbbət dastanlarındakı addəyişməyə ekvivalentdir. Bunu həm də əski qəhrəmanlıq dastanının məhəbbət dastanında yaşayan canlı izləri kimi qəbul etmək olar. Ancaq bunun başqa, daha doğrusu, yeni semantikası vardır. Bu, məhəbbət dastanlarının təsəvvüfi davranış kodu ilə bağlıdır. Diqqət edək.

Əgər "Kitabi-Dədə Qorqud"da gənclərin müəyyən yaşda ad almaları çox əski bir ritualla təsdiq olunursa, əslində məhəbbət dastanlarında Rəsul və Mahmudun öz adlarını uyğun olaraq Qərib və Kərəmə dəyişmələri əsaslandırılmır. Bu mənada yeni addəyişmə əski arxetiplərindən formal strukturu ilə yox, epik kodu ilə seçilir. Bu epik kod alp qəhrəmandan haqq aşığı qəhrəmanını fərqləndirir. Bu mənada Beyrək və Buğacın ad almaları ilə Kərəm və Qəribin ad almaları eyni arxetipə köklənsə də, semantik dəyərləndirmə baxımından fərqli və yenidir. Bu xüsusda bizə qəhrəmanların buta almaları açar verir. Bu "açar" "buta" elementinə daha bir mühüm və indiyədək toxunulmamış aspektdən baxmağa imkan verir.

Məsələ burasındadır ki, məhəbbət dastanlarının əsas kütləsi ilə təsdiq olunan butavermə mexanizmi öz simvolik təbiəti ilə əski türk inisiasiya (ölüb-dirilmə) mərasimini əks etdirir. İnisiasiya mərasimindən keçən simvolik şəkildə ölür, ölüm dünyasına-sakral dünyaya daxil olur, sonra təzə statusla doğulur. Bu ritual strukturu məhəbbət dastanlarının butavermə aktında da var. Bu mənada biz butavermənı əski inisiasiya

mərasimlərinin məhəbbət dastanlarındakı transformasiya hesab edirik. Məsələnin bu cür qoyuluşu Azərbaycan folklorşünaslığı üçün yenidir. Bu baxımdan fikrimizi əsaslandırmağa çalışaq.

Öncə yada salaq ki, qəhrəmanlardan heç biri butanı ayıq vəziyyətdə almır. Onlar yuxulu vəziyyətdə olurlar. Yuxu türk mədəniyyətində ölümün simvollarından sayılır. Bunu «Kitabi- Dədə Qorqud» dastanları oğuzlarının yuxunu «kiçik ölüm» adlandırmaları özündə dəqiq əks etdirir. Bu «ölüm» adi ölüm deyil. Bu «ölüm»- yuxu prosesində qəhrəman yeni durumuna transformasiya edir-ona aşiqlik, şairlik, saz çalmaq qabiliyyətləri buta verilir. Sonra qəhrəman yuxudan-ölümdən ayılır və bu vəziyyətdə o, artıq köhnə adam deyil. O, indi buta almış, haqq yolunun yolçusu olan «haqq aşığıdır». Beləliklə, buta vermə çox aydın olaraq üç mərhələdə keçir:

1) qəhrəmanın əvvəlki vəziyyəti;
2) simvolik ölüm-yuxuda buta alması vəziyyəti;
3) qəhrəmanın yeni vəziyyəti.

Bu üç vəziyyət -keçid mərhələsi buta vermədə o qədər aydındır ki, onların struktur-semantik bərpa yolu ilə üzə çıxarmağa ehtiyac olmur. Sadəcə təsvir kifayətdir. Butavermənin bu üç mərhələsi inisiasiya mərasimlərinin üç mərhələsi ilə struktur baxımdan eynidir.

| | **İnisiasiya (ölüb-dirilmə) prosesi** | **Butavermə prosesi** |
|---|---|---|

| | | |
|---|---|---|
| | Ayrılma | 1. Qəhrəmanın ya yuxuya gedərək, ya da huşdan gedərək əvvəlki vəziyyətindən ayrılması |
| | Keçid | 2. Qəhrəmanın sakral qüvvə ilə təmasa girib yeni duruma keçməsi prosesi |
| | Bərpa olunma | 3. Qəhrəmanı yeni vəziyyətlə həyata yenidən qayıtması, doğulması (bərpa olunması) |

Beləliklə, butavermə qəhrəmanına ölərək o biri dünyaya getməyini, ilahi qüvvələrdən yeni status almağını və təzədən yeni statusda bu dünyaya gəlməyini simvollaşdırır. Təbii ki,dünyaya «təzədən gələn»-«doğulan» yeni statusuna uyğun ad da almalıydı. Keçid (inisiasiya) mərasimlərindən keçmş neofit-yeni gənc adam cəmiyyətində artıq sosial qrupa aid olunur, yeni sosial mövqeyə çıxırdı, bu baxımdan o, həm də təzə ad alırdı. «Kitabi-Dədə Qorqud»da qəhrəman bəylik qrupuna keçirilmək üçün baş kəsib, qan tökməliydi. Bundan sonra Dədə Qorqud onu inisiasiya mərasimlərindən keçirirdi. Tədqiqatçılar bunu ad vermə mərasimi adlandırırlar. Ancaq burada təkcə ad verilmir: Qəhrəman bəylik hüququ, mal-mülk, otlaq sahələri və s. alırdı. Onun yeni sosial-ictimai mövqeyi yeni adla təsbit olunurdu. Butavermədə də qəhrəman öz köhnə vəziyyətindən çıxır, yeni vəziyyətə (haqq aşiqliyinə) daxil olur. Onun yeni durumu yeni adla təsbit olunur. Heç təsadüfi deyildir ki, istər Rəsulun yeni adı olan Qərib, istərsə də Mahmudun yeni adı olan Kərəm məhz onların yeni

vəziyyətlərinə-haqq aşiqliyinə uyğun adlardır. Bu adlar istisnasız olaraq təsəvvüfi simvolika daşıyır. Geniş müzakirələr açmayıb belə ad təxəllüslərlə bağlı verilmiş dəyərləri və səciyyəvi bir fikri anaq. Folklorşünas M.Qasımlı yazır ki, ozanın sənət meydanını aşığa təhvil verməsiylə el sənətkarlarının yaradıcılıq aləminə təriqət səciyyəli söz-terminlər daxil olmağa başlayır və onlar get-gedə linqvistik və poetik aktivliyi artırıb bir növ normativ keyfiyyət kimi təzahür edir. Hətta bu axın o dərəcədə güclənir ki, şeir sistemi və dastan epik mühit bərabər, klassik aşıq təxəllüslərinin əksəriyyəti də sufi məzmunlu sözlərlə əhatələnir: «miskin», «qul», «xəstə», «divanə», «öksüz-yetim», «səfil» kimi təxəllüslər (və ya təxəllüs təyinləri) tanrı qarşısında bəndə «miskin»liyini göstərir; aşığın tanrının «qulu» olduğunu bildirir... bu təxəllüsləri ardıcıllıqla izah edən tədqiqatçı «qərib» təxəllüsilə bağlı yazır ki,... «qərib» obrazı da təriqət dünyagörüşünə bağlılığı ilə diqqəti çəkir... Belə ki, sufi dunyagörüşünə görə bəndə dünyaya gəldiyi andan qürbətə düşür və qərib olur... (85, 125-129).

«Kərəm» adı ərəb mənşəlidir və «kəramə» sözündəndir. «Kəramə» sözü isə təsəvvüfi xüsusi semantika daşıyan anlayışlardandır. «İslam» lüğəti yazır: Kəramə (cəmi-kəramət)-müsəlman müqəddəsi (Vəli) tərəfindən edilən fövqəladə hərəkət; «KRM» kökündən düzələn kəramə sözü-«Səxavətli, geniş ürəkli olmaq» mənasındadır. Bununla kəramənin peyğəmbər tərəfindən öz misiyasını təsdiq etmək üçün göstərdiyi möcüzədən passiv, «bəxş edilmiş» səciyyəsi

nəzərə çatdırılır (159, 131).

Fikrimizcə, «kəramə» sözünə verilmiş bu izah həmin sözdən törəmiş «Kərəm» onomastik vahidinin təsəvvüfi simvolikasını açmaqla yanaşı butavermə ilə də bağlı ciddi bir ana işıq salır. İzahdan gördüyümüz kimi «kəramə» sözü «möcüzə» sözü ilə tutuşdurulur. Möcüzə peyğəmbər tərfindən həyata keçirilmiş hərəkətdir. «Kəramə» isə vəlilər (yəni peyğəmbərdən aşağı statuslu müqəddəslər) tərəfindən həyata keçirilən hərəkətdir. Bu baxımdan peyğəmbərin möcüzəsi aktiv, «kəramət» isə vəliyə məxsus hərəkət kimi passivdir. Başqa sözlə, bu hərəkət ona bəxş olunmuşdur. Bu mənada peyğəmbər hərəkətlərində sərbəst, vəli isə sərbəst deyil. O, bəxş olunmuş verilmişi həyata keçirir. Bu baxımdan «Kərəm» adı bəxş olunmuş deməkdir. Butavermənin də mahiyyəti elə burada üzə çıxır. Butavermə bir qayda olaraq peyğəmbərdən aşağı statuslu obraz tərəfindən həyata keçirilir. Bu, təsəvvüfdə əsasən İmam Əli olur. İmam Əli vəlidir-müqəddəsdir və o, Allahın göndərdiyi butanı Mahmuda bəxş edərək onu «bəxş edilmişə»-Kərəmə çevirir.

Məhəbbət dastanlarının strukturunda semantik simvolikasının tutumluluğu, iriliyi ilə seçilən növbəti ünsürlər yol-sınaq və toy (yas) elementləridir. Qeyd edək ki, istər yol, istərsə də onun reallaşdırılma təzahürləri kimi çıxış edən sınaqlar M.H.Təhmasibin «Azərbaycan xalq dastanları (orta əsrlər)» monoqrafiyasında geniş təsvir edilib. Həmin tədqiqatda yol elementinin bütün strukturu, sınaqların ardıcıllıq

prinsipi ilə reallaşdırma yolları öz əksini ətraflı tapıb. Bu mənada burada məhəbbət dastanlarından səciyyəvi nümunələr verə-verə yol və sınaq elementlərinn quruluşunu təsvirə çalışmaq bütün hallarda M.H.Təhmasibin təkrarı olar. Biz isə belə bir lüzumsuz təkrardan qaçaraq yol və sınaq elementləri ilə bağlı bəzi səciyyəvi struktur semantik cəhətlərə diqqət verməyi məqsədəuyğun sayırıq.

Elmi fikrə görə, kosmoloji ənənədə canlı insanın yolu geriyə dönməyi də nəzərdə tutulur. Canlı olmayan insanın yolu isə birtərəflidir – getmə (yaxud gediş – M.C.) – (204, 73-76). Bu fikirlə məhəbbət dastanları qəhrəmanının yoluna baxdıqda görürük ki, onun da yolu canlı bir insaın yolu kimi ikitərəflidir. Bütün dastanlar üçün buta almış qəhrəmanın yola düşməsi xüsusi struktur elementidir. Qəhrəman yola düşür. Kosmik dəyəri əldə edir (sevdiyinə qovuşur) və yenə də əvvəli məkana qayıdır. Bu, arxaik strukturlu dastanlarda özünü daha parlaq göstərir. Məhəbbət dastanları isə arxaik strukturu təsəvvüfi koda köklənmiş klassik dastanlardır. Bu baxımdan yol elementinin arxaik semantikası bu qəhrəmanların yolunun alt qatını, arxetipini təşkil edir. Üst qatda isə yolun həm də təsəvvüfi anlamı var.

Təsəvvüfdə yol xüsusi semantikaya malikdir. Təsəvvüfdə mərkəzi anlayışlardan olan «təriqət» sözü sadəcə olaraq «yol» deməkdir. Sufi təriqətdə Allaha doğru simvolik bir yol gedir. Sufi yolu dörd mərhələdən keçir:

***1. Şəriət*** *– islamın ehkamlarının mənimsənilməsi*

(137, 36).

***2. Təriqət** – nəfsin ram edilməsi və dəyişdirilməsi;*

***3. Mərifət** – həqiqi idraka tam qovuşma;*

***4. Həqiqət** – həqiqi «Mənə çatma»* (139, 177).

Qəbul etməliyik ki, sufi kamilləşməsinin bu dörd mərhələsi ilə məhəbbət dastanları qəhrəmanı yolunun struktur tutuşdurulması formal nəticələr verə bilər. Çünki məhəbbət dastanlarının ənənəvi arxetipik strukturu var. Bu halda məhəbbət dastanlarının sufilərin kamilləşmə yolu öz kodu inikas etməsində yox, təsirindən arxetipik kodun təsəvvüfi koda uyğunlaşdırılmasından söhbət gedə bilər. Bu baxımdan belə bir «uyğunlaşdırma» işi orta əsrlər dastançıları tərəfindən aparılmış və məhəbbət dastanları təsəvvüfi koda- təsəvvüfi-davranış tipinə transformasiya edilmişdir. Buradan çıxış etdikdə, butasının simasında haqqa Allaha aşiqliyi vergi kimi almış qəhrəmanın yolu təsəvvüfün təriqət («yol»), həqiqət və mərifət dillərinə uyğundur. Ancaq buradakı uyğunluğu hərfiləşdirmək olmaz. Söhbət ümumi uyğunlaşmadan gedir.

Məhəbbət dastanları qəhrəmanının yolu boyunca qarşısına çıxan sınaqlar da əski türk dastançılığından, epik mətnlərindən irəli gələn arxetipik struktura malik olmaqla belə bir dəyişmə-uyğunlaşma keçirmişlər. Arxetipik sınaqlar ümumiyyətlə, təkcə dastan mətnləri üçün yox, eləcə də sehirli nağıllar üçün də səciyyəvidir. Bu da təsadüfi deyil. Sehirli nağıllar və arxaik eposlar eyni qaynaqdan-ilk əcdad-mədəni qəhrəman-demiurq haqqında kosmoqonik mətnlərdən nəşət evolyusiya

etmişdir. Bu baxımdan istər sehirli nağıllarda, istərsə də dastanlarda, o cümlədən məhəbbət dastanlarında rast gəlinən sınaqlar (şərt, imtahan və s.) onların strukturunun stabil elementlərindəndir. Başqa sözlə sehirli nağıl qəhrəmanının, indiki halda məhəbbət dastanı qəhrəmanının yolu sınaqlardan qurulur.

Tədqiqatçılar sehirli nağılın strukturundan bəhs edərək onların üçpilləli ierarxik kompozisiyaya malik olduğunu göstərirdilər: ilk sınaq, əsas sınaq və əlavə sınaq (180, 90-91). Yada salaq ki, məhəbbət dastanının qəhrəmanı da bir yox, bir neçə sınaqdan keçməli olur. O hər dəfə özünün, doğrudan da, haqq aşiqi olduğunu sübut etməli olur. Lakin burada arxaik mətndən yox, təsəvvüfi koda uyğunlaşdırılmış klassik mətndən söhbət getdiyi nəzərə alınmalıdır. Ona görə də sehirli nağılın epik mətnləri üçün səciyyəvi olan bu strukturunu məhəbbət dastanları strukturunda olduğu kimi axtarmaq olmaz. Məhəbbət dastanlarında qəhrəman çoxlu sınaqlarla üzləşir. Lakin o, axırda əsas sınaqdan çıxmalı olur, əsas sınaqla o, haqq aşığı olduğunu sübut edir və bunula öz sevgilisinə qovuşmuş olur. Bu baxımdan biz məhəbbət dastanının strukturunda ilk və əsas sınaqları görürük. Qəhrəman əsas sınağadək yolda müxtəlif aşıqlarla deyişir, ona əks olan qüvvələrin əlindən haqq aşığı oduğunu sübut etməklə qurtarır, çeşidli sınaqlardan çıxır. Bunlar ilkin sınaq mərhələsini təşkil edir. Əsas sınaq qıza sahiblənmiş adamla olur (burada statizm yoxdur, söhbət qızın kimin əlində olmasından gedir). Qəhrəman sonuncu sınaqla haqq aşığı olduğunu sübut edir, sevgilisinə qovuşur. Bu, əsas

sınaqdır. Düzdür, qəhrəman öz sevgilisi ilə vətəninə qayıdanda onun sevgilisinə göz dikmiş atası ilə, yaxud başqa kimsənə ilə üzləşə bilər. Bu əlavə sınaq sayıla bilər. Ancaq əlavə sınaq məhəbbət dastanlarında rudimet-qalıq səciyyəlidir.

Əsas sınaqla süjet, demək olar ki, başa çatır və bundan sonra qəhrəmanların toy mərasimi gəlir. Məhəbbət dastanlarının əksəriyyəti toyla başa çatır. Bu təbii olaraq belə olmalıdır. Dastan mətni boyu kosmik qüvvələrin xaotik qüvvələrlə mübarizəsi ənənəvi mətnlərdə, bir qayda olaraq kosmik qüvvələrin qələbəsi ilə  başa çatır. Əslində bu qələbə kosmosun bərpası kimi reallaşır. Belə ki, bir-birinə buta verilmiş qəhrəmanlar qovuşmaq ərəfəsində kimsə tərəfindən ayrılırlar. Məhz bu kimsə antiqəhrəmandır və xaosu simvollaşdırır. Antiqəhrəmanın işə müdaxiləsi ilə kosmos pozulur. İki gənc bir-birindən ayrı düşür. Kosmosun bərpası uğrunda mübarizə başlanır. Burada gənclərin bir-birinə buta verilməsi ilahi harmoniyadır. Antoqonist bu ilahi harmoniyanı pozur. Qəhrəman xaosun təmsilçisi-antiqəhrəmanla mübarizəyə başlayır və qələbə çalır. Bu qələbə gənclərin bir-birinə qovuşması şəklində olur. Həmin qovuşma ilə bir-birindən ayrı düşmüş kosmik dəyərlər (qız və oğlan) birləşir və kosmik ahəng bərpa olur.

Deməliyik ki, kosmosla xaos arasında mübarizə və kosmosun sonda bərpa olunması əksər məhəbbət dastanlarının süjeti tərəfindən təsdiq olunur. Bu əsasda formalaşan struktur invariant struktur kimi, məhəbbət dastanlarının başlıca kütləsini və onun

başlanğıcında duran qəhrəmanlıq dastanlarının da strukturunu öz içinə alır. Ancaq bu invariant strukturundan müəyyən fərqləri olan mətnlər də mövcuddur. Məsələn, «Qurbani» dastanının Gəncə aşıqlarından toplanmış variantında sonda deyilir: Qurbani ilə Pəri xanımı toy-nağara ilə Qaradağa yola saldılar. Onlar yolun damarını qırdılar, taki gəlib Diriyə çıxdılar. Qohum -əqraba, el-oba yığıldı; Qurbaniyə qırx gün, qırx gecə toy elədilər (36, 195).

Ancaq «Qurbani» dastanının Diri versiyasında Qurbani ölür və sevgilisinə qovuşa bilmir. Yaxud «Əsli-Kərəm» dastanının qəhrəmanları da bütün sınaqlardan çıxırlar, ancaq bir-birinə qovuşa bilmirlər. Əslinin paltarının alovundan Kərəm yanıb kül olur. Qırx gün ağlayan Əsli də Kərəmin külündən qalmış közlə od alıb alovlanır və ölür (33, 163-165).

Beləliklə, dastanın sonu toyla, yaxud yasla bitə bilir. Əsasən sonluq, toyla qurtarır. Bu, ən arxaik strukturdur. Yasla qurtaran sonluqlar süjetin sosiallaşmasından soraq verir. daha doğrusu, şərə nifrət aşılayan bu sonluqda dastançının sosial səciyyəli subyektiv münasibəti də görünməkdədir. Ancaq dastan sonluğunun yasla qurtarması ümumtürk arealı materialları ilə təsdiq olunur və bu da öz növbəsində sonluğun yas işarəsinin və arxaik strukturun daxil olunduğundan soraq verir. məsələn, «Əsli-Kərəm» dastanı ilə səsləşən «Kozi Körpəş və bayan Sulu» dastanında Kozi Körpəş öldürülür və Bayan Sulu da özünü öldürür (107, 302-303).

Azərbaycan məhəbbət dastanlarının sonunun

yasla qurtarması ənənə strukturu ilə bağlı olsa da burada məhz məhəbbət dastanı olmaqla bağlı semantika var. Bu, təsəvvüfi semantikadır. Yəni o məhəbbət dastanlarında təsəvvüfi kod arxaik təsvir kodunu öz içinə alaraq öz məntiqinə tabe edir. Əgər arxaik strukturda qəhrəmanların bir-birinə qovuşmaması sosial semantika daşıyırsa, məhəbbət dastanlarında sosial semantika arxa plandadır. Öndə təsəvvüfi semantikadır. Kərəm və Əsli keşiş üzərində qələbə çalırlar, lakin onların sonradan yanaraq alova dönmələri təsəvvüfi simvolikaya malikdir. Eləcə də Diri versiyasında Qurbaninin Diri dağında ilan tərəfindən öldürülməsi öz təsəvvüfi semantikasına malikdir.

Təsəvvüfdə məcazi və ilahi məhəbbət var. Məcazi məhəbbət qadınadır. İlahi məhəbbət isə bu qadında təcəlla etmiş mütləq başlanğıca-ilahinin özünədir. Məhəbbət dastanlarının baş qəhrəmanları haqq, yəni Allah aşiqidirlər. Məsələnin bütün mahiyyəti elə bununla bağlıdır. Süjetin toyla, yaxud yasla qurtarmasından asılı olmayaraq məhəbbət dastanı qəhrəmanları əsas sınaqdan çıxırlar. Əsas sınaq onların haqq aşiqi olmalarının imtahanıdır. Onlar haqq aşiqi olduqlarını sübut edirlər. Təsəvvüfi planda onların sevgilərinə qovuşub-qovuşmamaları məcazi anlam daşıyır. Yəni təsəvvüfdə cismani qovuşma yox, mənəvi qovuşma əsasdır. Belə bir qovuşma məhəbbət dastanlarında var. Qəhrəman əsas sınaqdan qalib çıxmaqla haqq aşiqi olduğunu sübut edir. Yəni o, məcazi planda əldə etmək istədiyi kosmik dəyərə çatır-

Haqqa qovuşur. Onun bu həqqi təcəlla etdirən sevgilisinə qovuşması artıq şərti məna daşıyır. Başqa sözlə, istər Kərəm, istərsə də Qurbani ölsələr də haqq vüsalına çatmışdılar. Bu mənada onların sevgililərinə qovuşmaları məcazi məhəbbətə aid idi. Həqiqi məhəbbət baxımından onlar öz sevgililərinə qovuşurlar. Bununla da sonu qəhrəmanların cismani qovuşmaları ilə başa çatmayan məhəbbət dastanları ilə Azərbaycan dastançılığı məhəbbət dastanlarının təsəvvüfi kodla reallaşan ən parlaq örnəklərini təqdim etmiş olur.

«Qəhrəmanların toyu, yaxud yası ilə məhəbbət dastanları» strukturunun mətn (süjet) elementi tamamlanmış olur. Yəni fəslin əvvəlində göstərdik ki, məhəbbət dastanlarının strukturu Mətnönü, Mətn (süjet) və Mətnsonu elementlərin struktur-semantik sırası kimi reallaşır. Süjetin sonuncu elementi olan toy, yaxud yasla mətn başa çatır. Sonra sonuncu struktur elementi mətnsonu gəlir. Bu, ya duvaqqapma, ya da cahannamədir. Əgər süjet toyla tamamlanırsa-duvaqqapma, yasla-ölümlə tamamlanırsa-cahannamə gəlir. Belə olduqda incə bir məqam meydana çıxır. Biz mətnsonu elementi kimi sırf olaraq ya duvaqqapmanı, ya da cahannaməni götürürük. Halbuki istər duvaqqapmanı, istərsə də cahannaməni süjetin sonuncu elementi olan toy, yaxud ölüm müəyyənləşdirir. Onda təbii olaraq belə hesab emək olar ki, strukturun sonuncu elementi olan mətnsonuna, duvaqqapma və cahannamə ilə bərabər, süjetin sonu olan toy, yaxud ölüm də daxildir. Axı mətnsonunun duvaqqapma,

yaxud cahannamə janr işarəsi məhz mətn hissəsini reallaşdıran süjetin sonuncu elementindən asılıdır. Bu halda onları ayrı-ayrı struktur elementlərinə aid etmək nə dərəcədə düzgündür. Əslində elə, belə də olmalıdr. Çünki mətn hissəsindəki toy, yaxud şərti olaraq yas süjet hadisəsidir, duvaqqapma ilə cahannamə isə-yox. Bunlar fərqli hadisələrdir. Bunların arasındakı əlaqə semiotik, yəni işarəvi əlaqədir. Belə ki, süjetin sonundakı toy, yaxud ölüm hadisəsindən duvaqqapma, yaxud cahannaməyə birbaşa hadisə keçidi yoxdur. Bu keçid hadisə səciyyəli yox, işarə səciyyəlidir. Bu mənada süjetin sonundakı toy, yaxud ölümlə süjet yekunlaşır. Bununla strukturun mətn elementi tamamlanır və mətnsonu gəlir. Mətnsonundakı duvaqqapma, yaxud cahannamə mətndəki süjetlə birbaşa hadisə, əhvalat əlaqəsində deyil. Başqa sözlə, mətnsonu üçün süjetdə kimin toyu, yaxud kimin ölməsi yox, ümumiyyətlə süjetin xeyirlə, yaxud şərlə başa çatması əsasdır. Yəni mətnsonu üçün süjetin işarəsi əsasdır və bu süjetin sonundakı xeyir (toy), yaxud şər (ölüm) işarəsi mətnsonunun təbiətini müəyyənləşdirir. Yəni mətnin sonunda üzə çıxan xeyir-şər (yaxud həyat-ölüm) işarəsi mətnsonunun hansı şəkildə funksionallaşacağını şərtləndirir. Başqa sözlə, süjetin işarəsi xeyir-həyatdırsa, mətnsonu duvaqqapma kimi funksionallaşır, yox, şər-ölümdürsə, onda cahannamə kimi funksionallaşır. Öz realizasiya materialları baxımından duvaqqapma-cahannamələr ustadnamələrlə eynicinslilik təşkil edir. Başqa sözlə, fəsiln əvvəlində gördük ki, ustadnamələrdə poetik universal şəklində hökm qoyulur, süjetdə

sınaqdan çıxarılır, duvaqqapma-cahannamələrdə təsdiqlənir. Yəni məhəbbət dastanlarının strukurunun eynicinsli materiallardan təşkil olunmuş sxemi belədir:

***Hökm-sınağı-təsdiqi***

Burada hökm-ustadnamə, sınaq-süjet, təsdiq isə-duvaqqapma-cahannamədir. Bu, xüsusilə cahannamələrdən aydın görünür. «Əsli-Kərəm»in sonundakı cahannamədən bir bənd:

*Dəhri-fənada belə insan hanı?*
*Qılmaya fani onu dövran, hanı?*
*Ey bivəfa dünya, sən də zalımsan,*
*Bu qayətdə sənə gələn hanı?...* (33, 165)

Şeirin poetik ruhu təsdiqə köklənib. Ritorik suallarla dünyanın belə bir həqiqəti təsdiqlənir ki, dövran insanları fani qılır, dünya bivəfadır, zalımdır və s. Bu baxımdan cahannamənin ruhu ustadnamələrə söykənir. Əslində cahannamələr elə «ustadnamələrdir». Sadəcə bunların dastan mətnində işarəsi fərqlidir. Biri hökm verir, o birisi təsdiqləyir. Hökm və təsdiqin arasında hadisə-sınaq durur. Beləliklə, məhəbbət dastanları poetikasının bizim tədqiqatımızdakı şərhinin bütün mahiyyəti də strukturun elə hökm sınaq-təsdiq formulunun alınmasına yönəldilib. Bu formul məhəbbət dastanlarının hamısı üçün universaldır. İlk baxışdan adi görünəcək bu formul məhəbbət dastanlarının struturunun daha iri vahidlərindən oxunuşu ilə reallaşır. Əgər M.H.Təhmasibin verdiyi morfoloji struktur məhəbbət dastanlarının struktur elementlərinin morfoloji vahidlər səviyyəsində oxusudursa, bizim təklif etdiyimiz formul mətnin ən iri struktur-semantik vahidlərdən

açılışıdır. Bu struktur vahidləri isə Total Mətnin işarəvi mahiyyətini reallaşdıran Mətnönü, Mətn və Mətnsonu elementlərində reallaşır. Həmin elementlər isə semiotik səviyyədə uyğun olaraq Hökm, Sınaq və Təsdiq vahidlərini işarələndirirlər.

# II FƏSİL

## MƏHƏBBƏT DASTANI OBRAZLARININ STRUKTUR POETIKASI

Bundan əvvəlki fəsildə məhəbbət dastanlarının quruluşu aydınlaşdırılarkən bir çox məsələlər haqqında növbəti, yəni obrazlardan bəhs edən bu fəsildə danışılacağı bildirilirdi. Bu da təsadüfi deyildi. Ötən fəsildə məhəbbət dastanları süjetin struktur semantikası baxımından öyrənildi. İndi isə eyni mətnlər obrazlar sistemi baxımından öyrəniləcək. Süjet və obraz isə mətnin müxtəlif struktur anlayışları olsalar da, bir-birlərindən ayrı, təcrid edilmiş məfhumlar deyildir. Bu baxımdan biz birinci fəsildə bir çox məsələlərin şərhini növbəti fəslə saxlamağa məcbur olurduq. Məsələn, butavermə motivi yenicinsli hadisələrin semantik toplusu kimi haqq aşığı obrazı ilə bağlıdır. Bu mənada biz butaverməni şərh edərkən istər-istəməz haqq aşığı obrazından da danışmalı olurduq. Halbuki, bir obraz kimi, onun haqqında ikinci fəsildə bəhs edilməlidir. Eləcə də burada haqq aşığı obrazı şərh edilərkən müəyyən qədər təkrar edilməyə «məhkumdur». Məsələnin bu cəhəti süjet-obraz münasibətlərinin qarşılıqlı mövcudluq spesifikası ilə bağlıdır. Məhəbbət dastanlarının bütün janr parametrləri folklor hadisəsi olduğunu nəzərə alsaq, onda həmin süjet-obraz kompleksini biz folklor süjeti folklor obrazı kompleksi kimi nəzərdən keçirməliyik.

B.N.Putilov göstərir ki, süjet termini müasir folklorşünaslıqda üç müxtəlif mənada işlədilir:

1. Süjet adı altında hər hansı etnik ənənədə bir tekst, yaxud variantlar «dəstəsi» ilə təqdim olunan konkret bir əsərin əsas məzmunu başa düşülür...

2. Süjet termini müxtəlif etnik ənənələrə və müxtəlif janrlara mənsub olan, məzmunda oxşar, təkrarlanan, yaxud üst-üstə düşən əhəmiyyətli və xüsusi anları olan folklor əsərləri toplusuna münasibətilə daim işlədilir. Bu səviyyədə süjet kateqoriyası öz konkretliyini əhəmiyyətli dərəcədə itirir, sxemləşir və invariant səciyyəsi alır...

3. Süjet termini ilə həmçinin son həddə çatdırılan ümumiləşdirici sxematik formul bildirilir ki, bu da bir sıra mətnləri əhatə edən yalnız əsas kolliziyanı nəzərdə tutur... belə formul-sxemləri daha dəqiq olaraq «süjet mövzuları» adlandırmaq lazımdır (193, 121-122).

Göründüyü kimi, folklor süjeti folklor mətnləri ilə təmsil olunan hər üç səviyyəsində hadisə olaraq qalır. Bu mənada süjet hərəkətdir. Yəni bunun folklor mətninin hansı dinamika səviyyəsindən təqdim olunmasından asılı olmayaraq, folklor süjeti dinamik hadisə, hərəkət hadisəsi olaraq qalır. Əslində süjetin hərəkət hadisəsi olması folklor və bədii ədəbiyyata eyni dərəcədə də xasdır. Ancaq folklor süjeti məhz düsturlaşdırılmış, «proqramlaşdırılmış» hərəkətdir. Başqa sözlə, birinci fəsildə məhəbbət dastanlarının quruluşu, yəni əsas olaraq süjetin strukturu aydınlaşdırılarkən gördük ki, istər total mətn, istərsə də onun süjet hadisəsi ənənəvi formullardan təşkil

olunur. Süjetin belə ənənəvi formulları daim təkrar olunan, statik hərəkət vahidlərini nəzərdə tutur. Bu baxımdan folklor süjeti ənənəvi formullardan təşkil olunur. Məsələnin bu cəhəti folklor obrazına da məhz belə bir ənənə prizmasından baxmağı tələb edir. Ona görə ki, folklor hərəkəti kimi realizə olunur. Başqa sözlə, süjet-hadisədir. Bu hadisə öz-özlüyündə yoxdur, o, törənmiş hadisədir. Bu mənada onun törədicisi, folklor hərəkatının yaradıcısı folklor obrazıdır. Birinci fəsildə məhəbbət dastanlarının süjeti öyrənilərkən gördük ki, süjet baş qəhrəmanın hərəkət traektoriyasını əks etdirir. Yəni məhəbbət dastanı mətni üçün süjetyaradıcı obyekt Aşiqdir. Onun hərəkəti mənalı formulların düzülüşü kimi süjeti gerçəkləşdirir. Süjetin ənənəvi, statik formullardan təşkil olunması bu statizmi, formullaşdırmanı şərtləndirən folklor obrazının öz təbiətində də eyni dərəcədə statizm, formullaşdırma axtarmağa imkan verir.

Folklor süjeti folklor obrazlarının formullaşdırılmış hərəkətinin semantik düzümü kimi ortaya çıxır. Bu baxımdan folklor mətninə onun hər iki başlıca göstəriciləri (süjet və obraz) səviyyəsində sxematizm, statizm, fiqurluluq xasdır. Başqa sözlə, folklor süjeti ixtiyari dinamika xətlərindən yox, formullaşdırılmış hərəkətlərindən təşkil olunduğu kimi, folklor obrazları da öz hərəkətlərində sərbəst deyildir. Onlar ixtiyari hərəkətləri yox, məhz funksiyaları yerinə yetirirlər.

Bu deyilənlər invariant sxemlər kimi folklor mətninin başlıca göstəricilərindəndir. Ancaq folklor mətnlərinin özləri bütün hallarda statik, yekcins hadisə deyildir. Məsələn, nağıla məxsus statizmlə aşıq şeiri mətninə xas statizm mahiyyətcə fərqlidir. Başqa sözlə, folklor mətnləri özlərinin formullaşdırılmış dinamikalarına görə seçilirlər. Bu mənada məhəbbət dastanları çox maraqlı bir mənzərə təşkil edir. Burada bir tərəfdən arxaik sxemlərlə qaynaqlaşan obrazlar görünür. Başqa tərəfdən bu obrazlar orta əsrlər yazılı ədəbiyyatının, eləcə də bədiiləşdirmənin ümumi təsiri altında statizmlə sərbəstliyin qovuşuğunda təqdim olunurlar. Yəni məhəbbət dastanı qəhrəmanı istəyib-istəməsə də buta alır, sevgilisinin uğrunda mübarizə aparır və sonda həqiqi, yaxud məcazi planda qələbə çalır. Bu, statizmdə və məhəbbət dastanlarının bütün kütləsi ilə təsdiq olunur. Başqa tərəfdən məhəbbət dastanı obrazı öz «şəxsi aləmini» süjet səviyyəsində təqdim edə bilməsə də, lirik təqdimat, özünüifadə kodu olan şeirlərdə fərdi cizgiləri baxımından bütün qatlar üzrə açılırlar. Düzdür, lirik özünüifadənin təqdim etdiyi hisslər emosional gerçəkləşmə planı olaraq lirik qəhrəmanının hisslərindən «o yana» getməyə imkan vermir. Başqa sözlə, Aşiq (yaxud Məşuq), öz lirik kodları səviyyəsində nə qədər real təqdim olunurlarsa, süjet səviyyəsində bir o qədər əksinə, yəni statik təqdim olunurlar. Beləliklə, məhəbbət dastanı obrazının struktur planında iki qat-dinamika və statizm bir-birilə qovuşur və bu cəhət folklorun statik obrazının canlı, qeyri-statik təqdiminə gətirib çıxarır. Bu cəhət isə

bütün hallarda dastançı-şair faktoru ilə bağlıdır. Bu mənada məhəbbət dastanı obrazları sistemini, obrazların ierarxik düzüm prinsipini aydınlaşdırmazdan əvvəl məhz məhəbbət dastanı üçün səciyyəvi olan obraz cizgilərini aydınlaşdırmaq lazım gəlir. Ona görə ki, belə bir aydınlaşdırma aparmadan bu obrazları yalnız formal cəhətdən təsvir etmək, obraz cizgiləri adı altında zahiri, az funksional səciyyəvi elementləri sistemləşdirmək mümkündür. Ancaq obrazın struktur-semantik analizi bizdən məhz məhəbbət dastanına xas obrazın öz səciyyəvi, funksional əlamətlərini tapmağı tələb edir. Məsələn, nağıllar istər süjet, istərsə də obraz səviyyələrində dastanlarla yaxın «qohumdur». Bütün bunlarla bərabər, nağıl qəhrəmanı ilə dastan qəhrəmanı (indiki halda məhəbbət dastanı qəhrəmanı) eyni deyildir. Bu mətnlər arxebaza baxımından eyni qaynaqdan baş alıb gəlsələr də, istər süjet, istərsə də obraz səviyyələrində onların arasında ciddi janr differensiasiyası getmişdir. Bu, məsələnin elmi tərəfidir. Məsələnin praqmatika (Mətn-Dinləyici) tərəfləri daha maraqlı mənzərə verir. Nağıl dinləyicisi nağılı məhz nağıl- uydurulmuş mətn kimi qəbul edir. Lakin nağıl dinləyicisi dastanı nağıl, uydurulmuş mətn kimi yox, dastan reallığı, ümumiyyətlə, həqiqət kimi qəbul edir. Burada, təbii ki, «həqiqət» olmağın özünəməxsus dərəcələri vardır və bu baxımdan məhəbbət dastanları nağıllara nisbətən olmuş hadisələr, reallıqlar kimi qəbul edilir. Bu mənada nağıl obrazları ilə dastan obrazlarının semantikasında da ciddi fərqlər vardır. Dinləyici nağıl obrazını məhz nağıla məxsus, uydurma

mətnə məxsus obraz kimi qəbul edir. Bu mənada nağıl obrazı daha çox maraqlılıq aspektindən qəbul edilir. Bu mənada məhəbbət dastanı obrazı dinləyici tərəfindən fərdi xarakter cizgilərinə malik varlıq kimi qəbul edilir. Halbuki bu obrazlar konkret və dəqiq funksiyaların daşıyıcıları kimi, dastandan-dastana «təkrarlanırlar». Maraqlı olanı məhz bu «təkrarçılıq» aspektindən belə məhəbbət dastanı obrazlarının olmuşlar, həqiqət kimi qəbul edilməsidir.

Məhəbbət dastanının bütün obraz səviyyələri üzrə dinamizm və statizm bir-biri ilə qovuşmada təzahür edir. Başqa sözlə demiş olsaq, məhəbbət dastanı obrazları bir tərəfdən eyni bir «qəlibin» ağzından çıxmış «standart» obrazlardır. Digər tərfdən isə, bu obrazlar fərdi xarakter cizgiləri ilə yadda qalan təkrarolunmaz obrazlardır. Beləliklə, məhəbbət dastanı obrazları həm statik dəyişməz, standart serial, həm də dinamik (xarakter özünəməxsusluğunu şərtləndirən hərəkətlər) obrazlardır. Bu cəhət onları folklorun epik növünün başqa janrlarının obrazlarından, xüsusilə janrca yaxın nağıl obrazlarından kəskin fərqləndirir. Bu mənada məhəbbət dastanı obrazları bütövlükdə folklor obrazları ilə yazılı ədəbiyyat obrazlarının ortasındakı poetik məkanı doldururlar ki, bu da təsadüfi deyildir. Onda məhəbbət dastanı obrazını belə «özünəməxsus» edən faktorların nədən ibarət olması kimi sual təbii olaraq ortaya çıxır.

Bu sualın ilkin cavabı janr özünəməxsusluğu ilə bağlıdır. Təbii ki, folklorun epik növünün istənilən janrının obrazları məhz janrın təbiətəindən irəli gələn

cizgilər ilə seçilirlər. Bu, obrazın janr özünəməxsusluğudur və bu mənada məhəbbət dastanı obrazları da, təbii ki, belə bir janr özünəməxsusluğuna malikdir. Ancaq indiki halda söhbət belə bir özünəməx-susluğun təbiətinin müəyyənləşdirilməsindən gedir. Başqa sözlə, məhəbbət dastanlarının poetikası ilə bağlı ikinci fəsildə obrazların təsvirindən qabaq məhz bu prizmadan aydınlaşdırılma tələb edir.

Dedik ki, məhəbbət dastanının hər bir obrazı statizm və dinanizmin qovuşmasının təzahürü kimi meydana çıxır. Bu baxımdan obrazlardakı statizm və dinamizm qatları aydınlaşdırma tələb edir. Çünki obrazlar bu iki obrazyaradıcı materialın müxtəlif proporsiyalarda işlənmələrinin nəticəsi kimi meydana çıxır. Bu halda həmin obrazyaradıcı praporsiyaların texniki reallaşma mənzərəsi kimi diqqət tələb edir.

Məhəbbət dastanı obrazları statik obrazlardır və bu mənada onların ənənənin məhsulu olması, ənənəvi funksiyaları həyata keçirmələri haqqında geniş danışmağa ehtiyac qalmır. Məhəbbət dastanları, birinci fəsildə toxunduq ki, qəhrəmanlıq dastanlarından differensiasiya olunur. Bu mənada, onlar məhəbbət dastanı olmazdan qabaq klassik qəhrəmanlıq dastanı, klassik qəhrəmanlıq dastanı olmazdan əvvəl arxaik qəhrəmanlıq dastanı, bundan əvvəl isə mifoloji hekayətlərdir. Beləliklə, məhəbbət dastanları öz başlanğıclarında kosmoqonik səciyyəli mətnlərdən baş alıb gəlir və bu mənada məhəbbət dastanındakı hər bir obrazın mifoloji mətnlərdəki arxetiplərini müəyyənləşdirmək çətin deyildir (fəsil

boyu belə bir iş görüləcək də). Bu mənada məhəbbət dastanının hər bir obrazı mifoloji mətnlərdə konkret kosmoqonik, etnoqonik, yaxud temporal (zaman) səciyyəli funksiyalar daşıyan obrazlarla bağlıdır: başqa sözlə, konkret dəyişməz funksiyaların daşıyıcıları olan statik obrazlardır. Belə bir statiklik elə məhəbbət dastanlarının öz mətnlərindən də görünməkdədir. Birinci fəsildə məhəbbət dastanlarının, o cümlədən onun süjetinin strukturunu aydınlaşdırarkən gördük ki, məhəbbət dastanları öz başlıca kütləsində formullaşdırılmış hərəkətlərin düzümü kimi reallaşır. Başqa sözlə «qəhrəmancasına doğuluşdan» tutmuş, buta almağa butanın ardınca yola düşməyə, müxtəlif antoqonistlərlə mübarizə etməyə, nəhayət, bütün sınaqlardan çıxıb, bütün antoqonistlər üzərində qələbə çalmağa və toya qədər məhəbbət dastanlarında bütün obrazlar «eyni hərəkətlər» edirlər. Yəni onların hərəkətləri statik, formullaşdırılmış, qeyri-dinamik hərəkətlərdir. Bu mənada istər obrazlar, istərsə də onların hərəkətləri eyni bir qəlibdən- məhəbbət dastanı kodundan çıxmışdır. Yəni məhəbbət dastanı yaratmanın bir kodu var və dastançı dastan yaradarkən həmin kodun yaradıcılıq qəliblərindən, sərhədlərindən qırağa çıxa bilmir. Bu, statizmdir və həmin statizmin mahiyyəti ənənə ilə bağlıdır. Ənənə və statizm, ümumiyyətlə, folklorun mahiyyətini təşkil edir. Ancaq folklorun mahiyyəti təkcə bunlardan ibarət deyil. Məhəbbət dastanı janrının folklor yaradıcılıq kodu ilə yazılı ədəbiyyat yaradıcılıq kodunun ortasında dayanan bir

kod olduğunu xatırlatsaq, onda onun mahiyyətində ənənəvi, statik olmayan amillərə də rast gəlinməsi təbiidir.

Məhəbbət dastanı obrazının dinamik-fərdi, təkrar olunmayan tərəflərinə diqqət verməzdən əvvəl statizmin təzahür məkanını müəyyənləşdirmək lazım gəlir. Məhəbbət dastanı obrazları dastanın süjet xəttində, dastan təhkiyəsində statik obrazlardır. Başqa sözlə, obrazların statizminin təzahür etdiyi, dastan məkanı onun strukturunun süjet, təhkiyə hissəsindədir. Bu mənadə süjet, təhkiyə hissəsində dinamizm axtarmaq, obrazları canlı kimi təqdim edən cizgiləri burada aramaq faydasızdır. Burada dinamizm var. Ancaq həmin dinamizm burada sərbəst, muxtar, dominant dinamizm olmayıb, süjetə, bütövlükdə təhkiyəyə dastanın şeir kütləsindən gəlir. Bu mənada obrazların özünəməxsusluğu dastanın nəsr-nəzm strukruru ilə bağlıdır. Yuxarıda demişdik ki, məhəbbət dastanı dinləyicisi nağıl dinləyicisindən fərqli olaraq, məhəbbət dastanı obrazını real qəbul edir. Əslində bu reallıq şərtidir. Yəni dinləyici məhz dastan dinlədiyini anlayır. Ancaq burada reallıq canlılıqla bağlıdır. Başqa sözlə, dastan dinləyicisinə təqdim olunan məhəbbət dastanı obrazı elə bir lirik-poetik qatdan təqdim olunur ki, o, həmin obrazı «canlı»-«reallıq» kimi qəbul edir. Bu mənada cəsarətlə hökm vermək olar ki, məhəbbət dastanı obrazının belə «canlılığı» – «reallığı» dastanın nəsr yox, məhz nəzm hissəsi ilə bağlıdır. Bax bu cəhət məhəbbət

dastanının, bir janr kimi də özünəməxsus təbiətini müəyyənləşdirən qaynaqdır.

Beləliklə, məhəbbət dastanı obrazının canlılıq, özünəməxsusluq dinamikası dastan şeirindən, mətnin lirik kütləsindən gəlir. Bunun poetik təbiətini geniş aydınlaşdırmazdan əvvəl statizm və dinamizmi mətnin özünün struktur işarələri ilə qaynaqlaşdıraq. Dedik ki, obrazların statizmi süjetin epik hissəsi, dinamizmi isə lirik hissə ilə əlaqədardır. Statizmi epik lay, dinamizmisə lirik lay kimi götürsək, onda məhəbbət dastanı obrazının özünəməxsusluğunu şərtləndirən statizm- dinamizm qovuşması obrazda epik və lirik layların qovuşmasıdır. Bu mənada obrazın epik layı onun dəyişməz strukturunu, «skeletini» təşkil edirsə, lirik lay onun «ruhunu» təşkil edir. Bu, əslində müstəqim olaraq da belədir. Obrazlar söylədiyi şeirlərlə məhz öz xarakterlərinin ruhani-mənəvi hissəsini poetikləşdirmiş olurlar.

Məhəbbət dastanı obrazının söylədiyi şeirlər obrazı canlılaşdırır, reallaşdırır, statiklikdən, sxem olmaqdan çıxarır. «Tahir Zöhrə» dastanında Zöhrədən ayrılan Tahir belə bir şeir söyləyir:

*Mən gedərəm Allah səni saxlasın,*
*Ağlaya-ağlaya qal innən belə!*
*Əmanətin neçə-neçə məndədi,*
*Saxlaya bilmənəm, al, innən belə!*

*Didərginəm, gəlməm mən buralara,*
*Axıb didəm yaşı dönüb sulara,*
*Canım düçar olub çox bəlalara,*
*Hərdəm-hərdəm yada sal, innən belə!*

*Tahir deyər: işim ahü-zar oldu,*
*Şoralandı gözüm yaşı, car oldu,*
*Dağıldı dövlətim, tarü-mar oldu,*
*Atını duzəxə sal innən belə!* (33, 37-38).

Cəllad Tahiri öldürməyə aparır və bu dəm külafirəngidən Zöhrə ölümə gedən sevgilisini görür. Onlar Tahirlə şeirlə xəbərləşirlər və bu baxımdan söylənilən səhnədə emosionallığın gücləndirilməsi, ruhani-poetik təsir gücü ancaq şeirlərin sayəsində alınmış olur. Başqa sözlə qəhrəmanın belə «cəzalandırılması» dastan süjetləri üçün səciyyəvidir və dinləyici də belə «cəzaları» ənənəvi prizmadan qəbul edir. Ancaq qəhrəmanların şeirlə söyləşmələri burada səhnənin təsir gücünü görünməz şəkildə artırır. Əgər nəzərə alsaq ki, praqmatika baxımından bunlar dastançı-dinləyici məqamına aiddir, yəni aşıq bunları sazın müşayiəti ilə oxuyur, onda təsir gücünün ekspressivlik dərəcəsi öz apogeyinə çatmış olur və dinləyici Tahirin və Zöhrənin kədərini canlı qəbul etmiş olur. Nəzərə almalıyıq ki, dastan qəhrəmanları danışmaqdan daha çox şeirləşirlər. Bu baxımdan emosional-ekspressiv təsirin əsas ağırlıq kütləsi dastanın lirik layında hasilə gəlir. Bu mənada Tahirin yuxarıdakı şeirindəki kədəri dinləyici «mexaniki», yaxud «statik» kədər kimi qəbul etmir, əksinə, həmin kədəri Tahir və Zöhrə ilə birgə yaşamalı olur.

Ölümə gedən Tahir öz yarına üz tutur, onunla vidalaşır, ayrılıq hissi nə qədər güclü olsa belə, sevgilisini Allaha tapşırır. Bu, fərdi sevgi cizgisidir.

Başqa sözlə, bu «tapşırmanın» daha harada belə işlədilə bilinməsindən asılı olmayaraq, indiki halda belə bir tapşırma dinləyici yaddaşında Tahirin məhz Aşiq obrazını bütün emosionallıq boyaları ilə həkk etmiş olur.

«Əsli-Kərəm» dastanında Kərəm qəriblik, təklik, fəraq əlindən cəzana gəlir və deyir:

*Qəlbi havaynan uçarsan,*
*Endirəydim, könül, səni,*
*Budaq-budaq gül dalına,*
*Qonduraydım, könül səni...* (33, 118).

Dastanda Kərəmin dediyi bu səkkiz bəndlik gəraylı sevən Aşiqin emosional-ruhani obrazının açılışı baxımından çox səciyyəvidir. Məsələ burasındadır ki,bütöv dastan, eləcə də digər məhəbbət dastanları obrazları məhz onların daxili, fərdi, psixoloji cizgiləri baxımından səciyyələndirən şeirlərlə zəngindir. Başqa sözlə, Azərbaycan məhəbbət dastanlarındakı şeirləri sadəcə nəzm kimi qəbul etmək mümkün olmur. Dastanların sadəcə nəzmlə nəsrin növbələşməsindən ibarət olması haqqındakı fikir filologiyada artıq ümumiləşmiş hökmdür. Bu, əslində də belədir. Ancaq buradakı nəzm bizim Altay, Yakut və s. dastanlarında gördüyümüz nəzm deyildir. Məsələn, həcmcə dünyanın ən nəhəng dastanı olan «Manas» başdan-ayağa nəzmdən ibarətdir. Ancaq bu nəzmin poetik göstəriciləri ilə Azərbaycan məhəbbət dastanlarındakı nəzmin poetik göstəriciləri fərqlidir. Belə ki, «Manas»da bütün hadisələr nəzmlə-şeirlə nəql olunur. Yəni bu, qafiyəli nəzm, qafiyəli təhkiyədir.

Təbii ki, burada da əski türk şeirinin poetik gözəlliyi inikas olunur. Ancaq Azərbaycan məhəbbət dastanlarındakı nəzm qafiyəli təhkiyə, şeirlə nəql olunan süjet yox, kamil şeir parçalarıdır. Məsələn, Kərəm yenə həmin gəraylıda deyir:

*...Dərdli Kərəm qan ağlayır,*
*Ürəyin çarpaz dağlayır,*
*Yaz, baharı yas saxlayır,*
*Güldürəydim, könül, səni* (33, 118).

Bu şeir artıq qafiyəli nəzm yox, orta əsrlər yazılı ədəbiyyatının bütün poetik kanonları əsasında qurulmuş bədii incidir və bu mənada bu şeirin nəzm göstəriciləri ilə «Manas» şeirinin nəzm göstəriciləri ayrıdır. Biz burada məhz Azərbaycan orta əsrlər poeziyası üçün normativləşmiş şeirlə qarşılaşırıq. Məsələnin bütün mahiyyəti də elə buradadır (baxmayaraq ki, məhəbbət dastanlarının lirik layının poetik özünəməxsusluğunun araşdırılması növbəti fəslimizin predmetidir, ancaq burada məsələ məhəbbət dastanı obrazının özünə-məxsusluq göstəricilərinin formalaşmasında dastan strukturunun lirik layının oynadığı rola diqqət verilir).

Dediyimiz kimi «Kitabi-Dədə Qorqud» mətnində şeir məsələsi mübahisəlidir. Bu baxımdan dastanın müxtəlif nəşrlərində bəziləri dastan qəhrəmanlarının dilindən deyilənləri şeir, bəziləri isə sadəcə qafiyəli nəsr sayırlar. Bütün bunlardan asılı olmayaraq «Kitabi-Dədə Qorqud» da şeirin olması mübahisə doğurmur. Məsələn, Beyrək Banu Çiçəyə deyir:

*Beyrək gedəli Bam-bam təpə başına çıqdınmı, qız?!*

*Qarılatıb dört yanına baqdınmı, qız?!*
*Qarğu kibi qara saçın yoldınmı, qız?!*
*Qara gözdən acı yaş dökdinmi, qız?!*
*Küz alması kibi al yanağın yırtdınmı, qız?!*
*Sən ərə vararsan, altun yüzük mənimdir, ver mana, qız!* (76, 65).

«Kitabi-Dədə Qorqud» parlaq şəkildə göstərir ki, dastanın mətni nəsrlə nəzmin növbələşməsinə əsaslanır. Ancaq bunun differensiasiya sərhədləri hələ yayğın olduğu üçün mübahisələr doğurur. Burada önəmli olan odur ki, «Kitabi-Dədə Qorqud»dakı şeir məhz oğuz poetikasının qayda-qanunlarına tabe olan şifahi şeirdir. Düzdür, orta əsr məhəbbət dastanlarındakı şeir istinasız olaraq türk oğuz poetikası əsasında təşəkkül tapıb yaranmış şeirdir. Ancaq bu şeir güclü şəkildə yazılı ədəbiyyatın təsiri altındadır. Bu məhəbbət dastanlarının obraz özünəməxsusluğunun müəyyənləşdirilməsi bizdən diqqəti həmin şeirin formal əlamətlərinə yox, yazılı ədəbiyyatla təsirləşmə sahələrinə yönəltməyi tələb edir.

Orta əsr məhəbbət dastanlarımızdakı şeir yazılı ədəbiyyatdakı heca şeirindən təcrid olunmuş halda deyil. Bu dövrdə artıq Qazi Bürhanəddindən, yəni XIV əsrdən başlayaraq xalq şeiri yazılı ədəbiyyatda özünə möhkəm kök salır. Bu baxımdan aşıq şeiri ənənələri yazılı ədəbiyyata nüfuz edir. Məsələnin bütün mahiyyəti də bununla bağlıdır. Xalq şeirinin həm yazılı ədəbiyyatda, həm də şifahi aşıq şeirində eyni zamanda mövcud olması yazılı ədəbiyyat şeirinin

qəhrəmanı olan lirik obraz cizgilərinin aşıq şeirindəki lirik qəhrəmanın obraz cizgilərinə təsir etməsi ilə nəticələnir. Bu mənadə xalq şeiri aşıq şeiri ilə əruz şeiri arasında körpü rolunu oynayır və bu «körpüdən» yazılı ədəbiyyat şerinin normativləri əsasında yaranan lirik obrazın cizgiləri aşıq şeirinə, o cümlədən dastan şeirinə keçir.

Yazılı ədəbiyyat şeirinin obrazları emosial-hissi , psixoloji-ruhani cəhətdən çox qüvvətli obrazlardır, yəni bu şeirlərdə qəhrəmanın lirik obrazı bütün poetik parlaqlığı ilə özünün ifadəsini tapmış olur. Bu cəhəti dastan şeirində də görürük. Dastan şeirində də dastanın obrazları mənəvi cəhətdən tam açılmış olurlar. Dastan süjeti bu baxımdan statikdir. Yəni dastanın təhkiyə hissəsi dastan qəhrəmanlarının iç dünyasına düşməyə az imkan verir. Burada hər şey qəliblər, formullar şəklindədir. Qəlib və formulların mahiyyətində duran sxemçilik obrazları fərdi, emosional, psixoloji, ruhani cəhətdən səciyyələndirməyə çox az yer qoyur. Bu mənada dastan obrazları süjetdə açıla, fərdiləşmə, iç dünyası, duyğu və düşüncələri baxımından görünə bilmir. Buna süjet statizmi imkan vermir. Əvəzində isə süjetin obrazlara gətirdiyi statizm dastan şeirində sanki kompensasiya olunur. Başqa sözlə desək, dastan statizmi dastan obrazlarını nə qədər «sıxır», «qəlibə salır», fərdiləşməyə, özü olmağa imkan vermirsə, dastanın lirik layı obrazlara bütün dinamizm imkanları boyunca «açılmağa», özlərini bütün mənəviyyatları boyunca «ortaya qoymağa», «nümayiş etdirməyə» imkan

yaradır.

Belə bir özünəməxsus faktoru cəsarətlə qeyd etmək lazımdır ki, orta əsrlərdə yaşayıb-yaratmış Qurbani, Abbas Tufarqanlı, Xəstə Qasım, Abdalgülablı Valeh kimi sənətkarlarımız öz poeziya qüdrətləri baxımından yazılı ədəbiyyatın qüdrətli sənətkarlarından qətiyyən geridə qalmırlar. Burada belə bir cəhətə xüsusi fikir verilməlidir ki, Azərbaycan aşıq sənətkarları şifahi, folklor sənətinin nümayəndələri kimi Orta Asiya, Altay, yakut folklor sənətkarlarından həddindən artıq fərqlənirlər. Azərbaycan sənət mühitinin spesifikası şəraitində folklor şeirimizin nümayəndələri bütün poetik keyfiyyət parametrləri üzrə yazılı ədəbiyyat sənətkarları ilə bir sırada dayanırlar. Bunun bircə motivi var. Ona görə ki, Azərbaycanın istər yazılı, istərsə də şifahi şeir baxımından çox güclü poetik ənənələri olmuşdur və bu ənənələr heç vaxt bir-birindən təcrid olunmamışdır. Xüsusilə orta əsrlərdə yazılı ədəbiyyatın lirik qəhrəman normativləri aşıq şeirinə nüfuz etmişdir. Beləcə də XVI əsrdən başlayaraq Azərbaycan poetik məkanında xalq şeirinin yazılı ədəbiyyata bütün səviyyələrdə təsiri başlanmış və bu proses Xətai şeirində normativləşmiş və artıq Vaqifə çatanda dominant mövqeyə keçmişdir. Bütün bunlar qarşılıqlı təsirlərdir və məhəbbət dastanı obrazlarının dinləyici tərəfindən canlı, real, həyati qəbul olunması və ümumiyyətlə məhəbbət dastanı obrazlarının bütün özünəməxsusluğu bununla bağlıdır. Beləliklə, məhəbbət dastanlarının epik layı statik formul-qəliblərə əsaslanmaqla epik ənənələrin davamı kimi ortaya çıxırsa, dastanın lirik hissəsi dinamik,

mütəhərrik olaraq dəyişmələrə həssaslıq göstərmişdir. Elə bu «həssaslığın» nəticəsində də dastan obrazları lirik layın hesabına statizm və dinamizmi özündə qovuşduran özünəməxsusluq kəsb etmişdir. Lakin burada dastan poetikası baxımından incə bir məqamı nəzərə almaq lazımdır. Belə ki, dastanın epik və lirik hissələrinin statizm və dinamizm işarələri baxımından özünəməxsusluq kəsb etməsi heç də Total Mətnin sistemlilik avtonomiyasına təsir etmir. Əksinə məhəbbət dastanı bir Total Mətn kimi özünün bütün struktur-semantik özünəməxsusluqlarını bu cəhətdən daha bariz nümayiş etdirir.

Dedik ki, məhəbbət dastanının süjeti statikdir, lirik layı isə dinamik. Lakin məsələ burasındadır ki, nə statizmlə dinamizm, nə də onların təzahür sahələri olan epik layla lirik lay məhəbbət dastanının poetik məkanında bir-birilə qarşıdurma yaratmır. Bu qarşıdurma dastanın heç bir poetik səviyyəsində ümumiyyətlə yoxdur. Əksinə, dastanın nəzm və nəsr hissələri bir-biri ilə üzvi qovuşmada, bir-birini tamamlamadadır. Bu baxımdan dastanın epik layının ənənə statizmini qoruması, lirik layının isə dinamikaya həssas olması Total Mətnin daxili özünəməxsusluğu kimi təzahür edir. Yəni statiklik də, dinamiklik də Total Mətndə birləşir və bu statizm və dinamizm Total Mətnin xassələri kimi özünü göstərir. Başqa sözlə demiş olsaq, məhəbbət dastanı mətnində nə statizm, nə də dinamizm mütləqləşə bilmir. Onların bütün təzahür praporsiyası Total Mətnin öz struktur məntiqi ilə müəyyənləşir. Elə bu baxımdan dastan mətnində

mütləq statizm, yaxud mütləq dinamizm yoxdur. Mütləq olan Total Mətnin özüdür. Statizm və dinamizm isə Total Mətnin keyfiyyətləridir.

Beləliklə, məhəbbət dastanı obrazları özünəməxsusluqları ilə epik sıranın digər janır statuslu obrazlarından seçilirlər. Onlara bu «xüsusiliyi» gətirən obrazların keyfiyyət cizgilərində müəyyənləşdirici rol oynayan statizm və dinamizmdir. Bu statiklik məhəbbət dastanı obrazlarını standart, ölçülü qəliblərə bağlayır. Dinamizm isə həmin formullara, qəliblərə özünəməxsusluq, fərdilik, canlılıq gətirir. Bunun isə qaynağı Azərbaycan ədəbi düşüncəsinin özünəməxsusluq tarixi ilə bağlıdır. Aşıq poeziyasının Azərbaycan ədəbi, sənət düşüncəsi poetik məkanında yazılı poeziya ilə güclü qarşılıqlı təsirlərə malik olması məhəbbət dastanı obrazlarının statiklikdən azad olmasına, lirik şeir məkanı hesabına fərdiləşməsinə, fərdi, canlı, təkrarolunmaz obraz cizgiləri kəsb etməsinə gətirmişdir. Bu xüsusda onu da qeyd etmək lazımdır ki, məhəbbət dastanı obrazlarının belə canlılığı, reallığı, yaşarlılığı istisnasız olaraq obrazlar qalereyasının bütün pillələrinə aiddir. Yəni məhəbbət dastanlarında Aşiq də Məşuq da, Ana da, Çoban da, Keçəl də, bütün antoqonistlər də canlı obrazlar təsiri bağışlayır. Bu, məhəbbət dastanlarının obrazlar səviyyəsində özünəməxsus poetika göstəricisidir.

Məhəbbət dastanlarının obrazlar qalereyası zəngin olmaqla həm də dəqiq daxili təsnifat strukturuna malikdir. Bu dəqiq klassifikasiya məhəbbət dastanlarının arxestrukturu, onun şifahi

mətn olması ilə bağlıdır. Folklor obrazları bütün canlılıq keyfiyyətlərindən asılı olmayaraq öz arxestrukturlarında konkret funksiyaların daşıyıcılarıdır. Elə bu cəhətdən də məhəbbət dastanlarında da obrazlar sisteminin dəqiq funksional strukturu var. Elə buna görə də məhəbbət dastanları obrazlarını konkret semantikaları baxımından şərh etməzdən əvvəl onlara məhz dastanın Total strukturundakı mövqeləri, funksiyaları baxımından ümumi bir nəzər salmaq lazım gəlir.

İstər məhəbbət dastanları, istərsə də ümumiyyətlə dastanların obrazlar sistemi iki qarşı duran obrazın ətrafında təmərküzləşir: qəhrəman və onun antoqonisti. Antoqonist elmdə antiqəhrəman da adlandırılır. Bunun necə adlanmasın-dan asılı olmayaraq xüsusilə arxaik epik tekstlərdə qəhrəman və antiqəhrəmanın semantik sahələri və bu sahələri təşkil edən, dolduran obrazlar çox aydın şəkildə görünür. Eləcə də məhəbbət dastanlarındakı obrazlar üçün konsentrasiya mərkəzləri qəhrəman və antiqəhrəmandır. Bu antitez əskilərə doğru aşağıdakı semantik qarşıdurmaları simvollaşdırır:

| **QƏHRƏMAN** | **ANTİQƏHRƏMAN** |
|---|---|
| Kosmos | Xaos |
| Yaxşı | Yaman |
| Gözəl | Çirkin |
| Göy | Yeraltı |
| Yer | Yeraltı və s. |

Paradiqmanı davam etdirmək olar. Ancaq indiki halda bu paradiqma məhəbbət dastanları obrazlarının semantik təmərküzləşmə qütblərini görməyə aydın imkan yaradır. Bu baxımdan bütün obrazlar Qəhrəman və Antiqəhrəman pozisiyasında təsnif edilirlər. Süjet məkanı baxımından Qəhrəmanın tərəfdarları onun semantik məkanında, Antiqəhrəmanın tərəfdarları isə onun məkanında cəmləşir.

Qəhrəmanın semantik məkanına birinci növbədə onun özü-Aşiq, sevgilisi-Məşuq daxildir. Sonrakı obrazlar dastanın gedişindən asılı olur. Bu baxımdan göbəkkəsmə nişanlı qəhrəmanın sevgilisinin atası Antoqonist-Antiqəhrəmandır. Dastan surətləri müxtəlif dastanlarda müxtəlif funksiyalı obrazlar təqdim edə bilir. Yəni müxtəlif obrazlar gah qəhrəmanın, gah da Antiqəhrəmanın semantik sahəsinə daxil ola bilirlər. Bu baxımdan konkret obrazların haçan hansı semantik sahəyə aid olmaları bir qədər irəlidə ayırd ediləcək. Konkret olansa budur ki, burada statizm olsa da, ona dəyişkənlik də xasdır. Yəni məhəbbət dastanları bizə Mərd çobanı da, Namərd çobanı da təqdim edə bilər. Yaxud dastanlarda məşhur bir ifadə var: «qarılar cürbəcür olur: ipək qarılar, köpək qarılar» və s. Bu baxımdan məsələyə yanaşma indiki halda belədir ki, məhəbbət dastanlarındakı obrazlar istisnasız olaraq iki düşərgəyə aid olunurlar: qəhrəmanın və antiqəhrəmanın düşərgələri. Qeyd olunmalıdır ki, məhəbbət dastanının poetik sahəsində

neytral obrazlar yoxdur və bu, məhəbbət dastanının məhz epik folklor olmasının göstəricisidir. Folklor qəhrəmanı və antoqonosti tanıyır. Bu iki obraz arasında mütləq xarakterli üçüncü obraz yoxdur. Yəni qəhrəmanla antoqonist arasında hər iki semantik sahəni əlaqələndirən obrazlar-mediatorlar var. Ancaq mediatorlar bütün hallarda mediasiya, yəni əlaqə yaratma işi ilə məşğul olurlar. Onlar obrazlar qalereyasının üçüncü müstəqil semantik qütbünü təşkil edə bilmirlər.

Məhəbbət dastanlarının baş qəhrəmanları Aşiq və Məşuqdur. Maraqlıdır ki, məhəbbət dastanları bu baxımdan ikiqəhrəmanlı dastanlardır və bu, onları differensial əlamətlərdən biri kimi qəhrəmanlıq dastanlarından da fərqləndirir. Belə ki, qəhrəmanlıq dastanlarının adları, aparıcı obrazın, yəni baş qəhrəmanın adı ilə ifadə olunur. Məsələn, «Koroğlu», «Qaçaq Nəbi», «Qaçaq Kərəm» və s. Məhəbbət dastanlarının adında isə çox vaxt hər iki qəhrəmanın adı işarələnir: «Abbas-Gülgəz», «Əsli-Kərəm», «Tahir-Zöhrə», «Valeh-Zərnigar», «Soltan-Qəndab» və s.

Məhəbbət dastanlarının hamısı hər iki qəhrəmanın adı ilə adlanmır: «Qurbani», «Qul Mahmud», «Aşıq Qərib», «Xan Çoban» və s. Ancaq bu cəhət məhəbbət dastanlarının ikiqəhrəmanlı dastanlar olmasına qətiyyən təsir etmir. Belə ki, məhəbbət dastanlarının hər iki qəhrəmanının (Aşiq və Məşuq), yaxud yalnız Aşiqin adının dastanın adı kimi işlənməsindən asılı olmayaraq məhəbbət dastanları ikiqəhrəmanlıdır.

Məhəbbət dastanları qəhrəmanlarının (Aşiq və Məşuq) süjetin fiziki çəkisində iştirakları qeyri-bərabərdir. Ancaq bu dispraporsiya qəhrəmanların süjetdə semantik məna yükü baxımından aradan qalxır. Bu baxımdan hər iki qəhrəmanın funksional semantika yükü bərabərdir. Ona görə də məhəbbət dastanının yalnız qəhrəmanın, yaxud qəhrəman və onun sevgilisinin adı ilə adlanması o qədər də əhəmiyyət kəsb etmir. Xüsusilə sufi-irfani boyalarla süsləndirilmiş məhəbbət dastanlarında bu cəhət heç bir önəm daşımır. Belə ki, vəhdəti-vücuda görə, ilahi məhəbbətin ali instansiyasını Gözəl-Məşuqə obrazında təcəlla etmiş İlahi ilə vüsal təşkil edir. Aşiq ali substansiya ilə qovuşaraq onda «əriyir», vahidləşir, «birləşir». Bu baxımdan məhəbbət dastanlarının altında Aşiqin adının çəkilməsi onların hər ikisini ehtiva edir. Qəhrəmanlıq dastanları ilə müqayisədə bu, daha yaxşı üzə çıxır. Qəhrəmanlıq dastanları sufi-irfani boyadan qıraqda olmaqla əski folklor dünyagörüşünün bir sıra önəmli parametrlərini ilkin formalara yaxın şəkildə qorumaqda davam edir. Belə ki, folklor dünya modelinə xas düşüncədə olduğu kimi, obyektiv aləmin fiziki, görüntülü, maddi tərəflərin, bədii obrazı bədii-poetik məntiqin əsası olaraq qalır. Başqa sözlə demiş olsaq, bu dastanlarda məhəbbət dastanlarında qarşılaşdığımız təsəvvüfi simvollaşdırma, poetik-fəlsəfi mücərrədləşdirmə yoxdur. Bu baxımdan qəhrəmanlıq dastanlarının onun, doğrudan da, şəksiz olaraq qəhrəmanı olan baş qəhrəmanının adı ilə adlandırılması bədii reallıq

olduğu qədər fiziki reallıqdır. Yəni qəhrəmanlıq dastanlarının, doğrudan da, bir qəhrəmanı var və onun dastanın adına çıxarılmış adı simvolsuz, mücərrədləşdirməsiz şəkildə yalnız onun özünü işarələndirməkdə davam edir. Lakin məhəbbət dastanlarında belə deyil. Məhəbbət dastanlarında Aşiq obrazı özündə Məşuqu, məşuq isə Aşiqi ehtiva edir. Burada hansının süjetdə fəal görümünün əhəmiyyəti az olur. Təbii ki, ənənəvi olaraq biz fiziki-dinamik funksiyaları Aşiqdə görürük. Biz onun hərəkətləri boyunca reallaşan süjeti izləməli oluruq. Bu mənada məhəbbət dastanı süjetində daha çox Aşiqin hərəkətləri təsvir olunur. Ancaq fiziki planda daha çox fəallıq Aşiqə mənsub olmasına baxmayaraq, burada Məşuqun təsəvvüfi dinamikası daha güclüdür.

Məşuq Allahı simvolizə edir. Aşiq onun simasında İlahi başlanğıca aşiqdir. Bu mənada Aşiqin hərəkətlərinin semantik yükü məşuqdan gəlir. Məsələnin bu cəhəti bütün hallarda (dastanının istər Aşiqin adı ilə, istərsə də Aşiq və Məşuqun adı ilə adlandırıldığı hallarda) məhəbbət dastanını ikiqəhrəmanlı mətnlər edir.

Beləliklə, məhəbbət dastanının iki baş qəhrəmanı olur: Aşiq və Məşuq (qəhrəman və sevgilisi). Bu qəhrəmanların süjetin fiziki çəkisində dinamik fəallıqları bərabər gəlməsə də, onlar semantik planda bərabər yüklü obrazlardır. Birinci fəsildə gördük ki, məhəbbət dastanı poetikasında baş qəhrəman obrazlarının özünəməxsusluğu hər şeydən öncə Aşiqin və Məşuqun doğuluşunun adi ölçülərdən qırağa

çıxması, semantik cəhətdən mifoloji-irfani dəyərlərlə hədsiz yükləndirilməsi ilə əlamətdar olur. Gördük ki, məhəbbət dastanlarındakı bu doğuluş tipoloji genetik aktlar olaraq arxebazadan-məhəbbət dastanlarının qaynaqlaşdığı türk epik-mifoloji mətnlərindən gəlir. İrfani-təsəvvüfi yük isə orta əsr düşüncəsinin dastandakı adekvat məhsuludur. Orta əsr məhəbbət dastanları obrazlarına əski əsatiri-epik ənənələrlə təsəvvüfi-irfani düşüncənin bu cür qovuşması təsadüfi deyildir. Dastan (məhəbbət dastanı) bu mənada açıq mətn kimi görünür və ənənə ilə gələn mühafizəkar statizminə baxmayaraq, həm də dinamik dəyişikliklərə həssasdır. Bu da, V.İ.Basilovun yazdığı kimi, dastan təfəkkürünün sinkretik mahiyyətli olmasından, əski mifoloji qatlardan tutmuş, yaşamaqda olan folklor və etnoqrafiya ənənələrinə qədər ən müxtəlif qat və istiqamətlərin özünəməxsus birləşdiricisi və yaşadıcısı olmasından (133, 121) irəli gəlir.

Möcüzəli doğuluş qəhrəmanı (qəhrəmanları) status baxımından məhəbbət dastanının başqa qəhrəmanından fərqlənir. Birinci fəsildə gördük ki, möcüzəli doğuluş əskilərdən gəlməklə sonradan daha mürəkkəb şəkillərə transformasiya etmişdir. Belə qeyri-adi doğuluş köbəkkəsmə motivli məhəbbət dastanları üçün səciyyəvidir. Bütövlükdə götürdükdə X.Koroğlunun göstərdiyi kimi, qəhrəmanın qeyri-adi doğuluşu, sehirli və ya möcüzəli qüvvələrin yardımı ilə dünyaya gəlişi tipoloji bir motiv kimi dünya xalqlarının əksəriyyətinin folklor yaradıcılığında rast gəlinən bir məsələdir (163, 69-71). Konkret olaraq

dastan qəhrəmanlarına gəlincə, türk tədqiqatçısı Qəfəsoğlunun göstərdiyi kimi, bu, həm qəhrəmanlıq-bahadırlıq, həm də məhəbbət dastanları üzrə ümumtürk folklor arealında geniş yayılmış bir motivdir (117, 320). Lakin birinci fəsildə bundan geniş şəkildə danışdığımız üçün biz yalnız obrazın ali statusu ilə bağlı olduğunu vurğulamaqla yetərlənməli oluruq.

Baş qəhrəmanın məhəbbət dastanının başqa obrazların-dan başqa bir fərqi də yenə də elə doğuluşla bağlıdır. Bu, qurbanvermədir. Bunun da əski türk epik ənənələri ilə bağlı semantikasına birinci fəsildə enildi. Müəyyənləşdirildi ki, əski mifoloji-epik ənənədə bunun müxtəlif formaları vardır. Yaxud S.Tokarevdən göründüyü kimi, bu, öz genetik kökləri ilə şaman ayin və duaları ilə qaynaqlaşır (201, 121-124).

Beləliklə, məhəbbət dastanının baş qəhrəmanı nəzir-niyazla, qurbanvermə ilə doğulur və bu doğuluş adi yolla baş vermir. Buraya qeyri-adi qüvvələr müdaxilə edir. Həmin qüvvələr dastan qəhrəmanlarının doğuluşunu ilahinin təqdiri kimi reallaşdırırlar. Bu mənada əski dastan ənənəsində qeyri-adi statusla doğulan qəhrəman obrazında olduğu kimi, məhəbbət dastanının nəzir-niyaz, qurbanla doğulan qəhrəman-ları da qeyri-adi statuslu olurlar. Birinci fəsildə dedik ki, bizim müşahidəmizə görə qəhrəmanın möcüzəli doğuluşu da buta kompleksinə daxildir. Belə olduqda Butanın Tale semantemi ilə bağlı olması daha doğrusu, talenin simvolu kimi çıxış

etməsi məsələyə aydınlıq gətirmiş olur. Nəzir-niyazla, qurbanvermə ilə doğulmuş qəhrəmanlar yer üzünə ilahi missiyalı taleyin daşıyıcıları kimi gəlirlər və bu, onların bütün sonrakı taleyini də müəyyənləşdirmiş olur. Doğulmuş oğlan və qız göbəkkəsmədəki göbəkləri kəsildiyi andan nişanlanırlar. Bu, butavermə ilə eyni semantikaya bərabərdir. Elə buna görə də nəzir-niyazla doğulmuş oğlan və qızın bir-birinə buta verilmələrinin qeyri-adi doğuluş motivli dastanlarda olmaması onların strukturunu, birinci fəsildə gördük ki, buta kompleksindən qıraqda qoymur. Elə buna görə də nəzir-niyazla doğulmuş qəhrəmanların gələcək taleyi də buta almış qəhrəmanların sonrakı taleyi ilə ekvivalent semantikaya malik olur. Bu baxımdan istər qeyri-adi yolla doğulmuş, istərsə də öz sevgilisini qeyri-adi yolla (butavermə) tapmış baş qəhrəman obrazları bütün mövcud və arxebazaları ilə qeyri-adi statuslu olurlar. Onlar həm qəhrəmanlıq dastanlarından gəlmə ənənə ilə, həm də sonrakı təsəvvüfi-irfani ənənələrin təsiri altında bütün parametrləri üzrə adi insanlardan fərqli obrazlardır.

Birinci fəsildə məhəbbət dastanlarının strukturu aydınlaşdırılarkən gördük ki, möcüzəli doğuluş motivi yoxdur. Deyildi ki, istər butavermənin, istərsə də göbəkkəsmənin məhəbbət dastanlarında semantik çəkisi eyni olur. Ona görə ki, hər ikisi məhəbbət dastanlarında İlahi Tale, İlahi Arzusu kimi reallaşdırılır. Görkəmli alim O.Freydenberq yazırdı ki, əski mifoloji düşüncə belə bir inam formalaşdırmışdır ki, alqış-dua ruhlar aləminə-tanrı dərgahına yetişdiyində

onun nəticəsi olur (209, 202). Bu xüsusda tədqiqatçı K.V.Çistovun şərhi də səciyyəvidir. O yazır ki, mifoloji səciyyəli möcüzəli vasitə qəhrəmanın qeyri-adi şərait-situasiyada doğuluşunu şərtləndirir ki, bu da folklor təfəkkürü qanunlarına görə onların gerçəklik adamlarından seçilməsinə təminat verir (211, 197).

Beləliklə, məhəbbət dastanının istər nəzir-niyazla (möcüzəli doğuluş motvi) doğulmuş, istərsə də möcüzəli doğuluşu təsvir edilməyib buta alan qəhrəmanları bir obraz kimi öz semantik yüklərinin dəyəri baxımından dastanan adi statuslu obrazlarından seçilirlər. Bu baxımdan məhəbbət dastanlarında iki tip baş qəhrəmanlar var. Birincisi, nəzir-niyazla, qurbanla doğulan, köbəkkəsmə ilə nişanlanan qəhrəmanlar. İkincisi, doğuluşları təsvir edilməyən və bir-biri ilə butavermə ilə nişanlanan qəhrəmanlar. Hər iki tip qəhrəmanlar silahlı, güclü, əllərində hakimiyyət olan rəqiblərinə sazın, sözün, əslində isə bunlar vasitəsilə reallaşan haqqın köməyi ilə qalib gəlirlər. Diqqət verilsə, belə bir tezisi hökmləşdirmək lazım gəlir ki, məhəbbət dastanları mənəvi güclə maddi gücün döyüşünü və birincinin ikinci üzərində qələbəsini təsdiq edir. Məhəbbət dastanlarının orta əsrlərdə təsəvvüfi-irfani görüşlərlə süslənmənin nəticəsi olaraq ortaya çıxdığını qəbul etsək, onda burada Sözlə Zorun döyüşünün olduğunu ən azı nəzəri şəkildə qəbul etməliyik. Diqqət edək.

Məhəbbət dastanının buta almış qəhrəmanları dərhal öz sevgilisinin ardınca səfərə çıxırlar. Onları bu

yoldan heç kəs, nə sevdikləri valideynləri, nə doğma yurd, bir sözlə heç kəs və heç nə saxlaya bilmir. Qəhrəmanlar onları bu yoldan əngəlləmək istəyənlərə başa salırlar ki, onlar ilahidən buta alıblar və bu yoldan dönə bilməzlər. Başqa sözlə, indi onlar haqq-Allah yolunun yolçularıdır. Bu baxımdan məhəbbət dastanının Aşiq qəhrəmanlarına görünməz bir inad hakimdir. Onlar heç nədən və heç kimdən qorxmadan öz məqsədlərinə doğru addımlayırlar. Maraqlıdır ki, insanlar üçün qorxulu olan heç bir şeydən onlar qorxmurlar. Zəhər quyusundan salamat çıxırlar, cəllad baltasından möcüzəli şəkildə xilas olurlar, uzun, ölümcül yolu «bir göz qırpımında» qət edib məqsədlərinə çatırlar. Bunlar adi insanın fiziki gücü çərçivəsində deyildir. Bütün bu gücü, bu qüvvəni, bu qabiliyyətləri onlar İlahidən buta almışlar. Buta İlahidən gəlmə Taledir. Bu baxımdan Allah dünyanın yaradıcısı kimi öz bəndəsinə seçim edir və onu öz missiyasının yolçusuna çevirir. Məsələnin mahiyyəti də bununla bağlıdır. Allah dünyanı sözlə yaradıb. Bir dəfə «Kon» («Ol») deyib və dünya da yaranıb. Beləliklə, dünya-yaradılış Allahın iradəsinin Sözdən əmələ gəlmiş törəməsidir. Dünyanın başlanğıcında İlahi Söz durur və məhəbbət dastanlarının Aşiq qəhrəmanlarının bütün gücü, qüvvəsi də elə bu Sözdədir. Onlar söz demək, şairlik qüdrəti almışlar. Bu, adi bir qüdrət deyil. Onların dedikləri sözlər ilahi mətləblərin ifadəsidir. Heç təsadüfi deyil ki, ən çətin sınaqlarda ilahi butasını onlara verən Aşiqlərin könüllərinə gəlir, daha doğrusu könüllərini ilahi sözlə doldurur və Aşiqlər də bütün

hallarda həmin ilahi sözlərin hesabına qalib gəlirlər. Bu baxımdan Aşiqlərin silahı Sözdür və bu söz də adi söz olmayıb, onlara buta ilə verilən İlahi Sözüdür. İlahi sözünün qabağında dünyanın heç bir maddi gücü dayana bilməz. Ona görə ki, dünya və onun üstündə bərqərar olan bütün varlıqlar yaradılmışdır. Bu yaradılışın səbəbi isə İlahi Sözüdür. Aşiq də İlahidən gəlmə Sözlə silahlanıb. Deməli, burada döyüş şərti planda yaradan obyektlə (Sözlə) yaradılmış obyektlərin (Aşiqə qarşı duran şər qüvvələr) arasındadır və təbii ki, Sözün və beləliklə, həmin sözlə silahlanmış Aşiqin qalib gələcəyi qabaqcadan aydındır.

Aşiq və Məşuq bütün məhəbbət dastanlarında ilahi qüdrətinin daşıyıcılarıdır. Ancaq bu, Aşiqin simasında daha aydın görünür. Bunun səbəbi var. Məsələnin bu cəhətinə diqqət edək. Butavermə motivli dastanlarda Aşiq qəhrəmana buta verildiyi təsvir olunur və dastan mətnlərinin ümumiləşdirilməsindən bəlli olur ki, hər iki qəhrəman eyni zamanda buta alır. Məsələn, «Aşiq Qərib» dastanında təsvir edilir:

«Rəsul yatmışdı, yuxuda gördü ki, Tiflis şəhərində behişt misallı bir bağdadır, bunun başının üstündə ceyran misallı bir qız, qaş kaman, gözlər piyalə, burun hind fındığı, sinə Səmərqənd kağızı, məmələr şamama kimi yumrulanıb ipək köynəkdən baş vermişdir, baxanın əqlini aparır. Bu qızın yanında bir dərviş, dərviş qızın əlini Rəsula uzadıb:

- Rəsul, bu qız Tiflisli Xacə Sənanın qızı Şahsənəmdir, bunu sənə buta verirəm, çox çəkməz bir-birinizə çatarsınız,-deyib çəkildi» (33, 170).

Burada maraqlı olan nədir? Məsələ burasındadır ki, qəhrəmanın buta aldığı məlumdur. Buta uğrunda süjet hərəkəti baxımından Aşiq mübarizə aparır və biz Məşuqun belə bir süjet hərəkətli mübarizəsinin şahidi olmuruq. Əslində bu, bir tərfədən ənənədən irəli gəlir. Məsələn, o dövrdə belə məhəbbət dastanları üçün kamil «Aşiq-Məşuq» kompleksi olan Füzuli «Leyli və Məcnun»unda da süjet fəallığı Məcnuna məxsusdur. Bu, Nizami «Leyli və Məcnun»unda da belədir. Ancaq tutaq ki, Nizami «Xosrov və Şirin»ində belə deyil. Burada həm Aşiq, həm də məşuq süjet hərəkəti baxımından fəaldır. Beləliklə, Nizaminin bir əsərində («Xosrov və Şirin») Məşuq fəal, o birində («Leyli və Məcnun») fəal deyildir. Azərbaycan məhəbbət dastanlarında da Məşuq süjet hərəkəti baxımından az fəaldır. Başqa sözlə yazılı ədəbiyyat əski qəhrəmanlıq ənənələrindən uzaqlaşdıqca Məşuqun fəallığı azalır və onun mübarizəsi mənəvi məkanda gedir. Ancaq burada məsələnin başqa bir tərfi də vardır ki, onu da unutmaq olmaz. Bu, Azərbaycan məhəbbət dastanları qəhərmanları olan Aşiq və Məşuqun təsəvvüfi davranış koduna uyğunlaşdırılmalarıdır.

Qəhrəman öz aşiqliyini İlahidən alır. Müqəddəs güclər onunla ilahi arasında vasitəçilik edir və İlahidən gələn məhəbbəti ona çatdırırlar. Bu baxımdan onun məhəbbəti haqq aşiqliyi, başqa sözlə, haqqa aşiqlikdir. Haqq-Allah, Tanrıdır. Haqqa aşiqlik Allaha aşiqlik deməkdir. Ona isə buta verilən real qızdır. Demək bu real yer qızı, yer insanı Allahın təcəllasıdır. Qəhrəman bu qızın simasında haqqa-

Allaha aşiq olur. Bu aşiqliyin sonu isə qələbədir. Beləliklə, qəhrəman aşiqliyində məhəbbətin təsəvvüfi traktovkası bütün ifadə planları ilə qabarıqdır. Qəhrəman qızda təcəlla edən Tanrıya aşiqdir. Bu, həqiqi məhəbbətdir. Qəhrəmanın aşiq olduğu qız ilahi gözəlliyin daşıyıcısıdır. Yəni o, özü olmaqla bərabər, həm də məcazi bir insandır. Qəhrəmanın qıza yönəlmiş məhəbbəti bu baxımdan məcazi məhəbbətdir. Məşuqun məhəbbət dastanlarında süjet hərəkəti baxımından passivliyinin bir səbəbi də buradan gəlir. O, ilahi gözəlliyin daşıyıcısıdır. Buna görə də maddi məkanda yerləşmə, funksionallaşma imkanları da onun statusuna uyğundur. İlahi gözəlliyin daşıyıcısı olmaqla Məşuqə məcazi planda Allahı simvollaşdırır və bu səbəbdən aşiq onun arxasınca gəzməlidir. Allah-mütləqdir, alidir, hər şeyin fövqündədir. Bu mənada İnsan Allahın ehtiyacındadır və hər şey də məhəbbət dastanlarında bu məntiqə uyğun baş verir. Demək, Məşuqun passivliyi bir tərəfdən qadının orta əsr cəmiyyətində rolu ilə şərtlənirsə, başqa tərəfdən bu, təsəvvüfi davranış koduna uyğun roldur.

Məhəbbət dastanlarının qəhrəmanları olan aşiqlər onlara buta verilib-verilməməsindən asılı olmayaraq haqq yolunun yolçuları sayılırlar. İrəlidə dedik ki, məhəbbət dastanları ikiqəhrəmanlı mətnlərdir və istər butaverməli, istərsə də butaverməsiz dastanlarda Aşiq və Məşuqun bir-birinə olan məhəbbəti qanuni, haqqdan gələn bir məhhəbət kimi qəbul edilir. Belə ki, möcüzəli doğuluş ilə bu dünyaya

gəlib, bir-biri ilə göbəkkəsmə nişanlanan Aşiq və Məşuqla bir-birinə buta verilmiş Aşiq və Məşuqun semantik yükləri eynidir. Onlar hamısı haqq aşiqləridir. Yada salaq ki, butavermәsiz dastanlarda qəhrəmanlar öz-özünə doğulmurlar. Onların valideynləri sonsuz olurlar. Müqəddəs qüvvə-Vəli (İmam Əli, Şah Mərdan, Ağa, Xızır Nəbi-dərviş obrazlar kompleksi) Tanrı ilə onların arasında vasitəçilik edir və bu uşaqlar Allahın razılığı ilə doğulurlar. Onlar bu dünyaya uşaqlıqdan Aşiq və Məşuq kimi gəlirlər. Yada salaq ki, bu uşaqlar doğulan kimi köbəkkəsmə nişanlanırlar. Butavermə motivli dastanlarda qəhrəmanların doğumunun təsviri olmur. Onlar gənc olarkən buta alırlar. Bu vaxtadək bir-birlərini tanımırlar. Bu baxımdan butavermə ilə köbəkkəsmə ekvivalent semantikaya malikdir. Hər iki məhəbbət Allahın iradəsi kimi gerçəkləşir. Elə buna görə də biz birinci fəsildə belə bir fikir irəli sürdük ki, məhəbbət dastanlarında buta epik kompleksindən qıraqda dayanan heç bir struktur vahidi yoxdur və bu baxımdan buta kompleksi butavermə motivi olmayan belə dastanlardan başlanır. Elə qəhrəmanların möcüzəli yolla, yəni Allahın iradəsi ilə dünyaya gəlmələri və doğulan kimi bir-birlərinə nişanlanmaları ilahi məhəbbətdir. Buta ilahi sevgi vergisi olduğu kimi, Allahın iradəsi ilə doğulan uşaqların bir-birlərinə nişanlanmaları da ilahi sevgi vergisidir-butadır. Heç təsadüfi deyidir ki, göbəkkəsmə nişanlı olan qəhrəmanların sevgi taleyi eyni olur. Onlar eyni şəkildə bir-birlərindən uzaq düşürlər, eyni üsul,

vasitələrlə mübarizə aparıb bir-birlərinə qovuşurlar. Hər iki aşiq qəhrəman (buta alan, yaxud göbəkkəsmə nişanlanan) İlahidən gələn sözlə, sazla döyüşüb sevgilisinə qovuşur. Demək, qəhrəmanın necə doğulmasından asılı olmayaraq məhəbbət dastanlarının əsas kütləsində Aşiq-Məşuq kompleksi təsəvvüfi davranışın reallaşma təzahürü kimi çıxış edir.

İstər Allahın iradəsi ilə doğulan qəhrəmanlar, istərsə də Allahın iradəsi ilə buta alan qəhrəmanlar vasitəçinin köməyi ilə reallaşırlar. Yəni İmam Əli-Şahmərdan-dərviş, Xızır Nəbi, Ağa ya uşaqların doğumunda, ya da buta almalarında vasitəçi olur (onun bu vasitəçi missiyası bir qədər irəlidə araşdırılacaq. Qəhrəmanlar bütün hallarda ilahi iradəsinin reallaşdırıcısı kimi çıxış edirlər. Bu ilahi iradəsi məhəbbət dastanlarında müxtəlif formada simvollaşır.

«Aşıq Qərib» dastanında yuxuda buta almış aşıq öz haqq yuxusundan ayılandan sonra belə deyir:

*Qadir həqdən mən bir dilək dilədim,*
*Şükür muradımı verdi, ah mənim.*
*Cümə axşamında, cümə günündə,*
*Ərənlər ytrişdi nəzərgah mənim.*

*Gənc yaşımda gördüm dünya qəmini,*
*Bu zaman fələyin sərəncamını,*
*Nuş etdim röyada eşqin camını,*
*Göründü gözümə doğru rah mənim.*

*Vaqeədə Rəsula buta verdilər,*
*Doldurub camımı buta verdilər.*
*Tiflisdə Sənəmə buta verdilər,*
*İşim oldu zikri illəllah mənim* (33, 170).

Bu şeirdə dini-təsəvvüfi baxımdan bir çox vahidlərin adı keçir. Rəsul birinci bənddə açıq şəkildə diləyinin qadir həqdən-Qadir Allahdan gəldiyini bildirir. Yenə də birinci bənddə təsəvvüf üçün müqəddəslər mənasında işlədilən «ərənlər» adı çəkilir.

«Qurbani» dastanında Qurbani buta alması haqqında belə deyir:

*Bir kimsənə gəldi mənim üstümə,*
*Yazılı şəninə ya miəl-əta!*
*İmam ola, damad-Əhmədi-Mürsəl,*
*Doldurub camını eylədi əta...* (33, 209).

Göründüyü kimi, butavermə zamanı Qurbaninin üstünə gələn kimsənə İmam Əlidir. Çünki Qurbani açıq şəkildə deyir ki, o-imamdır. Əhmədi-Mürsəlin, yəni Məhəmməd əleyhissəlamın damadıdır. Bu isə Məhəmmədin (ə.) qızının əri Əlidir. Qurbaninin bundan sonra söylədiyi başqa bir şeir, onun butanı kimin vasitəsi ilə yox, məhz kimdən almasını dəqiq göstərir:

*Haqqım əmr eylədi, gəldim dünyaya,*
*Gözüm açdım, mayil oldum o burca.*
*Arif oldum, haqq kəlamın oxudum,*
*Əlif qəddim dal yazılmış o burca...* (33, 210).

Bu bənddə köbəkkəsmə nişanlı qəhrəmanlar kompleksinə tamamilə açıq olan bir aydınlıq gətirilir. Yada salaq ki, «Qurbani» dastanında həm möcüzəli

doğuluş motivi var, həm butavermə. Bu baxımdan Qurbaninin «Haqqım əmr eylədi, gəldim dünyaya» sözləri bizim birinci fəsildə qəhrəmanların doğuluş motivinin butavermənin tərkib hissəsi olması haqqındakı fikrimizi birbaşa təsdiq edir. Belə ki, biz demişdik ki, butavermə ilə nəzir-niyazla doğulma eyni semantik çəkiyə bərabərdir. Qurbaninin özü açıq şəkildə deyir ki, mən haqqın əmri ilə bu dünyaya gəlmişəm. Yəni Qurbani Tanrı iradəsinin reallaşdırıcısı kimi bu dünyaya gəlir. Bəndin ikinci misrasındakı fikir sırf təsəvvüfi mahiyyətlidir: Gözüm açdım mayil oldum o burca Qurbani burada məcazi yolla Allahı «burc» metaforası ilə ifadə edir. Ancaq burada «gözüm açdım» ifadəsi doğulmağı bildirmir. Burada doğulmaq aspekti var, ancaq bu aspekt daha dərin aspektin alt qatındadır. Burada «gözü açılmaq» bəsirət açılması anlamındadır. Diqqət edək. Qurbani deyir:

*Yatmışdım, üstümə gəldi ərənlər,*
*Səfeh, nə yatmısan, oyan dedilər.*
*Oyandım, qəfələtdən açdım gözümü,*
*Al, abi-kövsərdən iç, qan dedilər...* (33, 208).

Demək ərənlər Qurbanini yuxudan oyatmırlar. Qəflətdən oyadırlar. Nəzərə alsaq ki, Qurbaninin bütün bu oyanması məhz hüşsuzluq, yuxu içərisində baş verir, onda heç bir real yuxudan oyanmaqdan söhbət getmir. Yəni Qurbani yuxusunda «yuxudan oyadılır», ancaq bu oyanma zamanı belə o, real, fiziki yuxuda olur. Beləliklə, Qurbani qəflət yuxusundan

oyadılır və bu oyanma ilahi oyanmadır. Qurbaninin göz evi yatırsa, könül evi oyadılır.

Qurbani ona buta verən haqqında deyir:

*İsmin xəbər aldım dedi Vəlidi,*
*Göydə gəzən Cəbrayıldı, Pəridi,*
*Qapıçısı şahi-Mərdan Əlidi,*
*Məhəmməd meraca gedər o burca...* (33, 210).

Demək, Qurbaninin «mayil olduğu» burc Məhəmmədin (ə.) meraca getdiyi yerdir. Bura Allahın məkanıdır. Bəllidir ki, peyğəmbər meracda olarkən göyün doqquz qatını arxada qoyur və zamansız və məkansız bir yerə çatır. Hətta buraya Cəbrayılın da gəlməyə ixtiyarı yoxdur. Bura zamansız, cəhətsiz bir yerdir. Bu, Nizami «Yeddi gözəl»ində aydın təsvir olunub.

*...O elə bir mənzilə yetişdi ki,*
*Ondan irəli getməmək Cəbrayıla əmr olunmuşdur.*
*Öz yol yoldaşlarını yarı yolda qoyub.*
*«Mən»lik yox olan dəryanın yoluna düzəldi.*
*Nuran ərşdən daha yüksəklərə baş vurub,*
*İlahi sirrinin heybətli səhnəsinə daxil oldu.*
*Belə ki, min nur pərdəsini yırtdı,*
*Onun gözü nuru pərdəsiz gördü.*
*Cəhət gözdən itəndə*
*Cəhətsizi o cür görmək olar...* (63, 23-24).

Beləliklə, peyğəmbər, göyün doqquz qatını-maddi dünyanı arxada qoyub, qeyri maddi məkana daxil olur. Burada cəhətlər-sağ-sol, aşağı-yuxarı, arxa-

qabaq yoxdur. Peyğəmbər burada Allahı görür. O, Allahı pərdəsiz, yəni olduğu kimi görür. Bu mənada peyğəmbər işıqdan başqa bir şey görmür. Bu da təsadüfi deyildi. Merac haqqında peyğəmbərdən soruşanlara o, sonralar demişdir ki, «mən nur gördüm və onu indi də görürəm». Ona görə də Quranda açıqca deyilir: «Allah nurun» (yəni «allah işıqdır» – M .C.) – (74, 77).

Beləliklə, qəhrəmanın butası Allahdan gəlir. Ona buta verənlər isə Allahın butasını ona yetirən vasitəçilərdir. Buta-sevgi taleyi Allahdan gəlir və bu mənada Aşiqlər Allahın onların taleyinə yazdığı ilahi sevginin reallaşdırıcılarıdır. Elə qəhrəmanın «haqq aşığı» missiyasını da məhz belə bir mövqedən başa düşmək lazımdır. Əvvəla, «haqq aşığı» haqdan (Allahdan) gələn aşiqlik mənasındadır. Bu, onun birbaşa leksik mənasıdır. Ancaq «haqq aşığı» ifadəsi eyni zamanda haqqa aşiq deməkdir. Haqq aşığı-haqqın aşığı (aşiqi). Əslində bu ifadədə təsəvvüfi irfani eşqin hər iki çaları öz ifadəsini tapıb. Qəhrəmanın eşqi haqqdan gələn aşiqlikdir. Qəhrəman bu eşqlə sevgilidə təcəlla edən haqqa aşiq olub.

Haqq aşığı olmaq məhəbbət dastanı qəhrəmanının (Aşiqinin) əsas missiyasıdır və o, axıradək bu missiyanın reallaşdırıcısı kimi çıxış edir. Onun buta alandan sonrakı bütün taleyi haqq aşiqliyi almış insanın taleyidir. Bu baxımdan aşiqin həyatı ilahi qaynaqdan baş alıb gələn proqramlaşdırılmış hərəkətdir. Onun hərəkətlərində bundan qıraq heç nə yoxdur. O, ilahi tale alıb və bu taleyi reallaşdırmaqla

məşğuldur. Onu yoldan saxlamağa, yolundan döndərməyə çalışırlar. Ancaq haqq aşığı olduğu üçün öz yolundan dönə bilməz.

Məhəbbət dastanlarının Aşiq qəhrəmanı eyni zamanda gözəl söz demək və gözəl saz çalmaq qabiliyyətinin sahibi olur. O, sevgilisinə qovuşmaqdan ötrü yalnız Sazına və Sözünə arxalanır. Butavermə motivli dastanlarda o, saz çalmaq və söz demək qabiliyyətini buta şəklində alır. Məsələn, «Qul Mahmud» dastanının başlanğıcından oxuyuruq:

«Əzəl dövrlərdən İsfahan şəhərində bir Xoca Məhəmməd var idi. Bir oğlu var idi, adı Mahmud. Onun da bir qardaşı var idi, adı Qəmbər. Onlar bir-birindən ayrılmaz idilər gözə görünməyən təhər

Misir şəhərində bir Cəfər paşa var idi. Onun bir qızı var idi, adı Nigar xanım. Onu Mahmuda buta vermişdilər. Qəzadan həmin vaqeənin içində ikən Mahmuda çalmaq, demək, şairlik verilmişdir» (33, 63).

Beləliklə, haqq aşığının haqdan gələn obrazı əslində üç ilahi atributa söykənir: sevgili, şairlik, sazəndəlik. Bu baxımdan əslində bu üç atribut haqq aşığı obrazının ayrılmaz keyfiyyəti olmaqla, butavermə motivli bütün məhəbbət dastanlarından keçir. Eləcə də butavermə motivi olmayan məhəbbət dastanlarının Aşiq qəhrəmanları da gözəl saz çalıb, gözəl söz demək qabiliyyətinə sahibdirlər.

Butavermə motivli dastanlarında qəhrəman öz butasını, aşıqlıq və sazəndəlik qabiliyyətini eyni zamanda alır. Dastanlarda qəhrəmanın saz çalmaq,

söz demək qabiliyyətinə məhz buta ilə yiyələnməsi xüsusi nəzərə çarpdırılır. «Qurbani» dastanında buta almış Qurbani üç gün huşsuz qalır. «Qurbani üçüncü gün ayılıb gördü ki, başına çoxlu qız-gəlin yığılıb, dedi:

- Ay dədə, xalxınkı burdadı, bəs mənimki haradadır?

Mirzəli xan dedi:

- Oğul, ölmüsən, o dünyadan danış, sağsan, bu dünyadan. Səninki, mənimki nədir?.

Qurbani dedi:

- Dədə, bir başı limçə, bir başı çömçə olsa, dərdimi sənə söyləyə bilərəm.

Mirzalı xan dedi:

- Oğul, bir başı limcə, bar başı çömçə nə deməkdir? Sən mənimlə lap qarğa dili danışırsan.

Qurbani dedi:

- Dədə, ona həm dəm, həm qəm çömçəsi deyərlər. O, gahdan dəmə çalar, gahdan qəmə.

Bəli, gətirdilər Qurbaniyə bir dənə saz verdilər. Qurbani sazı aldı əlinə, öpüb gözünün üstünə qoydu. Zilini zil, bəmini bəm eylədi, sinəsinə basıb aldı görək nə dedi:

*Yatmışdım, üstümə gəldi ərənlər,*
*Səfil, nə yatmısan, oyan, dedilər.*
*Oyandım qəflətdən, açdım gözümü,*
*Al, abi-kövsərdən iç, qan dedilər...* (33, 208).

Beləliklə, Qurbani ərənlərin verdiyi abi-kövsər badəsi ilə təkcə sevgilisini yox, eləcə də saz çalmağı, söz deməyi buta alır. Onun söz demək qabiliyyətini

məhz buta alması Qurbaninin «doxsan min kəlməmə bəyan dedilər» misrasında da görünməkdədir:

*Oyandım qəflətdən, açdım gözümü,*
*Ərənlər payinə sürtdüm üzümü,*
*Dindirdilər, haq söylədim sözümü,*
*Doxsan min kəlməmə bəyan dedilər...* (33, 208).

Qurbaninin sazı ilk dəfə əlinə götürməsi dastanda komik boyalarla təsvir olunur. O, heç vaxt saz çalmadığı, əlinə saz götürmədiyi üçün sazı «bir başı limcə, bir başı çömçə» adlandırır. Bu, bir komik metaforadır ki, ondan aşıqlar dastanları nəql edərkən təzəcə buta almış qəhrəmanın saz çalmaq qabiliyyəti almasını təsvir zamanı istifadə edirlər.

Qəhrəmanın haqq aşığına çevrilməsində badə element rolu oynayır. Başqa sözlə, qəhrəman buta alarkən müqəddəs ona badə təklif edir. Bu badə adi bir içki badəsi deyildir. Müsəlman olan qəhrəmanlar bunu əvvəlcə adi içki kimi qəbul edib içmək istəmirlər. Ancaq buta verən ona başa salır ki, bu adi badə yox, eşq badəsidir. Bunu içmək olar. «Seydi və Pəri» dastanında oxuyuruq:

«Seydi bu sözü eşidəndə ağlaya-ağlaya özünü yetirdi atasının məzar sandığının üstünə. Torpağı qucaqlayıb atasına şikayətləndi. Başı qəbrin üstündə onu yuxu apardı. Ağalar- ağası Şahi-Mərdan özünü yetirib dedi:

- Oğul, niyə ağlayıb qəmgin olursan? Al əlimdən bu camı iç!

Seydi dedi:

- Atam, anam sana qurban, axı o cam bizə nəhydi.

Əli dedi:

- Oğul, bu cam o camlardan döyül.

Seydi camı nuş eylədi...” (22, 179).

Göründüyü kimi Əlinin (ə.) Seydiyə içirdiyi çam adi cam deyil. Bu baxımdan cam – badə butavermə motivinin tərkibinə daxil adi element yox, butavermədə xüsusi rol oynayan, təsəvvüf - irfani düşüncədə özünəməxsus semantikaya malik rəmzi-məcazi anlayışlardandır. Həmin anlayış məhəbbət dastanlarında daha əyani formada maddiləşərək badə obrazının simasında daha qabarıq şəkildə üzə çıxır. Bu baxımdan badə obrazının istər ümumi təsəvvüfi-irfani simvolikası, istərsə də dastançı baxışında bu simvolikanın semantik hüdudları «Müğüm şah» dastanında çox ətraflı təsvir edilib:

«Cümə günü idi. Uşaqlar Müğüm şahla güllü bağda gəzirdilər. Ancaq Müğüm şahın heç halı üstündə döyüldü. Müğüm şah bir sərv ağacının dibində fikirdəydi. Bunu qəm yuxusu tutdu. Bu, qəm yuxusunda qaldı. Uşaqlar dağılıb getdilər. Bunun üstünə kim gəldi? - Darda qalanların dadına çatan Xızır peyğəmbər. Xızır peyğəmbər ona dedi:

- Oğul, nə yatıbsan, bir gözünü aç!

- Müğüm şah gözünü açdı. Xızır dedi:

- Məni tanıyırsanmı? Mən müşkül işləri düzəldənəm.

Əlində bir piyala Müğüm şahın qabağına tutdu, dedi:

- Oğul, al bu piyalanı iç!

Müğüm şah dedi:

- Ağa, o suyu bizə haram buyurublar.

Xızır dedi:

- Oğul, bu sən deyən sudan deyil. Bu su Leylini Məcnuna, Fərhadı Şirinə, Arzunu Qəmbərə, Şahsənəmi Qəribə, Əslini Kərəmə yetirən sudandır.

Müğüm şah suyu aldı. Xızır dedi:

- Bu suyu sana verirəm bir Allahın eşqində, yüz iyirmi dörd min peyğəmbərin eşqində. Ondan da Xanbalıq şəhərində Fətəli xanın qızı Güdşan xanımın eşqində. Onu sana buta verirəm, səni də ona.

Bu sözdən sonra Müğüm şah bu camı başına çəkib içdi...” (22, 206).

Qeyd edək ki, «Müğüm şah» dastanı bizə məhəbbət dastanlarının buta epik kompleksini öyrənmək və ümumiyyətlə bu dastanların təsəvvüfi-irfani davranış kodunu aydınlaşdırmaq baxımından heç bir məhəbbət dastanının təqdim edə bilməyəcəyi material verir. Burada bizim birinci fəsildə butavermə motivli və butavermə motivsiz bütün məhəbbət dastanlarının buta epik kompleksinə girməsi haqqında irəli sürdüyümüz tezisi təsdiq edən çox qiymətli informasiya var. Bu informasiya bir qədər «kasıb» şəkildə «Səyyad və Səadət» dastanında da mövcuddur. Burada da Səyyada yuxuda bir dərviş badə içirmək istəyir.

«Səyyad, - ağa dərviş, badə içmək bizə haramdır, - dedikdə, dərviş cavabında dedi:

- Oğul, bu badə Leylini Məcnuna, Şirini Fərhada, aşiqi məşuqə yetirən badədir, al, nuş et! » (22, 323).

İndi isə bu iki dastandakı informasiyaları üst-üstə qoyub struktur-semantik təhlilə cəlb edək. «Müğüm şah» dastanından gördük ki, bu badə adi badə olmayıb Leylini Məcnuna, Şirini Fərhada, Arzunu Qəmbərə, Şahsənəmi Qəribə, Əslini Kərəmə yetirən bir badədir. «Səyyad və Səadət» dastanında bu aşiq-məşuqlardan Leyli və Məcnunun, Şirin və Fərhadın adı çəkilir. Ancaq burada daha ümumiləşdirici və elə bu baxımdan da qiymətli semantik tutuma malik bir ad - qəlib çəkilir. Bu dastandan bəlli olur ki, bu badə «aşiqi-məşuqa yetirən badədi». Məsələnin bu cəhəti qiymətli olmaqla semantik hüdudları baxımından çox genişdir. İndi isə yuxarıda adları çəkilən aşiq-məşuqlarla bağlı dastanları butavermə motivi baxımından yada salaq.

«Aşıq Qərib» dastanında Qərib Şahsənəmi buta alır, yəni buta alırsa, demək buta kompleksinə daxil olan badədən də «dadır». Məsələ burasındadır ki, nə «Leyli - Məcnun» dastanında, nə «Arzu - Qəmbər» dastanında, nə «Əsli-Kərəm» dastanında butavermə motivi yoxdur. «Leyli-Məcnun» dastanında Məcnun - Qeys Xacə Abdullanın nəzir-niyazla doğulmuş oğludur. Leyli onun buta ilə verilmiş sevgilisi deyildir. «Arzu-Qəmbər» dastanında da Arzu Qəmbərin əmisi qızıdır və onlar göbəkkəsmə nişanlıdırlar, butavermə yoxdur. «Əsli-Kərəm» dastanında da Ziyad xanla Qara Keşiş övladsız olurlar. Əgər övladları olarsa, onları bir-biri ilə evləndirmək haqqında əhd-peyman etdikdən sonra

uşaqları anadan olur. Burada da butavermə yoxdur. Beləliklə, nə Məcnun, nə Arzu, nə Kərəm buta yuxusuna getməmiş, buta badəsini alıb içməmişlər. Ancaq «Müğüm şah» dastanına görə, bunlar buta badəsini içmişlər. Bununla paradoks yaranır.

Paradoksun həlli yönündə belə bir iddia etmək olar ki, bunlar müxtəlif dastanlardır və bu müxtəlif dastanların bir-biri ilə uzlaşdırılması vacib deyildir. Bu baxımdan bir folklor mətni olaraq çox geniş ərazidə yayılmış məhəbbət dastanlarımız bir-birinə zidd, uyğun gəlməyən elementlər təqdim edə bilər. Əlbəttə, bu fikri qəbul etmək olar. Dastan bir folklor hadisəsidir. Folklorda isə belə «ziddiyyətlər» çox olur. Burada yada istər-istəməz «Kitabi- Dədə Qorqud» düşür.

«Kitabi- Dədə Qorqud»da Şöklü Məlik bir neçə dəfə öldürülür. Bu, tədqiqatçılar tərəfindən müxtəlif cür izah olunur. Həmin izahlar bizim mövzumuz baxımından çox az aktuallıq kəsb etdiyi üçün onlara toxunmağı məqsədəuyğun saymırıq. Ancaq tədqiqatçıları bu məsələ çox düşündürür. Axı, «Kitabi-Dədə Qorqud» boyları bir «Kitab» şəklində redaksiya olunmaqla qeydə alındığı dövrdə vahid mətnlər toplusu kimi yazıya köçürülüb. Əgər Azərbaycan məhəbbət dastanları bitkin və müstəqil mətnlərdirsə, Azərbaycan aşıq mühitlərinin bir-birindən coğrafi baxımdan çox uzaq məkanlarında ifa olunmaları səbəbindən onlardakı hansısa «uyğunsuzluqlar» tam təbii qəbul olunmalıdır. Ancaq «Müğüm şah» dastanındakı bu «uyğunsuzluq»

«Kitabi-Dədə Qorqud»dakı «uyğunsuzluqlarla» müqayisədə o qədər müşahidə olunmayandır ki, bizə qədər «Müğüm şah»dakı bu detala tədqiqatçılar heç fikir verməmişdilər. Halbuki «Kitabi-Dədə Qorqud»dakı «uyğunsuzluqlar» tədqiqatçıları geniş şəkildə düşündürməkdədir. Folklorşünas alim B.Abdulla eposun mərasimlərlə, əski əsatiri, əfsanəvi görüşlərlə bağlı poetikasına həsr etdiyi monoqrafiyasında heç təsadüfi olmayaraq «Kitabi-Dədə Qorqud»un mətnindəki «uyğunsuzluqlara» ayrıca hissə həsr edir. O yazır ki, «Kitabi-Dədə Qorqud»da ölənin xortdaması, az qala, adi hala çevrilib. İkinci boyda elini, ailəsini qurtarmaq üçün kafirlərlə döyüşən Salur Qazan elə bu kafirlərin başçısı Şöklü Məliklə qarşılaşır. Boyda deyilir ki, o, «Şöklü Məliyi bögürdübəni atdan saldı, qafillicə qara başını kəsdi»... Üçüncü boyda Bamsı Beyrəyin Bayburt hasarından dustaq saxlanılan yoldaşlarını qurtarmaq üçün başlanılan döyüşdə yenə də Şöklü Məlik ortaya çıxır. Yenə də Salur Qazanla üz-üzə gəlir və yenə də onun əli ilə cəhənnəmə vasil olur... Dördüncü boyda ikinci kərə Salur Qazanın öldürdüyü Şöklü Məlik durub düz meydanın ortasında. Bu dəfə də Salur Qazan onun başını kəsir.... Doqquzuncu boyda Şöklü Məlik ayağını sındırmış Bəkilin yurduna hücum edir... Məsələ burasındadır ki, boylardakı bu cür durum yalnız Şöklü Məliklə bitmir, ikinci, üçüncü boyda Dəli Dondar Qara Təkur Məliyi, ikiinci, dördüncü boyda isə Qaragünə oğlu Qara Budaq Buğacıq Məliyi ayrı-ayrılıqda iki kərə öldürürlər».

Tədqiqatçı B.Abdulla bütün bunları gələcək tədqiqat üçün qeydə alaraq öz fikrini çox konkret ifadə edir. «Abidədə belə-belə uyğunsuzluqlar çoxdur və bunları öyrənmək üçün «Kitabi - Dədə Qorqud»un daxili mexanizmi ilə də dərindən məşğul olmaq vacib şərtlərdəndir» (7, 216-217).

Fikrimizcə, B.Abdullanın «Kitabi-Dədə Qorqud»dakı bu «uyğunsuzluqları» eposun daxili mexanizmi ilə əlaqələndirməsi düzgündür. Bu baxımdan butavermə motivi olmayan dastan qəhrəmanlarının belə «Müğüm şah» dastanında butabadə motivi ilə əlaqələndirilməsi istər «Müğüm şah» dastanının, istərsə də Azərbaycan məhəbbət dastançılığının «daxili mexanizmləri» ilə bağldılır. Bu, epik ənənənin struktur-semantik problemləridir və bunu istər «Müğüm şah», «Səyyad və Sədət» dastanlarını, istərsə də bütövlükdə Azərbaycan məhəbbət dastanlarını struktur-semantik istiqamətdən tədqiq etmədən aydınlaşdırmaq mümkün deyil.

Məhz belə bir struktur-semantik aydınlaşdırmanın məntiqi nəticəsi olaraq bildiririk ki, Azərbaycan məhəbbət dastançılığı epik ənənəsi dastanlarda butavermə motivinin olub olmamasından asılı olmayarq bütün məhəbbət dastanlarını buta semantemi ilə dəyərləndirmişdir. Başqa sözlə demiş olsaq, göbəkkəsmə nişanlı olan Aşiq və Məşuqun bir-birinə olan sevgisi buta sevgisi kimi qəbul edilmişdi. Bu baxımdan «Müğüm şah», «Səyyad və Sədət» dastanlarında heç bir «uyğunsuzluq» əslində yoxdur. Burada zahirən uyğunsuzluq kimi epik ənənənin va-

riantiv rəngarəngliyinin unudulması kimi görünən bu cəhət əslində məhəbbət dastanlarının struktur-semantik əsasını təşkil edən buta epik kompleksi ilə bağlıdır. Biz birinci fəsildə məhəbbət dastanlarının strukturunu öyrənərkən belə bir tezisi sübut etməyə çalışırdıq ki, istər butavermə motivli, istərsə də butavermə motivsiz, yəni göbəkkəsmə nişanlı olma motivli məhəbbət dastanlarının hər ikisi öz struktur semantikaları baxımından eyni bir sistemə - buta-epik kompleksinə daxildir. Çünki fəsildəki tədqiqat göstərdi ki, epik ənənə göbəkkəsmə nişanlı olan qəhrəmanların sevgisini də buta sevıgisi kimi ilahi sevgi hesab edir. İstər butavermə, istərsə də göbəkkəsmə nişanlama eyni bir İradənin - İlahinin vergisi ilə həyata keçir. Bundan başqa aydın oldu ki, istər övladsız valideynlərə övlad verən (bununla onların ilahidən gəlmə nişanlılığını təmin edən), istərsə də butavermə motivli dastanlarda qəhrəmanları bir-birinə butaverən eyni bir güc - Həzrət Əli (ə.) - Şahmərdan - Ağa- Xızır peyğəmbər - dərviş obraz kompleksidir. Bu baxımdan məhəbbət dastançılığı epik-ənənəsində istər göbəkkəsmə nişanlılıq, istərsə də butavermə - hər ikisi İlahinin Əmri, İlahi Nişanlılıq kimi qəbul edilir. Bu mənada butavermə motivi olmayan dastanların qəhrəmanları olan Əsli və Kərəmin, Leyli və Məcnunun, Arzu və Qəmbərin «Müğüm şah» dastanında buta almış qəhrəmanlar kimi təqdim edilməsi nə bir təsadüf, nə də bir uyğunsuzluq olmayıb, tamamilə «uyğun» və «zəruri» bir hadisədir. Ona görə ki, epik ənənə bütün Aşiq və

Məşuqları buta qəhrəmanları, yəni sevgisi İlahidən gələn qəhrəmanlar sayır, bu mənada butanın dəqiq semantik tutumu da aydınlaşmış olur. Əgər məhəbbət dastançılığı ənənəsi faktik olaraq buta almayan qəhrəmanları belə buta almış sayırsa, onda buta semanteminin məna cərgəsi İlahi Sevgi - Haqq Aşiqliyi - İlahi Tale kimi sistemləşir. Bu cəhət məhəbbət dastanları üçün istisnasız olaraq universal bir qəlibdir. Buna görə də hər hansı bir məhəbbət dastanı buta semanteminden nə dərəcədə uzaqlaşmasından, yaxud ona nə dərəcədə yaxınlaşmasından asılı olmayarq Azərbaycan məhəbbət dastanlarının hamısı bu və ya digər dərəcədə öz struktur - semantik mahiyyətlərində buta semantemini reallaşdırır və bu baxımdan onların hamısı buta epik kompleksinə daxildir.

Azərbaycan məhəbbət dastanlarının buta epik kompleksinə daxil olması əslində məhəbbət dastanlarının öz mətni ilə «sanksiyalaşdırılıb». «Müğüm şah» və «Səyyad və Səadət» dastanlarında söykəndiyimiz belə «sanksiyalaşdırıcı» faktları bir daha yada salaq və onların paradiqma cədvəlini quraq:

1. «Müğüm şah» dastanında: «Bu su Leylini Məcnuna, Şirini Fərhada, Arzunu Qəmbərə, Şahsənəmi Qəribə, Əslini Kərəmə yetirən sudandı» (22, 206).

2. «Səyyad və Sədət» dastanında: «Bu badə Leylini Məcnuna, Şirini Fərhada, aşiqi-məşuqa yetirən badədir» (22, 323).

Azərbaycan məhəbbət dastanlarının struktur-semantik tədqiqi məhz «bu iki cümlənin» daşıdığı semantik informasiyanın tədqiqat müstəvisində məhz mütləqləşdirmə, diqqət konsentrasiyası tələb edir. Niyə görə məhz «bu iki cümlə» və nəyə görə məhz dırnaqda. Ona görə ki, belə informativ cümlələri Azərbaycan məhəbbət dastanlarından bərpa etmək və onları sayını çoxaltmaq olar. Onların çoxaldılması bütün hallarda variantları vermiş olacaq. Lakin istənilən variantlar onların ümumiləşdirən, birləşdirən, orqanlaşdıran invariantı reallaşdırırlar. Bu iki cümlə isə birlikdə məhz invariantı bütün struktur-semantik tutumu ilə əks etdirə bilir. Ona görə «birlikdə» ki, bu cümlələri ayrılıqda öyrənmək invariantı bütün tutumu ilə əks etdirə bilmir. Daha dəqiq demiş olsaq, «Səyyad və Sədət»dəki informativ cümlə birbaşa invariantı əks etdirir, «Müğüm şah»dakı informativ cümlə isə invariantın semantik tutum sırasını genişliklə əks etdirir. Diqqət edək:

«Müğüm şah» dastanında epik ənənədə buta Aşiq-Məşuqları sayılmayan qəhrəmanları da buta aşıqləri sayır və bu cümlədən biz göbəkkəsmə motivindən qaynaqlanan aşiqlərin də buta aşiqləri olduğunu aydınlaşdırmış oluruq. Bu baxımdan semantik tutum sırası burada məhz genişdir: Leyli-Məcnun, Fərhad-Şirin, Arzu-Qəmbər, Əsli-Kərəm semantik sıraları. Bu mənada bu semantik sıranın struktur əlaməti genişlikdir. «Səyyad və Sədət» dastanında isə sıra geniş deyil: Leyli-Məcnun, Şirin-Fərhad. Gördüyümz kimi bizi invarianta genişlik baxımından «Müğüm şah»

dastanı daha çox yaxınlaşdırır. Bu mənada «Müğüm şah» dastanı Aşiq-Məşuq invariantını bərpa etməyə kifayət qədər dəqiq semantik sıra vermiş olur. Çünki bu semantik sıralarda buta qəhrəmanları ilə göbəkkəsmə qəhrəmanlar bir semantik sıraya salınır və eyni semantikadan - buta aşiqləri semantikasından təqdim edilir. Bunun əsasında invariantı bərpa etmək tədqiqatçının boynuna düşməklə buna imkan yaradılır:

| | | | |
|---|---|---|---|
| | Qərib | Şahsənəm | Buta aşiqləri |
| | Məcnun | Leyli | Ümumiyyətlə aşiqlər |
| | Qəmbər | Arzu | Göbəkkəsmə aşiqlər |
| | Kərəm | Əsli | Göbəkkəsmə aşiqlər |
| **İnvariant** | **Aşiq** | **Məşuq** | **Buta aşiqləri** |

Göründüyü kimi «Müğüm şah» dastanının təqdim etdiyi semantik sıraların invariant semantik sırasını biz müəyyən etmiş olduq. «Səyyad və Sədət» dastanında isə tədqiqatçının müdaxiləsinə ehtiyac qalmır, invariantı dastanın özü təqdim edir:

| | | | |
|---|---|---|---|
| | Məcnun | Leyli | Ümumiyyətlə aşiqlər |
| | Fərhad | Şirin | Ümumiyyətlə aşiqlər |
| | **Aşiq** | **Məşuq** | **Buta aşiqləri** |

Göründüyü kimi, Məcnun və Leylinin, Fərhad və Şirinin buta aşiqləri olması qənaətinə tədqiqatçı gəlmədi, dastan özü onları məhz buta aşiqləri-Aşiq-Məşuq kimi təqdim etdi. Bu baxımdan hər iki dastanın təqdim etdiyi informativ cümlələr bir-birini tamamlayır. Ona görə ki, "Müğüm şah"da butalı və butasız qəhrəmanlar bir sırada təqdim edilirlər. Bu, butasız qəhrəmanların butalı olduğunun sübutudur. "Səyyad və Sədət"də isə təqdim olunan qəhrəmanlar epik ənənədə ümumiyyətlə butasızdır. Dastan isə onları buta epik kompleksinin semantik qəlibi olan Aşiq-Məşuq "invariantından" özü təqdim edir. Beləliklə, "Müğüm şah" dastanından invariant tədqiqatçı tərəfindən bərpa edilirsə, "Səyyad və Sədət"də isə invariantın özü təqdim edir. Bu baxımdan biz Azərbaycan folklorşünaslığı, klassik ədəbiyyatşünaslığı üçün iki mühüm nəticə əldə etmiş oluruq. Birincisi, "Müğüm şah" və "Səyyad və Sədət" dastanından bərpa olunan Aşiq-Məşuq invariant Azərbaycan folklorşünaslığında məhəbbət dastanlarının variantlaşması probleminə tamamilə çox ciddi bir struktur-semantik aspekt vermiş olur. Məhəbbət dastanlarının, ümumiyyətlə dastanların variantivləşməsi məsələsi barədə çox deyilmişdir. İndiki halda həmin fikirlərin sadalanması bizi mətləbdən uzaqlaşdıra bilər. Ona görə ümumi şəkildə bunun səbəbləri haqqında deyilmişləri yada salaq. Bunun başlıca səbəbləri sırasında eyni dastanın müxtəlif aşıq mühitlərində ifa olunması göstərilir. Bu,

doğrudan da, belədir. Dastançılıq "dövriyyəsinə" daxil edilmiş hər hansı bir dastan yaradıcılığı aşıq mühitində dastançılıq ənənələrinin fövqünə qalxa bilərsə, onda həmin dastan yarandığı aşıq mühitinin sərhədlərini adlaya, başqa aşıq mühitlərinə keçə bilir. Başqa aşıq mühitlərinin isə hərəsinin özünəməxsus dastançılıq "xalları", "gülləri", məhəlli üslub fərqlərinin sübuta ehtiyacı yoxdur. Bir aşıq mühitindən o birinə adlamış dastan hər belə adladıqca fərqli variant cəhətləri əldə etmiş olur. Bu baxımdan variativliyin görünən başlıca cəhəti budur. Ancaq yuxarıdakı invariant "inad edir" ki, variativliyin məhəbbət dastanlarının struktur-semantik baxımından bir çox başqa səbəbi də var və bu ciddi səbəb "çox ciddi" variativ fərqlərə gətirir. Ona görə ki, müxtəlif aşıq mühitlərində ifa olunan eyni bir dastanın variant fərqləri çox vaxt ciddi, struktur baxımından diqqət cəlb edən olmur. Lakin eyni bir dastanın müxtəlif, bəzən lap qonşu aşıq mühitlərində bir variantının butalı, o birinin butasız olması, doğrudan da, çox ciddi və üzərində də ciddi düşüncə tələb edən variant fərqidir. Bu fərqin isə "açarı", həll kodu məhz "Müğüm şah" və "Səyyad və Sədət" dastanlarından bərpa olunan Aşiq-Məşuq invariantıdır. Baxaq.

Prof. M.H.Təhmasib "Abbas və Gülgəz" dastanının əldə olan yeddi variantının (çap olunmuş və olunmamış-M.C.) müqayisə edərək onları variant xüsusiyyətlərinə görə iki qrupa və bir yarımqrupa ayırmışdır. O, birinci və ikinci qrupun hərəsinə üç

dastan aid etmiş, yeddinci variantı isə ayrılıqda götürmüşdür. Professorun tədqiqindən aydın olur ki, birinci qrupa aid olan dastanda Abbas və Gülgəz göbəkkəsmə nişanlıdırlar. İkinci qrup dastanlarda isə Abbas Tufarqanlı, Gülgəz isə Təbrizlidir. Onlar bir-birinə buta verilirlər. Yeddinci variantda isə Abbasla Gülgəz əmioğlu-əmiqızı və göbəkkəsmə nişanlıdırlar. Bunlar hələ məktəbdə oxuyarkən bir-birlərinə buta verilirlər (107, 264-274).

Beləliklə, "Abbas-Gülgəz" dastanının M.H.Təhmasib tərəfindən tədqiqə cəlb edilmiş və Şimali Azərbaycana aid olan variantlarının bir qrupu butalı, o biri qrupu butasızdır, yəni göbəkkəsmə nişanlama motivlidir. Yeddinci variant isə, sözün hərfi anlamında, buta və göbəkkəsmə motivlərini "sintez" etmişdir. Bu da dastançılıq ənənələrinin öz qanunauyğunluqları daxilindədir. Yada salaq ki, "Qurbani" dastanında qəhrəman həm "möcüzəli" yolnan-nəzir-niyazla doğulur (göbəkkəsmə nişanlanma motivinin tərkib hissəsi), həm də buta alır. Bundan başqa, dastanın folklorşünas B.Abdullanın cənub mətbuatından götürərək Bakıda yayınladığı Siviş variantında Abbasla Gülgəz göbəkkəsmə nişanlıdırlar (19, 123), dastanın folklorşünas M.Qasımlı tərəfindən bizə audiokassetlər şəklində təqdim edilmiş Səlmas variantında isə Abbasla Gülgəz butayadək bir-birini tanımır və bir-birinə buta verilirlər (bax: 2, 1-ci audiokasset). Beləliklə, dastanın şimallı və cənublu variantları iki əsas qrup ətrafında cəmləşir: butalı və butasız variantlar. Təbii olaraq belə bir sual meydana

çıxır. Necə olur ki, eyni bir dastan müxtəlif aşıq mühitlərində həm butalı, həm də butasız variantlara malikdir? Özü də dastanın Abbas Tufarqanlının özü tərəfindən, yaxud sonrakı aşıqlar tərəfindən yaradılması sualın mahiyyətini dəyişə bilmir. Çünki dastan istər Abbas Tufarqanlı, istərsə də sonrakı aşıqlar tərəfindən yaradıldığı təqdirdə belə, ilk dəfə o, ya butalı, ya da butasız yaradılıb (bunun ilk dəfə hansı variantda yaradılması indiki halda bizim tədqiqatımızdan uzaq olub, ayrıca bir araşdırma tələb edir. Fikrimizcə, burada Abbas Tufarqanlı anadan olduğu və yaşadığı Tufarqan məntəqəsinin aşıq mühitindəki variant tapılmalı və ilk variant kimi ona əsaslanılmalıdır. Halbuki bu da qeyri – dəqiq nəticələrə gətirə bilər). Bizcə, bunun başlıca səbəbi, yəni əvvəldən ya butalı, ya da butasız olaraq bir variantda yaradılan dastanın sonradan butalı, yaxud butasız variantlara törəmə variantlar verməsi məhəbbət dastanlarındakı Aşıq – Məşuq invariantının məhəbbət dastançılığı ənənəsində məhz Buta Aşiqləri Semantemindən dəyərləndirilməsi, qəbul edilməsi ilə bağlıdır. Beləliklə, məhəbbət dastançılığı ənənəsinə görə, Aşiq və Məşuq öz sevgilərini ilahidən alır. Bu baxımdan onların aşiqliyi Buta Aşiqliyi – İlahi Aşiqlikdir.

İkinci səbəb isə "Müğüm şah", "Səyyad və Sədət" dastanlarındakı semantik sıralar, cəsarətlə hökm verməyə əsas verir. Azərbaycan məhəbbət dastanları ilə Azərbaycan orta əsrlər yazılı romantk-aşiqanə əsərləri arasında invariant körpüsüdür. Bu tezis çox böyük araşdırma tələb edir. İndiki halda tədqiqatımızın

konkret predmeti bizə belə yayğınlıq etməyə, tədqiqatın konkret çevrəsindən qırağa çıxmağa imkan vermədiyi üçün biz öz fikirlərimizi gələcək tədqiqatların perspektivi istiqamətlərinin əsaslarında duracaq tezis-mülahizələr şəklində ümumiləşdirəcəyik.

“Müğüm şah”, “Səyyad və Sədət” dastanları Fərhad və Şirini, Leyli və Məcnunu da buta qəhrəmanları kimi təqdim edir. Ədəbiyyatımızda Fərhad və Şirin, Leyli və Məcnun obrazlarının haradan qaynaqlandıqları mübahisə doğurmur. Leyli və Məcnun ərəb əfsanələrinin qəhrəmanlarıdır və onları yazılı ədəbiyyat, məsnəvi qəhrəmanları kimi istər Azərbaycan ədəbiyyatına, istərsə də Şərq ədəbiyyatına Nizami gətirmişdir (62). Eləcə də Xosrov və Şirin mövzusu Firdovsidən gələrək Nizamidə ayrıca bir poemaya çevrilmişdir (61). Nə Nizami “Xosrov və Şirin”ində və “Leyli və Məcnun”unda, nə də Füzuli “Leyli və Məcnun”unda (60) qəhrəmanların bir-birlərinə buta verilmələri yoxdur. Lakin Azərbaycan məhəbbət dastançılığı bu qəhrəmanları məhz buta aşiqləri kimi təqdim edir. Bu isə çox mühüm nəticə mülahizəyə gəlməyə imkan verir.

Azərbaycan məhəbbət dastançılığındakı Fərhad və Şirin, Leyli və Məcnun obrazlarının yazılı romantik poeziyadan gəlmələri bir fakt olmaqla şübhə doğurmur. Yazılı ədəbiyyat mətnlərində butasız olan bu aşiqlər epik ənənədə (“Muğam şah”, “Səyyad və Sədət”) butalı qəhrəmanlar kimi qəbul olunur. Demək Azərbaycan məhəbbət dastanlarının Aşiq-Məşuq qəhrəmanları ilə yazılı ədəbiyyatın Aşiq-Məşuq

qəhrəmanlarını birləşdirən buta aşiqliyi invariantıdır. Bu invariant məhz "körpüdür". Çünki Fərhad və Şirin, Leyli və Məcnun məhəbbət dastançılığına yazılı ədəbiyyatdan gəlib. Məhəbbət dastançılığı isə bu qəhrəmanları məhz buta aşiqliyi "invariant körpüsündən" qəbul edib. Bunun başlıca səbəbi isə Aşiq-Məşuq kompleksinin istər yazılı ədəbiyyatda, istərsə də şifahi ədəbiyyatda ilahi sevgi kimi qəbul edilməsidir. Bu baxımdan Aşiq-Məşuq kompleksi "haqq aşiqliyi" semantemini reallaşdırır. Elə bu da bizdən məhəbbət dastanlarının Aşiq-Məşuq obrazlarının struktur semantikasının araşdırılmasında diqqəti bütün hallarda məhz "haqq aşiqliyinə"-"haqq aşıq"lığına yönəltməyi tələb edir.

Folklorşünas M.Allahmanlı yazır ki, aşıqda məhəbbət cismani eşqdən mənəvi, ruhani eşq dərəcəsinə qədər yüksəlir. Bu yüksəlişdə hər iki tərəfin tarazlığı daha çox cismanilikdən ilahiliyə doğru inkişaf meyllidi. Bu yüksəlişin özündə haqqa, haqq aşığına çevrilmə və bu istiqamətə meyllənmə əlamətləri var (13, 15). Folklorşünas alim Q.Paşayev yazır ki, "Arzu-Qəmbər" dastanında da qəhrəmanın sağ aşiq – haqq aşığı olub-olmadığı yoxlanılır. Qəmbər sağ aşıq olduğu üçün imtahandan çıxmaqla bərabər, onda qeyri-adi bir keyfiyyət də üzə çıxır. Nə desə yerinə yetir, bütün qarğışları həyata keçir (93, 123).

Qeyd edək ki, tədqiqatçılar haqq aşığı obrazını müxtəlif cəhətlərdən səciyyələndirirlər. Bu baxımdan professor Q.Paşayevin sonuncu qeydi iki cəhətdən qiymətlidir. Brincisi, türkman-kərkük folkloruna aid

“Arzu-Qəmbər” dastanında haqq aşığı “sağ aşıq” adlandırılır. Bu fakt diqqət çəkməklə gələcək tədqiqatlar tələb edir. Belə ki, heç bir Azərbaycan məhəbbət dastanında haqq aşığı belə adlanmır. Tarixi-genetik ənənələr baxımından türkman-kərkük folkloru Azərbaycan folklorunun bir qanadını təşkil etdiyi üçün bu fakt xüsusi tədqiqə möhtacdır. Digər tərəfdən, Q.Paşayevin yazdığından aydın olur ki, dastanda Qəmbərin haqq aşığı olub olmamasının sınağı vardır. Halbuki “Arzu-Qəmbər” dastanının qəhrəmanları buta aşiqləri deyil. Başqa sözlə, onlar əmioğlu əmiqızı, göbəkkəsmə nişanlıdırlar və dastanda butavermə yoxdur. Başqa tərəfdən isə Qəmbər haqq aşığı kimi sınağa çəkilir. Bütün bunlar göstərir ki, məhəbbət dastanında butavermə motivinin olub-olmamasından asılı olmayaraq dastançılıq ənənəsi onları buta almış, yəni sevgiləri İlahidən gəlmiş aşiqlər sayır.

Folklorşünas M.Qasımlı yazır ki, dini-təsəvvüfi örtüyü və xalq yaradıcılığına məxsus mübaliğəni nəzərdə saxlamaqla “haqq aşığı” titulu barədə əsasən o qənaəti qəbul etmək lazımdır ki, bədahətən çalıb-çağırmaq istedadı olan və orta əsrlər təsəvvüf dünyagörüşünə dərindən yiyələnən el sənətkarları bu adla tanınmışlar. Saz sənətinə öyrənmə yolu ilə yiyələnən, bu sənətin kamil bilicisinə çevrilən, lakin istedad vergisindən (“haqq vergisindən”) məhrum olan sənətkarlar isə sadəcə “aşıq” deyə çağrılmışlar... Aşığın ilahi aləmlə, haqq dünyası ilə əlaqəsinə, müqəddəs ruhlarla bağlılığına inamın əlamətidir ki, o, fəaliyyət

göstərdiyi bütün zamanlar boyu toxunulmaz sayılmışdır. El arasında "Aşıq haqq aşığıdır, ona zaval yoxdur", "Aşıq el anasıdır", "Aşığın dilinə yasaq yoxdur"- kimi məsəlvari deyimlərin yayılması, heç şübhəsiz ki, bu səbəbdəndir... El inamına görə həqiqi aşığa- haqq aşığına Tanrı vergisi verilir. "Tanrı vergisi , "Allah vergisi", "haqq vegisi" və ya sadəcə olaraq "vergi" adlanan həmin folklorik məfhumun arxasında isə aşığın ilahi aləm və ruhlar dünyası ilə qeyri-adi əlaqəyə malikliyi barədə mifoloji-irfani təsəvvür, daha dəqiq ifadə eləsək, bir növ kontaminasiya halında olan inanış toplusu dayanır (85, 102-103).

M.Qasımlının bu qiymətli fikirlərindən də göründüyü kimi, haqq aşıqlığı təkcə məhəbbət dastançılığı ilə bağlı hadisə olmayıb, əslində bütövlükdə aşıq sənətinin daxili-ierarxik sənət strukturu ilə bağlıdır. Bu baxımdan tədqiqatçı "haqq aşığı" anlayışında mifoloji təsəvvürlərlə irfani təsəvvürlərin "bir növ kontaminasiyası" məsələsini qoymaqda haqlıdır. Tədqiqatçı əski mifoloji görüşlərlə irfani görüşlərin "haqq aşığı" status-obrazında qovuşmasını "kontaminasiya" adlandırsa da, bu "kontaminasiyanı" "bir növ" təyini ilə müşayiət etməklə onun kontaminativ hadisədən daha mürəkkəb olduğunu da göstərmiş olur. Doğrudan da, haqq aşığı obrazında mifoloji təsəvvürlərlə təsəvvüfi görüşlərin qovuşması var. Bunun geniş sübuta ehtiyacı olmasa da, folklorşünas S.Yaqubovanın bir fikrini xatırlatmaq yerinə düşər. O yazırdı ki, buta... ilahi keyfiyyətə malikdir: ona (aşiqə-M.C.) buta verən ruhlar aləminin

nümayəndəsidir (215, 47). S.Yaqubova bu fikri "Aşıq Qərib" dastanında Rəsulun ona buta verilməsi haqqında söylədiyi qoşmadakı "göründü gözümə doğru rah mənim" misrası ilə başlayır. Biz bu qoşmanı və həmin misranın bu fəslin əvvəlində təhlil etmişik. Bir daha təkrarlamağa ehtiyac duymuruq. Bu baxımdan S.Yaqubovanın fikrinin anılmasında məqsəd buta, haqq aşıqlığının ruhla, ilahi güclər aləmi ilə bağlılığının miflərdən gəldiyini demək idi. Təbii ki, aşıq-ozan sənətinin öz arxetiplərində qam-şaman sənəti ilə bağlı olması indi artıq ümumiləşmiş bir fikirdir. Bu mənada haqq aşığı obrazı öz arxetip başlanğıcında qam-şaman sənətkar tipindən gəlir. Lakin haqq aşığı obrazında mifoloji cizgilərlə irfani cizgilərin həqiqi kontaminasiyaya yox, M.Qasımlı demişkən, "bir növ kontaminasiyası" var. Ona görə "bir növ" ki, burada söhbət heç bir qovuşmadan, qarışmadan gedə bilməz.

Qam-şaman sənətkar tipi adekvat mətnlərdə mifoloji rəvayətlərin qəhrəmanına transformasiya etmiş, sonrakı prosesdə bu transformasiya arxaik epos qəhrəmanına, daha sonra klassik epos qəhrəmanına getmişdir. Demək, bütün hallarda söhbət transformasiyadan gedə bilər, kontaminasiyadan çarpazlaşma, (qovuşma) yox. Təbii ki, burada kontaminasiya əlamətləri də var. Bu, mütləq transformativ səciyyəlidir. Çünki haqq aşığı obrazında qovuşmuş mifoloji cizgilərlə irfani cizgiləri bir-birindən çox böyük diaxronik zaman məsafəsi ayırır. Bu baxımdan sinxron hadisələr olmayan bu cizgilərin qovuşması mümkün deyildir. Haqq aşığı

obrazının mifoloji kompleksi isə göz qabağındadır. Burada sadəcə olaraq əski formaların uzun bir dövr ərzində, mədəniyyətin inkişaf tarixi boyu transformasiyası baş vermişdir.

Beləliklə, məhəbbət dastanının qəhrəmanı haqq aşığıdır. Bu baxımdan onun haqq aşıqlığı "haqq aşiqliyi" kompleksinin ikinci qütbü olub Məşuqa da eyni dərəcə aiddir. Lakin mətnlərdə fiziki-maddi hərəkət fəallığı Aşiqə məxsusdur. Bu baxımdan məhəbbət dastanlarında Aşiq obrazının bütün sujet hərəkətləri təsəvvüfi koda uyğunlaşdırılıb. Başqa sözlə, burada söhbət qəhrəmanlıq dastanlarından gələn ənənəvi sujet hərəkəti formullarının haqq aşığı kod-qəlibinə uyğunlaşdırılmasından gedir. Azərbaycan məhəbbət dastançılığı bu baxımdan haqq aşığının təsəvvüfi davranış koduna çox kamil örnəklər verir. Burada təsəvvüfi-irfani dünyagörüşünün Azərbaycan məhəbbət dastanlarına mətnin məhəlli xarakterli təsirindən söhbət getmir. Başqa sözlə, təsəvvüfi-irfani təsir məhəbbət dastanı mətninin hər hansı hissəsini, yaxud sujetin hər hansı elementini, yaxud dastanın poetik strukturunun hansısa semantik sahəsini təsəvvüfi baxımdan dəyərləndirməmişdir. Burada söhbət, təqribən XII əsrdən başlayaraq yazılı ədəbiyyatın və təsəvvüfi Azərbaycan dastançılıq ənənəsinə təsirindən və nəhayət, Azərbaycan məhəbbət dastanlarını müstəqil semantik poetikaya malik janr kimi qəhrəmanlıq dastanlarının ümumi kütləsindən üzvləndirməyə nə səbəb olmasından gedir. Bu baxımdan təsəvvüfi kod məhəbbət dastanlarının bütün qat və elementlərində vardır.

Təsəvvüfi semantikanın bütün ağırlığını Aşiq və Məşuq öz çiyinlərində daşıyır. Bu baxımdan təsəvvüfi kodun bütün qəlib göstəricilərini bu iki obraz, xüsusilə Aşiq özündə ehtiva edir. Bu isə təsadüfi deyil. Daha doğrusu, burada təsəvvüfi kodun bu iki obrazı "təsəvvüfləşdirməsi", qalan obrazların zahirən əski epik kodla daha çox bağlı olması "təsəvvüfləşdirmənin" dastanın semantik element və səviyyələri boyunca qeyri-bərabər paylanması ilə bağlı deyildir. Burada məsələnin mahiyyəti əski dastançılığın öz poetikası ilə bağlıdır. Dastan, yaxud epik mətndə əskilərdən gəlmə epik ənənə olaraq obrazlar iki statusda olur:

***Qəhrəman (lar) və qalanlar***

Bu sxem qarşıdurma səciyyəli semantik oppozisiya deyildir. Doğrudur, burada da oppozisiya var, ancaq bu oppozisiya ierarxik səciyyəlidir. Başqa sözlə, "qəhrəman - qalanları" qoşalığı "qəhrəman - antoqonist" qoşalığı ilə mahiyyətcə eyni deyildir. Bu, oppozisiya qoşalığı dastanın semantik qurum prinsiplərinə daxil qoşalıqdır. Bu baxımdan istənilən epik mətndə "qəhrəman - qalanları" semantik sahəsi var və mətnin bütün dinamika əsası bu qoşalığın qəhrəman qütbü ilə bağlı olur. Yeni hərəkət yaradıcı, semantik ağırlığı daşıyan qəhrəman qütbüdür. Bu baxımdan məhəbbət dastanlarında "Qəhrəmanlar (Aşiq-Məşuq-Qalanları) kontekstində semantik ağırlığı öz çiyinlərində daşıyan "Qəhrəmanlar" qütbünün təsəvvüfləşdirilməsi, irfani mahiyyət kəsb etmələri, "haqq aşıqlarına" çevrilmələri əslində əski poetik ənənələrin təsəvvüfi kodla təzahürüdür. Bütün bunları nəzərə aldıqda Aşiq (və Məşuq)

obrazının bütün sturuktur qatları boyunca haqq aşığı kodunun araşdırılması məqsədəmüvafiqdir.

Aşiq qəhrəmanın sujet boyu bütün hərəkəti haqq aşıqlığı ilə bağlı olur. O, öz sevgilisinə qovuşana qədər çoxlu maneələri dəf edir. Yəni birinci fəsildə də gördük ki, Aşiqin süjet hərəkəti sınaqlar şəklində qurulur. Aşiq həmin sınaqlardan məhz bir haqq aşığı kimi həmişə qalib çıxır.

Haqq aşığı obrazı üçün səciyyəvi olan ilk süjet cizgilərindən biri onu öz sevgilisinin arxasınca yola düşməkdən heç kəsin saxlaya bilməməsidir. "Qurbani" dastanında Saleh sövdəyər onu öz yolunda döndərə bilmir. Qurbani yolda Mustafa adlı bir adamla qarşılaşır. Musafa da onu yoldan döndərməyə cəhd edir. Qurbani ona deyir:

"*...Qurbaninin dərdi olub ziyada,*
*Allahı çağırram yetişər dada,*
*Bir gözəl seçmişəm fani dünyada,*
*O pəri salıbdır çöllərə məni.*

Mustafa baxdı ki, Qurbaninin butası var. Onu yoldan qaytarmaq olmaz. Ona xeyir - dua verdi, kömək edib Arazdan keçirdi, yola saldı" (33, 214).

Əslində Qurbanini, eləcə də başqa məhəbbət dastanlarındakı Aşiqləri yoldan saxlamaq istəyənlər onlar üçün maneə - sınaqlardır. Bu baxımdan məhəbbət dastanşünaslığımızda qəhrəmanı yoldan saxlamaq üçün əsasən anaların, daha sonra ataların, bacıların, valideyn əvəzi dostların və s. yalvarışları, xahişləri sınaq, şərt xarakterli maneələr kompleksinə daxildir. Düzdür, məhəbbət dastanlarında bunlar tam

real bir mənzərə təsiri bağışlayır. Lakin qəhrəmanın ilkin sınağı məhz onun öz doğmalarının məhəbbəti çevrəsindən qurtulmağından başlayır. Təsəvvüfdə bunun özəl semantikası var: həqiqət yolunu tutan salik ilk növbədə dünya əzabına dözməli olur. İsti yurd-yuvasından, rahat həyatından, dünya ləzzətindən ayrılmalı olur. Onun üçün əsas olan mənəvi rahatlıq, mənəvi feyz hissi idi. Məhəbbət dastanı qəhrəmanları da bu sınaqdan uğurla çıxırlar. Yəni onlar öz yurd-yuvalarından, doğma ocaqlarından, onlara isti məhəbbət bəsləyən doğmalarından ayrılmağı məhz bacarırlar. Bu, onların ilk sınağı olur.

Haqq Aşığı obrazının ikinci səciyyəvi cizgilərindən biri onun haqq aşığı olmasının sazbənd yanında yoxlanılmasıdır. Bu da sınaqlardan biridir. Qəhrəman bu sınaqdan da çıxmaqla haqq aşığını təsdiqləmiş olur. Maraqlıdır ki, məhəbbət dastanlarında haqq aşığı olma məhz onun təsdiqi şəklində qurulur. Qəhrəman sınaqdan - sınağa haqq aşıqı olduğunu təsdiqləyir. Sınaqlar get-gedə çətinləşir və qəhrəman əsas sınaqdan çıxmaqla axırıncı pilləni aşır. Bu məqam onun sevgilisinə qovuşma (təsəvvüfdə haqqa qovuşma) məqamıdır. Bu baxımdan ikinci sınaq sazbənd yanında olur.

“Qurbani”, “Xəstə Qasım”, “Aşıq Qərib” dastanlarında haqq aşiqləri sazbənd yanında həmişə elə bir sazı seçirlər ki, həmin sazı onlardan əvvəl heç bir kəs, ustad sənətkarlar belə çala bilməmişlər. Adətən, bu saza gözü düşdüyünə görə sazbəndin qəhrəmana acığı tutur və onu imtahana çəkir. Qəhrəman bir qayda olaraq bu

imtahandan üzü ağ çıxır. Sazbənd də onun saz çalmağının haqdan gələn bir qabiliyyət olduğunu görüb sazı qəhrəmana bağışlayır. Başqa sözlə, əslində sazbənd motivi qəhrəmanın saz çalmaq qabiliyyətinin sınağa çəkilməsidir. Dedik ki, qəhrəmanın haqq aşıqlığı üç göstəricidə təzahür edir: İlahi sevgi, İlahidən gələn qüdrətli söz demək qabiliyyəti (şairlik) və İlahi saz çalma qüdrəti. Bu baxımdan əslində hər üç keyfiyyətin müəyyən motivlərində sınaq ağırlığının bütün semantik yükünü "öz çiyinlərinə" götürməsi süjet rəngarəngliyinin poetik şərtidir. Bu mənada sazbənd motivi saz çalma qüdrətinin sınağıdır.

Maraqlıdır ki, sazbənd motivi təkcə Azərbaycan məhəbbət dastanları üçün deyil, eləcə də türkmən sevgi dastanları üçün də səciyyəvidir. Türkmən məhəbbət dastanları olan "Səyyad - Həmra", "Nəcəboğlan", "Şahzadə Qasım", "Gül və Sənubər", "Gövhər qız və Şirəli bəy" dastanlarında aşiq səfərə çıxmazdan əvvəl öncə sazbənd yanına gedir və burada Azərbaycan məhəbbət dastanlarından məlum olan sazla sınağa çəkilmə hadisəsi baş verir (206). Türkmən dastanlarında sazbənd – sazla sınağa çəkilmənin Azərbaycan dastanları ilə çox yaxınlıq təşkil etməsi bir fakt kimi tədqiqatçıları düşündürmüşdür. X.Koroğlu belə hesab edir ki, türkmən məhəbbət dastanlarının böyük əksəriyyəti Azərbaycan aşıqlarının repertuarından türkmən baxşılarının epik repertuarına keçmişdir (166, 9 - 17).

Fikrimizcə, Azərbaycan məhəbbət dastanlarının türkmən baxşılarının repertuarına keçməsi

mübahisəsiz bir faktdır. Eyni epik ənənələrə malik, eyni etnik etnik üzərində inkişaf edən və Şərqi Xəzəryanı sahədə bir – biri ilə qonşu, qovuşmuş bu iki oğuz xalqının epos əlaqələri tam təbiidir. Ancaq burada hər şeyi əlaqələrlə bağlamaq olmaz. Məsələn, qəhrəmanın saz çalmaq qabiliyyətinin də buta ilə bağlanması haqq aşiqliyi ilə əlaqəlidir. Bu, Azərbaycan məhəbbət dastanlarından çox aydın görünür. Ancaq bizim məhəbbət dastanlarında butavermə prosesində bütün ağırlıq buta – sevgili semantemi ilə bağlı olur. Yəni diqqət sevgilinin buta verilməsi üzərindədir. Şairlik, saz çalmaq qabiliyyətinin buta verilməsi qabardılmır. Bunlar da buta verilir, ancaq semantik ağırlıq buta - sevgiliyə yönəldilir. Bu baxımdan sazbənd-sazla sınağa çəkilmə butavermə baxımından özünü o qədər də doğrultmur. Düzdür, sazbənd motivi həcmcə dastanlarda az yer tutur. Başqa sözlə, buna bütün məhəbbət dastanlarında heç rast gəlinmir də. Bu baxımdan sazbənd motivi ilə butavermə motivinin arasındakı əlaqələr məhəbbət dastanlarında süjet səviyyəsində az görünür. Daha doğrusu, belə əlaqələri təqdim edən bağlar tədqiqatçı tərəfindən üzə çıxarılır. Ancaq türkmən dastanları bizə elə motiv təqdim edir ki, həmin motivə toxunmadan nə butavermə, nə də sazbənd motivini tam aydınlığı ilə şərh etmək olmaz.

Türkmən "Nəcəboğlan" dastanında Nəcəboğlan ansına deyir:

"Ana, mən balaca olsam da, böyüklərdən eşitmişəm ki, yaxınlarda Aşıq Aydın... yaşayır. Kim

ona yeddi il qulluq eləsə arzusuna çatar. Mən ona qulluq etmək istəyirəm...”

Sona öz oğlunu Gəncə - Qarabağa gedən karvana qoşur.

Sona oğlunu dəvəyə mindirdi və bir neçə günlük yoldan sonra onlar Aşıq Aydının evinin qabağında dayandılar. Yolçular müqəddəsə ehtiram göstərib, hədiyyələr verdikdən sonra dedilər:

- Ey müqəddəs ata, biz sənə qulluqçu oğlan da gətirmişik.

Aşıq aydın hökm etdi ki, oğlanı onun yanına gətirsinlər. Onu dərhal gətirdilər. Müqəddəs ata ona üz tutdu:

- Oğlan, nəçi olmaq istəyirsən?

- Mən baxşı olmaq istəyirəm, - oğlan cavab verdi.

- Əgər baxşı olmaq istəyirsənsə, onda mətbəxə get, ordakı oğlanlar məşğul olan işlə məşğul ol.

Beləliklə, Nəcəb Aşıq Aydına qulluq etməyə başladı. Bir – birinin ardınca günlər, aylar, illər keçdi. Bir gün o, sübh oyandı və düşündü ki, mən heç vaxt isti günorta yeməyinə çata bilmirəm. Necə eləyim ki, bu gün gecikməyim! O tez ayağa durdu və çırpı yığmağa getdi. O hər gün çırpı yığmalı və öz belində gətirməliydi. Çırpı şələsini belinə götürüb, ayaqlarını güclə tərpədərək yavaş-yavaş yeriməyə başladı. Qabağına balaca bir təpə çıxdı. Nəcəb uzanmaq, dincəlmək istədi. O oturdu və Aşıq Aydıngildə keçirdiyi günləri saymağa başladı. Deməmişkən, o artıq yeddi il qulluq edib, artıq səkkizinci ilə keçib. Oğlan anasının sözlərini yadına saldı. Anası onu getməmək üçün necə də dilə tuturdu!

Çırpı şələsinə söykənmiş Nəcəbi  ağlamaq tutdu, o ağlaya – ağlaya yuxuya getdi. Yuxuda onu qırx ərən əhatəyə aldı. Onlardan hər biri ona şərab camı gətirmişdi. Bu dəm Aşıq Aydın da gəldi. O, böyük bir camı şərabla doldurub - oğlana verdi.

Beləliklə, Nəcəb qırx bir cam şərab içdi. Oğlan yuxudan oyandı. Hər yan bomboş idi; nə qırx ərən, nə də Aşıq Aydın var idi. Birdən nəzəri böyük barmağının dırnağına sataşdı. Gördü ki, dırnağında bütün dünyanın, külli – kainatın əksi görünür. Dərhal ayağa durdu, bir göz qırpımında çırpı şələsini gətirdi və mətbəxin qapısında qoydu.

Nəcəboğlan müəllimindən xahiş edir ki, onu evə buraxsın. Ancaq Aşıq Aydın deyir ki, sən mənə yeddi il qulluq edibsən, indi də mən sənə yeddi il sazda çalmaq, oxumaq öyrətməliyəm. Nəcəboğlan ona bildirdi ki, indi mən özüm sazda çalmaq, oxumaq bacarıram. Aşıq Aydın onu imtahana çəkir. Onlar şeirləşirlər. Nəcəboğlan cavab verə bilir. Ancaq Aşıq Aydın razılaşmayıb bildirir ki, sən bunları mətbəxdə işlədiyin yeddi il ərzində dərs alan başqa uşaqlardan öyrənmisən. Odur ki, onu yenidən seirlə sorğuya tutur. Nəcəboğlan cavab verir.

Aşıq Aydın oğlana diqqətlə baxıb dedi:

- Oğlum, sən artıq məqsədinə çatıbsan, sən artıq əsil baxşısan.

Nəcəboğlan belə bir tərifi gözləmirdi. O bir qırağa keçib fikirləşirdi. “Ay Allah, mən nə iş gördüm . Mən öz müəllimimlə ləyaqətsiz hərəkət etdim”. Döndü və müəllimindən bağışlanmağını xahiş etməyə

başladı.

- Sən nə günah iş görübsən ki, ay oğul?! Əgər sən özündə bir günah hiss edirsənsə, onda mən səni bağışlayıram.

- Əgər belədirsə, onda göydən düşmüş qara dütarını mənə ver və mənə xeir – dua ver.

- Oğlum, göydən gəlmiş dütar küncdə xurcunun içindədir. Onu mənə gətir, baxım görüm simləri yerindədir, kökü var, ya yox.

Gəncin sevincdən başı gicəlləndi. O, tez qaçıb dütarı gətirdi və müəlliminə verdi. Müəllim dütarı yoxlayıb dedi:

-Oğlum, dütar qaydasındadır, mənə qulaq as... “Aşıq Aydın ona xeyir - dua verib yola salır” (212, 88-92).

Göründüyü kimi, burda motiv butavermədir. Ancaq bu butavermə məqsədləri baxımından Azərbaycan məhəbbət dastanları butavermələrindən çox fərqlidir. Azərbaycan məhəbbət dastanlarındakı butavermədə semantik ağırlıq buta üzərindədir. Yəni qəhrəman öz sevgilisinə buta alır. Buta sevgisi ilə bərabər, o, əvvəldə gördüyümüz kimi, oxumaq və çalmaq qabiliyyətlərini də ilahi vergi kimi alır. Ancaq Azərbaycan məhəbbət dastanlarında “Nəcəboğlan” dastanında olduğu kimi qəhrəmanın oxumaq və çalmaq qabiliyyətinin buta şəklində alınmasının mütləqləşdirilməsi yoxdur. “Nəcəboğlan”da isə gördük ki, qəhrəman baxşı olmağı, yəni sənətkar olmağı buta alır. Onun baxşılığı isə oxumaq və çalmaqdan ibarətdir. O, isə qırx ərəndən məhz oxumaq və çalmağa

buta alır. Bunun özü çox qiymətli olmaqla Azərbaycan məhəbbət dastanlarındakı butavermə motivinin semantik tutumunu aydın dərk etməyə imkan verir.

Nəcəboğlan yeddi il ustad yanında qulluq edir. Səkkizinci il o, öz ustadından birbaşa öyrənmədən buta alır. Demək, Aşıq Aydındın sənət öyrənmənin şərti bu imiş ki, şagird yeddi il ustadının təsərrüfatında çalışır və bundan sonra daha yeddi il aşıqlıq – baxşılıq sənətini öyrənməyə başlayır. Nəcəboğlanın yeddi ili tamam oldu. O, yeddi il təsərrüfat işlərində əzab çəkir. Səkkizinci il isə sənətkarlığı buta alır. Butavermə motivinin özü çox məsələlərin üstünə işıq salır.

Gördük ki, Nəcəboğlanın yuxusuna qırx ərən gəlir. Bu, Azərbaycan məhəbbət dastanlarında da var. Hətta ümumiləşmiş poetik cümləyə çevrilib: "Yatmışdım, üstümə gəldi ərənlər..." Lakin biz butavermədə qırx ərənlərin özünü yox, həmişə dərvişi – Həzrət Əlini – Xızır peyğəmbəri görürük. Ən önəmlisi odur ki, Azərbaycan məhəbbət dastanlarında Həzrət Əli – Xızır Nəbi – Dərvişin yerinə yetirdiyi funksiyanı Aşıq Aydının özü yerinə yetirir. Başqa sözlə, Nəcəboğlan butanı öz ustadından alır. Bax, bu cəhət Azərbaycan məhəbbət dastanlarında yoxdur. Əslində cəsarətlə demək olar ki, burada söhbət "yoxluqdan" yox, transformativ dəyişmələr zəminində itmədən gedə bilər. Türkmən cəmiyyətinin tarixən köçəri - maldar yaşam tərzini qoruyub saxlaya bilməsi konservativ bir pərdə kimi türkmən dastançılarında arxaik elementlərin qorunmasına gətirmişdir. Bu gün

Azərbaycan folklorşünaslığında qam – şamanla ozan paraleli, Qam – Ozan – Aşıq keçidləri haqqında çox yazılır. Belə bir müddəa haqlı olaraq artıq öz sübutunu tapmışdır ki, ozan – aşıq sənəti öz başlanğıcını Qam-Şaman sənətindən götürmüşdür. Belə bir fikri cəsarətlə irəli sürmək olar ki, Nəcəboğlana ustadı tərəfindən buta verilməsi əski şaman vergi almasının transformativ dəyişməsidir. Burada struktur – semantik bərpa çox çətinlik yaratmır. Əski şaman öz şamanlıq istedadını vergi şəklində ulu Şaman Ruhundan alırdı. Burada həmin Şaman Ruhu vəzifəsini Aşıq Aydının Ruhu yerinə yetirir. Bunu dastandan çox aydın görmək olar.

Nəcəboğlan vergi – buta aldıqdan sonra Aşıq Aydının yanına gəlib ondan evə getməyə icazə istəyir. Lakin Aşıq Aydın onu buraxmaq istəmir ki, sən hələ heç nə öyrənməmisən. Adama əvvəlcə elə gəlir ki, Aşıq Aydın qəsdən belə deyir. Axı Nəcəboğlana vergini yuxuda Aşıq Aydının özü vermişdir. Ancaq Aşıq Aydının Nəcəboğlanın çalmaq – oxumaq qabiliyyətinə yiyələnməsinə inanmaması və onu çox ciddi şəkildə həm çalmaq, həm də oxumaq baxımından iki dəfə imtahana çəkməsi göstərir ki, Aşıq Aydın özünün Nəcəboğlanın yuxuda elə Aşıq Aydının özü tərəfindən buta almasından, doğrudan da, xəbəri yoxdur. Beləliklə, yeni bir "parodoks", "uyğunsuzluq" alınır. Lakin əvvəldə demişdik ki, folklorda heç bir uyğunsuzluq olmur. Sadəcə olaraq, mətndəki hadisələrə folklor dünyagörüşü baxımından yanaşmaq, hadisələri şərtləndirən, onların məntiqi funksionallaşmasının

əsasında duran struktur – semantik mahiyyəti başa düşməyə cəhd etmək lazımdır. Burada da belədir. Aşıq Aydın Nəcəboğlanın yuxusuna gəlir və Nəcəboğlana vergi verir. Ancaq yuxudakı Aşıq Aydından fərqli olaraq oyaqlıqdakı Aşıq Aydının bundan xəbəri yoxdur. Burada yada dərhal Dədə Qorqudun "Ozanlar piri" olması düşür. Başqa sözlə, dastanda da deyildiyi kimi, Aşıq Aydın müqəddəsdir yəni pirdir. Nəcəboğlanın yuxusuna gələn real Aşıq Aydının özü yox, baxşılar piri – müqəddəs ruhdur. Bu ruh müqəddəslərdən müqəddəslərə keçərək yaşayır. O, Aşıq Aydının qiyafəsində Nəcəboğlanın yuxusuna gəlir və burada hər şey əski qam – şaman sənət kompleksinin öz qanunları məntiqinə uyğundur. Əski şamanlar öz şamanlıqlarını vergi şəklində alırdılar. Ulu şaman ruhu onların yuxusuna gəlir, onlara şamanlığı vergi verirdi. Şaman ruhunun yanında köməkçi qüvvələr olurdu. Nəcəboğlanın yuxusunda hər bir detal şaman ruhunun vergi verməsinə uyğundur. Şaman ruhunun köməkçiləri Aşıq Aydın və qırx ərənlər. Şaman ruhu şamançılıq sənətinə vergi verirdi. Burada da Nəcəboğlan Aşıq Aydın və qırx ərəndən sevgi butası yox, məhz sənət butası alır. Yuxarıdakı Aşıq Aydının ruh olmasının adekvatı isə budur ki, şaman öz şamanlığını şaman ruhundan alırdı. Dastanda da real Aşıq Aydının özünün Nəcəboğlana buta verilməsindən xəbəri yoxdur. Xəbəri olsaydı, onu ikilikdə sınağa çəkməyə ehtiyac olmazdı.

Qazax alimi Çokan Vəlixanov islam – şamançılıq transformasiyalarından danışarkən yazır ki, məna

yox, adlar, sözlər dəyişirdi. Onqonu-arvax, köktenqrini – Allah... yer ruhunu şeytan, pəri adlandırırdılar (141, 49). O, başqa bir əsərində də pəri obrazlarının necə islami mahiyyət kəsb etməsindən, müsəlman və kafir pərilərə bölünməsindən yazmışdır (140, 210).

Bütün bunların fonunda qeyd edək ki, "Nəcəboğlan" dastanının butaalma motivindən Azərbaycan məhəbbət dastanlarındakı sazbənd motivinə gedən bağlar aydın görünür. Burada yaxınlıq əslində göz qabağındadır. "Nəcəboğlan"da Aşıq Aydın oğlanın saz çala və ya oxuya bilmək qabiliyyətini imtahana çəkir və bundan sonra Nəcəboğlan Aşıq Aydından onun göydən gəlmiş dütarını istəyir. Bu, Azərbaycan məhəbbət dastanlarında çox reallaşdırılmış, motivin bütün mifoloji cizgiləri "təmizlənmişdir". Sazbənd dükanında sazbənd qəhrəmanının çalmaq qabiliyyətini sınağa çəkir. Maraqlıdır ki, sazbənddən saz istəyən qəhrəman çoxlu sazların içərisindən eləsini istəyir ki, bu saz həmişə qeyri-adi olur. Sazbənd qəhrəmanın bu sazı istəməyindən həmişə hirslənir. Çünki bu saz bir qayda olaraq elə bir saz olur ki, ya onu hələ heç bir sənətkar çala bilməyib, ya da çox məşhur bir sənətkar sifarişi olmuş olur. Bu baxımdan semantik birgəlik göz qabağındadır. Ustanın yanında bütün sazlardan seçilən bu saz "Nəcəboğlan"dakı göydən gəlmiş dütarın semantik ekvivalentidir. Bu baxımdan biz öz fikrimizi yekunlaşdırıb belə bir mülahizə irəli sürmək istəyirik ki, "Nəcəboğlan"dakı sənət butasının verilməsi ilə Azərbaycan məhəbbət dastanlarındakı sazbənd

motivi arasında semantik bağlılıq var. Bunlar vaxtı ilə bir motivin transformativ dəyişmə və "qəlpələridir"! Qəlpələnmə Azərbaycan məhəbbət dastanlarında getmişdir. Başqa sözlə, sazbənd motivi butavermə motivinin tərkib hissəsidir. Ancaq türkmən dastanlarında ayrıca sazbənd motivi də vardır ki, X.Koroğlu da bunu Azərbaycan dastanlarından keçmə sayır. Bu, mümkündür. Çünkü qarşılıqlı əlaqələr daimi mövcud olmuşdur və bu axarda Azərbaycan məhəbbət dastanlarına məxsus sazbənd motivi türkmən dastanlarına keçə bilər. Ancaq türkmən dastanlarındakı sənətkarlıq butası və Aşıq Aydının Nəcəboğlanı bu buta baxımından sınağa çəkməsi Azərbaycan məhəbbət dastanlarındakı motivin adi epizodu olmayıb, butavermə ilə bağlı semantik dəyərə malik olduğunu göstərir. Bunun başlıca sübutlarından biri də budur ki, türkmən dastanlarındakı butavermə qam-şaman sisteminə yaxınlığını qorumuşdur. Aşıq da öz başlanğıcını qam-şaman sistemindən götürmüşdür. Türk mədəniyyətinin və ədəbiyyatının böyük bilicisi Fuad Köprülüdən bəlli olur ki, haqq aşığının qaibdən xəbər verməsi, gizlinlərdən xəbər tutması ən müəmmalı sorğu-sualların cavabını tapa bilməsi və s. keyfiyyətlər onun qam-şaman sistemi ilə bağlılığının göstəricisidir (119, 129-134). Bu xüsusda haqq aşıqlığının ikinci sınaq məqamının sazla bağlı olması təsadüfi deyil. Əslində sazbənd dükanındakı bütün sazlardan fərqli olan, hər kəsin çala bilmədiyi saz elminə vergi vasitəsi ilə sahib olan haqq aşığını tanıdan ilk imtahanlardandır. Bu baxımdan saz haqq aşığının həm də yardımcısı kimi

çıxış edir. Mədəniyyət bilicisi İ.Qəfəsoğlunun tədqiqatlarından da göründüyü kimi, saz, bütövlükdə musiqi aləti magik gücə malikdir. Bu baxımdan saz haqq aşığının həm də qoruyucusudur (117, 320-325).

Məhəbbət dastanının bütün sonrakı süjet hərəkəti onun haqq aşıqlığı ilə bağlı olur. Müxtəlif süjet rəngarəngliklərinin içərisindən hadisələri məntiqi sistem boyunca düzdükdə aydın görünür ki, qəhrəman öz sevgilisinə qovuşana qədər ən müxtəlif sınaqlardan çıxmış olur: aşıqlarla deyişir, həramilərə rast gəlir, zəhər quyusuna salınır, uzun yolun ortasında yorulub qalır, elm – bilik, mərifət sınağına çəkilir, üstüörtülü sirləri açmalı olur və s. Əslində bu hadisələrin hamısı qəhrəmanın öz sevgisi yolunda dəf etdiyi maneələr, yaxyd sınaqlardır. Bunlar onun haqq aşıqlığının sınaqlarıdır. Çünki bütün hallarda o, məhz haqq aşığı olduğuna görə sınaqlardan çıxa bilir. Haqq aşığı olduğuna görə zəhər quyusunda salamat qalır, ölümcül yoldan "bir göz qırpımında" xilas olur, ən ustad sənətkarları belə könlünə gələn ilahi sözlərlə məğlub edir, ən çətin müəmmaları yenə də ağasının köməyi ilə açır. Bütün bu sınaqlardan çıxmasında ona buta verən İmam Əli – Ağa – Şahmərdan – Xızır Nəbi – Dərviş kömək olur. Bu baxımdan qəhrəmanın haqq aşıqlığı bütün hallarda onun butası, buta verənlə bağlı olur. Qəhrəman hər sınaqdan çıxdıqca onun haqq aşığı təsdiq olunur və axırıncı mühüm sınaqla o, qələbə çalmış olur. Çünkü o, haqq aşığıdır.

Göründüyü kimi, Azərbaycan məhəbbət dastanlarında qəhrəmanın poetik semantikası təsəvvüfi

– irfani cizgilərlə "süşlənmişdir". Mifoloji rəvayətlərdən gələn əsatirik – epik qəhrəman tipi müxtəlif transformasiyalara uğrayaraq məhəbbət dastanlarında haqq aşığına çevrilmişdir. Öz axetip başlanğıcında şaman magiyası ilə bağlı olan bu qəhrəman transformativ inkişafının haqq aşığı pilləsində də magiya ilə bağlanır. Onun qarğışı, alqışı çox güclü təsirə malikdir. İndiki mərhələsində magiya təsəvvüfi-irfani səciyyəlidir. Bütün bunlar sufi – dərviş sistemi tərəfindən dastan poetikasına yerləşdirilmişdir ki, burada da əsas məqsəd haqq aşığının ilahi aləmlə - haqq dünyası ilə əlaqəsini göstərərək ona toxunulmazlıq statusu verildiyini təlqin etməkdir (205, 161-162). Səciyyəvi və qanunauyğun haldır ki, eyni vəziyyət, romantik qəhrəmanın statusunun qeyri – adiliyinin şərtləndirilməsindən ötrü onun ilahi qüvvələrlə əlaqələndirilməsi, S.Ruzibaevin tədqiqatından göründüyü kimi, özbək və türkmən dastançılığında da müşahidə olunmaqdadır (198, 30-34).

Dedik ki, Azərbaycan məhəbbət dastanları ikiqəhrəmanlı əsərlərdir. Burada baş qəhrəman qoşalığının ikinci tərəfini Məşuqə təşkil edir. Məhəbbət dastanlarında Sevgili saf məhəbbət, sədaqət, etibar, dözüm mücəssəməsidir. Məsələn, "Leyli- Məcnun" dastanında qadın qəhrəman öz sevgilisi üçün səcdəgah, böyük, sirli bir aləmdir. Leyli məhəbbətinə səcdə etməklə Məcnun qadın təmizliyinə, ucalığına, qadın munisliyinə pərəstiş edir. Leyli məhəbbəti ilə zamanından, dövründən uzaqlaşır, eləcə də bütün zəmanələrə öz bəşəriliyi ilə yaxınlaşır; Leyli

sevir, sevdikcə də müdrüklüyünə tapınır, cəfakeş insana çevrilir.

Məhəbbət dastanlarında qadın obrazlarını statik sevgi ilə sevən varlıqlar kimi görürük onlar qadın sədaqətinin bütün semantikasını öz obrazlarında doğruldurlar. "Əsli – Kərəm" dastanında Kərəm qəbiristanlıqda cavan bir qızı bir qəbrin dörd tərəfində dolaşıb ağlayan görür. Məhəbbətini ürəyində dəfn edə bilməyən bu gənc qadın soyuq məzardan məhəbbətinin hənirtisini alır. Kərəm soruşur:

*Qaralar geyibsən, yasdadı başın,*
*Qüdrətdən çəkilib qaradı qaşın,*
*Atanmı ölübdü, yoxsa qardaşın,*
*Ahu gözlüm, nə dönürsən məzarı?!*

Qız cavab verir:

*Qaralar geymişəm, yasdadı başım,*
*Qüdrətdən çəkilib, qaradı qaşım,*
*Nə atam ölübdü, nə də qardaşım*
*Yar eşqilə dolanaram məzarı!* (33, 134).

Əslində, Kərəmlə qızın bu dialoqunda iki mühüm cizgi ilə məhəbbət dastanları üçün səciyyəvi olan Sevgili obrazının model cizgiləri cızılıb: birincisi, sevgilinin gözəlliyi (qüdrətdən çəkilib, qaradı qaşı), ikinci vəfa, sədaqət mücəssəməsi olan eşq («yar eşqi ilə dolanıram məzarı»). Başqa sözlə məhəbbət dastanlarının Sevgili qəhrəmanı gözəl olur. Ona görə ki, bu gözəllik ilahidən gəlir. Burada Sevgili- qadın obrazının iki mühüm aspektini unutmaq olmaz. Birincisi, onun gözəlliyi arxaik dastançılıq

ənənəsindən gəlir. O, arxaik-epik ənənədə qeyri-adi statuslu qəhrəmanın sevgilisidir və bu baxımdan onun gözəlliyi qeyri-adi statusun tələbləri səviyyəsindədir (folklor poetikasının uyğunluq prinsipi). İkincisi, Azərbaycan məhəbbət dastanlarında Qadın-Sevgili Allahın simvolu, ilahi məhəbbətin təcəssümüdür. Bu baxımdan onun gözəlliyi Tanrıdan gəlir: «Qüdrətdən çəkilib, qaradı qaşım».

Məhəbbət dastanlarının aşiq obrazının təsəvvüfi süsləməsi qarşısında Qadın-Sevgili obrazı məhəbbət cizgilərində real, təsəvvüfi boyalardan məhrum görünür. Bu baxımdan onun məhəbbəti təbii-insani hisslərin, maksimal sevginin obrazlaşması təsirini bağışlayır. «Aşıq Qərib»də Şahsənəmin anasına yalvarışı bu təbiilik, insanilik, hisslərin çılpaqlığı, irfani boyalardan məhrumluğu aydın və səciyyəvi formada təzahür etməklə bütün məhəbbət dastanlarının Sevgili obrazlarına məxsus xarakterik cizgiləri ümumiləşdirə bilir:

*...Sarılıxda heyvalardan sarıyam,*
*İsmim pakdır, sulardan da duruyam,*
*Verməzsəz də mən Qəribin yarıyam,*
*Ana, mən yazığı nə dindirərsən?*

*Şahsənəm qurbandı oğlun Həbibə,*
*Məni salmagilən qeyri-təbibə,*
*Ana, razı olun, gedim Qəribə,*
*Ana, mən yazığı nə dindirirsən?* (33, 181).

Şeirdə təsəvvüfi aspekt var, ancaq formaldır. Belə ki, Şahsənəm anasına «Verməsəz də mən Qəribin

yarıyam » deməklə ilahi eşqə, buta eşqinə işarə vurur. Ancaq dastançılıq poetikası baxımından məsələyə yanaşdıqda həmin təsəvvüfi boyanı formal saymaq olar. Bilirik ki, dastanlarda qızla-oğlan bir-birlərinə buta verilirlər. Bu baxımdan əvvəlcə butaların tapışması olur. Daha sonra onlar, bir qayda olaraq, bir-birlərindən ayrı düşürlər. Bundan sonra sevgilinin dastanda nə qədər görünməsindən asılı olmayaraq poetik strukturun bütün ağırlığı Aşiqin süjet hərəkəti üzərində olur. Sevgililərin hər ikisinin buta almasına baxmayaraq, demək olar ki, heç bir məhəbbət dastanında Sevgilinin haqq aşiqi olub-olmamasının sınağı yoxdur. Bu baxımdan süjet yalnız Aşiqin haqq aşığı olub-olmamasının sınağı üzərində qurulur. Bundan başqa, butalı dastanlarda Aşiqin buta yuxusundan ayılması səhnəsi mütləq şəkildə var. Sevgiliyə də buta verilməsinə baxmayaraq onun necə buta alması, butadan necə ayılması, bunu kiməsə bəyan edib-etməməsi barəsində heç nə deyilmir. Ən yaxşı halda belə bir ümumiləşmiş cümlə vardır ki, filankəsə buta verən, qıza da buta vermişdir. Bu baxımdan göründüyü kimi haqq aşığı olan Sevgilinin haqq aşığı olub-olmamasının dastan poetikasının strukturu baxımından əhəmiyyətli rolu yoxdur. Həmin rol məcazi-təsəvvüfi planda var. Bu dediklərimizdən bayaqkı şeirin üzərinə qayıdıb demək istərdik ki, Şahsənəmin anasına müraciətində sırf real cizgilər hakimdir. Burada onun «Verməsəz də mən Qəribin yarıyam» cümləsində qızların analarına olan ərkinin, sözünü ancaq anaya deyə bilməkdən, ancaq anaya

etiraz edə bilməyə güc tapmaqdan, anaya təbii olan qız yaxınlığından doğan poetik təzahürü var.

Azərbaycan məhəbbət dastanlarının Aşiq qəhrəmanı təsəvvüfi-irfani koda uyğun təkamül keçirtmişdir. Belə bir prosesdən Sevgili obrazı da kənarda qalmamışdır. Bu baxımdan onun dastanın poetik çəkisindəki qeyri-dinamik rolu Məşuqə obrazının özünəməxsus semantikasından doğur. Biz Aşiqin butasından danışarkən şüurlu olaraq Sevgili-Məşuqə sinonimik paralelindən istifadə edirik. Ona görə ki, sevgili leksemi ilə məhəbbət dastanlarının daha çox qəhrəmanlıq dastanlarından gələn epik semantikası ifadə olunur. Məşuqə leksemi ilə isə bu obrazın təsəvvüfi-ilahi semantikası üzə çıxmış olur. Məhz həmin semantika məhəbbət dastanlarında görünməkdədir. Ancaq məhəbbət dastanlarında nə birtərəfli olaraq sevgili semantikasının, nə də Məşuqə semantikasının üstünlüyü var. Burada Sevgili ilə Məşuqə obrazlarının semantikaları bir-birinə qovuşmuş və özünəməxsus qadın qəhrəmanın yaranmasına gətirmişdir. Bu baxımdan məhəbbət dastanlarının sevgili obrazında həm real cizgilər, həm də təsəvvüfi cizgilər çulğalaşmış halda görünür.

Qadın məhəbbət dastanlarında fəal obraz deyildir. Bu, iki baxımdan şərtlənir. Birincisi, arxaik dastan strukturundan gələn semantika ilə bağlıdır. Çünki qəhrəmanlıq dastanlarından bütün süjet fəallığı qəhrəmanın üzərindədir. İkincisi, təsəvvüfi davranış semantikası ilə bağtıdır. Təsəvvüfdə Məşuqə Allahı simvolizə edir. Aşiq Allaha vurğun olur. Allah-

mütləq, fövqəladədir. Adicə sxemləşdirmə prinsipləri ilə götürsək semantik mütləqləşdirmə Allahla qaynaqlaşır. Allah bəndələrə yox, bəndələr Allaha möhtacdır. Bu baxımdan süjet hərəkəti Məşuqdan Aşiqə yox, Aşiqdən məşuqa doğru olmalıdır. Təsəvvüfə görə, Aşiq sonda öz başlanğıcına, Allaha qovuşur. Dastanın əvvəlində də qızla oğlan bir-birlərinə buta verilirlər: ilahi izdivac. Sonra bunlar bir-birlərindən ayrı düşürlər və nəhayət, Aşiq Məşuqa qovuşur: salik vəhdətə çatır.

Qeyd etmək istərdik ki, məhəbbət dastanlarının bütün təsəvvüfi boyalarına baxmayaraq, burada klassik təsəvvüf kanonları axtarmaq düzgün deyildir. Burada xalq sufizminin təzahürü aydın görünür. Məhəbbət dastanları folklor mətnləridir və burada təsəvvüfün folklorlaşması prizmasından məsələyə yanaşdıqda, dastan təsəvvüfünün «sadəliyinin» səbəbləri aydın olur. Elə buna görə də Məşuqə obrazının həm insan, həm də Tanrı aspektlərinin bir qədər «sadəlövh» qovuşmasını da məhəbbəd dastanlarındakı təsəvvüfün məhz folklorlaşmış təsəvvüfü - xalq təsəvvüfü olması ilə izah etmək lazımdır.

Məhəbbət dastanlarının Məşuqə obrazı ilə bağlı mühüm bir sual bir qədər əvvəl meydana çıxdı və biz indi onun cavabını verməyə cəhd etdikcə əslində bu obrazla bağlı struktur-semantik qənaətləri sonlaşdırmaq imkanı da əldə etmiş olacağıq. Yuxarıda deyildi ki, məhəbbət dastanlarında oğlan və qız hər ikisi buta almalarına baxmayaraq, ətraflı olaraq ancaq oğlanın buta alması və butadan ayılması təsvir olunur.

Qadının da buta alması haqqında bir cümlə ilə verilən məlumat epik strukturda nə motiv, nə epizod səciyyəsi daşımır. Sadəcə süjetin mənalı informasiya daşıyan ən kiçik vahidlərindən olur. Bu baxımdan təbii olaraq ortaya belə bir sual çıxır. Nə üçün məhəbbət dastanlarının qız qəhrəmanlarının buta almaları, butadan ayılmaları məhəbbət dastanlarında öz təsvirini tapmır? Təbii ki, bu sual öz növbəsində struktur-semantik səciyyəli bir sıra sualları da nəzərdə tutur. Məsələn, buta almış qız hansı qabiliyyətlər əldə etmiş olur? O, şairlik, saz çalmaq, könlünə ilahi vəyhi gəlmək qabiliyyətləri alırmı? Düzdür, o öz sevgilisi ilə şeirləşir. Ancaq bu şeirləşmə aşiqlə bağlı olduğu kimi haqq aşıqlığının sınağı, imtahanı məqamlarına heç vaxt qaldıdırılmır. Ümumiyyətlə, qızın haqq aşığı olub-olmamağı, buta alıb-almamağı heç kəs üçün əhəmiyyət daşımır. Maraqlıdır ki, bu «heç kəslər» sırasında dastanın poetik strukturu da var. Dastanın poetik strukturu Sevgilinin buta almasına, haqdan gələn aşiqliyə yiyələnməsinə «əhəmiyyət vermir», bütün diqqətini Aşiqə «yönəldir».

Qeyd edək ki, yuxarıda ortaya çıxan sualların cavabı Azərbaycan dastanşünaslığında heç vaxt xüsusi olaraq axtarılmayıb. Onlar struktur-semantik səciyyəli suallar olduğu üçün, fikrimizcə, tədqiqatın məhz struktur-semantik xarakter daşıması həmin sualları ortaya çıxarmış olur.

Yuxarıdakı sualların ətraflı araşdırılması geniş həcmli tədqiqat tələb edir. İndiki halda fikirlərimizi ümumi mülahizələr şəklində gerçəkləşdirməyi

məqsədəuyğun sayırıq. Bu baxımdan qeyd etməliyik ki, Məşuqə obrazı ilə bağlı sualların cavablarını bu obrazı qaynaqlandıran poetik başlanğıclar baxımından şərh etmək olar.

Dedik ki, məhəbbət dastanlarındakı Məşuqə obrazı iki ənənənin transformativ qovuşması kimi çıxış edir: əski epik ənənə və təsəvvüfi-irfani görüşlər. Bu baxımdan əski türk dastançılıq ənənəsində Kişi-Qadın məna strukturu Kişi tərəfinin süjet fəallığı şəklində ənənəviləşib. Həmin ənənə məhəbbət dastanlarında da qalmaqdadır. Əski ənənədə Qəhrəman və Sevgili yox, Qəhrəman və Sevgilisi var. Birinci qoşalıqda semantik yüklər bərabər, ikinci qoşalıqda isə semantik çəkinin bir qütbdə - qəhrəman qütbündə konsentrasiyası və ümumiyyətlə bütün qoşalıq boyunca qeyri-bərabər paylanması var. Semantik ağırlığın bütün poetik çəkisinin Qəhrəman üzərində olması süjet fəallığının da bütün dinamizminin ona məxsusluğunu şərtləndirmişdir. Məhəbbət dastanlarında da əski oğuz-türk epik ənənəsi özünü təbii şəkildə davam etdirməli idi və etdirmişdir də.

İkincisi, məhəbbət dastanlarında əski türk epik ənənəsindən gələn Qəhrəman və Sevgilsi qoşalığı Aşiq-Məşuq qoşalığına transformasiya etmişdir. Bu barədə çox deyildi və o da deyildi ki, elə bu, məhəbbət dastanlarının başlıca poetik differensasiya atributudur. Aşiq-Məşuq qoşalığı məhəbbət dastanlarına, güman ki, yazılı ədəbiyyatdan gəlmişdir. Özü də Aşiq-Məşuq obrazının təsəvvüfi boyalar kəsb etməsi yazılı ədəbiyyatda birinci getmiş, daha sonra məhəbbət

dastanlarına nüfuz etmişdir. Aşiq-Məşuq obrazının təsəvvüfi simvolikasından çıxış etsək, Məşuqun Aşiqlə buta almalarının kodları bir-birinə uyğun gəlmir. Ona görə ki, təsəvvüfdə Aşiq-insanı, Məşuqsa - Allahı bildirir. Belə olduqda Allahın buta alması mümkün deyil. Bu baxımdan Məşuqə məcazi buta alır. Aşiqsə həm məcazi, həm də həqiqi buta alır. Buradakı məcazi, həqiqi deyimləri məhəbbətin məlum aspektlərini bildirir. Deməliyik ki, yazılı ədəbiyyatda, təkkə ədəbiyyatında Aşiq-Məşuq münasibətləri əslində qəzəl şeirindəki Aşiq-Məşuq münasibətlərinin «Süjetləşdirilməsidir». Halbuki hərfi mənada belə süjetləşdirmə yox, yazılı ədəbiyyatdakı Aşiq-Məşuq kompleksinin məhəbbət dastanlarındakı eyni kompleksə təsiri olub. Yazılı ədəbiyyatda da Aşiq fəal, mübariz, dinamik, Məşuq- qeyri -fəal, passiv qeyri-dinamikdir. Qəlib eynidir. Bu baxımdan Məşuqun Allahı simvolizə etdiyi şəraitdə onun həqiqi mənada buta alması mümkün deyildi. Bu baxımdan onun obrazı olan qız mütləq başlanğıc kimi öz məhəbbəti uğrunda mübarizə apara bilməzdi. Bu məhəbbət bəndənin könllünə düşmüşdü və o, Allaha qovuşmaq istəyir. Model aydındır və bundan çıxış edib məşuqə-Allahın «qeyri-fəallığını» hələ çox əsaslandırmaq olar. Ancaq burada üçüncü mühüm bir məqam vardır ki, ona ümumiyyətlə heç kəs toxunmayıb. Həmin məqam məhəbbət dastanlarının ən arxaik semantikası ilə bağlıdır.

«Nəcəboğlan» dastanındakı butavermə motivinin struktur-semantik təhlili göstərdi ki, butavermə türk dastançılığının doğma, genetik kodlarından biridir. Bu

baxımdan butavermə islam mənşəli, yaxud digər mənşəli olmayıb, birbaşa şaman vergisi motivi ilə bağlıdır. Məsələnin bu cəhəti məhəbbət dastanlarının Sevgili qəhrəmanlarının butavermə məsələsinin dastanlarda niyə «səthi» təsvir olunmasının üzərinə də aydınlıq gətirmiş olur. Məsələ burasındadır ki, məhəbbət dastanları öz genetik başlanğıcı etibarilə həm də qam-şaman sənətkar tipi ilə mifoloji rəvayətlərə, dəqiq elmi terminlə desək, mifoloji eposlara gedib çıxır. Biz «Nəcəboğlan» türkmən dastanının köməyi ilə bunun əski sxemini bərpa etdik. Məsələni ümumiləşdirib desək, məhəbbət dastanlarındakı butavermə öz epik başlanğıcı etibarilə şamanların sənət butası almağı ilə bağlıdır. Şaman vergisi sırf sənət vergisidir. Gələcək şaman öz buta bayılmasında şaman ruhundan şamançılıq sənətini buta alır. Bura şamanın ruhlarla əlaqə saxlaya bilmək qabiliyyəti və bütövlükdə şaman sənətkarlığı daxildir. Başqa sözlə, şaman vergisində heç bir məhəbbət, sevgili butaverməsi yoxdur. Məhəbbət dastanları da qam-ozan-aşıq xətti boyunca «vərəsə» olaraq məhz bunu almışdır. Yəni şaman vergisində nə Qız-Sevgili, nə də sevgi butaverməsi var. Azərbaycan məhəbbət dastanlarında bütün butavermə motivinin Aşiqlə bağlanması və qızın buta almasının «səthi» təsviri bununla bağlıdır. Çünki epik-mifoloji başlanğıcda Sevgili-Məşuq buta alması epizodu yoxdur. Demək, qızın-sevgilinin buta alması sonrakı motiv- əlavədir. Məhəbbət dastanları qəhrəmanlıq dastanlarından üzvlənərkən əski şaman butasının sonrakı qəhrəmanlıq dastanlarında

qüvvətləndirilmiş sənətkar-qəhrəman obrazı məhəbbət dastanlarında artıq Aşiqə çevrilmişdir. «Koroğlu» dastanından - Koroğlunun Qoşabulaqda içdiyi köpüyün, çimdiyi bulağın suyunun gücü ilə yenilməz qəhrəmana, güclü nərəyə, şair və aşığa çevrilməsini yada salaq. Bu, əski şaman vergisinin transformativ hallarından biridir. Burada heç bir Qız-Sevgili buta verməsi yoxdur. Bununla təsdiq olunur ki, qızların məhəbbət dastanlarındakı buta alması məhz məhəbbət dastanlarına məxsus hadisədir. Sonrakı əlavə kimi bu motiv çox «səthi» təsvir olunmuşdur. Sonrakı əlavə təsəvvüfi boya daşıyır. Təsəvvüfi anlamda isə Məşuq-Sevgili Allahın təcəllasıdır və bu baxımdan təsəvvüfi təsəvvürlərə uyğun olaraq söhbət ancaq Aşiqin Məşuqa vurulmasından gedə bilər. Burada hər şey Aşiq (İnsan)-Məşuqə (Allah) model münasibətlərinin konsepsiyalarına uyğun olaraq reallaşması ilə bağlıdır.

Təsəvvüfi davranış koduna uyğun olaraq məhəbbət dastanları obrazlarının semantik təsnifində ən mühüm rollarından biri dərviş - həzrət Əli-Xızır Nəbi obraz kompleksinə məxsusdur. Bu obrazın rolu sovet dövrü tədqiqatlarında məlum səbəblərdən özünün lazımi dəyərləndirilməsini tapmamışdır. Halbuki mətnin struktur semantik tədqiqi baxımından dərviş obraz-kompleksinin struktur elementi kimi əvəzsiz rolu var.

Məhəbbət dastanlarının təsəvvüfi-poetik strukturunda iki aydın semantik qütb var: Aşiq və Məşuq. Bunların arasında isə dərviş obrazı dayanır. Aşiq-Məşuq qütbləri semantik qütblər olsa da, bu

oppozitiv qütblər deyildir. Bu mənada irəlidə toxunacağımız kimi Aşiq-Məşuq kompleksinin Kişi-Qadın semantik qarşıdurma qoşalığı ilə əlaqəsi məhəbbət dastanlarında formaldır. Başqa sözlə, arxaik və klassik dastanlarda müşahidə olunan çox aydın Kişi-Qadın qütblənməsi burada təsəvvüfi semantika kəsb edərək qarşıdurma mənasını demək olar ki, itirmişdir.

Məhəbbət dastanlarında baş qahrımanları bir-birinə dərviş obraz - kompleksi buta verir. Bu baxımdan dəviş bir-birindən uzaq məkanlarda (ayrı-ayrı ölkələrdə, şəhərlərdə, evlərdə) yaşayan qəhrəmanlar arasında vasitəçi rolunu oynayır. Onun vasitəçi rolu əslində struktur -semantik baxımından Mediator (ayrı-ayrı dünya qatları, sakral və profan dünyalar arasında əlaqə yaradan, vasitəçilik edən) roludur. Bu obrazın mediator rolu, mediativ funksiyası Azərbaycan folklorşünaslığında çox zəif işlənmişdir. Halbuki onun butavermədəki roluna məhəbbət dastanlarından bəhs edən bütün tədqiqatlarda toxunulmuş, haqqında deyilmişdir. Dərviş-Həzrət-Əli-Xızır Nəbi obrazına məhz mediativ funksiya baxımından yanaşdıqda, onun məhəbbət dastanlarının struktur-semantik poetikasındakı rolu Aşiq və Məşuqun oynadığı rol qədərdir. Başqa sözlə, Aşiq və Məşuq dərvişsiz (mediatorsuz) mümkün deyil. Əvvəlcə bu obraz haqqında deyilmişlərə baxaq.

V.M.Jirmunski «Alpamış» dastanında Alpamışın doğulmasında Əli Şahmərdanın rolundan danışarkən göstərir ki, uşaqları olmayan qardaşlar Şahmərdanın qəbrini ziyarət edir. Şahmərdan ziyarətdə onların

yuxusuna girir və övladlarının dünyaya gələcəyini xəbər verir. Deyilən vaxtda uşaqlar anadan olur. Əli Şahmərdan qələndər-dərviş qiyafəsində gəlir və uşaqlara ad qoyur. Əli əlinin içi (ovcu) ilə oğlanın kürəyinə vurur və həkimin (oğlanın) çiynində Əlinin «beş barmağının» izi qalır. Sonradan göründüyü kimi, Əli öz əlinin toxunmağı ilə Həkimi məğlubedilməz edir: o, odda yanmır, qılınc onu kəsmir, güllə (ox) ona dəymir (157, 120).

Beləliklə, Əli Şahmərdan qardaşlarla Allahın arasında vasitəçilik edir və onların doğulmasında rol oynayır. Qəhrəmana qeyri-adi toxunulmazlığı da o verir (Təpəgözün anasının Təpəgözü toxunulmaz etməsini yada salaq).

Məhəbbət dastanlarında dərviş-Həzrət Əli Xızır Nəbinin rolu həmişə bu dünya ilə o dünyanın arasında olur. Onlar qəfildən zahir olub çətinə düşmüş qəhrəmanı qeyri-adi yolla xilas edirlər. Məsələn, qəhrəmanı möcüzəli şəkildə zəhər quyusunda salamat saxlayırlar, dəfələrlə ölümdən qurtarırlar. Bu baxımdan dərviş-mediatora xilaskarlar funksiyası da xasdır. Qəhrəman deyilən müddətdə yolu gedə bilmir və köməksiz olaraq yolun ortasında ilişib qalır. Bu vaxt göy atlı peyda olur və üç günlük yolu «bir göz açıb-yumunca» qət edərək qəhrəmanı möcüzəli şəkildə gətirib mənzil başına çıxarırlar. Bu xüsusda forlklorşünas M.Allahmanlı «Abbas və Gülgəz» dastanında Abbası xilas etmiş göy atlı ilə bağlı yazır ki, göründüyü kimi... qəhrəmanla ilahi qüvvənin təması var. O, başlanğıc mərhələdə

olduğu kimi, insan şəklində çox adi təsir bağışlayır və qəhrəmana kömək etmək məqsədini bildirir. Lakin son anda onun ilahi görkəmi, ilahi funksiyası açılır və qəhrəman gözünü açanda (qəhrəmanı yolda xilas edən ilahi qüvvə bir qayda olaraq ondan gözlərini yummağı tələb edir-M.C.) onu yanında görmür... Qəhrəman çətinlikləri aşmada müəyyən ümidsizliyə qapılanda həmin qüvvələr peyda olur və onu mövcud vəziyyətdən çıxarır. Burada («Abbas və Gülgəz»də - M.C.) funksiyanı «göy atlı» yerinə yetirir. Bu isə göy atlıdan çox, göydən gələn atlıya bənzəyir, yəni adi haldan çox, qeyri-adi halın funksiya daşıyıcısı olur. Daha doğrusu, qəhrəman üçün mümkün olmayanı mümkün edir. Göyatlının özü ilahi funksiyalıdı və bir yaradanla xilqət arasında vasitəçidi (15, 146-147).

Bizcə, M.Allahmanlı çox düzgün müşahidə etmişdir ki, «göy atlı» (dərviş, Həzrət Əli-Xızır-Nəbi-M.C.) «qeyri-adi halın funksiya daşıyıcısıdır». Bu baxımdan tədqiqatçı «göy atlının» «vasitəçi» rolunu düzgün müəyyənləşdirmişdir.

Bildiyimiz kimi, dastanlarda buta verən ilahi qüvvə axıradək qəhrəmanı müşayiət edir. Bu-dərviş, Həzrət Əli, Şahmərdan, Ağa, göy atlı, Xızır peyğəmbər, Xızır Nəbi və s. adlarla adlandırılır. Mahiyyət eynidir. Bunlar hamısı bir obraz kompleksinə daxildir. Həmin obraz isə mediator-vasitəçi olmaqla türk epik ənənəsinin vacib struktur elementlərindəndir. Öz kökü etibarilə bu obraz kompleksi şaman kompleksinə gedib çıxır. Bu, şamanın bu dünya ilə ruhlar dünyası arasındakı vasitəçiliyinin dastandakı uzun yol keçmiş transformasiyasıdır. Həzrət

Əli obrazına münasibətdə hər şey aydındır. Bu axırıncı transformasiyalardandır. Xızır Nəbi obrazına gəldikdə isə mərhum mifoloq M.Seyidovun tədqiqatlarına görə, Azərbaycan folklorunda ərəb Xıdır Nəbi obrazı ilə Azərbaycan Xızır obrazı arasında kontaminasiya (çarpazlaşma) getmişdir. Bu çarpazlaşmanın səbəblərini o, geniş aydınlaşdırır. Ancaq bizim üçün burada əhəmiyyət kəsb edən istər ərəb Xıdırının, istərsə də türk Xızırının xilaskarlıq baxımından qovuşmalarıdır. M.Seyidov yazır ki, Xızırın aşiqlərə kömək etməsi məsələsi bir çox mifik inamlarla, təbiəti, həyatı, hətta insanların ailə quruluşunu dərk etməsi ilə də bağlıdır. Xızır həm gəncləri bir-birinə sevdirir, həm də darda qalanlara kömək əlini uzadır. Onun vurğun-aşiq etdiyi oğlanlar birdən-birə aşıq da olurlar. Deməli, Xızır gəncləri həm aşiq, həm də aşıq edir (101, 129).

Dedik ki, həzrət Əli, Xızır Nəbi, dərviş eyni bir obraz kompleksidir. Yəni başlanğıcda bu obraz kompleksi şamanın ruhlarla mediativ əlaqəsi kompleksinə gedib çıxır. Həzrət Əli sonrakı hadisə olduğu üçün bu xüsusda Xızır Nəbi geniş material təqdim edir.

Bildiyimiz kimi, epik mətnlərdə Xızır «Xızır İlyas» da adlandırılır. Bu xüsusda M.Seyidov yazır ki, Xızır yaşıllıq, İlyas isə su məbudu olmuşdur (101, 58). Mərhum T.Xalisbəyli yazır ki, Xızır və İlyas zülmətə gedərkən rastlaşırlar və dirilik suyunu içəndən sonra Xızır səhralara, İlyas dənizlərə sarı üz tutur (68, 233). Tədqiqatçı D.Yeremeyevə görə, İlyasın –peyğəmbər İlyanın obrazı Bibliyaya gedib çıxır və Xızır obrazının

müxtəlif səciyyəli mifoloji qatışıqları olsa da, o, sırf müsəlman mifologiyası obrazıdır (153, 221-222). M.Təhmasibə görə, Xızır bahar müjdəçisi, sənətkarlar hamisi, yolçular köməkçisi olan əsatiri məbud, peyğəmbər idi (107, 71).

Göründüyü kimi, Xızır ilahi obrazdır, peyğəmbərdir və ilahi dünya ilə bu dünya arasında vasitəçilik -mediatorluq edir. Onun bu funksiyası mifoloji mənşəlidir. Heç təsadüfi deyildir ki, orta əsr Azərbaycan abidəsi «Munisnamə»də o, quş cildli xilaskar peyğəmbərdir və ağacla bağlıdır (128, 71). Onun quş cildində olması və mütləq ağacla bağlılığı bu obrazın mifolojiliyinə dəlalət edir. Quş cildi onun zoomorfik səciyyəsini, ağacla bağlılıq ilə Dünya Ağacı ilə əlaqədar mediativ obraz olmasını göstərir.

Xızır Nəbidir, yəni peyğəmbərdir. Peyğəmbər isə müqəddəsdir. Bu baxımdan Xızırın funksiyasında olan hər bir şey müqəddəslərin funksiyasına uyğundur. A.Y. Qureviç yazır ki, müqəddəs iki dünyaya və iki temporallığa (iki paralel zaman -M.C) eyni zamanda mənsubdur. O, bir insan kimi, qeyri-kamil yer dünyasının əsiridir, ancaq onun müqəddəsliyi bu dünya ilə bağlı deyildir; bu müqəddəslik əbədiyyətin şəfəqidir və bu mənada o, elə həyatdaca həm də o biri dünyada yaşayır. Müqəddəs sağ olduqca əbədiyyət onun simasında yer zamanına qoşulur. O, adamlar arasında əbədiyyətin daşıyıcısıdır (148, 19).

Göründüyü kimi, Xızır bu dünya ilə o dünya, bu dünya zamanı ilə o dünya zamanı arasında vasitəçidir. Bu vasitəçilik Xızırın daxil olduğu obrazlar

kompleksinə bütövlükdə aiddir. Həmin vasitəçilik olmadan isə Aşiq-Məşuq obrazlarının kompleks mövcudluğu mümkün ola bilməz. Axı, məhəbbət dastanlarında Məşuqə ilahi gözəlliyin daşıyıcısı, İlahinin təcəllasıdır. Bu baxımdan dərviş Xızır həzrət Əli Aşiqlə Məşuq arasında, əslində bu dünya ilə o dünya, insanlar dünyası ilə İlahi Dünya arasında vasitəçilik edirlər. Bu vasitəçilik dastanda həm birbaşa vasitəçilikdir (bu yolla qəhrəmanlar dünyaya gəlirlər, bir-biri ilə buta yolu ilə nişanlanırlar), vasitəçilik həm də xilaskarlıq şəklində təzahür edir: mediator bütün hallarda qəhrəmanı xilas edir. İşə qarışmalı olur. Orasını da yada salaq ki, onun bütün xilaskarları möcüzəli olur. Döyüşən qəhrəmanın könlünə söz doldurur, ona verilmiş müəmmaların cavabını sirli şəkildə qəhrəmana «pıçıldayır». Aşiq qəhrəman bütün hallarda öz hamisinin köməyi ilə qələbə çalır. Bu, arxaik dastanlarında qəhrəmanın tayfa əcdadından, totem əcdad-ruhdan, şamanın şaman ruhundan aldığı köməklə genetik baxımdan birdir və ordan gəlir. Bu baxımdan dərviş -İmam Əli, Xızır obraz kompleksinin struktur-semantik kökləri əski şaman kompleksinə, onun ruhlarla əlaqələrinə gedib çıxır.

Məhəbbət dastanlarında, dedik ki, baş qəhrəmanlar Aşiq və Məşuqdur. Bunlarla eyni semantik cərgədə Vasitəçi-Mediator obrazı dayanır. Düzdür, mediator süjet fəallığına malik deyil. Ancaq struktur-semantik planda Qəhrəman və onun Sevgilisi Mediator obrazsız sadəcə düşünülə bilmir. Bu baxımdan Vasitəçinin süjet fəallığının nə dərəcədə olmasından asılı olmayaraq, o, semantik qütblər

arasında əlaqəyaradıcı obraz kimi dastanın strukturu üçün çox vacib elementdir. Bu baxımdan Aşiq, Məşuq və Vasitəçi (dərviş-həzrət Əli-Xızır Nəbi) obrazlarından sonra məhəbbət dastanlarındakı bütün obrazlar adi status daşıyır.

Bir qədər əvvəldə dedik ki, məhəbbət dastanlarında arxaik dastanlardakı Kişi-Qadın oppozitiv münasibətlər şəbəkəsi yoxdur. Burada baş qəhrəmanlardan sonrakı obrazları heç cür kişi-qadın qoşalığından təsnif etmək olmaz.

Gördük ki, həm qəhrəmanlar, həm də qəhrəman olmayan obrazlar içərisində həm kişi, həm də qadın var. Elə bu cəhətdən kişi-qadın təsnifat qoşalığı məhəbbət dastanları obrazları üçün arxaik, keçilmiş struktur mərhələsi kimi yaramır.

Əvvəldə onu da demişdik ki, məhəbət dastanlarındakı Qəhrəman -Antoqonist (Antiqəhrəman) qoşalığının sol qütbü iki qəhrəmanı nəzərdə tutur; aşiq və məşuq. Bu baxımdan məhəbbət dastanlarındakı obrazlar qəhrəman və antoqonist qoşalığından təsnif olunur. Yəni qəhrəmanın semantik sahəsinə daxil olan obrazlar və antiqəhrəmanın semantik sahəsinə daxil olan obrazlar. Öncə diqqəti antiqəhrəman cəlb edir.

Antiqəhrəman kimdir? Əslində bu sualı belə qoymaq məqsədəmüvafiqdir: kimlər antiqəhrəman ola bilərlər?

Bu sualın nəzəri cavabı aydındır. Antiqəhrəman həmişə qəhrəmanın kosmik dəyəri əldə etməyinə mane olur. Burada qəhrəman və antiqəhrəman qoşalığı çox

sadə şəkildə yaxşı-yaman, gözəl-çirkin, xeyirxah-zalım və s. kimi etik qoşalıqlardan daha aydın dərk olunur. Bu baxımdan qəhrəman və antiqəhrəman semantik qarşıdurması arxaik dastançılıqdan, mifoloji eposlardan gəlir. İlk mifoloji rəvayətlərdən başlayaraq qəhrəman antıqəhrəmanla vuruşur. Bu vuruşun mahiyyəti heç vaxt dəyişmir. Dəyişən forma, şəkil, kosmik dəyərin özü olur. Yəni qəhrəmanla antiqəhrəman həmişə vuruşurlar; bu vuruşun səbəbi cürbəcür ola bilər. Onun bütövlükdə adı kosmik dəyərdir. Məhəbbət dastanlarında bu kosmik dəyər qəhrəmanın sevgilisdir. Burada model belədir: Aşiq Məşuqa qovuşmaq istəyir. Antiqəhrəman və onu dəstəkləyən şər qüvvələr buna mane olur. Qəhrəman sonda antiqəhrəman üzərində qələbə çalır. Qeyd edək ki, Azərbaycan məhəbbət dastanlarında klassik şəkildə cilalanmış antiqəhrəmanlar var. Bunlardan biri «»Alı xan- Pəri» dastanındakı qara Vəzirdir.

Qara Vəzir dastana hadisələrin məcraya düşdüyü bir zamanda, yəni gec daxil olur. O, iblis xarakterlidir, ikiüzlüdür, mənən eybəcərdir. O, axıracan şər işlərlə məşğul olur və axırda öz şərinin qurbanı olur. O, təsadüfi olaraq Qara Vəzir adlandırılmır. Burada aydın göründüyü kimi, «qara» epitet şər, mənfi anlam daşıyır. Pərinin başına gələnlərin səbəbkarı onun ögey qardaşı olur. Ancaq Pərinin dastanda geniş təsvir edilmiş sonrakı taleyində əsas antiqəhrəman rolunu Qara Vəzir oynayır. Bu baxımdan antiqəhrəman obraz strukturunun bir neçə əsas daşıyıcısı ola bilər. «Alı xan-Pəri» nağıl mənşəli dastanında qara

qüvvələrin belə sıralanmasını görürük. Bu baxımdan dastan qəhrəmanı əslində heç vaxt antiqəhrəmansız olmur və əslində onun bütün qəhrəmanlıqları da elə bu antiqəhrəman üzərində mübarizə və qələbə ilə müəyyənləşir.

«Əsli-Kərəm» dastanındakı Qara Keşiş surəti də statik strukturlu antiqəhrəman obrazlarındandır. O, axıradək öz antiqəhrəman funksiyasını heç kəslə mübadilə etmədən yerinə yetirir. Onun da adının «qara» epiteti ilə müşayət edilməsi onun şər, qara əməllər sahibi olması ilə bağlıdır.

Vaxtilə M.H.Təhmasib «Əsli-Kərəm» dastanı ilə qazax, başqırd, qaraqalpaq və s. Orta Asiya türk xalqları arasında yayılmış «Kozi Körpəş və Bayan Sulu» dastanı arasında bağlılıq görmüşdür. O, bu iki dastanın ortaq struktur məqamlarını (hər iki əsərdə valideynlərin övladsızlıqlarını, uşaqların nəzir-niyazla anadan olmalarını və göbəkkəsmə adaxlanmalarını və bir sıra başqa ortaq motiv və süjetləri) nəzərə alaraq bu dastanlar arasındakı oxşarlığın «ümumi» olmadığını irəli sürmüşdür. Bu baxımdan M.H.Təhmasib adların da oxşarlığına diqqəti cəlb edir: Körpəş-Kərəm, Sulu-Əsli (107, 302-303). Diqqəti cəlb edən həm də Əslinin atası Qara Keşişlə Bayan sulunun atası Qarabaydır. Hər ikisinin adında «qara» epiteti var. Hər ikisi namərddir, sözündən qaçandır, şər işlər görməkdən çəkinmirlər. Bu baxımdan Azərbaycan dastanında Qara Keşişin erməni olması əski yaxşı-pis arxetipindən gəlir. Bu mənada bu gözəl dastan çox əski mənşəli

olmaqla Azərbaycan mühitində dəyişmələr keçirmiş və Qarabay-Qara Keşiş transformasiyası baş vermişdir.

Azərbaycan məhəbbət dastanlarında antiqəhrəman kimi adətən göbəkkəsmə nişanlılar olan gənclərdən qızın atası çıxış edir. Qara Keşiş Əslinin atası idi. «Tahir və Zöhrə» dastanında Zöhrənin atası Hatəm Sultan da qızın atası kimi əslində ənənəvi funksiyanı yerinə yetirir. O, çox zalım təsvir olunur. Ümumiyyətlə, antiqəhrəmanlar zalım, qan tökməkdən qorxmayan, öz şər fikirlərindən ötrü istənilən qana, şərə gedən adamlardır.

«Aşıq Qərib» dastanındakı antiqəhrəman - Şahvələd dastana gec daxil olur. Buna baxmayaraq o da Qarar Vəzir, Qara Keşiş, Hatəm Sultan kimi dinləyici nifrətinə səbəb olur. Şahvələd qızın atası deyildir. Ancaq o da qızın qohumu-əmisi oğludur. Bu baxımdan əslində Şahvələd də qızın qohumu olmaqla «qızın atası» antiqəhrəman kompleksinə daxil olur.

Azərbaycan məhəbbət dastanlarında qadın obrazları bitkin bir qalereyanı təşkil edir. Bunun başında Məşuqə obrazı dayanır. Sonrakı cərgələrə ana, cürbəcür qarılar, məşuqənin rəqibləri daha çox aid olunurlar. Bunları bu baxımdan Antiməşuqə adlandırmaq olar. Diqqəti Ana obrazı cəlb edir.

Ana surəti məhəbbət dastanlarının obrazlar sistemində böyüklüyü,dəyanəti ilə seçilir. Ümumən, Azərbaycan folklorunun tarixi mənzərəsinə diqqət yetirdikdə qadan-ana obrazının həyat-yaşam simvolu kimi götürüldüyünün şahidi oluruq. Ana obrazları məhəbət dastanlarında dinamik süjet hərəkətinə malik

olmasalar da, onların da özünəməxsus semantikası var. Bu semantika hər şeydən əvvəl analıqla bağlıdır. Qəhrəmanların anaları öz uşaqlarının sevmək hüquqlarını başa düşsələr də onların uzaq yola çıxmalarından narahat olurlar və bu narahatlıq dastanlarda çox təbii və yüksək poetikliklə təsvir olunur. Beləliklə, məhəbbət dastanlarında təsvir olunan ananın ilk semantik cizgisi onun analıq funksiyası ilə bağlıdır Belə bir analıq funksiyası qız qəhrəmanın anasına münasibətdə özünü doğruldur. Buradakı ana qızın sirdaşıdır və əksərən qızın tərəfində çıxış edir.

Qadın-ana obrazının arxaik mətnlərdə mifoloji-magik təsəvvürlərlə əlaqəsi var. Belə ki, əski düşüncədə Yer Ana kompleksi çox mürəkkəb struktura malik mifoloji düşüncə vahidlərindəndir. Bu baxımdan Azərbaycan məhəbbət dastanlarında həmin Yer-Ana kompleksi birbaşa yoxdur, Biz sadəcə canlı bir ana obrazı görürük. Ancaq bu ana obrazında yaşam-həyat başlanğıcı görünməkdədir. Analar öz oğul və qızlarından ötrü narahatdırlar. Bu təkcə təbii bir hissin təsviri yox, ananın əski mətnlərdəki həyatın, ocağın qoruyucusu olmaq semantikasından gəlir. Özbək xalq eposlarında qadın obrazlarını təhlil etmiş Q.Q.Musina öz fikirlərini belə ümimiləşdirir ki, folklor təfəkkürü qadın-ana obrazının simasında həyati başlanğıc təsəvvürünü cəmləşdirmişdir: o, insanı dünyaya gətirir, böyüdür, bəşəri varlığı davam etdirir. Bu mənada qadın-ana həyat uğrunda mübarizənin əsas və aparıcı qüvvəsidir (182, 9-15).

Maraqlıdır ki, Azərbaycan məhəbbət dastanlarındakı ana obrazları statik semantikaya malikdirlər. Belə ki, onlar bir qayda olaraq müsbət səciyyəli obrazlardır. Bunun Azərbaycan məhəbbət dastanları üçün ümumi bir səciyyə olması təsadüfi olmayıb ümumtürk arealı ilə təsdiq olunur. Yenə də Q.Q.Musinanın tədqiqatından göründüyü kimi türkmən və özbək dastançılığında, eləcə də ümumən türk folklor arealında ana obrazı ziddiyyətlərlə bağlı prosesə müdaxilə etmir. O, həmin proseslərin iştirakçısı deyildir. Ana obrazı həmin proseslərin fövqündə duran müqəddəs duyğular kompleksini ifadə edir (182, 27-32).

Ümumiyyətlə, Azərbaycan məhəbbət dastanlarında qadın ərinə vəfalı bir varlıq kimi təsvir olunur. Əslində o, ərinin köməkçisi kimi çıxış edir. Belə obrazları qadın-köməkçi obrazlar adalındırmaq olar. «Şah İsmayıl-Gülzar» dastanındakı Ərəbzəngi, «Seydi-Pəri» dastanındakı Pəri həm qadın, həm də igid, qəhrəmandırlar. Qadınların igid olaraq təsvirinə qəhrəmanlıq dastanlarında geniş təsadüf edilir. Məhəbbət dastanları qadınları çox «zərifləşdirmişdir». Bununla bərabər bu zərif obrazların öz igid, qəhrəman, döyüşkən «keçmişləri» ilə əlaqəsi də qorunub qalmışdır. Qadınların belə «qəhrəmanlıq keçmişi» təsadüfi olmayıb bu obrazları öz şüurunda yaşadan türk etnik-mədəni sistemində qadının oynadığı tarixi-mədəni rolla şərtlənir. Görkəmli şərqşünas-türkoloq V.V.Bartold göstərir ki, türk etnik sistemi daxilində qadınlar tarix boyunca azad və sərbəst iradə sahibi, mənəvi və fiziki kamillik örnəyi olmuşlar (132, 649).

Qadın obrazları sırasına qarılar da daxildir. Məhəbbət dastanlarından qarılara səciyyələndirən belə bir formul daim keçir; qarılar cürbəcür olur, ipək qarılar, köpək qarılar, napak qarılar və s.. Bu formula cürbəcür şəkildə dastanlarda tuş olunur. Məsələn, "Qurbani" dastanında butadan ayılmayın Qurbanini ayıltmaq üçün qarı çağırmağın zərurət olduğunu bildirirlər:

«Dedilər:

-Sənin oğlunun dərdini qarılar bilər. Onları çağır.

Mirzalı xan gedib ipək qarını da, köpək qarını da, napak qarını da çağırdı...» (33, 207).

Qarı obrazının semantikasına ümumi şəkildə toxunmadan əvvəl deməliyik ki, qarıların cürbəcür olması haqqında dastanlardakı formul məhəlli yox, ənənəvidir. «Kitabi -Dədə Qorqud»un müqəddiməsində qarılar haqqında məlum deyimi xatırlayaq:

*«Qarılar dörd dürlüdür:*
*Birisi solduran soydur.*
*Birisi dolduran toydur.*
*Birisi evin dayağıdır.*
*Birisi necə söylərsən, bayağıdır»* (75, 17).

Beləliklə, qarıların epik mətndə -dastanda təsnif formulu ən azı «Kitabi-Dədə Qorqud» eposundan gəlir. Lakin məsələnin mahiyyəti burada indiki halda qarıların bu təsnifi ilə bağlı yox, qarı obrazının dastandakı semantikası ilə bağlıdır. Bu baxımdan diqqəti mühüm bir məqam çəkir. Demək olar ki, bu-

tavermə motivli Azərbaycan məhəbbət dastanlarının əksəriyyətində butavermə hadisə kompleksində qarılar iştirak edir. Bu qətiyyən təsadüfi deyil. Onun butavermə prosesində daimi və sabit rolu var; butadan ayılmayan qəhrəmanı bu vəziyyətdən çıxarmaq üçün həmişə qarı çağırırlar və qarı qəhrəmanın buta aldığını hamıdan tez başa düşür. Sual meydana çıxır: qarı nə üçün çağırılır? Əslində sual daha geniş olaraq belə qoyulmalıdır: özündən getmiş, bayılmış qəhrəmanı ayıltmaq üçün nə üçün həkim, təbib, loğman, baxıcı, falçı yox, məhz qarı çağırılır.

Dedik ki, qarının butavermə prosesində yeri və funksiyası sabitdir. O, buta almış qəhrəmanı ayıldır, yaxud ayılmasına kömək edir. Butadan ayılmış qəhrəmanı heç kəs başa düşmür, ancaq bircə qarı onun nə istədiyini anlayır. Bütün bunlar göstərir ki, qarının butavermə prosesindəki sabit mövqeyi onun əski ritual-mifoloji funksiyası ilə bağlıdır. Qəhrəmanın butayuxusu adi yuxu deyildir. Bu yuxuda o, ilahi qüvvələrlə ünsiyyətdə olur. Onun butadan ayılma prosesində bir qayda olaraq qarı iştirak edir. Butavermə prosesinin əski inisiasiya (ölüb-dirilmə) mərasimləri ilə bağlı olduğunu xatırlasaq, onda qarının burada bir qayda olaraq daim iştirak etməsinin mərasimi xarakter daşıdığını ehtimal etmək olar. Başqa sözlə, diqqət burada qarının funksiyasına yönəldilmişdir. Qarı butavermə mərasimində buta almış qəhrəmanın butadan ayılma prosesinin iştirakçısıdır. Qarı-qadının əski inisiasiya mərasimində konkret olaraq hansı rol oynadığını indi araşdırmaq

çox çətindir. Çünki bunun üçün butavermə mərasiminin ritual-mifoloji köklərinin müəyyənləşdirilməsi istiqamətini rəhbər tutan xüsusi bir araşdırma lazımdır. İndiki halda bunu burada etmək mümkün deyil. Ancaq qarının butavermədəki statik rolu onun məhz mərasim səciyyəli obraz olduğunu göstərir.

Azərbaycan məhəbbət dastanlarında başqa qarılara da təsadüf olunur. Bunlar da müsbət və mənfi xüsusiyətlərin daşıyıcılarıdır. Əsasən mənfi rolda olurlar. Şər qüvvələr pulun köməyi ilə qarılardan öz hiyləgər niyyətlərinin həyata keçirilməsində istifadə edirlər. Qarıların cürbəcür olduğu dastan mətnləri ilə birbaşa təsdiq olunur. Sanki dastan mətninin özü dastan poetikasının qarı obrazları qalereyasının təsnifatını özü verir. «Qurbani» dastanından səciyyəvi məqama diqqət yetirmişdik. «Alı xan-Pəri» dastanında da qarıların eyni cür təsnifatı var: «Qarılar cürbəcür olur: Pərcahan, Hürcahan, Zərcahan, Napak qarı, İpək qarı, Köpək qarı» (33, 383). Elə bu təsnifatdan göründüyü kimi, dastanlarda hər cür qarılara, o cümlədən müsbət qarılara («ipək qarılar») rast gəlmək olur. Qarılar bir çox hallarda qəhrəmanların ürək sirdaşı olurlar. Ya onlara xoş xəbərlər aparırlar, ya onlara məsləhət verirlər, ya da həyan olurlar. Bu məqamlarda qarılar əsil yardımçı obrazlara, köməkçi surətlərə çevrilirlər.

Azərbaycan məhəbbət dastanlarında tuş olunan obrazlardan biri də çobandır. Dastanlarda çoban obrazı mərd və mübariz təsvir olunur. Onlar dastan qəhrəmanlarının sadiq köməkçiləridir; xəyanət, hiylə və

riyakarlıq nə olduğunu bilməyən insanlardır. Bu baxımdan məhəbbət dastanlarındakı çoban obrazlarının ən yaxın arxetipinin «Kitabi-Dədə Qorqud»dakı Qaraca Çoban olduğu göz qabağındadır. Çünki məhəbbət dastanlarında əsasən müsbət planda təsvir olunan çoban obrazlarının səciyyəvi cizgilər kompleksinin konsentrasiya başlanğıcının Qaraca Çobana gedib çıxması aydın görünür. Düzdür, «Kitabi-Dədə Qorqud»da mənfi səciyyəli Qonur Qoca Sarı Çoban da vardır. Ancaq çobanların xarakter xüsusiyyətlərində onların «arxetip babaları» Qaraca Çobanın xasiyyətləri açıq görünür.

Azərbaycan məhəbbət dastanlarındakı çoban surətləri mexaniki xarakterli obrazlar deyildir. Məhəbbət dastanlarında onların səciyyəvi xüsusiyyətləri var. Bu xüsusiyyətlər sırasına onların sadəliyi, saflığı, hiyləgər olmamaları, düzgünlükləri daxildir. O cümlədən çoban obrazlarına məhz çobanlığa məxsus bir sadəlövlük də xasdır. Bu sadəlövlükdən dastançılar bir qədər də komik situasiyaların yaradılmasında istifadə etmişlər. «Abbas və Gülgəz» dastanında Abbas çobanın öz ağasından aldığı bir illik əmək haqqını qabaqcadan ödəyib onu aşıq qiyafəsində deyişmə məclisinə aparır. Guya ki, çoban-ustad, Abbas isə onun şagirdidir. Burada çox komik vəziyyətlər alınır və bu ürəkdən gələn gülüşün əsasında çoban xarakterindən doğan sadəlöhvlüyün yaratdığı situasiyalar durur.

Yaxud «Tahir-Zöhrə» dastanındakı çoban surəti dolğun və bitkin bir insan obrazıdır. O, çətin vəziyyətə

düşən qəhrəmana kömək əlini uzadır və heç nədən qorxmayaraq mərd bir insan kimi hərəkət edir. Bu, təsadüfi olmayıb, başqa dastanlarla da təsdiq olunur. «Valeh-Zərnigar» dastanındakı çoban da qəhrəmana arxa olur. Çobanların namuslu, qeyrət çəkən insanlar olması «Alı xan-Pəri» dastanından daha aydın görünür. Buradakı çoban nəcib, namusludur. O, dara düşmüş, köməksiz Pəriyə sataşmır, əksinə bir qardaş kimi onun namusunu qoruyur:

«Pəri xanım dillə də dedi:

- Çoban qardaş, gəl and içək, bacı -qardaş olaq!

Çoban dedi:

- Olaq!

Hər ikisi and içib, bacı-qardaş oldular» (33, 396).

Məhəbbət dastanlarında köməkçi obrazlardan biri kimi Cütçü obrazına da rast gəlinir. Bu obraza daha çox nağıl və qəhrəmanlıq dastanlarında tuş olunur. Görünür, məhəbbət dastanlarına oradan gəlmişdir. «Lətif şah» dastanında cütçü obrazının kamil nümunəsi var. Obrazın təhlili göstərir ki, cütçü burada şad xəbər müjdəçisi kimi verilmişdir. Onu da qeyd etməliyik ki, bu obraza bütün məhəbbət dastanlarında rast gəlinmir və bu göstərir ki, həmin obrazın dastanın poetik strukturunda oynaya biləcəyi struktur-semantik funksiya yoxdur. Daha doğrusu, onun statik funksiyası nağıl və qəhrəmanlıq dastanlarında qalmış və məhəbbət dastanlarının poetikasına keçə bilməmişdir.

Məhəbbət dastanları üçün səciyyəvi obrazlardan biri keçəldir. Keçəl Azərbaycan epik folklorunun məşhur obrazlarındandır. Ona nağıl və dastanlarda

çox rast gəlinir. Mətnlərin təhlili göstərir ki, keçəllər bir qayda olaraq hiyləgərlik, çoxbilmişliklə bağlı olurlar. Onlar hər hansı çətin situasiyadan hiylə, fırıldaq kimi üsullarla çıxmağı bacarırlar. «Koroğlu» dastanındakı Keçəl Həmzə belə hiyləgər obrazdır.

Keçəl obrazının məhəbbət dastanlarındakı semantikası ilk baxışdan Novruz bayramındakı Keçəl obrazı ilə az əlaqəli görünür. Əslində isə istər mövsüm mərasimləri, istərsə də dastanlar folklor mətnləri olmaqla eyni bir dünyagörüşün-folklor dünyagörüşünün məhsullarıdır. Bu baxımdan mərasimi keçəllə epik keçəlin bağlılığı vardır. Hər ikisinin eyni xarakterli olması-yalan, hiylə, çoxbilmişlik və s. bağlı olmaları eyni semantik başlanğıca aid olmalarını göstərir.

Keçəl obrazının semantik başlanğıcı onun keçəliyi ilə bağlıdır. Keçəllik anormallıqdır. Hər bir anormallıq kosmoloji şüurla kosmik, yaxud xaotik qüvvələrlə bağlılıq, onların əlaməti olma kimi dəyərləndirilmişdir. Keçəllərin mətnlərdə hiyləgərliyi, çoxbilmişliyi, mənfi səciyyəli situasiyalarla bağlı olmaları onları xaotik semantika ilə bağlamağa imkan verir. Halbuki bunu indiki halda hökm kimi vermək olmaz. Çünki bu obraz struktur-semantik istiqamətindən xüsusi araşdırma tələb edir.

Azərbaycan məhəbbət dastanlarında keçəl əsas obrazlar sırasına (baş qəhrəmanlar, mediator, əsas antoqonistlər) qalxa bilməyərək qarı, çoban, cütcü kimi köməkçi, ikinci dərəcəli obrazlar sırasında qalır. Halbuki diqqətlə araşdırılsa, monoqrafik səciyyəli iri

bir araşdırma aparılsa, onun necə də dərin və mürəkkəb semantikaya malik obraz olduğu görünər.

«Tahir-Zöhrə» dastanında keçəl çuğul kimi təsvir olunur. Tədqiqatçı M.Hüseynov keçəl obrazı ilə bağlı yazır ki, məhəbbət dastanlarının bəzilərində keçəl obrazı müəyyən məlumatın, informasiyanın verilməsi işinə xidmət edir (67, 73). Burada, köməkçi-epizodik obraz olaraq görünür. Məsələn, «Qurbani» dastanında Mirzalı xan Qurbanini tapa bilmir. Çöldə dana otaran keçəl ona deyir ki, əmi, oğlun o zağanın içərisinə girdi. Öküzlərin birini canavar yedi, biri də bataqlıqda batıb öldü. Oğlunun da ürəyi gedib qalıb zağada (33, 207).

«Aşıq Qərib» dastanında lotubaşı bir keçəlin əlindən qovununu alır. Keçəl qovunu qaytarmaq şərti ilə lotubaşıya Rəsulun atasının var-yoxunu ehsan şəklində dağıtmasını xəbər verir (33, 167).

Keçəllər göründüyü kimi, həm də müəyyən məlumatlarla bağlı olur. Bu, əslində gələcək tədqiqatçılar üçün obrazın semantikasını başa düşməkdə bir «açar» rolunu oynaya bilər.

Məhəbbət dastanlarında birinci və ikinci dərəcəli rollardan sonra gələn rollarda – köməkçi-yardımçı obrazlar sırasında Lələ obrazı da var. Lələ «Əsli-Kərəm» obrazından bizə məlumdur. O, Kərəmi axıradək müşayiət edir. Bu baxımdan dinləyici lələnin mənəviyyatının bütün cəhətlərinə bələd olmaq imkanı qazanır. Bu baxımdan Lələ mərd, qorxmaz, sədaqətli, çörək itirməyən, xeyirxah bir insandır. «Əsli-Kərəm» dastanındakı lələ obrazını dinləyici və oxucu sevməyə

«məhkumdur». Çünki dastanda bu obraz gözəl, ali xarakterli insanın kamil örnəyidir. Dastanda kərəmin lələsi Sofi adlandırılır. Sofinin «sufi» sözünün xalq deyimi olduğunu xatırlatsaq, Sofinin dastanda bir qayda olaraq müsbət prizmadan təsvir olunmasının da təsadüf olmadığı, müəyyən ənənə ilə bağlı olduğu qənaətinə gəlirik.

Sofi, Lələ obrazının başa düşülməsi üçün maraqlı cizgi onun kərəmlə insanlar arasında vasitəçilik etməsidir. Yəni Kərəm adamlarla sazla danışanda o, Kərəmin sazla dediyini sözlə nəql edir. Məsələn, Kərəmin karvanbaşı ilə rastlaşması epizodunda Kərəm ürəyindəkiləri sazla oxuyur. Bundan sonra: «Sofi macəranı bunlara nağıl elədi» (33, 91). Buradan aydın görünür ki, Sofi qəhrəmanın köməkçisi funksiyasını yerinə yetirir ki, bu da təsadüfi funksiya deyil. Qəhrəman və köməkçisi folklorda xüsusi semantikaya malik kompleksdir. Qəhrəmanın bir sıra köməkçiləri olur. Bu köməkçilər sırasına canlı insanlar da, sehirli vasitələr də daxildir. Bu mənada Sofi obrazı qəhrəmanın köməkçisi funksiyası kompleksinə girir. «Lətif şah» dastanındakı Lələ obrazı da bu baxımdan diqqəti çəkir. Düzdür, o, qəhrəmanın köməkçisi deyildir. Atasının yaxın köməkçisidir. Ancaq bununla bərabər, burada qəhrəman və köməkçisi kompleksi var.

Qəhrəman və köməkçisi kompleksi Lələ və Sofi obrazlarını qəhrəmanların yaxın dostları sayılan digər obrazlarla eyni sıraya qatmağa imkan verir. Çünki semantik mahiyyət birdir. Qəhrəman və köməkçi formulu.

Qəhrəmanın köməkçiləri formuluna lələ-Sofi obrazı ilə bərabər birbaşa daxil olan obrazlar saz və at obrazlarıdır. Əvvəlcədən qeyd etməliyik ki, bu obrazların məhəbbət dastanlarındakı fəallıq dərəcəsi eyni deyildir. Sazla bağlı əvvəldə demişdik. İndi isə bu obraza qəhrəmanın köməkçisi formulu daxilində yenidən qayıtmaq lazım gəlir.

Saz məhəbbət dastanı baş qəhrəmanının ayrılmaz aləti olmaqla əslində məhəbət dastanlarının atributu kimi də çıxış edir. Diqqətlə baxdıqda saz, ümumiyyətlə, dastan qəhrəmanlarının ayrılmaz atributudur. «Koroğlu» dastanında Koroğlu sazla birlikdədir. «Kitabi-Dədə Qorqud»da oğuz bəyləri qopuza xüsusi hörmət bəsləyir, əlində qopuz olanı öldürməyib, qopuz xatirinə rəhm edirlər. Sazın qəhrəmanın köməkçisi modelinə daxil olması saz-qopuzun əski türk düşüncəsindəki semantikası ilə bağlıdır.

V.İ.Vasilovun tədqiqatlarından bəlli olur ki, əski mifoloji təsəvvürə görə, musiqi aləti (qopuz, tambur, davul, saz və s.) ruhlar dünyasına bağlıdır və bu səbəbdən də magik gücə malikdir (133, 121). Folklorşünas alim X.Koroğlu da xüsusi bir yazısında həm də sazın qoruyucu-himayəedici vəzifəni yerinə yetirməsindən, eləcə də bunun sazın şamançılıq sistemindən gələn mifoloji -ruhani keyfiyyət olmasından bəhs etmişdir (164, 49-500). Şaman mədəniyyətinin bilicisi Y.S.Novik də musiqi və musiqi alətinin magik-sehirli gücə malik, bunun əski mifoloji-mərasimi təsəvvürlərlə bağlı olmasından bəhs etmişdir

(185, 31).

Deyilənlər sazın bir musiqi aləti kimi magik təsəvvürlərlə bağlı olduğunu göstərir. Bu baxımdan musiqi alətinin magik funksiyalarına qoruyuculuq funksiyası da daxildir ki, bu da əsasən qəhrəmanlıq dastanlarından görünür. Məhəbbət dastanlarında saz çalmaq qabiliyyətini qəhrəman buta ilə alır. Bu baxımdan saz qəhrəmanın özü ilə onun könül dünyası arasında vasitəçilik edən mediator kimi çıxış edir ki, bu da onu qəhrəmanın köməkçisi modelinədə təsəvvür etməyə imkan verir. Bu, həm də onunla təsdiq olunur ki, qəhrəmanın sazsız təsəvvür olunmaması onun öz arxetipində «sənətkar» olmasından irəli gəlir. Bunu «Nəcəboğlan» dastanındakı butavermənin təhlilində lap aydın gördük. Məhəbbət dastanı qəhrəmanı öz sənətkar arxetipində şaman obrazına gedib çıxır. Şamançılıqda isə musiqi aləti onun yaxın köməkçisidir.

Məhəbbət dastanlarında at obrazına da təsadüf olunur. Ancaq qeyd etməliyik ki, məhəbbət dastanlarında atın qəhrəmanın birbaşa köməkçisi kimi çıxış etməsi yoxdur. Burada çox mürəkkəb transformasiya getmişdir.

Məhəbbət dastanlarının qəhrəmanlıq dastanlarından differansiasiya etdiyini nəzərə alsaq, at obrazı qəhrəmanlıq dastanlarından məhəbbət dastanlarına çox zəif formada keçmişdir. Qəhrəmanlıq dastanının qəhrəmanını atsız təsəvvür etmək mümkün deyildir. Ancaq məhəbbət dastanı qəhrəmanının atının olub-olmaması dastan mətnində

sturuktur-semantik baxımdan bir əhəmiyyət kəsb etmir. Qəhrəmanlıq dastanının qəhrəmanı döyüşçüdür və at onun obraz kompleksinin ayrılmaz hissəsidir. Məhəbbət dastanının qəhrəmanı Aşiqdir və onun aşiqliyinə atın elə bir dəxli yoxdur. Onda qəhrəmanlıq dastanındakı atın məhəbbət dastanına keçmədiyi təəssüratı yaranır. Əslində belə deyildir. Qəhrəmanlıq dastanlarındakı at obrazı məhəbbət dastanlarının elə struktur məqamlarında özünə yer tutur ki, onun arxaik atla əlaqəsi qəhrəmanlıq dastanlarındakı atların arxaik semantika ilə əlaqəsindən daha güclü olur.

Klassik qəhrəmanlıq dastanları olan «Kitabi-Dədə Qorqud» boylarında at alp igidlərin yoldaşıdır. Biz atı burada döyüş mövqeyində görürük. Başqa sözlə, at burada sırf praktik məqsəd-döyüş vasitəsi məqsədini daşıyır. Atın mifoloji-mərasimi funksiyaları burada qətiyyən üzdə deyil. Arxaik dastanlarda isə igidin atı tamamilə başqa funksiya daşıyır. O, bu dastanlarda nəinki döyüş vasitəsidir, həm də özü döyüşçüdür. Dara düşmüş, ölüm ayağında olan qəhrəmanı ölümdən qurtarır. Ən başlıcası, Yeraltı, Yerüstü dünyalara adlaya bilir. Başqa sözlə, at burada mifoloji dünyanın müxtəlif sferalarından asanlıqla keçə, birindən o birinə adlaya, müxtəlif dünyalarla ünsiyyətdə ola və beləliklə, dünyalar arasında əlaqə yarada bilir. Bu, normal mediativ funksiyadır. Atın bu funksiyası- mediatorluğu heç təsadüfi deyildir ki, onu qəhrəmanlarla bağlı

inisiasiya (ölüb-dirilmə səciyyəli keçid) mərasimlərinə bağlayır.

V.M.Jurmunski yazır ki, qəhrəmanın ad alması, yaxud ilk igidlik səfəri atın əldə edilməsilə bağlıdır. At qəhrəmanın sadiq yoldaşı və köməkçisidir. Onsuz səfərin məqsədinə çatmaq, qəhrəmanlıq göstərmək, o cümlədən qəhrəmancasına elçilik mümkün deyildir (157, 249). B.N.Putilov göstərir ki, atın əldə edilməsi-qəhrəmanın bioqrafiyasında çox mühüm akt olmaqla çox hallarda onu müəyyənləşdirir (191, 68). Folklorşünas B.Abdulla yazır ki, faktlar atın daha qədimlə, mifoloji, əsatiri hadisə və şəxslərlə əlaqədar olmasını söyləməyə imkan verir... Atın «Koroğlu» eposunda olduğu kimi, su ilə, dərya ilə əlaqəsi, hətta sudan törəməsi barədə bir sıra xalqların folklor nümunələrində də məlumat vardır (5, 103).

B.Abdullanın yazdığından göründüyü kimi, at su-dərya ilə əlaqələnir. Onun bu əlaqəsinə suyun mifoloji düşüncədə ilkin stixiyalardan olduğu işığında baxsaq, onda atın ilkin görüşlərlə bağlı olduğu qənaəti şübhə doğurmur. Onda bu halda onun inisiasiyası (ölüb-dirilmə) mərasimləri, mediatorluq funksiyası da aydınlaşmış olur. Mifoloq M. Seyidov bu barədə yazırdı ki, yalnız azərbaycanlıların Qırat, Düratı deyil, bir sıra türkdilli xalqlarda qəhrəmanların atları da ara-sıra su ilə az və ya çox dərəcədə bağlıdırlar. Əgər Qırat və Düratın atası dərya atıdırsa, başqa bir türkdilli xalqın qəhrəmanının atı su ruhundan yaranmadır. Bu, bizcə, ənənədən daha çox mifoloji inamlarla səsləşir. Axı su, türk xalqlarında ilkindir,

başlanğıcdır. Ona görə də hər şeyin başlanğıcı onunla bağlıdır (102, 280).

İndi isə atın bizim tədqiqatımız baxımından vacib olan mediativ funksıyasına diqqət edək. V.M.Jurmunski göstərir ki, sehirli nağılda olduğu kimi, qəhrəmanlıq nağılında da at qəhrəmanın sehirli köməkçisi kimi, daha möcüzəli xassələrə malikdir. O, öz görkəmini dəyişir, ulduza, quşa, milçəyə çevrilir, balaca dayçaya dönür. O, qəhrəmana ad verir, onun üçün möcüzəli şəkildə «el və mal-davar» yaradır, qismətində olan deyiklisini ona göstərir...O, qəhrəmanı sehirli vasitələrin köməyi ilə dirildir... (157, 249). S.S.Surazakov yazır ki, qəhrəman o vaxt döyüşçüyə çevrilir ki, öz döyüş atını əldə etsin. Buna qədər də o öz qəhrəmanlıq gücünü göstərsə də, qəhrəmanlıqlar etsə də, alp adı ala bilmir. Heç şübhə yoxdur ki, gənc igidin öz döyüş atına rast gəlməsi epizodu real şəkildə mövcud olmuş və şərq xalqları arasında yayılmış inisiasiya mərasimi (gənci ona ən qiymətli hədiyyə -at verməklə döyüşçüyə çevirmə) əsasında meydana çıxıb (199, 30-31).

Göründüyü kimi, at türk xalqları mifologiyası və folklorunda inisiasiya mərasimləri ilə əlaqəli düşünülmüşdür. Onun ölüb-dirilmə səciyyəli keçid mərasimləri ilə bağlılığı bu obrazın ilkin kosmoloji düşüncədə mediator -vasitəçi obraz olması ilə bağlıdır. At, qəhrəmanın nəinki köməkçisidir, eləcə də onun yol göstərəni, məsləhətçisi, xilaskarıdır. Qəhrəman atsız, atın möcüzəli xassəsi olmadan bu

qəhrəmanlıqları göstərə bilməz. Beləliklə, at möcüzə sahibi olan obrazdır.

«Altay-Buuçay» dastanında qəhrəman uzun müddətə ova gedir, arvadı və bacısı onun qoyduğu yasaqları pozurlar, başqalarına ərə getməklə ona xəyanət edirlər. Aranay və Çaranay hiylə ilə Altay Buuçayı öldürürlər. Altay Buuçayın ayğırı onu və oğlunu diriltmək üçün Gün-Kaanın səltənətinə qalxır. O, Gün xanın qızı Altın Düstükü (Qızıl Üzük) gətirmək istəyir. Qız Altay Buuçayı sağaltmağa razılaşır (199, 126-129).

Altay Buuçayın atı çox asanlıqla göyə (Göy dünyasına) qalxır, yerin altına enir, yeraltı, yerüstü məbudlarla ünsiyyətdə olur. Onun bu funksiyası mediativ funksiyadır. Azərbaycan məhəbbət dastanlarında ilk baxışda atın bu funksiyası yoxdur. Çünki Aşiqə at bir elə gərək olmur. O, atdan uzaqbaşı yol getmək üçün istifadə edə bilər. Qəhrəmanlıq dastanlarımızda isə Qırat və Düratı çıxmaq şərtilə atlar döyüş atlarıdır. Mifoloji funksiyadan məhrumdurlar. Ancaq məhəbbət dastanlarında çox mühüm bir məqamda atın əski inisiasiya mərasimləri ilə bağlı funksiyası qorunub qalıb.

Məhəbbət dastanlarında qəhrəmanların yolu vaxtında qət edə bilməyib yolda qalmaları var. Bu vaxt ya göy atlı zahir olur, ya boz atlı Xızır gəlir və s. Göy atlı, Xızır qəhrəmandan gözlərini yummağı tələb edir və qəhrəman «bir göz qırpımında» bir neçəgünlük yolu qət edir. Mifoloji baxımdan qəhrəman göy

atlının, Xızırın, Həzrət Əlinin atının hesabına belə qeyri-adi sürətlə hərəkət edə bilir. Bu, əski mediativ funksiyanın qalığıdır. Düzdür, dərhal etiraz oluna bilər ki, boz atlı Xızır, yaxud atlı Həzrət Əli kompleksi hazır şəkildə var. Ancıq qəhrəmanın yolda qalması onun başqa bir məkanda qalması deməkdir. Qəhrəman mənzil başına -ona lazım olan məkana keçmək istəyir. Bu, möcüzəli keçmə atların hesabına başa gəlir. Atlar arxaik eposlarda bir dünyadan o birinə asanlıqla adladıqları kimi, burada da bir neçə günlük yolu qət edib qəhrəmanı mənzil başına məhz möcüzəli şəkildə çatdırırlar. Məhəbbət dastanlarının əski mifoloji rəvayətlərin transformativ törəməsi olduğunu nəzərə alsaq, onda göy atın, Xızırın atının belə möcüzəli funksiyasının atların türk mifoloji düşüncəsində yerinə yetirdiyi mediativ funksiya ilə bağlı olduğu aydın olur. Burada unutmaq olmaz ki, atın üstündəki müqəddəs şəxsiyyətdir. Həmin müqəddəs şəxsiyyət öz möcüzəli atı ilə yenə də şaman miflərinə, şamanın o biri dünyalara səfər edərkən mindiyi ritual ata bağlanır. Şaman mərasimlərində at simvolundan istifadə edilir. Şaman atla o biri dünyalara keçir. Bu baxımdan şamanın atı möcüzəlidir. Eyni kompleks göz qabağındadır.

Bura qədər Azərbaycan məhəbbət dastanlarının obrazlar sisteminin nəzərdən keçirilməsi göstərdi ki, bir epik folklor mətni olmaqla məhəbbət dastanlarındakı obrazlar struktur-semantik funksiyaların ifadəçiləridir. Bu baxımdan məhəbbət dastanlarında təsadüfi obraz yoxdur. Bütün obrazlar müəyyən

funksiyaların daşıyıcıları olmaqla arxaik epos, mifloji rəvayətlərlə səsləşir. Obrazların bu struktur- semantik qatlarına enmə onların mövcud semantik tutumlarını bütün dolğunluğu ilə bərpa etməyə imkan verir. Bu halda məlum olur ki, öz kamilliyi, dolğunluğu, gözəlliyi, dəyərinin samballığı ilə dinləyici -oxucunu heyrətə salan bu obrazların bütün mükəmməlliyi Azərbaycan xalqının ulu mənəviyyatına, bədii-poetik keçmişinin ən dərin qatlarına bağlıdır.

# III FƏSİL

## MƏHƏBBƏT DASTANI ŞEİRİNİN POETİK-ÜSLUBI STRUKTURU

Azərbaycan məhəbbət dastanlarının poetikasının araşdırılması baxımından dastan şeirinin öyrənilməsinin xüsusi əhəmiyyəti vardır. Çünki struktur-semantik planda dastan nəsr və nəzm hissələrinin üzvi qovuşması kimi çıxış edir. Bu baxımdan dastanın poetik strukturunda nəzmin bir neçə yöndən reallaşan funksional istiqamətləri görünməkdədir. Bunun birincisi dastan şeirinin dastan nəsri ( dastanın yurd hissəsi) ilə bir epik sistem təşkil etməsi məsələsidir. İkincisi, dastan şeirinin sistem içərisində «sistem» kimi funksiyasıdır. Yəni dastan şeirinin bütöv dastan həcmində funksiyası var. Bu baxımdan dastanın yurdu (nəsri) ilə nəzmi üzvi qovuşmada, ayrılmaz tərkib hissəsi kimi çıxış edərək məhəbbət dastanı janr hadisəsini realizə edir. Birinci və ikinci fəsildə gördük ki, dastanın yurd hissəsinin özünəməxsus strukturu var. Bu onun süjet hadisəsi - epizm olmaq xüsusiyyəti ilə bağlıdır. Bu halda dastanın şeir hissəsi dastanın lirik hissəsidir və bu baxımdan bir epik hadisə olan dastan poetik sisteminin içərisindəki dastan şeirinin bir lirik növ kimi öz «sistem» xüsusiyyətləri var. Bir növ «sistem içərisində sistem» alınır. Bu, həqiqətdə də belədir. Çünki dastanın necə tərtib edilməsindən asılı olmayaraq dastan janr hadisəsini dastanın nəsr-süjet

hissəsi müəyyən edir. Burada «necə tərtib edilmə» dedikdə biz süjetin ənənəvi struktura malik olmasını, həmçinin məşhur bir aşığın şeirləri əsasında o, öləndən sonra sonrakı aşıqların dastan yaratmaları və s. halları nəzərdə tuturuq. Bundan asılı olmayaraq bütün hallarda dastanın «üz qabığı» onun süjet-nəsr hissəsidir. Süjet hadisələrin təşkil etdiyi dinamik sərhəd, hüdud kimi dastanın şeir strukturunu öz içinə alır. Əslində dastanın içərisində semantik baxımından irili-xırdalı bütün elementlər çüjeti reallaşdıran hadisələr «sapı» ilə bir-birinə «tikilir». Dastanın süjeti-yurd yerinin hadisə məntiqi dastan şeirinin düzüm strukturunu şərtləndirir. Başqa sözlə, dastan nəsri ilə dastan şeirinin sistemdaxili münasibətlərini öyrəndikdə görürük ki, dastan şeiri ilə dastan nəsri üzvi bağlarla bir-birinə bağlıdır. Yəni dastan şeiri dastanın mətninə hara gəldi səpələnməyib. Burada ciddi ardıcıllıq, mütənasiblik var. Bu mütənasibliyin məntiqi tərəfi dastanın yurdu ilə bağlıdır. Yəni yurddakı hadisələrin düzülüşü dastan şeirinin düzülüş məntiqini müəyyənləşdirir. Bu mənada dastan şeiri dastanın nəsr hissəsi ilə ayrılmaz şəkildə bağlıdır. Hər bir şeir dastandakı müəyyən vəziyyət situasiya ilə bağlı olur. Məhz bu cəhət bizi məcbur edir ki, Azərbaycan aşıq şeirinin içərisində bir differensiasiya əlaməti olaraq dastan şeiri növünü mütləqləşdirək. Fikrimizi bir qədər də aydınlaşdıraq.

Dastan şeiri aşıq şeiridir. Buna heç kəsin şübhəsi yoxdur. Yəni burada aşıq şeiri dedikdə heca vəzni əsasında formalaşmış Azərbaycan -oğuz şeiri nəzərdə

tutulur. Bu mənada bir tərəfdən baxanda dastan şeiri ilə aşıq-el şairi şeirləri arasında elə fərq yoxdur. Əslində belə bir kəskin differensiya, doğrudan da, yoxdur. Çünki dastanları da, aşıq-el şeirlərini də yaradan eyni sənətkarlar-aşıqlar, qismən el şairləridir. Bu baxımdan burada ciddi janr fərqindən söhbət gedə bilməz. Söhbət əslində janr fərqindən yox, funksional -üslubi məqam fərqindən gedə bilər. Yəni dastanda işlənən qoşma, gəraylı, müxəmməs, divani, təcnis və s. şeir janr və formaları ilə aşıqların dastandanqıraq yaratdıqları qoşma, gəraylı, müxəmməs, divani, təcnis və s. janr və formalar arasında poetik janr fərqi qətiyyən yoxdur və bunun isbata da ehtiyacı yoxdur. Məsələnin bütün mahiyyəti dastan şeirinin məzmunu ilə bağlıdır. Buradakı fərqi atalar sözləri ilə məsəllərin arasındakı fərqə də bənzətmək olar.

«İşləməyən-dişləməz» atalar sözü ilə «Sən çaldın» məsəlinin arasında poetik imperativləşmə baxımından heç bir fərq yoxdur. Yəni istər atalar sözündə, istərsə də məsəldə etnosun həyatının müəyyən sahəsi ilə bağlı universallaşmış həyat təcrübələri ifadə olunur. Bu anlamda istər atalar sözü, istərsə də məsəllərin hər ikisi həyat hökmlərini poetik imperativlər (poetik əmrlər) şəklində ifadə edir. Ancaq funksional-üslubi məqamda bunların arasında böyük fərq vardır. Atalar sözü semantik yükü baxımından bitkin, məsəl isə «yarımçıqdır». Yəni «işləməyən dişləməz» hökmündə hökm də, onun dinləyici şüurunda doğuracağı məna da bütövdür. Hər şey aydındır. Əmr, onun məzmunu, nəticəsi atalar sözündə tam ifadə olunur. Məsəldə isə

yalnız əmr (imperativ) və nəticə var. Məzmun yoxdur. Məzmun əslində şərti olaraq yoxdur. Çünki məzmun dinləyicinin şüurundadır. Yəni «sən çaldın» məsəlinin məlum mənası Molla Nəsrəddin lətifəsi ilə bağlıdır. Şəhərə bazarlığa gedən mollaya hərə bir şey sifariş verir. Ancaq heç kəs pul vermir. Bir balaca uşaq gətirib mollaya pul verir və ona tütək almağı tapşırır. Molla uşağa deyir ki, bala, sən çaldın. Yəni nəqd pul verdin və mən də sənin üçün tütək alıb gətirəcəm. Qalanlar isə pul vermir, demək , alıb gətirməyəcəyəm.

Göründüyü kimi, «sən çaldın» məsəlinin əsasında hadisə-məzmun durur və bu məzmun azərbaycanlının etnik yaddaşındadır. Bu mənada hər hansı rus eyni məsəlin rusca çevirməsini («Tı sıqral» başa düşməz) çünki ona bu idonomatik deyimin əsasında duran məzmun aydın deyil. Azərbaycanlıya isə aydındır. Eyni məsəli «Nisyə-girməz kisiyə», «Soğan olsun-nağd olsun» atalar sözləri ilə tutuşdurduqda görürük ki, bunlarda hökm də, məzmun da, nəticə də var. Məsəldə isə hökm və nəticə var, məzmun isə qıraqda-dinləyicinin şüurundadır. Bu məqamdan dastan şeirinin funksional-üslubi məqamı çox aydın görünür. Belə ki, dastan şeiri öz-özlüyündə bitkin şeir parçalarıdır və formal-poetexniki elementlər baxımından, tutaq ki, dastan qoşması ilə dastandanqıraq qoşmanı bir-birindən heç nə fərqləndirmir. Ancaq bunlar funksional-poetik, poetik üslubi baxımdan bir-birindən çox fərqlənirlər. Belə ki, dastandanqıraq qoşma istər janr poetexnikası, istərsə də lirik məzmun baxımından bitkindir. Bu halda onları atalar sözləri

ilə eyni sıraya qoymaq olar. Dastan şeiri isə belə bir müqayisə müstəvisindən atalar sözü ilə yox, məsəllərlə eyni sırada dura bilər. Çünki məsəllərin məzmunu özündən «qıraqda»-dinləyici şüurunda olduğu kimi, dastan şeirinin də məzmunu «özündən qıraqla» bağlı olur. Burada «özündənqıraq» dastanın nəsr hissəsinin məzmunu ilə mütləq bağlı olur. Bu mənada hər hansı dastan şeirini dastanın yurd hissəsinin ona məxsus «məqamından» ayırdıqda «yarımçıqlıq» dərhal bilinir. Yəni dastandan götürülüb çap edilmiş şeiri araşdırdıqda görünür ki, bu şeir «özündənqıraq» hansısa hadisə-məzmunla bağlıdır. Məsələn, mərhum tədqiqatçı Araz Dadaşzadə Abbas Tufarqanlının 72 şeirini çap etmişdir. Buradakı şeirlər Abbas Tufarqanlı yaradıcılığının bütün poetik özünəməxsusluğunu, qüdrətini nümayiş etdirmək «qüdrətində olan» poetik incilərdir. Ancaq bu şeirlər əksər hallarda dastanın yurd yeri ilə bağlıdır. Bu, özünü xüsusilə Pəriyə həsr olunmuş şeirlərdə göstərir. Məsələn:

*Səhər-səhər sərçeşmələr başında,*
*Gün kimi dağlara yayılan Pərim!*
*Hər kəs məndən sənə yaman qandırsa,*
*Yə əqrəb dişləsin, ya ilan Pərim!...* (1, 14).

Bu şeir bəndini dastan nəsrinin məzmunu ilə tutuşdurmadan belə aydındır ki, Pəri Abbasdan inciyib, kimsə bunların arasına girmək üçün yalan-böhtan danışır. Həmin yalan-böhtanın nə olduğu məhz dastanın yurd yerinin məzmunu ilə bağlıdır. Bu

baxımdan konkret şeir nəsr hissəsinin konkret məzmunu ilə ayrılmaz birləşmədədir. Yaxud:

*Mən gəlirdim Tufarqanın elindən,*
*Yolum düşdü obasına Pərimin.*
*Salam verdim, əleyk aldı salamım,*
*Qonaq oldum babasına Pərimin...* (1, 15).

Burada aydınca göz qabağındadır ki, Abbas süjeti şeirlə nəql edir. Yəni nəzmə çəkir və bu şeir parçasının dastanın nəsr hissəsi ilə məzmun baxımından necə bağlandığını «sübut etməyə» ehtiyac belə qalmır.

Qeyd edək ki belə örnəkləri dastan şeirindən istənilən qədər gətirib deyiləni sübut etmək olar. Ancaq bu, bütün hallarda eyni bir şeyin təkrar sübutu olacaq. Son olaraq demək istəyirəm ki, dastanın nəsr hissəsinin dastanın şeir hissəsi ilə məzmun planında mütənasiblik təşkil etməsi məsələsi hər hansı bir aşığın şeirləri əsasında sonrakı aşıqların yaratdığı dastanlarında daha çox müşahidə olunur. Belə ki, hər hansı bir aşıq müstəqil dastan yaradarkən onun məzmunu ilə şeirlə bir-biri ilə uyğunsuzluq-ziddiyyət təşkil etmir. Çünki dastanın həm nəsrini, həm də məzmununu bir aşıq yaradır və o, məzmuna uyğun şeirlər qoşur. Ancaq ölmüş bir sənətkarın şeirləri əsasında sonrakı aşıqlar dastan yaradarkən onlar çətinliyə düşürlər. Çünki bunlar əvvəlcədən dastan üçün yaradılmış şeirlər deyildir. Onları dastanın məzmunu ilə sonrakı aşıq uyğunlaşdırmalı olur və bu halda uyğunsuzluqlar, şeirlə nəsrin bir-biri ilə məzmun baxımından çox səthi əlaqələnməsi, yaxud

süni əlaqələnməsi müşahidə olunur. Onu da demək istərdik ki, folklorşünaslığımızda «Qurbani», «Abbas və Gülgəz» və s. kimi dastanların Qurbaninin, Abbas Tufarqanlının özləri tərəfindən yaradılıb-yaradılmaması mübahisə doğurur. Məsələn, «Abbas və Gülgəz» dastanının Abbas Tufarqanlının özü, yaxud başqa sənətkarlar tərəfindən yaradılması barədə çox ciddi fikir ayrılıqları mövcuddur. Belə ki, H.Araslı, Ə.Axundov, H.Əlizadə, P.Əfəndiyev, M.Seyidov kimi alimlərin fikirlərini ümumiləşdirsək, görərəik ki, onlar belə hesab edirlər ki, dastanı Abbas Tufarqanlı yox, şeirləri əsasında başqaları yaratmışlar (17, 13; 40, 11; 41, 1; 55, 296-297; 99, 486). O cümlədən prof. Q.Namazov dastanın Xəstə Qasım tərəfindən yaradılması qənaətinə gəlir (90, 80). Prof. M.Təhmasib, o cümlədən onun fikirlərindən çıxış edən A.Dadaşzadə dastanın Tufarqanlının özü tərəfindən yaradılması qənaətində olmuşlar (107, 86-88; 50, 3).

Bizim burada məqsədimiz heç də o deyildir ki, dastanın Abbas Tufarqanlı tərəfindən yaradılıb-yaradılmamasını araşdıraq. Bu, xüsusi bir tədqiqatın mövzusudur. Həmin xüsusda tədqiqat bizim məqsəd və vəzifələrimizə daxil olmadığı üçün biz məhz öz predmetimizdən çıxış edərək diqqəti bu mübahisənin həlli yolunda incə bir məqama yönəltmək istəyirik. Məsələ burasındadır ki, həmin mübahisənin həllində dastan şeiri ilə dastanın nəsrinin məzmun baxımından bir-birinə uyğun gəlib-gəlməməsi meyar ola bilər. Əgər dastan Abbas Tufarqanlının özü tərəfindən

yaradılmışdırsa, onda dastanın məzmunu ilə ondakı şeirlərin lirik məzmunu arasında heç bir uyğunsuzluq ola bilməz. Tufarqanlı yaradıcı aşıq idi. Bu baxımdan əgər o, öz əvvəlki şeirlərini dastan şəklinə salmaq istəsəydi, məzmuna uyğun gəlməyən əvvəlki şeirlərinin yerinə yeni şeirlər yaratmaq onun üçün hes bir problem olmazdı. Əgər dastan sonrakı aşıqlar tərəfindən yaradılmışdırsa, onda nəsrin məzmunu ilə şeirlərin lirik məzmunu arasında məhz sonrakı səciyyəli uyğunlaşmalar, zahiri, səthi uyğunluqlar, uyğunsuzluqlar müşahidə olunmalıdır. Bütün bunları deməkdə məqsəd dastan şeirinin janr baxımından yox, məhz funksional-üslubi baxımdan dastandanqıraq eyni janrlardan fərqləndiyini göstərmək idi.

Yuxarıda demişdik ki, dastan şeirinin ən azı iki özünəməxsus struktur-semantik xüsusiyyəti var. Bunun birincisi dastan şeirinin funksional -üslubi xüsusiyyəti idi. Belə ki, dastan şeiri dastanın məzmunu ilə səsləşməlidir. İkinci cəhət isə dastan şeirinin «sistem içində sistem» təşkil etməsidir. Yəni dastan şeirinin dastanın nəsri ilə səsləşməsi dastan şeirinin poetik struktur qatı kimi funksional-semantik xüsusiyyətidir. Bu halda funksional məqam dastan şeiri üçün bir «qabıq» təşkil edir. Bu «qabıq» dastan şeirinin dastan nəsri ilə uzlaşma sahəsidir, həmin sahədə dastan şeiri ilə dastan nəsri diffuziya zonası (qovuşma sahəsi) yaradır. Yəni dastan özü bütöv bir sistemdir və bu sistem iki yarımsistemdən - dastan nəsri və dastan şeiri sistemlərindən ibarətdir. Dastan şeirinin funksional üslubi xüussiyyətləri sistemlərin

bir-biri ilə qovuşaraq vahid dastan sistemini təşkil etməsidir. Ancaq bununla bərabər hər iki yarım sistemin öz iç sistemi - iç strukturu var. Birinci və ikinci fəsildə əslində dastanın nəsr yarımsisteminin iç strukturu öyrənildi. Bu fəsildə isə dastanın şeir yarımsisteminin iç strukturu öyrəniləcək. Beləliklə, istər dastanın nəsr yarımsistemi, istərsə də şeir yarımsistemi dastanın total epik sisteminə münasibətdə «sistem içərisində sistem» təşkil edirlər. Burada bir məqam xüsusi nəzərə alınmalıdır.

Birinci və ikinci fəsillərdə aydınlaşdırıldı ki, dastanın nəsr yarımsistemi struktur formullarından qurulur və hər bir formulun iki məqamı var: onun funksiyalaşması və struktur-semantik mahiyyəti, funksiyalaşma struktur-semantik məqam. Birinci məqam aydınlaşdırıldı. Bu məqam dastan şeirinin funksiyalaşma, yəni nəsr yarımsistemi ilə qovuşma təşkil etməklə bütöv dastan sistemini funksiyalaşdırma-reallaşdırma məqamıdır. İkinci məqam isə struktur -semantik məqam olmaqla dastan şeirinin öz janr və poetik məntiqi, mahiyyəti ilə bağlıdır. Bunun üçün isə dastan şeirinə öncə poetik dil hadisəsi baxımından yanaşmaq lazımdır. Dastanın poetik dili total planda folklor dilini təşkil edir. Bu mənada biz dastanın şeir yarımsisteminin folklor dili - poetik dil, onun bədii təsvir və ifadələnmə planları baxımından öyrənməyi məqsədəuyğun sayırıq. Bu isə indiki halda dastan şeirinin poetik-üslubi özəlliklərinə iki istiqamətdən yanaşmağı tələb edir: poetik fiqurlar və gözəlləmələr.

Poetik fiqurlar dastan şeirinin sənətkarlıq cəhəti deməkdir. Belə bir sənətkarlıq dastanın praqmatik funksiyası baxımından dastan dinləyiciyə ünvanlanmışdır və bu mənada onun şeirlərinin sənətkarlıq səviyyəsinin yüksək olması başlıca şərt idi. Deməк, dastan şeirinin səviyyəsində olan praqmatika tələbləri dastan şeirinin poetexniki «möcüzələrinin» şərti kimi çıxış edir. Bu möcüzənin bütün texniki mahiyyəti poetik fiqurlar istiqamətindən açıla bilər. Dastan şeirinə gözəlləmə planından baxış tədqiqatçı istəyindən yox, dastanın struktur-semantik mahiyyət məntiqindən doğur. Bu, bütövlükdə ümumi halda dastan estetizmi, konkret halda dastan şeiri estetizmi ilə bağlıdır. Sənət estetizmi bəşəri bir başlanğıc kimi sənətin mahiyyətində durur. Bu baxımdan dastanın bütün struktur elementləri, funksional- üslubi reallaşma, bir sözlə, dastan adlı hadisənin dastançı-mətndinləyici müstəvisində gerçəkləşməsinə xidmət edən hər bir şey bütövlükdə poetik gözəlliyin yaradılmasına gətirir. Bu gözəllik dastanın bir sənət hadisəsi kimi qəbulunun meyarı-ölçüsü kimi çıxış edir. Yəni istər süjet strukturunun möhkəmliyi, mükəmməlliyi, istər obrazların daha şeiri estetizmi ilə bağlıdır. Sənət estetizmi bəşəri bir başlanğıc kimi sənətin mahiyyətində durur. Səciyyəli cizgilərdən təsviri, istərsə də dastan şeirinin bütün bədii qüdrəti yalnız bir kriteriyadan – gözəllik kriteriyasından qəbul edilir. Həmin kriteriya dinləyici şüurundadır. Bu baxımdan dastançı və dinləyici eyni bir mədəniyyətin iki «yarımsistemidir». Dastançı «yarımsistemi» ilə dinlə-

yici «yarımsistemi» arasında dastan dayanır. Dastanın dastançıdan dinləyiciyə «ötürülməsinin» başlıca şərti sənət gözəlliyidir. Bu gözəllik olmadan dastan qəbul olunmur və funksiyalaşma imkanlarını itirir. Dinləyici şüurundakı gözəllik kriteriyasının dastan mətnindəki «məsuliyyətinin», demək olar ki, bütün ağırlığını dastan şeiri çəkir. Dastanın gözəlliyi ilk növbədə dastan şeirinin gözəllik yükü ilə ölçülür. Bu, əvvəlki fəsillərdə daha aydın görünürdü. Dastanın süjet və obrazları formullar şəklində qurulur. Formullar öz mahiyyətində daha çox statizmi şərtləndirir. Süjetlər bir dastandan o birinə keçir, təkrarlanır. Bütün varlığı ilə dastana valeh olub qulaq kəsilən dinləyici əslində istənilən dastan süjetini «əzbər bilir». Ona görə ki, dastan süjetləri statik formullardır. Dastandan dastana keçir. Onları canlandıran, təkrar olmaqdan qurtaran məhz dastan şeiridir. Dastan şeiri bu baxımdan dastan dinamizmini reallaşdırır.

Dastan mətnində dastan statizmi ilə dastan dinamizminin qarşıdurması, bir-birini inkar etməsi yoxdur. Yəni dastan statizmini reallaşdıran süjetlə dastan dinamizmini reallaşdıran dastan şeiri üzvi vəhdətdədir. Dastanın epik janr kimi funksiyalaşma mahiyyətində dastan statizmi ilə dinamizminin qovuşması, bir-birini şərtləndirməsi durur. Dastan bütövlükdə nə şeir, nə də süjet deməkdir. Dastan süjetlə şeirin üzvü qovuşmasıdır. Bu baxımdan dastanın funksional mahiyyətini nə ayrılıqda statizm, nə də ayrılıqda dinamizm təşkil etmir. Əgər belə olsaydı, onda statik, dəyişməz olan dastan süjeti dastandan-dastana

keçib, saysız-hesabsız «variantlar» yaratmazdı. Vahid-Total süjet, bir dastan olardı. Çünki məhəbbət dastanlarının süjetləri struktur mahiyyətləri baxımından bir-birinin «eynidir». Bu mənada dinləyici sadəcə bir dastanı dinləyər, ikinciyə və daha neçəncilərə ehtiyac qalmazdı. Amma gördüyümüz kimi, dinləyici ənənəvi, təkrarlanan süjetlərdən təşkil olunmuş hər yeni dastanı məhz yeni dastan kimi qəbul edir. Başqa sözlə, o, hər dəfə ona təqdim olunan statizmi dinamizm kimi qavrayır. Əslində burada heç bir bədii oyun yoxdur. Sadəcə olaraq dinləyiciyə hər dəfə yenidən təqdim olunan statizm, doğrudan da, dinamizm kimi təqdim olunur. Bu dinamizmi yaradan məhz dastan şeiridir.

Əvvəlki fəsildə Aşiq-Məşuq obraz kompleksinin struktur-semantik mahiyyətindən danışarkən dedik ki, dastançının yaradıcılıq imkanları dastan şeirində üzə çıxır. Çünki süjet ənənəvidir, bütün dastanlarda az-çox fərqlərlə təkrarlanır. Ancaq dinləyicinin gözəllik kriteriyası hər yeni dastanı məhz yeni əsər qəbul edir. Bu, bütövlükdə dastan şeiri ilə bağlıdır. Dastançı üçün ənənəvi süjet və onun ənənəvi obrazları var. Bu ənənəviliyi dastançı məhz dastan şeirinin hesabına aradan qaldırır. Dastan obrazları bütün ənənəvilikləri ilə birlikdə fərdi cizgilərə malik obrazlardır. Dinləyici yaddaşında Kərəm, Qərib, Abbas kimi yaddançıxmaz obrazlar var. Bu obrazların bütün fərdi cizgiləri dastan şeirinin hesabınadır. Bu cəhətdən dastan şeiri dastan süjeti ilə qırılmaz şəkildə bağlıdır. Çünki dastan süjeti obrazın «skletini», «bədənini» təşkil edir, obrazın bütün «ruhu», «psixologiyası», «xarakterik psixoloji cizgiləri»

dastan şeirindədir. Bu mənada dastan şeirini dastan süjetindən heç vaxt ayrılıqda götürüb tədqiq etmək olmaz. Çünki dastan şeirindəki «obraz» ruhani obrazdır, bu obrazın bütün maddi görünən planı dastan süjetindəndir.

Dastan süjeti ilə dastan şeirinin bu cür bağlılığını şərtləndirən statizm və dinamizm hadisələrinə bir də qayıtdıqda görürük ki, dastan mətnində statizmlə dinamizm əslində bir-birini şərtləndirir. Yəni dastan nə ayrılıqda statizmin, nə də ayrılıqda dinamizmin üstündə qurulmur. Bu statizm və dinamizmin necə qovuşmasından, bir-birini necə şərtləndirməsindən asılı olaraq dastan adlı hadisənin estetizmi hasil olur. Həmin gözəllik - estetizm dastan şeirilə dastan süjetinin üzvi vəhdədti kimi yaranır. Ancaq burada ağırlıq dastan şeirinin üstündədir. Çünki bütün dinamizmi dastan şeiri gerçəkləşdirir. Dastan süjetindəki dinamizm (hərəkət) statikdir. Bu hərəkət formullaşmış hərəkət- statizmdir. Statizmin mahiyyətindəki gözəllik dastan şeirində təza-hür edir. Yəni dastan süjetinin gözəlliyi dastan şeirinin gözəlliyi ilə üzə çıxır. Məhz bu cəhət bizdən dastan şeirinin estetizmini «gözəlləmələr» yarımfəsli kimi öyrənməyi tələb edir.

Dastan şeirinin istər poetexniki fiqurları, istərsə də gözəlləmə funksiyası bir mükəmməl müstəvi üzərində təzahür edir. Bu, dil müstəvisidir. Həmin müstəvinin tarixi qaynaqlaşma istiqamətləri onu folklor bədii dili, folklor şeir dili kimi səciyyələndirir. Halbuki folklor şeir dili burada bir qədər şərti anlayış kimi gedir. Çünki orta əsr Azərbaycan poeziyasında

Qazi Bürhanəddindən (XIV əsr) başlayaraq folklor dili ilə yazılı dilin qovuşma istiqamətləri görünür. Xətaidə bu, normaya çevrilir. Hər halda dastan şeiri əski türk heca şeirinin klassik örnəkləri olmaqla şifahi şeir - folklor şeiri ənənəsidir. Bu, yazılı ədəbiyyatın bütün təsir imkanlarını nəzərə aldıqda belə, yenə də mahiyyətcə dəyişmir. Bu mənada dastan şeirinə folklor dili kimi baxmaqla onun mahiyyətində duran folklora məxsus struktur-semantik incəlikləri görmək mümkündür.

## A) Poetik fiqurlar

Xalqımızın etnik-mifoloji qavrayış-düşüncə qaynaqlarının, dilinin, estetik, bədii duyumunun incəliklərini öyrənməkdə folklor ən tutarlı və etibarlı mənbələrdən biridir. Bu sırada folklora məxsus poetik dilin ayrıca yeri vardır. Prof. K.Vəliyev yazır: «Folklor dili Azərbaycan dilinin əbədi örnəyidir. Nağıllarımızda, atalar sözlərində, dastanlarımızdakı dil sanki dil üstündə dildir. Bu dil tutarlı dildir, yığcamdır, sərrastdır, ən başlıcası isə, dilə baxsan, bu dildə danışan xalqın özünü, düşüncə tərzini, duyum yönünü aydın görərsən, hiss edərsən» (110, 19). Bu mənada, folklor materialının poetik sisteminin araşdırılması onun dili ilə birlikdə aparılmalıdır.

Məhəbbət dastanlarının epik və lirik mətnlərindəki folklor dilində də xalq poetik təfəkkürünün ecazlı qatları qərarlaşmışdır. Epik təsvirlər daha çox nağıl təhkiyəsinə məxsus nəqletmə prinsipi ilə yaradılır. «Sizə

kimdən xəbər verim», «Bu burda qalsın, eşit xəbəri kimdən», «Sazı sinəsinə basdı, qulluğunuza ərz eləyim, görək nə dedi», «Aldı, cavabında belə söylədi» sırasından olan qəliblər dastançı təhkiyəsinin ənənəvi nitq etiketləridir.

Bundan əlavə, epik dildə emosional-ekspressiv təqdimetmə, mübaliğəli obrazlaşdırma, xəlqi kolorit və canlı danışıq dinamikası da mühüm yer tutur.

Məhəbbət dastanlarında toplanın lirik şeir nümunələri (aşıq şeirinin forma və şəkilləri) janr tələbinə uyğun formal-texniki biçimi, orijinal poetik-üslubi keyfiyyətləri struktur-semantik xüsusiyyətləri və bədii xüsusiyyətləri ilə daha çox diqqəti cəlb edir.

Məhəbbət dastanları tərkibindəki şeirlər, şübhəsiz ki, aşıq poeziyasının ən kamil, bədii cəhətdən dolğun örnəkləri içərisindən seçilərək dastan mətninə daxil edilmişdir. «Aşıq poeziyasında dilin bədii təsvir və ifadə vasitələri hər hansı bir fikri daha obrazlı verməkdə mühüm rol oynayır. Bunun bir səbəbi aşıq poeziyasının canlı danışıq dili ilə ayrılmaz dərəcədə qaynayıb qarışması, digər səbəbi isə onun saz pərdələri və saz köklərinə həmahəng edilməsidir. Məlumdur ki, canlı danışıq dilində bədiilik, gözəllik əsas vasitələrdəndir. İfadələri çeşidləmək, onu saz melodiyaları ahənginə sıralamaq, dinləyiciləri qulaq və melodik qafiyələr ilə sehrləmək aşıq poeziyasının ümdə şərtlərindəndir. Buna görədir ki, geniş fikrin konkret , təsirli şəkildə oxucu - dinləyicilərə çatdırılmasında, təsvir olunan lirik fikir və təsvir obyektinə sözsüz hüsn-rəğbət aşıq poeziyasında əsrlər

boyu öz şərafətini, bakirəliyini itirməmişdir. «Bənovşə» və bu kimi qoşmalar 4-5 yüz il bundan qabaq deyilsə də, yenə də ifaçı aşıqların repertuarında öz füsunkarlığını saxlamışdır.

Orta əsr aşıqları fikri obrazlı demək üçün təsvir və ifadə vasitələrindən: məcazlar, metenomiyalar, təşbehlər (bənzətmə), bədii təyinlər (epitet), təkrar və təkrirlər, müraciət (xitab), sual, nida, təzad, mübaliğə, atalar sözü və məsəllər, aforizmlər, ibarələr, sinonimlər, antonimlər, omoformlar, çoxmənalı sözlərdən gen-bol istifadə etmişlər» (64, 63-86).

Dastanlarda ədəbiyyata xidmət edən təsvir vasitələri şeir nümunəsinin kompozisiyası, semantik tutumu, emosional qəlibi ilə bağlanaraq fikir sıralanmasında poetik mənzərəni işıqlandırır. Aşıq şeiri yarandığı vaxtdan bu günədək böyük inkişaf yolu keçməsinə baxmayaraq, bədii quruluşunda əsaslı dəyişikliklər edilsə də, onun orta çağlarda keçirdiyi təşəkkül dövrünə məxsus məcaz sistemi, qəlib ifadələr qorunub saxlanılmışdır. Bu poetik mühafizəkarlar bədii təsvir vasitələri, xüsusən epitet, bənzətmə və metaforalarda qabarıq şəkildə özünü büruzə verir.

Bilindiyi kimi, ənənəvi dastan ifaçılığı nəsrlə nəzmin ahəngdar növbələşməsi prinsipinə söykənir ki, burada da əlaqə və keçid çox zaman lirik şeirə əsaslanır. Qoşma, gəraylı, varsağı və sair şeir şəkilləri dastanların ruhunda, xüsusən də süjetdəki hadisələrin ovqatına uyğun poetik məzmun ifadə edir. Məhəbbət dastanlarının tematikasına tabe olaraq dastan şeirindəki epitet, bənzətmə və metaforalara gözəllik, sevgi, həsrət, ayrılıq,

nisgil, görüş sevinci, vüsal ümidi kimi emosional duyğularla bağlı motivlərin poetik ifadəsi zamanı aktiv şəkildə müraciət olunur.

Şifahi, eləcə də yazılı ədəbiyyatda geniş işləkliyə malik epitetlərin yaranması, onların mətnə uyğun seçilməsi burada daha aydın görünməkdədir. Dastan mətnlərindəki lirik situasiyaların və psixoloji ovqatın ifadəsi olan qoşma, gəraylıların bədii sistemində epitetlərdən istifadə, onların yaratdığı çalar xüsusi sənətkarlıqla seçilmişdir:

*Bədir üzlü, gül camallı,*
*Yar məni sevdaya saldı!*
*Zənəxdanı qoşa xallı,*
*Yar məni sevdaya saldı!* (33, 78).

Yaxud:

*Sallana-sallana yolun üstünə,*
*Çıxan dilbər, məni cannan eylədin.*
*Quba qaz yerişli, şahin baxışlı,*
*Baxan dilbər, məni cannan eylədin* (33, 89).

Və yaxud:

*Alışan otaqlı, xan imarətli,*
*Gözəllər içində qəddi-qamətli,*
*Ahu baxışlıdır, laçın cürətli,*
*Uçmağa, qonmağa, çıqqası gözəl* (33, 177).

Göstərilən poetik nümunələrdəki «bədir üzlü», «gül camallı», «qaz yerişli», «şahin baxışlı», «laçın cürətli» ifadələri epitetdir. Həmin epitetlər bəndlərin ümumi bədii sistemini mükəmməlləşdirir və bənd boyundakı müqayisə ardıcıllığını ahəngdar şəkildə təmin və təchiz edir. Üzün Ayla müqayisəsi gedən

təsvir zamanı gəraylıda birdən-birə qoşa xalın vəsfinə keçir. Burada təbii şəkildə çox böyük sənətkarlıqla orijinal portret yaradılmışdır. Belə ki, bilindiyi kimi həm folklorda, həm də klassik şeirdə gözəlin qoşa xalı, bəzən «gecə», «aylı gecə» ilə müqayisə olunur. Bu mənada şeirdə «ay» epiteti ikinci misranın fikir tutumuna bağlanmaqla öz poetik dolğunluğunu daha da artırmış olur. Örnək gətirilmiş qoşma bəndlərində işlədilən epitetlər ardıcıl ifadələnmədə bənzətmə obyektlərinin yaxınlığını qoruyub saxlayır. «Qaz-şahin», «ahu-laçın» paralelizmi bəndin ümumi bədii sistemində mətnəuyğun yerini tutur. Bu epitetlərin əksəriyyəti müqəyyəd bədii təyinlər kimi istər yazılı, istərsə də şifahi ədəbiyyatda ənənəvi qəliblər kimi geniş yayılmışdır. Lakin bəndin ümumi quruluş və poetik axarında yuxarıdakı müqəyyədlik özünəməxsus ovqat yarada bilir. Orasını da ayrıca qeyd etmək lazımdır ki, yazılı ədəbiyyatda geniş işləkliyə malik müqəyyəd epitetlərin böyük əksəriyyətinin , xüsusən də xəlqi səciyyələrinin ilkin mənbəyi şifahi şeirin bədii ənənəsindən irəli gəlir ki, dastan yaradıcılığı da onların yaranıb yayılmasında mühüm rol oynayan qaynaqlar sırasındadır:

*Bir Pəri sevmişəm, sizin ellidir,*
*Gözəlliyi hamılara bəllidir,*
*Şux göz, mina gərdən, incə bellidir,*
*Gecə-gündüz işim ahu zarıdı (33, 223).*

Yaxud:

*Nəzakət vaxtında, xublar çağında,*

*Baxdım, yar yanağı sayalanıbdı.*
*O alma yanağı, büllur buxağı,*
*O zəhri zülfləri halqalanıbdı* (33, 237).

Epitetlərin məhvərində dayanan obrazlılıq, məcazi məna yükü, bağlı olduğu predmet hadisəni məhz həmin prizmadan müşahidə etməyi tələb edir ki, dastan yaradıcılığı, onun lirik şeir tərtibatında epitetlərin seçilməsi, onların yarandığı bədii sfera qoşma daxilində özünəməxsus şəkildə göstərilmişdir.

Aşıq şeirində bənzətmə əsaslı epitetlər metoforik epitetlərə nisbətən daha çox işlədilmişdir. Bənzətmə əsasında yaranan epitetlərdən fərqli olaraq metafora zəminində formalaşan bədii təyinlərdə müqayisə olunan, paralelləşdirilən predmet konkret olmur, yalnız müəyyən əlamət və xüsusiyyətlərə görə seçilir. «Gül üz», «alma yanaq», «büllur buxaq», «şahin baxış» sırasından olan poetik ifadələrdə qarşılaşdırılan predmetlər konkretdir.

Metaforik predmetlər sənətkarın istedad dərəcəsinin və poetik bacarığının üzə çıxarılmasında oynayan bədii fiqurlardandır. Ümumən aşıq poeziyasında olduğu kimi dastan şeirində də poetik fiqurun yaradılmasına aşıqlar xüsusi həssaslıqla yanaşmış və onun kamil örnəklərini yaratmağa çalışmışlar:

*Bir adam ki, sənlə ülfət eyləsə,*
*Yəqin onun əsil zatı yaxşıdı.*
*Namərd sənə quzu-plov yedirsə,*
*Mərdin quru məhəbbəti yaxşıdı* (33, 408).

Yaxud:

*Camalı Yusifin, ibni-Yəqubun,*
*Aləmə şəms olan Hüsnü Həbibin,*
*Ala gözlü, şirin sözlü məhbubun,*
*Zənəxdanı dörd hölədi xal olu* (33, 265).

«Quru məhəbbət», «şirin sözlü» ifadələrində isə birinci tərəf konkret olaraq təsəvvür yaratmır, bu və ya digər predmet, insana xas olan keyfiyyət təyin olunan söz üzərinə köçürülür. Doğrudur, bu qəbildən olan epitetlərə yazılı poeziyada da kifayət qədər çox rast gəlinir. Dastan şeirinə məxsus epitetlərdə ənənəvilik səciyyəsi olsa da , müraciət obyektinin konkretliyi (aşiqin sevgilisi: Pəri, Gülgəz, Əsli, Qəndab və s.) onun təsvir funksiyasını dəqiqləşdirir.

Bundan əlavə dastan şeirində klassik şeirin romantik-xəyali metaforik epitetləri əvəzində gerçəkliklə bağlı atributları inikas etdirən epitetlər daha çox işləklik qazanmışdır:

*Dur, sərv, dur, sənnən xəbər sorayım,*
*Sərv ağacı, sənin maralın hanı?*
*Gözümnən axıtma qanlı yaşları,*
*Sərv ağacı, sənin maralın hanı?* (33, 182).

Yaxud:

*Başına döndüyüm, ay xoca qardaş?*
*Aman xoca, Əsli xanı gördünmü?*
*Axır gözlərimdən sel tək qanlı yaş,*
*Aman xoca, Əsli xanı gördünmü?* (33, 100)

Və yaxud:

*Kəklik kimi səkişlidən,*
*Köksü əlvan naxışlıdan,*
*Bir haramı baxışlıdan,*

*Mən dönərəm, könül dönməz* (33, 151).

Örnəklərdəki («gözümdən axıtma qanlı yaşları», «axır gözlərimdən sel tək qanlı yaş», «bir haramı baxışlı») epitetlər konkret cizgilər üzərində qurulmuşdur. Sonuncu epitet öz təşəkkül elementi ilə («haramı») da maraq doğurur. Bu epitet poetik funksiyasından əlavə tarixi-etnoqrafik səciyyə də daşıyır.

Folklor dilimizdə «haramı baxış» ifadəsi qəribədir ki, sonrakı bədii məqamda (klassik şeirdə) əlavə «yağı gözü», «oğru nigah» ifadələri ilə əvəz olunmuşdur. Bu konkret ifadələnməyə S.Ə.Şirvaninin qəzəllərindən nümunə gətirə bilərik:

*Alıbdı yağı gözün ixtiyarımı əldən,*
*Fəda olum, belə biixtiyar qoyma məni.*

Yaxud:

*Eyləsəm arizi-zibasına bir oğru nigah,*
*Qəmzəsindən o bütün üstünə xəncər tökülür.*

Dilimizin leksik sistemində emosional məna çalarlığı əmələ gətirməyə xidmət edən bir qrup sözlər-ləqəblər vardır ki, ictimai xarakterli şeirlərdə onlar epitet mövqeyində daha fəaldır. Bu tip sözlər əşya və hadisələrin ikinci adı kimi işlənməklə öz normativliyini itirir, nəticədə emosionallıq qazanır. Belə formada şəxslərin sosial mövqeyi, müəyyən üstünlük və qüsurları, ictimai vəziyyəti və s. ifadə olunur. Burada epitetin yerinə yetirdiyi əsas vəzifə tənqid hədəfi olan obyektlə bağlı mənfi təsəvvürün yaradılmasıdır.

*Aşıq olan sözün söyləyər başdan,*

*Salmabaş adamdan, ürəyi daşdan,*
*Bədnəzər qonşudan, bədcins yoldaşdan,*
*Qədirbilənlərin iti yaxşıdır* (33, 408).

Yuxarıda belə bir məsələyə toxunuldu ki, folklor epitetləri xəlqi koloritə, canlı danışıq dinamizminə daha çax sahibdir. Dastan şeirinin poetik strukturunda epitet sistemi üçün də xarakterik olan bu cəhəti şərtləndirən başlıca səbəb aşıq ədəbiyyatı üçün folklor dilinin əsas bədii-estetik zəmin olmasıdır. Bu səbəbdən də dastan şeirlərindəki epitetlərin formalaşmasında elat ifadə və deyimlərinin xüsusi yeri və mövqeyi vardır:

*Mən Kərəməm, Kərəmliyim bildirdim,*
*Dost ağladıb, düşmənimi güldürdüm,*
*Uzun boylu xan Əslimi itirdim,*
*Arsız-arsız gülüşümə nə dersiz* (33, 100)

Yaxud:

*Arsız qohum xalqı sənə güldürər,*
*Pis qardaşın dərdi adam öldürər,*
*Hüseyn deyər: yıxılsan da qaldırar,*
*İyid düşmən, ilqarlı dost, yaxşıdır* (33, 403).

Dastanlarda toplanan lirik şeirlərin poetik strukturunda bədii təsvir vasitələrindən olan metaforalar da əhəmiyyətli yer tutur. Məlumdur ki, metaforalar fikrin, münasibətin dəqiq ifadə olunmasında, nitqi qüvvətləndirməyə, emosionallıq yaratmağa, mücərrəd məfhumları əyani şəklə salmağa imkan verir, əsərdə qəhrəmanların daxili aləmlərinin, xarakterlərinin açılmasına, hadisələrin semantik

mahiyyətinin müqayisə yolu ilə daha yığcam, qısa şəkildə ifadə edilməsinə şərait yaradır.

Təsadüfi deyildir ki, etinik tarixi-yaşayış şəraiti, təsərrüfat fəaliyyəti, mühüm adət-ənənələrlə bağlı olaraq folklor dilimizdə  müxtəlif metaforalar yaranmışdır.

Şifahi şeirdə qoşmaların geniş arealı, kütləvi janr olması orta əsrlərdə, ondan sonrakı dövrdə yaşayıb yaradan aşıqları ciddi forma axtarışına sövq etmişdir. Bədii təsvir vasitələrinin poetik fikrin sütunlarından olduğunu nəzər alsaq, bədii üslubi forma axtarışlarının konkret məzmun və istiqamətini müəyyənləşdirmiş olarıq.

Qoşma, gəraylılarda işlənən digər təsvir vasitələri kimi metaforalar da poetik-üslubi şəbəkəsinin genişliyi və zənginliyi ilə diqqəti cəlb edir. Dastan şeirlərinin gözəli təsvir-tərənnüm məqamı ilə bağlı olanları bu fiqura fəal müraciət baxımından seçilir. Aşağıdakı iki örnək bu baxımdan dəqiq təsəvvür verə bilir. Gözəli təsvir-tərənnüm məqamı:

*Həm didarı şirindi,*
*Həm köftarı şirindi,*
*Bağça barı şirindi,*
*Qoşa narı şirindi,*
*Bir belə bəşər olmaz,*
*Huri, qılmandır bu gələn!* (33, 68)

Əhval, psixoloji ovqat təsvir-təqdimi:

*Deynən məskən salıb dağlar başını,*
*Sel kimi axıdır gözün yaşını,*
*İstəyir ki, atsın dünya daşını,*

*Aşıq düşübyaman günə, a kəklik* (33, 467).

Göründüyü kimi, birinci örnəkdə aşiqin vurğun olduğu gözəlin təsvir-tərənnümü ilə əlaqədar yüyrək aşıq dili ekspressiv ifadə tərzi olaraq metaforalar cərgəsi yaratmağı məqsədyönlü saymışdır. Bu da təbiidir. Çünki sevgilinin hüsn gözəlliyindən vəcdə gələn aşiqin könül duyğuları müəyyən müqayisələr apararaq öz estetik durumunu mənalandırmağa can atır. İkinci örnəkdə isə, aşiqin həsrət, ayrılıq qübarı diqqət önündədir ki, bu zaman metaforik bəlağət o qədər də təsiredici görünə bilməz.

Sadə tip metaforaların ikinci növü qoşma və gəraylıların poetik strukturunda böyük bədii imkanlarla təzahür edir. Burada insanla bağlı psixoloji, ruhi vəziyyətlər, hərəkətlər bilavasitə cansız cisimlərin, yaxud heyvanların üzərinə köçürülərək, əlamət kimi çıxış edir.

*Gedər oldum yar-yoldaşım sağ olsun,*
*Bol olsun çörəyi, aşı dünyanın!*
*Bundan sonra dərdlərimiz durulsun,*
*Sürmələnsin gözü, qaşı dünyanın* (33, 87).

Yaxud:

*Çıxdım dərələrdən, gəzdim düzünü,*
*Sinəmə basıbdır hicran közünü.*
*Sağlığınan görək Nigar üzünü,*
*Qardaş, mən Misirə getməli oldum* (33, 309).

Qeyd olunan metaforalar qoşmalarda sadəcə əlamətin sxematik köçürməsi deyil, real həyati proseslərin ümumi oxşarlığını özündə cəmləşdirib

misra dixilində müfafiq məcaz zəncirinin ən iri halqasına çevrilən fəal sintaktik vahidlərdir.

Müqayisə zamanı müxtəlif səciyyə və məzmunlu emosional-ekspressiv keyfiyyətə malik olan heyvan, xüsusən quş adları aşıq şeirində bir növ silsilə təşkil edir və metafora mövqeyində işlədilir. Ustadnamələrdə bu tip metaforalara tez-tez rast gəlinir:

*Qurban olum sənin kimi cavana,*
*Sən bir zənanəsən, mənəm mərdana,*
*Xışmınan hayqırıb girsəm meydana,*
*Aslanın cənginə tab etməz pələng (33, 375)*

Yaxud:

*Fələk xarab etdi abadanları,*
*Zülmlə söndürdü yanan şamları;*
*Hayıf gözəllərin gül əndamları,*
*Mara-mura qismət oldu dünyada (33, 381).*

Və yaxud:

*Qafil olma dilim, düşmə həvəsdən,*
*Hərcayı söziylə incimə dostdan,*
*Muşlar pələng olmaz, tülkülər aslan,*
*Danalar meydanda kəl ola bilməz! (33, 381)*

Misal gətirilən ustadnamə parçalarında adı keçən «aslan», «pələng», «mar-mur» (ilan-qarışqa), tülkü və başqa heyvanlar didaktik məqsədin çatdırılmasında, hikmətamiz fikrin daha təsirli və canlı görüntü almasında poetik mənalandırma detalı kimi çıxış edir. «Qartal», «şahin», «qırğı», «sərçə», «bülbül», «qarğa» və başqa bu kimi quş adları, eləcə də «bənövşə», «nərgiz», «yasəmən», «çayır», «qanqal» və s. bitki

adları aşıq-dastan şeirində məhz həmin vəzifənin yerinə yetiriciləridir.

Aslan, qartal, şahin, qırğı, bülbül, bənövşə, nərgiz müsbət anlamlı obrazlaşmanı, tülkü, çaqqal, qarğa, sərçə, qanqal isə mənfi təzahürü təmsil edir. Əlbəttə, bu detallar heç də təsadüfən dastan şeiri tərkibinə daxil olmamışdır. Folklor təfəkkürü xalqın çoxəsrlik həyati təcrübəsinə istinadən belə bir obrazlaşma ayrıntısı aparmışdır.

Dastan şeirinin poetik strukturunda güclü bədii effekt yaradan bədii təsvir vasitələri içərisində mübaliğələrin də özünəməxsus yeri vardır. Bu cür təsvir vasitələrində əsas məqsəd təsvir obyektinin qeyri-adi, gerçəklik ölçüləri hüdudlarını aşan təqdimini həyata keçirtməkdir. Ümumiyyətlə, folklor dili üçün mübaliğəli təsvir-təqdimin səciyyəvi olduğunu nəzərə alsaq, dastan şeirlərində mübaliğəyə güclü meyl göstərilməsi təbii sayılmalıdır (143, 51). Diqqət edək:

*Durmayıban axır çeşminin yaşı,*
*Axdığı yerlərdə əridir daşı,*
*Belə imiş qanlı fələyin işi,*
*Nə şah bilir, nə xan, nə gəda, hey. (33, 107)*

Yaxud:

*Qürbət eldə uca dağlar aşalı,*
*Ah etdikcə qara bağrım deşəli,*
*Mən Əslimdən ayrı düşdüm, düşəli,*
*Dəlik-dəlik etdi, dəldi dərd məni.*

*Fələk mənim ilə inad eylədi,*
*Qəm ilə hicrandı töhfən, söylədi.*
*Kəskin qılıncıyla bağrım teylədi,*
*Bölük-bölük etdi, böldü dərd məni. (33, 115)*

Və yaxud:

*Səni o görcəyin əlbət dindirdi,*
*Aşiq məşuqunu oda yandırdı,*
*Dərdim anbar-anbar, dərmanım birdi,*
*Mən qalmışam nə avara deyərsən! (33, 125)*

Verilən nümunələrdə «göz yaşının daşı əritməsi», «dərdin insanı «dəlik-dəlik», «bölük-bölük» etməsi», «anbar-anbar» dərd ifadələri bütün məqamda mübaliğədir. Eyni zamanda ikinci, üçüncü bəndlərin son misralarında söz sıralanması alliterasiyaya əsaslanır. Həmin qoşmanın əvvəlki və sonuncu bəndləri də alleterastik biçimdə verilmişdir.

*Aman fələk, kömək eylə bu gündə,*
*Nahaq yerdə gəldi aldı dərd məni!*
*Gecə-gündüz oda yandım, alışdım,*
*Tutdu, yolum-yolum yoldu dərd məni! (33, 115)*

Mübaliğələr dastanlarda daha çox deyişmələrin mətnində işlənməklə qarşı-qarşıya dayanan, bir-birilə şeirləşən qəhrəmanların özlərini öyməsində tutarlı vasitəyə çevrilir:

Aldı Nofəl:

*Şəhərlər dağıdıb, ləşkər pozaram,*
*Min düşmanı bir qılınca düzərəm,*
*İndi sənin mən başını üzərəm,*
*Gəldim, burdan əlləri boş getmərəm!*

Aldı Soltan Mahmud:

*Gəl danışma sən bu qədər əfsana,*
*Batırma özünü nahaq al qana,*
*Sən neylərsən mənim təkin aslana?*
*Var get burdan mən Leylini verməræm! (33, 347)*

Dastan şeirinin tipi mübaliğənin məzmun istiqaməti və işlənmə dərəcəsi barədə təsəvvür verə bilir. Belə ki, aşiq-məşuq deyişməsindən daha çox könül duyğularının, ayrılıq, həsrət iztirablarının ifadəsi ilə bağlı mübaliğələr üstünlük təşkil edirsə, haqq aşıqlarının saz-söz sınağına çəkildiyi məqamlarda hərbə-zorba ovqatına uyğun ifadə vasitələrinin fəal mübaliğə mövqeyində çıxış etməsi daha çox nəzərə çarpır.

Aldı İsfəndiyar:

*Alaylar dağıdıb, səflər pozaram,*
*Min düşməni bir qılınca düzərəm!*
*Qan etməyən günü qəmgin gəzərəm,*
*Mən bir qaniçici cəllad olmuşam!*

Aldı Lətif şah:

*Baxmaginən eşq əhlinin ahına,*
*Səni qərq eylərəm qəm girdabına.*
*Sığınmışam mən də şahlar şahına,*
*O şahlar şahından səbir almışam!*

Aldı İsfəndiyar:

*İsmim İsfəndiyar, xışmış tamam nar,*
*Hindistanı mən etmişəm tarı-mar,*
*Fars şahına peşkəş üçün bir gülzar,*
*Mehriban Soltanı şikar almışam.*

Aldı Lətif şah:

*Lətif şaham, mən də cana yağıyam,*
*Hicran möhnətinin qəm dustağıyam.*
*Mehriban Soltanın qurbanlığıyam,*
*Yar yolunda mən ölməyə gəlmişəm (36, 340-341) .*

«Lətif şah» dastanından misal gətirilmiş bu deyişmə parçasında tərəfi-müqabillərin bir-birinə qarşı yönəltdikləri hərbə-zorba səciyyəli ifadələr əsasən mübaliğələrdən təşkil olunmuşdur.

Belə bir incə məqama da diqqət yetirmək lazım gəlir ki, müasir danışıq leksionunda geniş yer tutan mübaliğə əsaslı frazeoloji vahidlərin əksəriyyəti tarixən xalq dilinin axarında poetikləşərək hazır şəkildə dövr-dövr, zaman-zaman nəsildən-nəsilə adlamışdır. Həmin hazır qəlib daxilindəki canlı danışıq mübaliğələrinin əsas daşıyıcıları sırasında aşıq poeziyasının, o cümlədən də dastan şeirinin əhəmiyyətli rolu vardır:

*Kim istər ki, yazı tərsə yazıla,*
*Qorxum budu yardan əlim üzülə,*
*Saatımın biri dönüb yüz ilə,*
*Dəqiqənin biri mənə yüz gündü. (33, 428)*

Zamanla bağlı şeirdə verilən mübaliğəli vahidlər (saatın yüz ilə dönməsi) indi də şifahi nitq prosesində müxtəlif variantlarda işlənməkdədir.

Dastanlarda, xüsusən onların lirik bölümündə işlənən mübaliğələr hər hansı personajın xarakterini təfsilata yer vermədən aydınlaşdırmağa şərait yaradır:

*Sağdan düşdüm, soldan çıxdım,*

*Düşməni yandırıb, yaxdım,*
*Leşlərindən hasar çəkdim,*
*Daha məndə hey qalmadı! (33, .434)*

Yaxud:

*Kimim var ki, gələ girə dayağa,*
*Qanımnan bulandım əlvan boyağa,*
*Yaralıdır canım başdan-ayağa,*
*Kimsəm yoxdu əhvalıma ağlasın! (33, 418)*

«Məhəmməd-Güləndam» dastanından gətirilən ilk nümunədə düşmən leşindən hasar çəkilməsi «uğurlu, eyni zamanda ağır» döyüşün səciyyəsini, ikinci bənddəki «qanın boyağa çevrilməsi» isə çəkilən iztirabların böyüklüyünü nümayiş etdirmək baxımından tutarlı bədii vasitədir.

Ümumiyyətlə, dastan dilindəki poetik nəfəs genişliyi, həmin dastanı yaradan xalqın ədəbi-estetik təfəkkür axtarışlarının hansı səviyyədə olduğunu göstərir (142, 78-81). Qətiyyətlə demək olar ki, xalqın dil-üslub sahəsində yaratdığı poetik ənənə qiymətli, əvəzolunmaz bir bədii xəzinədir ki, onun öyrənilməsi və araşdırılması daha dərin mətləblərin açılmasına xidmət edə bilər.

Bütövlükdə forlklor irsinin, o cümlədən də aşıq yaradıcılığı və dastan şeirinin ən ümdə cəhəti onun ideya-məzmun aydınlığı, dilinin sadə, lakonik və obrazlılığı ilə seçilməsidir. Aşıq şeirinin xəlqi səciyyəsi və bir çox hallarda didaktik-hikmətamiz məzmun daşıması onun dilində müxtəlif xalq ifadələri və deyimlərinin, frazeoloji birləşmələrin, ideomatik vahidlərin çoxluğunu təmin etmiş olur.

Dastanlarımızda toplanan lirik nümunələrdə bu mənzərəni aydın görmək mümkündür:

*Üz vermə nadana, sirr vermə pisə,*
*Axır qəlbin ya inciyə, ya küsə.*
*Ot bitər kök üstə, əsli nə isə,*
*Yovşan bəsləməklə çəmənzər olmaz! (33, .23)*

Yaxud:

*Səməndimi mindim, Əlvana sürdüm,*
*O gözəl Əlvanda çadırın gördüm ,*
*Çörəyini yedim, qabını qırdım,*
*Güləndam Kişmirə məni istəyib (33, .415)*

Dastan şeirində poetik-üslubi axarın güclənməsi və ekspressiv-emosional istiqamətdə bədii nüfuzetmənin qüvvətlənməsi frazeoloji- ideomatik qatla yanaşı alqış-dua, qarğış kimi danışıq etiketləri ilə də xeyli dərəcədə bağlıdır. «Qədim insanlarda xeyir və şər anlayışları yarandıqdan sonra həyatda onlar iki qüvvətli amillə - xeyir və şərlə qarşılaşmalı olmuşlar. Xeyir onların həyat şəraitinin, məişətinin yaxşılaşmasına, gündəlik ehtiyaclarını aradan qaldırmağa kömək etmiş, bu təsəvvürlərlə bağlı müxtəlif süjetlər və süjetlər sistemi yaranmış, mifoloji təsvvürlərlə ibtidai insan öz xeyirxahını rəmzləşdirmişdir. Eyni münasibət şərlə bağlı yaranmışdır... Müxtəlif xalqlarda olduğu kimi Şərq xalqlarının əsatirində xeyir və şər təsəvvürləri şəxsləşdirilmişdir. Bu varlıqları insan cildində görmək istəyi təkcə qədim türk tayfaları içərisində deyil, ümumiyyətlə qədim insanın həyatı dərketməsinin əsas mərhələlərindən biri

olmuşdur. Bu qüvvələr qədim təsəvvürlərdə xeyiri alqışlamaq, şəri isə qarğışlamaq anlayışını yaratmışdır.

Alqış və qarğışlar bu gün bizə «Kitabi-Dədə Qorqud»da, şifahi yaradıcılığın nağıl, dastan və s. kimi nümunələrində, habelə yazılı ədəbiyyatda ayrı-ayrı obrazların dilində gəlib çatmışdır (92, 14).

Aşıq şeirinin dilində alqış-dua, and və qarğışların yeri özünəməxsus poetik mövqeyi və tutumu ilə seçilir. Bu bədii üslubi vasitələrdə xalqın inam, etiqadı, etik-estetik dünyagörüşü, sosial və etnoqrafik yaşayış biçiminə dair alqış-qarğışları vardır:

*Payız olar, bağlar tökər xəzəli,*
*Boynun sınsın, sevməyəydin əzəli,*
*Yaxşı olar Şəki, Şirvan gözəli,*
*Ya Şəkiyə, ya Şirvana gedərsən! (33, 58)*

Yaxud:

*Yazımı yazanın sına qələmi,*
*Qaraymış yazısı, bədmiş kəlamı,*
*Oğlanlarım qırdı zalım haramı,*
*Bu kağızı Alı xana yetirin! (33, 394)*

Və yaxud:

*Bulanıq sel qoy gözümnən yerisin,*
*Qara duman Əlvan dağı bürüsün,*
*Səni vuran yerdə qolum qurusun,*
*Məni axtarsan, o Kişmirə gəlginən! (33, 414)*

Bu, lirik qəhrəmanın peşimanlıq, pərişanlıq, nisgil duyğularının psixoloji iztirab səviyyəsində olduğu zaman dilə gətirdiyi ifadələrdir.

Öz sevgilisinə qovuşmaq üçün yola düzələn Tahir Mirzəni ona atalıq etmiş Xanverdi geri döndərmək istəyir. Bu vaxt Tahir Mirzə ona belə qarğış edir:

*MənTahirəm, bağlar sənin,*
*Sinən olsun dağlar sənin,*
*Günün olsun ağlar sənin,*
*Ata, gedirəm, qalmaram.*

Qoşmalarda verilən qarğışların bir qismi lirik qəhrəmanın dilindən onun özünə ünvanlanmışdır. İkinci bir tərəfdən qarğışlardakı «sınmaq», «qurumaq» ifadələrinin tərkiblərindəki bədii-semantik ölçüsü qədim yazılı abidəmiz olan «Kitabi-Dədə Qorqud»un dili ilə şifahi nitqimizə gəlib çatmışdır:

*«Əlin qurusun, barmaqların çürüsün»*
*«Dadlı canından ayırsın qadir səni» (75, 64, 122)*

Dastan şeirlərində müşahidə olunan alqış-qarğışların böyük əksəriyyəti canlı danışıq kökənlidir. Onların çox hissəsi, B.Abdullanın tədqiqatından da göründüyü kimi, «Kitabi-Dədə Qorqud» boylarında da dastan şeirindəki funksiyanı yerinə yetirirlər» (6, 39-41). Diqqət edək:

«Ağzın qurusun, çoban (Dilin) çürüsün, çoban. Qadir sənin alnına qada yazsın, Çoban» (75, 37).

«Yazıya inam», taleyin kimin tərəfindənsə verilməsi kimi əsatiri dünyagörüşlə bağlı fikirlər istər «Kitabi Dədə Qorqud» boylarının, istərsə də sonrakı dövrlərdə yaranan dastanlarımızın bədii dilindəki kiçik ölçülü ifadələrdə qorunub saxlanmışdır.

Dastanlardakı qarğışların məzmun çevrəsi çoxyönlü və çoxçalarlı olduğu üçün onların poetik-üslubi ifadəsi də çeşidli görüntü içərisindədir. Bununla belə, dastan şeiri daxilindəki qarğışların əksəriyyəti canlı danışıq repertuarından gəlmədir:

*Başına döndüyüm alagöz Pəri!*
*Tanrı səni mənnən ayrı salmasın!*
*Haq götürsün bu qarını aradan,*
*Nişanası qiyamətə qalmasın!*

*Gedənin gəlməsin, yatanın ölsün!*
*Fələk əli dəysin, dövranın dönsün,*
*Firiştələr vursun, ağzın əyilsin,*
*Sənin bu dərdini bilən olmasın!*

*Soruşmadın yazıq Abbas halını,*
*Mən sana neylədim, tanrı zalımı?!*
*Əzrayıl donunda alım canını,*
*Üstündə bir həşir quran olmasın! (33, 178)*

Burada el-obalar dolaşan, öz sevgisi uğrunda əziyyətlərə qatlaşan haqq aşığının qarğış yönəltdiyi obyektin ünvanı aydındır.

Qoşmanın müraciət obyekti «balağı batdaq», «dabanı çatdaq», «ilan vuran», «ara atı» qarıları ilə əlaqələndiyindən qarğışın-ünün tonu da yüksəlir, hiddətə çevrilir.

Məhəbbət dastanlarının obrazlar sistemində mənfi funksiyalı «qarı» obrazı süjet xətti boyunca hadisələrin kulminativ inkişafında, psixoloji gərginliyin güclənməsi prosesində fəal iştirak edir.

Ümumiyyətlə, folklorda qarıların mənəvi keyfiyyətləri müxtəlif formalarda göstərilir. «Kitabi Dədə Qorqud» da «qarı» obrazının çeşidli keyfiyyətləri ilə bağlı bir poetik nümunədə deyilir:

*Qarılar dörd dürlüdür:*
*Birisi solduran soydur,*
*Birisi dolduran toydur,*
*Birisi evin dayağıdır,*
*Birisi necə söylərsən bayağıdır (75, 17).*

Prof. M.Həkimov bu xüsusda yazır: «Gətirilən nümunədə Ozanın ismətli, qeyrətli, evdar, işgüzar, ev quran, ev yığan, baş ucaldan, üz qaraldan, tənbəl, mağmın qadınlara verdiyi alqış-dua, qarğış ayrı-ayrı misraların şərhi məqamında daha da aydınlaşır. Fikrimizin təsdiqi üçün misraların şərhinə nəzər salaq: «Birisi evin dayağıdır» misrasındakı alqış-duanın həzin-həlimliyi nə qədər də səmtli, ünvanlıdır. O ki, qaldı poetik nümunənin ikinci, üçüncü və beşinci misralarındakı qarğışlara ozan buradakı deyim tərzində çox hiddətlidir, kinlidir, küdurətlidir (66, 26).

Dastanda lirik parçaların dilində təkcə neqativ istiqaməti əks etdirən qarğışlar deyil, əhval yüksəldən alqış-dualar da geniş işlədilmişdir. Bu ekspressiv vahidlər əsasən qəhrəmana yardım etmiş obraz və qüvvələrin xeyirxah əməlləri müqabilində söylənilir və onlara müsbət emosiyalar aşılamaq məqsədi güdür. Bəzi hallarda isə, gözəlin aşiqdə oyatdığı nikbin duyğular onu qarşı tərəfə sevgiliyə alqış-dua söyləməyə təşviq edir.

*Camalın xubluğu mat edər mahı,*
*Göylərə dayanır aşığın ahı,*
*Geyin al-yaşılı, geymə siyahı,*
*Haqq nəsib eyləsin ağlara səni (33, 159).*

«Ağlara nəsib olma» xoş, bəxtəvər günlərin yaşanmasına işarədir. «... Sözsüz, aşıq şeiri şəkillərində bu üslubi məqam-zaman, məkanla, ictimai, sosial tarixi hadisələrlə, etik-estetik ənənələrlə, əxlaq normaları ilə bağlıdır» (96, 90).

Bəzən süjetdəki hadisənin mahiyyətindən irəli gələrək dastan şeirinin bütöv mətni alqış-dua vəzifəsində çıxış edir:

*Ay ağalar, gəlin sizə söyləyim,*
*Üzülməsin əldən əli bu bəyin!*
*Cənnəti-əlada, baği - behiştdə,*
*Xoşnişin döşənsin yeri bu bəyin!*

*Əyninə geyibdi zər ilə xardan,*
*Xudam səni edib dövlətü vardan,*
*Nəfəsi kəskindi o Zülfüqardan,*
*Kəmərin qurşasın Əli bu bəyin!*

*Şahların şahıynan çıxaydı ova,*
*Qüdrət şəmşirini gətirsin sova,*
*Gecə-gündüz Abbas eyləsin dua,*
*Haqdan uzun olsun ömrü bu bəyin! (33, 273)*

«Abbas-Gülgəz» dastanından gətirilmiş bu nümunə süjetin belə bir məqamı ilə bağlıdır: Abbas sevgilisi Gülgəz xanımın qardaşı Batmanqılıncın

alicənablığı, mərdliyi və insanpərvərliyindən vəcdə gələrək onu yuxarıdakı alqış-dua ilə tərif edir. Bu şeirdə alqış-dua öz semantik tutumunu poetik üslubi aspektdə gücləndirmək tərif-tərənnüm, mədhiyyə vəzifəsinin uğurlu bədii ifadəsini həyata keçirmişdir.

Dastanların lirik parçalarında xalqın etnoqrafik yaşam tərzi, adət-ənənələri, inamları ilə bağlı da müxtəlif xalq ifadə və sözləri toplanmışdır:

*Məclisə varanda özünü öymə,*
*Şeytana bac verib kimsəyə söymə,*
*Qüvvətli olsan da yoxsulu döymə,*
*Demə ki, zorluyam, qolum yaxşıdır (33, 23)*
.

«Şeytana bac vermə» ifadəsi xalqın dini-fəlsəfi dünyagörüşünün təməli üzərində yaranan obrazlı deyimdir. Şər qüvvələrin mövcudluğu dini-folklorik təfəkkürə görə «iblis», «şeytan» kimi əsatiri obrazların simasında inikas olunduğundan insan təbiətinin mənəvi əyinti və sapıntıları bu obrazlarla əlaqəlidir. Demonik obraz olan şeytana «bac vermə» bu mənada dastançı - aşıq təfəkkürünün metoforik mənalandırmasıdır.

İnam və sınamalar daha çox ustadnamələrin tərkibində müşahidə olunur ki, bu da həmin şeirlərin məzmun çevrəsinin səciyyəsindən irəli gəlir.

*Qızılgülü dəstə-dəstə dərginən,*
*Dəribnən də pünhanlara sərginən,*
*Hər nə versən öz əlinlə verginən,*
*Yüz qadanı başdan sovar deyərlər (33, 24).*

Bu örnəkdə didaktik-hikmətamiz fikrin təqdimi inama tapınma yolu ilə həyata keçirilmişdir. Xalq içərisində yaşayan əski inamlardan biri də onunla bağlıdır ki, ailəyə gələn xəta-bala, bəd hadisə, o ocaqdan çıxarılan nəzirlə geri qayıdıb. Bənddə verilən son iki misranın məna yükü məhz bu inanca söykənir.

Canlı danışıq koloriti daşıyan və daha çox etnoqrafik cizgilər əks etdirən qanadlı ifadə və etnoqrafik cümlələr də dastan şeirlərində qabarıqdır.

*Həzrət Nuhun zamanından bəriyəm,*
*Əmr-haqla nələr gəldi başıma...*
*Başıma gələni söyləyim sənə,*
*Gör nə zəhər qatılıbdı aşıma (33, 108).*

Canlı danışıq koloritinin və qanadlı deyimlərlə ifadə olunan poetik dinamizmin dastan şeirində fəal mövqe tutması bu şeir tipinin müəyyən hadisə-daha doğrusu, dastanın yurd yeri ilə bağlılığından da irəli gəlir:

*Kərəm indi satın gəzir ölümü,*
*Fələk qırdı qanadımı, qolumu,*
*Duman gəldi, azdım indi yolumu,*
*Çiskinli, boranlı çöllərdə qaldım (33, 131).*

Adi danışıqda sadəcə koloritli nitq-danışıq ünsürü kimi çıxış edən frazemlər dastan şeiri daxilində əlavə olaraq həm də poetik üslubi axar harmoniyasını təmin edir:

*Bu dərd qalar Pəri xanın canında,*
*Pərvanə tək yanar şamlar yanında,*
*Üzü qara durrux haqq divanında,*

*Çıxma yoldan, qardaş, aman günüdür! (33, 385)*

Və ya:

*Əyib-əyib sənin qəddini pükəcəm,*
*Gözündən mən qannı yaşlar tökəcəm,*
*Bu çomaxnan yurdunda turp əkəcəm,*
*Apardın kağızı, niyə vermədin? (33. 426).*

Nümunə gətirilən qoşma parçalarında verilən «aşına zəhər qatmaq», «ölümü satın gəzmək», «haqq divanında üzü qara durmaq», «yurdunda turp əkmək» kimi poetik frazemlər tarixən xalq dilindən dastan şeirinə adlayaraq aşıq sazında cilalanmış və fikrin poetik ifadəsinin daha dolğunlaşmasında çox mühüm rol oynamışlar. Buna görə də dastan şeiri öz həssaslığı və xəlqi poetizmi ilə seçilən xüsusi bir yaradıcılıq biçimidir (17, 10).

Dastan poetikasında nəzəri cəlb edən mühüm cəhətlərdən biri də aşıq şeiri formalarının müxtəlif şəkillərindən istifadənin spesifikası ilə bağlıdır. Qoşma, gəraylı, varsağı, divani, müxəmməs və onların hərbə-zorba, qıfılbənd, təcnis, ustadnamə, dodaqdəyməz təcnis və s. şəkilləri bu poetik sistemdə geniş yer tutmuşdur.

Dastanların ümumi mənzərəsi göstərir ki, sözü gedən forma və şəkillərdən qoşma və gəraylılara dastan şeiri kimi daha çox müraciət olunmuşdur. Bu şəkillər üzərində qurulmuş yüzlərlə dastan şeiri öz poetik gözəlliyi və məna dərinliyi ilə qərinələr boyu könülləri oxşamışdır.

Dastanlardakı şeirlərdə obrazlılığa, fikrin poetik ifadəsinə xüsusi diqqət yetirilməklə yanaşı formal-texniki tərəflərə- qafiyə, rədif, bölgü, cinas sisteminin sərrastlığına və dolğunluğuna ayrıca fikir verilmişdir. Bu baxımdan qafiyə sistemi ilə bağlı aparılan iş öz həssaslığı, dəqiq və zərif ölçü-biçisi ilə seçilir.

Qafiyə istiqamətindəki axtarışların zirvə mərhələsi, şübhəsiz ki, cinaslarla əlaqədardır. Cinasyaratma dastançı aşıqdan böyük məharət tələb edir. O, dilin incəliklərini, söz və ifadələrin üslubi çalarlarını dərindən bilməli və bütün bunları cinasyaratma prosesinə tətbiq etməlidir:

*Dərdli Kərəm deyər: qurban yar için,*
*Kəs ciyərim, doğra bağrım, yar için,*
*Yar oldu ki, yar yolunda,yar için,*
*Dərd-qəm çəkə, yaş axıda yara üz (33, 145)*

Yaxud:

*Gecələr sübhədək yar-yar deyəsən,*
*Dikəlib bağrımı yar-yar deyəsən,*
*Sən də mənim təki yar-yar deyəsən,*
*Düşəsən fələyin ay incisinə. (33, 447).*

Verilən qoşmaların cinas qafiyələri sözlərin daxili, məntiqi uzlaşması və məna çalarlarının dəqiq seçilməsinə istinadən yaradılmışdır. Morfoloji və sintaktik yönümdə aparılan yerdəyişmə qafiyə sistemində cinas sözlərin rəngarəng əvəzlənməsinə xidmət etmişdir. İlk nümunədə «yar için (üçün)» cinas qafiyə olmaqla obyektə yönəlmə («qurban yar için» - «yara qurban») ifadə edir. İkinci misrada «yar için» - («ciyərimi, bağrımın içini yar» anlamında) icra

- hərəkət məzmunu daşıyır. Üçüncü sıradakı «yar için» - «yardan ötrü» mənasındadır. İkinci nümunədə də vəziyyət təqribən belədir.

Diqqət yetirilәsi, cinas sözlərin seçilməsində ümumi bir qanunauyğunluq vardır; sərbəst, konkret söz vahidlərinin və sabit birləşmələrin bir-biri ilə əvəzlənməsi. Bu tərkibdə xalq ifadələri və el deyimlərinə əsaslanan qafiyələrin daha üstün mövqedə olması cinasların ümumi mənzərəsindən aydın şəkildə görünməkdədir.

Cinas qafiyəli şeirlərin bolluğu baxımından «Abbas-Gülgəz» dastanı seçilir. Çox güman ki, bu dastandakı cinaslı şeirlər - təcnislər, prof. S.Paşayevin göstərdiyi kimi, dastanın əsas yaradıcısı olan Abbas Tufarqanlının cinaslı şeir yaradıcılığına güclü meyl göstərməsindən irəli gəlir (95, 64-650). Buna görə də «Abbas -Gülgəz» dastanında aşıq Abbasın dilindən verilən qoşmaların əksəriyyəti məhz cinas qafiyə üzərində qurulmuşdur.

*Leyli Məcnun məskənini dağ etdi,*
*Sinəm üstün düyün etdi, dağ etdi,*
*Fələk vurdu, ləşkərimi dağıtdı,*
*Ləşkərim qalmadı, nə qalım indi.*
*Bir ərzim var, mən də deyim şahana,*
*İlahiyə şükr eylərəm, şaha nə?*
*Qorxuram ki, nazlı yarı şah ana,*
*Nə qovğayam indi, nə qalam indi.*

*Kitablar oxudum, cimadə getdi,*
*Məhəmməd meraca cumada getdi,*

*Abbas ağlar, Gülgəz, cuma da getdi,*
*Pərisiz dünyada nə qalım indi? (33, 288)*

İlk bəndin birinci misrasında «dağ etdi» - məskən, yer mənasında, ikinci misrasında frazeoloji qəlibə çevrilərək «dağlamaq», üçüncü misrada isə «dağıtmaq» - vurub dağıtmaq mənasında işlənmişdir. İkinci bənddə cinas söz olan «şahana» ilk misrada «qüdrətli», ikinci misrada «şaha nə?» , növbəti misrada isə «şahın anlaması» mənasında verilmişdir. Qoşmalarda cinaslar aşağıdakı omonimik şəkillərdə təzahür edir:

1. Leksik omonimlər.
2. Morfoloji omonimlər.
3. Omoqraflar.
4. Omofonlar.
5. Leksik-qrammatik omonimlər.

Leksik omonimlərdə fonetik tərkibi eyni, mənaca bir-birindən asılı olmayan müstəqil mənalı leksik vahidlər işlənir. Qoşmalarda bu tip cinaslara çox nadir hallarda təsadüf olunur.

Morfoloji omonimlərdə omonimlik qrammatik şəkilçilər, onların uyğun ifadələnməsi hesabına yaranır.

*Bir tülək tərlanın səsi gələndə,*
*Ürküşür sonalar yar incisinə,*
*Bir gün qıya baxdı, aldı canımı,*
*Zühur alıb bənzər ay incisinə (33, 447)*

Qoşmalarda cinas qafiyələr daha çox omofon qrupda fəaliyyət göstərir. Burada yalnız səslənmə

omonimlik yaradır, qrammatik birləşmələrdə isə məna meylliliyi güclüdür:

*Tutdum yar əlindən bəlkə sağalam,*
*Saqi-məsti, saqi sərxoş, saqi lam,*
*Çətin ki, mən bu yaradan sağalam,*
*Dərd bir oldu, dərman doxsan, yara yüz (33, 290).*

Bənddə verilən «sağalam» ifadəsi omofondur. İlk misrada «sağalmaq» sözü «saqi», «lam» tərkiblərinə ayrılaraq növbəti misrada omofonluğa xidmət etmişdir.

*Yarın qapısında yüz qan eylədim,*
*Əl uzatdım, çəkdim üzqan eylədim.*
*Bir könülə dəydin, yüz qan eylədin,*
*Mən ki, bir kəs ilə yaman deyildim.*

Cinas qafiyə sistemində leksik-qrammatik omonimlilik də mühüm yer tutur:

*Zalım fələk yazdı belə yazımı,*
*Gör necə çevirdi qışa yazımı.*
*Ürəyimdə qoydu mənim arzımı.*
*Yarın gəldiyini heç bilməmişəm (33, 186)*

Ümumiyyətlə, dastanların lirik məqamlarında cinas qafiyəli qoşmaların poetik tərkibi olduqca zəngin və çoxcəhətlidir.

Məhəbbət dastanlarının romantik üslubu onların poetik istiqamətinin müəyyənləşməsində həlledici rol oynayır. Sevən gənclərin ruhi iztirabları və bu iztirabları ovundurma üsulları bəzən üst-üstə düşdüyündən bədii hallanmadakı obyektlər, eyni zamanda, onların poetik çalarları eyniləşir. Misal

üçün: «Tahir-Zöhrə» dastanında Tahir Mirzə bülbülün yanında diz çöküb, göz yaşı tökür.

*Bülbül, sənin işin qandı,*
*Aşıqlar oduna yandı,*
*Nədən hər yerin əlvandı,*
*Köksün altı sarı bülbül!*

*Bülbül, sən dala səkərsən,*
*Göz yaşı gülə tökərsən,*
*On bir ay cəfa çəkərsən,*
*Bir ay da zarı, bülbül ! (33, 44)*

Eyni mənzərəni «Leyli-Məcnun» dastanında görürük:

*Sıx ormanda gəzən bülbül,*
*Sən sızlama, mən sızlaram,*
*Bağrım başım əzən bülbül,*
*Sən sızlama, mən sızlaram.*

*Bülbül, göysün altı qara,*
*Ürəyim olubdu yara,*
*Mən həsrətəm Leyli yara,*
*Sən sızlama, mən sızlaram (33, 348).*

«Tahir-Zöhrə» dastanının qəhrəmanı ürək sızıltısının izini nalə edən bülbülün köksünün altındakı sarı rəngdə tapır. «Hər yerinin əlvan»lığı ilk baxışda quşun gözəlliyi haqqında təsəvvür yaradırsa, köksündəki sarılıq onun dərdinin izini əks etdirir... «Tahir-Zöhrə»dəki bülbül zarıyır, çırpınır.

«Leyli-Məcnun»da isə bülbülün xoşbəxtlik meyarını «al-əlvanlıqda» deyil, «sıx ormanda»

yaşamasında görürük. Və aşiqin qəlb çırpıntıları bülbülün köksünün altındakı qara ilə çulğalaşır, əlaqələnir. Eyni zamanda, burada bülbül zarımır, sadəcə «sızıldayır». Prof. M.Seyidovun göstərdiyi kimi, burada rənglər sənətkarın yaratdığı eksiztensial təsəvvürləri əks etdirir. Sarı və qara bədii məqamda insan ovqatı, mənəvi dəyərlərdən asılı olaraq rəmzi məna qazanır" (100, 27).

Bəzən eyni bir mətn daxilində müqayisəlilik obrazın öz dili ilə verilir. Bu daha mükəmməl ədəbi priyomdur və həmin poetik-üslubi maneranın bədii nüfuzetmə imkanları adi müqayisələrin təsiretmə imkanlarından xeyli güclüdür.

«Valeh-Zərnigar» dastanında qız ilə gəlinin bəhsləşməsindəki təbii, poetik detallar bu cəhətdən diqqətə layiqdir:

*Bir qız ilən bir gəlinin bəhsi var,*
*Gəlin deyər: bu gün meydan məndədir.*
*Qız da deyər: açılmamış qönçəyəm,*
*Fəsli-bahar, baği-reyhan məndədir.*

*Gəlin deyər: ördəyim var, qazım var,*
*Şirin-şirin söhbətim var, sazım var,*
*Sallananda yüz qız qədər nazım var,*
*Həya, iman, ədəb, ərkan məndədir.*

*Qız deyər: mən oxşamışam anama,*
*Məlü mərcan düzülübdür tanama,*
*Əl vursalar sındırarlar şamama,*

*Əl dəyməmiş tağü bustan məndədir (33, 366).*

Bu tipli mətndaxili müqayisələrlə səciyyələnən deyişmələr ümumən aşıq yaradıcılığının ənənəsində geniş yayılmışdır. Onların məhəbbət dastanları tərkibindəki şeirlərdə fəallıq göstərməsi isə münazirə-deyişmənin özünün daxilində dinamik süjet, hadisə, əhvalat ünsürlərinin olmasıdır. Bu keyfiyyət yuxarıda örnək olaraq verilmiş deyişmə-münazirədə də qabarıq şəkildə nəzərə çarpmaqdadır. Şeir boyu qız və gəlin müəyyən hüdudlar daxilində olan hadisənin (onların bəhsləşməsinin, birinin digərinə qarşı çıxaraq öz üstünlüyünü qəbul etdirməyə çalışmasının) iştirakçısı kimi lirik-epik situasiya yaradırlar. Şübhəsiz ki, bu situasiya lirik- psixoloji əhvalla yanaşı, həm də hadisə-süjet əlamətidir.

Beləliklə, dastan şeirinin poetik strukturunun müxtəlif fiqurları, bədii ifadə vasitələri, poetik-üslubi biçimlər və başqa ədəbi-estetik dəyərlər baxımından analizindən belə yekun qənaətə gəlmək mümkündür ki, dastan şeiri ümumi mətnin (dastanın) lirik planının təşkilində, romantik-psixoloji təsirin, xüsusən də poetik nüfuzetmənin gücləndirilməsində son dərəcə böyük miqyasda bədii-funksional iş görür.

## B) Gözəlləmələr

Məhəbbət dastanlarının struktur-semantik və bədii sisteminin bütöv kompleksinin araşdırılması xalqımızın bağlandığı tarixi-mənəvi qaynaqların

tədqiqində, onun milli mənşəyinin etnik-mifoloji, məkan və zaman baxımından öyrənilməsində xüsusi əhəmiyyətə malik məsələlər sırasındadır.

Bu dastanların idyea-məzmun əhatəsindən irəli gələn özünəməxsus poetik cazibə və tarixi-mədəni mənzərəsi vardır. Tədqiqatçı S.Ələkbərovun müşahidəsindən də göründüyü kimi, folklorda gözəllik anlayışı çox geniş mənaya malikdir və özünü xalqın həyat hadisələrinə, insana münasibətində təzahür etdirir. Gözəllik anlayışı xalqın estetik idealı, ülvilik, qəhrəmanlıq, faciəvilik ilə üzvi surətdə bağlıdır. Gözəllik anlayışı bütün bunların hamısını özündə əks etdirdiyi kimi həm də onların vasitəsilə təzahür edir (57, 306-308).

«Əmrah» dastanında xatırlanan mənəvi estetik meyarlar əsasında Əmrah Sayad Pərinin gözəlliyini belə vəsf edir:

*Yarım çıxıb yenə günəşin yerinə,*
*Sallanıban, yüz min nazınan gəlir.*
*Bir ayna qabaxlı, mah qələmqaşlı,*
*Ağ üzə xalları, düzülən gəlir.*

*Bir xalın heyvadı, gəlməz irəngə,*
*Bir xalın birgədi, gedər firəngə.*
*Bir xalın aləmi salıbdı ləngə,*
*Bir xalın söhbəti sazınan gəlir.*

*Əmrah deyər: yarəb, bu necə işdi?!*
*Qəfəsdə oxuyan bir tuti quşdu.*
*Bir xalın payızdı, bir xalın qışdı,*

*Bir xalın bahardı, yazınan gəlir (36, 316-317).*

Göründüyü kimi, dastan şeirində gözəllik özünəməxsus poetik, həm də bununla bərabər, estetik dəyərləndirilməsini almışdır. Bu, tədqiqatçı S.Ələkbərovun yazdığı kimi, aşıq poeziyasında və ümumiyyətlə, folklorda gözəllik anlayışının mahiyyəti insani ləyaqət, insana məxsus müsbət mənəvi keyfiyyətlərlə sıx bağlıdır. Bu məziyyətlər insana məxsus həm mənəvi, həm də cismani keyfiyyətlərlə xarakterizə olunur (57, 401).

Dastan şeirində, ümimiyyətlə dastan poetikasının gözəllik meyarının əsasında insan amilinin durması, insan gözəlliyinin müxtəlif struktur qatlarının dastan estetizminin başlıca dəyərləri sırasına aid olması istər diaxron, istərsə də sinxron planlarda türk dastançılıq arealı ilə sıx bağlıdır. Diaxron plan da bu, ənənə ilə bağlıdır. Ümumtürk dastançılıq ənənəsi vahid dastançılıq ənənəsinin (vahid invariantın) inkişaf tarixidir. Təbii ki, məsələyə bu yöndən yanaşma ümumtürk dastanları üçün məhz insan amili ilə bağlı estetik dəyərlərin olmasını təbii şəkildə nəzərdə tutur. Genetik başlanğıcda duran ilk epik ənənələr sonralar müstəqil epik ənənə qollarına çevrilsə də, hər bir müstəqil dastançılıq ənənəsi genetik yolla öz kökü ilə əlaqələrini saxlayır. Bu da bütöv türk dastançılığında gözəllik kateqoriyasının dastan şeirində eyni istiqamətlərdən, ortaq nöqtələrdən maddiləşmə məqamlarını vermiş olur.

Ümumtürk dastançılığında dastan şeiri sisteminin snxron ifadə planları da eyni nəticəni təsdiq edir. Tədii ki, diaxron və sinxron inkişaf planları bir-birini heç vaxt inkar etmir. Əksinə, bu inkişaf istiqamətləri vahid prosesin müxtəlif tərəfləri olmaqla bir-birini şərtləndirir. Bu anlamda türk dastan şeirinin eyni estetik məqamlarda səsləşməsi diaxron istiqamətdə zəruri təzahürlər verdiyi kimi, sinxron təzahürlər də eyni dərəcədə qeyri-təsadüfi olur.

Türk dastançılığının vahid başlanğıcdan parçalana-parçalana müstəqil qollara ayrılması vahid epik ənənənin şaxələnmiş qollardan ibarət arealını yaratmış olur. Bu mənada türk xalqlarının milli dastançılıqları artıq uzun əsrlərdir ki, yanaşı və müstəqil fəaliyyət göstərir. Bu cür yanaşı inkişaflar genetik başlanğıcda eyni olan ənənənin sinxron inkişafı deməkdir. Ancaq türk dastanları bütün milli özəllikləri ilə sinxron planda da gözəllik kateqoriyasının ortaq dastan şeiri maddiləşməsini verir. Bu epik ənənə ortaqlığını şərtləndirən etnik-mədəni mənşə ortaqlığının mədəniyyət müstəvisində təzahürüdür. Öncə gözəlliyin türk xalqları məhəbbət dastanlarında sinxron təzahürünə diqqət verək. Bunun üçün ən yaxşı material müxtəlif türk xalqlarında yayılmış eyni dastanlardır.

«Aşıq Qərib» dastanının öyrənilməsinə xüsusi bir araşdırma həsr etmiş S.Yaqubovanın tədqiqatı əsasında «Aşıq Qərib» dastanının ümumtürk arealında təzahür edən gözəllik «anlayışına» bir nümunə əsasında diqqət edək. Tədqiqatçı göstərir ki, türk xalqları arasında

yayılmış «Aşıq Qərib» dastanlarının ümumiliyi özünü dastanların şeir hissələrində də göstərir (215, 15).

Təbii ki, tədqiqatçı bu ümumiliyə variasiya baxımından yanaşır və faktların ümumiləşdirilməsindən doğan doğru bir nəticəyə gəlir. Ancaq bizi tədqiqatçının ümumiləşdirdiyi faktlarda variasiya yox, bu variasiyalarda təzahür edən və müxtəlif türk xalqları tərəfindən məhz «eyni cür» qəbul edilən gözəllikdir.

«Aşıq Qərib»in Azərbaycan variantında (1937) belə bir dialoq var:

Qərib:

- *Əgər mövlam mənə kömək olarsa,*
*Ağlama , sevdiyim, yenə gələrəm,*
*Əcəl şərbətini canım dadmasa,*
*Ağlama, sevdiyim, yenə gələrəm.*

Sənəm:

-*Başına döndüyüm gül üzlü cavan,*
*Get, qəribim, sağlıq ilə gələsən.*
*Bilirəm ki, vardır səndə məhəbbət,*
*Get, qəribim, sağlıq ilə gələsən (215, 15).*

Burada iki sevən gəncin ayrılıq səhnəsinin şahidi oluruq. Bütün lirik səhnə kədər notlarına köklənib. Bir-birinə aşiq olmuş, bir-birinin simasında insanı kəşf etmiş, bu insanın gözəlliyindən doymayan bu iki gəncin dilindən qopan bu sözlər onların mənəviyyat dünyalarının quruluşundan, insan anlayışlarının dəyərindən, bütün struktur ölçüləri insan amilindən baş alıb gələn gözəllikdən soraq verir. Baxmayaraq ki, o nəhəng dastandan Aşiq və Məşuqun dilindən cəmi iki bənd şeir veilir, ancaq bu iki bənd şeir «Aşıq

Qərib» «okeanının» bütün gözəlliyini ortaya qoya bilir. Burada hər şeydən öncə məzmun gözəlliyi var. Burada sənət baxımından hər bir şey gözəldir. Bu gözəllik Aşıq və Məşuqun bir-birinə incə münasibətində, sonsuzluqla ölçülən məhəbbətlərində, insani qayğılarında və s. təzahür edir. Bu, hər şeydən öncə hisslərin gözəlliyidir. Hisslərin gözəlliyi isə şeirin poetexniki gözəlliyinə qovuşub və gözəlliyin bu iki planı (məzmun və poetexniki) bir-biri ilə qovuşaraq Azərbaycan məhəbbət dastanının sənət estetizmini təzahürləndirmişdir. Bu mənada gözəlliyin eyni cür təzahürünü başqa türk dastanlarında da görürük. Türkmən «Şahsənəm-Qərib»ində eyni parça:

**Qarıp:**

*Kadır Alla qarıplıqa salmasa,*
*Yıqlama Senem qız, qitsem, qeler men,*
*Ajal etip, peymanamız dolmasa,*
*Yıqlama Senem qız, qitsem, qeler men,*

**Sanem:**

*Mundam qider bolsan Xalan-Şirvana,*
*Bar, Qarıbım, sağlık birle qelqey sen.*
*Seni tapşırmışam kadır subxana,*
*Bar, Qarıbım, sağlık birle qelqey sen.*

Eyni bəndlər Karaqalpak «Qarip-aşiq»ında:

**Qarıp:**

*Ekeuimizdi ayralıkka salmasa,*
*Jlama, Sanemjan, ketsem kelermen.*
*Ajel jetip paymanamız tolmasa,*
*Jlama, Sanemjan, ketsem kelermen!*

**Sanem:**

*Bunnan keter bolsan Alep şıruanğa,*
*Bar Qaribim, saulıkpenem kelqeysenq.*
*Men seni tapsırdım kadir kudaya,*
*Bar Qaribim, saulıkpenem kelqeysenq (215,11,15).*

Göründüyü kimi, Qəriblə Şahsənəmin bir-birinə olan münasibətində ortaya çıxan və bu münasibətlərin əzizlik, məhrəmlik, həmdəmlik qatları səviyyəsindən təzahür edən gözəllik istər Azərbaycan, istər türkmən, istərsə də karakalpak dastanlarında eyni cürdür. Yəni burada təbii ki, fərqlər vardır. Ancaq variantların söz-şeir strukturunda hansı təzahürlər üzə çıxırsa, gözəllik kateqoriyasının təzahüründə də eyni fərqlər var. Yəni dastan şeiri gözəlliyi kateqoriyasının təzahür imkanları türk xalqlarında Azərbaycan dastanında olduğu kimi insan amili əsasında formalaşır və gözəlliyin məzmun planı ilə poetexniki planının üzvi qovuşmasına söykənir. Bu, «Əsli-Kərəm» dastanının müxtəlif türk xalqlarındakı variantlarında da belədir. Dastanda bir səhnədə Kərəm Əslini tərif edə-edə onu kilsəyə gedən qızlardan xəbər alır. Bu tərif-gözəlləmədə Əsli bir insan kimi istər zahiri, istərsə də daxili keyfiyyətləri ilə kamil bir təsvirini tapmışdır. İmkandan asılı olaraq həmin qoşmadan bir bəndin variantlarına prof T.Xalisbəylinin tutuşdurmasında diqqət edək.

**Azərbaycan variantında:**

*Ey kilsəyə gedən qızlar, gəlinlər,*
*Qızlar, xan Əslim kilsəyə gəldimi?*
*Bəzənib yaşıla, məxmərə, ala,*
*Qızlar, xan Əslim kilsəyə gəldimi?*

**Türk variantında:**

*Sana kurban olum canlı kilisə,*
*Kızlar, Aslım kilsəyə qəldimi?*
*Çohuna murad verir Həzrəti-İsa,*
*Kızlar, Aslım kilsəyə qəldimi?*

**Türkmən variantında:**

*Kelisara qiden xüyr veçxa qızlar,*
*Qızlar, Aslım bu diyara qeldimi?*
*Allanı seversiz, yoqsa İsanı,*
*Qızlar, Aslım bu diyara qeldimi?... (69, 48-49)*

Göründüyü kimi, eyni bir dastan müxtəlif türk xalqlarının ifaçılıq mühitlərinə düşdükdən sonra belə estetik zövq və kateqoriyaların yeni mühitdə təzahürü baxımından ortaqlıq qalmaqdadır. Sinxron planda bunu, bəlkə də, eyni variantların təbii oxşarlıqları ilə izah etmək mümkündür. Ancaq variant olmayan müxtəlif türk dastanları estetikliyin ortaq təzahürünə gərəkli material verir. «Ray çani» türkmən məhəbbət dastanından bir bənd şeirə diqqət edək:

*Jaxan eyvanıdan xırşıdı-xaver,*
*Men bilmenem, mana niçik dilberdi;*
*Jamalıdan jümle əlem minevvar,*
*Eli birlen çemen baqlap qül berdi... (126, 81)*

Azərbaycanda heç bir variantı olmayan bu sevgi dastanının şeirlərini nəzərdən keçirdikdə, ləhcə fərqlərini çıxsaq, elə bil Azərbaycan məhəbbət dastanını oxumuş, yaxud dinləmiş oluruq. Eyni obrazlar, eyni poetexniki fiqurlar, dynyaya, insana,

məhəbbətə yeni baxışın şahidi oluruq. Bunun əsasında isə türk xalqlarının ortaq etnik-mədəni başlanğıcı, etnik, mədəni, ictimai, psixoloji və s. mənşə birgəliyi durur. Bu birgəlik hər hansı invariant sxemin, indiki halda dastan estetizminin birgəlik konturlarını müəyyənləşdirmiş olur. Bu mənada Azərbaycan məhəbbət dastanları şeirinin bütün estetik gözəlliyi bir estetik mədəniyyət hadisəsi kimi ümumtürk dastan şeiri, ümumiyyətlə lirik düşüncənin tərkib hissəsi kimi çıxış edir. Bu yolnan türk lirik düşüncəsi üçün xarakterik cəhətlər Azərbaycan dastan şeirində də öz təzahürünü tapmışdır. Azərbaycan dastan şeirindən gözəlliyin təzahür mənzərəsinin poetexniki və məzmun mexanizmlərinə diqqət verməklə əslində ümumtürk folklor şeiri estetikasının eyni mexanizmlərinə diqqət verilmiş olur. Bunu isə yuxarıdakı tutuşdurmalardan aydın gördük.

Dastanlardakı bədii tərənnüm gözəlliyi və füsunkarlığı təbii olduğu qədər də cazibədar, sirli-sehirli təqdim edir. Qadın gözəlliyi müxtəlif poetik-üslubi qatlarda açılaraq, çeşidli poetik müqayisələrin bədii təzahürü kimi ortaya çıxır. Bu mənada gözəllik öz-özünə təzahür etmir. O, lirik düşüncənin poetik müqayisələrə əsaslanan aramsız «işinin» təzahürü kimi ortaya çıxır. Həmin müqayisələri indiki halda ən ümumi planda belə qruplaşdırmaq məqsədəuyğundur:

1. Təbiətlə bağlı müqayisələr.

2. Ayrı-ayrı dini məfhumlar və varlıqlarla bağlı aparılan müqayisələr.

3. Göy cisimləri ilə bağlı aparılan müqayisələr.

Birinci qrupa aid olan müqayisə sistemində təbiət hadisələri və təbiət cisimləri gözəlliklərin vəsfində əsas poetik vasitəyə çevrilir. Məhəbbət kimi yüksək, nəcib, ülvi duyğuların tərənnümündə ön plana keçən təbiət gözəlliyi folklorumuzun bədii aləminə rövnəq vermiş, dastanların əsasında dayanan lirik qəhrəmanların zahiri portretlərinin daha cizabədar şəkildə yaradılmasında onların iztirab və duyğularının, psixoloji vəziyyətlərindəki yaşantılarının bədii dillə ifadəsində böyük rol oynamışdır. Təbiətin bəzəyi olan iriçətirli ağaclar, hündür sərvlər, zərif çiçəklər və s., onların ən gözəl keyfiyyət və cizgiləri müxtəlif üslubi məqamlarda poetik mənzərənin dolğunlaşmasına və tamamlanmasına xidmət etmişdir. Sevgili gözəlliyinin təsviri zamanı təbiət həm öz zərif, incə detalları ilə portret yaradılmasında iştirak edir, həm də bəzən sənətkar qələminin qüdrəti ilə yaradılmış gözəlliyin kölgəsində qalır. Məsələn, «Valeh-Zərnigar» dastanında Valeh Sənəmin gözəlliyini təsvir edərkən məhz belə bir poetik-üslubi maneranı işə salmışdır:

*Sallana-sallana seyrə çıxanda,*
*Sərv qamətindən xəcalət çəkər,*
*Lalə yanağından, nərgiz gözündən,*
*Qönçə gülüşündən nədamət çəkər.*

*Nəstərən, bənövşə çalışa yüz il,*
*Çətindi ömrünə yetəndə müşkül,*
*Məgər zülflərinən bəhs edər sünbül,*
*Düşər ayaqlara , qərabət çəkər.*

*Valehin bağrını eylədi büryan,*
*Qurbanam yolunda ey əbrü kaman,*
*Bircə mən deyiləm hüsnünə heyran,*
*Həsrətini küllü vilayət çəkər (33, 364).*

Burada gözəl portretinin işlənməsinə cəlb edilmiş sərv, lalə, qönçə, nərgiz, bənövşə, sünbül kimi təbiətin ülvi gözəlliyini əks etdirən obrazlar müqayisə vasitəsi olaraq təsvir-tərənnüm prosesinə daxil edilmiş, bununla belə onlar öz yaratdıqları portret-sevgili gözəlliyi qarşısında kölgədə qalmışlar.

Məhəbbət dastanlarında gözəlliklərin təsviri «Kitabi -Dədə Qorqud» və nağıllarda olduğu kimi qanadlı, poetik nəqletmə yolu ilə də verilir və bənzətmə obyektləri bir qayda olaraq ardıcıl və müəyyən ahəng daxilində əlaqələndirilir. Məsələn, «Aşıq-Qərib» dastanından Qəribin buta alması səhnəsinin təsvir-təqdimi gözəl portretinin poetik nəqletmə, yüyrək-dinamik təşbeh, metafora və epitetlərlə yaradılması buna gözəl bir örnəkdir: «Rəsul yatmışdı, yuxuda gördü ki, Tiflis şəhərində behişt misalı bir bağdadır, onun başının üstündə ceyran misalı bir qız, qaş kaman, gözlər piyalə, burun hind fındığı, sinə Səmərqənd kağızı...» (33, 170).

**«Soltan-Qəndab» dastanından:**

«Aşıq Qəndab bir dəstə qızla dağları seyr edirdi. Qəndabın ərkən vaxtı idi. Qara qarğı saçlı, burnu hind fındığı, dodaqları süzülmüş bal, yanaqları qıpqırmızı lalə kimi idi» (25, 480).

Digər dastanlarda da sıx-sıx rast gəlinən bu təsvir-təqdim üsulu əslində müəyyən qəlib-standarta əsaslanır.

Nağıllardakı məşhur: «qız, nə qız! Günə deyir, sən çıxma, mən çıxım, aya deyir, sən çıxma, mən çıxım. Yemə, içmə, xətti-xalına, gül camalına tamaşa elə»-təsvir standartı, görünür məhəbbət dastanlarındakı sözü gedən qəlibin yaranması üçün zəmin rolu oynamışdır.

Ümumiyyətlə, «Aşıq şeirlərinin lirik qəhrəmanları heç zaman hissdən, duyğudan məhrum ətsiz-cansız mələklər deyil, yer üzündə yaşayan, gözə görünən, al yanaqlı, tər buxaqlı, ala gözləri şölə saçan real gözəllərdir. Bu gözəlləri tərənnüm edən aşıq şeirinin təşbehləri, obrazlar silsiləsi real həyatdan və təbiətdən alınmışdır» (73, 27).

Dastanlarda sevgili gözəlliyi, onun hüsnü-camal cizgiləri, boy-buxun əlamətləri, yeriş-duruş, davranış keyfiyyətləri bir büiöv halında götürülür. Burada milli tərtibat ön plana keçir. «Qurbani» dastanında yaradılan portretin estetik-zahiri görünüşü qədər də mənəvi-daxili əlamət və keyfiyyətləri diqqətçəkicidir:

*Nəzakət vaxtında, xüblar çağında*
*Baxdım, yar yanağı sayalanıbdı.*
*O alma yanağı, büllur buxağı,*
*O zəhri zülfləri halqalanıbdı.*

*O zəhri zülfləri, köksünə çəprəs,*
*Zər zərrab üstündən, ətlası çərkəs.*
*Yaxası mürəssə, çatqısı Gülgəz,*
*Çarqatının ucu sürmələnibdi.*

*Qurbaniyəm, dərdim etdim hekayət,*
*Kimlərdən eyləyim, kimə şikayət?*

*Pərim bir görünə, edəm  ziyarət,*
*Canım yar yolunda cəfalanıbdı (33, 237).*

İlkin bənddəki «yar yanağı» sayalanıbdı» (nəzakət xatirinə yarın başına yaylıq örtməsi və onun müəyyən qədər də üzünü tutması, yanağını sayalaması-kölgələməsi) ifadəsi xalq təfəkküründən, onun əxlaqi-davranış ölçülərindən gələn əvəzsiz poetik ifadədir.

Ümumiyyətlə, folklorumuzun poetik sistemində bir sıra obrazlı söz qrupları vardır ki, onlar aşıq şeirində vətəndaşlıq hüququ qazanır, sonradan öz mənasını saxlamaqda fərqli formada yazılı ədəbiyyata keçir. Aşağıdakı bayatı nümunələri üzərində fikrimizi aydınlaşdıraq:

*Eləmi baxdı yarım,*
*Baxtımın taxtı yarım.*
*Üzündə göz izi var,*
*Sənə kim baxdı yarım?*

Yaxud:

*Mən aşıqəm izi var,*
*Kababda köz izi var.*
*Sənə yadlar baxıbdı,*
*Üzündə göz izi var.*

Son dərəcə ustalıqla işlədilmiş, təbii ifadə olunan bu fikir mənası və lakonikliyi baxımından heç bir lövhə ilə əvəz oluna bilməz. Aşıq gözəlik simasında ən kiçik təbəddülatı belə sezməyə qadir insan sərrafıdır. İnsan psixikasından irəli gələn bu kiçik detal-yad üz, yaxud tanış olmayan baxışdan gözəlin, sevgilinin üz cizgilərinin dəyişməsinə işarə edir. XIX əsrdə klassik

şeirin, xüsusilə Füzuli irsinin davamçısı olan Seyid Əzim Şirvaninin qəzəlində enyi fikir dolayı yolla belə ifadə edilmişdir:

*Kimin ayineyi-rüxsarına düşmüş nəzəri,*
*Ki üzündə qalıb o tünd nigahın əsəri.*

Göründüyü kimi, fikir, məzmun ümumxalq təfəkküründə təbii rəngi, təbii dili ilə doğulur, yazılı ədəbiyyatda klassik biçimi ilə görünür. Eyni poetik duyum və onun çeşidli ifadə biçimlərinə Azərbaycan məhəbbət dastanlarında da rast gəlinir.

Dastanlarda bəzən «sinə»-Savalan qarı, bəzənsə «mərmərlə» müqayisə olunur.

«Tahir-Zöhrə» dastanından:

*Anadan olanı gülməyib üzüm,*
*Qürbət ölkələrdə mən necə dözüm?*
*Ənbərçən altından sataşdı gözüm,*
*Sinən ağdı, Savalanda qar, yeri! (33, 37)*

Yaxud: «Alı xan-Pəri» dastanından:

*Bəsləyibdi hər tərəfdən,*
*Bir cüt şamama tağı var.*
*Açılıb sinəsi meydan,*
*Mərmərə bənzər ağı var.*
*Müşkü-ənbər iylidi.*
*Qoxusu, ətri, yağı var (33, 406).*

İlkin variant, yəni «ağ sinə-ağ qar» daha fəal, daha təbiidir. Qeyd etmək lazımdır ki, bu ənənə bütövlükdə Azərbaycan folkloruna məxsus təsvir sistemi üçün səciyyəvidir. Folklor təxayüllü daha təbii, daha canlı müqayisələrə üstünlük verməyi xoşlayır. Bu baxımdan «ağ qar» və ya «Savalan qarı»

ifadəsinin «mərmər» obrazından daha işlək bir mövqedə dayanması tamamilə təbiidir.

Bəzən bənzətmələr öz orijinallığını yalnız ifadə olunduğu bədii mühitdə qoruyub saxlayır. «Qurbani» dastanında olan bir gözəlləmədə bu baxımdan maraqlı bir müqayisə aparılmışdır:

*Sallana-sallana gedən Salatın,*
*Gəl belə sallanma, göz dəyər sana.*
*Al yaşılı geyib, qarşıda durma,*
*Saqın səryağıbdan, söz dəyər sana.*

*Gəl görüm, gəl görüm kimin yarısan?*
*Hansı bir iyidin vəfadarısan?*
*Kölgədə dayanmış dağlar qarısan,*
*Səhərin günəşi tez dəyər sana.*

*Qurbani der: Heç kəs yarın öyməsin,*
*Əl uzatdım, açım yaxan düyməsin,*
*Dəstələ zülflərin, yerə dəyməsin,*
*Yollar qubarlanıb, toz dəyər sana (33, 249).*

Ən ağır məqamda, yəni bədbin ovqatda da gözəlliyin müqayisə obyektləri eyni şəkildə öz əksini tapır: «Pəri xanım ağlaya-ağlaya cəlladların ayağına yıxıldı, göz yaşı axıtdı, bənövşə kimi tellərini üzünə iökdü, payız xəzəli kimi yanaqlarını saraltdı» (33, 245).

Göründüyü kimi, həm nikbin, həm də bədbin məqamlar üçün bənzətmə vasitəsinin öz təbii və bədii funksiyası vardır. Bu da təsadüfi deyildir. S.Ələkbərov yazır ki, «şifahi xalq yaradılcılığı təbiilikdən,

həyatilikdən uzaq, qondarma ahəngdarlığa yabançıdır. Onun nümunələrində gözəllik haqqında xalq düşüncələrinin canını, ruhunu insani gözəllik haqqındakı fikirlər təşkil edir. Folklorda cismani gözəllik əlvan, rəngarəng boyalarla verilmişdir. Azərbaycan nağıllarında, dastan və bayatılarında qadına məxsus gözəllik anlayışının parlaq nümunəsi verilmişdir. Məsələn, dastanlarda gözəl qadın belə təsvir olunmuşdur: al yanaq, ayna qabaq, büllur buxaq, dürdanə dişli, piyalə gözlü, qaşı kaman, kipriyi ox, ağzı püstə, dodağı qaymaq, sinəsi mərmər, boynu uzun, gərdəni mina, incə bel, şümşad barmaq və s. (57, 41). Burada incə bir məqama diqqət yetirmək lazım gəlir. Xatırlanan təsvir vasitə və detalları aşıq poeziyası, o cümlədən də dastan şeiri daxilində təbii görüntü yaratdığı haldı, fərdi yaradıcılıq üslubunda bir qədər bayağı, daha dəqiq desək, az poetik tutumlu təsir bağışlayır. Folklor yaradıcılığı ənənəvi poetik qəlibləri dəfələrlə yenidən təqdim edə bilər. Fərdi yaradıcılıq isə yeni poetik biçim ortaya çıxardığı zaman maraq doğurmağa qadir olur.

Buna görə də dastan şeirinə məxsus ümumişlək poetik qəliblər, xalq təfəkküründən gələn obrazlılıq, fərdi poetik sistemin strukturundan aşağıdakı quruluşu ilə fərqlənir:

1. Xalq təfəkküründən gələn obrazlılıqda daha çox təbiətlə bağlı detallara üstünlük verilir.

2. Xalq təfəkküründəki obrazlılıq ortaq, müştərək təxəyyül məhsulu səciyyəsi daşıdığı halda, fərdi aspektdə subyektivlik ön plana keçir.

Məhəbbət dastanlarında təbiətlə bağlı gözəlləmələrin müqayisə sistemi «Kitabi-Dədə Qorqud»dakı eyni vəzifəli müqayisə sistemi ilə oxşarlıq təşkil edir:

*Bəri gəlgil, başım baxtı, evim taxtı,*
*Evdən çıxıb yüyürəndə sərvi boylum!*
*Topuğunda sarmaşanda qara saçlım!*
*Qurulu yaya bənzər çatma qaşlım!*
*Qoşa badam sığmayan dar ağızlım!*
*Güz almasına bənzər al yanaqlım!*
*Qadınım, dirəyim, döləyim! (75, 20)*

Yaxud:

*Yalab-yalab yalabıyan incə donlum!*
*Yer basmayıb yüzyünən,*
*Qar üzərinə qan dammış kimi qızıl yanaqlım!*
*Qoşa badam (sığmayan) dar ağızlım!*
*Qələmçilər çaldığı qara qaşlım!*
*Qurumsu qırx tutam qara saçlım!*
*Aslan uruğu, sultan qızı! (75, 107)*

Məhəbbət dastanlarında gözəlliklə bağlı bədii müqayisənin mərkəzində göy-səma cisimləri də dayanır.Günəş, ay, bulud, dan ulduzu, ülkər və s. səma cisimlərinin xalq təfəkküründə formalaşdırılaraq bədii məqamda hallandırılması təsadüfi səciyyə daşımır. Real dünyadan kənarda xəyali, iedal aləm axtaran insanların dünyagörüşündə göy-əbədi sonsuzluq müqəddəsliyə çevrimliş, zaman-zaman əfsanə, rəvayət və nağıllarımızın struktur-semantik sistemində çeşidli anlamlar daşıyan transformativ obraza dönmüşdür.

Bu silsilədə Günəş öz poetik obrazlaşma imkanı ilə müqayisə vasitəsi kimi daha fəal mövqedədir. Günəşin insan gözəlliyi ilə əlaqələndirilməsi tipoloji bir keyfiyyət kimi dünya xalqlarının əksəriyyətinin, o cümlədən də türk xalqlarının qədim inamları ilə bağlıdır. Dünya xalqlarına məxsus folklor və mif qaynaqlarının mənzərəsi göstərir ki, əksər xalqların ilkin çağlara məxsus ibtidai-mifoloji düşüncə sistemində Günəş yerin, göyün Allahı səviyyəsində ilahiləşdirilir. Əslində bu səma cisminin ilahiləşdirilməsi onun təbii xassəsi ilə əlaqədardır. Dünyanın, yerin istilik sisteminin qoruyucusu, cansız təbiətin təkamülünü şərtləndirən Günəşin müqəddəsləşdirilməsi məhz onun həyat və yaşayışı şərtləndirən, təmin və təchiz edən əlamətləri əsasında formalaşmışdır. Təsadüfi deyildir ki, Misirdə IV Amenxotel dövründə Firon özünü günəş adlandırmış, hökmdarlığının möhkəmliyini «günəş mərhəməti» ilə bağlamışdır.

Folklor təfəkküründə stabil, ənənəvi obraza çevrilən Günəş gözəllik simvolu kimi dastan və nağıllarımızda, aşıq şeirində çeşidli poetik funksiyalar yerinə yetirmişdir.

Məhəbbət dastanlarının gözəlləmələrində bu simvol mifik səcdənin bütün əlamətlərini özündə cəmləşdirmişdir. «Qurbani» dastanındakı bir nümunə çox səciyyəvidir:

*Cəbinin təcəlla, camalın günəş,*
*Külli şeyün halik-allah deyibdi.*
*İki qabi-qovsun, qürrətüleynin,*

*Bilmirəm qanıma nə susayıbdı.*

*Təbəssüm eyləyir hərdən nazənin,*
*Mərifət anlayıb, mənasın bilin,*
*Ya müşk-ənbərdi siyah kəkilin,*
*Ya şəbi-yeldadı, ya rəqayibdi.*

*Elmin mədənisən, kərəmin kanı,*
*Sənsən bu dünyanın dari-imanı,*
*Qurbani, bəsdi, sən həddini tanı,*
*Məlayik üznə durma, ayıbdı! (33, 220)*

Yaxud məşhur «Alı xan-Pəri» dastanından bir nümunəvi bəndə diqqət yetirək:

*Səhər seyri bir ov çıxdı qarşıma,*
*Könül sevdi sənin kimi maralı.*
*Üzündə mahitab, camalın günəş,*
*Eylə bildim yerin, göyün qəralı (33, 389).*

Məhəbbət dastanlarında gözəllərin tərənnümündə səma cisimlərindən qəmər, yaxud Ayın obrazlaşması da xüsusi yer tutur. Ayın simvollaşması qədim türklərin inamlarında aparıcı mövqeyə malikdir. Türk dastanında göy işığının içindən çıxan burma saçları işıq saçan qızdan Oğuz kağanın üç oğlu doğulur. İnsan nəslini artıran tanrı-ilahi rəmzi sayılan bu qızdan doğulan oğlanlara səyyarələrin adı verilir: böyük oğlan Gün, ortancıl Ay, kiçiyi Ulduz. Əlbəttə, ibtidai dünyagörüşün belə bir əlaqələndirmə aparması heç də təsadüfi deyildi. Çünki əski mifik təsəvvürə görə Aydan, Gün işığından doğulanlar səyyarələrlə, göylə, ilahi aləmlə, ruhlar dünyası ilə vəhdətlənirlər (121, 430-465).

Mifologiyada göyə inam, göylə bağlılıq sonradan yalnız gözəllik rəmzində dastanlarımızda öz izini qoruyub saxlamışdır. Məsələn, «Qurbani» dastanlarından bir məqama diqqət yetirək:

*Bir pərzad görmüşəm sizin ellərdə,*
*Çün cismü canimin namidarıdı.*
*Günəş nişanəli, qəmər misallı,*
*O cahan xubinin cilvədarıdı.*

*Dost bilsə yarımın gəldiyin, neylər?*
*Yar yolunda qara bağrını teylər,*
*Nəsihət qəmzənə var ki, qan eylər,*
*Gözəllər şuxinin sitəmkarıdı* (33, 220).

Ayın təbii formaları aşıq şeirinin bədii tərənnümündə müxtəlif şəkillərdə səciyyələndirilmişdir. Bu təsvir elmdə təsdiqinə qədər xalqın dünyagörüşündə artıq formalaşmışdı. Gözəlləmələrdə Ay-«bir gecəlik», «üç gecəlik», «on dörd gecəlik» biçimlərdə göstərilir və məqsədli poetik funksiyalar daşımağa yönəldilir.

**«Xan Çoban» dastanından:**

«Qız gördü ki, yatan insandır. Daşı o yana atdı. Baxıb gördü ki, bir gecəlik ay kimi gözəl oğlandır, yaranmışlardan tapılmaz» (33, 440).

**«Aşıq Qərib» dastanından:**

«Qərib yenə də ayılmadı. Ağcaqız görək axır yarpağı necə tamamladı:

*Ağcaqız deyir sözünü,*
*Oyan qərib, aç üzünü,*
*Üç gecəlik ay üzünü,*

*Oyan ovçu, ovun gəldi!» (33, 183)*

**«Qurbani» dastanından:**

«Qarabaş gəldi hovuzun kənarına. Elə su doldurmaq istəyəndə baxdı ki, suda bir adam şəkli var. Qayıdıb yuxarı baxanda, gördü sərv ağacının dibində bir oğlan yatıb, elə bil on dörd gecəlik aydı, bulud altından çıxıb. Özünü itirib qabı boş götürdü» (33, 226).

Örnəklərdən göründüyü kimi «ay» simvolu, əsasən qadın qəhrəmanlarında deyil, sevən, igid oğlanların təsvirində də müqayisə vasitəsi kimi tətbiq edilir. Türk xalqlarının dünyagörüşündə Ay-erkək, gün isə dişi başlanğıcın ilki kimi götürülmüşdür. Bunun üçün də Ayın bədii məqamı daha çox Aşiq obrazı ilə bağlanmışdır.

«Kitabi-Dədə Qorqud» dastanlarında ayla bağlı gözəlləmə variantı daha irəli gedərək predmetin digər elmi, təbii elementlərini açmışdır. «Ay üzərində ləkə»- bu gün elmdə qalaktikanın açılan sirlərindən biri olaraq, öz şəklini xalq yaradıcılığında tapmışdır. Ayla bağlı yaranan onlarla əfsanə, xatirələrimizdə canlanan bu səma cisminin xüsusiyyətləri fikrimizi təsdiqləməyə imkan verir. Dastanlarımızda ayın bənzətmə mövqeyinə çox incəliklə yanaşılmışdır:

*«Qarşı yatan qara dağını aşmağa gəlmişəm,*
*Axıntılı, görklü suyunu keçməyə gəlmişəm.*
*Gen ətəyinə, dar qoltuğuna qısılmağa gəlmişəm,*
*Tanrının buyruğu ilə, peyğəmbərin qövmilə,*

*Bamsı Beyrəyə diləməyə gəlmişəm,-dedi» (75, ).*

Gözəlləmələrdə səma cisimlərindən Dan Ulduzunun da fəal poetik-üslubi mövqeyi vardır.

**«Əsli-Kərəm» dastanından:**

*Keşiş bağçasında bir gözəl gördüm,*
*Ağlımı başımdan aldı nə çarə?*
*Darayıb zülfünü, töküb üzünə,*
*Sərimi sevdaya saldı, nə çarə?*

*Sevdiyim o gözəl keşiş qızıdı,*
*Səhərdən parlamış dan ulduzudu.*
*Yaşılbaş sonadı, göllər qızıdı,*
*Göldən kənar qanad çaldı, nə çarə?*

*Dərdli Kərəm deyər fürqətim qatı,*
*Kəskindi qılıncı, yüyrəkdi atı,*
*O İsəvi, mən Məhəmmət Hümməti,*
*Atəşi sərimdə qaldı, nə çarə?*

**«Alı xan-Pəri» dastanından:**

*Səhər tezdən doğan dan ulduzuyam,*
*Atamın, anamın xoş avazıyam,*
*İsmim Pəri, hacı Sayad qızıyam,*
*İstəsən göstərim camalı, dərviş! (33, 77)*

**«Məhəmməd-Güləndam» dastanından:**

*Dağlar maralıyam, göylər ülkəri,*
*Görmüşəm ləbində qəndi, şəkəri,*
*Bil ki, mənəm Abbasın nökəri,*
*Sevdiciyim, sonam, sən burdan qayıt! (33, 412)*

Səma cisimlərinin tərənnümündə fəallığı xalqın mifik təfəkkürünün fəlsəfi əsası ilə bağlı olmaqla bərabər zaman-zaman onun yaratdığı nümunələrində öz əski izlərini qoruyub saxlamışdır. Sonralar «pantürkizm ideoloji təbliğat dalğasına qarşı yeridilən siyasətdə ilk addım sənətlə, ədəbiyyatla şüurlara təzyiq göstərmək olmuşdur. Bununla bağlı folklorumuzun milli şüur, milli mənliklə bağlı ideya istiqamətləri, bədii tərənnümü ələnmiş, hakim ideologiyanın tələbləri ilə ədəbiyyata müəyyən hüdudlar daxilində hərəkət etmək ixtiyarı verilmişdir. Bu sıradan «ay» obrazı türklük və islam rəmzi kimi mənalandırıldığından onun bədii obrazlaşdırmadakı fəaliyyəti bir müddət basqı altına alınmışdır.

Məhəbbət dastanlarında gözəlliyin vəsfinə xidmət edən, onu gücləndirən vasitələrdən biri də dini varlıq və predmetlərin müqayisəyə cəlb olunmasıdır. Gözəlliyin Kəbə, məscid, Qaradaş, Qaraörtük, tüba (cənnətdə olan gözəl, hündür ağac), gövsər, huri, qılman və s. ilə müqayisəsi dastanlarımızda ayrıca, fərqlənişli bir poetik sistem kimi özünəməxsus mövqe tutur. «Qurbani» dastanlarından götürdüyümüz aşağıdakı parçaya diqqət yetirək:

«Qurbani dedi:

-Xan, izin ver, birini də deyim, gör səndən nə istəyirəm.

Ziyad xanın cavabını gözləməmiş, aldı Qurbani sözünün gerisini:

*Ellər köçdü yaylağına, dayandı,*
*Sizin dağdan qar almağa gəlmişəm.*

*Könül quşu dövr eyləyir bu bağda,*
*Zənbur mənəm, bar almağa gəlmişəm.*

*Sevgilimin qaşı Kəbə küncüdü,*
*Mən öləndə kimlər onu yöncüdü?*
*Ağız müddü, dişi dürr, dəhan incidi,*
*Sərraf mənəm, nar almağa gəlmişəm.*

*Başına döndüyüm, şahların şahı,*
*Səni gördü gözüm, çəkmərəm ahı.*
*Qurbani der: Bu sözün kütahı,*
*Müxtəsəri, yar almağa gəlmişəm.*

Ziyad xan dedi:

- «Qara Vəzir, heç kəs cürət edib mənim gözlərimin içinə bu sözü deyə bilməzdi. Bu aşıq cürət eyləyib söylədi. Görürsənmi o mənim qızımdan ötrü gəlib. De görüm, nə tədbir tökürsən?» (33, 233)

Əslində, burada Ziyad xanın Qurbaniyə müsbət münasibətinin formalaşmasının bir səbəbi onun cürətli olması ilə bağlıdırsa, digər səbəbi, heç şübhəsiz, gözəlin qaşının kəbə ilə müqayisəsidir. Hər halda bu müqayisə fikrin dönüşündə mühüm rola malikdir. Yaxud:

«Əsli-Kərəm» dastanında Kərəmin Əslinin üzündə olan xallara necə qiymət verməsini xatırlayaq:

*A Həzarat, bilin Əsli xanımın*
*Üzündə xalları nazınan gəlir.*
*Bir xalı əlifdi, bir xalı beydi,*
*Bir xalı dəftərə yazınan gəlir.*

*Bir xalı heyvandı, gəlməz irəngə,*
*Bir xalı İranı salıbdı ləngə.*
*Bir xalı elçidi gedir Firəngə,*
*Bir xalı söhbətü sazınan gəlir.*

*...Bir xalı bəzzazdı, rumun Qeysəri,*
*Bir xalı içibdi adi -kövsəri.*
*Bir xalı ağlımı edib sərsəri,*
*Bir xalı ağ üzə düzülən gəlir... (33, 154)*

Yalnız folklorda deyil, ümumiyyətlə klassik şeirdə bu cür müxtəlif predmetlərə istinad edilməsi təsadüfi səciyyə daşımır. İlkin şərt kimi bu, ən çox sufizm ilə, təsəvvüf ədəbiyyatı ilə bağlı ənənəvi bir prosesdir. İslam mistikasına görə sirli bir düşüncə, qüdrət parçasıdır ki, o, keçici zaman üçün cismaniləşmişdir (120, 79). Allahın gözəlin simasında təcəlla etməsi isə sonradan bu ədəbiyyata daxil olmuşdur (120, 141-143). Əslində, tanrının real adamların üzərinə «köçürülməsi», insana verilən qyimət, onun şəxsiyyətinin yüksəldilməsi, hörmət mühüm bəşəri amillərlə bağlıdır. İnsan hüquqlarının tapdandığı, qula çevrildiyi cəmiyyətdə ona allah gözündə baxma, səcdə ən böyük çevriliş idi. Bu mənada «allah kəlməsi insanın üzündə yazılıb», «tanrı gözəllikdə zühür edir» kimi orta əsrdə islam zəminində yaranan fəlsəfi cərəyanların ideyası bu dövrlərin folkloru, xalq yaradıcılığında, xüsusən aşıq sənətində də özünə yer tutmuşdur.

İkinci bir tərəfdən, gözəlliyin bu dini varlıq və predmetlərlə bağlılığı onunla izah oluna bilər ki, zorla qəbul edilən islamın əski zərdüşt təlimi əsasında

formalaşması, yəni dini təlim kimi təbliği xalqın əski dünyagörüşünün və təfəkkürün təhqir olunması idi. Xalq yeni dinin «müqəddəs qanunları»nı onun əfsanəvi varlıqlarında-insan gözəlliyinə köçürməklə xəyali dünyanı deyil, real bəşəriyyəti qiymətləndirib qəbul etmişdir.

Ümumiyyətlə, elmi-fəlsəfi görüşlərimiz, xalqımızın etika və hüquq normaları, adət-ənənələrimiz, həyata baxışlarımız tariximizin müəyyən bir pilləsində islam dini ilə qovuşmuş və sonrakı inkişafında onunla sıx bağlanmışdır.

Məhz yuxarıdakı tarixi dövr, şəraitlə bağlı olaraq dini-fəlsəfi predmet, varlıqlar sənətdə özünə geniş yer tapa bilmişdir. Lakin xalq təfəkküründə cilalanaraq daha yeni məna, məzmunda formalaşmışdır. Eyni bir gözəlləmədə hər iki çalar-təbiət və dini predmet, xəyali varlıqlar paralel işlədilmişdir:

*Sallana-sallana çıxdı qarşıma,*
*Boyu sərv, yanaqları al Əsli!*
*Huridə, mələkdə tayı tapılmaz,*
*Dili şəkər, dodaqları bal Əsli!*

*Məsməni çəkibdi qələm qaşına,*
*Ağ ipək çalmanı salıb başına,*
*Sinə bənzər ahu, ceyran döşünə,*
*Aç qolların, gəl boynuma sal, Əsli!*

*Kərəm deyər: yüz il sənə qul olum,*
*İzin ver qapında rəncbər durum.*
*Qismət olsun səndən muradım alım,*

*Sən də mənim muradımı al, Əsli! (33, 980)*

Təbiət sərv, lalə, ahu, ceyran əsasında gözəlliyi vəsf olunan Əsli huri, mələklərdə tayı tapılmayan gözəl kimi təqdim olunur. Təbiət-real dünya ilə xəyali göy-ilahi, ruhlar aləminə məxsus məfhumların müqayisəsi arasında insan gözəlliyi təsdiq olunur.

Azərbaycan ədəbiyyatı tarixinin və orta əsrlər dövrünə aid sənətkarların yaradıcılığında, xüsusilə klassik şeir nümunələrində, ayrı-ayrı misra və beytlərdə, poetik təşbehlər sistemində bu varlıqlarla bağlı gözəlliyin tərənnümü, gözəlliyin bu və ya digər cəhətdən poetik təqdimatı daha geniş və əhatəlidir.

Qiymətverici emosional-ekspressiv keyfiyyətə malik olan heyvan, quş adları gözəllik məqamında floklorumuzda da geniş istifadə olunmuşdur. Bunların şifahi xalq yaradıcılığında birinci, yaxud klassik yazılı ədəbiyyatda ilkin istifadə olunmasını müəyyənləşdirmək, şübhəsiz, çətindir. Hər halda bunlar konkret fakt olaraq qalmaqdadır və öz təhlilini gözləyir.

Ümmuyyətlə, maral, ceyran, ahu, bülbül, zağü zəğən, kəbutər, kəklik, şahin kimi rəmzləşən adlar, obrazlar bədii sistemdə müəyyən bir poetika vahidi kimi özünəməxsus yer tutmuşdur. Bu adlar işlənmə məqamında müxtəlif müsbət və ya mənfi ekspressiyadan asılı olaraq müvafiq şəkildə müxtəlif şairlər və xalq yaradıcılığı nümunələrini yaradanlar tərəfindən şeirə cəlb edilmişdir. Klassik şeir poetikasında bülbül gülün əbədi sevgilisi və vəfalı aşiqi, zəqən (qarqa) həm xarici biçimi-(qara, qonur)

rəngi, həm də yaşayış tərzi (çürüntü, cəsəd üzərində məskən salması) ilə fərqləndirilərək, nadan, arsız insan tipləri kimi səciyyələndirilmişdir.

Dastanlarımızda bir sıra tərənnümlər də bu obyektlərlə sıx surətdə, əlaqəli şəkildə bağlanmışdır. Xüsusən, quşların təsvirində fəallığ diqqəti daha çox cəlb edir.

Azərbaycan ədəbiyyatının ən qədim dastanı olan və bəzən poetik məqamların ondan nəşət etməsi artıq mübahisə doğurmayan «Kitabi-Dədə Qorqud» boylarında təqdim olunan qız-gəlinlərin qəhrəmanlığı bir çox epitetlərdə təsvir edildiyi kimi, onların gözəlliyi, yeriş-duruşu, xoş davranışı və deyib-gülmələri də bilavasitə təbiətin gözəllik simvolu olan şahinlə, hətta qazla bərabər tutulmuşdur:

«Altun ban evlərini kafirlər çapdılar, qaza bənzər qızı-gəlini çığırışdırdılar» (75, 32).

Yaxud:

«Bayburanın oğlu beş yaşına girdi, beş yaşından on yaşına girdi, çaya baxsa çalımlı, çalqara quş ərdəmli bir gözəl yaxşı ər oldu» (75, 460).

Nümunə gətirilən örnəulərdə gözəllik qadın görkəmi ilə bağlı olduqda «qaz» kişi görkəmi ilə əlaqədar olduqda isə «çalqara quş» müqayisə obyekti kimi götürülmüşdür. Bəzən gözəllikdən əlavə əzizlik anlamının ifadəsi kimi oğulun çiçəyə bənzədilməsi də müşahidə olunur:

*«Oğul, oğul, ay oğul!*
*Canım parası oğul!*

*Doğduğunda doqquz buğra öldürdüyüm aslan oğlu!*

*Dünliyi altın ban evimin qəbzəsi oğul!*

*Qaza bənzər qızımın, gəlinimin çiçəyi oğul!» (75, 91)*

Psixoloji situasiya, mühit daxilindəki əhval-ruhiyyə obrazın sözü gedən görkəmini, məsələn, qız-gəlinin qaza bənzərliyini kədərli-qəmli portret cizgisinə çevrilir:

*«Səni bilən bəy oğulları*
*Ağ çıxardı, qara geydi.*
*Qaza bənzər qızım, gəlinim*
*Ağ çıxardı, qara geydi (sənin üçün)» (75, 32)*

Dastanda təsvir olunan gözəllərin quşlarla bağlı tərənnümü bu boyların tərtibi, yazıya alınmasına qədər artıq rəmzləşir, təkcə poetik tərkibdə deyil, mili geyim ornamentlərində də öz izini qoruyub saxlamışdır:

*«Altun başı baq ev vergil bu oğlana,*
*Kölgə olsun-ərdəmlidir.*
*Çiyni quşlu cübbə don vergil bu oğlana*
*Geyər olsun-hünərlidir» (75, 85).*

«Kitabi-Dədə Qorqud» dastanında igidlərin hünəri, qəhrəmanlığı, cəsarəti və qorxmazlığı məhz «quş ərdəmi», «çal qara quş hünəri» ilə müqayisə olunur:

«Çaya baxsa çalımlı, çal qaraquş ərdəmli, qur qurama quşaqlu, qulağı altun küpəli, qalın Oğuz

bəylərini bir-bir atdan yıxan, qazlıq Qoca oğlu bəy çapar yetdi» (75, 85).

Dastanda Qanturalının öyünməsi bu baxımdan seçilir:

*«Qab qayalar başında yuva tutan,*
*Qadir ulu tanrıya yaxın uçan.*
*Mancılağı ağır daşdan qızıldayıb qatı enən,*
*Alı gölün ördəyini şığıyıb alan,*
*Qara öygə dib yürürkən tutub yüzən,*
*Qarıncığı ac olsa qalxıb uçan,*
*Cümlə quşlar sultanı çal qaraquş*
*Qanadıyla sağsağana gəndüzüm şağıdırmı?*
*Alp igidlər qırış günü qırımıqdan qayıdarmı?»*

*(75, 102-103)*

«Kitabi-Dədə Qorqud» dastanlarında quş adları ilə bağlı gözəlləmələr sonrakı məhəbbət dastanlarımızda-aşıq şeirində müəyyən qədər inkişaf etdirilərək, əlavə poetik rəng və çalarlarla daha da zənginləşdirilmişdir.

**«Əsli-Kərəm» dastanından:**

*«Sallana-sallana» yolum üstünə,*
*Çıxan dilbər, məni cannan eylədin,*
*Quba qaz yerişli, şahin baxışlı,*
*Baxan dilbər, məni cannan eylədin.*

*Şahin kimi gör nə gəlir üstümə,*
*Xub yaraşır qızıl güllər dəstinə.*
*Baxışların durub canım qəsdinə,*

*Baxan dilbər, məni cannan eylədin.*

*Tərlan görsə hürküşəcək sonalar,*
*Qorxum budu qeyri gölə qonalar.*
*Ağ əllərdə əlvan-əlvan hənalar,*
*Yaxan dilbər, məni cannan eylədin» (33, 89).*

Gözəlləmə «Dədə Qorqud» boylarından bəlli olan «qaza bənzərlik» poetik təsəvvürü qorunub saxlanmaqla yanaşı onu əlavə bir çalar (quba qaz-uca, hündür, qaməti qaz) da qatılmışdır. «Qaz»ın «sona» ekvivalenti də sonrakı mərhələdə aşıq şeirinə daxil olmuşdur.

Gözəlin qaş - gözünün can alıcılığı, ecazkarlığı və zərifliyi müxtəlif təsvir-təqdim məqamlarında ayrı-ayrı quşlara bənzədilə bilir:

*«Havada şahinə bənzər,*
*Yerdəki laçına bənzər.*
*Göydə göyərçinə bənzər,*
*Əsli, qaşların, gözlərin» (33, 111).*

Burada gözəlin qaş - gözünün adi görünüşündən başqa onların hərəkətləri (qaş oynatmaq, gözlərini süzdürmək və s.) xatırlanan quşların (şahin, laçın, göyərçin) hərəkət-uçuş əlamətlərinə uyğun şəkildə mənalandırılmışdır.

Maraqlıdır ki, ümumiyyətlə, dastan şeirində quşlar daha çox obrazın davranış, hərəkət əlamətlərinin təsvir-təqdim vasitəsi kimi müqayisəyə cəlb edilir. Ayrı-ayrı dastanlardan gətirilmiş aşağıdakı şeir örnəkləri bunu əyani şəkildə göstərir:

**«Aşıq Qərib» dastanından:**

*«Alışan otaqlı, xoş imarətli,*
*Gözəllər içində qəddi-qamətli.*
*Ahu baxışlıdır, Laçın cürətli,*
*Uçmağa, qonmağa, çıqqası gözəl» (33, 177)*

.

**«Abbas-Gülgəz» dastanından:**

*«Gözəllər içində bəsli-bəllisən,*
*Tərlan cilvəlisən, yüz xiyallısan.*
*Ağ sinəsi bir cüt qoşa xallısan,*
*Görcəyin tanıdım oradan səni» (33, 280).*

**«Məhəmməd-Güləndam» dastanından:**

*«Qız qıçını açdı, kəklik kimi yeriş basdı» (33, 453).*

Dastanlarımızda və ümumiyyətlə, aşıq şeirində qadın gözəlliyinin qaz, şahin, tərlan, kəklik zərifliyi, cəldliyi, füsunkarlığı ilə vəsfi ikinci bir tərəfdən regional şərtlə bağlıdır. Maldarlıq və ovçuluqla məşğul olan xalqların forlklorunda quşların, maral və ceyranın müqayisədə iştirakı daha zəngindir (185, 45). Azərbaycan xalqının tarixində də maldarlıq və ovçuluq geniş yer tutduğuna görə bu müqayisələrin geniş planda və çoxqatlı aparılmasına təbii baxmaq lazımdır. Bu mənada ovçuluqla bağlı gözəlləmələrdə də folklorumuzda geniş təsadüf edilir. Təbiətlə bağlı yaşantı və təsəvvürlərin dastan gözəlləmələrində qabarıq nəzərə çarpması və poetik ifadə dastanlarda sabitləşərək ənənəvilik statusu qazanması türk etnopoetik sisteminin çox dərin və arxaik qatlarının

göstəricisidir. Bu baxımdan dastanlardakı mənzərə də diqqətçəkicidir:

**«Abbas-Gülgəz» dastanından:**

«Sabah açıldı, üstünüzə çox xeyirli sabahlar açılsın, qızlar cəmləşdilər. Maral sürüsü kimi Pəri xanımın başına toplaşdılar» (33, 249).

**Yaxud:**

*«Abbas der: pərinin bu çəpişləri,*
*Yorğun maral kimi xoş baxışları,*
*İncidən, sədəfdən, dürdən dişləri,*
*Qaymaq dodaqları balınan oynar» (33, 282).*

**«Məhəmməd-Güləndam» dastanından:**

*«Dünya gözəliyəm, dağlar maralı,*
*Əcəm oğlu, tez ol sən geri qayıt.*
*Çox cavanlar qoydum bağrı yaralı,*
*Əcəm oğlu, tez ol sən geri qayıt!» (33, 411)*

**Yenə orada:**

*«Qalx havalan tərlan kimi,*
*Mən boylanım ceyran kimi,*
*Dərddən qanan loğman kimi,*
*O kamana mən müştaqam» (33, 438).*

Məhəbbət dastanlarında təsvir edilən qadınların saçları, geyimi də müəyyən mühit və ərazinin etnoqrafiyası ilə bağlıdır. Məsələn, dastanlarda qız-gəlinlərin bir tel, üçtel, on iki hörük saxlamasına tez-tez işarə olunur.

**«Aşıq Qərib» dastanından:**

«Ağcaqız icazə alıb sərv ağacının altına gəldi, gördü ki, Qərib elə yatıbdı, heç özündə deyildir.

Ağcaqız siyah saçlarından üç tel ayırıb sinəyə saz edib görək Qəribi necə oyadır» (33, 183).

**«Qurbani» dastanından:**

«Pəri xanım on iki hörük saçlarından bir tel ayırıb döşünə basdı, aldı görək Qurbaniyə nə dedi» (33, 241).

**«Valeh-Zərnigar» dastanından:**

«Zərnigar yasəmən zülflərindən üç tel ayırıb, sinəsaz elədi, basdı bağrına» (33, 273).

**«Alı xan-Pəri» dastanından:**

«Kəcavəni dayandırdılar. Pəri xanım on iki hörük saçınnan bir tel ayırıb, döşünə basdı, mərcan dırnaqlarını tazanə eyləyib görək anasına nə dedi» (33, 284).

Verilən nümunələrdən göründüyü kimi, ayrı-ayrı dastanlarda qızların saçları on iki hörüklə vəsf olunur. Xatırladaq ki, «Kitabi-Dədə Qorqud» boylarında isə qırx rəqəminin daha çox işlənməsi diqqəti cəlb edir. Hər iki tərənnümdə rast gəlinən rəqəm müxtəlifliyi dastanın formalaşdığı dövrlə, zamanla və dastanın özünəməxsus ideya-poetik xüsusiyyətləri ilə bağlıdır (86, 64).

Gözəlin saçından üç tel ayırıb sinəsinə basaraq könül duyğularını dilə gətirməsi isə oğuz türklərində qədim-ilkin musiqi alətinin - qopuzun üç simli olması barədəki əski təsəvvürün qalıntısıdır (85, 53-54).

Məhəbbət dastanlarında qadın gözəlliyinin tərənnümü dastan söyləyən aşığın, yaxud da hər hansı bir söyləyicinin dilində bəs necə ifadə olunur? Müşahidələrə əsasən onu qeyd etmək mümkündür ki, nəqletmə zamanı dastan ifaçısı ənənəvi nağıl

qəliblərindən istifadə edərək cəlbedici lövhə yaradır: «Gedəndə gördü ki, bu çadırda bir qız əyləşib ki, gəl görəsən. Fərişdeyikirdar, ürək basan, sərfə kəsən, gözünü süzən, canlar üzən, düymə düzən, qönçə dəhan, gülü reyhan, süzgün baxan, gəl məni gör, dərdimdən öl, əlini vurma, geridə dur. Qız deyirəm, yayın qızdırmasını demirəm ki, qışda yaxandan əl çəkməyə» (33, 395).

Əski od, işıq, günəşlə bağlı inamlar dastan şeirlərində olduğu kimi nəqletmədə də verilir:

«Nökər suya gedəndə gördü ki, körpünün üstə bir işıq düşüb. Özü də bəni-insan işığıdır. Bir addım irəli atıb gördü körpünün üstə bir qız oturub ağlayır. İşıq da onun işığıdır» (33, 170).

Məhəbbət dastanlarının nəsr dilində yəni dastançı təhkiyəsində gözəlləmə funksiyalı məxsusi qəlib-təsvirlər vardır ki, onlar müxtəlif dastanlarda, demək olar ki, eynilə təkrarlanır. Bunun əsas səbəbi dastan ifaçılığından gəlir: aşıqlar həmin qəlib-təsvirləri (yuxarıda qeyd olunduğu kimi onların böyük əksəriyyəti nağıl mənşəlidir) situasiyaya uyğun olaraq müxtəlif dastanlarda eyni cür işlədirlər. Məsələn, «Aşıq Qərib» dastanlarında:

“Rəsul yatmışdı, yuxuda gördü ki, Tiflis şəhərində behişt misalı bir bağdır, bunun başının üstündə ceyran misalı gözəl bir qız, qaş kaman, gözlər piyalə, burun hind fındığı, sinə səmərqənd kağızı» (33, 373).

**Yaxud «Valeh-Zərnigar» dastanında:**

«Qızın yanında qırx gözəl qarabaş var ki, hamısı incəbel, qaraqaş, qaragöz. Amma heç biri xanıma oxşamır. Xanım lap gəl məni gör, dərdimdən öl bir qızdır. Qaşları kaman, gözləri şəhla, kirpiyi ox, burun hind fındığı, sinə Səmərqənd kağızı... baxanın ağlını aparır» (33, 26).

Bütün bunlarla yanaşı, Azərbaycan məhəbbət dastanlarında Məşuqun gözəlliyinin vəsfi də xüsusi yer tutur və ayrıca tədqiqata ehtiyac vardır. Həmin təsvirlər bir tərəfdən Aşiqin necə bir gözəlin arxasınca getdiyinin əyani sübutudursa, digər tərəfdən də xalq yaradıcılığının imkanlarının aydın nümayişidir. Məsələn, «Tahir-Zöhrə» dastanında Tahir sevgilisi Zöhrənin gözəlliyini öz dili ilə belə təsvir edir:

*Sən bir gül ol, mən də bülbülü-şeyda,*
*İlqar qoyaq hər ikimiz arada.*
*Biz də yetək bu fəsildə murada,*
*Canım alır qoşa xallar əmiqızı (33, 26).*

Bu bənddən məlum olur ki, Zöhrənin gözəlliyinin Tahir üçün ən əlamətdar cəhəti xallarla bağlıdır. Yəni xal Zöhrə gözəlliyinin əsas atributu kimi poetik təqdimatın aparıcı ünsürünə çevrilir.

«Əsli-Kərəm» dastanında da Kərəmin Əslinin çöhrəsində gördüyü gözəllik əlamətlərindən biri yenə xaldır:

*Bədir üzlü, gül camallı,*
*Yar məni sevdaya saldı!*
*Zənədxanı qoşa xaldı,*
*Yar məni sevdaya saldı! (33, 78)*

Aşiqin öz Məşuqunda axtarıb gördüyü ikinci gözəllik əlaməti qaşla bağlıdır. Məsələn, yenə «Tahir-Zöhrə» dastanında Sona xanım Zöhrə xanıma onun özü haqqında belə deyir:

*Dağlar başı qış olubdu,*
*Qaşın gözə tuş olubdu.*
*O bizə qardaş olubdu,*
*Saz yiyəsi, yarın gəldi (33, 65).*

Yaxud bir az sonra Sona xanım yenə Zöhrəyə deyir:

*Gözəllikdə tayın yoxdu,*
*İllah sənin qaşın, Zöhrə.*
*Tahir kimi yarın vardı,*
*Bəxtəvərdi başın, Zöhrə (33, 66).*

Hər iki bədii parçadakı vurğulanan əlamət göstərir ki, Zöhrənin diqqəti cəlb edən cəhətlərindən biri də məhz onun qaşlarıdır.

Kərəm də öz Əslisində qaşların yaqutluğunu görür:

*Əsli kimi gözəl olmaz,*
*Qaşı yaqut, gözü almaz.*
*O yar məni yada salmaz,*
*Yar məni sevdaya saldı! ( 33, 78)*

Başqa bir fakt da bunu tam təsdiqləyir:

*Məsməni çəkibdi qələm qaşına,*
*Ağ ipək çalmanı salıb başına,*
*Sinə bənzər ahu, ceyran döşünə,*
*Aç qolların, gəl boynuma sal, Əsli (33, 98).*

Yaxud üçüncü bir fakt:

*Qaradı qaşları, gözü dolayı,*
*Yaxşı təbib gərək versin duvayı,*
*Axtarsalar hər tərəfdən dünyayı,*
*Belə aşıq ancaq bir dənə çıxar (33, 156).*

Özgə bir cəhət Aşiqin öz sevgilisinin gözlərinə nəzər yetirməsi və ona vurğunluğudur. Məsələn, «Tahir-Zöhrə» dastanında Tahir tərəf müqabili haqqında belə deyir:

*Mollalar mollası, alimlər xası,*
*Bir ala gözlüyə aşiq olmuşam.*
*Silinibən getməz könlümün pası,*
*Bir ala gözlüyə aşiq olmuşam (33, 29).*

Ümumiyyətlə, həmin qoşmanın digər bəndləri də «Bir ala gözlüyə aşiq olmuşam» misraları ilə qurtarır və deməli, Tahir əsas diqqətini məşuqəsinin ala gözlərinə yetirir. Burada bütöv bir misranın rədif funksiyası yerinə yetirməyə yönəldilməsi aşiq-müəllifin sevdiyi gözəllə bağlı diqqət önünə çəkdiyi əlaməti xüsusi şəkildə vurğulamaq istəyi ilə də əlaqədardır.

Yaxud «Əsli-Kərəm» dastanında da qoşmaların birində «Ala gözlüm, tərlanımı gətir ver» misrası məhz yuxarıdakı poetik-üslubi funksiyasının tələbinə görə dəfələrcə təkrarlanır:

*Ay gözəl qız, səd afərin əslinə,*
*Ala gözlüm, tərlanımı gətir ver!*
*Mənəm bu tərlanın ovçu səyyadı,*
*Ala gözlüm, tərlanımı gətir ver!*

*Mahmud deyər: nələr gəldi başıma,*

*Gedim söyləyimmi yar-yoldaşıma?*
*Ovum sənsən, gözəl çıxdın qarşıma,*
*Ala gözlüm, tərlanımı gətir ver! (33, 73-74)*

Yaxud başqa bir məqamda yenə Kərəm deyir:

*Qabağına qırçın düzdü,*
*Bağrımın başını üzdü,*
*Ala gözlərini süzdü,*
*Yar məni sevdaya saldı! (33, 78)*

«Aşıq Qərib» dastanında da Qəriblə Şahsənəmin deyişməsi zamanı Qərib Şahsənəmə üz tutub deyir:

*Səndən kimsənəyə gəlməz gümanım,*
*Ala gözlü, qaşı kamanım.*
*Yeddi ilə kəsdim əhdi-peymanım,*
*Getdim yar, əgləndim, bəlkə gəlmədim (33, 186).*

Sevgili, yar gözlərinin dastan şeirində daha çox «ala göz» şəklində ifadə olunması, çox güman ki, konkret-fərdi cizginin təqdimi deyildir. Olsun ki, konkret - fərdi əlamət bir başqa cür (qonur, qara, göy və s.) olsa da folklor təxəyyülünün qəlib halına saldığı poetik ifadə kimi «ala göz» daha məqbul və sərrast sayıldığı üçün fərqinə varılmadan dastan şeiri sevgiliyə-yar gözlərini əsasən bu ad (həm də xəyali gözəllik rəng-simvolu) altında təsvir-təqdim edir.

*Ala gözlü, nazlı Pəri,*
*Yox, pəri, gələ bilmərəm.*
*Sənə qurban canü-sərim,*
*Yox, pəri, gələ bilmərəm! (33. 241)*

«Abbas-Gülgəz» dastanında da Gülgəzin ala gözləri sanki kənardan çağırır:

*Kəsmə ala gözün siyah sürməsin,*
*Seyrəğıblar qönçə gülün dərməsin,*
*Pünhan danış, bədnəzərlər görməsin,*
*Kəsərlər dilini, aman, əl-aman! (33, 300)*

Məhəbbət dastanlarında Aşiqin Məşuqa olan məhəbbət duyğuları gözəlin saçlarına nəzərən də müəyyən bədii çalarlarla ifadə olunur. «Əsli-Kərəm» dastanında Kərəm belə söyləyir:

*Keşiş bağçasında bir gözəl gördüm,*
*Ağlımı başımnan aldı, nə çarə?*
*Darayıb zülfünü, töküb üzünə,*
*Sərimi sevdaya saldı, nə çarə? (33, 77)*

Zülf-saç gözəllik kompleksinin tərkib hissəsi kimi aşıq poetik təxəyyülü tərəfindən sevgilisinin üzünə tökülmüş və yaxud, yayılmış vəziyyətdə təsəvvürə gətirilir. Bu zaman ağ üz və qara saç kontrastı gözəl portretinin daha təsirli alınmasında mühüm rol oynayır:

*Siyah zülfü ağ üzünə yayılan,*
*Dal gərdəndə hər hörüyə bir ilan,*
*Yarı mənnən, məni yardan ayıran,*
*Görüm onu bitməz dərdə tuş olsun! (33, 86)*

Aşiq öz sevgilisinin zülfünü statik, donuq şəkildə təsvir-təqdim etmir. Onun könlünü havalandıran yar zülfünün həm də gözəl düzülüş-davranışıdır. Sevgilisini soraqlaşa-soraqlaşa düz-dünyanı gəzib dolaşan Kərəm Əslinin əsas əlamətlərindən, yəni nişanlarından birini onun saçlarını necə darayıb düzməsində görür:

*Zülfüdü hazar, səd hazar,*

*Nə gözəl darayıb düzər.*
*Qürbət elə düşmüş, gəzər,*
*Yollar, xan Əslim gördüzmü? (33, 91)*

«Aşıq Qərib» dastanında Qərib saçın yüksək zövqlə hörülməsini bu daranıb düzülmənin yaratdığı coşğun könül duyğularının verdiyi dəyərlə qiymətləndirir:

*Dillərdə dastandır Tiflis alması,*
*Min tümənə dəyər saçın hörməsi,*
*Yar, sənə gətirdim Hələb hənası,*
*Ağ əllərə yaraşır, bir bax, Sənəm (33, 202).*

«Qurbani» dastanında isə Qurbani öz sevgilisinin saçlarının heç bir Aşiqin işlətmədiyi formada vəsf edir, onun müqayisə obyekti müqəddəs kitabdakı hürufat və ayətdir:

*Qurbani der, zülfün ucu xəyətdi,*
*Qurandaki "Qulhuvəllah əhətdi",*
*Desələr sərində bu nə halətdi?*
*De ki, bir Pərinin yadigarıdı (33, 223).*

Zülfün ilahiləşdirilməsi sözü gedən şeirin bağlı olduğu dastanın rəmzi-məcazi səciyə daşıması və təsəvvüf simvolikası ilə əlaqədar olmasıdır (107, 171-184).

Saçın yuxarıdakı şəkildə fəlsəfi-ürfani mənalandırılması ümumiyyətlə sufi-hürufi ədəbiyyat üçün çox səciyyəvidir (123, 149-151).

«Abbas -Gülgəz» dastanında gözəlin saçları qısqanclıq yaradan başlıca əlamətlərdən biri olur:

*Badi-səba mənlə yaman yağıdı,*
*Dağıdır telini, aman, əl-aman! (33, 300)*

Məhəbbət dastanlarında gözəlin yanağı, dodağı, dili, dişi də böyük şövqlə vəsf olunur. Bununla da sevgilinin cazibədar və füsunkar bir simaya malik olduğu təsdiqlənir.

**«Əsli-Kərəm» dastanından:**

*Dodaqları şəddi, dili məzədi,*
*Yanaqları qızıl güldən təzədi... (33, 76)*

*... Ağız süddü, dodaq qaymaq,*
*Dillən, xan Əslim gördüzmü? (33, 91)*

Maraqlıdır ki, ağız, dil, dodaq kimi gözəllik ünsürləri, aşıq təsvir-tərənnümündə, adətən eyni misra və ya bənd boyunda dalbadal verilir. Aşiq öz sevgilisinin zahiri görsənişində üz-camal cizgilərinin bu atributlarına xüsusi bir şövqlə poetik boyalar vurur. Bu zaman təşbeh və mübaliğələrin fəallığı artırılır:

*Sallana-sallana çıxdı qarşıma,*
*Boyu sərv, yanaqları al Əsli!*
*Huridə, mələkdə tayı tapılmaz,*
*Dili şəkər, dodaqları bal Əsli! (33, 98).*

Üz-camal cizgilərinin təsvir-tərənnümündə bədii təsvir vasitəsi kimi fəallaşan təşbeh və mübaliqələrin daha çox zəriflik, həzinlik məzmunu daşıyan təbiət gözəlliklərindən (sədəf, mirvari, inci, yaqut) təşkil olunması aşiqin öz sevgilisinin hüsnü qarşısındakı heyrət və məhəbbətinin mənəvi-estetik gücünü, habelə onun zövq səviyyəsini ifadə edir:

*Kərəm deyir: mənim yarım incədi,*
*Dodaqları yarı açmış qönçədi.*

*Sünbül teli topuğundan ucadı,*
*Bir telin verməm dünya malına.*

*İncidi mirvari, sədəf dişləri,*
*Qüdrətdən çəkildi kaman qaşları,*
*Dal gərdəndə qulac-qulac saçları,*
*Sarmaşır, dolanır incə belinə (33, 113).*

Aşiq öz sevgilisinin bədii portretini yaradarkən üz-camal cizgilərinin təsvir-tərənnümündə onun bənzərsiz olduğunu, dünyanın heç bir yerində bu gözəlliyə tay-bərabərin olmadığını dönə-dönə vurğulayır. «Aşıq-Qərib» dastanında Qərib deyir:

*Mən görmədim sənin kimi gözəli,*
*Payız olcaq, bağlar tökər xəzəli.*
*Dilin şəkər, dodağındır məzəli,*
*Gözüm nuru, dur aynaya bax, Sənəm (33, 203).*

«Qurbani» dastanında Qurbaninin heyrəti və sevgilisinin camalına verdiyi dəyər daha böyük və iri miqyaslıdır:

*Əcayib gözəldi, nə xoş dilbərdi,*
*Camalına cümlə aləm əfzəldi.*
*Ağzında dişləri ləlü-gövhərdi,*
*Sinəsi dağların təzə qarıdı (33, 223).*

Gözəlin dodaqlarının abi-həyata-dirilik suyuna bənzədilməsi də aşiqin sevgili gözəlliyinə qeyri-adi dəyər verməsinin ifadəsidir:

*Bu gün nə xoş gündü, nə xoş saatdı,*
*Qədəm basdın Pəri xanım, xoş gəldin!*
*Ləblərin aşiqə abi-Həyatdı,*

*Təzələdin ruh-rəvanım, xoş gəldin! (33, 227)*

Məhəbbət dastanlarında gözəlin qaməti və geyimi də təsvir-tərənnümün diqqət mərkəzində saxlandığı tərəflərdəndir. Uca boyu sərvə, çinara bənzədilən gözəlin əyninə geydiyi paltarlar (ipək, şal, qanovuz don, tirmə yaylıq, al-yaşıl köynək və s.) da onun gözəlliynin harmoniyasına uyğun təsvir olunur. Onların gözəlliyi, füsunkarlığı, cazibədarlığı milli-etnoqrafik geyimlər fonunda daha cəlbedici və kaloritli təsir bağışlayır. Hətta dastanlardakı həmin təsvir məqamlarının təsiri ilə çoxları həyatdakı öz sevgilisinin də məhz o cür olmasını arzulayır. Özgə sözlə, məhəbbət dastanlarından alınan bədii zövq ilə ömrünün lirik-psixoloji baxımdan ciddi uyuşan tərəfləri üzə çıxır.

Məhəbbət dastanlarındakı gözəlləmələrin belə bir səciyyəvi cəhəti də maraq doğurur ki, gözəlin hüsn-camal və boy-buxun yaraşığı təkcə aşiq tərəfindən təsvir-tərənnümə cəlb edilmir. Bir sıra hallarda aşiqlərin sevdiyi gözəllər də öz hüsn-təravətlərini vəsf edirlər. Şübhəsiz ki, bunun özü də müəllif-dastançı dilinin məhsuludur. «Tahir-Zöhrə» dastanında öz hüsnünü tərifləyən Zöhrə özünü təbii ki, dastançı-müəllifin, olsun da ki, Tahirin gözü ilə görür və duyur. Zöhrənin özünü vəsf eləməsi, bir növ özünün poetik, avtoportretini yaratması bu baxımdan yersiz görünmür. Dastan poetikası baxımından səciyyəvidir ki, qəhrəmanın avtoportret «çəkməsi» müəyyən psixoloji situasiyalardakı lirik-romantik məqamlara təsadüf edir (198, 31-33). Zöhrənin özünü vəsfi də

lovğalıq, eqoizm ifadə etmir, öz nisgil və qübarını, yar həsrəti ilə bağlı ayrılıq iztirabını dilə gətirdiyi zaman bu cizgiləri məqsədli şəkildə xatırladır:

*Mən Zöhrəyəm, beli incə, boy bəstə,*
*Zülfü dal gərdəndə çin, dəstə-dəstə.*
*Yerini salardım mən sinəm üstə,*
*Əyləndiyim günlər yadıma düşdü (33, 151).*

«Əsli-Kərəm» dastanında isə bunun əksinə olaraq Kərəm sanki bir rəssam kimi öz sevgilisi qarşısında dayanıb onun canlı portretini yaradır və hiss edir ki, bu portret onun özünü də, sevgilisini də, hətta ona tamaşa edən qeyri bir tamaşaçını da məftun edəcəkdir. Bədii yaradıcılıqda öxucuda məftunluq yaratmaq isə ən ümdə qayələrdən və vəzifələrdən biridir:

*Bir ah çəksəm, dağlar, daşlar əriyər,*
*Nədi bu səndəki o siyah tellər.*
*Xınalı barmaqlar, o nazik əllər,*
*Yolçunu yolundan eylər bu gəlin (33, 106).*

Şeirdə elə təbii təsvir vardır ki, sanki «xınalı barmaq» və «nazik əl» yalnız Əsliyə mənsubdur. Hərgah belə olmasaydı, dastanı axıra qədər dinləmək işi də çətinləşərdi.

«Qurbani» və «Əsli-Kərəm» dastanlarında isə Məşuqələrin gözəlliyi tamam başqa yöndən diqqəti cəlb edir. Artıq burada «mina gərdən» və «incə bel» ön plana çıxır.

**«Qurbani» dastanından:**

*Bir pəri sevmişəm sizin ellidi,*
*Gözəlliyi hamılara bəllidi.*

*Şux göz, mina gərdən, incə bellidi,*
*Gecə-gündüz işim ahu-zarıdı (33, 223).*

**«Əsli-Kərəm» dastanından:**

*Sarılmadım incə-incə belindən,*
*Heç öpmədim dodağından, dilindən,*
*Əslim getdi, xəbər yoxdu elindən,*
*Mən bu yolun hankısına gedəyim? (33, 140).*

«Qurbani» dastanında gözəlin zahiri gözəlliyi ilə libasının gözəlliyi vəhdətdə verilir. Şübhəsiz, məsələnin yalnız bir tərəfi təqdim edilsəydi də o qədər də təsirsiz olmazdı. Lakin dastanı söyləyən və onu qələmə alan bu vəhdəti əsas götürməklə qadın qəhrəmanın sifət cizgilərinin gözəlliyi ilə xalq deyimində olan «Gözəllik ondur, doqquzu dondur» hikmətini birləşdirmiş və təqdimatda onun estetik dəyərini daha da artırmışdır:

*Nəzakət vaxtında, xublar çağında,*
*Baxdım, yar yanağı sayalanıbdı.*
*O alma yanağı, büllur buxağı,*
*O zəhri zülfləri halqalanıbdı.*

*O zəhri zülfləri, köksündə çəprəs,*
*Zər zərbab üstündən, ətlası çərkəs,*
*Yaxası mürəssə, çatqısı Gülgəz,*
*Çarqatının ucu sürmələnibdi (33, 237).*

Dastanın başqa bir yerində isə yalnız işvəyə, yəni hərəkətə, eyni zamanda, geyimə aparılacaq mövqeyi verilmişdir:

*Sallana-sallana gələn Salatın,*
*Gəl belə sallanma göz dəyər sana.*

*Al yaşıl geyinib, qarşıda durma,*
*Saqın, səryağıbdan söz dəyər sana (33, 249).*

Məhəbbət dastanları içərisində özünəməxsus yeri olan «Abbas-Gülgəz» və «Leyli-Məcnun»da hadisələrin inkişaf etdiyi müəyyən məqamlarda yalnız geyim gözəlliyinin təsvirinə üstünlük verilmişdir.

**«Abbas-Gülgəz» dastanından:**

*Örtübən başına şalı-zər, gəzər,*
*Abıdan nimtənə, qızıl düymələr.*
*Yaraşır belinə zərbafdan kəmər,*
*Çəpkənli, çarqatlı ağ bədən gəlir (33, 301).*

**«Leyli-Məcnun» dastanından:**

*Dərya coşa gəlsə, ada dayanmaz,*
*Qızıl kəmər incə beldə dayanmaz.*
*Yanar Məcnun cismi, oda dayanmaz,*
*Amandı, Leylini əldən verməyin! (33, 344)*

«Zər şal», «abı nimtənə», «qızıl düymə», «zərbaf kəmər», yaxud da «qızıl kəmər» kimi etnoqrafik detallar Gülgəzin ıə Leylinin əvəzsiz yaraşığına çevrilir və onları  gözəllik mücəssəməsi kimi təqdim edir. Onsuz da gözəl olan bu qadın qəhrəmanlar daha da gözəlləşir və onların portreti qətiyyən yaddan çıxmır.

Bəzən də dastanlarımızda gözəlin təsviri ilə rastlaşanda, sanki təbiətin özü ilə qarşılaşmış olursan. Elə bil baxdıqca doymadığın əsrarəngiz təbiət bütün cizgiləri, bütün xoş əlamətləri ilə gözəllərin camalına köçmüşdür.

**«Qurbani» dastanından:**

*Gözlərin nərgizdi, hüsnün mahtaban,*

*Açılıb gül, süsən, sünbül, ərğəvan.*
*Zanbağı, yasəmən, bərgi-ireyhan,*
*Fəsli bahar gülüstanım, xoş gəldin! (33, 227).*

**Yaxud «Alı xan-Pəri xanım» dastanından:**

*Mənim yarım geyər alı, qırmızı,*
*İşvəsi, qəmzəsi yandırır bizi.*
*Bağın bənövşəsi, gülü, nərgizi,*
*Ondan qeyri gülü dərə bilmərəm (33, 399).*

Göründüyü kimi misal gətirilən hər iki nümunədə təbiət gözəlliyi ilə sevgili gözəlliyi bir-birinə qovuşmuş vəziyyətdədir. Bu gözəlin komponentləri ən incə və zərif sənətkarlıqla biri-birinə sintez edilmişdir. Aşıq hər iki gözəlliyi bir-birinə o qədər doğma və təbii şəkildə bağlamışdır ki, onları bir-birindən ayrılıqda təsəvvür etmək də olmur. Bax elə bu təbiətinə görə aşıq şeiri musiqisi, dastanı, bütövlükdə aşıq yaradıcılığı zaman-zaman dəyişən, yeniləşən, zənginləşən bir qayda olaraq hərəkətdə təkamül və inkişafda olan canlı folklor nümunəsi sayılır (95, 23).

Bütün bunlar xalqımızın folklor poetik təfəkkürünün yaratdığı ən gözəl nümunələrdir. Onlar hamısı dərin düşüncənin, yüksək bədii zövqün, sözə tükənməz məhəbbətin təzahürüdür. Bu gözəlləmələr məhəbbət dastanlarının ayrılmaz hissəsi və qəhrəmanların daxili dünyasını açıqlayan söz sərvətidir. Gözəlləmələrin məhəbbət dastanındakı funksiyalaşma imkanları da elə bununla ölçülür. Yəni gözəlləmələr məhəbbət dastanları strukturunun ayrılmaz tərkib hissəsidir, struktur elementidir. Bu, gözəlləmələrin

poetik mexanizm mahiyyətidir. Ancaq bu poetik mexanizm öz-özlüyündə yox, funksiyada mövcud olur. Bu baxımdan gözəlləmələrin qəhrəmanların daxili dünyasının açılışına xidmət etməsi onun başlıca funksiyası olmaqla bütövlükdə məhəbbət dastanının janr dinamikasını müəyyənləşdirmiş olur.

Bura qədər deyilənlər göstərdi ki, dastan şeirinin məhəbbət dastanında mühüm funkisyası vardır. Yəni bu funksiya məhəbbət dastanının janr göstəriciləri səviyyəsinə qalxır. Məhəbbət dastanları qəhrəmanlıq dastanlarından Aşıq-Məşuq kompleksini mütləqləşdirən janr kimi ayrılır. Bu prosesdə qəhrəmanlıq dastanları ilə məhəbbət dastanlarını süjet statizmi möhkəm tellərlə bir-birinə bağlayır və bu baxımdan qəhrəmanlıq və məhəbbət dastanları differensiasiyadan çox ortaqlıq təşkil edirlər. Məhəbbət dastanlarının başlıca janr göstəricisi olan Aşiq-Məşuq epik-lirik kompleksi məhz dastan şeirinin hesabına öz dolğun gerçəkləşməsini tapmış olur. Belə ki, məhəbbət dastanı obrazlarının canlılığı, statizmidən uzaqlığı, eyni qəliblərdən çıxsalar da, bədii xarakter nümayiş etdirmələri dastanın şeir kütləsinin məhəbbət dastanı arasında hesabına olur. Dastanın şeir kütləsi yazılı ədəbiyyatda (klassik yazılı poeziya ilə) məhəbbət dastanı arasında «körpü» rolunu oynayan məhəbbət dastanının özünü bütövlükdə folklorla yazılı ədəbiyyat arasında körpüyə çevirmiş olur. Dastan şeirinin «körpü» funksiyasının hesabına yazılı ədəbiyyatın lirik qəhrəman obrazının xarakterik cizgiləri, obrazyaratma xüsusiyyətləri məhəbbət dastanlarına daxil olur. Bu isə

bütövlükdə ona gətirir ki, məhəbbət dastanları ikitərəfli açıq mətnə çevrilmiş olur. Yəni o biri tərəfdən folklorla- qəhrəmanlıq dastanları ilə bağlı olur. Bu, başlıca olaraq dastanın statizmi (süjet və obrazların statik qəlibləri) hesabına olur. O biri tərəfdən isə məhəbbət dastanları dastan şeirinin hesabına yazılı poeziya ilə daimi əlaqədə olur. Beləliklə, dastan şeiri məhəbbət dastanlarını bir tərfdən həm də klassik yazılı poeziya ilə bağlamış olur.

Dastan şeiri öz funksional-üslubi xüsusiyyətləri ilə eyni janrlarda yaradılan aşıq şeirindən fərqlənir. Bu da dastan şeirinin dastan nəsri ilə üzvi bağlılığı hesabınadır. Bu fəsildə dastan şeirinin poetexniki elementləri və gözəlləməyə köklənmiş funksiyası baxımından öyrənilməsi göstərdi ki, dastan şeiri məhəbbət dastanı strukturunun tərkib hissəsi olmaqla məhəbbət dastanı adlanan janr hadisəsinin funksiyalaşmasında xüsusi rola malikdir. Bu xüsusiyyətlərin öyrənilməsi də dastan şeirinin məhəbbət dastanının poetik strukturundakı bu funksiyasını şərtləndirmiş oldu.

# IV FƏSİL

## ARXAİK DASTAN MOTİVLƏRİNİN EPİK-MİFOLOJİ SEMANTİKASI

Miflər epik sistemin qaynağı kimi bu sistemin sonrakı inkişafında özünü müxtəlif səviyyələrdə göstərir. Bu səviyyə dastanın epik strukturunun ən müxtəlif elementlərini əhatə edir. Bura dastanın məzmunundan tutmuş, süjeti, süjetin elementləri, onun motivlər səviyyəsi, bir sözlə, bütöv morfoloji elementləri, kompozisiya quruluşu və s. aiddir. Məsələnin belə qoyuluşu onu göstərir ki, əslində, mifi bir sistem olaraq dastanın ən müxtəlif struktur elementləri səviyyəsində "görmək", aşkarlamaq mümkündür. Girişdə ümumi şəkildə deyildiyi kimi, miflər dastanların, ümumiyyətlə götürdükdə, epik sistemlərin (bütövlükdə poetik düşüncənin) arxetipik başlanğıcıdır. Ən sadə formulda desək, dastanlar miflərdən baş alıb gəlir. Elə buna görə də, dastanın bütün qatlarında mif var. Bura ilk növbədə motivlər aiddir. Müasir dünya folklorşünaslığında folklor motivləri ilə bağlı sanballı elmi ədəbiyyatlar mövcuddur (142; 189; 190; 191 və s.). Onları ümumiləşdirən ədəbiyyatdan çıxış etsək, motiv termini folklorşünaslıqda bir neçə mənada işlədilir. Bunlardan biri "süjet toxumu", "süjeti doğuran formuldur" ("ər öz arvadının toyunda", "atanın öz oğlu ilə döyüşü", "əjdaha ilə vuruş" tipləri kimi). Motiv bu mənada "süjet mövzusu" anlayışı ilə üst-üstə düşür və

müasir araşdırmalarda haqlı olaraq bu anlayışla bir-biri ilə əvəz olunur. Motivin iki başqa mənası isə hər bir folklor süjetinin mütləq elementi olan folklor təhkiyəsinin tip vahidi kimi, onun müxtəlif səviyyələrinə aiddir. Motiv invariant səviyyəsində stereotipdir, situasiya, kolliziya, hadisə, hərəkət, xarakterlərin sxematik ümumiləşdirilməsidir (məsələn, "möcüzəli doğuluş", "silah əldə edilməsi", "deyiklinin axtarılması", "yuxu - öncəgörmə", "sehirli əşyaların əldə edilməsi"). Konkret mətnlər səviyyəsində bu, stereotipin, sxemin gerçəkləşməsidir (192, 83-84).

Görkəmli rus eposşünası B.N.Putilovun ümumiləşdirməsindən də hasil olduğu kimi, motivin istər invariant, yəni stereotip, model səviyyəsi, istərsə də bu səviyyənin konkret süjet hadisəsi olaraq gerçəkləşmə səviyyəsi mühüm süjet elementləridir. Bu üzdən, dastan və mif münasibətləri dastan motivləri səviyyəsində özünün tarixi dialektika ilə şərtlənən münasibətlərinə malikdir.

Deyildi ki, motiv invariant səviyyəsində sxem, stereotipdir. Motivin bu səviyyəsi mifin paradiqmatik səviyyəsi ilə əlaqədardır. İnvariant-anlayış olaraq düşüncə vahidini, model elementini nəzərdə tutur. Əslində "invariant"ın bir-biri ilə əlaqəli anlanma planları var. Bunlardan ən üzdə olanı "ortaq variant" deməkdir. Yəni hər hansı mətnin bütün variantları üçün ortaq olaraq bərpa ediləcək variant adlanır. Başqa tərəfdən, invariant ilkin variantı nəzərdə tutur ki, həmin ilkin variantdan sonrakı variantlar törəyir. Belə olduqda, həmin törədici variant sonrakı

variantlara nisbətdə invariantı təşkil edir. Başqa tərəfdən, invariant hadisələrin nəzəri, potensial sxemidir.

Mif sintaqmatik və paradiqmatik aspektlərə malikdir. Yəni bir tərəfdən hadisəni təsvir edən mətndir, o biri tərəfdən hadisənin ümumiləşdirilmiş modelidir. Motiv hər iki səviyyəsində, yəni həm invariantr səviyyəsində, həm də invariantın gerçəkləşmə səviyyəsində də dastan motivləri dastan – mif münasibətlərini öyrənmək üçün geniş material verir.

Bildiyimiz kimi, dastanın motivlər sistemi genişdir, ancaq hüdudsuz sayda da deyil. Hər bir süjet konkret motivlərin düzümü şəklində mövcud olur. Hər hansı dastanın süjeti, bu cəhətdən mif süjetini "təkrarlayır". Ancaq bu, mexaniki təkrarlama deyil. Burada söhbət şərti olaraq təkrarlamadan gedə bilər. Əslində, bu, mif süjetlərinin tarixi inkişafı deməkdir. Bədii formaların, həmçinin folklor bədii formalarının inkişafında dastanın mühüm yer tutduğunu nəzərə alsaq, onun dastan – mif kontekstində miflə əlaqələrinə də ciddi yanaşmalıyıq. Bu yanaşmada isə motivlər bir əlaqələndirici element kimi böyük rol oynayır.

Dedik ki, süjet motivlərdən təşkil olunur. Hər bir motiv əslində kiçik bir süjet deməkdir. Arxaik planda götürsək, motivlərin süjetləri birbaşa mifoloji süjetlərlə bağlıdır. Yəni bunlar əslində mifoloji süjetlərdir, zaman keçdikcə epik formaların inkişafı ilə motiv kimi üzvlənmişdir.

Dastan motivləri genişdir. Onların bəzilərinin miflə bağlılığı üzdədir, bəziləri dərində. Bəzilərində güclüdür, bəzilərində zəif. Elə buna görə də dastan-mif münasibətlərini öyrənmək üçün "qeyri-adi doğuluş", "adqoyma", "buta" motivləri geniş imkanlar yaradır.

Biz bu motivlərin öyrənilməsinə, xüsusilə "möcüzəli doğuluş" və "butavermə" motivlərinin öyrənilməsinə Azərbaycan məhəbbət dastanlarının poetikasına həsr etdiyimiz monoqrafiyamızda diqqət vermişik (45, 65-104). Ancaq indi bu məsələləri xüsusi olaraq dastan və mif münasibətləri kontekstində götürəcəyik.

Azərbaycan dastan mətnlərində qeyri-adi doğuluş, yaxud möcüzəli doğuluş (qeyd edək ki, "qeyri-adi", yaxud "möcüzəli" təyinləri burada bir-birinə sinonim olmaqla qəhrəmanın dünyaya gəlməsində hər hansı formada sakral mifoloji qüvvələrin iştirakını nəzərdə tutur. Burada sakrallıq arxetipində miflə bağlıdırsa, sonrakı inkişafında dini kultlara transformasiya olunur) süjet hadisəsi olmaqla öz motivlənməsində aşağıdakı hadisələrini gerçəkləşdirir:

1. Var-dövlət paylama, xeyirxah işlər görülməsi yolu ilə alqış-duanın müstəcəb olması nəticəsində uşağın doğulması;

2. Dərvişin verdiyi almanı valideynlərin yeməsi nəticəsində uşağın doğulması;

3. Digər tipli möcüzəli doğuluşlar.

Oğuz türklərinin qəhrəmanlıq eposu olan "Kitabi-Dədə Qorqud"da ikinci tip doğuluş yoxdur. Və buradakı doğuluşlar mifə yaxınlıq baxımından Azərbaycan məhəbbət dastanlarındakı motivlərdən qədimdir. Ona görə ki, məhəbbət dastanları, bizim fikrimizcə, qəhrəmancasına elçilik süjetləri əsasında qəhrəmanlıq dastanlarından transformasiya etmişdir. Əlbəttə, qəhrəmanlıq dastanlarından məhəbbət dastanlarına keçid "bütövlükdə transformasiya hadisəsi kimi baş vermədi. Biz məhəbbət dastanlarından qəhrəmanlıq dastanlarının transformasiyası kimi danışsaq da, məhəbbət dastanları qəhrəmanlıq dastanlarının transformasiyasından daha çox, onun törəməsi, üzvlənməsidir" (45, 56). Bilindiyi kimi, məhəbbət dastanları zaman baxımından qəhrəmanlıq dastanlarından sonra gəlir. Bu da istər-istəməz o deməkdir ki, qəhrəmanlıq dastanlarındakı motivlər məhəbbət dastanlarındakı motivlərə nisbətən daha qədimdir. Əlbəttə, bu deyilənlər məhəbbət dastanları motivlərinin arxaik planına kölgə salmır. Bu plan istər qəhrəmanlıq, istərsə də məhəbbət dastanları üçün ümumidir – mifoloji arxaika planı.

"Kitabi-Dədə Qorqud"da birinci boyda Dirsə xanın oğlu Buğacın qeyri-adi doğuluş prosesini izləyək. Bəlli olur ki, Bayandır xan ildə bir dəfə ağır məclis düzəltdirir və oğuz bəylərini buraya dəvət edir. Ancaq məsələ belədir ki, o, qızı olanı qızıl, oğlu olanı ağ otaqda oturdur, oğlu-qızı olmayanı isə qara otaqda

oturdub, "belələrini Allah-taala qarğayıb, biz dəxi qarğarız" (77, 39) deyir.

Eposdakı bu situasiyanın təsvirini davam etdirməzdən əvvəl qeyd edək ki, verilmiş informasiyanın özü bizə qeyri-adi doğuluş motivi ilə əlaqədar çox şeylər deyir. Dastanın məşhur boyundan bizə bəllidir ki, Bayandır xan ildə bir dəfə məclis keçirir, obuz bəylərini dəvət edir. İlk baxışdan adama elə gəlir ki, məclis başqa səbəblə keçirilir. Ancaq boydakı hadisələrin təsvirindən belə nəticəyə gəlmək mümkündür ki, Bayandır xanın keçirdiyi məclisdə məqsəd, bəlkə də elə budur: Oğuz bəylərini övladı olanlara və olmayanlara ayırmaq.

İstər dastan poetikasına, istərsə də etnopsixoloji təsnifə görə ənənəvi şüurla yaşayan cəmiyyətdə bu cür ayırma sosial konfliktin yaranmasına gətirir. Ancaq Bayandır xan adlı-sanlı Dirsə xanın inciməyindən narahat olmur. Onun mövqeyi möhkəm və aydındır: Oğlu-qızı olmayanı Allah qarğayıbdır, biz də qarğarıq.

Göründüyü kimi, birinci boyun bu ilk süjeti övladsızlıqla, motiv səviyyəsində desək, qeyri-adi doğuluşla bağlıdır. Boyun "Kitabi-Dədə Qorqud"un birinci mətni olduğunu nəzərə alsaq, onda çox asanlıqla görmək olar ki, övlad, sonluluq, sonsuzluq, oğlu-qızı olmaq və s. kimi məsələlər oğuz cəmiyyəti üçün nə qədər aktuallıq kəsb etmişdir. Buradan dastan və mif münasibətləri öz-özünə boy verir, yəni bu münasibətlər kerçəklik və mətn səviyyəsində ciddi şəkildə mövcuddur.

Dastandakı oğuz cəmiyyəti ənənəvi şüurla yaşayan cəmiyyətdir. Burada hər şey adət-ənənə ilə idarə olunur. Adət-ənənə isə həmin oğuz cəmiyyətində bütün hallarda keçmişə, ənənənin başlanğıcına, mifoloji şüura bağlanır, onunla əsaslandırılır. Demək, Bayandır xanın dilindən çıxan "Oğlu-qızı olmayanı Allah-taala qarğayıb, biz dəxi qarğarız" hökmü oğuz cəmiyyətinin müqəddəs qanunlarındandır, kökdən, başlanğıcdan, mifoloji qaynaqdan, kosmoqonik sistemdən gəlir. Beləliklə, birinci boyun əvvəlində təsvir olunmuş qeyri-adi doğuluş motivi bütün konteksti ilə mifdən gəlir. Arxasını izləyək.

Oğuzda ad-sanına görə məşhur olan Dirsə xan öz adamları ilə Bayandır xanın məclisinə gəlir. Eposda deyilir: "Bayandır xanın yigitləri Dirsə xanı qarşuladılar. Götürüb qara otağa qondurdular. Qara keçə altına döşədilər. Qara qoyun yəxnisindən öninə gətirdilər. Bayandır xandan buyuruq belədir, xanım, dedilər. Dirsə xan aydır: "Bayandır xan bənim nə əksüklüğüm gördi. Qulucumdanmı gördü, süfrəmdənmi gördi. Bəndən alçaq kişiləri ağ otağa, qızıl otağa qondurdı, bənim suçum nə oldı kim, qara otağa qondurdı?" – dedi.

Ayıtdılar: "Xanım, bu gün Bayandır xandan buyruq şöylədir kim, oğlı-qızı olmayanı Tanrı Taala qarğayıbdır, biz dəxi qarğarız, demişdir" – dedilər.

Dirsə xan yerindən uru durdı, aydır: "Qalqubanı, yigitlərim, yerümüzdən uru durub gedəlim, bu qəra eyib bana ya bəndəndir, ya xatundandır" – dedi". (77, 39)

Boydan verdiyimiz bu hissə qeyri-adi doğuluş motivi ilə bağlı maraqlı situasiya-informasiya təqdim edir. Belə ki, Dirsə xan onun qara otağa gətirilməsini özünə təhqir sayır. Ancaq özündə bir əskiklik görmür. Bəlli olur ki, o, qılınc vurmaqda, səxavətli olmaqda, ağır-ağır süfrə-qonaqlıqlar təşkil etməkdə məşhur bir adamdır. Yəni Oğuz bəylik kodeksinin əksər əlamətlərinə görə Dirsə xan sayılıb-seçilən adamdır. Heç təsadüfi deyildir ki, onun adını "xan" titulu müşayiət edir. Demək, Oğuzda məşhur olmağın, bəy, igid, adlı-sanlı olmağın şərtləri baxımından Dirsə xan özünün qara otağa gətirilmə statusunu qəbul etmək istəmir. Göründüyü kimi, buna etiraz edir. Bu vaxt Bayandır xanın buyruğunu ona çatdırırlar. Maraqlı burasıdır ki, Dirsə xan Bayandır xanın buyruğuna etiraz etmir. Bu isə dastan-mif konteksti baxımından bizə yuxarıda gəldiyimiz qənaətləri möhkəmlətməyə imkan verir.

Dirsə xan Bayandır xandan inciyir, ancaq onun hökmünə etiraz etmir. İlk baxışdan sosial-arxaik kontekst normaldır. Dirsə xan oğuz hərbi-demokratik idarəçilik sisteminin qanunlarına görə Bayandır xandan aşağı pillədə durur. Əlbəttə, bu pilləni müəyyənləşdirmək maraqlı olardı. Ancaq indi buna lüzum yoxdur. Ona görə ki, birbaşa olaraq bu, bizim predmetimiz deyil, ikincisi, bu məsələ mürəkkəb, çoxcəhətli olmaqla ayrıca bir tədqiqatın mövzusudur. Bizi maraqlandıran məsələ baxımından burada qaranlıq heç nə yoxdur. Dirsə xan hərbi-vassallıq sistemi, yaxud başqa cür desək, oğuz idarəçilik sisteminin iyerarxik (pilləli) qanunlarına görə Bayandır xana tabedir. Bu

baxımdan, onun Bayandır xanın buyruğuna tabe olması təbiidir. Ancaq başqa tərəfdən görürük ki, Dirsə xan doğrudan-doğruya Bayandır xandan inciyir. O, özünü şərəfli bir Oğuz ictimai xadimi sayır və bu belədir. Ancaq o biri tərəfdən o, Bayandır xanın hökmünü-buyruğunu qəbul edir. Məsələnin də bütün mahiyyəti bununla bağlıdır. İş burasındadır ki, Bayandır xanın buyruğu heç bir halda onun şəxsi iradəsini ifadə etmir. O, burada Dirsə xana, yaxud onun kimi oğlu-qızı olmayanlara öz şəxsi münasibətini bildirmir. Bayandır xan sadəcə olaraq Oğuzun əski bir qanununu həyata keçirir. O, bu qanunu həyata keçirməlidir. Diqqət edək ki, həmin qanun birbaşa Tanrı ilə bağlıdır. Demək, Bayandır xan birbaşa olaraq Tanrı hökmünün icraçısıdır, Tanrının iradəsinin funksionallaşdırıcısıdır. Onun elan etdiyi buyruq Tanrı hökmüdür və Dirsə xan da Tanrı hökmünə tabe olur. Arxasını izləyək.

Uşağı olmadığı üçün belə rüsvayçılığa məruz qalan, "qara eyib" möhürü ilə damğalanan Dirsə xan evinə dönüb qəzəbini xanımının üstünə tökür. O, bu işdə qadınını günahkar bilir. Bayandır xan deyir:

*Xan qızı, yerimdən durayımmı?*
*Yaqan ilə boğazından tutayımmı?*
*Qara polatüz qılıcum əlümə alayımmı?*
*Öz gövdəndən başunu kəsəyimmi?*
*Can tatlusun sana bildirəyimmi?*
*Alça qanun yer yüzinə dökəyinmi?*
*Xan qızı, səbəb nədir, degil mana?*
*Qatı qəzəb edərəm şimdi sana!* (75, 39-40)

Dirsə xanın cavabında qadını ona deyir:

*Hay Dirsə xan, bana qəzəb etmə!*
*İncişib acı sözlər söyləmə.*
*Yerindən uru durğıl!*
*Ala çadırın yer yüzünə dikdirgil!*
*Atdan-ayğır, dəvədən-buğra,*
*qoyundan qoç öldürgil!*
*Ac görsən, doyurğil, yalıncaq görsən, donatğıl!*
*Borcluyı borcından qurtarğıl!*
*Dəpə kibi ət yığ, göl kibi qımız sağdır!*
*Ulu toy elə, hacət dilə!*
*Ola kim, bir ağzı dualının alqışıyla*
*Tanrı bizə bir yetman əyal verə (75, 40).*

Dirsə xan arvadının məsləhətlərinə əməl edir. Ulu məclis düzəldir, bəyləri qonaq çağırır, var-dövlətini aclara paylayır, borcluları borclarından qurtarır, paltarsızlara paltar verir. Hamı əl götürüb onun övladının dünyaya gəlməsindən ötrü alqış-dua edir. Bu duanın səbəbi ilə Buğac dünyaya gəlir.

Beləliklə, Buğacın doğuluşu Tanrı hökmü olaraq həyata keçir. Öncə bunun dastandan görünən mənzərəsinə diqqət verək. Buğac birinci boyun qəhrəmanıdır. Türk dastançılıq ənənələrinə, eləcə də dünya epos ənənələrinə görə epik qəhrəman, yəni epik situasiyaları öz üzərində cəmləşdirən, epik mətndə nəzərdə tutulmuş "epik niyyətin" reallaşdırıcısı olan qəhrəman bütün hallarda qəhrəman olmayanlardan fərqlənir. Burada məsələnin mahiyyəti əski dastançılığın öz poetikası ilə bağlıdır. Dastan, yaxud

epik mətndə əskilərdən gəlmə epik ənənə olaraq obrazlar iki statusda olur:

**Qəhrəman (lar) və qalanlar**

Bu sxem qarşıdurma səciyyəli semantik oppozisiya deyildir. Doğrudur, burada da oppozisiya var, ancaq bu oppozisiya iyerarxik səciyyəlidir. Başqa sözlə, "qəhrəman - qalanları" qoşalığı "qəhrəman - antoqonist" qoşalığı ilə mahiyyətcə eyni deyildir. Bu oppozisiya qoşalığı dastanın semantik qurum prinsiplərinə daxil qoşalıqdır. Bu baxımdan, istənilən epik mətndə "qəhrəman - qalanları" semantik sahəsi var və mətnin bütün dinamika əsası bu qoşalığın qəhrəman qütbü ilə bağlı olur (45, 146).

Epik qəhrəman epik dinamikanın əsasında durur, birbaşa olaraq epik dinamika ilə bağlı olur. Dastanın bütün güc semantemləri, semantik sxemlər onunla əlaqələnir. O, qeyri-adi işlər görməlidir. Başqalarının edə bilmədiyi qəhrəmanlıqların öhdəsindən o gəlməlidir. Bu baxımdan o, adi qayda ilə doğula bilməz. Onun adi adamlar kimi, adi situasiyada doğulması qəhrəmanın adi olduğunu şərtləndirərdi. Dastan təfəkkürü öz qəhrəmanını qeyri-adi gücə, qabiliyyətlərə bağlı təsəvvür edir. Elə bunun üçün də onun doğuluşu adi adamlardan fərqlənir.

Bir klassik qəhrəmanlıq eposu olaraq "Kitabi-Dədə Qorqud"un qəhrəmanının belə "qeyri-adi" doğuluşu normativ epik ənənə olaraq əski dastançılıqdan gəlir. Epik fikrin mərhələvi inkişaf tarixinə uyğun olaraq əski dastançılıq ənənəsinin özü arxaik başlanğıcda mifoloji

epik ənənələrlə, kosmoqonik yaradılış prinsipləri ilə bağlıdır. "Oğuz Kağan" dastanı buna ciddi misaldır:

*"Olsun dedilər. Onun şəkli budur.*
*Bundan sonra sevinc tapdılar.*
*Yenə günlərin bir günü Ay Kağanın gözləri*
*yarıdı, bir oğlu oldu.*
*Ağzı atəş kimi qırmızı, gözləri ala, saçları*
*qaşları qara idi. Gözəllikdə mələklərdən də gözəl idi.*
*Bu oğlan anasının döşündən ağız südini əmdi.*
*Bundan sonra*
*bir də əmmədi, çiy ət, aş istədi,*
*şərab istədi, dil açdı, Qırx gündən sonra*
*böyüdü, yüyürdü, oynadı. Onun ayağı öküz*
*ayağına, beli qurd belinə, kürəyi samur kürəyinə,*
*köksü*
*ayı köksünə bənzəyirdi. Bədəninin hər yeri*
*sıx tüklə örtülmüşdü…" (42, 124).*

"Oğuz Kağan" mətnini çap etmiş və bu eposu dərindən-dərinə izah etmiş F.Bayat Oğuzun qeyri-adi doğuluşu, xüsusilə doğulan kimi çiy ət, aş istəməsi ilə bağlı haqlı olaraq yazır ki, "İfadə ("bir də əmmədi, çiy ət, aş istədi" – M.C.) əski mətnlərin strukturuna uyğun ilk insanın, demiurqun doğulmasını simvolizə edir" (42, 142).

Göründüyü kimi, Buğacın doğulması, eləcə də "Kitabi-Dədə Qorqud"un başqa qəhrəmanlarının belə "qeyri-adi" doğuluşu məhz öz "qeyri-adiliyində", adi olmamağında, digər personajların adi

doğulmaqlarından fərqli sakral presedent ilə, Oğuzun doğulmağı ilə bağlıdır. Oğuz isə oğuzların ulu əcdadı, mifoloji babalarıdır. Bu baxımdan "Kitabi-Dədə Qorqud" dastanındakı qeyri-adi doğuluş mifoloji konteksti öz arxaik dinamikasında nəzərdə tutur. Oradan gəlir. Mif eposa doğru inkişafında müxtəlif mərhələlərdən, başqa sözlə, epik inkişaf mərhələlərindən keçir. Bu prosesdə transformativ dəyişmələr baş vermişdir. Bütün bu dəyişmələr kontekstində mifə məxsus struktur pozulmur, daha doğrusu, özünü arxaik daşlaşmış struktur şəklində saxlayır. Çünki mif bütün hallarda ilkin struktur, ilkin formadır. Epos bu formadan baş alıb gəlib. Ona görə də onların arasında struktur əlaqə təbiidir. Oğuz Kağan – Buğac müqayisəsi göstərdi ki, Buğacın doğulması bir epik motiv olaraq "Oğuz Kağan" kosmoqonik sxemindən qıraqda deyil. "Oğuz Kağan" mifoloji doğuluş sxemi kimi "Kitabi-Dədə Qorqud" dastanı doğuluş motivlərinin əsasında durur. Bu, tamamilə normal və qanunauyğundur. Çünki "Oğuz Kağan" dastanı və "Kitabi-Dədə Qorqud" dastanı hər ikisi oğuz epik ənənəsidir və "Oğuz Kağan" mifə yaxınlıq baxımından daha arxaik doğuluş sxemini özündə saxlayıb.

Qeyri-adi doğuluş motivi ilə biz "Kitabi-Dədə Qorqud"un üçüncü boyunda da rastlaşırıq. Bu boyda Bayandır xan İç Oğuz və Daş Oğuz bəylərini söhbətə dəvət edir. Qambörə bəy də buraya gəlir. O, başqa bəyləri oğulları, qardaşları ilə birlikdə yan-yanaşı

oturmuş görüb ah-nalə edir, zar-zar ağlayır. Qazan bunun səbəbini soruşduqda deyir:

"Xan Qazan, necə ağlamayım, necə bozlamayım? Oğulda ortağım yoq, qardaşda qədərim yoq! Allah Taala məni qarğayıbdır. Bəglər, tacım-taxtım üçün ağlaram. Bir gün ola, düşəm öləm, yerimdə-yurdumda kimsə qalmaya" (77, 54).

Qambörə bəyin nədən qayğılandığını bilincə Qalın Oğuz bəyləri üz göyə tutub "Allah Taala sana bir oğul versin" (77, 54) deyə dua edirlər. Onların duası müstəcəb olur. Çünki "Ol zamanda bəglərin alqışı alqış, qarğışı qarğış idi" (77, 54). Baybican bəy də qızı olmasından ötrü bəylərdən alqış-dua etmələrini xahiş edir. Bəylər onun da xahişini yerinə yetirirlər. Beləliklə, duanın müstəcəbliyindən Qambörənin oğlu, Baybicanın isə qızı olur. Beləliklə, Beyrək və Banuçiçək də adi yolnan, yəni eposun digər personajları kimi doğulmurlar; onların doğulması Tanrı iradəsinin gerçəkləşməsi kimi baş verir. Bəylər onların doğulmasından ötrü Tanrıya əl qaldırırlar və hər iki uşaq Tanrının razılığı, onun bəxşişi kimi bu dünyaya gəlir. Epik məntiqə görə bu, belə də olmalıdır. Beyrək və Banuçiçək üçüncü boyun qəhrəmanlarıdır və onların doğuluşu digər personajlardan fərqli olmalıdır.

Qeyd etməliyik ki, bu cür qeyri-adi doğuluş digər boy qəhrəmanlarına münasibətdə də bu və ya başqa biçimdə var. Yəni epik kateqoriyanı təşkil edir. Bu üzdən Qazanın oğlu Uruzun doğuluşu qeyri-adi doğuluş motivi baxımından maraqlı material verir.

Dastanı izləyək. Düzdür, dastanda Uruzun doğuluşunun təsviri yoxdur, ancaq eposlar üçün səciyyəvi olan təsvir-təhkiyə prinsipləri baxımından Uruzun doğuluşu formulunu bərpa etmək mümkündür. Dastanda təsvir edilir ki, Qazan xan bəyləri ilə birgə kafirlərlə qarşılaşır. Vuruşma başlayır. Uruzu əsir götürürlər. Ancaq Qazanın bundan xəbəri olmur. Düşünür ki, oğlu qorxaqlıq edib, qaçıb evə gedib. Qəzəblənib onu öldürməyə qərar verir. Evə çatdıqda arvadı – boyu uzun Burla Xatunla qarşılaşır. Oğlunu görməyən ana Qazan xana üz tutaraq deyir:

*Quru-quru çaylara su saldım,*
*Qara donlu dərvişlərə nəzir verdim.*
*Yanıma ala baqduğımda qonşuma eyü baqdım,*
*Umanıma-usamama aş yedirdim*
*Ac görsəm, doyurdum,*
*Yalıncaq görsəm donatdım*
*Dilək ilə bir oğulı güclə buldum (75, 70).*

Demək, Uruz da eyni ilə Buğac kimi doğulur. Düzdür, burada epik qəlib məqamı var. Yəni dastançı Uruzun bir oğul olaraq ana üçün qiymətliliyini bu yolla təsvirin şiddətli məqamına salır. Başqa sözlə, burada Uruzun doğuluşunun belə təsviri həm də poetik fiqurdur. Ancaq bu poetik formulun özündə arxegenetik məqamlar var. Bu formul Tanrıdan övlad diləməyin formuludur və onun bütün elementləri mifoloji arxaika, ritual-düşüncə ilə bağlıdır. Doğuluşun belə qəlibi türk dastançılığı üçün səciyyəvidir. Türk dastançılığının Azərbaycan epik

məkanındakı inkişafının məhsulları olan məhəbbət dastanlarımızdakı qəhrəmanın doğuluşu formulları öz struktur-semantik mahiyyəti etibarilə dəyişməz qalıb. Məsələn, "Qurbani" dastanında eyni situasiya ilə üzləşirik:

"Günlərin bir günündə Mirzalı xan arvadını çağırıb deyir:

- Arvad, bütün bu işlər ona görə bizim başımıza gəldi ki, bizim züryətimiz, arxa-köməyimiz yoxdur. Deyirlər ki, el duası müstəcəb olar. Bir qurban götür, get ocağa, orada nəzir paylayaq, qurban kəsək, verək yetim-yesirə, bəlkə, bir ovladımız ola.

Sabahı Mirzalı xan nəzir-niyaz, bir dənə də karlı qurbanlıq götürüb getdi ocağa. Nəziri payladı, qurbanı da kəsdi. Allah-taala bunların qurbanını qəbul elədi. Belə ki, bu işdən bir müddət sonra Mirzalı xanın bir oğlu oldu" (21, 5).

Eyni situasiya-formulla "Qurbanı" dastanının Diri versiyasında (21, 79), "Novruz" dastanında (21, 153), "Alı xan" dastanında (21, 185), "Leyli-Məcnun" dastanında (33, 324), "Mahmud və Ağcaquş" dastanında (38, 87) və s. dastanlarda qarşılaşırıq. Bu göstərir ki, mifoloji səciyyəli doğuluş motivi Azərbaycan dastançılığının orta əsrləri üçün də səciyyəvidir.

Qeyri - adi doğuluş motivinin, yuxarıda ayırdığımız kimi, ikinci tipi dərvişin verdiyi alma ilə bağlıdır. Qeyd etmək istərdim ki, doğuluşun bu motivi təkcə dastanlar üçün yox, eləcə də nağıllar üçün də

səciyyəvidir və dastan-mif konteksti baxımından bu məqam mühümdür. Mətnlər üzrə izləyək.

"Tahir və Zöhrə" dastanında deyilir ki, Qaramanın padşahı Hatəm Soltanın və onun qardaşı vəzir Əhmədin uşaqları yoxdur. "Günlərin bir günündə Əhməd vəzir yenə də oturub övlad dərdi çəkirdi, bu zaman bir nurani dərviş daxil olub, salam verdi. Əhməd vəzir salamın cavabını verəndən sonra qalxıb dərvişin kəşkülünü aldı, içinə bir çəngə pul qoyub, dərvişə qaytardı. Dərviş qoltuğundan bir alma çıxarıb Əhməd vəzirə verib dedi:

- Al, muradın hasil olar, - deyə çıxıb getdi…

…Əhməd vəzir axşama kimi almaya tamaşa elədi. Axşam rəxt-xabə girib yatdı. Gecənin bir aləmində gördü ki, evin bir tərəfindən divar yarıldı. Həmin alma verən nurani dərviş içəri girdi. Dərviş üzünü Əhməd vəzirə tutub dedi:

- Ay Əhməd vəzir, dünən sənə verdiyim almanı götürüb gedərsən Hatəm Soltanın hüzuruna. Almanı tən ortasından iki yerə bölərsən. Bir parçasını sən yeyərsən öz arvadın ilə, bir parçasını da Hatəm Soltan öz arvadı ilə yeyər. İnşallah, hər ikinizin övladı olar" (21, 102-103). Elə də olur. Qardaşlar almanı bölüb öz arvadları ilə yeyirlər. Onların birinin oğlu, o birinin isə qızı olur.

Eyni situasiya ilə digər dastanlarda da üzləşirik. Məsələn, "Lətif şah" dastanında (21, 222), "Şah İsmayıl" dastanında (27, 239), "Şəhri və Mehri" dastanında (38, 16-17), "Arzu-Qəmbər" dastanında (71, 57) və s. bu motivin geniş təsviri var. Qeyd edək ki, dərvişin verdiyi alma motivi ilə bağlı maraqlı detallarla üzləşirik. Yəni

dastanlardakı bu motiv, demək olar ki, eynidir. Ancaq fərqli detallara da rast gəlinir ki, həmin detalların dastan-mif konteksti ilə bağlı əhəmiyyəti var. "Şah İsmayıl" dastanını izləyək.

"Şah İsmayıl" dastanında Qəndəharın padşahı Ədil şah mal-dövlətinin üç qismindən ikisini fağır-füqəraya paylayır ki, bəlkə, övladı olsun. Onun bu hərəkətindən sonra qapısına bir dərviş gəlir.

"Padşah ona pay verdi. Dərviş payı almayıb dedi:

- Biz pay alan dərvişlərdən deyilik. Pay verən dərvişlərdənik. Dərviş bu sözdən sonra cibindən bir alma çıxarıb padşaha verib dedi:

- Bu almanı soy, qabığını qulunluğundan doğmayan Qəmərnişan madyana ver, özünü də iki qism elə, bir qismini sən ye, bir qismini də arvadın yesin. Çox keçməz bir oğlunuz olar… Qəmərnişan madyanın da bir qulunu olar" (27, 239).

Göstərməliyik ki, dastandakı bu motiv arxaik türk dastançılığı ilə bağlı çox maraqlı bir detalı özündə saxlayıb. Burada nəinki qəhrəmanın qeyri-adi doğuluşu, həm də onun atının da qeyri-adi doğuluşu təsvir olunur. Azərbaycan məhəbbət dastanları səviyyəsində bu detal nadirdir, ancaq türk dastançılığı səviyyəsində səciyyəvi detaldır. O mənada ki, əski türk dastanlarında qəhrəmanın atı çox fəaldır və onun fəaliyyəti qəhrəmanın fəaliyyəti ilə bir sırada durur. İnsan və atın fəaliyyətinin eyni dəyər qatından qiymətləndirilməsi, onların bir semantik cərgəyə salınması məhz arxaik şüurla, mifoloji təfəkkürlə bağlıdır. A.Acalovun yazdığı kimi, "ibtidai düşüncə

dairəsində müasir məntiq (burada və sonra müasir məntiq dedikdə yeni dövr Avropa ənənəsinin məhsulu olan dünyagörüş sistemi nəzərdə tutulur) baxımından "təmiz", bircinsli siniflər, qruplar (məs., adamlar, ağaclar, quşlar, balıqlar, daşlar, sürünənlər və b.) yoxdur. Burada hər bir sinfə (müasir anlamda) başqa sinif ünsürləri qarışdırılır. Bu təsnifata görə, məsələn tayfa içində yaşayan quldur, qoyun yatağına girmiş canavar, quş balalarını yeyən əjdaha, xəyanətkar və b. bir bölgüyə, sinfə aid edilir. Tayfadan kənarda yaşayan pəhləvan, çöldə ov edən canavar (daha doğrusu qurd), köməkçi (xeyirxah) əjdaha, xalq qisasçısı isə başqa bir bölgüyə aid edilir (12, 10).

"Şah İsmayıl" dastanından göründüyü kimi, dərvişin verdiyi almanı təkcə padşahla arvadı yox, eyni zamanda heç zaman doğmamış Qəmərnişan madyan da yeməlidir. Burada Qəmərnişan madyan, padşahın arvadı ilə eyni semantik sırada dayanır. Arvad gələcək qəhrəmanı dünyaya gətirəcəyi kimi, Qəmərnişan madyan da qəhrəmanın atını dünyaya gətirməlidir. Düzdür, məhəbbət dastanlarının strukturu bütövlükdə irfani-təsəvvüfi koda tabedir. Yəni arxaik və klassik qəhrəmanlıq dastanlarından gələn struktur orta əsr Azərbaycan məhəbbət dastanları səviyyəsində artıq təsəvvüfləşmiş, irfaniləşmiş, bütün poetik elementləri ilə təsəvvüfi, haqq aşığı koduna tabe edilmişdir. Ancaq göründüyü kimi, məhəbbət dastanlarının qəhrəmanlıq dastanlarından ayrılması, ayrıca dastan tipi kimi inkişaf etməsi belə arxaik strukturdan gələn

ənənələrin, detalların izini həmişə yox edə bilmir. Buna səbəb dastan strukturunda onun poetik elementlərinin özlərinin dayanıqlı münasibətlər çevrəsində qurulmaqlarıdır. Başqa sözlə, atın da möcüzəli şəkildə doğulması bir detal kimi qəhrəmanın möcüzəli doğuluşu motivinin tərkibindədir. Bax burada motivin invariant səviyyəsi özünü büruzə verir. Yəni motiv davranış stereotipi, hadisə, kolliziya sxemi olmaqla dayanıqlı struktura çevrilib. Motivin "yaddaşında" olan onun özü ilə bərabər mətndən-mətnə daşınır və bu, transformasiyalar zamanı da qalır.

Almadan doğuluş əski bir aktdır, birbaşa mifoloji düşüncə ilə bağlıdır. A.N.Afanasyev yazır ki, alma "həyat ağacı"nın elə birbaşa özüdür. Alimin fikrinə görə, "səmavi ağac" sayılan bu almanın meyvəsini yeyən qoca cavanlaşır, xəstə sağalır, korun gözləri açılır, hətta bu almada "ölünü diriltmək" qüdrəti də vardır (129, 220).

Görkəmli yazıçı Y.V.Çəmənzəminli bu mövzuda Azərbaycan mətnləri əsasında bəhs edərək yazır ki, "Məlik Məhəmməd" nağılından bəhs olunan alma ağacına bənzər "Avesta"da da bir haapa ağacı Kürqəsb dənizində bitib bütün nəbatata ruh verərmiş. Bəziləri haapanı əbədi həyat bəxş edən ağaca bənzədirdilər. "Məlik Məhəmməd"dəki alma ağacı haapaya çox bənzəyir; almanı yeyən cavanlaşır və əbədi həyata vasil olur (49, 46).

Bu məsələdən bəhs etmiş M.H.Təhmasib də "Məlik Məhəmməd" nağılındakı almanı "Avesta" mifoloji elementləri ilə əlaqələndirmişdir. O yazır ki,

"... bu nağılda əsas mübarizə padşahın bağında olan bir almanın üstündə gedir. Bu almanın xariqüt-təbii xüsusiyyətləri vardır. Onu yeyən qocalar cavanlaşırlar. O, beləliklə insana əbədi həyat verir. Heç şübhəsizdir ki, bu alma qədim Midiya dini fəlsəfəsində xeyir Allahı olan Ahura-Məzdanın Allahlar məkanı müqəddəs Berezsit dağında əkmiş olduğu həyat və əbədiyyət ağacının sonralar müəyyən dəyişikliklərə uğramış timsallarıdır" (106, 91).

Y.V.Çəmənzəminli və M.H.Təhmasibin Azərbaycan nağıllarındakı sehirli almanı "Avesta" ilə əlaqələndirməsi təsadüfi deyil. Azərbaycan, İran, Orta Asiya kimi əski sivilizasiya zonalarının dini-mifoloji görüşlərini özündə cəmləşdirən "Avesta"da almanın həyat ağacı ilə bağlı olması tamamilə normal mifologemdir. Bu baxımdan, Azərbaycan nağıllarındakı almanın "Avesta" mifləri ilə əlaqələnməsi tipoloji gəlişmələr zəminində mümkündür. Digər tərəfdən, almanın övlad verməsi mifdə dünya ağacı kompleksi ilə bağlıdır. Dünya ağacı dünyanın mifoloji modeli kimi çox geniş funksiyalara malikdir. O, həm də həyat ağacıdır. Bu baxımdan, almanın xüsusilə Azərbaycan nağılları səviyyəsində təkcə "Avesta" mifləri ilə əlaqələndirilməsi düzgün deyildir. Azərbaycan folklor-mifoloji mətnləri, xüsusilə eposları bunun ən rəngarəng formalarını təqdim edir. "Kitabi-Dədə Qorqud" bu baxımdan çox dəyərli mənbədir.

"Kitabi-Dədə Qorqud"un səkkizinci boyunda Təpəgözün doğulması sözün hərfi mənasında möcüzədir. Boydan bəllidir ki, Aruzun Qonur Qoca

Sarı adlı çobanı Uzun Binar deyilən bulağın üstünə gəlir. Qoyunlar bulaqda çimən pəri qızlarını görcək hürkür. Çoban pərilərdən birini tutur və namusuna toxunur. Ayrılarkən pəri ona deyir:

"-Çoban, yil tamam olcaq məndə əmanətin var, gəl al. Amma Oğuzun başına zaval gətürdin!

…Zamanla Oğuz genə yaylaya köçdü. Çoban genə bu Binara gəldi. Genə qoyun ürkdü. Çoban itlərü vardı. Gördü kim, bir yığınaq yatur yıldır-yıldır yıldırır. Pəri qızı gəldi. Aydır:

- Çoban, əmanətin gəl al. Amma Oğuzun başına zaval gətürdin, - dedi.

Çoban bu yığınağı görcək ibrət aldı, geri döndi. Sapan daşına tutdı. Urduqca böyüdi. Çoban yığınağı qoydı, qaçdı, qoyun ardına düşdi.

Məgər ol dəm Bayandır xan bəglər ilə seyrana getmişlərdi.

Bu binarın üzərinə gəldilər. Gördülər kim, bir ibrət nəsnə yarur, başi-göti bəlürsüz. Çevrə aldılar. Endi bir yigit dəpdi. Dəpdikcə böyüdi. Bir qaç yigit dəxi endilər, dəpdilər. Dəpdiklərincə böyüdi. Aruz Qoca dəxi enüb dəpələdi, mahmuzi toqundi. Bu yığınaq yarıldı, içindən bir oğlan çıqdı. Gövdəsi adam, təpəsində bir göz var" (77, 90).

Göründüyü kimi, Təpəgöz möcüzəli yolnan doğulur. Onun doğuluşu yuxarıda verdiyimiz üç tipdən üçüncüyə aiddir. Yəni Təpəgöz nə alqış-dua ilə (1-ci tip), nə dərvişin verdiyi alma vasitəsilə (2-ci tip) doğulur. Onun doğuluşu özünəməxsusdur və biz bu

tipli doğuşları "digər tipli möcüzəli doğuluşlar" adı altında qeyd etdik.

Təpəgöz Basatın antoqonistidir, yəni səkkizinci boyun qəhrəmanı Basatdır. O da adi yolnan doğulmur. Onu Qağan aslan böyüdür. Bu baxımdan, Təpəgözün və Basatın doğulmaları əski mifoloji görüşlərin dastan mətni səviyyəsində gercəkləşmə motivi olaraq möcüzəli doğuluşun dual tipini təqdim edir. Yəni Basat bir qəhrəman olaraq qeyri-adi doğuluş motivindən "keçdiyi" kimi, Təpəgöz də eyni motivdən keçməlidir.

"Yaxşı - Yaman" dastanı da qeyri-adi doğuluşla bağlı maraqlı motiv variantı təqdim edir: "Bir kişi uzaq səfərə yollanır. Xeyli gedəndən sonra gecələmək üçün bir kəndə dönür. Tanımadığı bir qapını döyür. Ev sahibi olan ərlə arvad onu yaxşı qarşılayırlar. Atına və özünə yer verirlər. Qonaq görür ki, bu gözəl insanların övladı yoxdur. Yola düşüb gedərkən deyir:

- Zaman qardaş, Yaxşı bacı, yaradandan bircə istəyim var ki, sizə bir övlad versin. Siz ki, belə xoşxasiyyət insansınız.

Aradan bir il keçir. Xəbər gəlir ki, qonaq qayıdıb geri.

Yaxşı deyir:

Ay Zaman, qonaq bizdən uşaq soruşacaq. Görəcək yoxdur, qəmgin olacaq. Deyirəm bir ürgəncək düzəldim, divək daşını uşaq kimi bələyim, qoyum ora. Soruşanda göstərib deyərik ki, uşağımız oldu. Qoy qonağımız məyus olmasın.

Belə də eləyirlər. Qonaq ürgəncəyi görüb sevinir. İrəli yeriyir ki, uşağın ürgəncəyinə hədiyyə qoysun, uşaq ağlayır. Ərlə-arvad bu işə mat qalırlar" (71, 45).

Daşdan doğulmuş bu uşağın adını Lələ qoyurlar. Lələnin dilindən deyilmiş bayatı onun möcüzəli doğuluşu haqqında folklor dünyagörüşünü birbaşa təqdim edir:

*"Eləmi, daşdan mən,*
*Kirpikdən mən, qaşdan mən.*
*Nə atam var, nə anam,*
*Yaranmışam daşdan mən"* (71, 46)

Qeyd edək ki, bu, daşdan doğulma motividir. Çox qədim mifik dünyagörüşlə bağlıdır. Onu sistemli olaraq araşdırmamışdan qabaq bir mif mətninə diqqət edək:

"Bir gəlin vaxt gəlir, vədə çatır, yükünü yerə qoyur. Gəlin uşağa baxanda az qalır ki, dəli olsun. Uşaq anadan ölü doğulubmuş. Gəlin ərinin qorxusundan tez uşağı gizlədib onun yerinə beşiyə daş qoyur və başlayır yırğalamağa.

Əri evə qayıdanda arvadının bar-yükünü yerə qoyduğuna çox sevinir. Beşiyə tərəf gedir ki, övladına baxsın. Gəlin tez yerindən qalxır. Dili tutar-tutmaz deyir ki, təzəcə yuxuya gedib, oyadarsan. Kişi day getmir, bir az gözləyir, amma səbri çatmır. Arvadın sözünə baxmır, özünü salır beşiyə. Görür ki, yerində gözəl bir uşaq var. Amma hər ikisini heyrət bürüyür. Arvad görür ki, beşiyə qoyduğu daş uşaq olub. Kişi də çaşır ki, bir günlük uşaq: "nə atam var, nə anam,

yaranmışam daşdan mən" – deyə mahnı oxuyur" (34, 81-82).

Göründüyü kimi, "Yaxşı-yaman" dastanındakı möcüzəli doğuluşla bu mifdəki doğuluş eynidir. Əslində, dastandakı motiv-situasiya və mifdəki situasiya bir-birindən mətn tipinə görə fərqlənən variantlardır. Hər iki möcüzəli, yaxud qeyri-adi doğuluş təsvir edir. O biri tərəfdən, bu mətnlər təkcə semantik elementlərinə görə yox, formal oxşarlıq baxımından da əlaqəlidir. İstər "Yaxşı-Yaman" dastanında, istərsə də mifdə doğulmuş uşaq eyni mahnı (cüzi variant fərqləri ilə) oxuyurlar.

Daşdan doğulma bir tərəfdən daşa inamla bağlıdır, o biri tərəfdən qəhrəmanın qeyri-adi doğuluşunun təsvir vasitəsi kimi çıxış edir. Daş – türk mifologiyasında kultlar sırasına daxil olan mifoloji obrazdır. Yerlə, Yer Ana ilə bağlıdır. Onunla bağlı istər Azərbaycan mətnlərində, istərsə də digər türk xalqlarının mifologiyasında saysız mətnlər mövcuddur. Azərbaycan mifoloji mətnləri içərisində olan bir səciyyəvi mətn-informasiya daşla bağlı inamların mifoloji mahiyyətini adekvat təsəvvür etmək üçün maraqlı material verir:

"Qızılca kəndinin yaxınlığında bir təpə var. Adına Daban təpəsi deyirlər. Orada olan daşlar ocaqdı. Onlar göydən düşüblər, keçmişi də bilirlər, gələcəyi də. Adamların dərdini də bilirlər, dərmanlarını da, Orada olan daşlardan biri qalanlarından çox böyükdü. El arasında həmin daş o

birilərinin anası hesab olunur. Balaca daşlar da onun balalarıdır. Ana daş həmişə balalayır" (34, 82).

Bu mifoloji mətn daşdan doğulan qəhrəman obrazının dastan-mif kontekstindəki semantik durumunu aşkarlamağa kömək edir. Göründüyü kimi, bu mifdə birbaşa olaraq insanlardan söhbət getmir. Mifoloji personajlar yalnız daşlardır. Bu daşlar maraqlıdır ki, məhz insan kimidir. Ancaq onların insanlara məxsus əlamətləri möcüzəli, sakraldır. Daşlar insan kimi balalayır, yaşayır, düşünür. Onların keçmişdən və gələcəkdən xəbər vermələri sakral funksiyadır və bunun belə olması həmin daşları sakral funksiya daşıyıcıları (Qorqud Ata, Müdrik Qoca, Dərviş və b.) ilə bir sıraya qoyur. Oğuz-türk mifində keçmişdən, xüsusilə gələcəkdən soraq vermə Qorqudun funksiyasıdır. Mifdəki daş onunla eyni funksiyalıdır. Burada mifoloji düşüncənin obrazlaşdırma prinsipinin təzahürünü görürük. Mif dünyanı hissi, maddi tərəflərindən qavrayır. Göründüyü kimi, onun obrazlaşdırmasında Qorqudla daş eyni sırada dayanır. Bu baxımdan, mifdə insanla daş arasında olan fərq onların keyfiyyətində yox, funksiyasındadır. Daşdan doğulmuş uşaqlar oxuduqları mahnıda öz mənşələrini bildirirlər. Bu mənşə daşa bağlanır. Verdiyimiz ikinci mif isə daşın sakrallığının mifoloji dünya modelinin hansı xronotop (məkan-zaman) dəyəri ilə bağlandığını göstərir. Gördüyümüz kimi, sonuncu mifdə daşların göydən gəldiyi bildirilir ki, bu da onların Tanrı mənşəli olduğunu göstərir. Beləliklə, türk dastançılığında

qəhrəmanların Tanrı oğulları sırasına daxil olması nəzərdən keçirdiyimiz Azərbaycan dastan və mif mətnləri səviyyəsində bütün mifoloji "texnologiyası" ilə açıq şəkildə var. Başqa sözlə, biz bir dastan ("Yaxşı-Yaman") və iki mif mətni vasitəsi ilə mifoloji prosesi (möcüzəli doğuluş) onun sistemində görmək imkanı əldə etdik.

Folklorşünas B.Abdulla yazır ki, təbiət və cəmiyyətdəki dəyişmə, əvəzlənmələrin daşlara təsir etmədiyini müşahidə edən insanlar onları əbədilik timsalı sanmış, ilahi qüdrətdə olduqlarını, hər şeyi bildiklərini düşünmüşlər (6, 126-127). Daşın möcüzəli doğuluş motivi ilə əlaqələnməsi bir təsadüf olmayıb geniş yayılmış hadisədir. Görkəmli etnoqraf A.Y.Şternberq yazır ki, Oroq şamanları iri daşa bağlayıb darta-darta: ey daş, sən uzunömürlü, hər şeyi bilənsən. Naxoşluğun nədən olduğunu söylə, - deyə ona müraciət edirlər (213, 377). Altay epos qəhrəmanı Maaday Qara doğulanda onun sol ovcunda doqquz bucaqlı qara daş, sağ ovcunda isə yeddi bucaqlı boz daş varmış. Həm də bu daşlar sehirli imiş və qəhrəmana güc, qüvvət verirmiş (173, 84).

Daş bu mənada geniş yayılmış mifoloji obraz, inanış obyektidir. Onda sakral, mifoloji güc var. O, övlad verir. Başqa sözlə, verimlilik sakral obyektin, kult obyektinin, pərəstiş edilən, tapınılan obyektin funksional semantikasına daxildir. Bunu aşağıdakı vəsfi-hal nümunəsindən də görmək olur:

*Vəsməni qaşda sına,*
*Ağılı başda sına,*

*Niyyətin hasil olar,*
*Baxtını daşda sına* (6, 51).

Beləliklə, daş eyni zamanda bəxtin sınaq obyektidir. Başqa sözlə, bəxt verir. Bütün bu deyilənlər göstərir ki, daşdan doğulma Azərbaycan dastanlarının motivləri sırasına daxil olmaqla fraqmentar, təsadüfi sıra təşkil etmir. Daşla bağlı inamlar türk mifologiyasında mühüm yer tutmuşdur. Bu baxımdan daşdan doğulma dastan-mif kontekstində qeyri-adi doğuluş motivinin mühüm həlqələrindən birini təşkil edir. Düzdür, bu mifoloji mənşəli motiv dastançılıqda geniş yayılmasa da, mifoloji mətnlər, yaxud digər epik mətnlər çevrəsində onun yeri sabitdir.

Göründüyü kimi, qeyri-adi doğuluş motivi Azərbaycan dastanlarının sabit struktur elementi kimi miflə bağlılığını öz daxili strukturunda ciddi şəkildə qoruyub. Yaxud başqa cür desək, dastan-mif konteksti dastan motivləri səviyyəsində özünü ciddi şəkildə göstərir. Motivlər hadisələrin daşlaşmış sxemləri kimi ən ilkin situasiyaları özündə qoruyur. Bu baxımdan, mifoloji mənşəli motiv dastanda iştirak edərək onun epik məntiq qanunlarına tabe olmaqla öz strukturunda mif sxemi ilə yaşamaqda davam edir. Bu baxımdan, motivin dastanda sarsılmaz funksiyası var, ancaq motiv öz daxili strukturuna malikdir və həmin struktur birbaşa mifdən gəlir. Beləliklə, dastan-mif münasibətləri özləri də çox mürəkkəb struktura malikdir və bu münasibətlər epik təhkiyənin yaşarılığı səviyyəsində canlılığını davam etdirməkdədir. Yəni əslində belə fikirləşmək olur ki, mif öz epoxasının

düşüncə vahidi kimi funksional aktuallığını tarixin dərinliklərində çoxdan itirib. Ancaq dastan-mif münasibətləri göstərir ki, mif bir mətn, bir element, bir motiv və s. səviyyələrdə transformasiyalara uğrayaraq "yaşayır". Başqa sözlə, dastan özü elə transformativ mif deməkdir.

Dastan-mif kontekstinə ən uğurlu material verən motivlərdən biri də adqoyma – advermə motividir. Advermə mifoloji düşüncədə çox mürəkkəb mifoloji-nominativ proseslərlə bağlıdır. Şeylərə ad vermə, adlandırma yolu ilə dünyanı mənimsəmə, qavrama mifoloji düşüncədə mühüm yer tutur. Bu baxımdan, advermə bir motiv kimi epik mətnlərdən, o cümlədən dastan mətnlərindən keçir.

Advermə mənimsənilən, qavranılan dünyanın, mifoloji dünya modelinin ən müxtəlif qatları, o cümlədən etnik sfera ilə sıx bağlıdır. Əslində mifdə etnik sfera ilə bağlı olmayan heç nə yoxdur. Ancaq daxili təsnifatda, dünya bölgüsündə Kosmos (Dünya, Təbiət), Etnos (İnsan, Cəmiyyət) və Zaman qatları qlobal kateqoriyalar olmaqla mifoloji düşüncənin struktur münasibətlərinin əsasında durur.

Adqoyma mürəkkəb mifoloji-nominativ proses olmaqla epik düşüncənin düzənlənməsində, sistemə çevrilməsində epik element kimi çıxış edir. Onun epik situasiyası real - praqmatik düşüncənin öz strukturundan gəlir. At üstündə doğulan, at üstündə yaşayıb ölən türkün düşüncəsində ənənəyə bağlılıq həddindən artıq güclü olmuşdur. Bu baxımdan advermənin özü türk düşüncəsində ənənə

kontekstindən dərkə asan gəlir. Öncə etnik-nominativ faktlara diqqət edək.

Oğuz qəbilələrindən birinin adı "Kanqlı"dır. Mənbələrdən bəlli olur ki, Oğuz xan döyüşlərin birində çoxlu qənimət əldə edir. Bunu yurda aparmaq üçün yüklənəcək vasitə olmur. Ordudakı əsgərlərdən biri fikirləşib araba düzəldir. Bu araba gedərkən "qanq-qanq" səsi çıxardığından ona "Kanq" adı verilir. "Kanq"ı, yəni araba düzəldəni isə Oğuz xan "Kanqlı" adlandırır (197, 84; 162, 43; 214, 52-53; 121, 170; 80, 22).

Göründüyü kimi, burada adlandırma Oğuz xana aid edilir. Bu, çox mühüm məqamdır. Mifoloji informasiya həmin düşüncədə sahibsiz, ünvansız olmur. Burada hər bir hadisə, mifoloji terminlə desək, sakral presedent hansısa mifoloji gücə, qüvvəyə (obraza) aid edilir. İndiki halda bu obraz Oğuz Kağandır. Digər tərəfdən, buradakı informasiya xalq etimologiyası səviyyəsindədir və bu, doğrudan da belədir. Çünki Kanqlı tayfasının adı bu yolla yarana bilməz. Biz burada linqvopoetik analiz aparmadığımız üçün söz-adın mifoloji etimologiyasına enmirik. Diqqət çəkən məqam adın real etimologiyasının bu ad daşıyanları olan etnosun özünə adekvat şəkildə yox, məhz mifoloji şəkildə, yəni etimoloji olaraq bəlli olmasıdır. Kanqlı adı ilə bağlı izah-mətn həmin presedentin etimoloji, yəni izahedici miflər sırasına aid olduğunu göstərir. Bu baxımdan, göstərilən etiolojilik təkcə bu hadisə ilə bağlı olmayıb, türk folklor sistemində çox geniş yer tutur. Bunu Kanqlı adı ilə

eyni semantik sırada dayanan Qıpçaq adının yaranması da aydın göstərir.

Bu adla bağlı iki məlumat vardır. Onları dastan-mif konteksti ilə əlaqələndirməklə təhlil edək.

Oğuz xan İt-Baraklara ilk hücumunda qalib gələ bilmir. O, ordusunu iki çay arasındakı bir adada yerləşdirir. Orduda əri döyüşdə öldürülmüş bir hamilə qadın da var idi. Burada qadının ağrısı tutur. O, adadakı ağacın oyuq yerinə, koğuşuna girib bir oğlan doğur. Xəbəri Oğuz xana çatdırırlar. Uşağın atası olmadığı üçün Oğuz xan onu oğulluğa götürür və ağacın koğuşunda doğulduğu üçün ona Qıpçaq adını verir. Qədim türklərdə içi oyuq, koğuşlu ağaca qıpçaq deyilirmiş. Bütün qıpçaq qəbiləsi həmin Qıpçağın törəməsidir (197, 84; 162, 43; 121, 171; 80, 23).

Digər epik informasiyada deyilir ki, Oğuz xan ordusu ilə gəlib İtil (Volqa – M.C.) adlı çayın sahilinə çatdı. Oğuz təəccüblə çaya baxıb: "İtilin sularını necə keçəcəyik?" – deyir. Orduda nəsilli-nəcabətli sayılanlardan olan Uluq Ordu bəy sahildəki ağacları kəsib bir-birinə bağlayır və çaya buraxır. Ordu onun üstündən o biri sahilə keçir. Buna çox sevinən Oğuz xan Uluq Orduya deyir: "Sən burada bəy olaraq qal. Adın da "Qıpçaq" olsun" (162, 44-45; 121, 171; 80, 23).

Burada diqqət çəkən məqam ondan ibarətdir ki, hər iki etnonimin izahı məhz həmin mətnlərdə olduğu kimi deyildir. Əgər "Kanqlı" adında izah bir qədər məntiqli görünürdüsə, indiki halda izah daha məntiqsizdir. Arabanın çıxardığı səsə uyğun olaraq

araba "kanq" adlandırılır və buna uyğun "Kanqlı" düzəldilir, ağacın koğuşunun "Qıpcaq" adlanması səbəbi ilə uşaq Qıpcaq adlandırılır. Axırıncı halda Uluq Orduya niyə Qıpcaq deyilməsi bəlli olmur. Düzdür, o da ağaclardan sal düzəldir. Ancaq bu, məlumatın özündə aydın izah olunmur. Göründüyü kimi, məlumatlar etioloji səciyyəlidir və bütün hallarda bu etiologiya mifoloji qaynağa malikdir. Yəni oğuzların ulu babası, əfsanəvi Oğuz xana bağlanır. Burada diqqət çəkən bunun məhz belə olub-olmaması yox, məlumatın bağlandığı mənbədir. İndiki halda bu mənbə Oğuz xandır. Oğuz xan isə oğuzların, ümumiyyətlə türklərin epik-mifoloji sistemində mühüm yer tutur. Dastan – mif kontekstindən baxanda mühüm görünən indiki halda budur. Advermə bütün hallarda müəyyən sakral obyektlə, sakral gücün daşıyıcısı olan obrazla bağlı olur. Dastan – mif kontekstində bunun üçün bizə ən gərəkli örnəkləri "Kitabi-Dədə Qorqud" verir.

Oğuz eposu tədqiqatçılarından F.Bayat advermə ilə bağlı yazır ki, bu, "… ritual-mifoloji səciyyəli olub inisiasiya (ölüb-dirilmə – M.C.) mərasimi ilə bağlıdır. Yəni qəhrəman bir statusdan başqa statusa keçdiyi zaman baş verir. Epik ənənədə belə inisiasiya mərasimi uşaqlıq dövründən alplıq dövrünə keçid kimi təqdim olunur" (42, 20).

"Kitabi-Dədə Qorqud"da məhz bu şəkildə olan advermə, yəni "uşaqlıq dövründən alplıq dövrünə" keçid ilə bağlı adqoymanın maraqlı örnəkləri ilə üzləşirik ki, onlar da dastan – mif konteksti ilə əlaqədardır.

Qeyd edək ki, "Kitabi-Dədə Qorqud"da adqoyma Dədə Qorqudla əlaqələnir. Yəni advermə Dədə Qorqudun funksiyasıdır. "Koroğlu" dastanında bu işi Koroğlu yerinə yetirir. Məhəbbət dastanlarında bu, məhz mifoloji səciyyəli hami obrazları (Xızır, Həzrət Əli, Dərviş və s.) bağlıdır. Hər halda, advermə bütün hallarda sakral obrazlardan gəlir.

Məsələn, "Manas" dastanında Cakıp oğlunun doğulduğu gün ziyafət təşkil edib adqoyma mərasimi keçirir. Yığılanlardan xahiş edir ki, oğluna ad versinlər. Bu vaxt kimliyi və haradan gəldiyi bəlli olmayan Ağpaltarlı məclisə daxil olub uşağa Manas adı verir. Yaxud, "Alpamış" dastanında Həzrət Əli uşağa Alpamış adı verməklə bərabər, əlini onun kürəyinə vurmaqla həm də oxbatmaz, qılınckəsməz edir. Yəni həm magik ad, eyni zamanda yenilməz güc, qüvvə verir (42, 18-19, 21).

Demək, "Manas" dastanındakı Ağpaltarlı, "Alpamış"dakı Həzrət Əli, "Koroğlu"dakı Koroğlu və "Kitabi-Dədə Qorqud"dakı Dədə Qorqud advermə funksiyası baxımından birləşirlər. Bu o deməkdir ki, bunların müxtəlif adlar daşımasına baxmayaraq mifoloji funksiyaları eynidir. "Kitabi-Dədə Qorqud"a üz tutaq.

Birinci boyda deyilir ki, Bayandır xanın bir buğası və bir buğrası vardı. O, bir dəfə yazda, bir dəfə də payızda Ağ meydanda bunları döyüşdürər, bəyləri də tamaşaya çağırarmış. Belə günlərin birində Dirsə xanın oğlu üç uşaqla həmin Ağ meydanda aşıq-aşıq oynadıqları zaman buğanı oraya buraxırlar. Uşaqlar

qaçsa da, Dirsə xanın oğlu yerindən tərpənmir. Buğa onun üstünə gəlir. Gah oğlan buğanı sürüyür, gah buğa oğlanı. Nəhayət, oğlan buğanı yıxıb başını kəsir. Oğuz bəyləri oğlanda bu hünəri gördükdə tələb edirlər ki, "Dədəm Qorqud gəlsin, bu oğlana ad qoysun, binəsincə olub babasına varsın. Babasından oğluna bəğlik istəsin, taxt alı versün", - dedilər.

Çağırdılar, Dədəm Qorqud gəlür oldı. Oğlanı alıb babasına vardı. Dədəm Qorqud oğlanın babasına soylamış, görəlim, xanım, nə soylamış – aydır:

*Hey Dirsə xan, bəglik vergil bu oğlana,*
*Taxt vergil, ərdəmlidir!*
*Boynu uzun bədov at vergil,*
*Binər olsun, hünərlidir!*
*Ağayıldan tümən qoyum vergil bu oğlana;*
*Şişlik olsun, ərdəmlidir!*
*Qaytabandan qızıl dəvə vergil bu oğlana,*
*Yüklər olsun, hünərlidir!*
*Altun başlıq ban ev vergil bu oğlana,*
*Kölgə olsun, ərdəmlidir!*
*Çigni quşlu cübbə don vergil bu oğlana,*
*Geyər olsun, hünərlidir!*

Bayandır xanın Ağ meydanında bu oğlan cəng etmişdir. Bir buğa oldürmüş, sənin oğlun Buğac olsun! Adını bən verdüm, yaşın Allah versün" (77, 40-41).

Diqqət edək. Buğac buğanı öldürənə qədər uşaq sayılırmış. Burada "uşaqlıq" şərtidir. Söhbət hələ igid, alp kimi qəbul olunmayan vaxtdan gedir. Buğac buğanı öldürəndən sonra ad alır. Bu ad onun alplıq

adıdır. Çünki o, bu adla bərabər yeni status alır, Oğuz cəmiyyətində, sosial, siyasi, mənəvi sferalarda müəyyən yer tutur. O, təkcə quruca olaraq ad almır. Adla bərabər ona taxt, boynu uzun bədöv at, "tümən qoyun", qızıl dəvə, altun başlı ban ev, çiyni quşlu cübbə don verilir. Nə qədər ki, buğanı öldürməmişdi, yəni igidliyini sübut etməmişdi, o, bunların heç birinə malik deyildi. Demək, igidlik edib ad almaqla o, əslində yeni sosial statusa keçmiş olur və bu baxımdan, ad məhz həmin statusun göstəricisidir.

"Buğac" adında nominal olaraq "buğa" sözü var. Ancaq bütün hallarda igidlik göstərərkən alınan adın həmin hadisə ilə bağlı söz olub-olmaması artıq elmi problemdir. Bu baxımdan, digər hallara diqqət etmək gərəkdir.

"Kitabi-Dədə Qorqud"da uşaqlıqdan igidliyə keçmə statusu on beş yaşda olur. Başqa sözlə, Oğuz cəmiyyətində belədir. Ancaq bu o demək deyildir ki, on beş yaş bütün türk ənənəsi üçün sabitdir. Məsələn, Orxon – Yenisey yazılarından məlum olur ki, göytürklərdə adalma yaş həddi ondur (42, 20). Altay – Türk nağıllarına əsaslanan Bahəddin Ögəl yazır ki, "… çocuqlara adqoyma törəni (mərasimi – M.C.) yeddi yaşında yapılırdı. Çünki çocuq kəndinə (özünə – M.C.) bir ad bulmaq üçün qantökmə və başkəsmə imkanını ancaq yeddi yaşında bula bilirdi. 17 yaş isə bir bahadırın ən olğun çağıdır (121, 312).

Göründüyü kimi, adalma türklərdə bir sabit element olmaqla müxtəlif yaş hədləri ilə bağlı

olmuşdur. "Kitabi-Dədə Qorqud"da da bunun yaş həddi var – on beş yaş.

"Kitabi-Dədə Qorqud"da Beyrəyin uşaqlıq adlarının həm "Bamsı", həm də "Bozoğlan" olduğunu görürük. Onunla bağlı olan boydan bəlli olur ki, Baybörə oğlu olandan sonra tacirləri Rum elinə göndərir ki, oğlu üçün yaxşı-yaxşı ərməğanlar alsınlar. On altı il keçir. Tacirlər geri qayıdarkən Qara Dərvənd ağzında istirahət etmək istəyirlər. Kafirlər tökülüşüb onları qarət edirlər. Tacirlərdən biri qaçıb Oğuz elinə xəbər çatdırmaq istəyir. Yolda qırx igidi ilə məclis qurub əyləşən Bamsıya rast gəlir. Bamsı yoldaşları ilə hücum edib kafirləri qırır və tacirlərin mallarını qaytarır. Tacirlər əvəzində ona hədiyyə vermək istəyirlər. Bamsı onlardan tacirlərin elə onunçün aldıqları ayğırı, yayı, gürzü istəyir. Ancaq Bamsının bu hədiyyənin onun üçün alındığından və tacirlərin onun atasının buyruğu ilə Ruma getdiklərindən xəbəri yoxdur. Tacirlər də onu tanımırlar. Bamsıya bildirirlər ki, bu hədiyyələr Baybörənin oğlu üçün alınıb. Bamsı inad etmir.

Tacirlər Baybörənin evinə gəlib burada oğlanı tanıyırlar. Onun igidliyini atasına danışırlar.

"Baybörə bəy aydır: "Mərə, bənim oğlum başmı kəsdi, qanmı dökdi?"

"Bəli, baş kəsdi, qan dökdi, adam axtardı!" – dedilər. "Mərə, bu oğlan ad qoyasınca varmıdır?" – dedi. "Bəli, sultanım, artıqdır", - dedilər.

Baybörə bəy Qalın Oğuz bəglərini çağırdı, qonaqladı. Dədəm Qorqut gəldi, oğlana ad qoydı. Aydır:

*Ünüm anla, sözüm dinlə, Baybörə bəg!*
*Allah Taala sana bir oğul vermiş, tuta versün!*
*Ağır Sancaq götürəndə müsəlmanlar arxası olsun!*
*Qarşı yatan qara qarlu dağlardan aşar olsun!*
*Allah Taala sənin oğluna aşut versin!*
*Qanlu-qanlu sulardan keçər olsa, keçit versün!*
*Qalabalıq kafirə girəndə*
*Allah Taala sənin oğluna fürsət versün!*
*Sən oğlunu "Bamsım" deyü oxşarsan;*
*Bunun adı Boz ayğırlı Bamsı Beyrək olsun!*

Adını bən verdüm, yaşını Allah versün – dedi.

Qalın Oğuz bəgləri əl götürdülər, dua qıldılar: "Bu ad bu yigidə qutlu olsun! – dedilər" (77, 55).

İstər Buğaca, istərsə də Beyrəyə adı Dədə Qorqud verir. Demək, adqoyma mərasimində ən həlledici ünsür odur. Kimin yeni statusa layiq olub-olmamasını müəyyənləşdirir. O, həm Buğac, həm də Beyrək üçün "soylama" deyir. Ancaq soylamaların məzmunu misallardan göründüyü kimi, eyni deyildir. Buğacla bağlı soylamada onun adla bərabər hansı hüquqlar və s. əldə etməsi aydın görünür. Burada isə alplıq sosial statusunun hər hansı bir "şərtlərindən", "imtiyazlarından", yaxud "hüquqlarından" söhbət getmir. Çox ciddi bir məsələ aydın olur ki, Beyrək bu adı alana qədər adsız deyilmiş, atası onu "Bamsı" adlandırırmış. Demək, oğuz igidləri "baş kəsib, qan

töküb" ad alana qədər adsız qalmırmış. Onlar alp igid olana qədər başqa adlarla – uşaqlıq adları ilə çağırılırlar. Bu baxımdan, baş kəsib, qan tökəndən, yəni igidliyini sübut etdikdən sonra aldıqları adlar məhz igidlik, alplıq adlarıdır. Oğuz insanın hər mərhələsinin adı var və bu ad onun oğuz cəmiyyətində mövcüd olduğu sosial sfera, iyerarxik pillə ilə bağlıdır.

Yuxarıda adqoyma ilə bağlı bir məqam üzə çıxdı. Buğacın adı onun öldürdüyü "buğa" ilə əlaqələnə bilir. Lakin Beyrək adı, bu mənada, onun igidliyi ilə necə əlaqələnir, bu, aydın olmur. Bu cəhətdən Basatın adı da maraqlı material verir. Səkkizinci boyda Oğuz elinin üstünə yağı gəlir, oğuzlar qaçmalı olurlar. Bu vaxt Aruz Qocanın balaca oğlu duşub qalır. Bir aslan bunu götürüb bəsləyir, böyüdür. Oğuzlar yenə yurdlarına qayıdırlar. Oğuz xana xəbər gətirirlər ki, "Xanım, sazdan bir aslan çıqar, at urar, apul-apul yüriyişi adam kimi, at basuban qan sümürər".

Aruz bildirir ki, bu, onun oğludur. Gətirirlər. Oğlan evdə durmur. Qaçıb aslanın yanına gedir. "Dədəm Qorqud gəldi, aydır: Oğlanım, sən insansan. Heyvanla müsahib olmağıl. Gəl, yaxşı at bin. Yaxşı yigitlər ilə at yort, - dedi. Ulu qardaşın adı Qıyan Selcikdir. Sənin adın Basat olsun. Adını mən verdim, yaşını Allah versin" (77, 90).

Göründüyü kimi, advermə dastanlarda motiv səviyyəsindədir. Bu, o deməkdir ki, motiv formullarından təşkil olunmuş dastan mətnində adqoyma özünə dayanıqlı yer tuta bilir. Ən əsası, "Kitabi-Dədə Qorqud" dastanı boyları səviyyəsində

bu hal üç dəfə təkrar olunur. Bu, həmin motivin dastanın strukturu ilə bağlı olmasına dəlalət edir. Bir element isə strukturla bağlıdırsa, demək, onda arxetipik, yəni mifoloji mənşəli olması şübhə doğurmur. K.Levi-Stros yazır ki, … nə üçün miflərdə… eyni bir ardıcıllığın ikiləşməsi, üçləşməsi , yaxud dördləşməsinə rast gəlinir. Əgər bizim hipotez qəbul olsa, bu suala cavab vermək çox sadədəir. Təkrarlama xüsusi funksiya daşıyır, məhz mifin strukturunu aşkara çıxarır (171, 206).

Levi-Strosun dedikləri işığında "Kitabi-Dədə Qorqud"dakı təkrarlanan advermə ardıcıllığına (hadisə - presedentinə) baxsaq, görərik ki, burada da təkrarlama məhz mifin strukturunu aşkara çıxarır. Bu baxımdan, adqoyma dastan mətnində mifin motivləşməsi, mifik strukturun epik struktura çevrilməsi deməkdir ki, burada da bu çevrilmə transformativ (yeni formaya keçid) şəkildə baş vermişdir. Adqoymanın mifoloji strukturunun epik struktura keçməsindəki "trans" hadisəsi bütün hallarda transformativdir, transmisiyon deyildir. Burada heç bir transmissiyon keçiddən, yəni birbaşa, forma, şəkil dəyişməsiz keçmədən söhbət gedə bilməz. Canlı mifoloji şüurun parçalanaraq tarixi şüura keçməsi ilə mifoloji formalar tarixi şüurun formalarına keçir. Bu baxımdan, keçid transformativdir.

"Kitabi-Dədə Qorqud"da advermənin Dədə Qorqudla bağlanması, onun nominasiya funksiyasının mərkəzində durması bu obrazın özünü dastan və mif qatları arasındakı xronotop məsafəsində bir mediator,

vasitəçi obrazında görməyə imkan verir. Mifdən dastana gələn yol advermə motivində özünün müxtəlif transformasiyalarına səbəb olmuşdur. Çünki advermə bir epik-mifoloji motiv kimi öz məzmun strukturunda Ad verəni, yəni Dədə Qorqudu mütləq şəkildə nəzərdə tutur. Sonrakı mətnlərdə – "Koroğlu" dastanı, məhəbbət dastanları və s. biz məhz Dədə Qorqudu görməsək də, onun əvəzləyicisini görürük. Əslində bu əvəzləyici elə transformativ Dədə Qorquddur. Dədə Qorqudun adı ilə bağlanan şeir parçası bunu funksiya baxımından daha adekvat görməyə imkan verir:

*"Gəlinə ayıran demədim mən Dədə Qorqut,*
*Ayrana doyuran demədim mən Dədə Qorqut,*
*İynəyə tikən demədim mən Dədə Qorqut,*
*Tikənə sökən demədim mən Dədə Qorqut.*

Dədə Qorqud adı ilə bağlanan bu sözlər Qorqutun aləmdə olan nə varsa hamısına ad qoyduğuna dair Azərbaycan türkləri arasında dolaşan rəvayətin məzmunu və həmçinin onun advermə funksiyası ilə də səsləşir (78, 16).

Beləliklə, advermə motivi bir sıra obrazlarla bağlı olsa da, dastan-mif konteksti həmin obrazlar silsiləsini diaxronik müstəvidə götürməyi tələb edir. Diaxronik başlanğıc Azərbaycan türklərinin epik düşüncə arxetiplərində Dədə Qorquda bağlanır. Bu baxımdan, dastan mətnlərindəki müxtəlif obrazlar məhz öz advermə funksiyalarına görə Dədə Qorqud arxetipindən çıxmışlar.

Dədə Qorqud bir arxetip olaraq yeganə deyildir. İndiki halda məsələyə diaxron yanaşma bu obrazı verir.

Sinxron yanaşmada Dədə Qorqudla bir sırada duran paralel obrazların olması mümkündür və var. Bu üzdən, Dədə Qorqudun özü həm advermə, həm də digər magik-mifoloji funksiyaları baxımından daha ilkin inamlarla bağlıdır. M.Seyidov yazır ki, "Günəşin, Günəş tanrısının mifik səciyyəsi ilə Qorqutun səciyyələri arasında mifoloji bağlılıq özünü göstərir. Qorqut istər öz ata-babasına, istərsə də adına görə əski mif yaradıcısı Günəşin, Günəş tanrısının adqoyma, hakimiyyət vermə, hər şeyi bilmə xüsusiyyətlərini əxz etmişdir. Bax buna görə də Qorqut *qeybdən xəbər verir, uşaqlara ad qoyur* (seçmə bizimdir – M.C), igidlərə taxt, bəylik tələb edir, qəhrəmanları (Bəkili) şərəfli vəzifəyə göndərir.

Qorqud ilkin çağlarda mifik aləmlə daha çox bağlı olmuş və Günəşin, odun mifik səciyyələrinə də yiyələnmişdir (101, 180-181; 125, 17). Beləliklə, mif Qorqud obrazının strukturu vasitəsi ilə mif-dastan diaxronik xronotopu boyunca dastanların konkret motivinin advermə arxetipik əsasında durur.

"Koroğlu" dastanında advermə funksiyası Koroğlu obrazının özü ilə bağlıdır. Baxmayaraq ki, burada advermə motivi çox güclü epik dəyişikliklərə uğramışdır, ancaq belə hesab edirik ki, türk epik sistemi çevrəsi boyunca götürdükdə, Koroğlu ilə bağlı ən epizodik advermə belə mif-dastan kontekstindən qıraqda ola bilməz. Koroğlunun Keçəl Həmzəyə advermasini yada salaq.

"Xanımlar, dəlilər nəyə buyurardılarsa, gedirdi. Getdiyi işi yaxşı da yarıdardı. Belə zirəkliyinə görə

get-gedə dəlilərin, xanımların yanında Keçəl Həmzənin hörməti də artırdı.

Koroğlu da Keçəl Həmzənin diribaşlığını görüb, onun adını dəyişdirib Kaloğlan qoydu" (79, 176).

Göründüyü kimi, dastanda Keçəl Həmzənin adının dəyişdirilib Kaloğlan edilməsinin motivləndirilməsi (səbəbləndirilməsi) tamamilə real səciyyə daşıyır. Ancaq bu real səciyyənin özündə də mühüm məqam var. Çənlibelə Keçəl Həmzə kimi gəlmiş bu adam tez bir zamanda oradakıların hörmətini qazanır. Məhz buna görə, yəni zirək, diribaş, adamyarıdan olduğu üçün Koroğlu onun adını dəyişir. Onun "Keçəl Həmzə" olaraq çağırılmasını istəmir. Bunun səbəbi yenə də inisiasiya mərasimlərinə bağlanır. Daha doğrusu, burada birbaşa olaraq inisiasiya mərasimi yoxdur. Yəni "Kitabi-Dədə Qorqud"da olduğu kimi, qəhrəmanın müəyyən yaş həddində qan töküb, baş kəsib, ad almaq zərurəti yoxdur. Ancaq eyni tipoloji hal var. "Kitabi-Dədə Qorqud"da qəhrəmanlar öz igidlikləri ilə sübut edirlər ki, onlar yeni statusa keçməyə hazırdırlar. "Koroğlu" eposunda da bu vardır. Biz burada iki status görürük:

*1) "Keçəl Həmzə" adı ilə işarələnən status:*

Bu statusa görə Keçəl Həmzə onun-bunun lağ etdiyi, insanların ciddi bir adam olaraq qəbul etmədiyi, istehza, zarafat obyekti olan bir sosial pillədir;

*2) "Kaloğlan" adı ilə işarələnən status:*

Bu statusa görə Kaloğlan Çənlibeldə yaşayanlar tərəfindən normal qəbul edilən, zirək, diribaş, ağıllı, fərasətli, hamı tərəfindən normal yanaşılmaya məruz qalan insanın sosial pilləsindədir.

Göründüyü kimi, statusdəyişmə göz qabağındadır. Bu statusdəyişmə Koroğlu tərəfindən həyata keçirilir. Yəni Keçəl Həmzənin nominativ statusunu dəyişərək Kaloğlan statusuna keçməsini məhz Koroğlu təsbit edir ("sanksiyalaşdırır"). Onun bu işi birbaşa Dədə Qorqudun funksiyasıdır. Təbii ki, biz "Koroğlu" – "Kitabi-Dədə Qorqud" paraleli apardığımız üçün onları birləşdirən digər xətlərə toxunmuruq. Predmet addəyiş-mə olduğu üçün bu cizgidən görünən tipologiyaya diqqət verilir. Buradan da açıq görünür ki, ən azı advermə funksiyası baxımından Koroğlu ilə Dədə Qorqud bir semantik sırada dayanırlar.

Məhəbbət dastanları səviyyəsində "Qurbani" dastanına müraciət edək (dastanın Diri versiyası): "Keçmişdə Araz sahilində Diri dağı deyilən yerdə Fərəməz bəy adlı bir bəy olurmuş. Bu bəyin çoxlu mal-dövləti varmış, ancaq züryəti yoxmuş. Fərəməz bəy mal-dövlətinin əksəriyyət hissəsini paylayır yetim-yesi-rə. Allahın rəhmi gəlib qurban günündə ona bir oğul verdi. Uşaq qurban günü olduğu üçün adını qoydular Qurbani (21, 79).

Eyni situasiya ilə "Novruz" dastanında qarşılaşırıq. Burada da övladsız olan Kərim paşa mal-dövlətinin yarısını fağır-füqəraya paylayır ki, bəlkə, Tanrının ona rəhmi gəlsin: "aylar, günlər keçdi, paşanın bir qəşəng, göyçək oğlu oldu. Oğlan Novruz

bayramı günü anadan olduğu üçün adını da Novruz qoydular" (21, 153).

Biz burada adqoyma motivinin çox maraqlı situasiyası ilə üzləşirik. Qabaqcadan deyək ki, bütün maraqlılığına (yəni fərqli situasiya təqdim etməsinə) baxmayaraq, burada da advermə mif-dastan kontekstində nəzərdən keçirdiyimiz mifoloji – epik kompleksdən qırağa çıxmır. Əksinə, hər şey digər hallarda olduğu kimi həmin kompleksin məntiqinə tabedir. Təhlil edək.

Qeyd edək ki, "Qurbani" dastanı Azərbaycan məhəbbət dastanları içərisində ən çox təsəvvüfləşmiş dastanlardandır. Bu üzdən, Qurbani haqq aşığıdır. "Haqqa aşiqlik təsəvvüf davranış kodudur. Yəni qəhrəman haqqa – Allaha aşiqdir. Onun aşıqlığı Tanrıdan gəlir" (45, 58). Onun Qurbani adının təsəvvüfi davranış koduna uyğun olması, yəni təsəvvüfi – irfani anlam daşıması şübhəsizdir. M.Qasımlı yazır ki, ozanın sənət meydanını aşığa təhvil verməsiylə el sənətkarının yaradıcılıq aləminə təriqət səciyyəli söz-terminlər daxil olmağa başlayır və onlar get-gedə linqvistik və poetik aktivliyi artırıb bir növ normativ keyfiyyət kimi təzahür edir. Hətta bu axın o dərəcədə güclənir ki, şeir sistemi və dastan epik mühitiylə bərabər, klassik aşıq təxəllüslərinin əksəriyyəti də sufi məzmunlu sözlərlə əhatələnir: "miskin", "qul", "divanə", "öksüz-yetim", "səfil" kimi təxəllüslər (təxəllüs təyinləri) Tanrı qarşısında bəndə "miskin"liyini göstərir: aşığın Tanrının "qulu" olduğunu bildirir… (85, 125).

Deyilənlər fonunda Qurbani adının da Tanrı mənşəli olduğu görünür. Yəni bütün hallarda ən son transformativ lay kimi Qurbani adının təsəvvüfi boyası görünür. Ancaq dastandan göründüyü kimi, dastançı özü bunu məhz Qurban bayramı günü ilə əlaqədar götürür və bu, sistem şəklindədir, təkrarlanan struktur olaraq üzə çıxır: Novruz adı da Novruz bayramı günü ilə əlaqələnir.

Qeyd etməliyik ki, istər Qurban, istərsə də Novruz bayramı etnik-mənəvi düşüncədə müqəddəs günlərdir. Arxetipik planda bu günlər sakral dəyərlərlə bağlı günlərdir. Onların sakrallığı həmin günlərlə əlaqələnə bilən bütün hadisələrə sakral, qeyri-adi, ilahi dəyər vermiş olur. Bu baxımdan yanaşsaq, Qurban və Novruz adlarının bu şəkildə müqəddəs günlərlə əlaqələndirilməsi məhz mifik-sakral dəyərlərlə bağlıdır və bu, məhəbbət dastanları mətnində belə özünü qoruya bilib.

Adqoyma dastanlarda hansı situasiya ilə bağlı olursa-olsun, möhkəm epik-mifoloji məntiq daxilindədir, yəni o kompleksə daxildir. Başqa cür demiş olsaq, biz dastanlarda, nağıllarda və başqa epik mətnlərdə cürbəcür adqoyma situasiyaları ilə üzləşə bilərik. Onların fərqli hadisələrdə təqdim olunması epik-mifoloji kompleksdən qırağa çıxmalarını təsdiq etmir. Əksinə, bütün hallar məntiqə tabedir. "Alı xan-Pəri" dastanına diqqət edək.

Dastanda deyilir ki, Hacı Sayadın övladı yox imiş. Ac qarınları doydurur, yalavacları geyindirir. Ekiz uşaqları olur: bir oğlu, bir qızı. Məsciddən çıxıb

evə gələndə təzə doğulub atılmış bir uşağa rast gəlir. Onu evinə gətirir. Arvadı saxlamağa razı olmur. Qonşudakı qarıya verirlər. Üç gündən sonra uşaqlara ad qoymaq məqamı gəlib çatır. Bütün qarıları yığırlar:

"Pəricahan qarı dedi:

- Oğlanın adını mən qoyacağam. Bax, bunun adı olsun Sicimqulu. Ömrü də sicim kimi uzun olsun…

… Nurcahan qarı gəldi, dedi:

- Oğlanın adını Örkənqulu qoyacağam. Həm enlənsin, həm də uzansın…

… Sonra Zərcahan qarı gəldi, dedi:

- Oğlanın adını qoyacağam Çatıqulu.

Bunu da qovdular. İndi də gəldi Napak qarı:

- Oğlanın adını qoyacağam Poladqulu ki, heç ölməsin.

Köpək qarı bunu eşidən kimi irəli gəlib dedi:

- Oğlanların birini Dəmirqulu, birini də Poladqulu qoyacam ki, adları kimi möhkəm olsunlar.

Bunu da çıxardıb İpək qarını çağırdılar. İpək qarı dedi:

- O qarılar qələt eliyir. Mən oğlanın adını qoyuram Məhəmməd, qızın adını Pəri, o tapılanın da adını Tapdıq" (21, 382-383).

Burada diqqət çəkən məqam adların verilməsində bir detalın inisiasiya mərasimləri ilə bağlanmasıdır. Göründüyü kimi, hər qarı öz xislətinə uyğun adlar qoyur. Bu, sırf epik situasiyadır. Ancaq mühüm olan detal adları qarıların verməsidir. Qarı obrazı burada inisiasiya mərasimlərinə bağlanır. Demək olar ki, butavermə motivli bütün məhəbbət dastanlarında

buta almış qəhrəman huşdan gedəndən sonra, onu ayıltmaq məqamında başının üstündə qarı olur. Bu, çox sürəkli, dayanıqlı, ardıcıl bir detaldır. Qəhrəmanın butavermə prosesindən keçməsinin inisiasiya mərasimləri ilə bağlı olduğu barəsində ətraflı yazdığımız üçün (45, 96 və s.) üzərində geniş dayanmırıq. Sadəcə olaraq "butavermə qəhrəmanın ölərək o biri dünyaya getməyini, ilahi qüvvələrdən yeni status almağını və təzədən yeni statusda bu dünyaya gəlməyini simvollaşdırır. Təbii ki, dünyaya "təzədən gələn" – "doğulan" qəhrəman yeni statusuna uyğun ad almalıydı. Keçid (inisiasiya) mərasimlərindən keçmiş neolit – yeni gənc adam cəmiyyətdə artıq təzə sosial qrupa aid olur (45, 96). Bu baxımdan, qarıların sözü gedən dastanda uşaqlara ad verməsi həmin inisiasiya mərasimləri ilə bağlıdır. Düzdür, "Alı xan-pəri" dastanında bu uşaqlar hələ üç gündür ki, doğulmuşlar, ancaq qarı obrazları onları keçid mərasimlərinə bağlayır. Çünki butavermə motivli dastanlarda buta alaraq bayılmış qəhrəmanın üzərinə ənənəvi olaraq eyni qarıları (İpək qarı, Köpək qarı, Napak qarı və s.) toplayırlar və onlar hərəsi ağzına gələni deyir, eynilə bu dastanda olduğu kimi, onları bir-bir qovurlar və axırda İpək qarı vəziyyətdən çıxış yolu tapır. "Qarı butavermə mərasimində buta almış qəhrəmanın butadan ayılma prosesinin (zəruri, daimi, mütləq – M.C.)" iştirakçısıdır. Qarı-qadının əski inisiasiya mərasimində konkret olaraq hansı rol oynadığını indi araşdırmaq çox çətindir… Ancaq

qarının butavermədəki statik rolu onun məhz mərasim səciyyəli obraz olduğunu göstərir" (45, 173).

Demək, qarı butavermə prosesində inisiasiya ilə bağlı rolunu yerinə yetirdiyi kimi, "Alı xan-Pəri" dastanında da eyni mərasimlə bağlı funksiyasını yerinə yetirir. Bu baxımdan, dastandakı advermə prosesi bütün realistik cizgiləri ilə bərabər, epik-mifoloji görüşlərlə bağlıdır. İnisiasiya mərasimləri ölüb-dirilməni nəzərdə tutmaqla bütün hallarda real, yaxud simvolik doğulmanı səciyyələndirir. İndiki halda da motiv təzəcə doğulmuş uşaqlarla, yəni doğumla bağlıdır.

Advermə motivi mifoloji komplekslə bağlılığını məhəbbət dastanlarında müxtəlif situasiyalarda göstərir. "Aşıq Qərib" dastanında Qəribin ilk adı Rəsuldur. O, butasının arxasınca Tiflisə gəlir və burada qəhvəxanada biz onu artıq Qərib adı ilə görürük. Qərib təsəvvüfi addır, onun irfani məzmunu və semantikası var. Lakin bu addəyişmə öz arxetipik motivləri baxımından mifoloji səciyyəlidir. Ona görə ki, Rəsulun adı real səbəblərlə dəyişmir. O, buta aşiqi olaraq yeni statusa keçir və yeni statusa uyğun ad alır. Bunun epik arxetipi inisiasiya ilə bağlıdır.

Yaxud "Əsli-Kərəm" dastanında on beş yaşlarına qədər Kərəmin adı Mahmud, Əslinin adı Məryəmdir. Bir-birini sevən bu iki gənc görüşürlər. Ayrılıq məqamında onların arasında belə bir söhbət olur:

"- Oğlan, kərəm elə, tez çıx get… babam gəlib bizi görməsin.

Mahmud dedi:

- Gedərəm, ancaq gərək bir xahişimi yerinə yetirəsən.

Məryəm dedi:

- O nə xahişdir?

Mahmud dedi:

- Mən istəyirəm ki, sənin adın Əsli olsun.

Məryəm gördü ki, Mahmud əl çəkməyəcək, çar-naçar razı oldu.

Mahmud dedi:

- İndi ki, sən mənim sözümü yerə salmadın, adını Əsli çağırmağa razılıq verdin, bundan sonra sən də mənim adımı Kərəm çağır" (33, 73-74).

"Əsli və Kərəm" dastanının təsəvvüfi-irfani boyalı bir dastan olduğunu nəzərə alsaq, buradakı addəyişmənin butavermə motivi bir proses olduğu aydın görünür. Ancaq göründüyü kimi, adların dəyişdirilməsi tamamilə reallaşdırılmış, gerçək situasiya ilə motivləndirilmişdir. Ancaq bütün hallarda buradakı advermə məhəbbət dastanlarının hamısı üçün ümumi olan epik-mifoloji kontekstdən qırağa çıxmır.

Dastançı əskilərdən gəlmə süjeti yenidən işlərkən, təbii ki, arxaik motivlərin mifoloji-epik semantikasından xəbərsizdir. Və bütün hallarda öz şüuru səviyyəsində işləyir.

"Lətif şah" dastanında dərviş Dərdli şaha alma verib bununla oğlu olacağını söyləməklə bərabər, həm də qəti şəkildə tapşırır ki, "mən gəlməmiş oğlanın adını qoymazsınız" (21, 222).

Dərdli şahın oğlu olur, adını on yaşına qədər sadəcə olaraq Şahzadə çağırırlar. Dərdli şah arvadının təkidi ilə adqoyma mərasimi keçirməli olur. Hərə uşağa bir ad təklif edir: "… Bu qalmaqal içində birdən bir yaşıl əbalı, nurani, ağsaqqal dərviş içəri girib salam verdi, ayaq üstə: "Şahzadənin adını Lətif şah qoyuram" – deyib yox oldu… Bu zaman padşah barmağını dişləyib başa düşdü ki, həmin bağda alma verən dərviş imiş" (21, 223).

B.Abdulla yazır ki, Tanrının mələkləri yaşıl geyimli olurlar. O, fikrini yazılı poetik ənənədən, Nizamidən ("Yeddi gözəl") gətirdiyi belə bir örnəklə möhkəmləndirir:

*Səmadan atını çaparaq ucal,*
*Bakir mələkləri tut kəməndə sal.*
*Göyün ulduzları izləyir səni,*
*Yaşıl geyimlilər (seçmə biz.. – M.C.) gözləyir səni.*
(9, 70)

Göründüyü kimi, ad verən dərvişdir və həmin dərviş yuxarıda yazdığımıza uyğun olaraq, Dədə Qorqudla eyni funksiyası baxımından bir semantik sırada durur.

Deyilənlər göstərir ki, advermə Azərbaycan dastançılığında öz arxetipləri səviyyəsində bütün hallarda mifoloji görüşlərdən gəlir. Adın kosmoloji epoxoda yaşayan insanlar üçün birbaşa olaraq mifoloji görüşlərlə bağlanması, sakral funksiyası onu xüsusi olaraq dəyərli etmiş olur. Bu cəmiyyətdə ad sakral hadisədir, onun sakral, sosial, mənəvi və s. statusları var. Bu statuslar təsadüfi olmayıb bir sistem

təşkil edir. Bu baxımdan, həmin sistem epik kompleks olaraq özünü dastanlar səviyyəsində də qoruya bilib.

Dastan – mif konteksti butavermə motivi ilə də sıx bağlıdır. Bu barədə biz ayrıca bir araşdırmamızda geniş danışmışıq (45, 5-105). Bu baxımdan indi bəzi məqamlara diqqət verəcəyik.

Butavermə dastanlarda təsəvvüfi-irfani mənşəlidir. Ancaq bu motiv öz mifoloji əsaslarına malikdir. M.H.Təhmasib "buta" sözü barəsində yazır ki, onun "dəvə, qönçə, gül, budaq, nişan … və s. bir sıra mənaları vardır" (107, 67).

V.V.Radlov bu sözün "şüvül", "çubuq", "hörük", "çiçək hörüyü", "şaxələnmə", "qönçə", "badamvari naxış" mənalarından bəhs etmişdir (195, 1836).

M.Seyidov buta sözü ilə bağlı yazır ki, "əsasən yazla bağlı qönçə, şaxələnmə, artımdır. Bu, Dünya ağacı mifinin atributu, əlamətidir. Dünya ağacı kainatın yaradıcısı olduğu üçün o həm də yaranışın, artımın da mifi sayılmışdır. Deməli, onun atributu, əlaməti – buta gənclərə verilərkən onlar bir-birini sevməlidirlər ki, yeni ailə yaransın, artım olsun" (101, 131).

Buta yuxu ilə bağlı olur. Yuxu "Kitabi-Dədə Qorqud"dan bəlli olduğu kimi, "kiçik ölüm", yəni "balaca ölüm" sayılır. Bu o deməkdir ki, oğuzlar yuxunu ölüm saymaqla, yuxu ilə ölümü eyniləşdirməklə onların xassələrini bir-birinə aid edirdilər. Ölüm müasir düşüncədə sonlu, yuxu isə – sonsuzdur. Yəni ölməklə insanın həyatı qurtarır, yuxuya getməklə isə qurtarmır; insan yuxudan ayılır. Demək, oğuzlara görə (təbii ki,

arxaik təsəvvürlərində) ölüm yuxu kimidir, yəni yuxuya gedən insan yuxudan ayıldığı kimi ölümdən də ayılır. Bunu inisiasiya mərasimləri baxımından şərh etsək, inisiasiya mərasimlərində insanın ölüb-dirilməyi yuxu kimi də təsəvvür olunurmuş. Butavermədə də qəhrəman yuxuda olur (yəni ölür), sonra yuxudan ayılır (yəni dirilir).

M.Həkimov yazır ki, məhəbbət dastanlarımızdakı röya bilavasitə maddi aləmin gerçəkliyi ilə bağlıdır. Röyada buta alma fizioloji oyanma ilə əlaqədar olan ideal bir təzahürdür ki, aşiq məşuqəsini ideya gerçəkliyində görə bilir (65, 140).

Butavermədə əsas ünsür butanı verəndir. "Qurbani" dastanından oxuyuruq:

*Bir kimsənə gəldi mənim üstümə,*
*Yazılı şəninə ya minəl-əta!*
*İmam, ol damadi-Əhmədi-Mürsəl,*
*Doldurub camını eylədi əta.*

*Tərəhhüm eylədi Abi-Kövsərdən,*
*Onunçün keçmişəm can ilə sərdən,*
*İstədim mətləbim payi-Qənbərdən,*
*Kəramət eylədi mənə bir buta* (21, 11).

Göründüyü kimi, buta verən Həzrət Əlidir. "Abbas-Gülgəz" dastanından eyni situasiyaya diqqət edək:

*Ağalar ağası, ağalar xası,*
*Ana, Mövlam mənə buta veribdi.*
*Düldülün sahibi, Qənbər ağası,*
*Ana, Mövlam mənə buta veribdi.*

*Haca gedər hacıların hacısı,*
*Bilər olmaz şirin ağzım acısı.*
*Mənim yarım Məmməd bəyin bacısı,*
*Ana, Mövlam mənə buta veribdi.*

*Mənim ağam Şahi-mərdan Əlidi,*
*Hökm eyləsə, düşmən bağrın əridi.*
*Abbas deyər: Yarım adı Pəridi,*
*Ana, Mövlam mənə buta veribdi.* (33, 263-264)

Burada da buta verən Həzrət Əlidir. Ümumiyyətlə götürdükdə, buta verən obraz-kompleksi təşkil edir: Ağa, Həzrəti Əli, Şahi-mərdan, Mövla, Xızır Nəbi, Göy atlı, Boz atlı və s. Biz bu barədə danışdığımız üçün indi qısaca qeyd edək ki, təsəvvüfi-irfani məzmunlu dastanlarda Həzrət Əli kultu çox geniş yayılmışdır. Bu üzdən, həmin ad sırasında əksəriyyət Həzrət Əlini bildirir. Xızır Nəbi də onunla bir sırada dayanır. Funksiya eyniliyi onları bir sıraya qatmış olur. Qeyd etməliyik ki, bu obraz-kompleksdə ən müasir, ən son qat məhz Həzrət Əli ilə bağlı qatdır.

Butaverən obrazı, mif – dastan kontekstindən baxdıqda, mifoloji səciyyəli hami obrazı kimi görünür. Onun məhəbbət dastanı mətnindəki bütün funksiyası hamilik kimi səciyyələndirilə bilər. Həmin funksiyanın mifoloji səciyyəli adlandırılması təsadüfi deyil.

Əvvəla, məhəbbət dastanlarındakı butaverən – hami obrazı və onunla bağlı süjet-epizodlar struktur

hadisəsidir. Çünki müxtəlif dəyişmə və inkişaf zamanı dəyişməyən, dayanıqlı münasibətlər kompleksindən gəlir. Məhəbbət dastanı mətnində isə işarəvi, statik, formul səciyyəli olmayan heç nə yoxdur. Bu formulların hamısı mifdən gəlir. Çünki təkcə məhəbbət dastanları üçün deyil, ümumiyyətlə dastan üçün mif ən uzaq keçmiş, ən arxaik başlanğıc deməkdir. Mifdən dastana keçid, təbii ki, birbaşa olmayıb. Miflərin epoxal fenomen olaraq dağılması ilə onların itməsi yox, yeni formalara keçidi baş verib. Miflər parçalanarkən verdiyi şaxələr genişdir. Bunlardan mühüm bir qismini epik mətnlər təşkil edir. Bu baxımdan, müasir dastanlarımız ən arxaik mətnlərdən, yəni arxaik dastanlardan baş alıb gəlir. Dastana doğru inkişaf prosesində mətnlər real cizgilər kəsb edir. Yəni epik yaradıcılıq öz tarixi inkişafı boyu mifoloji olanı dağıtmağa, onu gerçəyə çevirməyə, əslində isə öz çağının məntiqinə uyğunlaşdırmağa çalışmışdır. Ancaq bu prosesin necə getməsindən asılı olmayaraq, mifoloji lay dastan mətninin bütün strukturunda arxeplan kimi qalmaqda davam edir. Çünki mifoloji lay dastan strukturunun skeletini təşkil edir. Elə bu səbəbdən mifoloji layı dastan mətnində həmişə görmək, üzə çıxarmaq mümkündür. Bu deyilənlər məhəbbət dastanlarındakı butaverən – hami obrazları ilə bağlı bütün statik, formulvari örnəklərin hamısına aiddir.

Mif-dastan keçidində baş vermiş bütün proseslər hami obrazı ilə də əlamətdardır. Yəni hami obrazı mif-dastan keçidinin bütün mərhələlərindən keçib. Bu

baxımdan, məhəbbət dastanlarındakı Həzrət Əli-Şahımərdan-Ağa-Mövla-Dərviş, Göy atlı-Xızır obraz kompleksi məhəbbət dastanlarında sabit struktur hadisəsi olmaqla təkcə bu mətnlərlə məhdudlaşıb qalmır. Mifdən bu obraza gələn yol boyunca baxsaq, biz hami obrazının hansı mərhələlərdən keçdiyini aydın görərik. Əlbəttə, bu, ayrıca bir araşdırma mövzusudur. Ancaq mövzumuz bu məsələyə imkan daxilində toxunmağı tələb edir.

Mifoloji səciyyəli hami obrazlar təkcə məhəbbət dastanlarında deyil, eləcə də qəhrəmanlıq dastanlarında var. Təbii ki, müəyyən fərqlər kompleksi özünü göstərməlidir. Məsələn, "Kitabi-Dədə Qorqud"dakı Qorqud Ata belə bir hami obrazıdır. O, gizlindən xəbərlər söyləyir, oğuz elinin müşkülünü həll edir, igidlərə ad verir. Allah-taala özü onun könlünə ilham verir. Yəni Qorqud gələcəklə bağlı bütün informasiyaları Allahdan alır. Bu, onun sakral aləmlə bağlılığı deməkdir. Belə bir funksiyaya malik olmadan, o, bütövlükdə oğuz elinə hamilik edə bilməz. Qorqud Atanın tədqiqatında artıq geniş şəkildə sübut olunmuş şamanlıq funksiyası obrazın üstü islam layı ilə örtülmüş müasir ipostasında (mərhələsində) belə müqəddəs hami obrazını görməyə imkan verir. Onun istər "Kitabi-Dədə Qorqud", istərsə də paralel ənənələrdə mövcud olan ad variantlarına diqqət edək:

*a) Dədə Qorqud*
*b) Qorqud Ata*

Qorqud adını müşayiət edən hər iki söz-ad (Dədə-Ata) eyni məzmunlu olub, Dədə Qorqudun hami funksiyasını açıq şəkildə göstərir. Atalıq, yaxud dədəlik əcdadlarla, əcdad ruhlarla bağlılıq deməkdir. Məsələyə bu yöndən yanaşdıqda, hökm vermək olar ki, Qorqud obrazının adında yaşayan Ata-Dədə ünvanları birbaşa onun hamilik funksiyasının göstəriciləridir.

Məsələn, Basatın Təpəgözü öldürməsi boyunda Qorqudun hamilik funksiyası özünü aydın göstərir. Tərəgöz öz varlığı ilə əslində bütün oğuz elini məhvə məhkum qoyur. Ayrı-ayrı oğuz igidləri yox, bütöv oğuz eli məhv olmaq təhlükəsi ilə üzləşir. Bu baxımdan, Təpəgöz xaotik qüvvədir (Xaosun təcəssümüdür). Kosmosla Xaos arasında daimi və qurtarmyan mübarizə burada Basatla Təpəgöz arasında təzahür edir. Bu mübarizədə Qorqud Ata öz hamilik funksiyasını yerinə yetirir. Basatı tapıb gətirəndən sonra, Basat yenidən qaçıb qamışlığa, Qağan Aslanın (şirin) yanına gedir. Onu Oğuz elinə birdəfəlik qaytarmaq, gətirmək funksiyasını Dədə Qorqud həyata keçirir. Basat heyvan kimi yaşamağa öyrəşmişdi, aslan sazından (qamışlıqdan) ayrılmaq istəmirdi. İlk baxışdan Dədə Qorqudun buradakı rolu bəsit görünür. Yəni o gəlir, Basata məsləhət verir və Basat onun məsləhətini qəbul edib Oğuza qayıdır. Ancaq yada salaq ki, adi funksiyalı obraz deyildir. Bu baxımdan, onun bu məsləhətinə bütöv dastan miqyasında, dastanın dəqdim etdiyi oğuz etnosunun etnik varlığına yaranmış təhlükə miqyasında

baxdıqda Dədə Qorqudun rolu çox möhtəşəm görünür. Bu rol, funksiya məhz hamilikdir. O, oğuz elini qorumaq üçün Təpəgözlə danışıqlar aparır. Bundan başqa, Basatın bir igid kimi qeyri-adi doğuluş motivi ilə əlaqələnməsi, Oğuzu gözləyən çox böyük təhlükədən onu qoruyacaq bir igid kimi hazırlanma prosesi Dədə Qorqudun roluna adi dastan epizodu kimi yox, məhz hami obrazın dastan strukturundakı mühüm rolu kimi baxmağa imkan verir. Həm də burada təkrar qeyd edirik ki, nəzərə alınmalı ən mühüm məsələ hami obrazlarının, o cümlədən Dədə Qorqudun əcdad kultu, əcdad ruhları ilə bağlılığı məsələsidir. "Kitabi-Dədə Qorqud"da Dədə Qorqudun belə bir funksiyanı birbaşa daşıması, "qaiblə", yəni sakral dünya ilə bağlı olması ona hami obraz kimi baxmağa tam hüquq verir.

Hami obrazlar məhəbbət dastanlarında daha stabil və aydın cizgilərlə təsvir edilir. Başqa cür desək, hami obrazların məhəbbət dastanlarının poetik strukturunda öz daimi yerləri və funksiyası var. "Məsum" dastanına diqqət edək:

"Diləfruz yuxudan ayılıb Məsumu öz yanında görməyəndə çox ağlayıb dili tutulmuşdu. Həkimlər, loğmanlar onun dilini aça bilmirdilər. Padşah qızının lal olmağına görə Qara dərya ilə gedib-gəlməyi qadağan eləmişdi. Nə dəryanın o tərəfinə, nə də bu tərəfinə adam qoymurdular keçməyə. Padşahın məqsədi bu idi ki, qızının lal olmasını pünhan saxlasın… Bu işlərin hamısını Məsum bilirdi. Amma

atası bilmirdi. Məsum görək bu əhvalatı atasına necə başa salır:

*Məsum der: Diləfruz Pəri,*
*Dərdimdən olmuşdu dəli,*
*Həkim libasında yeri,*
*Ağlaram, ata, ağlaram.*

Xoca Əziz başa düşdü, Diləfruzu gətirmək üçün Hind şəhərinə getmək tərarükü gördü, qəflə-qatırı hazırlatdı" (70, 283-284).

Bu parçada hami obrazı birbaşa iştirak etmir. Onun varlığı nə Diləfruzun atasına, nə də Məsumun atasına bəlli deyildir. Çünki bir obraz kimi, nə Diləfruzuun, nə də Məsumun atası sakral-mifoloji hami ilə kontakt edənədək hami obrazlar statusunda deyildir. Belə bir statusda ancaq haqq aşığı ola bilər. Məhz hami obrazları ilə ünsiyyətdə olduqları üçün (bu, xüsusilə Aşiq obrazına aiddir) haqq aşiqlərinin sözləri, hərəkətləri adi mövqedən yox, məhz haqq adamının hərəkət və sözləri kimi ətrafdakılar tərəfindən qəbul edilir. Bütün bunlar isə müəyyən nəticələrə gəlməyə imkan verir. Beləliklə, məhəbbət dastanlarında hami obrazları ən azı üç statusda görünür:

*1. Birbaşa obraz statusu:*

Bu status hamilərin dastan mətnində birbaşa iştirakı ilə bağlıdır. İmam Əli, Ağa, Şahi-mərdan, Göy atlı, Boz atlı, Xızır və b. ipostaslarda (obrazın təzahür mərhələlərində) çıxış edən müqəddəs hamilər məhəbbət dastanı mətnində birbaşa obraz kimi iştirak edirlər. Bu, onların həm də perzonaj statusudur.

*2. Hamilərin buta aşiqlərinin, yəni haqq aşiqlərinin davranışlarından "görünən" statusu:*

Müqəddəs hamilər dastan qəhrəmanlarının hər birinə buta verərək, onları Aşiq və Məşuqa çevirirlər.

Ətrafdakılar bunların məhəbbətinin İlahidən gəldiyini biləndən sonra, onlarla haqq aşiqləri kimi davranırlar. Yəni Aşiq və Məşuqun bütün hərəkətləri hamilərin onlara verdikləri davranış kodu (haqq aşiqi kodu) ilə müəyyənləşir. Beləliklə, hami obrazlarının ikinci funksional statusu Aşiq və Məşuq obrazlarının davranış tipində üzə çıxır.

*3. Hamilərin dastanın qeyri-qəhrəmanlar sferasına daxil olan obrazların davranışlarından "görünən" statusu:*

Dastandakı obrazlar həm də Qəhrəmanlar və Qalanları olaraq iki semantik sahənin düzümü kimi qavranılır. Bu baxımdan, hami obrazları qalan obrazların davranışlarından da "görünür". Elə ki, sevənlərin haqq aşiqləri olması üzə çıxır, onlarla məhz haqq aşiqləri kimi davranılır. Beləliklə, qalan obrazların "şüurunda da" müqəddəs hami haqqında təsəvvür var. Bu təsəvvür hami obrazının məhəbbət dastanlarındakı üçüncü statusunu təşkil edir.

Hami obrazlarının bu müşahidə olunmuş ipostaslarını məhəbbət dastanları süjetinin müxtəlif obrazlarında görmək mümkündür. Məs., "Abbas və Gülgəz" dastanında Abbasla Gülgəzin qovuşmasında onları bir-birinə buta verən qüvvə – hami iştirak edir. Abbası iki dəfə öldürmək məqsədilə quyuya salırlar. Ancaq Abbas hər iki dəfə möcüzəli şəkildə quyudan

xilas olur. Dastanda Şah Abbasla Aşıq Abbas arasında məhz bu barədə dialoq olur.

"Şah Abbas Aşıq Abbasdan soruşdu:

- Aşıq, bunlar səni Xoca Yəqubun quyusuna salıbmışlar, nə cür olub ki, oradan nicat tapmısan?

Abbas dedi:

- Şah, dilimlə desəm, dilim quruyar, izin ver, sazla deyim.

Şah Abbas izin verdi. Abbas sazı sinəsinə basıb görək nə dedi:

*Qaldım tariyi-zəmində,*
*Guşimə bir səda gəldi.*
*Oyandım xabi-qəflətdən,*
*Qulağıma nida gəldi.*

*Dərin dəryaya dalmışdım,*
*Könlü zülmata salmışdım,*
*Hamıdan dalda qalmışdım,*
*Dadıma bir Xuda gəldi.*

Şah Abbas qəzəblənib dedi:

- Ədə, sən nə danışırsan?! Səni mən içi zəhərlə dolu quyuya salım, görək oradan necə qurtarırsan?" (70, 251-252).

Şah Abbasla Aşıq Abbasın dialoq-deyişməsində hami obrazının ikinci və üçüncü iştirak statusları boy verir. Başqa sözlə, Şah Abbas onun quyudan necə çıxmasına, salamat qalmasına, ölməməsinə təəccüb edir. Çünki Şah Abbasın adamları Aşıq Abbası quyuya salmışdılar və onların gümanında, Aşıq Abbas ölməli idi. Onu yoldan ötənlər xilas edirlər.

Ancaq bu xilaskarlıq haminin sayəsindədir. Və Aşıq Abbasın Şah Abbasla deyişməsində Abbasın hamini tərənnüm etməsi ilə hami obrazının buta aşiqlərinin davranışlarında üzə çıxan stutusu təzahürlənmiş olur. Beləliklə, hamilərin mifoloji-magik qabiliyyətləri onların təkcə sonsuz valideynlərə övlad, dastan qəhrəmanlarına buta verməsi ilə məhdudlaşmır. Onların fəaliyyəti əslində bütün dastan boyu var. Bu da hami obrazlarını mifoloji arxetiplərində xilaskarlıq funksiyasını yerinə yetirən obrazlar kimi qəbul etməyə imkan verir.

Dastan mətni müasir formasında belə müəmma, aydın olmyan, dastandakı hadisələrin məntiqi ilə izaha gəlməyən epizodlarla zəngindir. Bunun səbəbi dastanşünaslıqda aydınlaşdırılıb. Bu, epik mətnin transformativ inkişafı ilə bağlıdır. Bu gün əlimizdə olan dastanlar uzunmüddətli inkişaf yolu keçmişdir. İnkişaf prosesində ilkin mətn, təbii ki, olduğu kimi qorunub qala bilməzdi. Digər tərəfdən, inkişaf prosesində mətn öz əvvəlki, ilkin vəziyyəti ilə əlaqələrini də tamamilə kəsə bilməzdi. Dastanlar inkişaf boyunca müxtəlif mərhələlərdən keçmiş, hər keçiddə müasirləşmə baş vermiş və bu müasirləşmə realist cizgilərin daha çox kəsb olunması ilə müşayiət olunmuşdur. Beləliklə, inkişaf dastan mətnini öz əvvəlki vəziyyətindən daha da uzaqlaşdırmışdır. Ancaq dastan mətnində süjet, obraz və s. səviyyələrdə elə elementlər vardır ki, dastanın bütün inkişafı boyunca arxaik cizgilər olaraq qalmaqda davam edir. Düzdür, bu cizgilər də transformasiyaya uğramışdır.

Ancaq hər halda, həmin cizgilər müasir vəziyyətində belə, dastan obrazlarının mifoloji strukturundan söhbət açmağa imkan verir. Bu, hami obrazlarına xüsusilə aiddir.

Qeyd etməliyik ki, butaverici obrazlardan Azərbaycan dastanşünaslığında məhz hami obrazları kimi bəhs edilməmişdir. Yəni "Azərbaycan məhəbbət dastanlarının poetikası" monoqrafiyasında bəhs etdiyimiz kimi, bu obrazlar barəsində müxtəlif səviyyə və formalarda tədqiqatlar getmişdir. Ancaq onların məhz "mifoloji səciyyəli hamilik" funksiyasından bəhs edilməmişdir. Fikrimizcə, İmam Əli-Şahi-mərdan-Ağa, Boz atlı, Xızır Nəbi semantik ad sırası altında elmə məlum olan obraz-kompleksin dastan mətnindəki funksiyası mifoloji çərçivədə məhz hamilikdir. Onlar öz arxaik strukturlarında hami əcdad obrazları ilə bağlıdır.

Dastan mətnlərindəki hami obrazlarının funksiyası quyu obrazı ilə bağlıdır. Quyu epik mətnlərdə ölümün metaforik-mifoloji simvoludur. Bu obraz maginal (keçid) məkanıdır. "Məlikməmməd" nağılını yada salaq. Bu məşhur nağıldan da bəlli olduğu kimi, Yeraltına, yəni ölüm dünyasına gedən yol quyudan keçir. Məlikməmməd, digər tipli qəhrəmanlar yaralı divlərin izi gedir, qan izi onları quyunun üstünə gətirir. Divlər quyuya girirlər, onlar xtonik obrazlardır və məkanları yeraltıdır. Qəhrəmanlar quyudan Yeraltına daxil olurlar. Yeraltı xronik məkandır. Baxmayaraq ki, Azərbaycan nağıllarında Yeraltı dünyanın çox mürəkkəb strukturu var, bununla bərabər, quyunun

yerin altı, xaos dünyası ilə bağlılığı epik mətnlərdə sistem halındadır. Quyunun mifoloji səciyyəsi, adi quyu olmadığı, yeraltı bir dünya ilə bağlılığı müasir dastan mətnlərində belə qorunub:

"Elə ki, Abbası zəhər quyusuna atdılar, Abbas zəhərin içinə düşməmiş qulağına bir səda gəldi:

- Abbas, qorxma, quyudakı zəhər gülaba dönüb. Bu gülabın yanında sənin zərrin taxtın qoyulub.

Quyunun içinə düşəndə Abbas nə gördü? Bura lap şah sarayına oxşayır. Hər tərəf gülab hovuzu, hovuzların arasında bir zərrin taxt…" (70, 255-256).

Burada diqqət çəkən quyunun içinin təsviridir. Əlbəttə, aşığın bəlağətli, şirəli təsviri burada açıq boy verir. Ancaq bunu bütövlükdə aşıq təxəyyülünün məhsulu saymaq olmaz. Aşığı "dilləndirən" arxetəsvir, arxetəsəvvür var. İlkin motiv olmasa, aşıq onu inkişaf etdirə bilməz, Bu baxımdan, dastan mətni, bütövlükdə hər hansı epik mətn sərbəst təcrübə sahəsi deyildir. Aşıq ənənə ilə hərəkət edir. Onun yaradıcılığı bütövlükdə ənənəyə söykənir. Çünki folklor özü bütünlüklə ənənə hadisəsidir. Bu üzdən, quyunun dibinin bü cür təmtəraqlı təsviri də öz arxetipinə malikdir. Çünki quyu bir obraz kimi, sistemli təsəvvürlərlə bağlıdır. Bu sistemli təsəvvürlərə quyunun Yeraltı dünyaya keçid olması və s. aiddir. Sözü gedən dastanda da bu görünür. Dastanda quyunun dibinin bir saray kimi təsvir olunması quyu obrazının həmin epik kompleksi ilə bağlıdır.

Azərbaycan nağıllarında quyular həm də divlərin məskənidir. Quyuların altında divlərin sarayı çox olur.

Bu saraylar qızıl-gümüşlə, var-dövlətlə bağlı olur. Beləliklə, "Abbas və Gülgəz" dastanındakı dibi dəbdəbəli saraya bənzər quyu əslində bir obraz-məkan olaraq Azərbaycan folklorunda mövcuddur. Hami obrazının quyuya salınan Abbası müşayiət etməsi də quyu obraz-kompleksindən qıraqda deyil. Quyu iki dünya (Yerüstü və Yeraltı) arasında keçiddir. Müqəddəs hamilər isə hər iki dünya arasında hərəkət etmək qabiliyyətinə malik varlıqlardır. Bu, istər mifoloji, istərsə də dini-mifoloji mətnlərlə təsdiq olunur. A.Y.Qureviç yazır ki, müqəddəs (varlıq-M.C.) iki dünyaya və iki zamana eyni zamanda mənsubdur. O, bir insan kimi əbədi olmayan yer dünyasının əsiridir. Lakin onun müqəddəsliyi bu dünyadan gəlmir. Bu müqəddəslik əbədiyyətin nurudur və bu səbəbdən o, elə bu dünyaca həm də o biri dünyada yaşayır (149, 31).

Beləliklə, dastanlardakı, eləcə də digər epik mətnlərdəki aşiqlərin hamiləri müqəddəs varlıqlardır. Bir müqəddəs olaraq onların obrazları dini mahiyyət kəsb etmişdir. Ancaq bu müqəddəsliyin bir çox əlamətləri, o cümlədən sakral strukturu birbaşa olaraq mifdən gəlir. Belə ki, müqəddəs varlıq iki dünya arasında sərbəst hərəkət edir. Dastandakı İmam Əli – Şahı-mərdan-Ağa-Həzrət Əli-Xızır Nəbi də bu dünyada yaşadığı kimi, həm də o biri dünya ilə, müqəddəs dünya ilə, Allah ilə bağlıdır. Bu cəhət öz əski arxetiplərinə söykənir. Mifdə bu, mediatorluqdur. Dastandakı hami obrazlar da mifik mediatorlarla bağlıdır. Mifik mediator obrazları yerüstü, yeraltı və göy dünyaları arasında sərbəst hərəkət edir. Adi obrazların belə

qabiliyyəti yoxdur. Bütün bunlar göstərir ki, dastan və başqa mətnlərdəki hami obrazları birbaşa mifoloji səciyyəli obrazlardır.

Deyilənlər fonunda aydın görünür ki, dastan-mif kontekstindən baxdıqda dastanın ən müxtəlif struktur qatlarında, o cümlədən struktur elementlərində mifoloji strukturu aşkarlamaq olur. İndiki səviyyədə dastanın motiv qatında mifoloji strukturunun aşkarlanması qanunauyğundur. Motivlər arxaik strukturlu sxemlər olmaqla daşlaşmış proformalar şəklində mifoloji skeleti struktur hadisəsi olaraq saxlayır.

# V FƏSİL

## DASTAN STRUKTURUNDA İLKİN STİXİYALARLA BAĞLI ARXETİPLƏR

Kosmoqonik düşüncə obrazları, yəni dünyanın yaranması (insan və kosmosun digər əsas ünsürləri) haqqında düşüncədəki obrazlar ilkin stixiya ilə bağlı obrazlardır. İlkin stixiyalar dünyanın ilk ünsürləridir. Oğuz-türk mifoloji-epik, epik mətnlərindəki təsəvvürlər birbaşa olaraq "Oğuz Kağan" dastanından gəlir. Başqa sözlə, bu ilk təsəvvürlər sistemli halda həmin dastanda mövcuddur. Burada dünyanın yaranmasının Oğuz Kağan obrazı, onun altı oğlu ilə əlaqələndirilməsi ilkin stixiyaları nəzərdə tutur:

*"Oğuz Kağan bir yerdə durub Tanrıya yalvarırdı.*

*Qaranlıq çökdü. Göydən bir işıq düşdü:*
*Gündən işıqlı, Aydan parlaq idi.*
*Oğuz Kağan yüyürdü, gördü ki,*
*bu işığın arasında*
*bir qız durub, yalqız oturub.*
*Çox gözəl qızdır.*
*Onun başında atəşli, işıqlı*
*Altun kazık tək*
*yanan bir xalı vardı.*
*Qız o qədər gözəl idi ki,*
*gülsə mavi göy gülər, ağlasa ağlayardı.*
*Oğuz Kağan onu gördükdə*
*özündən getdi, qızı sevdi, aldı.*

*Onunla yatdı. Diləyin aldı, qız*
*hamilə qaldı. Günlər, gecələr ötdü.*
*Yükün yerə qoydu, üç oğlan doğdu.*
*Birincisinə – Gün adını qoydular.*
*İkincisinə – Ay adını qoydular,*
*Üçüncüsünə – Ulduz adını qoydular.*
*Yenə günlərin bir günü Oğuz Kağan ova getdi.*
*Göl ortasında bir ağac gördü.*
*Bu ağacın oyuğunda*
*Bir qız vardı, yalqız oturmuş idi…*
*…Oğuz Kağan onu gördükdə özündən getdi, ürəyinə*
*od düşdü. Onu sevdi, aldı, onunla yatdı,*
*diləyini aldı. Qız hamilə qaldı.*
*Günlər, gecələr keçdi.*
*Yükün yerə qoydu, üç oğlan doğdu.*
*Birincisinə – Göy adını qoydular*
*İkincisinə – Dağ adını qoydular.*
*Üçüncüsünə – Dəniz adını qoydular".*
*(seçmələr bizimdir – M.C.) (42, 126-127)*

Bu kosmoqonik mətndə Oğuz Kağanın altı oğlu kosmosu bildirir: Gün, Ay, Uldüz, Göy, Dağ, Dəniz. Bunlar sakral kosmoqonik strukturun təsviridir. Burada adları çəkilən oğlanlar kosmosun ilkin stixiyalarını bildirir. İlkin stixiya ilə bağlı bu obrazlar həm birbaşa olaraq öz adları ilə, həm də sinonimik sıraları şəklində sonrakı dastan yaradıcılığından keçir.

Türk mifoloqu B.Ögəl yazır ki, türklər "… dağları bir torpaq, daş yığımı kimi deyil, hisslər və duyğularla yoğrulmuş, kişilik qazanmış varlıq kimi

düşünmüşlər" (121, 424). Burada dağların hiss və duyğu qazanması, yaxud "kişilik" kəsb etməsi dedikdə, cansız obrazların antropomorflaşması kimi mifoloji – kosmoqonik strukturla bağlı proses nəzərdə tutulur.

Folklorşünas B.Abdulla göstərir ki, "oğuzlar həm də dağları, daşları, qayaları, deyiləni başa düşən, səs-səda verən, xoş niyyətlə keçid verən, xəbər çatdıran, sığınaq verən, uğur arzulayan, bəd dualardan qoruyan, hətta qeyzlənən zənn etmişlər. Odur ki, onlarla danışır, xəbərləşir, dağlara salam verir, dağlara and içir, dağların şəfaverici, qida, su qaynağı olmalarına inanırlar" (8, 35).

L.P.Potapov ehtimal edir ki, "dağa belə münasibət, ola bilsin ki, türklərdə onun göydən, baş Tanrı tərəfindən göndərilməsi inamı ilə əlaqədardır" (186, 149). Potapovun bu fikir-ehtimalı ilə bağlı qeyd edək ki, dağa belə münasibət onun doğrudan da Tanrı ilə əlaqəsindədir. Ancaq məsələnin bu qoyuluşu birxətli baxış olmaqla kompleks deyildir. Dağ bütövlükdə inamlar sistemində mühüm yer tutur. Onun bu yerinə kosmoloji strukturdakı yeri baxımından qiymət vermək lazım gəlir. Çünki dağın müqəddəs sayılması sistemli hadisədir. "Oğuz Kağan" dastanındakı kosmoqonik sxem göstərdi ki, Dağ ilkin stixiyanı bildirməklə Gün, Ay, Ulduz, Göy, Dəniz kimi ilkin başlanğıclarla (stixiyalarla) birlikdə mövcuddur. Ona görə də, Potapovun ehtimalı düzgündür. Dağ inamlar sistemində mühüm yer tutur. Ancaq onun bu sakral mövcudluğu təkcə inamlarla

məhdudlaşmır, türk, o cümlədən oğuz mifik və epik mətnlərində də öz izlərini qoruyub saxlayır. Bu baxımdan, dastanlar maraqlı material verir. Burada məqsəd heç də dağla bağlı epik momentləri qeydə almaqdan ibarət deyil. Dastan-mif konteksti bizdən epik obrazların, o cümlədən ilkin stixiyaları simvollaşdıran obrazların mifdən gəlmə elementlərini aşkarlamağı və bununla epik obrazların analizini verməyi tələb edir.

M.Seyidov yazır ki, "müqəddəs başlanğıc sayılan dağ, eləcə də torpaq və xüsusilə onlarla bağlı Günəş bütün varlığın, həyatın, tanrıların, insanların, nemətlərin yaradıcısı, anası-atası kimi qəbul olunur. Torpaq başlıca olaraq ana başlanğıcı sayılmışdır (102, 308). Göstərək ki, mifoloq öz fikirlərində haqlıdır. Yuxarıda dedik ki, stixiyalar sonrakı mətnlərdə ya birbaşa öz normativ-ad statuslarında, ya da sinonimik nominasiyalarda çıxış edirlər. Burada Torpaq "Oğuz Kağan"dakı Dağ stixiyasının sinonimik ekvivalentidir.

Dastan mətnlərində dağların obraz kimi, yəni sakral obyektlər olaraq iştirakı təkcə həmin mətnlərlə məhdudlaşıb qalmır. Onlarla paralel olan və xalq içərisində bu gün yaşayan mifoloji mətnlər birbaşa sakral dağ obrazını təqdim edir. Mifə diqqət edək:

Bəlli olur ki, çoban və qoyun quzusu susuzluqdan əzab çəkir. Çoban üzünü Qır dağına tutub deyir:

"... Ey Qır dağı, sən buradan bir bulaq çıxar, mən bir ağ, bir də qara qoyun qurban kəsəcəyəm.

Çoban bu sözləri deyəndən sonra baxıb görür ki, həmin yerdən bulaq çıxdı. Özü də necə bulaq, göz yaşı kimi duru, buz kimi soyuq. Çoban ilə sürüsü bulağın suyundan içirlər. Amma çoban nə ağ qoyunu, nə də qara qoyunu (qurban – M.C.) kəsir. Elə həmin saat çoban da, sürü də daşa dönür" (34, 83).

Mifdəki Qır dağı birbaşa olaraq sakral "Dağ"la, yəni "Oğuz Kağan"dan bəlli Dağ stixiyası ilə bağlıdır. Çünki bunlar hər ikisi ("Oğuz Kağan" və sözü gedən mif) eyni etnik-mədəni sistemin mifoloji-epik mətnləridir. Təbii ki, Oğuz eposundakı Dağ mifonimi buradakı mifdə olan Dağ mifonimi ilə eyni mifik düşüncənin məhsulu olmaq baxımından əlaqəlidir. Başqa sözlə, Qır dağı "Oğuz Kağan"dakı "Dağ"ın sakral törəməsi, sinonimi, sinonimik cərgə elementləridir.

Qır dağı ilkin stixiya ilə bağlıdır. Çünki bu, adi dağ deyil. Bunun adi dağ olmadığı iki əlamətlə üzə çıxır: verimlilik və cəza. Çoban sudan ötrü Qır dağına müraciət edir; Qır dağı sakral bir varlıq olaraq bu xahişi yerinə yetirir. Çoban sudan ötrü qurban kəsməli olduğu heyvanları kəsmir. Başqa sözlə, müqəddəs varlıqlara münasibətdə mövcud olan normaları pozur və bu da təbii olaraq cəza ilə nəticələnir. "İbtidai cəmiyyət tarixi"ndə deyildiyi kimi, bütün geridə qalmış xalqlarda əxlaq qaydaları və qadağalar fövqəltəbii sanksiyalarla möhkəmləndirilir; onların qoyulması göy varlıqlarına, ruhlara, mədəni qəhrəmanlara, tanrılara aid edilir. Həmin qaydaların pozulmasına görə bu ruhlardan, yaxud tanrıların özlərindən cəza gözlənilir (160, 549).

Göründüyü kimi, Qır dağı canlıdır, yəni ruha malikdir; bu, antropomorflaşmadır. Onun eyni cizgiləri sakral struktur olaraq "Oğuz Kağan"da movcuddur. Dağ həm öz adı ilə, nominal olaraq (dağ kimi), həm də bir oğul kimi, antropomorf varlıq (insan) olaraq mövcuddur. Eyni hadisəni bu mifdə görürük.

Dağ ikən stixiyanı simvollaşdıran obraz kimi dastanlardan keçir. "Kitabi-Dədə Qorqud"da birinci boyda Dirsə xanın arvadı atası tərəfindən ölümcül hala salınmış oğlunu Qazılıq dağında tapır. Ana eynilə mifdəki çoban kimi Qazılıq dağına bir canlı varlıq olaraq müraciət edir:

*Qaçar sənin keyiklərin, Qazılıq dağı,*
*Qaçar ikən qaçmaz olsun, daşa dönsün* (77, 43).

Göründüyü kimi, Dirsə xanın qadını dağa qarğış edir, onu bu işdə günahkar bilir. Demək, oğuzların təsəvvüründə dağ bir canlı varlıq olaraq mövcuddur. Bu isə ona münasibətdə təkcə mifdə olduğu kimi, nəyisə istəməni, yaxud ona qarğış etməni nəzərdə tutmur. Bura sakral canlı varlıq olaraq Dağla davranışın bütün situasiyaları daxildir. Bəzi qaynaqlarda, tədqiqatlarda Oğuz xanımlarının Qazılıq dağını özlərinə qaynata bilmələri, ondan yaşınmaları barədə bilgilər var. Dağdan yaşınma, utanma, çəkinmə ümumiyyətlə türklərdə, o sıradan azərbaycanlılarda olan adətlərdəndir (125, 127; 102, 253; 8, 42).

Burada diqqət çəkən oğuz xanımlarının dağı qaynata bilmələridir. Bu halda Dağ kişi başlanğıcına aid edilir. Ancaq "Oğuz Kağan"dan gördük ki, Dağ xan Oğuz Kağanın ağacın koğuşundan tapdığı, qızın doğduğu, yəni Yer stixiyası ilə bağlı obrazdır. İlkin təsəvvürlərdə Dağ bir stixiya olaraq Yer Anakompleksinə aiddir. Bu da onu qadın başlanğıcına aid etməyə imkan verir. Əslində burada dolaşıq heç nə yoxdur. Hər şey mifoloji məntiq daxilindədir. Azərbaycan astronomik mifoloji mətnlərində Ay ilə Günəşin gah kişi, gah da qadın olmaları barəsində təsəvvürlər var. Yəni elə mətnlər var ki, orada Günəş-kişi, Ay-qadındır, elə mətnlər də var ki, əksinədir. Burada əsas olan dağın stixiya ilə, yəni ilkin başlanğıclarla bağlı simvolikasıdır.

"Koroğlu" dastanında Koroğlu Qoşabulağın köpüyündən içəndən sonra qeyri-adi qabiliyyətlər qazanır. Qoşabulaq uca dağ zirvəsindədir. Baxmayaraq ki, burada su ilk baxışdan əsas görünür, ancaq burada bulağın uca dağ zirvəsində olması da nəzərdən qaçırılmamalıdır. Koroğlu içdiyi suyu dağdan alır, bu suyu, su ilə bərabər qabiliyyətləri ona dağ verir. Əlbəttə, burada su və dağ stixiyaları birgədir və bunun belə olması əski türk mif ənənələrindəki "Yer-Sub" obrazı ilə bağlıdır. Bu baxımdan dastançı Qoşabulağı təsadüfi olaraq uca dağ zirvəsində yerləşdirmir, o, ənənə ilə hərəkət edir. Həmin ənənə isə Yer ilə suyu birgə nəzərdə tutan "Yer-Sub" obrazında arxetipləşib.

"Koroğluda Çənlibelin yurd yeri kimi seçilməsini yada salaq:

"Alı kişi soruşdu:

- Oğlum, bura necə yerdir?

Rövşən dedi:

- Ata, bura hər tərəfi sıldırım qayalıq, çənli, çiskinli bir dağ belidir.

Alı kişi soruşdu:

- Oğul, bax gör, bu bel ki, deyirsən, bunun hər tərəfində bir uca qaya görünmür ki?

Rövşən dedi:

- Ata görünür. Biri sağında, o biri də solunda. Özü də başları qardır.

Alı dedi:

- Oğul, mənim axtardığım yer elə buradır… Buraya Çənlibel deyirlər. Burada biz yurd salmalıyıq" (79, 35).

Burada diqqət çəkən məqam ikidir. Birincisi, Çənlibelin kor ata ilə qəhrəman, intiqam hissi ilə yaşayan oğul arasında belə dialoqla təsviri epik bədiiyyatdır. Dastançı canlı, şirəli təsvirlərlə Koroğlu dəlilərinin gələcək qəhrəmanlıqlarının "qərargahını" təsvir etmək üçün heç bir boyanı əsirgəmir. Ancaq epik məntiq baxımından bura epik məkandır, yəni dastanşünaslıq termini ilə desək, "lokus"dur. Yəni xüsusi semantikaya malik olan məkandır. Belə xüsusi məkan eposun özündə belə təsadüfi deyildir. Eposda bütün məkanlar epik məntiq, onun formullarının strukturuna tabe obrazdır. İşarəvi mətn olmaqla "Koroğlu" eposundakı bütün məkan obrazlarının

("lokos"ların) arxetipik semantikası var. Bu semantikaya görə "Koroğlu" eposu miqyasında çox mühüm yükə malik çənli bir dağ olaraq təsadüfi məkan deyil. Bu dağ öz ilkin semantikasında ilkin dağ stixiyasına, o cümlədən "Oğuz Kağan"dakı Dağ semanteminə gedib çıxır.

Tədqiqatçıların verdiyi bilgiyə görə, "Koroğlu" eposunun yazıya alınmış, ancaq indiyədək çap olunmamış bir qolunda Zöhrə dağının adı çəkilir. Bildirilir ki, bu dağ hökmdarlardan, ağalardan narazı olanların məskənidir. Qolda mühüm bir cizgi də vardır. Bildirilir ki, heç bir şey Koroğluya dağ qədər təsir etməzmiş (8, 38).

Dağın Koroğluda emosional ovqat yaratması ilk baxımdan poetik haldır. İndiki halında bu, doğrudan da bir poetik cizgidir. Ancaq arxetipində poetizmdən, bədii ovqat olmaqdan qıraqdadır. Koroğlu ilə dağ arasındakı bu emosional-effektiv münasibət mifik-mifoloji arxetipdən gəlir. Qəhrəman və Dağ münasibətləri bu baxımdan mifoloji sisteminə görə, sakral rəmzlərində obrazla (Dağ) adi dünyanı rəmzləndirən obraz arasında olan münasibətləri bildirir. İlk baxışdan bu görünmür. Ancaq epik mətndəki hər bir obraz, epizod, süjet, element bütün hallarda epik sistemdə, o cümlədən bu sistemin diaxron-sinxron münasibətlərini nəzərdə tutan mif-dastan kontekstində götürülməli, dəyərləndirilməlidir. Belə bir dəyərləndirmə apardıqda, Koroğlunun Dağdan təsirlənməsi Koroğlu ilə Dağ arasındakı xüsusi münasibətdən soraq verir ki,

bu münasibət də, qeyd etdiyimiz kimi, magik-mifoloji səciyyəlidir. Bir əfsanəyə diqqət yetirək:

"Koroğlu böyük bir çayın vadisində yurd salır. Gecə yuxuda ona deyirlər:

- Çay sahili sel yoludur, düzəngahlar el yoludur. Ey Koroğlu, igidin arxası dağlardır. Oyan yuxudan. Qulaq as. Qırat hansı dağda kişnəsə, həmin dağda daşdan qala tik!" (31, 211).

Çay sahilinin sel yolu olması xaotik təhlükəni bildirir, bu da səbəbsiz deyil. Çay mifdə maşlanğıcı və sonu etibarilə yolu, birləşdirməni bildirir. Başqa sözlə, o, su-həyat semantikası baxımından kosmik dəyərlə bağlıdır. Ancaq çayların bu dünya ilə o biri dünya (ölüm dünyası) arasında vasitə olması onun funksiyasını ambivalent (yəni ikili) etmiş olur. Bu baxımdan, çay həm də Xaosla bağlıdır. Düzəngah da eyni cür dəyərləndirilmiş olur. Bura təhlükəli məkandır. Qorunmaq üçün imkan yoxdur. Bu kontekstdə dağ tamamilə təhlükəsiz məkan kimi qiymətləndirilir.

Digər bir əfsanədə deyilir ki, "Koroğlu hara gedirmişsə, Çənlibeldən özü ilə mütləq daş aparırmış. Hətta yatanda başının altına daş qoyurmuş. Daşlar Koroğlunun *həyanı* olurmuş (seçmə bizimdir – M.C.). O, harada olmasını da dəlilərinə daşlar vasitəsilə xəbər verirmiş" (31, 212).

Burada daş obrazı dağın sinonimik ekvivalentidir. Bu, əfsanədən açıq görünür. Koroğlu daşı Çənlibel dağından götürürmüş. Daşla Koroğlu arasındakı münasibətlər, əfsanədən açıq şəkildə göründüyü kimi,

magik səciyyəlidir. Bu baxımdan, Dağ-daş tamamilə müsbət kosmik dəyərə malikdir. Dağın əlaməti, atributu olan daş belə Koroğlunu Xaosdan, xaotik qüvvələrdən qoruyur.

Türk eposu kontekstinə çıxsaq, daha maraqlı mənzərə ilə üzləşirik. Altaylıların "Maaday Qara" eposunda Maaday oğlu Gögüdey Mergeni doqquzpilləli Qaradağın zirvəsinə gətirir və deyir ki, Qaradağ sənin atan olsun (173, 87).

Burada Maaday Qara-Gögüdey situasiyası eynilə Alı kişi-Koroğlu situasiyasıdır. Daha arxaik səciyyəli Altay eposu, bu cəhətdən, "Koroğlu"dakı situasiyanı mifoloji cizgiləri ilə bərpa etmək üçün imkan verir. Doqquz pilləli Qaradağ dünyanın mifoloji modelidir. Qaradağ Gögüdey Mergenə atalıq edir. Bu sxemdən Çənlibelin də eyni funksiyasını-Koroğluya atalıq etməsini görmək olur. Koroğlu Çənlibeldən götürdüyü daşı özü ilə hər yerə aparır. Bu daş onu qoruyur. Qaradağ Gödüdey Mergenin totem atası olub onu qoruduğu kimi, Çənlibel də belə bir totem əcdad rolunda Koroğlunu qoruyur.

"Koroğlu" eposunda olduğu kimi, düşmənlərlə vuruş gücünü Gögüdey Mergenə Qaradağ verir. Maaday Qaranın özünün də dağ ruhundan doğulduğu eposda belə bildirilir:

*Soyu yelbisten adı bümken-kara kaltar*

*Tuu yelbisten boyu bütken-Maaday Kara (173, 76).*

*(Su ruhundan doğulmuşdur onun adı Qara kəhər,*

*Dağ ruhundan doğulmuşdur onun özü – Maaday Qara).*

Koroğlunun atlarının dərya (su) cinsindən olmasını yada salsaq, Alı kişi – Maaday Qara, Koroğlu – Gögüdey Mergen paraleli mif-dastan kontekstində daha da təsdiqlənmiş olur. Azərbaycan folklor mətnləri dağın valideynliyinə faktlar verir. Bir mifdə deyilir ki, Oğuz rayonu ərazisində olan Daşağıl dağında bir mağara vardır. Həmin mağarada bir madyan olurmuş. Bu at hər yeddi ildən bir özünü mağarının ağzındakı qayaya sürtməklə döl tutar və iki qulun doğarmış (94, 26).

Göründüyü kimi, bu mifdə madyan üçün erkək rolunu dağ oynayır ki, bu, dağı kişi stixiyası ilə əlaqələndirməyə imkan verir. Nizami "Xosrov və Şirin"ində tuş olduğumuz eyni situasiya bunu daha da möhkəmləndirir:

*Sürtüşür o daşa çox ehtirasla,*
*Allahın əmriylə döl tutur ondan…* (61, 69)

Göründüyü kimi, atın daşdan mayalanması, daha doğrusu, dağın kişi başlanğıcı kimi çıxış etməsi türk inamlar sistemində dayanıqlı struktura malikdir. Belə olmasaydı, öz xalqının əfsanə-rəvayət dünyasına "Xəmsə"də ardıcıl olaraq üz tutmuş Nizami əsərlərində bu tipli mətnlərə rast gəlməzdik.

Daşdan (dağdan) doğulma dastanlarda da dayanıqlı struktur kimi keçir. "Yaxşı-Yaman" dastanının bir variantında deyilir ki, Yaxşının uşağı olmadığına görə həmişə qəm çəkir. Qaynının və əri Zamanın ona acığı tutur. "Bir gün Yaxşı ağlaya-ağlaya

Lələ dağına çıxır. Şalını açıb nar kolları üstə ürgəncək qurur. Ürgəncəyin içərisinə Lələ dağından sığallı bir göy daş seçib, bələyib qoyur. Yaxşı bir də baxır ki, ürkəncəkdə uşaq ağlayır. Sevinir. Uşağı götürüb evə qayıdır. Zaman və qardaşı uşağı görüb sevinirlər. Yaxşı bildirir ki, uşağı ona Lələ dağı verib" (31, 257).

Dastandakı buepizod daşdan (dağdan) doğulma motivi ilə bağlıdır. Burada da eyni halı-Dağ stixiyasının kişi başlanğıcının simvolu olaraq uşaq verməsini, doğulan uşağa atalıq etməsini görürük.

İnsan – dağ magik-mifoloji münasibətlərinin Koroğlu – Çənlibel kompleksinə uyğun təzahürünü "Əsli-Kərəm" dastanında bir başqa formada görürük:

"Təzəcə dağın gədiyindən aşmaq istəyirdilər, duman, çən bunları elə qapladı ki, yolu itirdilər. Bilmirdilər hara getsinlər. Kərəm gördü, çovğun bunları öldürəcək, dedi:

- Amandı, Sofi qardaş, mənim sazımı ver. Deyəsən dağı rəhmə gətirməsəm, burada ölüb, qurda-quşa yem olacağıq. Aldı görək, kərəm dağa nə dedi:

*Sənə deyim, Soltan dağı,*
*Nə dumandı başın sənin?!*
*Çiskin tökər, duman çökər,*
*Heç getməzmi qışın sənin?!*

*Dörd bir yannan bəst olmusan,*
*Dərdəmi tək məst olmusan?!*
*Cümlə dağdan üst olmusan,*
*Nə ucadı başın sənin?!*

*Əskik olmaz qarın, yağar,*
*Buludlar bir-birin qovar,*
*Sabah günəş sənə doğar,*
*Cavahirdi daşın sənin.*

*Alt yanın bağ ilə bostan,*
*O bir yanın gül-gülüstan,*
*Ayırdılar məni dostdan,*
*Ötər qərib quşun sənin.*

*Kərəm deyər: öldüm, itdim,*
*Bu fani dünyadan getdim.*
*Qocalardan sual etdim,*
*Kimsə bilməz yaşın sənin.*

Kərəm sözünü tamama yetirdi. Dağın başındakı duman çəkilib getdi, hər tərəf işıqlandı" (33, 101-102).

Alvız dağı da Kərəmlə Sofinin qarşısını kəsir, onlara keçib getməyə yol vermir. Kərəm bu dağa da bir qoşma deyir. O andaca dağ ayrılıb onlara yol verir (33, 135).

Göründüyü kimi, eyni mətndə Kərəmin dağlarla iki eyni münasibətinin şahidi oluruq. İlk baxışdan Kərəmlə Soltan dağının münasibətlərini bədii element kimi götürmək olur. Ancaq sonrakı epizod (Alvız dağı) da göstərir ki, Kərəmin dağlarla bu cür ünsiyyəti mətndə təkrarlanmaqla struktur hadisəsidir.

Kərəm Soltan dağına şeirlə-musiqi ilə müraciət edir. Burada ən əski sakral-magik modeli görürük. Kərəm arxetip planda artıq bir şaman kimi qamlama prosesindədir (yaxud bu proses bir növ qamlamanı

xatırladır. Kərəm sazın və sözün gücü ilə dağa təsir edir. Arxetip konteksində bu, magik funksiyanı yerinə yetirənin magiyanın obyekti olan varlıqla normal prosessual münasibətdir. Yəni burada heç bir sərbəstlik, ixtiyarilik yoxdur. Dağa müraciətin bu forması Günəşin çıxması üçün, yaxud yağışın yağması üçün oxunan ritual nəğmələrində olduğu kimi, standart ritual prosesindən soraq verir. Burada Kərəm və Dağ münasibətləri əski ritual-mərasim qalığıdır. Əslində bunu qalıq adlandırmaq düzgün deyil. Əski gerçəkliyin izləri baxımından qalıq sayıla bilsə də burada biz mifin magik strukturunun normal epik transformasiyasını görürük.

İlkin stixiyanı simvollaşdıran obrazlardan biri "Oğuz Kağan"da gördük ki, Dəniz xandır. Dəniz xan bütövlükdə suyu rəmzləndirir. Qədim türk inamlarında suya müqəddəs baxılmışdır. Bu səbəb "insanları suya ehtiramla yanaşmaya yönəltmiş, onu qorumağa səsləmişdir. Məsələnin sözü gedən axarı uluslarımızda suyla bağlı bir sıra inamların, sınamaların yaranmasına yol açmışdır. Belə ki, suya ruhun əksetdiricisi kimi baxılmış, bəd, qorxulu yuxu sınsın deyə suya danışılmış, sudan ovsun, fal vasitəsi kimi barınılmış, səfərə yollananın, yola çıxanın işi uğurlu olsun deyə arxasınca su səpilmiş, su aydınlıq bəlgəsi bilindiyindən onu murdarlamaq, söymək bağışlanmaz günahlar sırasına yazılmışdır" (7, 269).

Bütün bunlar suyun ilkin stixiya rolundan soraq verir. Su ilk yaradılışda iştirak edir. "Oğuz Kağan"la bağlı kosmoqonik sxemdə gördüyümüz kimi, altı

elementdən ibarət təsəvvür edilən dünyanın bir elementi sudur. Bu baxımdan onun ilkin düşüncədə, bu düşüncənin inamlar sistemində olması ətrafında inamlar kompleksi yaradılması təbiidir.

"Kitabi-Dədə Qorqud"da su ilə bağlı bir sıra ifadələr vardır ki, bunlarda su ilə bağlı daşlaşmış, stereotipləşmiş münasibətlər təzahürünü tapmışdır:

*"Ulaşıban sular daşsa, dəniz olmaz".*
*"Adam içməz acı sular sızınca, sızmasa yey".*
*"Soyuq-soyuq sularım sənə içət olsun".*
*"Axıntılı görklü suyun daşqını qardaş".*
*"Su haqq didarını görmüşdür".*

Bu ifadələr janr tipindən asılı olmayaraq semantik münasibətlər modelidir. Yəni bunlarda mənaların bir-birinə münasibətləri strukturlaşıb. Bu xüsusda, onların hər birinin təhlili su ilə bağlı model səciyyəli münasibətləri ortaya qoymuş olar. İndiki halda bunu araşdırmaq bilavasitə işimiz olmadığı üçün onlardan biri üzərində – "Su haqq didarını görmüşdür" ifadəsi üzərində dayanmağı məqsədəuyğun sayırıq. İfadəni semantik vahidlərinə ayıraq:

*Su* – ilkin stixiyanın obrazı

*Haqq* – Allah, Tanrı səviyyəsində kosmoqonik vahid başlanğıc

*Didar* – Farsca "görüş" və "üz" anlamlarındadır (32, 55)

*Görmək* – predikat, funksiya

Cümlənin leksik-sintaktik açılışı iki cürdür:

1) Su haqq "görüşünü" görmüşdür.

2) Su haqq "üzünü" görmüşdür.

Əslində suyun haqq üzünü, yaxud görünüşünü görməsi cümlədə ifadə olunan mifoloji-kosmoqonik situasiyanın məzmununu dəyişmir. Burada söhbət suyun haqq ilə akt səviyyəsində, kosmoqonik situasiyada birgə iştirakından gedir. Bu cümlənin hətta islami düşüncədən gəlmə ehtimalı belə vəziyyəti dəyişmir. Çünki Su türk kosmoqoniyasının əsas ünsürüdür və bu kosmoqoniyadakı Tanrı-"Haqq" teoniminin ifadə etdiyi Allah ilə eyni semantik səviyyədə qavranılır. Bu baxımdan Suyun Haqqın üzünü görməsi semantemi suyun məhz kosmoqonik yaradılışdakı iştirakına işarədir. O biri tərəfdən Suyun Haqqın "görüşünü" görməsi ifadəsi də eyni məzmuna gəlir.

Burada haqqın "üzü" və "görüşü" sözləri hər iki halda kosmoqonik yaradılış aktını səciyyələndirir. Bu mənada, məna dəyişmir. Yəni suyun ilkin başlanğıcda iştirak etməsi, ilkin başlanğıc ünsürlərindən olması, onun müqəddəsliyinin "Haqq Didarı" ilə təsdiq olunması "didar" sözünün necə götürülməsindən asılı olmayaraq dəyişmir.

"Kitabi-Dədə Qorqud"dakı bu ifadə, eləcə də su ilə bağlı digər ifadələr təsadüfi deyil. Onlar oğuz-türk dünyasının yaşam, davranış qanunlarının daşlaşmış modelləri, model situasiyalarıdır. Eposda onların bədiiləşməsi, poetik situasiyalarda iştirakı da onların model funksiyaları ilə şərtlənir. Diqqət edək.

"Kitabi-Dədə Qorqud"un ikinci boyunda yurdu talanmış Qazan xan yurduna, köpəyinə, qurda, o cümlədən suya müraciət edir:

"Qazan aydır: "Su haqq didarın görmüşdür, bən bu su ilə xəbərləşəyim" – dedi:

*1) Çağnam-çağnam qayalardan qaçan su,*
*2) Ağac gəmiləri oynadan su,*
*3) Həsənlə Hüseynin həsrəti su,*
*4) Ayişə ilə Fatimənin nikahı su,*
*5) Şahbaz atlar gəlib içdiyi su,*
*6) Qızıl dəvələr gəlib keçdigi su,*
*7) Ağ qoyunlar gəlib çevrəsində yatdığı su,*
*8) Ordumun xəbərin bilürmisin, degil mana,*
*9) Qara başım qurban olsun, suyum sana."* (77, 47-48).

Qazanın su ilə "xəbərləşməsində" Su bir semantem olaraq müxtəlif kosmik situasiyaları ilə səciyyələndirilir. Qazan, əvvəla, suya müraciət edir. Burada su sakral kult obyekti olmaqla ona münasibətdə xüsusi davranış formulu tələb edir. Qazan da bu davranış modeli çərçivəsində hərəkət edir. Onun suya müraciəti bütün dini, mənəvi, poetik transformasiyaları ilə birlikdə əski kult-ritual modelindən qırağa çıxmır. Çərçivə öz strukturunda bu model olaraq qalır. Bu baxımdan, suya cümlə-cümlə müraciət cümlələrin təsadüfi sıralanmasını nəzərdə tutmur. Bu, xüsusi davranış formuludur. Bu davranış formulunda suya müraciətdə su ilə bağlı kosmik situasiya (yaradılış situasiyası) təsvir edilir:

1-ci cümlədə Su təbiət ünsürü olaraq çay ipostasındadır;

2-ci cümlədə Su təbiət ünsürü olaraq dəniz ionstasındadır;

3-cü cümlədə Su sakral-dini presedentin iştirakçısıdır;

4-cü cümlədə Su kosmik tamlığı simvollaşdıran substansional nikahın sakral islam presedentləri səviyyəsində iştirakçısıdır;

5-ci və 6-cı cümlələrdə Su türk etnik məişət-təsərrüfat qatının həyatverici səviyyədə iştirakçısıdır;

7-ci cümlədə Su yenə də eyni məişət-təsərrüfat qatının-xüsusi dəyərləndirilmiş zooqatın həyatverici səviyyədə iştirakçısıdır;

8-ci cümlədə Su sakral varlıq mediativ funksiyalı (İnsanla Tanrı arasında) obrazıdır;

9-cu cümlədə Su birbaşa olaraq Tapınış obyektidir.

Qazanın su ilə, eləcə də yurd ilə "xəbərləşməsi" eynilə Kərəmin dağlar ilə "dialoqunu", yəni "xəbərləşməsini" arxetip səviyyədə ifadə edir. Heç təsadüfi deyildir ki, "Əsli-Kərəm"də su birbaşa olaraq sakral kosmik varlıqdır:

"Kərəm üzünü tutdu çaya, dedi:

*Abi-həyat kimi daim axarsan,*
*Haqqın camalına hərdən baxarsan,*
*Dolana-dolana evlər yıxarsan,*
*Mənim Əslim buralardan keçdimi?*

Çay da gəlib belə cavab verdi:

*Kərəm saxlar onun həmişə yasın,*
*Yanına almışdı ata-anasın,*
*Həm içib, həmi də doldurdu tasın,*

*Atların suyuma saldı da getdi* (33, 122)"

Kərəmin çayla bu xəbərləşməsində ilkin stixiyanın simvollaşdırılması stixiyanı simvollaşdıran su obrazının mif-dastan kontekstində maraqlı mənzərəsi, semantik qatları görünür. Kərəmin:

*"… Haqqın camalına hərdən baxarsan…"*

sözü birbaşa olaraq "Su haqq didarını görmüşdür" ifadəsinin kosmik-poetik ekvivalentidir. Bu iki ifadə arasında körpü yaratdıqda aydın olur ki, "suyun haqq camalına hərdən baxması" "su haqq didarını görmüşdür" ifadəsinin məhz "su haqqın üzünü (sifətini, çöhrəsini) görmüşdür" kimi başa düşülməsini göstərir.

Kərəm çaya müraciətində onu bir tərəfdən haqq səviyyəli obyekt səviyyəsinə qaldırır; bəlli olur ki, su birbaşa olaraq Kosmosla, müsbət sakral başlanğıcla bağlıdır. O biri tərəfdən, Kərəm suyu xaotik başlanğıcla əlaqədə götürür, onu şər qüvvə kimi səciyyələndirir:

*"… Dolana-dolana evlər yıxarsan…"*

Göründüyü kimi, eyni bir kosmik situasiyada su (çay) həm Kosmosun, həm də Xaosun simvollaşması kimi götürülür. Bu isə təsadüfi deyil. Əvvəldə çay ilə bağlı demişdik ki, əski kosmoqonik mətnlərdə çay dünyanın modeli kimi mediator obraz olaraq Kosmosla Xaos arasında təsəvvür edilir. Heç təsadüfi deyildir ki, çayın iki sahili bu dünya (həyat) ilə o dünya (ölüm) arasında götürülür. Çay bir sahili ilə həyata, o biri sahili ilə ölümə bağlıdlır. Eləcə də çay bir başı ilə həyata, o biri başı ilə əks qütbə-ölümə

bağlıdır. Bütün bunlar o deməkdir ki, kosmoqonik təsəvvürdə çay ambivalent semantikaya, yəni ikili xüsusiyyətlərə (müsbət və mənfi) malikdir. Ona görə də eyni mətn daxilində Kərəm çayın həm bu üzündən (Kosmik xassə), həm də o biri üzündən (Xaotik xassə) söhbət açır. Əlbəttə, bu deyilənlər o demək deyildir ki, Kərəm birbaşa mifoloji-kosmik informasiyalarla işləyir. Məsələnin mahiyyəti belə bəsit deyildir. Sadəcə olaraq, Kərəm poetik semantemlərlə işləyir. Bu dual semantemlərdə əski mifoloji-kosmik ənənə daşlaşıb. Bu anlamda, Kərəm mifoloji informasiyalarla yox, məhz ənənəvi-poetik semantemlərlə "işləyir".

Suyun Azərbaycan dastançılığında geniş semantik spektrdə təqdim olunması onun bu semantemləri düzən etnik şüurda sistemli təsəvvürlər şəklində olması ilə bağlıdır. Bu anlamda, su inamlar sistemində mühüm yer tutur. Məsələn, adamlar Novruz bayramında səhər tezdən bulaqdan, çaydan su gətirirlər. Bu suyu həyət-bacaya, ev-eşiyə, evdəkilərin üstünə səpirlər. Bu, köhnəlikdən qurtarıb, yeniliyə qovuşmaq əlamətidir. Yenə elə bu bayramda keçirilən "vəsfi-hal" mərasimində sudan fal vasitəsi kimi istifadə olunur. Doğum mərasimində icra olunan "Çillə kəsmək" adətində də əsas vasitə sudur. "Uşağın qırxı çıxan gün anası ilə birlikdə çimizdirilir. Buna "qırx tökmək" deyilir. Həmin gün erkən, daha doğrusu, dan qaranlığında bulaq, yaxud çaydan gətirilmiş sudan qırx ovuc bir qaba tökülür. Eldə "qırx suyu" deyilən bu su ana ilə körpənin başından axıdılır. Bununla da onlar qırxdan çıxmış olurlar" (6, 84).

Burada diqqət çəkən suyun ilkin stixiyalarla kompleks təşkil etməsidir. Diqqət verdikdə görürük ki, su özəl, əlahiddə hadisə kimi yox, doğuluş, yaradılışla bağlı kosmik hadisələrin kompleksində təsəvvür olunur, onlardan ayrı götürülmür. Belə ki, suyu il tamamında köhnəldikdən qurtarmaq məqsədi ilə ev-eşiyə, həyət-bacaya səpirlər. İlin tamamı dünyanın zaman modelində sakral zamandır. Bu sakral zamanda su köhnəliklə yeniliyin, kosmosla xaosun arasında bir vasitə (mediativ təmizləyici) kimi istifadə edilir. Su digər hallarda da sakral baxımdan dəyərləndirilmiş zamanla bağlıdır. "Çillə kəsmək" adətində ana və balasının ağırlıqdan, şər əlamətlərindən təmizlənməsi uşağın doğumunun qırxıncı günü ilə bağlı olur. Bu o deməkdir ki, qırx gün müəyyən bir dövrün tamamlanmasıdır. Burada "çillə" fars sözü olan "çehel" (qırx) sözünün fonetik dəyişməsidir. Qırx günün tamamında ana və uşağı bütün şər situasiyalardan su vasitəsi ilə təmizləyirlər. Bu baxımdan, suyun dastanlarda yüksək epitetlərlə təriflənməsi, tərənnüm edilməsi təsadüfi olmayıb mifoloji-kosmik dünyagörüşlərlə, inamlarla bağlıdır. Ümumtürk kontekstinə çıxdıqda, su ilə bağlı semantik qatların nə qədər geniş olduğunu görürük.

Başqırdlarda yağış yağdırmaq məqsədi ilə bir-birlərinin üstünə su səpirlər (115, 165). Türkiyənin kəndlərində hava uzun müddət quraqlıq keçdikdə "Yağmur gəlini" adlandırılan biri donunu tərsinə geyir, yığışanlar isə onu həyət-həyət gəzdirirlər. Evlərin damlarından "Yağmur gəlini"nin üstünə su səpirlər (122, 51; 127, 187-188).

Verilmiş etnoqrafik qeydlərdə çox mühüm detal var. Türkiyədəki adətdən bəlli olur ki, yerli türk etnik mühiti yağışı (yağış suyunu) qadın obrazında təsəvvür edir. Bu isə bizim suyun ambivalent (müsbət-mənfi) xassələri haqqında dediyimizi təsdiq edir. Qadın əski kosmoqonik ənənədə situasiyadan asılı olaraq həm müsbət, həm də mənfi başlanğıcdır. O, həyatın yaradıcılıq aktının birbaşa iştirakçısı kimi kosmik dəyərlidir, ancaq eyni proses həm də ölümlə bağlı təsəvvür olunur. Bu baxımdan, yağış suyunun məhz qadın obrazında təsəvvür edilməsi mifoloji görüşlərdəki dayanıqlı strukturdan soraq verir.

Dünya folklor-etnoqrafik ənənələri də səciyyəvi faktlar verir. Məsələn, Afrikanın Delaqoa körfəzi kənarında yaşayan Baqonqabantular əkiz doğmuş Tilo – "Göy", "Səma" adlı qadını mükafatlandırır, onun uşaqlarını isə "Səma övladları" adlandırırlar. Havalar quraqlıq keçəndə qadınlar yığışıb əkiz doğmuş həmin Göy, Səma qadını olan Tilonun üstünə su səpirlər (208, 79-81). Göründüyü kimi, burada da eyni situasiya ilə qarşılaşırıq. Əvvəla, əkiz doğmuş qadın bütün cəmiyyətlərdə qeyri-adi xassələrlə səciyyələndirilib. Bəzi əski xalqlarda bu pis, bəzilərində isə yaxşı hesab edilib. İndiki halda bunun müsbət dəyərləndirilməsi ilə üzbəüz oluruq. Eynən, Türkiyədəki Yağmur Gəlini ilə bağlı olduğu kimi, burada da Tilo (Səma qadını) su ilə bağlı qadın obrazıdır. Beləliklə, tipoloji ənənə belə eyni sakral-mifoloji kompleks təqdim etmiş olur.

Su kosmoqonik substansiya ilə bağlı varlıq kimi övlad verilməsində iştirak edir. "Kitabi-Dədə Qorqud" eposunda Buğacın doğulmasından bəhs etmişik. Həmin vəziyyətlə bağlı bir məqama diqqət edək. Dirsə xan ovda oğlunu oxlatdırır. Ovdan qayıdanda Buğacın anası oğlunu ərindən soruşur və soruşma məqamında Buğacın dünyaya necə gəlməsinə işarə ilə "Quru-quru çaylara suçu saldım" deyir (77, 42). Yəni suyu rəhmə gətrib övlad aldım. Eyni vəziyyətlə eposun dördüncü boyunda da üzləşirik. Qazan ovdan qayıdanda oğlunu atasının yanında görməyən Burla xatun onun nəzir-niyazla doğulmasına işarə edərək Buğacın anasının ifadəsini bir qədər fərqli şəkildə işlədir: "Quru-quru çaylara su saldım" (77, 69). Bu deyilənlər suyun kosmoqonik yaradılış aktının mühüm ünsürlərindən olduğunu göstərir.

Su epik-mifoloji ənənədə birbaşa olaraq törədici substansiya kimi də təsəvvür olunur. "Reyhanın nağılı"ndə Əhməd və Gülcahanın bir qızı olur. Adını Reyhan qoyurlar. Bir müddətdən sonra Əhməd ölür. Gülcahan qızı tək başına böyüdür. Bir gün Reyhan çöldə pencər yığanda Əş-əş oğurlayır… Onu gəzən Gülcahan susuzlayır və bir gölməçədəki sudan içir. Demə, bu, dərya ayğırının su içdiyi gölməçə imiş. Gülcahan bu sudan uşağa qalır (35, III cild, 151).

Burada Gülcahan sudan hamilə qalır. Ancaq suya dərya ayğırının ağzı dəyibmiş. Dolayısı yolla bu, Gülcahanın uşağının atasının ayğır olduğuna işarədir. Ancaq burada su motivi, bizcə, bir qədər arxaya keçib. Dərya ayğırı su ayğırı deməkdir. Demək su

ayğır şəklində, yəni bir zoomorfik obraz olaraq yaradılışda iştirak edir. Burada onun kişi başlanğıcı ilə əlaqələnməsi yenə də suyun ambivalent xassələri ilə bağlıdır.

İlkin stixiyanı simvollaşdıran obrazlardan biri də ağacdır. Mifoloji ədəbiyyatdan bəlli olduğu kimi, kosmik dünya modelində (dünyanın xronotop səviyyəsində modeli, məkan-zaman modeli – M.C.) ən geniş yayılmış bitki "dünya ağacı" obrazıdır. "Dünya ağacı" obrazında (variantları: həyat ağacı, tale ağacı, səma ağacı…) dünyanın quruluşunun əsas parametrləri, ilk növbədə məkan-zaman kontiniumu haqqında təsəvvürlər öz təcəssümünü tapmışdır. "Dünya ağacının" bitdiyi yer dünyanın mərkəzidir… "Dünya ağacının" köməyi ilə insanla Tanrı, yer ilə göy arasında zəruri olan əlaqələr həyata keçirilir (213, 5; 203, 47; 131, 62-63).

Göründüyü kimi, ağac dünya miflərində kosmik model kimi təsəvvür olunur və bu da o deməkdir ki, ağac bir obraz olaraq, o cümlədən türk miflərində mərkəzi yerlərdən birini tutur. Onun xüsusi semantikası var. Bu semantika dastan mətnlərində də epik transformasiyalara uğrayaraq yaşamaqda davam edir. Ağac oğuz kosmoqonik mətnlərində ilkin stixiya ilə bağlı keçir. Belə ki, Oğuz Kağan Göy, Dağ, Dəniz xanların anası olan ikinci arvadın ağacın koğuşunda tapır. Bu baxımdan, ağac bu kosmoqtnik mifdə birbaşa iştirak edir.

"Kitabi-Dədə Qorqud"da su ilə "xəbərləşildiyi" kimi, eynilə ağaca da müraciət edilir. İkinci boyda

kafirlər Uruzu asmaq istədikdə o, asılacağı ağaca müraciət edir:

*1) Ağac, ağac! Dersəm sana ərlənmə, ağac!*
*2) Məkkə ilə Mədinənin qapusu ağac!*
*3) Musayi-Kəlimin əsası ağac!*
*4) Böyük-böyük suların körpisi ağac!*
*5) Qara-qara dənizlərin gəmisi ağac!*
*6) Şahi-mərdan Əlinin Düldülinin əyəri ağac!*
*7) Zülfiqarın qınıyla qəbzəsi ağac!*
*8) Şah Həsənlə Hüseynün beşigi ağac!*
*9) Əgər ərdür, əgər övrətdir qorxusı ağac!*
*10) Başın ala baqar olsam, başsız ağac!*
*11) Dibin ala baqar olsam dibsiz ağac!*
*12) Məni sana asarlarsa, götürməgil ağac!*
*13) Götürəcək olursan, yigitligim səni tutsun ağac!*
*14) Bizim eldə gərək idin, ağac!*
*15) Qara hindu qullarıma buyuraydım!*
*16) Səni para-para doğrayalardı, ağac!* (77, 50)

Uruzun ağaca bu müraciəti Qazanın suya müraciəti ilə ritual-mifoloji planda birləşir. Qazan suya müraciət edir, bu müraciəti magik səciyyə daşıyır. İndiki halda onu şərti olaraq qamlama ilə müqayisə etmək olar. Oğuzlar övladları olmayanda Tanrıya bu cür üz tutublar, bir mətləbi bilmək istəyəndə yurda, qurda, suya belə müraciət ediblər. İndi də Uruzun bu müraciəti həmin "xəbərləşmələrlə" eyni magik bloka girir. Bu halda müraciətdəki islami obrazlar da məsələnin mahiyyətini dəyişmir. Əksinə, qənaəti daha da möhkəmlədir. Tanrıçılıq islamla əvəz olunduqca dini mahiyyət formaca və formal məzmun

elementləri ilə dəyişir. Burada həm transmissiya, həm də transformasiya baş verir. Yəni həm birbaşa keçid var, həm də formanın inkişaf səciyyəli dəyişməsi var. İslam obrazlarının tanrıçılıq obrazlarını əvəz etməsi bir tərəfdən birbaşa keçiddir, yəni transmissiyadır. Dua-qamlamadakı islami-dini vahidlər birbaşa olaraq tanrıçılıqdan gəlmə eyni vahidlərin yerini tutur, başqa sözlə, birbaşa transmissiya alınır. Digər tərəfdən, tanrıçılığın əvəzlənməsi mexaniki proses şəklində yox, inkişafla səciyyələnən keçid olur ki, bu da transformasiyadır. XIX əsr qazax alimi Ç.Vəlixanov yazırdı ki, müsəlmanlıq savadsız əhali arasında mollasız möhkəmlənə bilməsə də, mahiyyətində əvvəlki şaman anlayışları duran bir səs, ifadə olaraq qalır. Ona görə də, məna yox, adlar, sözlər dəyişməyə məruz qaldı. Onqonu-arvax, göktenqrini-allah, yaxud xuda, yer ruhunu-şeytan, pəri, divanə və cin adlandırmağa başladılar, ideya isə şaman ideyası olaraq qaldı (141, 49).

Uruzun ağaca müraciəti də bu kontekstdə nəzərdən keçirilməlidir. Burada islam sakral obrazları tanrıçılıqda mövcud olan obrazların yerini tutmuşdur. Əlbəttə, bu o demək deyildir ki, hər bir cümlədəki sakral obrazlar eynilə nəyisə əvəz edir. Söhbət bütövlükdə əvəzlənmədən və transformasiyadan gedir.

1-ci cümlədə Uruzun Ağaca müraciəti birbaşa əski görüşlərlə bağlıdır, Uruz Ağacı qürrələnməməyə çağırır. Demək, əski ritual-mifoloji kompleksində ağacın canlı sakral varlıq olaraq qürrələnməsi, əslində

"rəhmə gəlməməsi" var. Digər tərəfdən bu cümlənin konteksti 12-16-cı cümlələrdə aydın olur.

2-ci cümlədə Ağac müqəddəs Məkkə və Mədinə sakral kompleksi ilə müqayisədə tərənnüm edilir. Başqa sözlə, Uruz Ağacı Musayi-Kəlimin əsası kontekstində "öyür".

3-cü cümlədə Uruz Ağacı su stixiyası kontekstində "öyür".

4-cü cümlədə Uruz Ağacı su stixiyası kontekstində "öyür".

5-ci cümlədə Uruz yenə də eyni kontekstdə Ağaca "öygü" ayinini davam etidirir. Kontekst möhkəmləndirilir. Su ilə bağlı dünya modelindəki bütün sinonim yaruslar "dilləndirilir", köməyə çağırılır.

6-cı cümlədə Uruz ağac obrazını həm bütöv islam, həm də onun şiə qolunun ən müqəddəs obrazları səviyyəsində "öyür".

7-ci cümlədə eyni kontekst məşhur Zülfüqar qılıncı kontekstində möhkəmləndirilir.

8-ci cümlədə Şiə konteksti davam etdirilir. Kontekstin şiə qolu üzrə davam etdirilməsi son mətnin birbaşa olaraq məhz şiə-oğuz ilə bağlılığının göstəricisi olaraq da çıxış edir.

9-cu cümlədə artıq birbaşa olaraq öygü-dua konteksti əski tanrıçılıq koduna keçir. "Ağac qorxusu" ər, yaxud arvad qatlarına salınır. Bu qorxu hər iki qata aid edilməklə, onların bütövlüyündə üzə çıxan cinsi tamlıq konteksti qabardılır.

10-cu cümlədə Ağac "başsız" sayılır. Bu, onun həm ucalığını, həm də dərk olunan dünya kontekstində şaquli bütövlüyünü göstərir.

11-ci cümlədə ifadə olunmuş fikir 10-cu cümlədəki fikirlə birlikdə bütövdür. Bu cümlədəki "dibsiz ağac" obrazı 10-cu cümlədəki "başsız ağac" obrazı ilə birlikdə dünyanın şaquli modelini vermiş olur. Təkcə türk mifində deyil, dünya mifləri kontekstində də ağac dünyanın kosmik modeli, yəni məkan-zaman modeli ("kosmik kontinium") kimi götürülür.

12-ci cümlədə Ağac hədələnir və hədələmə 16-cı cümləyədək davam etdirilir. Ağaca qorxu kontekstində göstəriş verilir ki, əgər məni sənə assalar, sən götürmə, yəni məni ölməyə qoyma, yaxud ölümümü qəbul etmə, buna imkan vermə.

13-cü cümlədə Ağacın hədələnməsi davam etdirilir, ona qarğış edilir. Yəni əgər Ağac Uruzun asılmağını qəbul etsə, onda Uruzun igidliyi qarğış kimi onu tutacaq (İnsanla Ağac arasında mifoloji-magik kontaktın konkret praktikumu).

14-cü cümlədə Ağacı hədələmə davam etdirilir, qüvvətləndirilir.

15-ci və 16-cı cümlələrdə hədələmə konteksti ilk baxışdan adi, profan görünən hadisə ilə qüvvətləndirilir.

Məhz 9-16-cı cümlələr kontekstində fikrimizi davam etdirib deyək ki, Uruzun ağacla bu "dialoqu" dua-qamlamadır. Ağaca xəbərdarlıq edilir ki, sən bu edamı qəbul etmə, əgər qəbul etsən, mənim igidliyim

səni tutacaq. 9-13-cü cümlələrdə Uruzun "gücü çatan" budur. Çünki həmin ağac Uruzun elində bitməyib. Bu baxımdan, Uruzun 14-16-cı cümlələrdə Ağacı qara qullarına kəsdirə biləcəyi ilə hədələməsi ilk baxışdan adi hadisə kimi görünsə də, bu gün belə məişətdə yaşayan ağacı qorxutma ayini ilə bağlıdır. Yada salaq ki, kənd yerlərində indi belə bar verməyən ağacları (ərik, alma) baltanı götürüb kəsməklə hədələyirlər. Demək, Uruzun şüurundakı "ağacı hədələmə" presedenti indi də oğuz-türklərin şüurunda yaşamaqda davam edir.

Beləliklə, Ağac ilkin stixiyanı simvollaşdıran obraz kimi oğuzların təsəvvürlərində ciddi yer tutur. Bu, özünü dastan mətnlərində də saxlayıb. Dastan mətnlərində İnsan-Ağac ünsiyyəti magik-mərasimi səciyyə danışmaqdan çox əski ritual-mifoloji görüşlərdən soraq verir.

Ağaca müraciət "Kitabi-Dədə Qorqud"dan sonra dastançılıq ənənəsində, o cümlədən məhəbbət dastanlarında sürəkli motiv şəklindədir. "Əsli-Kərəm" dastanında Qara Keşiş Əslini də götürüb qaçır. Kərəm sevgilisini ağacdan xəbər alır:

*Dur, sərv, dur səndən xəbər sorayım,*
*Sərv ağacı, sənin maralın hanı?*
*Gözümnən axıtma qanlı yaşları,*
*Sərv ağacı, sənin maralın hanı?*
*Alçaqlı-ucalı qarşıda dağlar,*
*Könlüm intizarda, gözüm qan ağlar,*
*Xəstənin halınnan nə bilər sağlar?*
*Sərv ağacı, sənin maralın hanı?*
*Doğru söyləməsən, qəddin əyilsin,*

*Qarğaram mövladan belin bükülsün,*
*Bir ah çəkim, yarpaqların tökülsün,*
*Sərv ağacı, sənin maralın hanı?* (33, 82-83).

Kərəmin ağacla "dialoqu" eynilə Uruz ilə Ağacın "dialoqunu" "təkrarlayır". Burada İnsan-Ağac münasibətlər kompleksi əski mif-ritual mənşəli olmaqla birbaşa həmin kompleksdən gəlir. Əslində bu iki "dialoqu" tutuşdurub əski ağacı dualama ayinini bərpa etmək olar. Kərəmin ağaca müraciətində eynilə Uruzun müraciətində olduğu kimi ağac əvvəlcə təriflənir, öyülür, daha sonrakı hissələr də "eynidir". Uruz kimi, Kərəm də ağacı hədələyir. Uruz ona qarğış edib kəsməklə hədələdiyi kimi, Kərəm də ağaca qarğış etməklə hədələyir. Burada mətnin əsas strukturu qorunub qalsa da, əski dastançılıqdan məhəbbət dastanlarına gələn yolda baş vermiş transformasiyalar özünü göstərir. Kərəm artıq haqq aşığı kimi, Haqdan gələn ilahi qüvvənin təmsilçisi kimi çıxış edir. Bu baxımdan, onun ahında güc, qüvvə var. O, ağacı ah çəkməsi və bu ahla onu qurudub yarpaqlarını tökməsi ilə hədələyir. Yəni Kərəm ağaca bildirir ki, sənin ölümünü təşkil edə bilərəm. Eynilə Uruz da ağacı qara qullarına kəsdirməsi (yəni ağacı öldürməsi) ilə hədələyir.

Kərəmin ağaca müraciətini, eləcə də Uruzun ağaca müraciətini "dialoq" adlandıraq. Burada söhbət janr tipindən yox, prosesin qarşılıqlı dinamikasının adlandırılmasından gedir. Və biz "dialoq" yazmaqda səhv etmirik. "Əsli-Kərəm" dastanında doğrudan-doğruya Kərəm-Ağac daloqunun şahidi oluruq.

Qazan yurdunu qurddan, yurddan, sudan xəbər aldığı kimi, Kərəm də sevgilisini qayadan, çaydan (sudan), həmçinin meşədən, yəni ağacdan soruşur. Və maraqlıdır ki, bu soruşma "Kitabi-Dədə Qorqud"dan gəlmə "xəbərləşmə" şəklindədir. Kərəmlə Meşə arasında həqiqətən dialoq olur:

*Kərəm: Səndən xəbər alım, ay qara meşə,*
*Qələmi qüdrətdən çəkilmiş qoşa,*
*Bürümüsən dağı, daşı bənövşə,*
*Mənim Əslim buralardan keçdimi?*
*Meşə: Yarın saldı səni olmazın qəmə,*
*Dayanmazmı yaxşı igid bu dəmə?*
*Günəş kimi qondu mənim sinəmə,*
*Əsli məndən bir gül aldı da getdi* (33, 121-122).

Göründüyü kimi, burada Kərəmlə Meşə arasında "xəbərləşmə" – söhbət olur və Meşə şəxsləndirilmiş obraz kimi, Kərəmlə normal poetik ünsiyyətə girir. Onların bir-biri ilə şeirlə xəbərləşməsi birinci planda poetik fondur, ikinci planda əski duanın poetik forma-strukturunun transformasiyasıdır. Ağacın-meşənin belə "personifikasiyası" təsadüfi olmayıb ağacın əski türk mifoloji inamlar sistemindəki funksional mövqeyi, dinamikası ilə bağlıdır.

Maraqlıdır ki, dastançılıq ənənəsində belə "xəbərləşmələr" sistem halını daşıyır və sistemlilik məhz strukturdan xəbər verir. Demək, heç bir təsadüf yoxdur. İnsanla personifikasiya olunmuş Təbiət arasındakı hər hansı münasibətin əski ritual-mifoloji kontekstdə öz modeli var. Və müxtəlif xəbərləşmə tiplərinin tutuşdu-

rulması həmin modelin struktur formasını təsəvvür etməyə imkan verir. Məsələn, Qazanın qurd ilə xəbərləşməsinə diqqət edək:

*Qaranqu axşam olanda günü doğan,*
*Qar ilə yağmur yağanda ər kibi duran,*
*Qaraquç atları gördügində kişnəşdirən,*
*Qızıl dəvə gördügində bozlaşdıran,*
*Ağca qoyun gördügində quyruq çırpıb qamçılayan,*
*Arqasını urub bərk ağılın ardın sökən,*
*Qarma-bükəc simuzin alıb tutan,*
*Qanlı quyruq üzüb çap-çap yudan,*
*Avazı qaba köpəklərə qavğa salan,*
*Çaqmaqluca çobanları dünlə yügürdən,*
*Ordumun xəbərin bilürmisən, degil mana,*
*Qara başım qurban olsun, qurdum, sana* (76, 45).

Qazanın Qurda müraciəti də Ağaca, Suya müraciətlə eyni ritual model daxilindədir. İcra olunan ayin nə qədər poetikləşsə də, bu poetikləşmə müstəvisində belə eyni strukturu ortaya qoymuş olur. Bu cür poetikləşmə belə ritual "nəğmələrinin" sonrakı transformativ törəmələrini vermiş olur. Yəni əski ritual-magik əsasdan uzaqlaşdıqca mətn poetikləşmədə, bədii yaradıcılığın qayda-qanunlarına daha çox tabe etməkdə olur. Bunu "Koroğlu" dastanında bir nəğmədən görmək olur. Koroğlu özünü qurdla əlaqələndirir. Bu bir tərəfdən metaforik poetizmdir, o biri tərəfdən ənənənin inkişafı, törəməsidir:

*Sərp qayalarda yurd olmaz,*
*Müxənnətlə söz dərd olmaz,*
*Çaqqal əniyi qurd olmaz,*
*Yenə qurd oğlu qurd oldu…* (79, 200)

*Koroğluyam, gəzdiyimi tapardım,*
*Qayalar başında qala yapardım,*
*Ağ sürüdən əmlik quzu qapardım,*
*Yeyib qurdlarınla ulaşım, dağlar* (79, 310).

*Koroğluyam, dad hazaram,*
*Adım dəftərdə yazaram,*
*Nə qədər səfil gəzərəm,*
*Adım qurd oldu, qurd oldu* (79, 382).

Birinci parçada "Çaqqal əniyi qurd olmaz" birbaşa olaraq Qazan xanın dilindən deyilmiş "Əzvay qurd ənügi erkəgində bir köküm var" (77, 106) ifadəsi ilə səsləşir. Əlbəttə, məzmun birbaşa eyniləşdirməyə imkan vermir. Ancaq semantik tutuşdurma "Çaqqal əniyi qurd olmaz" paremioloji vahidinin (atalar sözü, deyim) Qazanın dilindən deyilmiş, totem səciyyəli soy-kök ənənəsi ilə bağlı semantemdən törəndiyi qənaətinə gəlməyə imkan verir. Koroğlunun dilindən deyilmiş ifadə "deyim"dir, bütün poetizmi, bədii ekspressivliyi, estetik dinamikası ilə atalar sözləri qəlibində tarixi aprobasiyanın konkret poetik təzahürüdür. Ancaq qəlibin öz yaddaşı, poetik-semantik arxetipi məhz ənənədən (o ənənədən ki, orada poetiklik ritual mifoloji məntiqə tabedir) gəlir.

Koroğlunun dilindən deyilmiş ikinci parçada da semantikası ritual-mifoloji kompleksdən gələn ifadə "Yeyim qurdlarınla ulaşım, dağlar" semantemidir. Üçüncü parçada "Adım qurd oldu, qurd oldu" ifadəsi birbaşa olaraq əski metaforalaşdırmanın poetik transformasiyasıdır.

İlkin stixiyanı simvollaşdıran obrazlar sırasında Günəş də vardır. Günəş təkcə türk xalqlarının yox, eləcə də bütün dünya xalqlarının əski dünyagörüşlərində mifləşib, mifoloji obraza çevrilib, bu obraz sonralar müxtəlif transformasiyalara uğrayıb. Oğuz türklərinin də əski dünyagörüşündə Günəşin böyük yeri var. "Oğuz Kağan"da gördük ki, Oğuzun böyük oğlunun adı Gün xandır.

Günəş ilkin stixiya kimi əski inamlar, rituallar, dini-mifoloji təsəvvürlər sistemində fəal obrazdır. Əski azərbaycanlılar onun şərəfinə mərasimlər keçirmişlər. Bu mərasimlərdə müxtəlif nəğmələr oxunmuşdur. Həmin nəğmələr sonralar transformativ şəkildə bədii mətnlərdə öz inkişafını, davamını tapmışdır. Məsələn, "Günəşi dəvət" mərasimində oxunan nəğmə bu baxımdan analiz üçün gərəkli material verir:

*Gün çıx, gün çıx,*
*Kəhər atı min çıx.*
*Oğlun qayadan uçdu,*
*Qızın təndirə düşdü,*
*Keçəl qızı qoy evdə,*
*Saçlı qızı götür çıx.*
*Gün getdi su içməyə,*
*Qırmızı don biçməyə,*

*Gün özün yetirəcək,*
*Qarı tez götürəcək,*
*Keçəl qızı aparacaq,*
*Saçlı qızı gətirəcək* (29, 23).

Nəğmə ilə bağlı deyilir ki, burada Günəş canlı bilinib şəxsləndirilmiş oğlu, qızı olmasından danışılmışdır. Həm də deyək ki, … bu nəğmədə günəş daha çox qışı yaza çevirən əsas amil kimi qiymətləndirilmişdir. Qədim əkinçi, maldar azərbaycanlı bu nəğməsilə günəşi, qarı əritmək üçün çağırır, ondan öz keçəl qızını (qış təbiətini) evdə qoyub, saçlı qızını (yaz təbiətini) gətirməsini tələb edir (28, 16).

Beləliklə, nəğmənin təbiətlə bağlı aspektinə diqqət yetirilmişdir. Öz növbəmizdə deyək ki, burada güclü metaforalaşdırma vardır. Metaforalaşdırma birbaşa personifikasiyanı nəzərdə tutur. Bu, elə belə deyildir. Günəş əski mifoloji ənənədə canlı insan kimi bilinmiş, təsəvvür edilmişdir. Bu mərasim nəğməsində də Günəş canlı olaraq çağırılır. Onun çağırılması Qazanın Uruzun "xəbərləşmələri" ilə eyni ritual forması, strukturu daşıyır. Bu baxımdan, Günəş ilkin stixiyanı simvollaşdıran obraz kimi dastan mətnlərində mifoloji kompleks daxilindədir, mifin poetikləşmə ənənəsinin qanunlarına tabedir.

Günəş obrazı mifoloji-epik mətnlərdə təkcə personal səviyyədə iştirak etmir; o, metaforalaşdırmanın başqa tiplərini də verir.

Bura təşbehlər xüsusilə aiddir. Təşbehbənzətmələrdə gözəl Günəşə bənzədilir, onun gözəlliyi gynəşlə bağlı poetik atributlar vasitəsilə üzə çıxır:

*Bir pərzad görmüşəm sizin ellərdə,*
*Çün cismi canımın namidarıdır;*
*Günəş nişanəli, qəmər misallı,*
*O, cahan xubinin cilvədarıdı.* ("Qurbani" dastanı)

Belə örnəklərin Azərbaycan dastan mətnlərində, aşıq, el şeirində sayı-hesabı yoxdur. Külli miqdarda örnəklər vermək olar. Ancaq maraqlı olan məsələnin başqa tərəfidir. Bu gün gözəlin günəşlə əlaqələndirilməsini təqdim edən təşbeh bizim üçün bədii metafora tipi kimi qavranılır. Ancaq yaranma, əmələ gəlmə prinsipləri baxımından bu bənzətmənin əsasında mifoloji eyniləşdirmə durur. Bu sıradan qeyd etməliyik ki, ulduz, ay və s. stixiya ilə bağlı obrazlar Azərbaycan məhəbbət dastanlarında geniş iştirak edir. İndiki halda biz Su, Dağ, Ağac, Günəş kimi obrazlardan danışdıq. Bütün bunların sırası təkcə adları qeyd olunanlarla məhdudlaşmır. Sonrakı dastançılıq ənənəsi çoxlu obrazlar sırası vermiş olur. Bu xüsusda diqqət veriləsi məqam ilkin stixiyaların keçirdiyi inkişafdır. Yəni sonrakı dastançılıq ənənəsində obrazların parçalanmaları, müxtəlif tiplərinin yaranması baş verir. Ancaq əskilərə doğru getdikcə görürük ki, sonrakı dastançılıqda tuş olduğumuz obrazlar sırası get-gedə daralır. Bu baxımdan, "Oğuz Kağan" dastanındakı Gün, Ay, Ulduz, Göy, Dağ, Dəniz ilkin stixiyaların konkretləşməsi, daha konkret təqdim sırasıdır. Ancaq bu mətndəki obrazlar ənənənin yalnız bunlarla məhdudlaşdığını göstərmir. "Oğuz Kağan" bir mətn tipi kimi ənənənin funksiyasıdır. Yəni ənənə poetik inkişaf

prosesində burada bir anı ilə qeydə alınıb. Ənənə isə geniş və çoxşaxəlidir. Burada variantlar məsələsi mütləq nəzərə alınmalıdır. Ona görə ki, "Oğuz Kağan" dastanı artıq bitkin bir sistemdir. Bu dastan Azərbaycan məhəbbət dastanlarına nisbətən əski olsa da, o cümlədən təqdim etdiyi informasiya mifə nə qədər yaxın olsa da, orta əsrlərlə bağlı abidə kimi, sadəcə konservativliyinin gücünə arxetipə yaxın görünür. Əski qatlar bizə bəlli deyil. İlkin stixiyaların obrazlaşma situasiyaları çeşidli olub. Məsələn, Uruz Ağacla "xəbərləşir", ancaq ağacın ona cavab verməsini görmürük. "Əsli-Kərəm"də isə Kərəm Meşə ilə xəbərləşir və Meşə onunla danışır. Bu, ilk baxışdan sonrakı hadisədir. Doğrudan da, Meşənin verdiyi cavab-şeir aşıq təxəyyülüdür. Ancaq aşıq, təkrar deyirik ki, ənənə ilə işləyir. Onun arxetipik qaynaqlarla əlaqələnən sənət yaddaşında süzülə-süzülə gələn magik "dialoq" ənənəsi var. Və bu baxımdan, "Əsli-Kərəm" dastanı bizə hətta "Kitabi-Dədə Qorqud"un özündə rast gəlinməyən mifoloji-magik situasiya tipini təqdim etmiş olur.

Fəsildəki tədqiqat göstərir ki, Azərbaycan dastanlarının dastan-mif kontekstində öyrənilməsi məhz dastançılıq ənənəsinin struktur mahiyyətini başa düşmək, bu mətnləri daha yaxşı anlamaq, onları özümüzə daha da yaxınlaşdırmaq üçün dolğun tədqiqat müstəvisi vermiş olur.

# VI FƏSİL

## DASTAN STRUKTURUNDA YAXŞI-YAMAN SEMANTİK MODELİ

Binar (ikili) opozisiyalar dastan düşüncəsinin təsvir materialını təşkil edir. İki qütbü, üzü ilə qavranan dünya düşüncədə ikiüzlü strukturu verir. Həmin ikiüzlü struktur epik mətndə, konkret olaraq dastanda da özünün ikili strukturunu saxlayır. Dastan mətnindəki ikili, ikielementli dünya birbaşa gerçəklikdən gəlmir. Çünki dastan artıq formalaşmış mətn tipidir. Bir tip kimi isə arxetipinə malikdir. Bu baxımdan, dastandakı binar oppozisiyalardan qurulmuş dünya tipi baxımından arxetipik binar struktura malikdir. Həmin arxetip isə mifdən gəlir. Bunun əsasında ənənə durur. Dastan ənənə hadisəsidir və onda olan nə varsa ənənədən gəlir.

Ənənədən gəlmə dastan strukturunun özünün avtonom inkişaf edən epik vahid olduğunu inkar etmir. Dastan bir canlı "bədən" kimi özünün müstəqilliyinə malikdir. Onun gerçəkliklə birbaşa əlaqələri var. Həmin əlaqələr sinxron dərk olunan, sinxron münasibətlər səviyyəsində anlanılan ilişgilərdir. Ancaq dastan bir "bədən" olaraq öz strukturuna malikdir ki, həmin struktur həm də diaxron, yəni tarixən inkişaf edən ənənədir. Bu deyilənlər dastan-mif kontekstinin Yaxşı-Yaman oppozisiyasından görünən mənzərəsinə tamamilə aiddir.

Mifoloji şüur, deyildiyi kimi, dünyanı çox sadə, hissi tərəflərindən dərk edir. Bu üzdən, onun verdiyi dünya obrazının özü sadə bir obrazdır. Bu obraz dünyanın müxtəlif tərəflərindən qavranmasının məhsulu olan struktur vahidlərindən qurulur. Yaxşı-Yaman semantik qarşıdurma strukturu İşıq-Qaranlıq, Gündüz-Gecə, Əlverişli-Əlverişsiz, Şirin-Acı və s. kimi çox sadə qarşıdurma strukturları ilə birlikdə dünyanın məhz ikili struktura malik şəklini, obrazını, yaxud modelini vermiş olur. Düşüncənin inkişafı boyunca obrazlaşdırma prosesi dərinləşdikcə bu strukturların daxili düzümü zənginləşir. Ənənəvi düşüncə davam etdikcə bu zənginləşmə də davam edir. Mif ilə epos arasındakı inkişaf yolu ənənəvi bir yoldur. Ona görə də, dastan strukturundakı semantik oppozisiyalar ilkin mifoloji oppozisiyaların inkişaf etmiş şəkilləridir. Burada inkişaf, deyildiyi kimi, həm də zənginləşmə ilə müşayiət edilir. Yəni dastan mətnində elə qarşıdurma ikilikləri var ki, onlar mifdəki ikiliklərin artıq sinonimik sıralarıdır.

Dastan strukturunun Yaxşı-Yaman qarşıdurma ikiliyi birbaşa mifoloji düşüncəyə gedib çıxan ikilikdir. Bu elə universal ikilikdir ki, o, nəinki mifdə, eləcə də ənənəvi mədəniyyətin bütün mətnlərində müşahidə olunur. Eyni zamanda bütün dünya mədəniyyəti kontekstində eyni məzmunda çıxış edir.

Dastan mətnindəki Yaxşı-Yaman konflikti bütün hallarda obrazlar arasındakı qarşıdurmada təcəssüm edir. Bunun mif konteksti həmin obrazların durduğu sıranı mifoloji obrazlar səviyyəsində götürməyi tələb

edir. İndiyədək qorunub qalmış mifoloji mətnlər belə məsələnin arxetipik şəklini təqdim etmək gücündədir. Mifə diqqət edək:

"Gözümüzlə nə görürüksə, hamısının əyəsi (sahibi, yiyəsi – M.C.) var. Bu əyələrlə bizdən yeylərin arasında fərq var. Bizdən yeylər heç bir şeyin sahibi deyil. Ancaq əyələr nəyin əyəsidirsə, onun da sahibidir, özü də onda yaşayır. Daha suda, yaxud dağda bağ əyəsi olmaz. Onların da öz əyələri var. Ancaq bizdən yeylər hər yerdə yaşayır. İllah da qaranlıq yerlərdə, xaraba yerlərdə, ağac altında, su başında yaşayırlar.

Bizdən yeylər həmişə insanın malını oğurlayır, qazanını, paltarını, düyüsünü, yağını aparır, plov bişirib yeiyr, paltarını geyib oynayır. Bir sözlə, bizdən yeylər həmişə insanlara zərər verir.

Ancaq əyələr çox xeyirxahdır. Əgər onların yanına gələndə salam versən, gedəndə "salamat qal" desən, bir şeylərin götürəndə icazə istəsən, səndən xoşu gələcək, həmişə sənə kömək edəcək. Məsələn, dediklərimi eləsən, ev əyəsi evini abad edəcək, həmişə evində şadlıq olacaq. Yol əyəsi yolunu uğurlu edəcək, səni varlandıracaq. Qalanları da bunlar kimi" (praktik məqsədlər naminə mətnin dilini ədəbiləşdirdik, indiki halda bu, prinsipial əhəmiyyət daşımır – *M.C.* (34, 51).

Bu mif bir mifoloji düşüncənin daşıyıcısı olmaqla bizə Yaxşı-Yaman konfliktinin əslində mifoloji mənzərəsini təsəvvür etməyə imkan verir. Bəlli olur ki, mifoloji düşüncədə Yaxşılıq, yaxud Yamanlıq (pislik)

öz-özlüyündə mənəvi keyfiyyətlər kimi təsəvvür olunmur. Çağdaş tarixi şüur bu semantik kAteqoriyalara münasibətdə onları sırf mənəvi keyfiyyət hadisəsi sayır və Yaxşı-Yaman əxlaqi-etik qarşıdurma qoşalığı kimi anlayır. Ancaq bizim dövrümüzə qədər qorunub qalmış mifdən də bəlli olduğu kimi, mifoloji düşüncədə Yaxşılıq və Yamanlıq ruhlarla, daha doğrusu, mifoloji güclərlə əlaqələndirilir. Bu, İnsan, Dünya, Zaman haqqında ilkin insanın şüurunda mövcud olan xüsusi təsəvvürlər sistemi ilə bağlıdır ki, bu sistemdə xronotop (məkan-zaman) çağdaş şüurdan tamamilə fərqli qavranılır. Məkan qapalıdır, zaman da qapalıdır. Məkanla zaman çevrəsində dərk olunan, mənimsənən hər şey qapalıdır. Zaman məkandan ayrı təsəvvür edilmir, bu da öz növbəsində zamanın məkanlaşmasını yəni maddiləşməsini, maddi obrazlardan dərk olunmasını vermiş olur. Göründüyü kimi, ruhlar haqqında olan mifdə "əyə" və bizdən "yey" kateqoriyasına aid olan ruhlar əslində animistik təsəvvürlər əsasında qurulmaqla Yaxşı və Yaman anlayışlarının maddiləşməsini təcəssüm etdirir. Yəni ibtidai düşüncədə heç nə bu düşüncənin obrazlaşdırma sistemindən qıraqda qala bilmədiyi kimi, bu etik qoşalıqlar da obrazlaşmışdır.

Beləliklə, mifoloji düşüncədə Yaxşı-Yaman semantik qoşalığı öz obrazlaşmasına malik olmuşdur. Mifoloji düşüncənin parçalanması və tarixi düşüncənin onun yerini tutması zəminində mifoloji düşüncə sistemi ilə bağlı olan və əsatiri səciyyəli hadisələri bildirən mətnlər ictimai şüurun bir neçə qatının, o cümlədən

epik düşüncənin materialını təşkil etmişdir. Bu cəhətdən, Yaxşı-Yaman obrazı qoşalığı mifdən epik mətnlərə keçmişdir. Bu, dastan-mif kontekstindən baxdıqda daha aydın görünür. Dastan mətnində Yaxşı-Yaman semantik qoşalığına görə elementlərin alt qatında, arxetipində duran mifoloji əsas görünür.

"Kitabi-Dədə Qorqud"dan belə bir məşhur ifadə keçir: "Ol zamanda bəylərin qarğışı qarğış, alqışı alqış idi". Bu ifadə spesifik xüsusiyyətlərinə malik olmaqla eyni zamanda mövzumuzla bağlı çox ciddi məsələlərin üstünə işıq salmış olur. Bundan əvvəlki fəsillərdə, xüsusilə qeyri-adi doğuşla bağlı hadisələrdə oğuz bəylərinin övladı olmayan bəylər üçün necə əl götürüb Tanrıya dua etdiyindən yazmışdıq. Onda gördüyümüz kimi, bəylərin kollektiv şəkildə, ürəkdən etdikləri alqış-dua qəbul olunur. Bir dastan hadisəsi olaraq bu məsələnin bir tərəfindən spesifik semantikası, o biri tərəfdən epik funksionallaşma semantikası var. Yəni bəylərin əl götürərək Tanrıya alqış (dua) etmələri spesifik dua-ritualdır. Tanrı ilə insan arasında olan münasibətlər xüsusi mərasim-ayinlər vasitəsi ilə həyata keçirilirmiş. Bu, təkcə Tanrı ilə İnsan arasında deyildi. Ümumiyyətlə, sakral dünya ilə adi dünya arasındakı hər hansı əlaqə mərasimlər vasitəsi ilə təşkil olunurmuş.

Bəylərin alqışının – alqış, qarğışının isə – qarğış olması ilə bağlı stereotip ifadə Yaxşı-Yaman semantik qoşalığının söz anlayışı ilə ciddi şəkildə bağlı olduğunu nümayiş etdirir. Bəylər övladı olmayan hər hansı oğuz bəyi üçün Tanrıya alqış edirlər, yəni söz

deyirlər, söz vasitəsi ilə müraciət edirlər. Bu, sözün mifoloji-magik rolunu nümayiş etdirir. Eləcə də bəylər məhz söz vasitəsi ilə qarğış edirlər. Bu da sözün Yaxşılıq və Yamanlıqla xüsusi şəkildə əlaqədə olduğunu göstərir.

Beləliklə, Yaxşı-Yaman məna qoşalığı bizi söz ilə bağlı mürəkkəb münasibətlər düzümünə yönəldir. Burada söz çox mürəkkəb rolda görünür. Sözün öz-özlüyündə rol oynaya bilməyəcəyi, yəni bir funksiya olaraq funksionallaşdırıcıdan asılı olduğu bəllidir. Bu anlamda, Yaxşı-Yaman konfliktinin söz vasitəsi ilə gerçəkləşdirilməsi bu mücərrəd kateqoriyalarla bağlı obrazlar sistemini, yəni funksiyaları hərəkətə gətirən personajları bərpa etməyi, üzə çıxarmağı tələb edir.

"Kitabi-Dədə Qorqud"da Söz birbaşa Dədə Qorqudun funksiyasına müncər edilib: "Oğuzun ol kişi təmam bilicisiydi, - nə diyərsə olurdu. Ğaibdən dürlü xəbər söylərdi, Həqtəala anın könlinə ilham edərdi…" (76, 31).

Bu məşhur epitetik təqdimdən göründüyü kimi, Dədə Qorqudun bütün qabiliyyət və funksiyası söz ilə bağlıdır. O, söz vasitəsilə hər şeyi bilir, söz vasitəsi ilə gələcək haqqında söyləyir, keçmişdən, gizlindən söz vasitəsilə xəbər verir və onun könlünə Tanrı özü söz yollayır. Burada söz bütün hallarda informasiya səviyyəsindədir. Hələ onun Yaxşı-Yaman qarşıdurma ikiliyindən görünən tərəfləri haqqında söhbət getmir. Söhbət Tanrıdan gələn söz ilə bağlıdır. Bu, sakral, müqəddəs sözdür. Demək, Qorqud Sakral Sözün

daşıyıcısı, çatdırıcısı, mediatorudur (əlaqələndiricisidir).

Oğuz cəmiyyətində sözə inamla sakral söz sahibi Dədə Qorquda inam eyni olmuşdur. Bu iki obraz-anlayış eyni sıradan dərk olunmuşdur. Dədə Qorqud bu baxımdan təkcə oğuzlar üçün deyil, etnik-mədəni şüurun sonrakı daşıyıcıları üçün də həm sakral, həm də tarixi planda dərk olunmuşdur. Bu iki plan əslində bir-birindən ayrı təsəvvür edilməmişdir. Çünki ənənəvi şüurun özündə real olanla xəyali olanın qaynağı, başlanğıcı bir olmuş, etnosun özü özünü bir tarix olaraq dərkində həqiqət və əfsanə sərhədi olmamışdır.

Qorqudşünas C.Bəydili yazır ki, Dədə Qorqud bədii təxəyyül və bədii fantaziya faktı deyil. Ona görə də Qorqud ata obrazı ifadəsini də bütün şərtiliyi ilə qəbul etmək lazım gəlir və əslində Qorqud "sözün hərfi mənasında maddi olaraq dərk edildiyindən" tarixi şəxsiyyət olacaq qədər gerçəklik cizgiləri daşımışdır. Ənənəvi mədəniyyət daşıyıcıları mifin özünü yaşanılmış tarix, "gerçəkdə baş vermiş presedent" kimi qavrayır. Bu gün mifoloji obraz olaraq bilinənlərin də həqiqətdə var olduğuna inanırlar (44, 187).

Qorqud-söz münasibətlərindən C.Bəydilinin dediklərinə yanaşsaq, sözün özü oğuz cəmiyyətində (istər onun mifoloji çağında, istərsə də canlı epos çağında) gerçəklik kimi qavranmışdır. Yəni sözlə bağlı təsəvvür edilən mifoloji informasiyalara inam qədər sözün öz gerçəkliyinə, müqəddəsliyinə inam olmuş-

dur. Bu, Qorqud obrazının bir mifoloji-epik varlıq olaraq çox mürəkkəb münasibətlər kompleksi ilə bağlı olduğunu göstərir. C.Bəydilinin (Məmmədov) yazdığı kimi, Qorqud ata mifoloji görüş və təsəvvürlərin məhsuludur. Özü də elə mifoloji görüş və təsəvvürlərin ki, onlar bir-biri ilə qarşılıqlı şəkildə bağlaşıb qapanır, görüş və təsəvvürlərin kompleksini təşkil edir (88, 12). Bu anlamda, sözün magik gücünün "Kitabi-Dədə Qorqud"da Dədə Qorqud obrazına müncər edilməsi bir-biri ilə "bağlaşıb qapanan" görüş və təsəvvürlərlə bağlıdır.

Sözün magik imkanları Dədə Qorqud təsəvvürlər kompleksində belə dünya obrazının qlobal parametrləri, o cümlədən zaman parametrləri ilə sıx bağlı idi. Zaman mifdə xüsusi və qapalı ritmdən dəyərləndirilən kateqoriya olmaqla sözə münasibətdə də xüsusi təzahürlənmə nümayiş etdirmişdir. Qorqudşünas M.Əlizadə "Ol zamanda bəglərin alqışı alqış, qarğışı qarğış idi, duaları müstəcəb olurdı" ifadəsində zamanın oğuzlara məxsus qavrayışını və yenə də onlara məxsus təqdim özəlliyinin olduğundan söhbət açmışdır (59, 37).

Söz ənənəvi cəmiyyətdə həm ünsiyyətin vasitəsi, həm də həmin cəmiyyətin özünəməxsus ifadələnmə vahididir. Yəni sözdə etnos öz psixologiyası baxımından mövcud olur. Məsələn, qorqudşünas R.Rəsulov "Kitabi-Dədə Qorqud" eposunun "dil qatında" kodlaşan bədii-epik informasiya əsasında öyrənilməsinin iki elmi üsulunu verir:

a) "Kitabi-Dədə Qorqud"da oğuz psixikasının hallarını bildirən sözlərin leksik-semantik təhlili;

b) bu sözlərin mətn qatlarında yayılma tezliyi (98, 9).

R.Rəsulov oğuz etnopsixologiyasının, psixikasının bu üsullarla öyrənilməsini Avropa alimi L.Blumfildin bu nəzəri fikri ilə əsaslandırır: "… kollektiv qurumun, icmanın, tayfanın həyatına hansısa hadisənin intensiv daxil olması öz ifadəsini həmin hadisəni bildirən sözlərin təkrarlanma dərəcəsində göstərir" (138, 435).

Beləliklə, Yaxşı-Yaman probleminin Söz kontekstində dərki əslində Söz və Mif münasibətlərinin düzümünə gəlib çıxır. Bu xüsusda, prof. K.Abdullayev göstərir ki, Söz mifoloji dünyada adi şey deyil. Söz mifin təzahürüdür və onu cəmiyyət üzvləri belə də qəbul eləməlidirlər. Sözün kultu öz-özünə gətirib mifin kultuna çıxarmalıdır. Eyni zamanda Söz bütövlükdə cəmiyyəti simvolizə edir. Cəmiyyət də Söz kimi daxili bütövlüyə, tamlığa malik olmalıdır… çünki həmin cəmiyyəti məhz Söz yaradırdı – Sözün qanunlar çərçivəsi, Sözün davranış normaları və Sözün qoyduğu həyat tərzi yaradırdı. Cəmiyyət bütövlükdə Sözün övladı kimi doğulurdu (10, 30).

Məsələyə K.Abdullayevin təqdim etdiyi formuladan baxdıqda, Sözlə Yaxşı-Yaman qarşıdurma ikiliyi arasında ikitərəfli münasibətlər görünür. Sözün bu qarşıdurmanı öz içinə ala bilməsi bu münasibətlərin birinci tərəfidir. İkinci tərəfi isə

sözün həmin qarşıdurma üçün daşınma vasitəsi olmasıdır.

Yaxşı-Yaman bu gün sırf etik qarşıdurma ikiliyi olmaqla arxetipində bu aspektdən məhrum deyil. Ancaq arxetipdə, kosmoloji düşüncədə bu oppozisiya semantik qoşalıq olmaqla öz semantemləşməsini xüsusi varlıqlardan, mifoloji obrazlardan götürür. Yəni bu semantik qütblər əslində semantik obrazların təzahürləridir. Mənfilik, yamanlıq, pislik bu qüvvənin daşıyıcısı ilə bağlıdır. Eləcə də Yaxşılıq, müsbət olmaq da Yaxşı (müsbət) mifoloji varlığın təzahürüdür. Bu baxımdan insanın yaxşılıq, yaxud yamanlıq etməsi həmin qüvvələrdən hansı ilə kontaktda olmasından irəli gəlirdi. Yəni bu, belə qəbul edilirdi. Dastan mətnində bunun modelləşdirilməsinin izləri var. Dastan qəhrəmanının get-gedə reallaşdırılmaqda olan, öz mifoloji məntiqindən qopan hərəkətləri arxetipində mifoloji situasiya ilə əsaslanan məntiqə malikdir. Məsələn, yağış yağdırmaq istəyən ilkin insan bunu nəğmə ilə müşayiət edir. O, iki çaxmaq daşını bir-birinə vurmaqla yağışın müjdəçisi olan ildırımın süni bənzərini yaradır, başqa sözlə sehr edir, eyni zamanda həm də

*Çax daşı,*
*Çaxmaq daşı,*
*Allah versin*
*Yağışı –*

deyə xüsusi bir ovsun nəğməsi yaradır və oxuyur (105, 14; 127, 57). Yəni insan öz növbəsində sehrli qüvvəyə təsir etmək təşəbbüsündə olur. Yaxud o, praktik

tələbatlar zəminində daim bu işlə məşğul olmalı olur. Bu da onun modelləşdirilmiş hərəkətlərinə gətirir. Həmin hərəkətlər sonradan epik mətnlərdə qorunub qalır. Eləcə də məhəbbət dastanlarında, yaxud ümumiyyətlə dastanlarda belə mifoloji hərəkət modellərinin izlərini görmək olur.

"Kitabi-Dədə Qorqud"da Yaxşı-Yaman qarşıdurma ikiliyi etiket ifadələrdə – alqış və qarğışlarda özünün bütün xronotop (məkan-zaman) kompleksi ilə görünür. Etiket sonluqlardan birinə diqqət edək:

*Qara tağların yıxılmasun!*
*Kölgəlicə qaba ağacın kəsilməsün!*
*Ağ saqqallı baban yeri uçmaq olsun!*
*Ağ birçəkli anan yeri behişt olsun!*
*Oğulla qarındaşdan ayurmasun!*
*"Amin! Amin!" deyənlər didar görsün*
*Yığışdursun, durışdursun günahınızı*
*Adı görklü Məhəmməd Mustafa yüzi suyuna*
*bağuşlasın, xanım, hey..."* (76, 67)

Bu alqışdan bəlli olur ki, "Kitabi-Dədə Qorqud" oğuzlarının Yaxşı-Yaman anlayışları konkret obrazlarla bağlıdır. Bəlli olur ki, Qara dağların yıxılması-yamandır, kölgəlicə qaba ağacın kəsilməsi – yamandır. Ağ saqqallı atanın yeri uçmaqdırsa – yaxşıdır, damudursa – yamandır. Ağ birçəkli ananın yeri də həmçinin cənnətdirsə – yaxşıdır, cəhənnəmdirsə – pisdir. Qeyd edək ki, sonuncu ifadələrdə "uçmaq" – "cənnət" paralelini görürük. Bu, doğrudan da

paralelizmdir. Ancaq keçid səciyyəlidir. Hazırda cənnət anlamında "uçmaq" sözünün işlənməməsi gözümüzün qabağına keçid dövrü ilə bağlı maraqlı mənzərə gətirmiş olur. Linqvotransformasiya baş vermiş çox böyük mədəni-tarixi transformasiyadan soraq verir. Ənənə davam edir. Yaxşı-Yaman qarşıdurma ikiliyi əgər tanrıçılıqda "Uçmaq- amu" obraz kompleksində çıxırdısa, indi "Cənnət-Cəhənnəm" kompleksi onu əvəz edir. Linqvotransformasiya baş verir, ancaq ənənənin semantik axarı dəyişmir. İstiqamət pozulmur, magistral düşüncə xətti yerində qalır. Bu da ənənənin varisliyidir.

Yuxarıdakı alqışdan bəlli olur ki, oğulla qardaşdan ayrılmaq pisdir, bu da ayrılıq anlayışının növbəti misrada ("Amin! Amin!" deyənlər didar görsün!) sakral cəhətdən qüvvətləndirilmiş kontekstdə dəyərləndirilməsi ilə nəticələnir.

Məhəmməd salavatullahın adına bağışlanma aktının aid edilməsi öz-özlüündə islami bir presedentdir: Məhəmməd Mustafa üzünün suyuna (abrına) insanın günahlarının bağışlanması, yəni etdiyi yamanlıqdan keçilməsi islamda təqdim-təbliğ edilən dini davranış aktıdır. Bunun arxasında, daha doğrusu alt qatında, arxetipik skeletində eyni kompleksin oğuzların əski inamlarından gəlmə ənənəsi durur. Təbii ki, Yaxşı-yaman semantik qarşıdurma qoşalığının "Yaman" qütbündə sakral insident zəminində dəyişiklik edilə bilməsi oğuz əski şüurundan gəlməklə onun mətnlərinin də buna uyğunluğunu təmin etmiş olur. Yəni günahın əski

ənənələrə uyğun bağışlanma modeli mətndə də özünün ritual strukturunu saxlamış olur.

Yaxşı-Yaman qarşıdurma ikiliyi alqış-qarğış poetik-magik modeli vasitəsi ilə daha dərindən dərkə gəlir. B.Abdullanın yazdığı kimi, …adamların təsəvvüründə belə etiqad stabilləşmişdir ki, bu ruhlar, adətən, xeyirxah və bədxah olurlar. adamların arzu və istəyini müsbət və mənfi düşünüşdə həyata keçirən, onları ayrıca işə yönəldən də sanki elə bu ruhlardır. Olsun ki, "alqış" ifadəsindəki "al", "qarğış" ifadəsindəki "qara" da elə ruh adlarıdır. Şübhəsiz ki, bu ifadələrin hər ikisində çoxmənalılıq da vardır. Misal üçün: "al" bir sıra çalarlarla həm nəsil, tayfa, həm də yalan, hiylə deməkdir. Ümumiyyətlə, "al"ın qoşulduğu sözlərin hamısı qeydə alınsa, böyük siyahı alınar (6, 52).

Müəllifin "al" və "qara" sözlərindən ruh adları kimi bəhs etməsi özünü doğrulda biləcək haldır. Çünki əski ənənədə linqvomifoloji hal olaraq görünən, duyulan, maddi tərəflərin şeylərin adlandırılmasında iştirakı məlumdur. Digər tərəfdən, "al"la bağlı çoxlu fikirlər söylənmiş, xüsusilə bu sözün dildə işlənmə spektrinin geniş olduğu, linqvoderivativ törəmələr sisteminin olduğu göstərilmişdir. Qeyd edək ki, "al"ın çoxmənalı söz olması dilin ana funksiyalarından olan nominasiyalaşdırma ilə bağlı hadisədir. Bəzən assosiativ-linqvistik keçidlər yeni söz törəmələrinin yaranmasına səbəb olur. Odur ki, "al" sözünün bütövlükdə praktikada olduğu kimi "siyahısının" düzəldilməsi çox vaxt özünü doğrultmur. Mifoloji anlamında bu söz, eləcə də "qar-" (-ğış) sözü

mifoloji funksiyası ilə əlaqədar, onun imkan verdiyi dərəcədə götürülüb öyrənilməlidir. Bu funksiyanın imkan verdiyi, görünən tərəfi indi alqışların – xeyir, dua, qarğışların isə – bəd dua kimi qavranması ilə, yəni Yaxşı-Yaman semantik qoşalığından qavranması ilə əlamətdardır.

Yaxşı-Yaman semantik qoşalığı epik obrazın müxtəlif qatlarına münasibətdə konkretləşmə nümayiş etdirir. Yəni oğuzların epik dünyasında semantik cəhətdən dəyərləndirilmiş obrazlar var və həmin obrazlara münasibətdə Yaxşı-Yaman semantik əkslikləri həmişə konkret situasiya, konkret məkan-zamanla bağlı olur. Məsələn, birinci boyda Buğacın anasının Qazılıq dağına qarğış-müraciətini nəzərdən keçirək:

*"...Qazılıq dağı, aqar sənin suların,*
*Aqar ikən aqmaz olsun!*
*Bitər sənin otların, Qazılıq dağı,*
*Bitər ikən bitməz olsun!*
*Qaçar sənin keyiklərin, Qazılıq dağı,*
*Qaçar ikən qaçmaz olsun, taşa dönsün!..."*
(76, 39)

Göründüyü kimi, Buğacın anası bəd dua edir, yəni Qazılıq dağını qarğışlayır. Onun dağa qarğış etməsi tədqiqatçı üçün əslində yalnız qarğışın özü ilə əlamətdar deyildir. Burada bütöv ritual-mifoloji situasiya təsvir olunur. Daha doğrusu, magik-ritual situasiyanı biz epikləşmiş formada öz dinamik təfərrüatı ilə görürük.

Qarğama prosesi Ana ilə Dağ arasında gedir. Bu prosesin semantik dinamikası Anadan Dağa doğrudur. Yəni bəd dua, mənfi söz Anadan çıxır, onu qəbul edən isə Dağdır. Beləliklə, qarğamanın strukturu iki əsas elementdən (göndərən və qəbul edən) ibarət olmaqla üzə çıxır:

***ANA*** – Qarğıyan, qarğışı göndərən, yaxud İnformator

***DAĞ*** – Qarğınan, qarğışı qəbul edən, yaxud Auditor.

Ancaq qarğamanın struktur elementləri bununla qurtarmır. Anadan dağa göndərilən qarğış birbaşa dağın özünə deyil, Ananın bəd duasında dağa edilən qarğış əslində onun semantik elementlərinədir… Yəni dağ özü daş, torpaq, qayadan ibarətdir. Ancaq ananın qarğışında məhz dağa edilən qarğış nə onun daşına, nə torpağına, nə də qayasınadır. Beləliklə, qarğamanın strukturunda üzə çıxan dağ artıq fiziki dağ deyil. Bu dağ fiziki obyekt olaraq da epik-mifoloji şüurda dəyərləndirilmiş bir sıra semantik elementlərdən təşkil olunur. Həmin elementlər dağı məhz dağ kimi səciyyələndirir. Yəni onların olmağı ilə dağ diridir, onların öz fəaliyyətini dayandırmağı, yəni ölməyi ilə dağ da ölmüş olur.

## *DAĞIN EPİK-MİFOLOJİ STRUKTUR ELEMENTLƏRİ*

a) Axar suları;
b) Bitən otları;

c) Qaçan keyikləri;

ç) Arslanı;

d) Qaplanı.

Ana dağı qarğayarkən onun məhz Su-yunu, Ot-unu, Keyik-ini, Arslan-ını, Qaplan-ını qarğayır. Bəd dua edilərək arzu edilir ki, dağın axar suları axmasın, bitər otları bitməsin, qaçar keyikləri qaçmasın, arslanı, qaplanı məhv olsun. Beləliklə, Ananın bu bəd duasında-qarğışında dağın üzə çıxan semantik elementləri bunlardır. Bu elementlər mifoloji-epik obraz olaraq "Kitabi-Dədə Qorqud"da dağı funksionallaşdıran elementlərdir. Dağın dağ olmağı, yəni funksionallaşması bu elementlərin işləkliyindən asılıdır. Onların öz fəaliyyətini dayandırmağı ilə dağ da öz fəaliyyətini dayandırmış olur. Diqqət edək, ana dağı qarğayır, ancaq bu qarğışlar bizim anladığımız dağ obrazına deyil, onun suyuna, otuna, keyikinə, arslanına, qaplanınadır. Demək, ananın, o cümlədən oğuzların mənalandırdıqları dağ anlayışına yuxarıda sadaladıqlarımız daxildir. Yəni oğuzlar üçün dağ suyu, otu, keyiki, arslan və qaplanı ilə birgə dağdır. Ən maraqlısı və mühümü ondan ibarətdir ki, oğuzlar üçün canlı və ölü dağlar vardır. Əks təqdirdə, ana dağa qarğış etməzdi. Oğuzlar insanları qarğadıqları kimi, dağları da qarğaya bilirlər. Qarğışın insana təsiri məlumdur. Qarğış insanı tutur, başına pis işlər gətirir, öldürür. Demək, oğuzlar üçün dağ insani keyfiyətlərə malikdir, ən azı, canlı keyfiyyətlərinə malikdir. Bu canlılıq məhz onun sadaladığımız elementlərində üzə çıxır. Dağı qarğış o vaxt tutur ki, suyu axmır, otu

bitmir, keyiki qaçmır, arslanı, qaplanı olmur. Yəni saydığımız bu beş element öz fəaliyyətini dayandırdıqda, öldükdə dağı qarğış tutur, yəni dağ da ölür. Beləliklə, oğuz epik ənənəsində onların canlı dağ anlayışına daxil olan su, ot, keyik, arslan, qaplan semantemləri dağın ruhunu, canını bildirir. Dağın canı bu obrazlardadır. Bunların ölməyi, öz fəaliyyətini dayandırmağı ilə dağ ölmüş olur. Bu, divin canını özündən qıraqda olan əşyada, hər hansı obrazda (göyərçin, quş) olması kimi yaşarı epik ənənə ilə tam təsdiq olunur. Bunun belə olmağı mətnin özündən də bilinir. Ananın yaralı oğlu – Buğac anasının günahsız dağı qarğımasından narahat olur. Çünki anasının qarğışının dağı tutacağından, dağın suyunun quruyacağından, otunun bitməyəcəyindən, keyikinin, arslanının, qaplanının öləcəyindən qorxur və anasına üz tutur ki, dağı qarğamasın:

*Bəri gəlgil, ağ südin əmdigim ana!*
*Ağ birçəkli, izzətlü, canım ana!*
*"Aqar"ayıda suların qarğamagil,*
*Qazılıq dağının suyunun günahı yoqdur.*
*"Bitər"ayıda otların qarğamağıl,*
*Qazılıq tağının suçu yoqdur.*
*Arslanla qaplanına qarğamağıl,*
*Qazılıq tağının suçu yoqdur.*
*Qarğarsan, babama qarğa,*
*Bu suç, bu günah babamdandır, - dedi* (76, 39).

Oğuz düşüncəsində qarğış qorxulu dua sayılır və o, birbaşa ölümlə bağlanılır. Düzdür, qarğışların

hamısında ölüm arzu edilmir. Ancaq qarğış bütün hallarda bəd, pis duadır və onun yamanlıq, o cümlədən ölümlə bağlı olmağı yenə də eposun mətnindən üzə çıxır. "Basat-Təpəgöz" boyunda Təpəgöz ölümə düçar olmasının səbəbini məhz qarğışda görür. O, öz günahlarını başa düşür, öz ölümünün pis niyyətlərdən irəli gəldiyini anlayır. Oğuz elinə etdiyi pislikləri və bunların müqabilində ancaq qarğış aldığını özü etiraf edir:

*"… Qalqubanı yerimdən turam, derdim,*
*Qalın Oğuz bəglərindən əhdim bozam, derdim.*
*Yenidən toğanın qıram, derdim.*
*Bir kəz adam ətinə toyam, derdim.*
*Qalın oğuz bəgləri üzərimə*
*Yığılıb gələ, derdim.*
*Qaçubanı Sallaxana qayasına girəm, derdim.*
*Ağır mancılaq taşla atam, derdim.*
*Ala gözdən ayırdın, yigit, məni!*
*Tatlu candan ayırsın qadir səni!-dedi".*

Təpəgöz bir dəxi soylamış, aydır:

*Ağ saqqallu qocaları çoq ağlatmışam.*
*Ağ saqqallu qarğışı tutdu ola, gözüm səni?*
*Ağ birçəkli qarıcıqları çoq ağlatmışam.*
*Göz yaşı tutdu ola, gözüm səni?*
*Bığcağı aqarmış yigitcikləri çoq yemişəm,*
*Yigitlikləri tutdı ola, gözüm səni?*
*Əlcugəzi qınalı qızıcığazlan çoq yemişəm.*
*Qarışcuları tutdu ola, gözüm səni?*
*Elə kim çəkərəm mən göz bunını,*
*Heç yigidə verməsin qadir tənri göz yükini!*

*Gözüm, gözüm, ay gözüm!*
*Yalnız gözüm! – dedi"* (76, 103)

Təpəgözün dilindən onun günahları sadalanır. Bəlli olur ki, o, Oğuz eli üçün çox böyük sosial, siyasi, fiziki təhlükə imiş. O, özü qəsdən Oğuz bəyləri ilə əhdi rozmuş, yenicə doğulmuşlarını qırmaq istəmiş, yəni oğuz elini artmağa qoymaq istəməmiş. Oğuz eli igidlərinin onun üstünə gəlməsini istəmiş ki, onları Sallaxana qayasından atdığı mancanaq daşları ilə birdən məhv etsin. Təpəgöz bu vəziyyətə düşməyini ağ saqqallı babaların, ağ birçəkli nənələrin, əli xınalı qızların, bığ yerləri təzəcə qaralmış igidlərin qarğışı ilə bağlayır və burada qarğışın həm semantem kimi, həm də funksional element kimi yeri üzə çıxır. Yəni qarğış bir tərəfdən öz-özlüyündə semantik vahiddir. İki tərəf arasında baş verir: qarğayan və qarğanan. Ancaq qarğışın funksional tərəflərinə indiki halda onun epik mətndəki funksionallaşması da daxildir. Yəni Təpəgözlə Oğuz eli arasında baş verənlər çox iri, taleyüklü, etnik baxımdan həlledici konfliktdir. Bu konflikti Basat həll edir. Ancaq epik şüura görə bu, belə deyil, Basat yalnız icraçıdır. Əslində Təpəgözü qarğış tutur. Bayandır xanın birinci boydan məşhur cümləsini yada salaq: "Allah-Taala qarğamış, biz dəxi qarğarız". Yəni qarğış Tanrı səviyyəsində sanksiyalaşdırılmış hadisədir. Qarğışın tutub-tutmayacağı Tanrıdan asılıdır. Tanrı səviyyəsindəki koda giriləndə qarğış tutur. Deməl, Təpəgözün məhvi Tanrı iradəsi kimi baş verir. Bu baxımdan, Basat Tanrı iradəsinin gerçəkləşdiricisi kimi çıxış edir və bu,

qəhrəmanların epik obraz kimi proqramlaşdırıldıqları epik şüurun strukturundan irəli gəlir. Bu şüurda Tanrı var və Tanrı iradəsi epik qatlarında da öz təzahürünü tapmışdır.

Yaxşı-Yaman konflikt strukturu, semantik qoşalığı "Kitabi-Dədə Qorqud"da öz təzahürlənmə tipinə, sisteminə malik olduğu kimi, məhəbbət dastanlarında da bu, sistem şəklindədir. Məhəbbət dastanlarındakı Yaxşı-Yaman sistemi ənənə varisliyi səviyyəsində "Kitabi-Dədə Qorqud"dan gəlir. Semantik elementlər öz arxaik strukturunu burada qoruyur. Ancaq epoxanın ruhu, epik ənənənin yeniliyi özünü göstərir. Arxaik struktur qalır, elementləri, ümumi fonu zənginləşməkdə, əlvanlaşmaqda davam edir.

"Qurbani" dastanında Qurbaninin vəziri qarğaması Yaxşı-Yaman semantik qoşalığının orta əsrlər dastançılığındakı sistem durumunu öyrənmək üçün gərəkli material verir:

*"Vəzir, səni qarğayıram,*
*Haqq diləyin yetirməsin!*
*Göydən min bir bəla ensə,*
*Birin səndən ötürməsin!*

*Evindən düşəsən qaçaq,*
*Sağ gözünə batsın bıçaq,*
*Oğul, uşaq olsun naçaq,*
*İstədiyin gətirməsin!*

*Oturubsan ağ otaqda,*

*Qan qusasan laxta-laxta,*
*Səni görüm ölən vaxtda,*
*Dilin kəlmə gətirməsin!*

*Qurbani qaldı burada,*
*Böyük Allah yetsin dada,*
*Meyidin qalsın arada,*
*El yığılıb götürməsin!*

Söz qurtaran kimi göy guruldadı, bir ildırım şığıyıb vəzirin evinin üstünə düşdü. Ev gurhagur uçub yerə töküldü. Nərilti, gurultu hər yeri bürüdü. Cəlladlar Qurbanini qoyub qaçdılar. Vay-nəfsa asimana bülənd oldu. Bir nəfər gəlib Qurbaninin qolunu açdı. Qurbani bir dostunun evinə getdi" (70, I cild, 178-179).

Qurbaninin qarğışından semantik layları bir-bir aşkarlayaq. Onun qarğışında başlıca element Tanrı-Haqq qatıdır. Bütün diləklər ona ünvanlanıb. Qurbani – Haqq aşığıdır. Yəni Haqq iradəsinin gerçəkləşdiricisidir və belə olmaqla onun Haqdan gələn statusu var. Bu baxımdan, qarğışı dərhal tutur. Heç təsadüfi deyildir.

Qurbaninin qarğışı ümumiyyətlə onun "səviyyəsini" öyrənməyə imkan verir. Həmin səviyyə semantik qatları ortaya qoymuş olur. Qurbani bəd dua ilə Allahdan diləyir

Vəzir ---- *evindən qaçaq düşsün;*
*sağ gözünə bıçaq batsın;*
*oğul-uşağı çarəsiz, köməksiz qalsın;*
*arzuları gözündə qalsın;*
*qan qussun;*

*ölən vaxtı dilinə "kəlmeyi-şəhadət" gətirməyə imkan tapmasın;*
*meyidi ortada qalsın;*
*el üstünə gəlməsin. (el yerdən götürməsin)*

Göründüyü kimi, qarğış məişət səviyyəsində gedir, ancaq bu, Haqq qatından dəyəndirilmiş məişətdir. Məsələn, insanın qan qusması, onun ölüm ayağında "kəlmeyi-şəhadət" deməyə vaxt tapa bilməməsi ilə eyni qiymətləndirilir. Yaxud meyidin ortada qalması, elin onun üstünə gəlməməsi sosial səviyyədə rüsvayçılıq olmaqla ağır, pisdir. Beləliklə, Qurbaninin vəzirə qarğışı onu Tanrı səviyyəsində bəd dualamaqla istisnasız olaraq onun özünə edilən qarğışdır. Yəni fərdin özünə xas olduğu üzə çıxır. Buğacın anası dağı qarğışlayarkən ümumi etiketdən çıxış edir. Bu etiket sosial –mifoloji, sosial-mərasimi, ümumiləşdirici etiketdir. İndiki halda vəzirə edilən qarğış bu cür ümumiləşdiricilikdən qıraqdadır, daha doğrusu, uzaqlaşmışdır. Burada İnsan daha çox fərdidir. Öz qazandıqları, öz etdikləri fonunda qarğanır. "Kitabi-Dədə Qorqud"da isə insan elin təmsilçisi kimi götürülür, bu baxımdan, ümumiləşdirici pafos hakimdir.

"Abbas və Gülgəz" dastanındakı digər bir poetik qarğış örnəyi mənzərəni daha da aydınlaşdırmış olur. Burada aşıq Abbas ona bədxahlıq edən qarıya qarğış edir:

*Gedənin gəlməsin, yatanın ölsün,*
*Göz-göz olsun, qabıq qoysun, soyulsun,*
*Hər yanına altmış piltə qoyulsun,*
*Nə yığıb yerini salan olmasın!*

*Ciyərin doğrasın bir almaz bıçaq,*
*Yeddi il yan üstə uzansan naçaq,*
*Qohumun-qardaşın düşsünlər qaçaq*
*Əhvalını xəbər alan olmasın!*

*Sən pozmusan mənim xoşnud halımı,*
*Abbas sana nedib, Tanrı zalımı?*
*Çəkim ciyərinə mən xənçalımı,*
*Cənazənə yaxın gələn olmasın!* (70, I cild, 222)

Göründüyü kimi, Abbasın qarğışı da eynilə Qurbaninin qarğışı kimidir. Bu da təsadüfi deyil. Bu mətnlər, demək olar ki, eyni dövrün, eyni ifa epoxasının, eyni epik-bədii, sənət zövqləri çağının məhsullarıdır və bu baxımdan qarğışların poetik sistemlərinin eyni olması tamamilə təbiidir. Vəzir və qarı sosial sisteminin müxtəlif pillələrində dayansalar da, onlara edilən qarğışların semantik mahiyyəti eynidir; hər ikisinə edilən qarğış birbaşa onların özlərinə ünvanlanır. Onları əhatə edən doğmalarına ünvanlanan qarğış yenə də öz semantik oxları ilə vəzir və qarının öz üzərində mərkəzləşir. Burada arxaik struktur boy verir. Buğacın anasının dağın suyuna, otuna, keyikinə, arslanına, qaplanına etdiyi qarğış semantik baxımdan dağa yönəlib. Burada da vəzir və qarının doğmalarına edilən qarğışın dağı, acısı, şəri məhz onların özünə yönəlib, Demək, arxaik semantik dinamika öz strukturunda pozulmayıb.

Abbasın dilindən deyilmiş bir poetik dua da eyni mənzərəni üzə çıxarır:

*Başına döndüyüm, alagöz Pəri,*
*Tanrı səni məndən ayrı salmasın!*
*Haqq götürsün bu qarını aradan,*
*Nişanəsi qiyamətə qalmasın!* (70, I cild, 222)

Burada həm alqış, həm də qarğış var. Abbas Pərisinin ondan heç vaxt ayrılmamasını Allahdan arzu edir, eyni zamanda yenə də Allahdan arzu edir ki, bu qarını məhv etsin. Beləliklə, istər alqış, istərsə də qarğış Tanrıdan ricadır, xahiş, diləkdir. İstər alqış, istərsə də qarğış bu baxımdan fərqlənmir. Fərq arzunun mənfi, müsbətliyindədir. Necə deyərlər, alqışlar – xeyir dualar, qarğışlar isə – bəd dualardır. Alqış – yaxşılıq istəmək, qarşış isə – pislik istəməkdir. İstər "Kitabi-Dədə Qorqud"da, istərsə də məhəbbət dastanlarında bu, Tanrıdan dilənir. Fəslin əvvəlində mifdən verdiyimiz örnəkdə gördük ki, yaxşılıq və pislik öz-özlüyündə mövcud deyildir. Onların sahibləri var. Tanrı səviyyəsində bu sahib birdir – Tanrı. Ruhlar səviyyəsində isə hər semantik arzunun özünə uyğun sahibi var. Gördük ki, əyələr – yaxşılıq verir. Bizdən yeylər isə ziyanlıq edirlər. Məhəbbət dastanları çağında artıq monoteist sistemdir. Allah-Tanrı var və Yaxşılıq-Yamanlıq gətirən qüvvələr bu monoteistik sistemə tabe şəkildədir, onun içindədir, dəqiq movqeyi var.

Yaxşılıq-Yamanlıq güc sisteminin ruhlarla bağlılığı əski bir görüş olmaqla sonrakı epik

mətnlərdə də özünü saxlayıb. Yəni dastan-mif kontekstindən baxdıqda bu semantik qoşalığın epik mətnlərdə həm öz arxaik strukturundan irəli gələn semantikasını, həm də mətndəki epik rolunu görürük. Mətnlər bizə yaxınlaşdıqca, yaşlandıqca, arxaikadan uzaqlaşdıqca arxaik semantik fiqurların bədiiləşməsi, epikləşməsi qüvvətlənir. "Koroğlu" dastanına diqqət edək.

"Paşa dedi:

- Koroğlunu tanıyırsanmı?

Aşıq Koroğlu dedi:

- Çox yaxşı tanıyıram. Bir dəfə o mənim başıma elə iş gətirib ki, dünya durduqca yadımdan çıxmayacaq.

Hasan paşa soruşdu:

- Nə iş?

Koroğlu dedi:

- Paşa sağ olsun, o Koroğlunun çərən dəymiş bir atı var, adına Qırat deyərlər.

Paşalardan biri istədi danışsın, Hasan paşa qoymadı.

Koroğluya dedi:

- Danış, danış.

Koroğlu dedi:

- Hə, paşa, at çox yaxşı atdı. Amma ki, dəlidi. Günlərin bir günü yolla gedirəm. Elə bu saz çiynimdə. Bir də onu göbrdüm ki, məni qamarladılar. Hara getdik, necə getdik, bilmədim. Bir də gözümü açdılar, baxdım ki, bir dağın üstündəyəm. Qabağımda da bir kəlpeysərin birisi dayanıb. Sən demə, bura Çənlibel

imiş, o kəlpeysər Koroğlu. İndi denən məni bura niyə gətiriblər? Sən demə, bu atın yenə dəliliyi tutub. Nə qədər dava-dərman eləyirlər bir şey çıxmır. Yanına adam qoymur ki, qoymur. Girinə kim keçirsə şil-küt eləyir. Axırda Koroğlunun bir kimyagər dostu var, onu tapırlar. Həkim deyir ki, bəs cini var. Gərək bunun yanında üç gün, üç gecə saz çalına, söz oxuna ki, bəlkə bunun cini yata. O vaxtlar hələ Koroğlu çalıb oxumaq bilməzdi. Sən demə, mən başı daşlını da bunun üçün gətiriblərmiş. Qərəz, başağrısı olmasın, məni itələyib saldılar bu atın yanına. O üç gündə mən nə çəkdim, Allah bilir. Day o, necə deyərlər, anadan əmdiyim süd burnumdan gəldi.

Hasan paşa tez soruşdu:

- Bəs necə oldu? Sağaldımı?

Koroğlu dedi:

- Sağaldı. Elə Koroğlu da ondan sonra çalıb-oxumağın binasın qoydu. Deyirlər, genə də beşdə, on beşdə atın cini tutur. Day Koroğlu özü çalıb-oxuyub onu sağaldır" (79, 167-170).

Burada epik situasiya uydurmadır. Yəni Koroğlu Qıratın xəstələnməsi, daha dəqiq desək, cini tutması haqqında xəstəliyi yalandan uydurur. Ancaq digər tərəfdən, əhvaların özü uydurma deyil. İnamla bağlıdır. Adamı, heyvanı cin vura bilir, bədəninə cin girir və onu sağaltmaq lazım gəlir. Əslində Koroğlu real situasiyadan yalan məqsədi ilə istifadə edir.

Koroğlunun burada danışdığı əhvalat – Qıratın bədənində cin olması Yaxşı-Yaman semantik qütblənmə sahəsinin etnosun şüurundakı yayılma

dərəcəsini göstərir. Yuxarıda dedik ki, ilkin şüurda yaxşılıq və yamanlıq mifoloji güclərlə əlaqələndirilir. İndiki örnəkdən də göründüyü kimi şər ruh təkcə insana yox, heyvana da şər gətirə, yamanlıqla bağlı semantik qütbə cəlb edə bilir. Burada aşığın mahnı oxuyaraq atın bədənindən cini qovması artıq azərbaycanlıların etnik yaddaşında yaşayan ruhlara təsir üsuludur. Bu, geniş bir sistem olmaqla şamanizmlə bağlıdır. Şamanların xəstəni musiqi səsi ilə müalicə etməsi, daha doğrusu əllərində olan və müqəddəs sayılan alətlə (qopuz, davul və s.) bəd ruhları bədəndən çıxararaq insanı sağaltmaları tarixi-etnoqrafik reallıq olmuşdur.

Yaxşı-Yaman semantik oppozisiyası "Dəli Domrul" boyundan da görünməkdədir. Burada bildiyimiz kimi, Domrulla-Əzrayıl üz-üzə gəlir. Əvvəlcə ölümün islam "variantını" qəbul etmək istəməyən Domrul buna boyun əyməli olur. Öz-özlüyündə burada Yaxşı-Yaman, yaxud Həyat-Ölüm oppozisiyası var. Maraqlısı bu oppozisiyanın təzahürü ilə bərabər, onun tanrıçılıq və islamçılıq zəminində üz-üzə gətirilməsidir.

İslamda Əzrayıl Allahın mələklərindən biridir və o, heç də pis qəbul olunmur. Sadəcə, Tanrının buyurduqlarını həyata keçirir. Dəli Domrul da, bizcə, tanrıçılıqda ölümlə bağlı funksiyanı həyata keçirən obraz olmuşdur.

Dəli Domrul obrazı ilə bağlı tədqiqat aparmış A.Acalov bu boyda ölüb-dirilməklə bağlı tanrıçılıq düşüncəsinin bir sıra arxaik elementlərini görmüşdür

(11, 83). M.Seyidov da Dəli Domrul obrazını ilkin inamlarla əlaqələndirir. O yazır ki, Dəli Domrul quru çayın üzərində körpü tikir… Bizcə, burada çay keçmiş bölgəsi kimi iz şəklində qalmışdır. Bəllidir ki, türk qəbilə birləşmələrində, əski xalqlarında belə bir inam olmuşdur ki, insan ölülər dünyasına – o dünyaya getmək üçün, sudan keçməlidir… Dəli Domrul vaxtilə sulu çayın üzərində körpü tikdirir və o, bu dünyanın-dirilər dünyasının ölümə qarşı duranı imiş" (102, 439-440).

M. Seyidovun fikirlərində iki detal diqqətimizi cəlb edir. Birincisi, çay detalıdır. Çay, alimin də yazdığı kimi, iki dünya (o dünya və bu dünya) arasında yerləşir. Bunun belə olması haqqında biz əvvəldə yazmışdıq. Hələ ilkin stixiyanı simvollaşdıran obraz kimi sudan danışarkən qeyd etdik ki, su mifoloji düşüncədə həm həyat, həm də ölümlə bağlıdır. Su həm kosmosla, həm xaosla əlaqələnir. Bu, suyun (çayın) mediator qat kimi Yerüstü dünya ilə Yeraltı dünyanın arasında yerləşməyi ilə bağlıdır. Çay bir tərəfi, bir sahili ilə həyata (kosmosa), o biri tərəfi, o biri sahili ilə ölümə (xaosa) söykənir. Bu baxımdan, Dəli Domrulun bir quru çay üzərində məhz ölüm situasiyası ilə bağlı tikdirdiyi körpü artıq həmin mediativ funksiyalı çayın üzərində qurulan körpüdür. Yəni bu çay dirilər dünyası ilə ölülər dünyası arasındakı çaydır. Bu üzdən biz M.Seyidovun Dəli Domrulu "bu dünyanın – dirilər dünyasının ölümə qarşı duranı" sayması ilə razılaşmırıq. Fikrimizcə, Dəli Domrul əski düşüncədə Əzrayılın funksiyasını ya

birbaşa, ya da dolayısı olaraq yerinə yetirirmiş. Yəni əski, arxaik inanışda Dəli Domrul ölümlə bağlı obrazdır. Ancaq onun adının bir sıra tədqiqatlarda həyatla əlaqələndirilməsi təsadüfi deyil, çünki əski düşüncədə ölümü bizim indi anladığımız kimi başa düşmürmüşlər. Ölüm və həyat bir-birini əvəz edən dövrlər kimi anlaşılırmış. Bu baxımdan, ölüm arxaik düşüncədə həyatın başqa bir növüdür. Elə buna görədir ki, oğuzlar yuxunu "kiçik ölüm" adlandırırlar. Məntiqi olaraq çıxan nəticə budur ki, yuxu ölümə bərabərdirsə, deməк, yuxudan ayıldığımız kimi, ölüm də qurtarır, sonlu deyil, yəni ölümdən də qayıtmaq, dirilmək olur. Bu isə ölüb-dirilməklə bağlı əski təsəvvürlərlə tam təsdiq olunur.

Dəli Domrulun Əzrayılla vuruşması və axırda ona məğlub olması onun arxaik ölüm obrazı kimi öz yerini islam ölüm modelinə verməsi ilə bağlıdır. Dəli Domrulun Yaxşı-Yaman semantik modeli baxımından funksiyası ikili qalır. O, bir tərəfdən Yaxşılığın təmsilçisi kimi çıxış edir. Ölümün səbəbi ilə maraqlanır. Digər tərəfdən, o, hakim düşüncəyə qarşı çıxır və buna görə də cəzalandırılır. Sonda Allah onu bağışlayır. Beləliklə, biz onu ziddiyyətli planda görürük. O həm Yaxşılıq, həm də Yamanlıq qütbündə olur. Bunun özü arxaik düşüncədir. Dəli Domrul əski düşüncədə iki dünya arasında mediasiya edən (hərəkət edən, birindən o birinə keçən) obraz imiş. Belə semantik qütblər boyu hərəkət sonrakı epik mətnlərdə, o cümlədən onunla bağlı boyda ona ikili münasibətdə özünü saxlamışdır. O, öncə Yaxşı obrazdır, sonra Allahın qəzəbinə gəlir – Yaman obraza

çevrilir, daha sonra yenə Allah tərəfindən bağışlanılaraq Yaxşı obraza çevrilir. Ümumi semantik modeldə hadisələrin dinamik inkişafı arxaik-mifoloji məntiqə tamamilə uyğundur:

**1. GÜNAHSIZ DƏLİ DOMRUL – KOSMOS**

**2. GÜNAHKAR DƏLİ DOMRUL** - *Allaha asilik edir* – **XAOS**

**3. GÜNAHI BAĞIŞLANMIŞ DƏLİ DOMRUL – Allah onun günahlarını bağışlayır – KOSMOS** *(bərpa olunur).*

Dəli Domrul boyunda Yaxşı-Yaman semantik qoşalığı sırf etik opozisiya olaraq da üzə çıxır. Allahın qəzəbinə gəlmiş Dəli Domrulun sonrakı sözləri Allahın xoşuna gəlir və Allah onun ölümünü yaxınlarının ölümü ilə əvəz edir. Yəni kimsə öz canını Dəli Domrulun əvəzində verə bilərdi. O, ilk növbədə ata-anasının yanına gedir. Dastanın təqdim etdiyi əxlaq baxımından bu, çox gərəkli və mühüm məqamdır. Dastanda təsvir olunmuş valideynlər öz övladlarından ötrü özlərini ölümə belə verməyə hazırdırlar. Dəli Domrul da elə bu əxlaq zəminində əvvəlcə atasına müraciət edir. Atası deyir:

*"Oğul, oğul, ay oğul!*
*Canım parəsi oğul!*
*Toğdığında toqquz buğra öldürdigim, aslan oğul!*
*Dünlügi altun ban evimin qəbzəsi oğul!*
*Qaza bənzər qızımın-gəlinimin çiçəgi oğul!*
*Qarşu yatan qara tağım gərəksə,*
*Söylə, gəlsin – Əzrayilin yaylası olsun!*

*Souq-souq binarlarım gərəksə,*
*ana  içət olsun!*
*Tavla-tavla şahbaz atlarım gərəksə,*
*ana binət olsun!*
*Qatar-qatar dəvələrim gərəksə,*
*ana yüklər olsun!*
*Ağayılda ağca qoyunum gərəksə,*
*Qara mudbaq altında anun şüləni olsun!*
*Altun-gümüş pul gərəksə,*
*ana xərclıq olsun!*
*Dünya şirin, can əziz,*
*Canımı qıya bilmən, bəllü bilgil"* (76, 81).

Deməк, Dəli Domrulun atası Əzrayıla istədiyi qədər var-dövlət verməyə hazırdır. Qarşı yatan qara dağını verir, soyuq-soyuq bulaqlarını (yəni ona məxsus olan suyu) verir, atlarını verir, dəvələrini verir, qoyunlarını verir, qızıl-gümüşünü verir, ancaq canını vermir. İlk baxışdan məntiqdir. İnsana öz canı əzizdir. Ancaq burada təqdim olunmuş əxlaq oğuzlar üçün səciyyəvi əxlaq modeli deyildir. Oğuz eposunda biz bu boydan başqa heç bir yerdə belə ata ilə üzləşmirik. Oğuz bəylərinin ataları övladları yolunda "uf" demədən ölümə getməyə hazırdırlar. Qazan xanın Uruzdan ötrü etdiklərini xatırlamaq kifayətdir.

Dəli Domrulun anası da atası kimi cavab verir: "Dünya – şirin, can - əziz". Beləliklə, ata-ana hər ikisi eyni əxlaqdadır. Bu əxlaq modelinin oğuzlar üçün qəbulolunmazlığı elə həmin boyun özündəcə üzə çıxır. Dəli Domrulun xatunu öz canını ərinin yolunda özü

təklif edir. O, Domrulsuz bu dünyada yaşamağı özünə qıymır:

*"... Səndən sonra bir yigidi sevib*
*Varsam, bilə yatsam.*
*Ala yılan olub, məni soqsun!*
*Sənin ol müxənnət anan-baban*
*Bir canda nə var ki, sana qıymamışlar?*
*Ərş tanığ olsun, kürsi tanığ olsun,*
*Yer tanığ olsun, gög tanığ olsun,*
*Qadir tanrı tanığ olsun,*
*Mənim canım sənin canına qurban olsun..."*

(76, 83).

Beləliklə, Dəli Domrulla bağlı boyda Yaxşı-Yaman semantik ikiliyi həm də etik qarşıdurma qoşalığı olaraq üzə çıxır. Bu boyda təhkiyəçi ozanın (yaxud katibin) simasında həmin etik oppozisiyadan, Yaxşı-Yaman əxlaqi dünya modelindən ənənəvi baxışı bütün yarusları boyunca görürük. Bütün epos oğuz əxlaqının kristallik strukturunu nümayiş etdirir. Hər bir struktur kimi bu əxlaqi strukturun da öz qanunları var. Bəlli olur ki, ənənəvi şüurla yaşayan cəmiyyətdə əxlaqi struktur sərt qanunlara söykənir. Burada sərtlik ənənənin yaşarılığını, o da öz növbəsində qarşılıqlı olaraq oğuz cəmiyyətinin yaşarılığını şərtləndirmiş olur.

Yaxşı-Yaman semantik qoşalığı uzun bir inkişaf yolu keçmişdir. Bu qoşalıq birbaşa ilkin şüurdan gəlir. Sonrakı mərhələdə bu, mürəkkəbləşir və get-gedə mücərrəd kateqoriiyalara müncər olmağa başlayır. Orta əsrlər şüurunda Yaxşılıq-Yamanlıq qoşalığı artıq Xeyir-Şər qoşalığının içindədir. Xeyir-Şər isə orta əsrlər

poeziyasında, fəlsəfəsində mücərrədləşmiş, fəlsəfi-poetik kateqoriyalar şəklinə düşmüşdür. Ancaq bununla bərabər orta əsrlər şüurunda Xeyir-Şər anlam qoşalığının mifoloji strukturla əlaqələri qorunub qalır. Məsələn, dahi Azərbaycan şairi Nizami Gəncəvinin "İsgəndərnamə" poemasında Xeyir-Şər özünün əski mifoloji-ənənəvi strukturdan gəlmə həyat-ölüm qatını saxlamışdır. İsgəndər dirilik suyunu axtarmaq üçün qaranlığa getməli olur. Dirilik suyu olan bulağın qaranlıq dünyasında yerləşməsi mifoloji məntiqlə – yəni mif dünyasının məkan-zaman məntiqi ilə əsaslandırılmış bir hadisədir. Burada həyatın – dirilik suyunun bir obraz sırasında dayanması Yaxşı-Yaman semantik qoşalığının əski obrazlaşma strukturundan gəlir. Əski ənənədə bu, obrazlarla bağlı təsəvvür edilir. Göründüyü kimi, Nizami çağında da həmin obrazlaşdırma ilə bağlı ənənə əfsanə və rəvayətlər şəklində yaşamaqda, eləcə də orta əsrlər poeziyası üçün poetik düşüncə materialı verməkdə davam edir.

Yuxarıda deyilənlərlə bağlı situasiyanı daha geniş kontekstdə təsəvvür etmək üçün Başqırd xalq eposuna – "Ural Batır"a üz tutaq. Bu dastanda Yanbirgə oğulları Ural Batırı və Şülgeni dirilik suyu tapmağa yollayır. Qardaşlar gözə görünməyən ölümə qalib gəlmək üçün insanlara əbədi həyat, ölməzlik verən dirilik suyunu axtarırlar. Onlar divlər padşahının ölkəsində olan bulağı tapmaq istəyirlər; çünki kim ondan içsə, yaşarılıq qazanır, ölüm ona yaxın düşmür. Ural Batır uzun çətinliklərdən keçərək dirilik suyunu tapır və tapdığı suyu xalqına aparmaq istəyir. Məqsədi bu suyu hər

yana çiləmək, bütün insanlara paylamaq, onları gözəgörünməz ölümdən, xəstəliklərdən qurtarıb xoşbəxtliyə qovuşdurmaqdır. Elə bu vaxt onunla rastlaşan bir qoca Ural Batırı fikrindən daşındırır. Məlum olur ki, bu qoca həmin dirilik suyundan içmiş, ölməzlik qazanmışdır. İndi isə bu dünyanın əzablarından, yaşamaqdan bezmişdir. Ölmək istəyir, lakin ölə bilmir. Qoca deyir ki, mənim kimi dirilik suyunu içib əzaba düçar olmayın, özünüzə ölməzlik axtarmayın, dünyada o şey əbədi qalır ki, dünyanı gözəlləşdirir (134, 150-151).

"Ural Batır" eposunda Yanbirgənin oğlanları olan Ural Batır və Şülgen Yaxşı-Yaman oppozisiyasını obrazlaşdırırlar. Ural Batır – yaxşılığı, Şülgen – yamanlığı simvollaşdırır. Bu, dual təsəvvürlərdir və əkiz qardaş mifinə gedib çıxır. Maraqlıdır ki, dastandakı cəmiyyətin quruluşunda da xeyir-şər ikili anlayışı, əkiz qardaş mifinin strukturu, dual təşkilat qanunları öz əksini tapmışdır. Demək, Yaxşı-Yaman qarşıdurma qoşalığı, Xeyir-Şər qoşalığı ilə bir cərgədə dayanmaqla dual sistem daxilində çox geniş struktur müstəvisində təsəvvür olunur. Onun daxil olduğu baş ikili qoşalıq Kosmos-Xaosdur. Sonra Həyat-Ölüm qoşalığı gəlir. Davam etdikcə bu strukturunun sinonimik cərgəsi artmaqda olur:

*Kosmos – Xaos*
*Həyat – Ölüm*
*Yaxşı – Yaman*
*Ağ – Qara*
*Gündüz – Gecə*

*Yaz – Qış*
*Sağlam – Xəstə* və s.

Bu semantik qoşalıqlar ən ilkin dual qoşalıqlardır. Daha sonra mürəkkəbləşmə gedir. İnsan dünyanı daha dərindən mənimsədikcə onun Yaxşı-Yaman haqqında təsəvvürləri də dərinləşir, mürəkkəbləşir. Ancaq nə qədər mürəkkəbləşsə də yuxarıda verdiyimiz ilkin struktur qoşalıqları arxaik "skelet" kimi yaşamaqda davam edir. Bunu aşıq şeirimizin ustadnamə tipindən daha aydın görmək olur. Ustadnamələr aşıq şeirinin məzmun əlamətinə görə differensiallaşan tipidir. Ən başlıcası, onların məzmunudur. Məzmun isə ustad sözündən, böyük, ulu məsləhətindən ibarətdir.

Beləliklə, ustadnamələrdə, əslində dünyanın universal qanunları, qanunauyğunluqları öz əksini tapmış olur. Diqqətlə yanaşdıqda görürük ki, bu qanunauyğunluqlar bütün hallarda Yaxşı-Yaman kateqoriyası ilə sıx bağlıdır. Əlbəttə, bu deyilənlər təkcə ustadnamədən görünmür. Sadəcə olaraq aşıq şeirinin əxlaqi strukturu Yaxşı-Yaman (Xeyir-Şər) ikili anlayışlarsız mümkün deyil. Qurbaninin (XVI əsr) bir qoşmasına diqqət edək:

*Dost yolunda yaxa yırtdım, baş açdım,*
*Gecə-gündüz dadü-bidad eylədim.*
*Öz əlimnən yıxdım özüm evimi,*
*Müddəilər evin abad eylədim…*

Qurbani şeirinin birinci bəndində müxənnətdən, namərddən söhbət gedir. Bu namərd Yamanlıq qütbünü təmsil edir. Onun bütün əxlaqı həmin

semantik anlayışdan xarakterizə oluna bilir. Aşıq ikinci bənddə deyir:

*Töxmi-həsrət sinəm üstə əkdirdim,*
*Gözümün y aşıyla bəhrə yetirdim,*
*Cəfa çəkdim, dərd xırmanı gətirdim,*
*Onun adın Töhmətabad eylədim…*

Şair sinəsini daim artan həsrətə yurd edir, göz yaşları bu həsrəti "suvarır", cəfa çəkir, dərd içində qovrulur. Bütün bunlar mərd bildiyi namərdin yolunda olur. Üçüncü bənddə Qurbani klassik obrazlara üz tutur və burada Yaxşılıq-Yamanlıq qoşalığı Dost-Düşmən kateqoriyasında üzə çıxır:

*Dost yolunda üz qoyuban baş kəsdim,*
*Ağlamaqdan bu didəmdən yaş kəsdim,*
*Şirin üçün Bisütundan daş kəsdim,*
*Münasib adımı Fərhad eylədim…*

Sonuncu bənddə Yaxşı-Yaman qoşalığı öz obrazlaşma qatında Mərd-Namərd etik qoşalığını vermiş olur:

*Şahin, şonqar bəy oğlunun qolunda,*
*Seyrağıblar həm sağında, solunda,*
*Qurbani der: bir namərdin yolunda,*
*Cavan ömrüm heyif, bərbad eylədim* (20, 38-39).

Deməк, orta əsr poeziyası Yaxşı-Yaman arxaik-mifoloji strukturunu dost-düşmən, mərd-namərd etik qoşalıqları şəklində həm yaşadır, həm də inkişaf etdirir.

XVI-XVII əsr qovşağı sənətkarı Aşıq Abbas Tufarqanlının "Bəyənməz" qoşmasının Yaxşı-Yaman

struktur qoşalığının öyrənilməsi baxımından, deyərdik ki, əvəzi yoxdur. Burada dünyanın mifdən gəlmə arxaik-dual strukturu öz inkişafının orta əsr poetik düşüncəsinə məxsus bütün "rəng spektrini", demək olar ki, ortaya qoymuşdur. Burada ikili qarşıdurma dünyanın təkcə mənəvi kateqoriyalarını yox, eləcə də maddi dünyanı, onun şeylər, predmetlər qatını da əhatə edir.

*Ay həzərat, bir zamana gəlibdi,*
*Ala qarğa şux tərlanı bəyənməz.*
*Oğullar atanı, qızlar ananı,*
*Gəlinlər də qaynananı bəyənməz.*

Aşıq şeiri ilk bəndindən nizamı pozulmuş dünya haqqında "manifest" edir, Zamanın dəyişməsini bəyan edir. Şair qəlbinin üsyan və etirazını ortaya qoyur. Səbəbi – şairin qavradığı və onun yaşadığı zamanın nizamı ilə təsdiq olunmuş Dünya Səhmanının pozulmasıdır. Şeirin rədifinə "bəyənməz" sözü çıxarılmışdır. Bu da təsadüfi deyil. Və bunun təsadüf olmadığı həm də ondan görünür ki, Aşıq Abbas narazılığı adi narazılıq deyil. Burada "bəyənməz" dedikdə, dünyanın sonunun yaxınlaşdığına işarə olunur. Elə bir zaman gəlibdir ki, artıq bu dünyanın kosmik strukturu pozulmuş, antistruktur yaranmışdır. Bu antistruktur Tufarqanlını narahat edir. Çünki onun içərisində yaşadığı total şüura görə Qiyamət o vaxt baş verəcək ki, hər şeyin nizamı itəcək, böyük-kiçik olmayacaq, hörmət-izzət aradan gedəcək, insanlar abırsız işlərindən utanmayacaqlar, hər cür əxlaqsızlıq adi bir şeyə çevriləcək. Tufarqanlı

şeirindən bunu müşahidə etmək olur. Demək, aşığın keçirdiyi həyəcan bir poetik yaşantı olmaqdan daha çox, dünya və onun taleyi qarşısında keçirilən qayğı, həyəcan hissləridir.

Şeirdən bəlli olur ki, artıq yeni bir zaman gəlibdir. Bu zamanın gəlişinin şeirdə zamana məxsus ölçülərlə müəyyənləşdirilməsi yoxdur. Burada zaman vaxtla ölçülən zamandan çox, şeylər, maddələr, maddi zamandır. Məsələnin bu tərəfi arxaik-mifoloji strukturdan gəlir. Mifdə zaman maddidir, obrazlaşır, sahibi var, konkretliklə ölçülür. Düzdür, bu zaman bir sıra prinsipial parametrlərinə görə zamanın digər tiplərindən fərqlənir (məsələn, epik zaman, folklor zamanı, tarixi zaman, empirik zaman və s.-dən). Və bu baxımdan, məhz mifoloji zaman adlanır. Ancaq bununla bərabər, bu zaman obrazlaşmaya meyllidir ki, bu da mifoloji şüurun öz xassəsindən doğur. Mif dünyanı hiss olunan, maddi, görünün tərəflərindən qavrayır. Onun qavradığı və obrazlaşdırdığı dünya özü də canlı, maddi, hiss olunan, duyulan, rəngi-boyası olan dünyadır. Bu baxımdan, Tufarqanlı şeirində gəlişi poetik şəkildə "manifestləşdirilən" zaman əslində dünya ilə eyni məzmunda qavranılır. Yəni burada Zaman və Dünya eyni bir semantik sıraya girmiş olur. Onların eyni semantik sıralar kimi qavranması heç də o demək deyildir ki, poetikləşdirmə zəminində Dünya və Zaman vahidləri arasında sərhəd itmişdir. Əslində belə deyil, Burada Tufarqanlının Zamanın dəyişməsini elan edib əvəzində məhz bu Dünyanın işlərindən danışması kökü mifoloji arxaikaya gedib çıxan və

haqqında danışdığımız maddi obrazlaşdırma ilə bağlıdır. Digər tərəfdən insanlara Quran vasitəsi ilə anlamı göndərilmiş Zamanın özü də Ay və Günəşin hərəkətlərinə müncər olunur ki, bu zamanın maddi konseplərdən dərkə gəlməsi deməkdir.

Şeirin ilk bəndindən Yaxşı-Yaman semantik qoşalığı qlobal kateqoriyalarıyla Zaman və dünya şərholunur ki, bu da həmin oppozitiv strukturun Dünyaya və Zamana münasibətdə ən iri parametrlərdən olduğunun nümayişidir.

Tufarqanlı Yeni Zamanın gəlməsini Yeni Dünya düzəninin formalaşmasında görür. Bu, elə bir dövrdür ki, burada ala qarğa şux tərlanı bəyənmir. Oğullar atalarını, qızlar analarını bəyənmir. Gəlinlərsə qaynanalarını bəyənmir. Beləliklə, Dünyanın strukturu, kosmik ahəngi pozulub. Bu pozuntu ondan bilinir ki, semantik baxımdan şeylərin yeri dəyişdüyüşdür. Və Yaxşı-Yaman ölçüsü əslində itib. Şeirin birinci bəndində olan semantik vahidləri Yaxşı-Yaman prinsipi ilə düzsək, onda məhz antistrukturu-xaosu görərik:

| **YAXŞI** | **YAMAN** |
|---|---|
| Şux tərlan | Ala qarğa |
| Atalar | Oğullar |
| Analar | Qızlar |
| Qaynanalar | Gəlinlər |

Şeirin elə ilk bəndindən görmək olur ki, Tufarqanlının bizə təqdim etmək istədiyi dünya bütün hallarda əxlaqi bir dünyadır. Yəni aşıq dünyanın əxlaqi

sahmanının pozulmasından söhbət açır ki, burada da Yaxşı-Yaman struktur ölçüsü məhz əxlaqi baxımdan nəzərdə tutulur, aktuallıq kəsb etmiş olur.

Təqdim olunan əxlaqi dünya modelində antistruktur göz qabağındadır. Atalar, Analar, Qaynanalar – Yaxşı semantik cərgəsini, Oğullar, Qızlar, Gəlinlər Yaman semantik cərgəsini təşkil edir. Bu düzüm əxlaqi bir prinsiplə aparılır. Bu mənada, Tufarqanlının "manifestləşdirdiyi" yeni zamanda (dünyada) pozulan ancaq əxlaqi münasibətlərdir. Mənəvi Kosmos Xaosa çevrilir. Dünyanın başqa parametrlərində, struktur qatlarında heç bir dəyişiklik getməyib. Məsələn, "Kitabi-Dədə Qorqud"dan bəlli olan Övladlılıq-Övladsızlıq struktur qoşalığında heç bir pozulma yoxdur. Yada salaq ki, birinci boyda (birinci fəsildə nəzərdən keçirdiyimiz kimi) Dirsə xan övladı/oğlu-qızı olmadığına görə qara çadırda oturdulur. Yəni "Yaman"(lar) – pislər semantik cərgəsinə aid edilir. Oğulun, yaxud qızın olmasından asılı olmayaraq, bu cins övladlardan hər hansınasa sahib olan artıq "Yaxşı"(lar) cərgəsinə aiddir. Yəni Oğul-Qız bir semantik dəyər kimi "yaxşı"-dır. Və ona sahib olmağın özü də "yaxşı"dır. Oğlu-qızı olmamaq isə "yaman"dır. Demək, birinci boyda əsas olan məhsuldarlıq-artım prinsipidir. Ən başlıcası isə birinci boydan bəlli olduğu kimi, övladlılıq – Tanrı alqışı, övladsızlıq isə – Tanrı qarğışı sayılır. Bu deyilənlərdən (görünənlərdən) Tufarqanlının bizə təqdim etdiyi dünya düzəninə baxaq. Burada biz şeyləri, semantik vahidləri baş-ayaq görürük.

"Kitabi-Dədə Qorqud"un dünya düzənində "yaxşı" olaraq dəyərləndirilmiş oğul və qız semantemləri Tufarqanlının təqdim etdiyi dünyanın əxlaq modelində məhz "yaman" (pis) cərgəsində durur. Və Tufarqanlı bunu görərək el aşığı kimi dünyanın bu qüsurunun düzəldilməsinə çağırır. Çünki övlad "Kitabi-Dədə Qorqud"da olduğu kimi, elə Tufarqanlı zamanında da Allah nemətі sayılır. Ancaq oğulların ataları, qızların anaları, gəlinlərin qaynanaları bəyənməməsi Tufarqanlı dünyasının ali əxlaq prinsipi əsasında böyüyün üzünə ağ olmaqdır ki, bu da Quran tərəfindən qəti şəkildə pislənilir. Quran konkret olaraq belə halların qiyamətin gəlməsi əlamətləri olduğunu bildirir. Aşıq bunun qarşısında narahatçılıq keçirir. Və bu narahatçılıq kristallik arxaik struktura malik olan Yaxşı-Yaman semantik qoşalığından şərh olunur. Şeir axıradək dünyanın dual strukturunu təqdim edir. Burada ancaq kontrastlar var və həmin kontrastlar əxlaqi-sosial səciyyəlidir:

*Adam var ki, getməyəsən işinə,*
*Adam var ki, dolanasan başına,*
*Adam var ki, ayran tapmaz aşına,*
*Dindirərsən yağlı nanı bəyənməz.*

Tufarqanlının şeiri dünyanın "adam materialının" təhlilini verir. Və bu "material" bütün hallarda ikili strüktür nümayiş etdirir. Ancaq bu ikili struktur o qədər də sadə, yəni klassik biçimində deyil: konfiqurasiyalar şəklindədir. Yəni adam var ki, aş bişirməyə ayran tapmır, ancaq danışanda yağlı çörəyi

bəyənmir. Əslində həmin adamın yağlı çörəyi yoxdur, o, həmin çörəkdən yemək istəyir, ancaq quru təkəbbürü, lovğalığı ona sadə olmağa, olduğu kimi görünməyə imkan vermir. Məhz sonuncu keyfiyyət – "Olduğu kimi görünməmək" Tufarqanlı şərhində antidünyadır.

*Adam var, əyninə geyinir dəri,,*
*Adam var, dünyada gəzir sərsəri,,*
*Adam var, mərfətdən yoxdu xəbəri,*
*Dindirərsən yol-ərkam bəyənməz.*

*Adam var, dolanır səhranı, düzü,*
*Adam var döşürər gülü, nərjizi,*
*Adam var, geyməyə tapammaz bezi,*
*Adam var, al geyər, şalı bəyənməz.*

*Adam var, çox işlər eylər irada,*
*Adam var ki, yetə bilməz murada,*
*Adam var ki, çörək tapmaz dünyada,*
*Adam var, yağ yeyər, balı bəyənməz.*
*Adam var ki, adamların naxşıdı,*
*Adam var ki, anlamazdı, naşıdı,*
*Ad am var ki, heyvan ondan yaxşıdı,*
*Dindirərsən heç insanı bəyənməz.*

*Adam var, dəstinə verəsən güllər,*
*Adam var, gözünə çəkəsən millət,*
*Tufarqanlı Abbas, başına küllər,*
*Nə günə qamısan, qarı bəyənməz* (20, 68).

Tufarqanlının bu şeirində insanlar (adamlar) təkcə Yaxşı-Yaman qoşalığında təsnif olunmur.

Burada dünyanın yaxşı və yaman işləri də təsnif olunur. Bu baxımdan, həmin qoşalıq həm də "Yaxşılıq-Yamanlıq", yaxud "Yaxşıdır-Yamandır" sinonimik sıralarını da nəzərdə tutur. Şeirin həmin qoşalıqlar baxımından poetik dünya strukturunu quraq:

## "BƏYƏNMƏZ" ŞEİRİNİN POETİK DÜNYA STRUKTURU

| *Yaxşı (Yaxşılıq, Yaxşıdır) semantik cərgəsi* | *Yaman (Yamanlıq, Yamandır) semantik cərgəsi* |
|---|---|
| Tərlanın şuxluğu | Ala qarğanın təkəbbürü |
| Ataya hörmət | Oğulun ataya hörmətsizliyi |
| Anaya hörmət | Qızın anaya hörmətsizliyi |
| Yaxşı adam | Pis adam |
| Təkəbbürsüz adam | Lovğa, təkəbbürlü adam |
| Kasıb adam | Paltar bolluğundan bezən adam |
| Mərifətli adam | Mərifətsiz adam |
| Vəzifəyə baş əyməyən adam | Yaltaq adam |
| Gözəlliyə biganə | Gözəlliyi sevən |
| Geyməyə bez tapmamaq | Bolluqdan paltar bəyənməmək |

Arzularına çatmaq Arzularına əli yetməmək
Ac Toxluqdan quduran
Gözəl qabiliyyətli adam Anlamaz, naşı
Əsl insan Heyvandan pis, antiinsan
Hörmətə layiq insan Cəzaya layiq insan

Göründüyü kimi, Tufarqanlının "Bəyənməz" ustadnaməsində onun dünyasının Yaxşı-Yaman prinsipləri elan olunur. Şair nəyin yaxşı, nəyin pis olduğunu "manifestləşdirir". Bunun məhz ustadnamə şəklində reallaşması bir təsadüf deyil. Ustadnamələr – ustad, böyük, ulu, müəllim, yolgöstərən, ağsaqqal sözləridir. Bu baxımdan ustadnamələrdə üzə çıxan semantik Yaxşı-Yaman vahidlərinin dastan-mif kontekstindən özünəməxsus dəyəri vardır. Ustadnamələrin həm də orta əsr dastanları, xüsusilə məhəbbət dastanları poetik strukturunun ilk elementi olduğunu yada salaq. Bundan öncəki monoqrafiyamızda ("Azərbaycan məhəbbət dastanlarının poetikası") məhəbbət dastanlarının üçüzvlü struktura malik olduğunu göstərmişdir:

| Ustadnamə | Əsas süjet | Duvaqqapma-cahannamə |
|---|---|---|
| Mətnönü elementi | Mətn elementi | Mətnsonu elementi |

Yazmışdıq ki, "…ustadnamələrin poetik dünyasında real dünyanın qayda-qanunlarına

münasibət hökm, göstəriş, əmr, yerinə yetirilməsi vacib olan qayda, pozulmaz qanun, başlıcası, həqiqiliyinə, doğruluğuna şübhə edilməyən Dünya Sahmanı, Nizami kimi verilir. Bu cəhət xüsusilə fikir verilməli məqamdır. Bunlar pozulmaz hökmlərdir. Bu hökmlərin ünvanlandığı dinləyicinin yaşadığı Dünyanın Nizamı, Sahmanı bu hökmlərin yerinə yetirilib-yetirilməyəcəyindən asılıdır… Beləliklə, dastanın ustadnamə hissəsində dastanın epik dünyasının qayda-qanunları elan olunur, dastanın əsas süjetində bu qayda-qanunlar heykəlləşdirilir, duvaqqapmada isə nəticələşdirilir" (45, 21-22).

Beləliklə, ustadnamənin semantik dəyərlərinin cütləşdirdiyi Yaxşı-Yaman strukturu dastan üçün eyni dərəcədə xarakterik struktur qoşalığıdır. Buradan Ustadnamə-Dastan-Mif arasında struktur bağları görünür. Bu bağlar onları birləşdirir. Eyni bir struktur hadisəsinin janr, forma tipinə görə fərqlənən mətnlərinə çevrilir. Düzdür, burada Mif geniş hadisədir: yəni həm mənalar paradiqmasını nəzərdə tutan düşüncə hadisəsi, həm də sintaqmatik anlamda götürülmüş hekayət hadisəsidir. Bütün hallarda ustadnamə və dastan eyni bir ənənə başlanğıcının sonrakı inkişafının struktur həlqələri olmaqla Mifin hər iki aspekti ilə əlaqələnir. Ustadnamə bir tərəfdən dünyanın nizamını nəql edir, o biri tərəfdən bu dünyanın anlanması üçün struktur modeli verir. Bu baxımdan, onun təqdim etdiyi Nəql mifin sintaqmatik aspektinə uyğundur. Dastan da həmçinin. Burada bir tərəfdən mifdə olduğu kimi, dünya nəql olunur. O biri

tərəfdən, yenə də mifdə olduğu kimi, dinləyici öz dünyası haqqında bu dastan vasitəsi ilə, bu dastandan keçməklə düşünür. Bu anlamda, həmin dastan dinləyicinin düşüncə vahididir. Dastanda təqdim olunan dünya modeli dinləyicinin mövcud olduğu real dünyada hərəkət modelidir. Bax, bu baxımdan, dastan və mif birləşir. Mifin iki qlobal parametri dastanda özünü saxlayır.

Mif dastan münasibətlərinin iki qlobal parametr (düşüncə vahidi və təhkiyə vahidi) ilə birləşməsi ənənənin varisliyi prinsipindən doğur. Dastan ənənə hadisəsi olmaqla məhz mifdən gələn düşüncə və təhkiyə qollarının varisi kimi çıxış edir. Əlbəttə, bu yolda varis təkcə dastan deyildir. İndiki halda dastan-mif kontekstindən söhbət getdiyi üçün dastanın rolu qabardılır. Bütövlükdə götürdükdə dastan mifdən gələn dünya təhkiyəsinin differensial daşıyıcılarından biridir. Yəni nağıl, əfsanə, rəvayət, mərasimlər və s. belə differensial daşıyıcılar olduğu kimi, dastan da onlardan biridir. Ancaq dastanın rolu burada böyükdür. Çünki dastan etnik yaddaşın birbaşa daşıyıcısı kimi çıxış edir. Bu yaddaş mifdən gəlir, mifik yaddaşdır. Orada dünyanın çox sadə prinsipləri hökm sürürdü. Həmin prinsiplər sırasına Yaxşı-Yaman qlobal strukturu da daxil idi. Tədqiqat göstərdi ki, bu struktur mifoloji mənşəli olmaqla inkişafını davam etdirmiş, sonrakı mətnlərdə, xüsusilə dastanda geniş poetik struktura çevrilmişdir.

# NƏTİCƏ

Azərbaycan dastanlarının struktur poetikasının öyrənilməsi artıq dünya elmində ümumiləşmiş bir praktikanı əslində təsdiq etmiş oldu. Yəni struktur-semantik baxış ənənəvi mətnin tədqiqində tədqiqatçı qarşısında çox böyük imkanlar açmış olur. Ənənəvi mətn struktur formullardan təşkil edilir. Məhz struktur-semantik yolla bu formulların struktur mexanizmlərini və funksiyalaşma imkanlarını tədqiq etmək mümkün olur. Məhz bu metodun tətbiq edilməsi burada məhəbbət dastanlarının poetikasına yeni baxış imkanları vermiş oldu.

Monoqrafiyada məhəbbət dastanlarının struktur-semantik yolla öyrənilməsi göstərdi ki, məhəbbət dastanları hər şeydən əvvəl bir mətndir. Bir mətn olmaqla məhəbbət dastanları onu yaddaşında daşıyan etnik-mədəni sistemin epik-lirik dünya təsəvvürlərini gerçəkləşdirmiş olur. Bu mənada məhəbət dastanlarının strukturu onun yaddaş sahibi olan etnosun dünya haqqındakı təsəvvürlərinin strukturunu əks etdirmiş olur. Məsələyə bu baxımdan yanaşma məhəbbət dastanlarının poetik strukturunun bir-birinə laylanmış mətn strukturu elementlərindən ibarət olduğunu göstərdi.

Araşdırmada aydın olur ki, məhəbbət dastanlarının quruluşu onu reallaşdıran elementlərin kəmiyyət fakturası baxımından iki hissədən (Mətndənqıraq və Mətndaxili hissələrdən) ibarətdir. Bu hissələrin düzülüş mexanizmi məhəbbət

dastanlarının fuknsiyalaşma istiqamətini şərtləndirmiş olur. Bu baxımdan məhəbbət dastanlarının Mətndənqıraq hissəsi iki elementdən -Mətnönü və Mətnsonudan təşkil olunur. Mətndaxili hissəsi isə element səviyyəsində Mətni bildirmiş olur. Bu mənada məhəbbət dastanının poetik strukturu Mətnönü-Mətn-Mətnsonu elementlərinin düzülüş sırası kimi təşkil olunur. Burada Mətnönü-ustadnamələri, Mətn-süjeti, Mətnsonu isə –duvaq qapma-cahannaməni bildirir.

Azərbaycan məhəbbət dastanlarının öyrənilməsinə həsr olunmuş əsərlərdə ustadnamə, dastan süjeti və duvaq-qapma-cahannamə hadisələrinin bir dastan mətninin üzvü tərkib hissəsi olması məsələsinə dəfələrlə toxunulsa da, bunlar yalnız təsviri istiqamətdə olmuş, məsələnin mahiyyəti mətnin poetik səviyyəsində açıqlamasını tapmamışdır. Əslində bu təbiidir. Çünki məhəbbət dastanına Total Mətn kimi yanaşıb onun ustadnamə, süjet və duvaqqapma-cahannamə hissələrini Total Mətnin sturuktur elementləri kimi götürmədən onların bir dastan mətn müstəvisində düzülüş mexanizm və məntiqini tapmaq mümkün deyildir. Bu isə mətnə yalnız struktur-semantik yanaşma ilə mümkün oldu.

Dastan mətninə struktur-semantik yanaşma göstərdi ki, dastanın ustadnamə, süjet və duvaqqapma və cahannamə hissələri bir element kimi, yekcins elementlər deyillər. Başqa sözlə, dastanın ustadnamə, süjet, duvaqqapma-cahannamə hissləri bir-biri ilə süjet

ortaqlığına görə birləşmirlər. Çünki nə ustadnamə, nə də duvaqqapma-cahannamələr süjet hadisəsi deyildir. Tədqiqat göstərir ki, bu hissələrin bir-biriilə əlaqəsi sturuktur-semantik işarə səviyyəsindədir. Bu baxımdan ustadnamə etnik-mədəni sistemin universallaşmış qanunlar şəklinə düşmüş həyat təcrübəsini, yəni poetik imperativi, süjet onun hadisə şəklində sınağını, duvaqqapma-cahannamə isə sınağın poetik baxımdan nəticələşdirilməsini nəzərdə tutur. Beləliklə, dastanın bu üç hissəsi biri-biri ilə işarə səviyyəsindən bağlanırlar. Bu baxımdan ustadnamə realizə olunan hökm süjetdəki hadisələrin məntiqi inkişafı üçün işarə olur. Öz növbəsində süjetdəki hadisələrin məntiqi inkişaf gedişi dastanın hansı sonluqda (duvaqqapma, yaxud cahannamə) bitməsi üçün işarə rolunu oynayır. Duvaqqapma-cahannamə ilə sonuncu işarə tamamlanmış olur və buradan dastanın Total Mətninin öz işarəsi başlanır. Tədqiqat göstərir ki, bir total mətn hadisəsi olaraq məhəbbət dastanlarının işarəsi buta epik-poetik kompleksi şəklində reallaşan məhəbbətdir.

Məhəbbət dastanları poetikasının struktur-semantik yolla öyrənilməsi qapalı bir sistem kimi struktur formullarının düzülüşündən təşkil olunmuş bu epik sistemin üçfunksiyalaşma elementini aşkarlamış olur: dastançı-dastan-dinləyici. Burada sistemin qapalılığı dastan süjetinin anlanması, başa düşülməsi baxımından çox mühüm rola malikdir. Bu mənada dastanın statik struktura malik bir sistem kimi sistemdənqıraq bütün əlaqələri əlahiddə olaraq

dastançı-dastan-dinləyici qapalı sisteminin hər hansı bir üzvü səviyyəsində yox, bütöv dastan səviyyəsində gedir.

Məhəbbət dastanları poetikasının struktur-semantik səviyyədən araşdırılması onun bir janr kimi formalaşması və təşəkkülünə diqqət verməyi xüsusi tələb etmişdir. Aydınlaşdırılmışdır ki, məhəbbət dastanları bir janr kimi, qəhrəmanlıq dastanlarından differensiasiya etmişdir. Xüsusi şəraitin nəticəsi olaraq qəhrəmanlıq dastanlarının «qəhrəmancasına elçilik» motivi məhəbbət dastanlarına doğru aktivləşmə keçirtmişdir. Bu prosesdə təsəvvüfi-irfani görüşlərin aşıq poeziyasına təsiri böyük rol oynamışdır. Ancaq tədqiqat göstərir ki, bu yöndə yazılı ədəbiyyatın Aşiq-məşuq lirik-poetik kompleksinin obraz yaradıcılığı istiqamətində mühüm təsiri olmuşdur. Bu isə struktur-semantik xarakterli iki mühüm nəticəyə gəlməyə imkan vermişdir:

1.Məhəbbət dastanlarının strukturu qəhrəmanlıq dastanlarından gəlir (məhəbbət dastanları arxaplanda elə qəhrəmanlıq dastanlarıdır).

2.Azərbaycan dastançılığının müəyyən inkişaf mərhələsində qəhrəmanlıq dastanlarının məhəbbət motivləri xüsusi aktivləşmə keçirmiş və məhəbbət dastanları xüsusi janr kimi qəhrəmanlıq dastanlarının ümumi kütləsindən ayrılaraq inkişaf etməyə başlamışdır.

Tədqiqat göstərir ki, məhəbbət dastanlarının başlıca struktur işarəsi kimi haqqa aşiqlik-haqq aşiqliyi əsas götürülmüşdür. Ancaq struktur-semantik istiqamətdə aparılmış dərinləşdirmə sübut edir ki, haqq

aşığı təsəvvüfi davranış kodu bütövlükdə buta (ilahi sevgi, ilahi tale) epik-poetik kompleksinin içərisinə girir. Bu baxımdan məhəbbət dastanlarının əsas struktur işarəsi kimi Buta-İlahi Sevgi, İlahi Tale semantemi çıxış edir.

Buta təsəvvüfi-poetik kompleksinin tədqiqat müstəvisində mütləqləşdirilməsi məhəbbət dastanlarının bütöv poetik strukturu səviyyəsində bu kompleksi bərpa etməyə imkan verir. Heç təsadüfi deyildir ki, tədqiqat buta kompleksinin butavermədən yox, butavermə olmayan dastanlarda qəhrəmanların «möcüzəli doğuluş» motivindən başlandığını aydınlaşdırır. Bununla sübut olunur ki, istər butavermәli, istərsə də butavermәsiz dastanlar buta təsəvvüfi-poetik kompleksinə aiddir. Çünki epik-mifoloji düşüncədə butavermə ilə göbəkkəsmə nişanlılıq eyni bir semantemi-İlahi Sevgi, İlahi Tale semantemini reallaşdırır. Heç təsadüfi deyildir ki, Azərbaycan məhəbbət dastanlarında qəhrəmanların bir-birinə buta verilib-verilməmələrindən asılı olmayaraq dastan düşüncəsi onları buta qəhrəmanları sayır. Bu xüsusda «Müğüm şah» və «Səyyad-Sədət» dastanındakı butavermə motivlərinin araşdırılması Azərbaycan məhəbbət dastanlarının bütöv strukturu üçün butavermə invariantını bərpa etməyə imkan vermişdir.

Araşdırma göstərir ki, butavermə ilə göbəkkəsmə semantik yük baxımından ekvivalentdir. Struktur-semantik baxımından qəhrəmanların nəzir-niyazla anadan olmaları, onların göbəkkəsmə nişanlı

olmalarını nəzərdə tutur. Qəhrəmanların nəzir-niyazla anadan olmaları isə onların bir-birinə buta veriləcəklərini nəzərdə tutur. Beləliklə, göbəkkəsmə nişanlılıq və butavermə əslində ilahi nişanlılıq, ilahi tale kimi buta təsəvvüfi-poetik kompleksinə daxildir. Bu cəhət struktur formullar şəklində belə reallaşır:

a) Doğuluş və göbəkkəsmə nişanlanma motivi varsa - *butavermə yoxdur.*

b) Doğuluş göbəkkəsmə motivi yoxdursa - *butavermə vardır.*

Beləliklə, məhəbbət dastanlarının statik strukturu buta epik-təsəvvüfi kompleksi ilə başlanır və bütöv struktur bu kompleksə daxil olur. Bu mənada dastanın başlanğıc elementlərindən tutmuş, qəhrəmanın öz sevgilisinin ardınca getməsi, müxtəlif maneələri dəf edərək öz sevgilisinə qovuşmasına qədər bütün sturuktur elementləri buta təsəvvüfi-poetik kompleksinin sturuktur məntiqinə tabedir.

Dastanların poetik strukturunun struktur-semantik səviyyədən öyrənilməsi göstərir ki, məhəbbət dastanları statik formullardan təşkil olunmuş quruluşa malikdir və bu formullar üç əsas elementin düzümü kimi təşkil olunur: ustadnamə-süjet-duvaqqapma-cahannamə. Bunların biri-biri ilə əlaqələri mətn işarələri səviyyəsində olur.

Məhəbbət dastanlarının obrazlar sisteminin araşdırılması göstərir ki, obrazların struktur-semantik realiziasiyası baxımından məhəbbət dastanları ikiqəhrəmanlı mətnlərdir. Dastan bütövlükdə Aşiq-məşuq epik kompleksi üzərində təşəkkül tapır. Bu

kompleks arxetip planda qəhrəmanlıq dastanlarına, daha əski planda, arxaik qəhrəmanlıq dastanlarına, nəhayət, mifoloji eposlara gedib çıxır. Qəhrəmanlıq dastanlarına qədər dastan qəhrəmanlarının fiziki fəallığı dominant olur. Məhəbbət dastanlarında bu dominantlıq məcazi-təsəvvüfi anlam da əks etməyə başlayır. Bu baxımdan məhəbbət dastanlarında Aşiq-Haqq aşıqlığını, yəni haqq aşiqliyini simvollaşdırır. Bu mənada Aşiqin Məşuq obrazına nisbətən fiziki fəallığı da bununla ölçülür.

Məhəbbət dastanlarında Aşiqin Məşuq obrazına nisbətən fiziki fəallıq planında görünməsi əslində planda görünmür. Beləki, Aşiqin süjet hərəkəti şəklində reallaşan fiziki fəallığı məşuqun təsəvüfi-məcazi fəallığı ilə semantik baxımdan ekvivalent olur. Ancaq burada təsəvvüfi semantikanın dinamik istiqamətləri eyni yönə istiqamətlənir. Bu baxımdan Aşıq-Məşuq təsəvvüfi-poetik obraz kompleksi iki planda təzahür etmiş olmur:

1. Aşiqlə Məşuqun arxetipik epik ənənələrinə söykənən realizasiya planı. Bu planda iki sevən gənc var və bunlara məxsus hisslər reallıq boyaları ilə əlamətdardır.

2. Aşiqlə məşuq obraz kompleksi təsəvvüfi-irfani reallaşma planına malikdir.

Qeyd edək ki, məhəbbət dastanlarında bu iki plan üzvi qovuşma təşkil etsə də dastanın dominant məntiqi kimi haqq aşığı təsəvvüfi davranış kodu çıxış edir. Bu baxımdan məşuqə Allahın təcəllası, Gözəl obrazında reallaşan ilahi başlanğıcdır. Bu mənada

Aşiqin ona yönəlmiş fiziki-mənəvi fəallığı insanın Allahdan qopub ona qayıtması haqqındakı teoqonik düsturu realizasiya edir.

Məhəbbət dastanlarına struktur-semantik yanaşma onun obrazlar sistemində Aşiq-Məşuq obrazlar kompleksi ilə ekvivalent semantikaya malik daha bir obrazı-vasitəçi-mediatoru görməyə imkan verir. Bu baxımdan tədqiqat göstərir ki, dərviş Ağa-Həzrət, Əli-Şahmərdan Xızır-Nəbi obraz kompleksi məhəbbət dastanlarının strukturunda çox vacib bir element kimi mediativ funksiyanı həyata keçirir. Arxetip planda bu obraz kompleksi şaman mediasiyasına bağlıdır. «Nəcəboğlan» türkmən dastanındakı butavermə kompleksinin öyrənilməsi göstərir ki, butavermə türk epik mədəniyyətinin öz faktı kimi məhz şaman kompleksinə aiddir.

Məhəbbət dastanlarının statik funksiyaları əks etdirən obrazları semantik baxımdan iki qütb ətrafında konsentrasiya olunur: qəhrəman və antiqəhrəman. Bu baxımdan məhəbət dastanlarında antiqəhrəman-antoqonist obrazları poetik strukturun mühüm elementləri kimi çıxış edir.

Tədqiqat göstərir ki, məhəbbət dastanlarındakı qarı obrazları arxetipik semantikaya malik olmaqla inisiasiya mərasimləri ilə bağlı obrazlıdır. Bu baxımdan məhəbbət dastanlarındakı saz obrazının magik funksiyası da arxetip semantikaya bağlılığı ilə ölçülür.

Azərbaycan məhəbbət dastanlarının nəsr-nəzm strukturu struktur-semantik planda dastan statizmi ilə dastan dinamizminin qovuşması kimi təzahür edir.

Dastan bir tərəfdən öz süjeti ilə statizmi səciyyələndirir. Dastana dinamizmi isə dastan şeiri gətirir. Bu baxımdan dastan şeiri funksional-üslubi planda məhəbbət dastanını bir janr kimi səciyəvi cəhətdən seçdirmiş olur. Belə ki, məhəbbət dastanı öz statizmi ilə folklora, qəhrəmanlıq dastanlarına bağlanır. Dastan şeirinin dinamizmi isə məhəbbət dastanlarını klassik yazılı poeziyaya bağlamış olur. Elə bu cəhətdən məhəbbət dastanlarının statik qəliblərdən çıxmış obrazları məhz dastan şeirinin «hesabına» obraz cizgiləri qazanmış olur. Bu isə dastan şeirinin xüsusi funksiyaya malik olduğunu göstərir. Dastan şeiri bütün janr-forma xüsusiyyətləri baxımından aşıq şeiridir. Bu baxımdan dastan şeiri dastandakı aşıq şeiridir. Ancaq aşıq şeiri ilə dastan şeiri funksional-üslubi planda bir-birindən kəskin fərqlənirlər. Aşıq şeiri öz poetik imperativi, onun məzmunu və nəticəsi baxımından bütövdür. Dastan şeirində isə poetik imperativ və nəticə var. Bu mənada dastan şeirinin lirik məzmunu dastan süjetinin məzmunu ilə bağlıdır. Dastan şeirini aşıq şeirindən fərqləndirən başlıca cəhət də budur. Dastan şeiri dastan süjetindən qıraqda funksional baxımdan «yarımçıqdır». Bu mənada dastan şeiri dastan süjet və obrazlarının iç-mənəvi dünyasını əks etdirir.

Azərbaycan dastanlarının struktur poetikasının öyrənilməsi göstərdi ki, dastan və mif münasibətləri iki əsas konteksti nəzərdə tutur. Dastanlar öz qaynağını, arxetipik başlanğıcını mifdən götürür. Bu, birinci tərəf olmaqla, dastan mətninin "oxunması"

prosesində mifoloji zəminin ciddi şəkildə nəzərə alınmasını tələb edir. İkinci tərəfdən, mifin strukturunun dastan strukturunda özünəməxsus şəkildə yaşaması mifləri həm də dastan mətnindən bərpa etməyin mümkünlüyünü göstərir.

Əldə edilmiş bu iki nəticə əslində qabaqcıl dünya mifologiya və eposşünaslığının reallaşdırdığı praktik addımlardır. Söhbət Azərbaycan-türk dastançılığından və onun arxebzasını təşkil edən türk mifologiyasından gedir.

Mif struktur layları şəklində dastanın strukturunun müxtəlif qatlarında "yaşayır". Onu süjetdən, süjetin elementlərindən, motivlərdən, epizodlardan, bütöv kompozisiyadan və s. bərpa etmək mümkündür. Birinci fəsildə bu iş dastan motivləri səviyyəsində görüldü. Dastanın qeyri-adi doğuluş, adqoyma və butavermə motivlərinin nəzərdən keçirilməsi göstərdi ki, bu motivlər öz yaranma dövrü və materialı baxımından kosmoloji çağa – mif dövrünə və mif materialına aiddir.

Qeyri-adi doğuluş mifologem olmaqla öz məntiqinə malikdir. Miflərdə qeyri-adi doğuluş kosmoqonik sxemin tərkib hissəsidir. Dünyanın yaranması miflərdə işarələndirilmiş prosesdir və burada mədəni qəhrəmanın (ilk əcdadın, demiurqun) doğulması invariant olaraq aprobasiya edilir. Mif qəhrəmanının doğulması kainatın, dünyanın (kosmosun) yaranmasını simvolizə edir. Bu akt dastan mətnlərində qeyri-adi doğuluş qəhrəmanın qeyri-adi gücünü, onun qalan personajlardan adi olmayan

fərqini bildirir. Dastan qəhrəmanı epik platforma müstəvisində bütün hallarda sosial cəhətdən dəyərləndirilmiş işlər görür. Onun gördüyü işlərlə mənəvi-fiziki gücü mütənasib gəlməli idi. Dastanda bu, qeyri-adi doğuluş motivi vasitəsi ilə təmin edilir. Burada dastançının ixtiyari münasibəti yoxdur və ola da bilməz. Söhbət mədəni qəhrəman (ilk əcdad, demiurq) haqqında olan doğuluş, yaranış mifinin sonrakı inkişafından, arxestruktur kimi özünü saxlamasından, sonrakı epik formalar üçün arxeformalar təşkil etməsindən gedir.

Adqoyma motivi də, monoqrafiyadan göründüyü kimi, əski motiv olmaqla dastan mətninə mifdən gəlir. Mifdə şeylərin adlandırılması onların təsnifi ilə bağlıdır. Başqa sözlə, adqoyma birbaşa dillə bağlı prosesdir. Bu baxımdan, şeylərin adlarında onların mifoloji mahiyyətinin ifadə olunması özünü göstərir. Düzdür, adlar sonrakı inkişafda aldadıcı situasiyalar yarada bilir. Dastanlarda ad verilməsi ritual-mifoloji mənşəli hadisədir. Advermə bir sosial qrupdan, statusdan o birisinə keçməni nəzərdə tutur. Dastan mətnlərində, xüsusilə "Kitabi-Dədə Qorqud"da bu, qorunub qalıb. Tədqiqat göstərdi ki, mifdəngəlmə adqoyma məhəbbət dastanlarında da özünü saxlayıb. Burada adqoyma bütün arxaik elementləri ilə birgə transformasiyaya uğramışdır. Transformativ proses bu aktın təsəvvüfi-irfani məzmun alması ilə əlamətdar olmuşdur.

Butavermə motivi də, tədqiqatdan aşkarlandığı kimi, öz kökləri etibarilə mifoloji akt olaraq üzə çıxır.

Onun strukturunda İnsan-Tanrı münasibətləri durur ki, bu da mifoloji şüur üçün aktual olmuşdur. Araşdırmalardan bəlli olmuşdur ki, bu prosesdə mifoloji səciyyəli hami obrazları çox fəaldır. Onların mifoloji strukturunun araşdırılması həmin obrazlarda mifoloji mediatoru-dünyanın Yeraltı, Yerüstü, Göy qatları arasında sərbəst hərəkət edən, bu qatlar arasında əlaqə yaradan varlığı görməyə imkan verir.

Azərbaycan dastanlarının struktur poetikasının öyrənilməsi göstərdi ki, dastan mətnlərindəki bir sıra obrazlar ilkin kosmoqonik stixiyaları simvollaşdıran obrazlardır. Ağac, Su, Dağ, Günəş və s. obrazların araşdırılması göstərdi ki, onlara sonrakı dastançılıq ənənəsində fəal semantika ilə rast gəlinməsi təsadüfi deyildir. Onlar ilkin kosmoqonik sxemlərdə – miflərdə fəal olmuşlar. Bu baxımdan, epik düşüncənin sonrakı inkişafı ilə həmin qüvvətli semantikaya malik obrazlar bu və ya digər səviyyədə özlərini dastan mətnlərində saxlamaqda davam etmişlər. Tədqiqat aşkarladı ki, onların semantikası dastan mətnindəki bir sıra standart situasiyaların anlanmasına kömək edir.

Dastan başdan-ayağa formullardan, hərəkət sxemlərindən, semantik situasiyalardan təşkil edilir. Bu baxımdan, dastanın dünya modelində iki qütb – dual qütblər aydan təsəvvür edilir. Dastan duallığının təhlili göstərir ki, bu mətnlərdə olan dual strukturlar nə qədər geniş sıra və cərgələrə malik olsa da, onların əsasında ilkin düşüncədən – mifdən gəlmə semantik qoşalıqlar durur. Mifin belə qoşalıq strukturları dünyanın hissi, maddi obrazlarına əsaslanmaqla

azsaylıdır. Sonrakı inkişaf bu azsaylı strukturların inkişafı, konfiqurasiyaları və mücərrədləşmələri hesabına başa gəlir.

Tədqiqat göstərdi ki, dastan-mif konteksti Azərbaycan dastanlarının semantikasının öyrənilməsində və əski türk mifologiyasının bərpasında əlverişli axtarış kontekstidir. Çünki bu kontekstdən yanaşdıqda bir tərəfdən dastanlar arxetipik strukturu baxımından öyrənilir, o biri tərəfdən mifoloji sxemlər bərpa olunaraq üzə çıxır. Bu baxımdan epos-mif konteksti tədqiqat müstəvisi kimi hələ bundan sonra da öz prespektivlərinə malikdir.

# ƏDƏBİYYAT


## *Azərbaycan dilində*

1. Abbas Tufarqanlı. 72 şeir. Tərtibçi A.Dadaşzadə. B., Gənclik, 1973
2. «Abbas və Gülgəz» dastanı. Audiokassetlər folklorşünas M.Qasımlının şəxsi arxivində qorunur.
3. Abbasov İ. Müqəddimə – Azərbaycan aşıqları və el şairləri. I c., B., “Elm”, 1983
4. Abbasov İ. Ön söz – Azərbaycan ədəbiyyatı inciləri. Dastanlar. B., "Gənclik", 1987
5. Abdullayev B. Azərbaycan folklorunun qədim janrlarından – Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. VI kitab. B., “Elm”, 1981, s. 90-135
6. Abdullayev B. Haqqın səsi. B., Azərnəşr, 1989
7. Abdulla B. "Kitabi-Dədə Qorqud"un poetikası, B., "Elm", 1990
8. Abdulla B. "Kitabi-Dədə Qorqud"da gerçəkliyin etnomifik qavrayışı (Dağ və dərə anlayışı) – Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqatlar. 8-ci kitab. B., "Səda", 1999
9. Abdulla B. Azərbaycan folklorunda mifoloji at. B., "Elm", 2000
10. Abdullayev K. Gizli Dədə Qorqud. B., "Yazıçı", 1991
11. Acalov A. Dəli Domrul boyunun kökləri və mifoloji simvolikası – Azərbaycan filologiyası məsələləri. B., "Elm", 1983

12. Acalov A. Azərbaycan folklorşünaslığının bəzi epistemoloji problemləri – Azərbaycan folklorşünaslığı məsələləri. B., "Elm", 1989
13. Allahmanlı M. Ozan, Aşıq və Aşıq. B., «Ağrıdağ, 1997
14. Allahmanlı M. Türk dastan yaradıcılığı. B., "Ağrıdağ", 1998
15. Allahmanlı M. Din, təriqət və aşıq. B., "Şur", 1999
16. Araslı H. XVII-XVIII əsr Azərbaycan ədəbiyyatı tarixi. B., Az. SSR EA nəşriyyatı, 1956
17. Araslı H. Aşıq yaradıcılığı. B., 1960
18. Araslı H. Qədim Azərbaycan ədəbiyyatı. B., Azərnəşr, 1963
19. Arazam Kürə bəndəm. Tərtib edəni B.Abdullayev. B., 1986
20. Azərbaycan aşıqları və el şairləri. 2 clddə, I c., B., "Elm", 1983
21. Azərbaycan dastanları. Beş clddə, 1-ci c. Tərtibçilər: Ə.Axundov və M.H.Təhmasib. Az SSR EA nəşriyyatı, B., 1965
22. Azərbaycan dastanları. Beş cilddə, 2-ci c. Tərtib edənlər: Ə.Axundov və M.H.Təhmasib. Az SSR EA nəşriyyatı, B., 1966
23. Azərbaycan dastanları. Beş cilddə, 3-cü c. Toplayan və tərtib edəni: Ə.Axundov. Az SSR EA nəşriyyatı, B., 1967
24. Azərbaycan dastanları. Beş cilddə, 4-cü c. Tərtib edəni: M.H.Təhmasib. Az SSR EA nəşriyyatı, B., 1969

25. Azərbaycan dastanları. Beş cilddə, 5-ci c. Tərtib edəni: Ə.Axundov. Az SSR EA nəşriyyatı, B., 1969

26. Azərbaycan dastanları. Toplayıb nəşrə hazırlayanı A.Nəbiyev. B., «Yazıçı, 1977

27. Azərbaycan ədəbiyyatı inciləri. Dastanlar. Tərtib edəni B.Abdullayev. B., "Yazıçı", 1987

28. Azərbaycan ədəbiyyatı tarixi. 3 cilddə, I c., B., Az.SSR EA nəşriyyatı, 1960

29. Azərbaycan folkloru antologiyası. 2 kitabda. Toplayanı və tərtib edəni Ə.Axundov. B., Az. SSR EA nəşriyyatı, 1968

30. Azərbaycan folkloru antologiyası. 2-ci kitab. İraq türkman cildi: tərtibçilər Q.Paşayev və Ə. Bəndəroğlu. B., 1999

31. Azərbaycan xalq əfsanələri. Toplayanı və tərtib edəni S.Paşayev. B., "Yazıçı", 1985

32. Azərbaycan klassik ədəbiyyatında işlədilən ərəb və fars sözləri lüğəti. B., "Maarif", 1981

33. Azərbaycan məhəbbət dastanları. Tərtib edənlər: M.H.Təhmasib və b. B., "Elm", 1979

34. Azərbaycan mifoloji mətnləri. Tərtibçi A.Acalov. B., "Elm", 1988

35. Azərbaycan nağılları. 5 cilddə. B., AZ.SSR EA nəşriyyatı, 1960-1964

36. Azərbaycan xalq dastanları. İki cilddə, 1-ci c. Toplayan və tərtib edəni Ə.Axundov. B., 1961

37. Azərbaycan xalq dastanları. İki cilddə, 2-ci c. Toplayanı və tərtib edəni Ə.Axundov. B., 1961

38. Azərbaycan xalq dastanları. Toplayanı və tərtib edəni Ə.Axundov. B., "Yazıçı", 1980

39. Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər (məqalələr məcmuələri). B., «Elm», 1961-1967-ci illər
40. Bax: «Telli saz ustaları» kitabında tərtibçi Ə.Axundovun Abbas Tufarqanlı şeirlərinə yazdığı bir neçə cümləlik önlük. B., 1964, s. 11
41. Bax: «Aşıqlar» kitabında toplayıcı tərtibçi H.Əlizadənin A.Tufarqanlı şeirlərinə yazdığı önlük. B., 1935, s. 1-2.
42. Bayat F. Oğuz epik ənənəsi və "Oğuz Kağan" dastanı. B., "Sabah", 1993
43. Bayat F. Xoca Əhməd Yəsəvi və xalq sufizminin bəzi problemləri. B., 1997
44. Bəydili C. "Qorqut ata" – Kitabi-Dədə Qorqud Ensiklopediyası. II cild, B., YNE, 2000
45. Cəfərli M. Azərbaycan məhəbbət dastanlarının poetikası. B., "Elm", 2000
46. Cəfərli M. Dastan və mif. B., "Elm", 2001
47. Cəmşidov Ş. «Kitabi-Dədə Qorqud». B., "Elm", 1977
48. Cəmşidov Ş. «Kitabi-Dədə Qorqud» (Tarixi, coğrafi, tekstoloji tədqiq və Drezden əlyazmasının dürüstləşdirilmiş elmi mətni). B., "Elm", 1999
49. Çəmənzəminli Y.V. Əsərləri. 3 clddə. III c., B., "Elm", 1977
50. Dadaşzadə A. Ön söz – Abbas Tufarqanlı. 72 şeir. B., 1973, s. 3-10
51. Dastanlar və nağıllar. Tərtibçi H.Əlizadə. B., 1937
52. Dastanlar. Toplayanı Ə.H.Tahirov. B., 1939

53. Dastanlar. Toplayanı Ə.Axundov, tərtibçi A.Axundov. B., 1993
54. Elçin, Quliyev V. Özümüz və sözümüz. B., Azərnəşr, 1993
55. Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı. B., "Maarif", 1981
56. Əfəndiyev P. Dastan yaradıcılığı. B., ADPU, 1999
57. Ələkbərov S. Folklorda əxlaqi-estetik fikirlər. B., "Gənclik", 1978
58. Əlibəyzadə E. Azərbaycan xalqının mənəvi mədəniyyət tarixi. B., "Gənclik", 1988
59. Əlizadə M.İ. "Kitabi-Dədə Qorqud"un poetikası (epik zaman məsələləri) – Namizədlik dissertasiyası. B., 1991
60. Füzuli. Leyli və Məcnun. B., "Azərbaycan Uşaq Gəncləri Ədəbiyyatı nəşriyyatı", 1958
61. Gəncəvi N. Xosrov və Şirin. B., "Yazıçı", 1983
62. Gəncəvi N. Leyli və Məcnun. B., "Yazıçı", 1982
63. Gəncəvi N. Yeddi gözəl. Filoloji tərcümə R. Əliyevindir. B., 1983
64. Həkimov M. Azərbaycan klassik aşıq yaradıcılığı. B., 1982
65. Həkimov M. Azərbaycan aşıq ədəbiyyatı. B., "Yazıçı", 1983
66. Həkimov M. «Kitabi-Dədə Qorqud» boylarında alqış-dua, and və qarğışlar – "Folklorşünaslıq məsələləri". B., BDU, 1991, s. 20-29

67. Hüseynov M. Azərbaycan nağıllarında köməkçi qüvvələr. Namizədlik dissertasiyası. B., 1992

68. Xalisbəyli T. Nizami Gəncəvi və Azərbaycan şifahi xavlq ədəbiyyatı («Yeddi peykər» əsəri üzrə). B., 1988

69. Xalisbəyli T. Məhəbbətə xalq abidəsi. B., “Yazıçı”, 1989

70. Xalq dastanları. Toplayanı və tərtib edəni Ə.Axundov. 2 cilddə. B., Azərnəşr, 1961

71. Xalqın söz mirvariləri. Toplayanı və tərtib edəni Ə.Axundov. B., Azərnəşr, 1999

72. Xəndan C. Ədəbiyyat nəzəriyyəsi. B., 1948

73. İbrahimov M. Aşıq poeziyasında realizm. B., “Elm”, 1966

73a. İsmayılov H. Aşıq yaradıcılığı: mənşəyi və inkişaf mərhələləri. B., “Elm”, 2002

73b. İsmayılov H. Göyçə aşıq mühiti: təşəkkülü və inkişaf yollari. B., “Elm”, 2002

74. Kərimov Q. Şərait və onun sosial mahiyyəti. B., 1986

75. Kitabi-Dədə Qorqud. H.Araslı nəşri. B., “Gənclik”, 1977

76. Kitabi-Dədə Qorqud. Tərtibçilər: F.Zeynalov və S.Əlizadə. B., "Yazıçı", 1988

77. Kitabi – Dədə Qorqud Ensiklopediyası. I c., İstanbul, Bakı, YNE, 2000

78. Kitabi – Dədə Qorqud Ensiklopediyası. II c., İstanbul, Bakı, YNE, 2000

79. Koroğlu (dastan). Tərtibçi M.H.Təhmasib. B., Az. SSR EA nəşriyyatı, 1959

80. Koroğlu X. Oğuz qəhrəmanlıq eposu. B., "Yurd", 1999
81. Qaçaq Nəbi. Toplayıb tərtib edəni M.H.Təhmasib. B., 1938
82. Qaçaq Nəbi. Toplayıb tərtib edəni Ə.Axundov. EA AzF nəşriyyatı. B., 1941
83. Qafarlı R. Mif və nağıl. B., ADPU, 1999
84. Qarabağlı Ə. Məktəbdə şifahi xalq ədəbiyyatının tədrisi. B., 1961
85. Qasımlı M. Aşıq sənəti. B., "Ozan", 1996
86. Qıpçaq M. Türk say sistemi. B., "Yazıçı", 1997
87. Məhəbbət dastanları. Toplayanı və tərtib edəni R.Rüstəmzadə. B.,1982
88. Məmmədov (Bəydili) C. Türk epik ənənəsində Dədə Qorqud. Namizədlik dissertasiyasının avtoreferatı. B., 1994
89. Mirəhmədov Ə. Ədəbiyyatşünaslıq. Ensiklopedik lüğət. B., 1998
90. Namazov Q. Azərbaycan aşıq sənəti. B., 1984
91. Nəbiyev A. Qəhrəmanlıq səhifələri. B., 1975
92. Nəbiyev A. Ön söz – Nəğmələr, inanclar, alqışlar. Toplayıcı və tərtibçi prof. A.Nəbiyev. B., "Yazıçı", 1985, s. 5-24
93. Paşayev Q. İraq-türkman folkloru. B., "Yazıçı", 1992
94. Paşayev S. Nizami və folklor. B., "Bilik", 1976
95. Paşayev S. Azərbaycan folkloru və aşıq yaradıcılığı. B., ADU, 1989
96. Ramizqızı A. Aşıq şeirində ustadnamə və təəssüfnamələrin poetikası. B., 1997

97. Rəfili M. Ədəbiyyat nəzəriyyəsinə giriş. B.. APİ, 1958
98. Rəsulov R. "Kitabi-Dədə Qorqud"un poetikası (metaforik arxetiplər). Namizədlik dissertasiyasının avtoreferatı. B., 1995
99. Seyidov M. «Şifahi xalq ədəbiyyatı təsiri ilə yaranan şeir» oçerki – «Azərbaycan ədəbiyyatı tarixi». Üç cilddə, I c., B., 1960, s. 485-491
100. Seyidov M. Göy, ağ, qara rənglərinin əski inamlarla əlaqəsi – Az. SSR EA xəbərləri («Ədəbiyat və incəsənət ser.»). B., 1978
101. Seyidov M. Azərbaycan mifik təfəkkürünün qaynaqları. B., "Yazıçı", 1983
102. Seyidov M. Azərbaycan xalqının soykökünü düşünərkən. B., "Yazıçı", 1989
103. Şükürov A. Mifologiya. I kitab. B., "Elm", 1995
104. Təhmasib M.H. XVII-XVIII əsrlər Azərbaycan ədəbiyyatı – Azərbaycan ədəbiyyatı tarixi. B., EA AzF nəşriyyatı, 1943
105. Təhmasib M.H. Xalq ədəbiyyatımızda mərasim və mövsüm nəğmələri. Namizədlik dissertasiyası. B., BDU-nun kitabxanası, 1945
106. Təhmasib M.H. Azərbaycan xalq ədəbiyyatında div surəti – "Vətən uğrunda" jurn., №1, 1946
107. Təhmasib M.H. Azərbaycan xalq dastanları (orta əsrlər). B., "Elm", 1972

108. Təhmasib M.H. Dastanlarımızın bir növü haqqında – Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. IV kitab, B., “Elm”, 1973 s. 3-22
109. Təhmasib M.H. İlk söz – Azərbaycan məhəbbət dastanları. B., 1979
110. Vəliyev K. Dastan poetikası. B., “Yazıçı”, 1984
111. Vəliyev V. Azərbaycan qəhrəmanlıq dastanları. B., ADU, 1980
112. Vəliyev V. Azərbaycan folkloru. B., “Maarif”, 1985

**Türk dilində**

113. Aça M. Türk Dastanlarındakı Aşerme (Yerikleme) Motifinin Destan Kahramanları Üzerindeki ve Hayvan Ata (Ecdat) İnancıyla Bağlantısı – Milli Folklor Dergisi. 1997, sayı-34, s. 78-81
114. Günay U. Aşıq Şiiri Geleneyi ve Rüya Motifi. Ankara, 1993
115. İnan A. Tarihde və Bu Gün Şamanizm. İstanbul, 1939
116. İnan A. Türk Dastanlarına Genel Bir Bakış. Ankara, 1954
117. Kafesoğlu İ. Türk Milli Kültürü. İstanbul, 1989
118. Kaya D. Mahmud ile Nigar Hikayesi Üzerine Karşılaştırmalı Bir Araştırma. Ankara, 1993
119. Köprülü F. Edebiyat Araştırmaları. İstanbul, 1989

120. Körpülü F. Türk Edebiyatında İlk Mutasavviflar. İstambul, 1992
121. Ögel B. Türk Mitolojisi. I c., Ankara, 1989
122. Önder E. Yağmur Duasından Ana Tanrıcıya – Türk Folklor Araştırmaları. Ankara, 1981
123. Seyidoğlu B. Halk Şiirlerinde Tasavvuf – «Türk Dili ve Edebiyyatı Araştırmaları» Dergisi. İzmir, 1983, №2
124. Şişman B. Halk Hikayeçiliyi Geleneğimiz Açısından «Kozi Körpeş-Bayan Sulu Yazı» Üzerine Bir Tahlil Denemesi. Milli Folklor Dergisi, 1997, sayı-35, s. 56-60.
125. Uraz M. Türk Mitolojisi. İstanbul, 1967

## Türkmən dilində

126. Türkmen xalq destanları. Aşqabat, «Türkmenistan», 1993

## Rus dilində

127. Абдулла А. Азербайджанский обрядовый фольклор и его поэтика. Б., "Элм", 1990
128. Абу-Бакр ибн Хосров ал-Устад. Мунис-наме. Перевод, примечания Р.М. Алиева. Б., «Елм», 1991
129. Афанасьев А.Н. Дерево жизни. М., "Современник", 1983
130. Бадалов Р. Правда и вымысел героического эпоса. Б., «Элм», 1983
131. Байбурин А.К. Космическая модель – Свод этнографических понятий и терминов. М., "Наука", 1991

132. Бартольд В.В. Первоначальная женщина – Бартольд В.В. Сочинения. Том-6., М., 1966

133. Басилов В.И. Избранники духов. М., 1984

134. Башкирский народный эпос. М., 1977

135. Бейлис В.А. Теория ритуала в трудах Виктора Тернера – В.Тернер. Символ и ритуал. М., «Наука», 1983, с. 7-31

136. Бертельс Е.Э.. Низами и Физули. М., Изд. Вост. Лит., 1962

137. Бертельс Е.Э. Избранные труды. Том 3. Суфизм  и суфийская литература. М.. 1965

138. Блумфилд Л. Язык. М., 1968

139. Брагинский В.И. Символизм суфийского пути в «Поэме о Море Женщинь» и мотив свадебного корабля – Суфизм в контексте мусульманской культуры. М., 1989

140. Валиханов Ч.Ч. Собрание сочинений в пяти томах. Том 1. Алма-Ата, 1985

141. Валиханов Ч.Ч. Собрание сочинений в пяти томах. Т. 4. Алма-Ата, 1985

142. Веселовский А.Н. Историческая поэтика. Л., 1940

143. Гацак В.М. Сказочник и его текст (к развитию экспериментального фольклора). М., Наука, 1975

144. Голыгина К.И. Китайская проза на пороге Средневековья: мифологический рассказ ЫЫЫ-VЫ в.в. и проблема генезиса сюжетного повествования. М., 1983

145. Гринцер П.А. Древнеиндийский эпос: генезис и типология. М., 1974

146. Гулиев Г. Этапы формирования и развития азербайджанского романа. Б., «Елм», 1984

147. Гулиев Г. Творчество Гянджеви и пути эпического повествования. Б., «Язычы», 1989

148. Гуревич А.Я. Категории средневековой культуры. М., 1984

149. Гуревич А.Я. Западноевропейские видения потустороннего мира и "реализм" средних веков – Труды по Знаковым Системам. Вып. 7, Тарту, 1987

150. Евсюков В.В. Мифы о вселенной. Новосибирск, 1988

151. Емельянов Н.В. Сюжеты якутских олонхо. М., 1980

152. Емельянов Н.В. Сюжеты ранних типов якутских олонхо. М., 1983

153. Еремеев Д.Е. Ислам. Образ жизни и стиль мышления. М, 1990

154. Жирмунский В.М. Народный героический эпос. М.-Л., 1962

155. Жирмунский В.Н. Огузский эпос и книга Коркуда – Книга моего Деда Коркуда. М.-Л., 1962

156. Жирмунский В.М., Зарифов Х.Т. Узбекский народный героический эпос. ОГИЗ. М., 1947

157. Жирмунский В.М. Тюркский героический эпос. М.-Л., 1975

158. Иванов Вяч. Вс., Топоров В.Н. Славянские языковые моделирующие семиотические системы

(древний период). М., 1969
159. Ислам. Энциклопедический словарь. М., Наука. 1991
160. История первобытного общества: эпоха первобытной родовой общины. М., "Наука", 1986
161. Каррыев Б. Эпические сказание о Кероглы у тюркских народов. М., 1968
162. Кононов А.Н. Родословная туркмен. Сочинение Абул Кази – хана Хивинского. М. – Л., 1958
163. Короглы Х. Туркменская литература. М., «Высшая школа», 1972
164. Короглы Х. Шаман, полководец, озан. Жур. «Советская тюркология», Б., 1972, №8
165. Короглы Х. Узбекская литература. М., «Высшая школа», 1976
166. Короглы Х. Введение – Тюкрменские народные повести. М., 1991, с. 9-17
167. Короглы Х.Г., Набиев А.М. Азербайджанский героический эпос. Б., «Язычы», 1996
168. Костюхин Е.А. Сказки – Свод этнографических понятий и терминов. М., «Наука», 1991
169. Котляр Е.С. Эпос народов Африки и южнее Сахары. М., 1985
170. Лебедева Ж.К. Архаически эпос эвенов. Новосибирск, 1981
171. Леви-Стросс К. Структурная антропология. М., 1985

172. Лотман Ю.М., Минц З.Г. Литература и мифология – Труды по знаковым системам. Вып. 13, Тарту, 1981

173. Маадай-Кара. М., "Наука", 1973

174. Манас. Эпизоды из киргизского народного эпоса. М., 1960

175. Мелетинский. Е.М. Происхождение героического эпоса. М., 1963

176. Мелетинский Е.М. Скандинавская мифология как система – Труды по знаковым системам. Вып. 7, Тарту, 1975, с. 37-49

177. Мелетинский. Е.М.. Поэтика мифа. М., 1976

178. Мелетинский Е.М. Средневековый роман. М., 1983

179. Мелетинский. Е.М.. Общие понятия мифа и мифологии – Мифологический словарь. М., 1990, стр. 634-640

180. Мелетинский Е.М., Неклюдов С.Ю., Новик Е.С., Сегал Д.М. Проблемы структурного описания волшебной сказки – Труды по знаковым системам. Вып. 4, Тарту, 1969

181. Миллер Б.В. Персидско-русский словарь. М., 1953

182. Мусина Г.Г. Историко-типологический анализ женских образов в узбекском народном эпосе. Автореферат докторской диссертации. Ташкент, 1960

183. Небиев А. Закономерность трансформации озанского творчество в ашыкское в новых исторических

условиях – Х.Г. Короглы, А.М. Небиев. Азербайджанский героический эпос. Б., 1996

184. Неклюдов С.Ю. Героический эпос монгольских народов: Устные и литературные традиции. М., 1984

185. Новик Е.С. Обряд и фольклор в Сибирском шаманизме. М., «Наука», 1984

186. Потапов Л.П. Культ гор на Алтае – "Советская этнография", № 2, 1946

187. Пропп В.Я. Исторические корни волшебной сказки. Л., 1946

188. Пропп В.Я. Русский героический эпос. М., 1958

189. Пропп В.Я. Морфология сказки. М., 1969

190. Путилов Б.Н. Мотив как сюжетообразующий элемент – Типологические исследования по фольклору. М., 1975

191. Путилов Б.Н. Героический эпос и действительность. Л., "Наука", 1988

192. Путилов Б.Н. Мотив – Свод этнографических понятий и терминов. М., "Наука", 1991, с. 83-85

193. Путилов Б.Н. Сюжет – Свод этнографических понятий и терминов. М.. «Наука», 1991, с. 121-123

194. Путилов Б.Н. Эпос – Свод этнографических понятий и терминов. М., «Наука», 1991, с. 162-165

195. Радлов В.В. Опыт словаря тюркских наречий. Том ы, Часть Ы, 1893; Том ыыы, Часть ыы, 1899

196. Радлов В.В. Опыт словаря тюркских наречий. Том ЫV, Часть ЫЫ. С.-Пб., 1911

197. Рашидаддин Ф. Сборник летописей. Т. Ы-ЫЫ, М., - Л., 1952

198. Рузибаев С. Специфика, типология и поэтика Хорезмский дастанов. Автореферат докторской диссертации. Ташкент, 1991

199. Суразаков С.С. Алтайский героический эпос. М., «Наука», 1985

200. Тернер В. Символ и ритуал. М., «Наука», 1983

201. Токарев С. Ранние формы религии и их развитие. М.. «Политиздат», 1964

202. Топоров В.Н. О структуре некоторых архаических текстов, соотносимых с концепцией мирового дерева – Труды по знаковым системам. Тарту, 1971

203. Топоров В.Н. О космологических источниках раннеисторических описаний – Труды по знаковым системам, Тарту, 1973

204. Традиционные мировоззрения тюрков южной Сибири: пространство и время. Вещный мир. Новосибирск, 1988

205. Тримингем Дж.С. Суфийские ордены в исламе. М., «Наука», 1989

206. Тюркменские народные повести. М., «Наука», 1995

207. Улагашев Н.У. Алтай-Буучай – Ойротский народный эпос. Новосибирск, 1941, с. 79-126

208. Фрезер Дж.Дж. Золотая ветвь. М., 1980

209. Фрейденберг О. Миф и литература древности. М., «Наука», 1978

210. Халипаева И. Мифологическая проза кумыков. Исследования и тексты. Махачкала, 1994

211. Чистов К.В. Народные традиции и фольклор. Ленинград, «Наука», 1986

212. Шасенем и Гарып, Касым оглан и другие туркменские народные повести. М., «Наука», 1991

213. Штернберг Л.Я. Первобытная религия в свете этнографии. Л., 1936

214. Щербак А.М. Огузнаме. Мухаббет-наме. Памятники древнеуйгурской и староузбекской письменности. М., 1959

215. Якубова С. Азербайджанское народное сказание «Ашиг Гариб». Б., «Элм», 1968

# MÜNDƏRİCAT

**Professor Məhərrəm Cəfərli: şəxsiyyət və milli yaddaş** ***(S.Rzasoy, R.Babayev)*** **.............................3**

**GİRİŞ..................................................................13**

**I FƏSİL**
Məhəbbət dastanlarının poetik strukturu və süjet semantikası .....................................................23

**II FƏSİL**
Məhəbbət dastanı obrazlarının struktur poetikası.......126

**III FƏSİL**
Məhəbbət dastanı şeirinin poetik-üslubi strukturu...... 206

**IV FƏSİL**
Arxaik dastan motivlərinin epik-mifoloji semantikası..276

**V FƏSİL**
Dastan strukturunda ilkin stixiyalarla bağlı arxetiplər.....**322**

**VI FƏSİL**
Dastan strukturunda Yaxşı-Yaman semantik modeli ……………………………………………**349**

**NƏTİCƏ** ……….……………………...…….………..**382**
**ƏDƏBİYYAT**……………………………....………..………**391**

Kompüter M rk zind  yığılmış, “Nurlan” NPM-d
ofset üsulu il  çap olunmuşdur.